AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI

## XII kitab

## (ZƏNGƏZUR FOLKLORU)

BAKI – “SƏDA“ – 2005

**Az**
**A-39**

Azərbaycan MEA
Folklor İnstitutunun
Elmi Şurasının qərarı ilə çap olunur

**TOPLAYICILAR:** **f.e.d. Vəli NƏBİOĞLU**
**f.e.n. Muxtar KAZIMOĞLU**
**f.e.n. Əfzələddin ƏSGƏR**

**TƏRTİB EDƏNLƏR:** **Əfzələddin ƏSGƏR**
**Muxtar KAZIMOĞLU**

**ÖN SÖZÜN MÜƏLLİFİ:** **Əfzələddin ƏSGƏR**

**REDAKTORU:** **f.e.d. Hüseyn İSMAYILOV**

**RƏYÇİLƏR:** **f.e.n. Təhmasib FƏRZƏLİYEV**
**f.e.n. Oruc ƏLİYEV**

**NƏŞRİNƏ MƏSUL:** **f.e.n. Əziz ƏLƏKBƏRLİ**

**Azərbaycan folkloru antologiyası, XII kitab (Zəngəzur folkloru),** Bakı, "Səda" nəşriyyatı, 2005.

Azərbaycan MEA **Folklor İnstitutunun** nəşr etdiyi "Azərbaycan folkloru antologiyası" silsiləsindən olan bu cildə **Zəngəzurdan** toplanmış folklor nümunələri daxil edilmişdir.

**ISBN-586874-032-7**

**©"Səda" nəşriyyatı, 2005**

# ÇOXCİLDLİ "AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI"NIN (AFA) NƏŞR OLUNMUŞ KİTABLARI

1. **AFA, I.** Naxçıvan folkloru, tərtib edənlər: Tə□masib Fərzəliyev, Mə□ərrəm Qasımlı, elmi redaktoru və “Ön söz“ün müəllifi İsrafil Abbasov, rəyçilər: Vəli Əliyev, Bə□lul Abdulla, Bakı, “Saba□“ nəşriyyatı, 1994.

2. **AFA, II.** İraq-Türkman folkloru, tərtibçilər: filologiya elmləri doktoru, professor Qəzənfər Paşayev, doktor Əbdüllətif Bəndəroğlu, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri doktoru, professor Azad Nəbiyev, filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, Bakı, “Ağrıdağ“ nəşriyyatı, 1999.

3. **AFA, III.** Göyçə folkloru, toplayıb tərtib edəni, Hüseyn İsmayılov, redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: fiollogiya elmləri doktoru, professor Qara Namazov, filologiya elmləri namizədi Oruc Əliyev, Bakı, “Səda“ nəşriyyatı, 2000.

4. **AFA, IV.** Şəki folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Oruc Əliyev, Hikmət Əbdül□əlimov, Ramazan Qafarov, Vaqif Aslan, elmi redaktoru və “Ön söz“ün müəllifi filologiya elmləri doktoru, professor Yaşar Qarayev, rəyçilər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, sənətşünaslıq namizədi Faiq Çələbi, Bakı, “Səda“ nəşriyyatı, 2000.

5. **AFA, V.** Qarabağ folkloru, toplayanlar: İsrafil Abbaslı, Tə□masib Fərzəliyev, Nəcəf Nazim (Quliyev), tərtib edəni və “Ön söz“ün müəllifi filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, redaktorları: filologiya elmləri doktoru, professor Yaşar Qarayev, filologiya elmləri namizədi, dosent Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri doktoru Bə□lul Abdulla, filologiya elmləri namizədi Oruc Əliyev, “Bakı“, “Səda“ nəşriyyatı, 2001.

6. **AFA, VI.** Şəki folkloru, tərtib edəni: Hikmət Əbdül□əlimov, elmi redaktoru filologiya elmləri doktoru, professor Yaşar Qarayev, “Ön söz“ün müəllifi sənətşünaslıq namizədi Faiq Çələbi, rəyçi filologiya elmləri namizədi Hüseyn İsmayılov. Bakı, “Səda“ nəşriyyatı, 2002.

7. **AFA, VII.** Qaraqoyunlu folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Qurban Süleymanov, elmi re-

daktoru filologiya elmləri doktoru, professor Qara Namazov, rəyçilər, filologiya elmləri doktoru İsrafil Abbaslı, filologiya elmləri namizədi Oruc Əliyev. Bakı, "Səda" nəşriyyatı, 2002.

8. **AFA, VIII.** Ağbaba folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Tacir Qurbanov, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçi filologiya elmləri namizədi Əziz Ələkbərli, Bakı, "Səda" nəşriyyatı, 2003.

9. **AFA, IX.** Gəncəbasar folkloru, tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, Raziyə Quliyeva, redaktoru filologiya elmləri doktoru, professor İsrafil Abbaslı, rəyçilər filologiya elmləri namizədi Sərxan Xavəri, Ağaverdi Xəlil, Bakı, "Səda" nəşriyyatı, 2004.

10. **AFA, X.** İrəvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri namizədi Hüseyn İsmayılov, filologiya elmləri namizədi Əziz Ələkbərli, redaktoru prof. İsrafil Abbasov, rəyçilər: AMEA-nın müxbir üzvü Teymur Bünyadov, prof. Qara Namazov.

11. **AFA, XI.** Şirvan folkloru, toplayıb tərtib edənlər: filologiya elmləri doktoru Hüseyn İsmayılov, filologiya elmləri doktoru Seyfəddin Qəniyev, redaktoru filologiya elmləri doktoru Hüseyn İsmayılov, rəyçilər: filologiya elmləri Oruc Əliyev, Ağaverdi Xəlil.

## *R E D A K T O R D A N*

***Bu kitabda çap olunan folklor materialları ana yurdumuzun bir parçası olan Zəngəzur bölgəsindən toplanmışdır. Zəngəzur bölgəsi şərqdən Qarabağ, qərbdən Naxçıvan, cənubdan Arazla əhatə olunur. Onun bir hissəsi (Qafan, Gorus, Sisyan) 1920-1921-ci illərdə Qırmızı Rusiyanın əli ilə Ermənistana verildi və o vaxtdan Zəngəzur iki yerə parçalandı. 1988-ci ildən sonrakı taleyini isə təsvir etməyə xüsusi ehtiyac yoxdur. Kitabdakı folklor örnəkləri Zəngəzurun və zəngəzurluların taleyini güzgü kimi göstərir. Qaçqının və köçgünün ruhunda nə varsa, hamısı bu mətnlərdə ifadə olunur. Bu mənada "xalq heç kimə demədiyi dərdini öz folkloruna deyir" kəlamı bir daha özünü doğruldur. Nəinki son dövrlərin, hətta XX əsrin əvvəllərində baş verən hadisələr bu mətnlərdən qırmızı xətlə keçir. Beləliklə, xalq heç kimə etibar etmədən öz tarixini yaradır.***

***Maraqlıdır ki, Zəngəzur şivəsi və folkloru həmsərhəd olduğu Azərbaycan bölgələrinin şivə və folklor özəlliklərini özündə yaşadır. Burada Qarabağ, Naxçıvan, Basarkeçər, Göyçə şivəsinin və folklorunun ruhunu müşahidə etmək mümkündür. Kitabda çap olunmuş mətnlərin şivə xüsusiyyətləri və məzmunu belə bir qənaətə gəlməyə imkan verir. Bununla yanaşı, Zəngəzur folkloru mövzu və məzmun baxımından bu bölgənin coğrafiyası və cəmiyyəti ilə o qədər qaynayıb-qovuşub ki, bu folklor bölgədən təcrid olunsa, anlaşılmaz hala gələ bilər. Əfsanələr, rəvayətlər, pirlər, ocaqlar və yalnız bu bölgədə qorunan arxaik mifoloji personajlar və inamlar Zəngəzurun özünəməxsus bir folklor mühiti olduğunu göstərir.***

***Cəbrayıl rayonu tarixən Zəngəzur bölgəsinə daxil olmamışdır. Ancaq kitaba Cəbrayıl bölgəsindən toplanmış folklor örnəkləri də daxil edilmişdir. Nə etmək olar? Bəzən folklorun coğrafiyası inzibati ərazinin coğrafiyasından böyük və yaxud kiçik ola bilir. Bizim nəşr etdirdiyimiz folklor antologiyalarında inzibati ərazilərin adı şərti xarakter daşıyır. Folklorumuzun öz coğrafiyası var. Bu coğrafiya bölgə folklorunun özünəməxsusluğu ilə hüdudlanır. Nə edəsən ki, Sarı Aşıq haqqında rəvayətlərin və onun bayatılarının bir hissəsi Qubadlı, Laçın, başqa bir hissəsi Cəbrayıl rayonundan toplanır və ya bir əfsanənin, nağılın, lətifənin, bayatının bir variantı Qubadlı, başqa variantı Cəbrayıl rayonundan toplanır. Belə hallar folklorçunu folklor coğrafiya-***

***sının hüdudlarını genişləndirməyə məcbur edir. Bunun əksinə olan hallar da istisna olunmur. Əslində bizim bölgə folklorunu toplayıb nəşr etməkdə məqsədimiz Azərbaycan folklorunun coğrafiyasını yaratmaqdır. "Folklor atlası" adlandırılan bu işin görülməsi folklorumuzun tipoloji xüsusiyyətlərinin öyrənilməsi, ümumiyyətlə, folklorumuzun ümumi mənzərəsini görmək üçün əsas olacaq. Ona görə də bölgə folkloru antologiyalarının nəşrini bölgəçiliklə əlaqələndirən adamların bu yöndəki iddiaları boş cəfəngiyyatdan başqa bir şey deyil.***

***Kitabda verilən mətnlərin əksəriyyəti zəngəzurluların öz yurdunda-yuvasında olduğu illərdə toplanıb. Toplayıcılar bəlanın yaxınlaşdığını hiss edərək son anda fürsəti əldən verməyiblər. 1988-1990-cı illər arasında toplanan folklor mətnləri bir daha bu şəkildə təkrar olunmayacaq. Ona görə yox ki, zəngəzurlular daha öz ocaqlarına dönməyəcəklər. (Onların doğma yurd-yuvalarına qayıdacaqlarına bizim heç bir şübhəmiz yoxdur). Ona görə ki, yurd-yuvalarına dönmüş zəngəzurlular bir də bu mətnləri 1988-1990-cı illərdə dedikləri kimi təkrar edə bilməyəcəklər. Folklor mətni axar suya bənzəyir. Onu bir daha olduğu kimi təkrar etmək olmaz. Bununla yanaşı, öz yurd-yuvalarına qayıdan zəngəzurluların yaddaşından qaçqınlıq xatirələri uzun müddət silinməyəcək və onların danışdığı folklor mətnlərində, son dövrlər toplanan folklor mətnlərində olduğu kimi, bu xatirələr bu və ya başqa şəkildə özünü göstərəcək. Əgər zəngəzurluların (və öz yurd-yuvasından didərgin düşmüş bütün qaçqınların) öz yurd-yuvalarına qayıdışı uzun sürərsə və yaşlı nəsil sıradan çıxarsa, onda zəngəzurlular ana yurdu yenidən doğmalaşdırmaq məcburiyyətində qalacaqlar. Bu zaman bu dağı, bu təpəni, bu dərəni, bu bulağı, bu piri necə adlandırmaq məsələsində çətinliyə rast gələcəklər. Bu zaman bu kitabda verilən mətnlər "köhnə dünyanın" yaddaşı rolunu oynaya bilər. Acı da olsa, gerçəklikdən yayınmaq olmaz.***

***Kitab bizi Zəngəzurun təbiəti, ab-havası, mənəvi dünyası ilə tanış edir. Orada olan ocaqlarımızı, pirlərimizi-and yerlərimizi ziyarət edirik. Nənələrimizin, babalarımızın danışdığı və oxuduğu nağıllara, bayatılara qulaq asırıq. Ana yurdumuzun bir parçası olan Zəngəzurla bir daha tanış oluruq.***

***Kitabda verilən mətnlərin əksəriyyətində bölgə şivələri qorunmaqla, şifahi nitqin bir çox xüsusiyyətləri saxlanıb. Folklor***

*mətnlərinin təbiiliyi Zəngəzur ruhunun "diriliyini" mühafizə edir. Bu baxımdan, tərtibçilərin işi təqdir olunmağa layiqdir.*

* * *

*Oxuculara təqdim olunan bu kitabdan da göründüyü kimi, Zəngəzur bölgəsində mifoloji rəvayətlər, əfsanələr və inanclar geniş yayılmışdır. Ümumiyyətlə, belə demək mümkündür ki, sözü gedən mühitin populyar janrlarını mifoloji rəvayətlər, əfsanələr və mifoloji-fantastik elementlərlə zəngin nağıllar təşkil edir. Bunlardan mifoloji rəvayətlərin böyük qisminin memuar-xatirə xarakteri daşıması diqqət çəkir. Xalq arasında bu tip söhbətlər "başagəldi", "əhvalat" və s. kimi adlar daşısa da, bu da onların elmi təsnifatı üçün tam yetərli deyil. Bu tip, yəni xalq inanclarına söykənən, birinin öz başına gəldiyi və ya eşitdiyi kiçik həcmli mətnlər, məsələn, qonşu rus folklorşünaslığında "bıl", "bıvalşina", "bılinka", "pobıvalşina" kimi adlar altında kvalifikasiya edilmişdir. Hekayəçi-informatorun və ya onun yaxın adamının başına gələn əhvalatlar, adətən, "bılinka" janrı çevrəsinə aid olunur. Sibirin, Altayın türk xalqlarında şaman söhbətləri, başagəldiləri "yom", "nom" və s. adlar daşıyır ("Kitabi-Dədə Qorqud"dakı "yum"la müqayisə et!).*

*Bizim folklorşünaslıqda da bu məzmunlu folklor örnəklərinin geniş toplanması, elmi ictimaiyyətə çatdırılması gələcəkdə onların janr spesifikasını qəti müəyyən etmək və elmi kvalifikasiyasını aparmaq üçün xüsusi əhəmiyyət daşıyır. Zəngəzurdan toplanmış mifoloji mətnlər ucıbılıx, təkgöz div, qaraçuxa, virğın, hal (albastı), kaftarkuş kimi Azərbaycan folklorşünaslığında az öyrənilmiş və ya heç öyrənilməmiş obrazlarla zəngindir. Bunların içərisində daha çox mətnlər qaraçuxa ilə bağlıdır. Qaraçuxanın bir mifoloji obraz kimi semantikası Azərbaycan folklorşünaslığında və mifologiyasında öyrənilməmişdir. Son zamanlar Folklor İnstitutunun təşkil etdiyi ekpedisiyalarda bu obrazla bağlı çoxlu mətnlər (mifoloji mətnlər, nağıllar, inanclar) qeydə alınmışdır. Bu mətnlər sözü gedən obrazın mifoloji düşüncəmizdə yerini müəyyənləşdirməyə imkan verəcək. Bu örnəklərin əksəriyyətində, profanasiyaya məruz qalmasına baxmayaraq, qaraçuxa əski bir tale, bəxt tanrısının cizgilərini daşıyır:*

*"Qaraçuxa insanın talehidi. Əyər qaraçuxan dihdisə, sənin nə işin varsa, yaxşı olacax. Allah eləməmişdən, qaraçuxan yatdı,*

***hər işin yatdı.***

***Qaraçuxa övleyadı. Qaraçuxa evin astanasında durar. Amma gözə görünməz. Evin astanasına çatdın gərək salam verəsən qaraçuxaya. Çünki evin içində məleykələr var. Evdən çıxanda da qaraçuxaya salam verib gedirsən. Deyillər ki, filankəsin Qaraçuxası dik durur, yəni ona heç nə olmaz".***

***Qədim mənbələrin məlumatlarından bilirik ki, türk tayfalarında tale tanrısı funksiyasında Yol tanrısı vardı. VII əsrin Alban tarixçisi Musa Kalankatuklu xəzərlərin dinindən bəhs edərkən "naməlum yollar ilahəsinə" tapındıqlarını qeyd edib.****

***"Irk bitik" də ("Fal kitabı") bu tanrı Ağ yol tanrısı və Qara yol tanrısı kimi ikili ipostasda çıxış edir. Türklər üçün "yol"un semantik tutumunun "tale", "bəxt", "qismət" anlamını ehtiva etməsi indi də Azərbaycan xalq danışıq dilində "qara yola gəldim", "yolun açıq olsun" və s. kimi ifadələrdə, "Yolçu" şəxs adında qorunub qalmaqdadır.***

***Azərbaycan folklorunda (elə də qonşu türk xalqlarının folklorunda) Xızırın (Xıdır İlyas) yollarda azmış insanları xilas edərək evinə və ya sevgilisinə yetirməsi motivi çoxsaylı folklor mətnlərində, xüsusən də dastanlarda və nağıllarda yer almaqdadır. Ehtimal etmək olar ki, Xızır obrazı sonradan qədim türk bəxt, həyat verən, taleləri müəyyən edən Yol tanrısının əsas cizgilərini əxz etmişdir və bu obrazlar bir mifoloji obrazın – Qaraçuxanın Tanrıçılıq və İslam mərhələlərində rəsmi dini səviyyədə "tanınan" paradiqmatik törəmələridir.***

***Zəngəzur bölgəsi əski inam və ayinlərin son dövrlərədək çox az deformasiya olunaraq qorunub saxlandığı mühitlərdəndir. İbtidai təfəkkürə bağlanan, nəsildən-nəsilə ötürülərək günümüzədək gəlib çatan inamlar mifologiyamızın birsıra məsələlərini öyrənmək üçün zəngin informasiya daşıyır:***

***Dağdağan, saqqız ağacını kəsməh günahdı.***

***İlan qabağaa çıxanda səfər uğurlu olar.***

***İt ulayanda gərəh evdən bir şey çıxarasan ki, evə, uşaqlara ziyan dəyməsin.***

***Axşam evi süpürməzdər, evdən zibil atmazdar, evin bərəkəti qaçar.***

-------------------

* M.Kalankatuklu. Albaniya tarixi. Mxitor Qoş. Alban səlnaməsi. Bakı, "Elm", 1993, s.156.

*Toya qara qoyun, qara inəh kəsməzdər və s.*

*"Tas qurma", "vergi alma", "ağır seyidlər"lə bağlı rəvayətlərdə qədim türklərin əski dinləri olan şamanizm və Tanrıçılıq dövründən qalan, İslam dinindən xaric ritualların elementləri mövcuddur:*

*"Bir nəfər qadın dəli olmuşdu. İbrahimin nənəsi deyirdi ki, gözümnən gördüm. Muradnan Molla Tağı tas qurdular. Murad görücüydü. Molla Tağı da tas qururdu. Deyir, bu molla qaba vururdu cinnəri adıynan çağırırdı. Murad da deyirdi ki, filan cin gəldi, o birisi gəldi, bı birisi gəldi. Deyir ki, cinnərin içərisində bir axsağı var. Arvad şəklində, o gəlmir. Molla da Quran ayələrinnən oxuyub, o cinə qarğış tökürmüş. Deyirmiş ki, molla, budu, gəlir. Vahiməsi basır məni. Molla deyirmiş ki, qorxma.*

*Deyilənə görə, həmən adamı dəli eliyən cinnəri gətirə bilsəymiş, o adam sağalarmış".*

*Mətndən göründüyü kimi, burada İslam dini elementlərinin əlavə edilməsinə baxmayaraq, ayinin icra texnikası şamanların xəstəni müalicə etməsi ayini ilə tam eyniyyət təşkil edir.*

*Zəngəzur həm də pir və ocaqların, xalqın daim tapınaq, sakral saydığı müqəddəs ziyarətgahların çox yer aldığı bir bölgədir. Yerli pirlərin, ocaqların içərisində təbiət obyektlərinin – daşlar, ağaclar, dağ zirvələri, bulaqlar, arxlar və s. üstünlük təşkil etməsi arxaik inamların bölgə əhalisinin dini təsəvvürlərində hələ fəal yer tutmasından xəbər verir. Qədim türk inamlarına bağlı, Sibirdən Kiçik Asiyayadək yayqın bu tipli tapınaqların Zəngəzurda funksionallığı və çoxluğu bölgənin ucqar dağlıq ərazi kimi nisbi izolyasiyası və əhalinin ənənəvi məişətinin uzun müddət sabit qalmasına bağlıdır. Təsadüfi deyil ki, təbiət obyektləri olan pirlərin əksəriyyəti köçəbə həyat tərzi keçirən tərəkəmələrin periodik ziyarətə gəldikləri yerlərdir.*

*Zəngəzur folklorunun epik janrları içərisində lətifələr xüsusi populyarlığı ilə seçilir. Bu lətifələrin əsas qəhrəmanlarını Azərbaycan xalq gülməcələrinin məşhur obrazları olan Molla Nəsrəddin və Bəhlul Danəndə ilə yanaşı, Şah Abbas, Kəlniyyət, Molla Cavad və "kənd kişiləri" təmsil edirlər.*

*Zəngəzur lətifələrinin böyük qismində "anti qəhrəman" obrazında və ya tənqid obyekti kimi qonşu etnosun təmsilçisi ("erməni", "keşiş" və s.) çıxış edir.*

*Digər qism lətifələrdə tərəf-müqabil kimi Şah Abbas və onun*

***xidmətçisi Kəlniyyət çıxış edirlər. Bəlli olduğu kimi, Kəlniyyət obrazı Azərbaycan xalq gülüşünün – lətifə və qaravəllilərin ən populyar qəhrəmanlarından biri olmuşdur. Vaxtilə, görkəmli folklorşünas Hənəfi Zeynallı onu Molla Nəsrəddin və Bəhlul Danəndə ilə bir səviyyədə lətifə qəhrəmanı kimi dəyərləndirmişdir: "...Nağıllardan başqa bir də xalqın psixologiyasını, əsəblərini dincəldəcək, gülünc hekayələr, qaravəllilər (anektod) söyləyən Molla Nəsrəddin, Kəlniyyət, Bəhlul, İncili-Dərviş kimi simalarımız vardır"****

***Kəlniyyətlə bağlı lətifələr hazırda Zəngəzurdan əlavə, az qismdə də olsa, Şirvan və Muğanın bəzi bölgələrində yaşamaqdadır.***

***Yəqin ki, XX əsrin əvvəllərində adı ilə bağlı "Kəlniyyət" jurnalının çap olunduğu bu obrazın semantikasını öyrənmək üçün təqdim olunan lətifələr tədqiqatçılara əlavə materiallar verəcəkdir.***

***"Bir gün Şah Abbasın vəziriynən Kəlniyyətin sözü çəp gəlir. Şah Abbasın Kəlniyyətə acığı tutur. Əmr eliyir ki, gejə onu soyunduruf qoysunnar çöldə. Qış vaxtıymış. Kəlniyyət də qollu-biləhli bir sərkərdəymiş. Gejə Kəlniyyəti soyunduruf qoyullar çölün düzündə. Kəlniyyətin soyuxdan az qalır canı çıxsın. Baxır özgə əlacı yoxdu, başdıyır böyüh bir qəya varmış, onnan hölləşməyə. Səhərətən hölləşir. Səhər gəlif görüllər ki, Kəlniyyət sağ salamat özü də qan-tərin içində. Şah Abbasa xəbər eliyillər. Şah bu işə mat qalır, deyir ki, gətirin yanıma. Şah Abbas Kəlniyyətdən soruşur ki, bə nətər oldu donmadın?***

***Deyir:***

***– Şah Abbas sağ olsun, gəldim çıxdım sizin damın üstünə, bajadan çıxan tüstüynən qızındım, ona görə donmadım, hələ tərrəmişəm də. Yaman isti olur.***

***Şah Abbas inanmır, yoxlamaqdan ötrü gejə vəziri çıxardır damın üstünə. Səhər baxıf görüllər ki, vəzir donuf".***

***Burada qeyd etməyə dəyər ki, məşhur gülüş qəhrəmanı kimi tanıdığımız Bəhlul Danəndə obrazı Zəngəzur folklorunda həm də tam fərqli ipostasda çıxış edir.***

***Əski epik mətnlərdə Oğuz Ataya, Dədə Qorquda aid edilən ilkin advermə funksiyasının Zəngəzurdan qeydə alınan folklor mətnlərində Bəhlul Danəndəyə şamil edilməsi onun "ata" statusunda məhəlli səciyyə daşıyan təqdimini ortaya çıxarır:***

----------------------

* H.Zeynallı. Xalq ağız ədəbiyyatı – H.Zeynallı. Seçilmiş əsərləri. B., "Yazıçı", 1983, s.239.

*“Belə danışıllar ki, Bəhlul Danəndə dünyadakı şeylərə ad verirmiş. O deyib ki, mən üç adı düz qoymamışam. Gərəh,*

*İyniyə tikən deyəydim,*
*Ayrana doyran deyəydim.*
*Gəlinə ayran deyəydim”.*

*Zəngəzur aşıqlığının Azərbaycan aşıq mühitləri içərisində xüsusi, seçilə bilən yeri olmasa da, XVII əsrin böyük saz-söz ustası Sarı Aşığın bu bölgədə yaşayıb-yaratması Zəngəzurda aşıq sənətinin qədim və nüfuzlu keçmişindən soraq verir.*

*Sarı Aşığın bayatı yaradıcılığı, özündən sonra XVIII əsr şairlərindən Saleh, Məzlum, Hüseyni və başqalarının sənətkarılığına güclü təsir göstərmişdir. Bu kitabda Sarı Aşıqla bağlı xalq arasında dövrümüzədək gəzib-dolaşan çoxsaylı rəvayətlər, əfsanələr və bayatılar cəmlənmişdir. Rəvayətlərdə Sarı Aşığın tərəkəmələrin duası ilə "haxdan yaranması" (digər variantda "daşdan yaranması") – qeyri-adi doğuluşu, "Haqq aşığı" statusu, baxıcılıq qabiliyyəti və başqa magik keyfiyyətlərin daşıyıcısı obrazında təqdimi göstərir ki, Göyçədə olduğu tək Zəngəzur kimi etnik-mədəni arealın mərkəzdən və siyasi nüfuzdan kənar periferik məkanında, bizim milli mədəniyyətimiz tarixində tərəkəmə-elat adıyla keçən, əski xalq ənənələrini mühafizəkar şəkildə qoruyan mühitlərində aşığın statusu, rolu və funksiyası həm kəmiyyətcə, həm də keyfiyyətcə daha böyük, daha miqyaslı və daha dolğun olub. Sarı Aşığa aid edilən bayatılarda Vətənə, yurda vurğunluq, saf məhəbbət kimi ülvi hisslərin poetik ifadəsi ilə yanaşı, aşıqlığın ideya əsaslarından qaynaqlanan öyüd-nəsihət, mənəvi təkamül məzmunu da əsas yer tutur:*

*Mən aşıx, tərsinə qoy,*
*Tər təni tərsinə qoy.*
*Yaxşının qibləsinə,*
*Aşığı tərsinə qoy.*

*Mən aşıq, vətən sarı,*
*Köynəyi kətan sarı.*
*Gəzməyə qürbət ölkə,*
*Ölməyə vətən sarı.*

*Aşıx gedər hər yana,*
*Sözün deyər mərdana.*

*İyidə ürəh verər,*
*Bəd ayaxda mərd ana.*

*Mən aşıx yüz qandı,*
*Əlli qandı, yüz qandı.*
*Kəbə yıxmaq bir əvdi,*
*Köyül yıxmaq yüz qandı.*

***Topluda Zəngəzurun aşıq və el şairlərindən Çoban Əli, Şıx Məmməd, Şair Abış, Uzun Əsəd, Qarğaşlı Süleyman, Şair Məmməd və digərlərinin də yaradıcılığından örnəklər təqdim edilib. Qeyd etmək istərdik ki, bu nümunələrin əksəriyyəti ilk dəfədir ki, çap olunur.***

***Zəngəzurda qeydə alınmış poetik örnəklərin əsas qismini bayatı və ağılar təşkil edir. Erməni təcavüzkarlığının ağrı-acılarını görmüş, qırğın və talanlara məruz qalmış, əhalisi didərgin düşmüş bölgələrimizdən olan Zəngəzurun bayatı və ağılarında xalqın məşəqqəti, dövrdən, zamanədən şikayəti, ah-naləsi öz əksini tapıb:***

*Əzizim, əkəm bağı,*
*Əl gəlmir əkəm bağı.*
*Bir oğlum şəhid oldu,*
*Sinəmə çəkdi dağı.*

*Aman fələk, dad fələk,*
*Heç olmadım şad, fələk.*
*Əv bizim, əvlad bizim,*
*Burda gəzir yad, fələk.*

***Sözsüz ki, bu kitabda təqdim olunan folklor örnəkləri Zəngəzurun folklor xəzinəsini tam əhatə etmir. Lakin toplanmış mətnlər bölgə folklorunun əsas janrları, folklor obrazları, etnoqrafiyası haqqında ətraflı təsəvvür yaratmaqla mühitin lokal-regional səciyyəsini ortaya çıxarmağa imkan verir. Bunlar isə elmi araşdırmalar üçün əhəmiyyətli informasiya mənbəyi olmaqdan əlavə, folklor həvəskarlarının estetik tələbatını ödəməyə, yeni nəslin əcdadlarımızın sirli-sehrli dünyası ilə yenidən təmas qurmasına və bu təmasdan faydalanmasına kömək edəcəkdir.***

***Hüseyn İSMAYILOV***

# Ö N   S Ö Z

**"Klassik" folklorun bu günü və müasir folklor.** "Klassik" folklor "arxaik" və "müasir" folklorun arasında dayanır. "Arxaik" folklorun əsası ən qədim mifologiya, şamanizm tipli sistemdirsə, "klassik" folklor qəbilə münasibətlərinin, tayfa birliklərinin dağılması və ilkin dövlətlərin meydana gəlməsi, uruqdan ailəyə keçid, dövlət şüurunun yaranması şəraitində inkişaf edir... Arxaik ənənədə janr sistemi dini mərasimlərin vəziyyətləri ilə, mərasimləşdirilmiş gerçəkliklə, mifoloji təfəkkürün strukturları ilə şərtlənir və onlardan ayrılmazdır...” "Arxaik" folklorun "müəyyənləşdirici əlamətləri poetika və mətnlərin struktur sferasında deyil, həm “magik”, həm də “lirik” poeziyanın ritual-mərasim köklərindədir... "Klassik" ənənədə folklorun ritual-mifoloji kontekstdən emansinasiyası müşahidə olunur və əvvəlkindən daha çox o, söz sənətinin qanunları ilə inkişaf edir. Bu isə öz növbəsində, xüsusi janr məkanının formalaşmasına gətirib çıxarır. "Arxaik" ənənələrlə müqayisədə "klassik" ənənənin əsl qazancı janr yaradan amil kimi təxəyyülə meydan verməsidir". "Klassik" ənənə mərasimdən tamam üzülüşmür. Bu folklorun hələ də mərasimlə bağlılığı müşahidə olunur.[1]

Yuxarıda qısa şəkildə əlamətləri göstərilən və qədim dövrlərdən günümüzə qədər yaşayan "klassik" folklordur. Bu günə qədər toplanmış və nəşr olunmuş folklor örnəklərinin əksəriyyəti "klassik" folklora məxsusdur. "Klassik" folklorun hər bir örnəyi əzizdir. Ona görə ki, bu folklora məxsus örnəklər bizi keçmişimizə aparır və ya keçmişdə olmuş öz dünyamızın yadigarlarıdır. Keçmiş dünyamız haqqında folklor örnəkləri yalnız "o zaman" yaranıb və "o zaman" haqqında olan folklor mətnləri bir daha yaranmayacaq. Bunu ona görə vurğulayırıq ki, "klassik" folklor gözümüzün qarşısında yoxa çəkilir. Nəinki söyləyici və ya ifaçı (ravi, naqqal) məktəbləri sıradan çıxıb, hətta tək-tük professional söyləyicilərə də təsadüf etmək, demək olar ki, mümkün deyil. Biz 1988-1990-cı illərdə folklor səfəri zamanı bir nəfər də olsun professional söyləyiciyə rast

----------------

1. С. Ю.Неклюдов: Устные традиции современного города: смена фольклорной парадигмы, – Иследования по славянскому фольклору и народной культуре, 1999, с. 77-89

gəlmədik. Ravilər və naqqallar, sayaçılar, xalq müğənniləri, xalq aktyorları (hoqqabazlar, şəbihkərdanlar) və s. artıq yoxdur. Tək-tük hallarda ağıçılara (ağı deyənlər, bayatı çəkənlər, mərsiyəçilər) təsadüf etmək olur. Bu bir sirr deyil ki, ən populyar söyləyici tipi olan aşıq belə gözümüzün qarşısında iflasla üz-üzədir. Bir çox aşıqlarla şəxsi söhbətlərimizdən aydın oldu ki, onlar çoxdandır ki, hər hansı bir məclisdə bir dastanı əvvəldən axıra qədər ifa etməyiblər. Bunun tək bir səbəbi dastan auditoriyasının yoxa çıxmasıdır.

İfa olunmayan dastanın unudulması prosesi başlayır. Aşıq dastanı unutmamaq üçün (unudulmaması üçün yox) yazıya köçürdür. Ümid edir ki, dastan ona nə vaxtsa lazım ola bilər. Birdən onun ifasına zərurət yaranar. İşdi əgər olsa, şagirdi (şəyirdi) öyrətmək məqsədilə "yaddaş dəftərindən" istifadə edər. Yaxud da başqa bir aşığa və ya folklorçuya sata bilər, öz yaxınlarına miras qala bilər və s. Bunları sadalamaqda məqsədimiz "klassik" folklorun bu gününü qabartmaqdır. Qeyd etdiyimiz kimi, aşığın vəziyyəti yuxarıda sadaladığımız professional folklor ifaçılarından çox-çox yaxşıdır. Nağıl söyləyiciləri olan ravilər, naqqallar, dərvişlər xatirələrdən belə silinib. Nağıl məclisləri haqqında heç bir təsəvvür yoxdur. Yaxşı nağıl biliciləri haqqında xatirələr isə professionallara aid deyil. Bu xatirələrdə söhbət həvəskar bilicilərdən gedir. Sayaçılar haqqında xatirələr yaşlıların hafizəsində yaşayır. Xalq mahnılarının biliciləri də (əsas etibarılə, qavalla toylarda oxuyan qadınlar) bu qəbildəndir.

Mərasimlər və mərasimlərlə bağlı olan xalq tamaşaları (kosa, qodu, şahbəzəmə, Xıdır Nəbi, şəbih, saya və s.) dövriyyədən çıxıb və ya çıxmaq üzrədir. Molla Nəsrəddin və Bəhlul Danəndə ilə bağlı klassik lətifələr öləziməkdədir. Bu öləzimə söyləyicilərin repertuarında onlar haqqında lətifələrin az yer tutmasında özünü büruzə verir. Onların yerini yeni lətifə qəhrəmanları tutmaqdadır.

Folklorumuzun bayatı, layla, atalar sözü, and, alqış, qarğış, mifoloji inanış, yasaq, sınama, tapmaca, sicilləmə, xatirə kimi janrları xoşbəxtlikdən hələ də özünün aktivliyini saxlamaqdadır. Müxtəlif tapınaqlarla, mifoloji təsəvvürlərlə bağlı əfsanələr və rəvayətlər zəif də olsa yaddaşlarda yaşamaqdadır. Əxlaqi baxımdan geniş auditoriyada deyilməsi mümkün olmayan nağıl və lətifələr daha aktiv şəkildə (yaşıdlar arasında) deyilir. Bu tipli nağıl və

lətifələr toplansa da, həmin nümunələri geniş auditoriya üçün nəşr etmək mümkün deyil. Yeri gəlmişkən Azərbaycan folklorunun Molla Nəsrəddin və Bəhlul Danəndə ilə yanaşı dayanan Kəlniyyət kimi lətifə və nağıl qəhrəmanı haqqında olan folklor mətnlərində qeyri-etik motivlərə sıx-sıx təsadüf olunduğu üçün Kəlniyyət haqqındakı mətnlər çap olunmamışdır. Nəticədə oxucu kütləsi belə bir folklor qəhrəmanın varlığından xəbərsiz qalmışdır.

Qısa şəkildə mənzərəsini verməyə çalışdığımız "klassik" folklorun indiki vəziyyəti belədir. Qeyd edək ki, klassik folklorun iflası, ümumiyyətlə, folklorun iflası demək deyil. Folklorun varlığı xalqın varlığına bərabərdir. Yaranan yeni folklor örnəkləri həm janr tərkibinə, həm də məzmununa görə "klassik" folklordan fərqlənir. "Klassik" folklordan fərqli olaraq müasir folklorun ən aktiv janrı lətifədir. Müasir lətifələrdə "klassik" lətifələrimizə məxsus personajlar və motivlər yoxdur. "Klassik" lətifələrin müasirləşdirilməsi hallarına təsadüf olunsa da (müasir lətifələrin "klassikləşdirilməsi" halları da mövcuddur) mətn müasirliyin damğasından yayına bilmir. Köhnə dünyanın sosial, etnoqrafik, mənəvi gerçəkliklərini özündə ehtiva edən "klassik" ənənəyə məxsus bütün janrlar kimi keçmişə üz tutan[1] klassik lətifələrdən fərqli olaraq müasir lətifə, əsas etibarilə, bu günə ünvanlanır və bu günlə "yaşayır".

Müasir lətifələrin bir çoxu lokal xarakter daşıyır və konkret bölgələrdən kənara çıxmır. Onlardan bəziləri bölgələrin hüdudlarını aşaraq başqa bölgələrə də yayılır. Hacı dayı haqqında lətifələr belədir. Bu lətifələrin kütləviləşməsinin səbəbi onun şəhər folkloru olmasıdır. "Şəhərdən kəndə mədəniyyət" tezisi bu mənada öz gücünü göstərir. Bu lətifələrdə şəhər ruhu, şəhər əxlaqı, şəhər düşüncəsi var.

XX əsr lətifələrimizdə klassik lətifələrə məlum olmayan qazaxlı, qarabağlı, şirvanlı, gəncəli, naxçıvanlı, təbrizli, ərdəbilli, Azərbaycanlı, türk (Güney Azərbaycanda), ləzgi, talış, kürd, fars, rus (urus), cuhud (yəhudi, yevrey) gürcü, Lenin, Stalin, Bağırov və s. kimi personajlar ortaya çıxır. Lətifələrimizdə tat-tərəkəmə, erməni-müsəlman, əcəm-ərəb, əcəm-kürd, əcəm (qızılbaş)-os-

-------------------

**1.** С.Ю.Неклюдов. Göstərilən məqalə. (Məqalə internetdən götürüldüyü üçün iqtibasın səhifə nömrəsini vermək mümkün olmadı).

manlı, sünnü-şiə, aşıq-çoban və s. kimi qarşıdurmalar yoxa çıxır və ya zəifləyir. Onların yerini erməni-gürcü-azərbaycanlı (müsəlman), rus (urus)-erməni-gürcü-azərbaycanlı (müsəlman), cuhud-erməni-azərbaycanlı (müsəlman), türk-fars (Güney Azərbaycanda), Azərbaycanlı-kürd (ləzgi, talış), şəhərli-kəndli, bakılı-rayonlu və s. kimi qarşıdurmalar tutur.

Fikrimizcə, müasir folklor tarixən "klassik" folklorla yanaşı addımlamışdır. Müasir folklorun bir çox nümunələri “klassik” folklora qarışmış, bir hissəsi isə öz aktuallığını itirməsi hesabına dövriyyədən çıxmışdır. Tərəkəmə-tat, sünni-şiə qarşıdurmasına aid lətifələr bu baxımdan maraqlıdır. Tərəkəmələrin əksəriyyətinin oturaqlaşması (tatlaşması), milli duyğuların dini duyğulardan önə keçməsi və sovet dövründə ateizm təbliğatının gücü ilə dini təriqət hisslərinin zəifləməsi nəticəsində sözü gedən qarşıdurmalar öz aktuallağını itirib unudulmuş və ya unudulmaq üzrədir. Sovet dövründə yaranmış lətifələr də aktuallığını itirməsi hesabına gözlərimizin qarşısında unudulmaqdadır.

"Klassik" janrlara aid olan bir çox folklor örnəklərində müasirlik faktları şəhər və ya yazı mədəniyyətlərindən irəli gəlir. Sicilləmənin yeni örnəkləri və ya yeni uşaq oyunları şəhərli düşüncəsinin məhsuludur. Belə örnəklərin kəndə keçməsi bir başa şəhərin təsiri ilə bağlıdır. Ancaq nəzərə alsaq ki, şəhər folklorunun bir çox örnəkləri kənd folkloru ənənələrindən qaynaqlanır, onda geriyə qayıdış prosesini görmək çətin deyil.

Yeni tapmacaların ("Danışıram hündürdənə səsim gəlir kəndirdən" tipində) və bayatıların ("Bu qala bizim qala") yazılı təfəkkürlə bağlılığı və deməli "oxumuş adamlar" tərəfindən yazılması (məhz yazılması) üzdədir. Belə örnəklər yalnız texniki baxımdan ənənəvi janrın tələblərinə cavab versə də (bir çox hallarda bu da olmur) düşüncə stereotipləri müasirdir və birbaşa yazılı təfəkkürdən gəlir. Belə örnəklərin folklorlaşması ehtimalı azdır. Onlar donuq halda kitab və qəzet səhifələrində qalır və dövriyyəyə daxil ola bilmir. Bunun əsas səbəbi belə örnəklərin ənənəvi folklor şüuruna zidd olmasıdır. Ənənəvi poetik şüurun daşıyıcıları üçün "anlaşılmaz" olan belə örnəklər folklor məkanına daxil ola bilmir və ona görə də ağız ədəbiyyatından daha çox yazılı ədə-

biyyat sferasına daxil olur.

**Mətnlərin toplayıcıları.** Bu kitabda çap olunan mətnlərin əksəriyyəti filologiya elmləri doktoru, mərhum Vəli Nəbioğlu, Muxtar Kazımoğlu və Əfzələddin Əsgər tərəfindən toplanmışdır. Folklor mətnlərinin toplanmasında xüsusi əməyi olan Vəli Nəbioğlunun adı ayrıca qeyd edilməlidir. V.Nəbioğlu ixtisasca folklorçu deyildi. Azərbaycan nəsrinin problemləri ilə məşğul olurdu. Buna baxmayaraq, onun folklora böyük həvəsi var idi. Vəli Nəbioğlunun Azərbaycan folklorunu toplama həvəsi bizim hamımız üçün örnək sayıla bilərdi. O, ADU-nun filologiya fakültəsini qurtarandan sonra Qubadlı rayonuna müəllim təyin olunmuşdu. Burada müəllimlik etdiyi üçün bu yerlərə yaxşı bələd idi. Onun bu yerlərə bələd olması Qubadlı, Laçın, Zəngilan rayonlarının folklorunu uğurla toplamağımız üçün əsas oldu. Bundan başqa, Vəli Nəbioğlunun adamlarla tez ünsiyyət yaratma qabiliyyəti də bizim toplama işimizi asanlaşdırırdı. Onu da deyək ki, bu kitabda çap olunan bir sıra mətnləri V.Nəbioğlu bu tərəflərə yolu düşdüyü zaman tək toplamışdır. Mətnlərin böyük bir hissəsini Vəli Nəbioğlu, Muxtar Kazımoğlu, Əfzələddin Əsgər birlikdə toplamışlar.

Kitaba salınmış Cəbrayıl rayonuna məxsus folklor örnəklərinin bir çoxunu Əfzələddin Əsgər 1988-1989-cu illərdə bu rayona folklor ezamiyyəti zamanı toplamışdır. Cəbrayıl rayonundan toplanmış başqa örnəklər isə Folklor İnstitutundakı "Türk xalqları folkloru" şöbəsinin əməkdaşları Zəfər Fərhadov, İlkin Rüstəmzadə və Şərqşünaslıq İnstitutunun əməkdaşı E.Fikrətqızı tərəfindən təqdim olunmuşdur. Onu da deyək ki, Z.Fərhadov və İ.Rüstəmzadənin bölgə folkloruna aid topladığı başqa materiallar da kitaba salınmışdır. Zəngəzurun Ermənistanın tərkibində olan bölgələrindən toplanan materialları şöbənin əməkdaşı Sevinc Bağdadova təqdim etmişdir. Mətnlərin bir hissəsi 1987-1990-cı illərdə, qalan hissəsi isə 2000-ci ildən sonra toplanmışdır. V.Nəbioğlu, M.Kazımoğlu Ə.Əsgərin 1987-1990-cı illərdə topladığı folklor nümunələrinin bir qismi həmin müəlliflərin tərtib etdiyi “Bu yurd bayquşa qalmaz” kitabında (“Yazıçı” nəşriyyatı, 1995) nəşr olunmuşdur.

**Toplama texnikası.** Folklor ezamiyyətimizin birinci ili üçün lazım olan texniki avadanlıq (maqnitafon, diktafon) olmadığı

üçün folklor mətnlərini əlimizlə yazmağa məcbur idik. Ona görə də birinci il iri həcmli folklor janrlarından yayınmağa çalışırdıq. Nağılları və iri həcmli lətifələri qələmlə yazıya almaq çətinlik törədirdi. Sonrakı illərdə maqnitafondan istifadə etdik. Kitabda verilmiş iri həcmli mətnlərin əksəriyyəti isə maqnitafon vasitəsi ilə yazıya alınmışdır. Kiçik həcmli mətnlərin bir hissəsi maqnitafon, bir hissəsi isə əllə yazılmışdır.

**Söyləyicilər.** Yuxarıda qeyd etdiyimiz kimi folklor axtarıcılığı dövründə biz professional söyləyiciyə rast gəlmədik. Ancaq, demək olar ki, hər kənddə yaxşı folklor biliciləri haqqında xatirələrə qulaq asırdıq. "Siz axtaran adam (yəni folklor bilicisi) keçən il öldü", "Kaş iki il (üç il, dörd il) bundan qabaq gələydiniz, filankəs sağıydı" kimi vaysınmaları tez-tez eşidirdik. Buna baxmayaraq, inadla işimizi davam etdirib folklor bilicilərini axtarıb tapırdıq. Onlar uşaqlıqdan yaddaşlarında ilişib qalmış folklor örnəklərini həvəslə söyləyirdilər. Söyləyicilərin söylədiyi mətnlərin bir hissəsi uşaqlıq dövründə eşitdikləri mətnlərdir. Bununla yanaşı, hər söyləyicinin yaşına, cinsinə, xarakterinə, taleyinə uyğun folklor mətnləri söylədiyini hiss etmək o qədər də çətin deyildi. Bir çox hallarda söylədiyi mətnə söykənib söyləyicinin cinsini, xarakterini, həyatında baş verən acılı-şirinli günləri təyin etmək mümkün idi.

Bütün Azərbaycan xalqı kimi bu bölgənin əhalisi də qonaqpərvərdir. Söyləyicilərin əksəriyyətinin evində olmuşuq və ən azı bir stəkan çaylarını içmişik. Hansı evə getmişiksə, bizi könül xoşluğu ilə qəbul edib, olanlarını masanın üstünə qoyublar. Bizim işimizə yararlı olmağa çalışmalarının qonağa hörmət duyğusundan irəli gəldiyini müşahidə etmək çətin deyildi. Söyləyici qonaq qarşısında məsuliyyət hiss edir, ona yararlı olmağa çalışır. "Sərbəst" söyləyicilərə də rast gəldiyimizi gizlətmirik. Onlar mətni bildiyi kimi deməkdən çəkinmirlər. (Belə mətnlər daha təbii olur). Bəzən söyləyici söylədiyi mətnə görə pul təmənnasında olmasını açıq şəkildə dilə gətirir. Söyləyici mətnin unutduğu yerlərini özündən uydurmaqla vəziyyətdən çıxmağa çalışır. Söyləyici üzə düşərək eşitmədiyi mətnin varlığını təsdiq edir. Söyləyici bir çox hallarda yad adamın yanında mətni bildiyi kimi demir. Təkcə ona görə yox ki, mətndə "ədəbsiz yerlər" olur, həm də ona görə ki, yad adamın

yanında özünü sərbəst hiss eləmir. Əgər bu yad adam onun dediyi mətni diktofon lentinə yazırsa, vəziyyət bir az da mürəkkəbləşir. Söyləyici folklorçu alimin yanında əksər hallarda sıxılır, dərs danışan uşağa bənzəyir. Söyləyicilərin professional olmadıqlarını nəzərə alsaq bunun onlar üçün təbii olduğunu etiraf etmək lazımdır. Professional söyləyicinin də qeyri-təbii vəziyyətdə mətni sərbəst ifa etməsi çətin məsələdir. Folklor mətni folklorçu alimə söylənmək və ya yazıya alınmaq üçün yaranmayıb. Onun öz auditoriyası var və bu auditoriyada söylənərkən təbii halında olur.

Söyləyicidən bəhs edərkən bir məsələyə də toxunmaq istərdik. Unutmaq olmaz ki, professionallıq hər növ mətnin ifaçısına şamil olunmur. "Professional" anlayışı daha çox nağıl və dastan ifaçılarına aid olunur. Başqa janrlardan olan mətnlərin yalnız biliciləri var. Bu biliciləri axtarıb tapan folklorçu istədiyinə nail olaraq maraqlı folklor məntləri yazıya alacaq.

**Mətn.** Kitaba salınmış mətnlərin əksəriyyətini təbii mətnlərdir. Tərtibçilər mətnin təbii olmasının qayğısına qalmış, mümkün qədər mətnə toxunmamağa çalışmışlar. Onu da deyək ki, şifahi mətni bütün incəliyi ilə yazıya köçürmək mümkün deyil. Belə ki, şifahi nitqdə müəyyən məna daşıyan söz və ifadələri, bəzən bütöv cümləni yazıya köçürəndə mətndə mənasızlaşır. Bəzən söyləyici jestlə "danışır". Tərtibçilər mümkün qədər belə halları da mətndə saxlamağa çalışıblar. Yazıda məna verməyən söz və ifadələrin şifahi nitqdə hansı anlamı daşımasını oxucu təsəvvürünə gətirməlidir. Jestlər isə mötərizə ilə verilmişdir. Mətnin təbiiliyi ondakı şifahi nitq elementlərinin varlığı ilə ölçülür. Kitabda gedən mətnlərlə tanış olan oxucu əksər mətnləri təbiilik baxımından razılıqla qarşılayacaq. Ancaq bu sözü kitaba salınmış bəzi mətnlər haqqında demək olmaz. Onlar sırf ədəbi dildə yazılmışdır. Ona görə də bu mətnlərdə şifahi ifa elementləri tamamilə itib getmişdir. Belə mətnlərin məzmununu nəzərə alaraq kitaba saldıq. Qeyd edək ki, Azərbaycan folklorşünaslığında (təkcə Azərbaycan folklorşünaslığında yox) mətnin ədəbi dilə keçirilməsi praktikası geniş yayılmışdır. Bəzən mətn ədəbi dildə yazılandan sonra dialektə keçirilir. Qeyd edək ki, mətndə şifahi nitq elementləri (xüsusilə, şifahi sintaksis) yoxdursa, dialektə keçi-

rilməsindən asılı olmayaraq təbiiliyini itirir.

Kitabda hər hansı bir fonetik səbəbdən uzun tələffüz olunan səsləri qoşa hərflə (məs. aa, əə, ıı və s.), yumşaq y səsi ($x^{1}$) isə h hərfi ilə verilib.

Mətnlərdə ədəbi dildə olan sözlər daha çox söyləyici nitqi ilə bağlıdır. Belə hallar ədəbi dilin söyləyici nitqinə təsirindən irəli gəlir. Bütövlükdə ədəbi dildə verilmiş mətnlərin bir hissəsi söyləyicilərin savadlı olmasından irəli gəlir.

"Zəngəzur folkloru"nda verilən bayatılardan böyük bir hissəsinin başqa kitablarda da çap olunduğunu nəzərə alsaq təkrar olması şübhəsizdir. Ancaq bu bayatıların hamısı sözü gedən bölgəyə məxsus bayatılardır. Bu bayatıları toplayıcılar öz əlləri ilə yazıya alıblar. Bu bölgədə bayatı bilməyən adam az tapılır. Hansı kəndə, hansı evə üz tutduqsa, bayatı eşitdik. Bu baxımdan, bayatını folklorumuzun ən aktiv janrlarından biri saymaq olar. Toyları və yasları bayatısız təsəvvür etmək mümkün deyil. Bununla yanaşı, bayatıdan söhbət zamanı "iqtibas" şəklində də istifadə olunur. Başqa sözlə, hər hansı bir şəxs söhbət zamanı öz fikrini qüvvətləndirmək üçün bayatılarda ifadə olunan müdrik kəlamlara müraciət edərək bayatı söyləyir. Onu da deyək ki, bu bölgədə (ümumiyyətlə, bütün bölgələrimizdə) bayatı folklor janrının adını ifadə etmir. *Bayatı* və ya *boyatı* şəklində tələffüz olunan bu söz "nəğməli şer" anlamında işlənir. Folklorşünaslıqda janr adı olaraq qəbul olunan bayatılara həm də "mahnı" deyirlər. Bu söz də "nəğməli şer" anlamında işlənir, yəni "bayatı" ilə sinonim anlam daşıyır.

Bu kitabda gedən bayatılar təkcə yan-yana düzülərək nəşr olunmayıb. Bu bayatıların bölgədə yazıya alınan variantlarını da verməyə çalışdıq. Bayatılardakı söz və ifadə fərqlərini bayatı mətninin içərisində mötərizə arasında təqdim etdik. Misra və beyt variantlarını isə misra və beytin qarşısında bərabərlik (=) işarəsi ilə verdik. Onu da deyək ki, biz yalnız bölgədən yazıya ala bildiyimiz variantları təqdim etdik. Əks təqdirdə, bu bayatıların əksəriyyətinin variantlarının olması şübhəsizdir. Bu variantlar təkcə Azərbaycan folkloru müstəvisində yox, həm də oğuz mənşəli xalqlar (Türkiyə və Azərbaycan türkləri, qaqauzlar, kırımtatarlar) müstəvisində müşahidə olunur. Bu variantları müqayisə edəndə folklora milli

prizmadan yanaşmanın doğru olmadığına bir daha inanmalı olursan.

Onu da deyək ki, bayatıların variantlılıq məsələsi folklorşünaslığımızda aydınlaşdırılmamış məsələdir. Bu problemlə bu günə qədər ciddi şəkildə məşğul olunmamışdır. Ona görə də bizim işlətdiyimiz "bayatı variantları" ifadəsi şərti anlamda qəbul olunmalıdır.

Məşhur bayatının variantlarına diqqət yetirək:

I Bu dağlar ulu dağlar,
Çeşməli, sulu dağlar.
Mənim ah-nalamnan,
Göy kişnər, bulud ağlar.

II Bı dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Bırda bir qərib (igid) ölüb
Göy kişnər, bulud ağlar.

III Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Dibində qərib ölüb,
Başında bulud ağlar.

IV Bu dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Dibindən eli köşmüş,
Başında bulud ağlar.

Dörd variantını verdiyimiz bu bayatının variantları bununla tükənmir. Biz yalnız yadımızda olan variantları verdik. Bununla bərabər, bu variantlar "ulu dağlar", "sulu dağlar", "bulud ağlar" qəlibli bayatının poetik imkanlarını təsəvvür etməyə imkan verir. Bütün variantlar "əsas mətnə" münasibətdə bərabərhüquqludur...

Bayatı gündəlik həyatın bir parçası olaraq canlı şəkildə yaşayır. Toyda, yasda, bayramlarda, adi günlərdə vəziyyətdən asılı olaraq oxunur. Bir bayatıdan müxtəlif vəziyyətlərdə istifadə olunur. İnsanlar sevincini, kədərini, nifrətini, narahatçılığını, inciklіyini, nəsihətini və s. bayatı vasitəsi ilə ifadə edir. Bayatı atalar sözlərinin, xalq nəsihətlərinin, mahnıların, tapmacaların fun-

ksiyasını yerinə yetirir. Ona görə də bayatı təkcə böyük zaman daxilində (diaxronik) yox, həm də hər gün hər saat (sinxronik) dəyişir. Biz dəfələrlə gözlərimiz qarşısında söyləyicinin məlum bir bayatını dəyişərək "öz ünvanına" göndərməsinin şahidi olmuşuq. Bu kitabda çap olunan bayatıların bir çoxunun "variant"-larının göstərilməsi hesabına belə halları müşahidə etmək olar. Demək istəyirik ki, şifahi ədəbiyyatımızın bu fenomenal hadisəsinin hərtərəfli idrakı onun canlı ifası üzərində uzunmüddətli müşahidələrdən sonra mümkündür.

Vaxtı ilə bayatıların toplanması və nəşri zamanı onların etnoqrafik xüsusiyyətləri (mərasimlərlə bağlılığı və ya poetik funksiyası), müəlliflilik məsələsi (aşıq bayatıları və ya kəndlərdə yaşayan bayatı “usta”larının yaradıcılığı ilə bağlılığı), ümumiyyətlə, bayatı “həyatı” (o hansı şəkildə yaşayır) təsvir olunmadığından bayatılar biri-birinə qarışmış, “tanınmaz” hala gəlmişdir. Ancaq vəziyyət ümidsiz deyil. Bu günə qədər toplanmış materialların səbrlə öyrənilməsi məsələyə aydınlıq gətirə bilər.

Qeyd edək ki, A.Hacılının son illərdə çapdan çıxmış “Bayatı poetikası” (Bakı-2000) adlı araşdırması bayatı haqqında ciddi bir elmi əsərdir. Bu əsər şifahi yaradıcılığımızın bu nəhəng hadisəsinin elmi şəkildə öyrənilməsinə yol açır. Bununla yanaşı, əsərdə irəli sürülən nəzəri fikirlər bayatının variantlaşma prinsiplərinin aydınlaşdırılmasına və son nəticədə kataloqlaşdırılmasına yardımçı ola bilər.

Bayatı yaradıcılığından danışarkən bir məsələyə də toxunmaq istərdik. Son dövrlər xalqımızın həyatında baş verən hadisələr bayatı yaradıcılığına güclü təsir etmişdir. Bir çox "klassik" bayatılar təzələnmiş və hətta yeni bayatılar da yaranmışdır. Ənənəvi düşüncənin daşıyıcıları ilə “oxumuş adamların” yaratdığı bayatılar bir-birindən fərqlənir. Unutmaq olmaz ki, xalq bayatıları ənənəvi düşüncənin daşıyıcıları tərəfindən "xalq poetikasına" uyğun şəkildə yaradılır. Bu bayatıların əksəriyyəti poetik baxımdan zəifdir və bu belə də olmalıdır. Unutmayaq ki, ağız ədəbiyyatı yalnız ifa zamanı bədii baxımdan bişir. Bu baxımdan, A.B. Lordun "şifahi əsər ifa üçün yaradılmır, o, ifa prosesində yaranır"[1] fikri məsələnin mahiyyətini dəqiq ifadə edir.

--------------------

1. А.Б.Лорд. Сказитель, М., 1994, s. 24.

Kitabda belə örnəklər də verilib:

Əzizim bizim dağlar,
Dibi buz-bulax dağlar.
Dağda yaylax eliyən,
Aranda qalıf anlar.

Aşıx elimə gülmə,
Köşkün halına gülmə.
Gələndə rəvanə gəl,
Qəribəm, mənə gülmə.

Bu bayatıların zəifliyi üzdədir. Ancaq onların qaçqının duyğularının ifadəsi olması heç kimdə şübhə doğurmaz. Bununla yanaşı, bu bayatıların kitaba salınması canlı ifa zamanı onların "keçdiyi yolu" müşahidə etməyə imkan verəcək.

Qaraçuxa, hal, qurdağzıbağlama, qurdadönmə, şamanlıq vergisi, sofu, çələbi, seyid, oxçu, ocaqların yarışı, şaman mərasimi (tas qurma) və s. kimi mətnlər silsilə olmaq etibarilə ilk dəfə "Zəngəzur folkloru"nda çap olunur.

Bölgədə olduğumuz zaman qaraçuxa haqqında mətnlər diqqətimizi cəlb etdi. Mifoloji rəvayət şəklində deyilən bu mətnlərdə qaraçuxa insanın özünə bənzəyən mifoloji varlıqdır. Hər insanın bir qaraçuxası var. İnsanın işlərinin uğurla getməsi qaraçuxadan asılıdır. Qaraçuxası oyaq olan adamın işləri uğurla gedir, varlı-dövlətli olur. Qaraçuxası yatan adam kasıb olur, ağır günlər keçirdir. Şirvan bölgəsində bu mifoloji personaj *naxış* adlanır və qaraçuxa ilə adekvat funksiya daşıyır. "İşi rast düşmək" anlamında *naxışı gətirmək* ifadəsi sözü gedən mifonimlə bağlıdır. Ancaq hər üç mifonim Azərbaycan mühitində meydana çıxmışdır. Sözü gedən mifoloji personajın arxaik adı Cənubi Sibirin türk xalqlarında bu günə qədər qorunmuşdur. *Sur, sülə, yula* adlanan bu mifoloji personaj insanın bir neçə ruhundan biridir. O, insanın özünə bənzəyir və bədəndən çıxaraq gəzə bilir.[1]

*Sur* sözü bəzi bölgələrdə (Göyçə, Borçalı, Qazax və s.) "surun yerisin" və ya "surun yeriməsin", "Allah sur versin" kimi alqış və

-----------------

1. Л.П.Потапов. Алтайский шаманизм, Л., 1991, 54-60.

qarğış içərisində bu günə qədər yaşamaqdadır.

Qeyd edək ki, sözü gedən personaj bəzi Azərbaycan mətnlərində taleh, bəxt kimi interpretasiya olunsa da öd tənri (orxon abidəsində) və ödlək (M.Kaşğarlıda) adlanan arxaik zaman və taleh tanrısı ilə əlaqəsi yoxdur. Əlimizdə olan mətnlərdə (istər Azərbaycan, istərsə də Cənub Sibir) o, insanın özünə bənzəyən və ona yardımçı olan (bəzən də ondan küsən) hami ruhdur.

Hal, qurdadönmə və s. haqqında silsilə mətnlər halın və qurdadönmənin mifoloji xüsusiyyətləri haqqında oxucuya və ya araşdırıcıya dolğun məlumat vermək ehtiyacından yaranıb. Hər bir mətn başqa mətndə olmayan hər hansı bir informasiyanı özündə saxlayır. Mifoloji hadisənin mahiyyəti bu mətnlər arasında paylanır. Bu üzdən mifoloji arxetipin bərpası üçün bu mətnlərə paylanan məlumatlar toplanaraq təhlil olunur.

Şamanlıq vergisi, şaman mərasimi (tasqurma) haqqında mətnlər ilk dəfə bu kitabda özünə yer almışdır. Şamanlıq vergisi, şaman mərasimi, bir sözlə, şamanizm haqqında türk xalqları arasında olan etnoqrafik biliklər hələ XIX əsrdə rus və Avropa alimləri tərəfindən toplanaraq araşdırılmışdır. Şamançılığın öyrənilməsi XX əsr boyunca davam etdirilmişdir. Buna baxmayaraq, Azərbaycan ərazisində olan şamançılıqla bağlı inanışlar nə toplanmış, nə də araşdırılmışdır. Əlbəttə, şamançılığın araşdırılması etnoqrafiyanın predmetidir. Ancaq etnoqraflardan bu sahədə bir hərəkət olmadığını görən folklorçular artıq çoxdandır ki, yaxşı-pis etnoqrafiyanın da problemləri ilə məşğul olurlar. Bundan başqa, sözü gedən hadisə etnoqrafiya ilə bağlı olsa da, artıq xatirə janrında deyilir. Bu böyük etnoqrafik hadisə haqqında yalnız xatirə janrında informasiya almağımız acı təəssüf doğurur. Hər halda, bu mətnləri kitaba salmağımızda məqsəd folklor deyil (yəni onun xatirə janrında olması), Azərbaycan şamançılığı haqqında müəyyən təsəvvür oyatmasıdır (yəni etnoqrafiyadır). Ümid edirik ki, bu mətnlər nə vaxtsa Azərbaycanda şamançılığın varlığına şahidlik edəcəklər.

İslamın qəbulundan sonra türk mədəniyyətində yeni bir hadisə baş verdi. Şamanizmlə sufizmin sintezi xalq islamının formalaşması ilə nəticələndi. Sufi ocaqlarının başında duranlar – şeyxlər, babalar, pirlər Ə.Yəsəvidən başlayaraq şaman düşüncəsi ilə is-

lamın içərisinə girdilər. Nəticədə sufi ocaqlarında və onlara məxsus təsəvvüf fəlsəfəsində şamançılıqla bağlı elementlər (möcüzə göstərmək, hərəkətli zikr, qadınların ocaqlara qəbulu və s.) peyda oldu. Ocaq başçıları-ərənlər özlərini qamlara (kam, xam) bənzər şəkildə aparırdılar. Şamanlar kimi güclərini nümayiş etdirir, düşmən pirlərlə mübarizə aparırdılar. Düşünürük ki, ağ baba-qara baba, ağ şıx-qara şıx, ağ (sarı) seyid-qara seyid, ağ molla-qara molla, ağ pir-qara pir kimi ocaq və şəxs adları ağ şaman-qara şaman kultunun yuxarıda söz açdığımız hadisə ilə bağlı islam müstəvisində transformasiyasıdır. Fikirimizcə, Ağ Aşıq, Sarı Aşıq kimi antroponimlər də oxşar hadisə ilə bağlıdır. Bu barədə yazıya alınan mətnlər "Sofu, çələbi, seyid" yarımbaşlığında verilib.

"Mifoloji və etnoqrafik mətnlər" adlı "ümumi qazanda" yasaq (tabu), sınama, mifoloji inam tipli mətnlər var. Qeyd edək ki, folklorşünaslığımızda sözü gedən janrlara aid mətn tiplərinin struktur özəllikləri haqqında aydın bir fikir yoxdur. Tərtibçilər intuisiyanın gücünə mətnləri təsnif etməkdən yayınmaq üçün bu janrlara aid mətnləri ümumi başlıq altında verdilər. Bu "ümumi qazana" etnoqrafik mətnlər də salınıb.

"Aşıqlar və el şairləri" yarımbaşlığına daxil olan materialların "kasıblığı" inkar olunmazdır. Bu "kasıblıq" iki səbəbdən törəyir. Birincisi, toplayıcılar bölgədə olarkən aşıq yaradıcılığı və el şairlərinə az diqqət yetirirdilər. Toplamanın ağırlığı nağılların, lətifələrin, mifoloji məzmun daşıyan mətnlərin üzərinə salınmışdı. Sonrakı illərdə isə məlum səbəblər üzündən toplamanı davam etdirmək mümkün olmadı.

Yeri gəlmişkən, bizim bu kitabda verdiyimiz mətnlər bölgə folklorunu tamamilə əks etdirmir. Olsa-olsa bölgə folkloru haqqında müəyyən təsəvvür yaradır. Nəzərə alınmalıdır ki, biz sözü gedən rayonların ən çoxu 10 kəndində ola bilmişik.

İkincisi, ezamiyyət zamanı hiss olunurdu ki, bu bölgələrdə aşıq sənəti zəifdir və ya öləziyib. Təkcə Zəngəzur bölgəsində yox, ümumiyyətlə, Qarabağda aşıq sənətinin zəifləməsini müşahidə etmək çətin deyil. Bizcə, bu vəziyyət XV-XVI əsrlərdə güclənən sünni missionerliyin fəaliyyəti ilə bağlıdır. Bu problem öyrənilmədiyindən qəti bir söz demək çətindir. Ancaq sünni missionerliyin

sözü gedən dövrlərdə bu bölgəyə axını rəvayətlərdə yaşayır. Osmanlı torpaqlarından bölgəyə axışan sünni, eləcə də şiə missionerlərin biri-biri ilə mübarizəsinə aid xatirələri hər kənddə eşitmək mümkün idi. Aşıqlar şiə yönlü olduqlarından sünni missionerliyin mübarizə hədəflərindən biri olması tamamilə təbii sayılmalıdır. Bir çox aşıqlara aşıqlığın yasaq olunması (Yada sal: Aşıq Musanın "Nə günahı telli sazın" şeri) haqqında faktlar məlum hadisə ilə bağlıdır. Bu kitabda Aşıq Mahmuda aşıqlığın yasaq olunması haqqında mətn də sözü gedən hadisədən irəli gəlir. Düşünmək olar ki, Nadir şahın qızılbaşları təqib etməsilə bağlı olaraq[1] sünni missionerliyin yolu açılmışdır. Bunun nəticəsində aşıq sənəti zəifləməyə başlamışdır. Vəziyyətdən istifadə edən xanəndəlik-muğam ustaları təşəbbüsü ələ almışdır. Sonuncu hadisə, xüsusilə, XIX əsrdə aşıq sənətinin öləziməsinə gətirib çıxartmışdır.

**Mətnlərin janr baxımından yerləşdirilməsi.** "Zəngəzur folkloru"nun ən nöqsanlı tərəfi məntlərin janr baxımından yerləşdirilməsi ilə bağlıdır. Tərtibçilər bu "nöqsana" iki səbəbdən yol verdilər. Birincisi, kitabda verilən mətnlərin məzmununun önə çəkilməsidir. Bu üzdən rəvayət janrında olan mətnlər həm "Miflər, əfsanələr, rəvayətlər, xatirələr", həm də "Aşıqlar və el şairləri" yarımbaşlığında, xatirə janrında olan mətnlər isə həm "Miflər...", həm "Sənət tapınaqları", həm "Mərasimlər, ovsunlar", həm də "Mərasim nəğmələri" yarımbaşlıqlarında verilmişdir. Bu vəziyyət Folklor İnstitutunun çap etdirdiyi "Antologiya"ların tərtib prinsipləri ilə də bağlıdır. Bəllidir ki, "Antologiya"larda təkcə folklor mətnləri yox, həm də etnoqrafik mətnlər çap olunur.

İkincisi, nəşr zamanı mətnlərin janr baxımından yerləşdirilməsi təkcə Azərbaycan folklorşünaslığının deyil, ümumdünya folklorşünaslığının problemidir. Buna görə də nəşr zamanı mətnlərin janr baxımından yerləşdirilməsi problemindən yaxa qurtarmaq üçün bir çox hallarda mətnlər ümumi başlıq altında verilir. Bunun əsas səbəbi ümumdünya folklorşünaslığında folklor mətnlərinin janrı haqqında nəzəri biliklərin ya yetərli olmaması, ya da mövcud nəzəri biliklərin kifayət qədər yayılmamasıdır. Bundan

------------------

1. H.İsmayılov. Göyçə aşıq mühiti: təşəkkülü və inkişaf yolları, Bakı, 2002. s. 106

başqa, folklor mətnlərinin janrı problemini öyrənən alimlər çox vaxt praktik işlə, yəni folklorun nəşri ilə məşğul olmurlar və nəzəriyyə donuq halda qalır. Nəticədə folklor mətnlərini nəşrə hazırlayan "praktiklər" bu məsələdə XIX əsrdən formalaşmış ənənə ilə hərəkət edirlər. Onu da deyək ki, nəşr zamanı folklor mətnlərinin janr təsnifatını vermək çətindir və bu məsələ tərtibçidən janr nəzəriyyəsini yaxşı öyrənməkdən başqa, təcrübə də tələb edir. Elə hallar olur ki, mətn qarışıq janrda olur. Məsələn, mətn nağıla məxsus girişlə başlayır, əfsanə və rəvayətə məxsus sonluqla qurtarır və ya mətn əfsanəyə məxsus girişlə başlayıb nağıla məxsus sonluqla (P.Q.Boqatıryevin "qeyri-mümkünlük" formulu ilə) qurtarır. Əfsanə və ya rəvayət şəklində müstəqil şəkildə mövcud olan iki və ya üç süjet birləşdirilərək (bax: "Nağıllar" yarımbaşlığında "Ovçu Pirim") bir növ nağıllaşdırılır. Bəzən bir əfsanə iqtibas şəkilində deyilir. Toplayıcının "keçmişdə nəhəng adamlar olubmu?" – sualını söyləyici təsdiq edir və nəhəng adam haqqında eşitdiyi bir mətni misal gətirir: "Köhnədə insannar çox uca olub. Bəs nejə olmuyup ki, Araz kimi bir çaydan Abazər adda bir kişi addıyıp keçirmiş". Bu mətndə qəhrəmanı Abazər olan bir əfsanə (və ya rəvayət) keçmişdə nəhəng adamların olmasına misal göstərilir. Əgər toplayıcı Abazərin kimliyi məsələsi ilə maraqlansaydı, onda maraqlı bir əfsanə və ya rəvayət mətni yazıya alınacaqdı. (Onu da deyək ki, Abazər haqqında mətnə işarə edən sonuncu cümləni nəzərə alaraq həmin mətni süjetli mətnlər içərisinə saldıq. Yəni sözü gedən mətn "Mif, əfsanə, rəvayət, xatirə" yarımbaşlığına keçirildi). Həmin yarımbaşlıqda Ovçu Pirim haqqında verilən I mətn ("Mən özüm") məzmun baxımından mifoloji mahiyyətdədir. Bu mətnin başqa variantları da yazıya alınıb. Bundan başqa, ayrı türk xalqlarında da sözü gedən mətn mövcuddur. Ancaq başqa variantlardan fərqli olaraq bu kitaba salınan variant lətifə janrının tələblərinə uyğun şəkildə deyilir. Biz sadəcə olaraq janr haqqında ənənəvi düşüncədən irəli gələn söz-söhbətdən yaxa qurtarmaq üçün sözü gedən mətnin məzmununu nəzərə alaraq onu "lətifə" yarımbaşlığına daxil etmədik. Göründüyü kimi, folklor mətni elastiki xarakter daşıyır və bir məzmun (süjet) müxtəlif janrların prinsiplərinə uyğun olaraq deyilə bilir və ya mətn janr baxımından marginal ola bilir. Folklor mətnlərinin janrı

bir çox hallarda mövcud folklor ənənəsində uyğun mətnlərin "dirilik" dərəcəsindən, funksiyasından, söyləyicinin səviyyəsindən, xasiyyətindən, mövcud ənənəni nə dərəcədə bilməsindən və söyləyici ilə onun auditoriyası arasında çox tərəfli münasibətlər sistemindən, mətnin hansı məqsədlə, hansı şəraitdə və s. deyilməsindən asılı olur. Hans Robert Coys folklor mətninin janrına həsr etdiyi əsərində sözü gedən problemləri hərtərəfli şəkildə öyrənmişdir.[1]

Folklor janrının adı olaraq "Xatirə" ilk dəfə olaraq bu kitabda başlığa çıxarıldı. Ümumdünya folklorşünaslığında "memuarat" adlanan bu janrın xüsusiyyətləri haqqında maraqlı fikirlər söylənmiş, onun xronikal məlumat, fabulat kimi şəkilləri qeyd olunmuşdur. [2] Xatirə janrında olan mətnlərin əsas xüsusiyyəti onların söyləyicinin şəxsi müşahidə və ya sərgüzəştindən ibarət olmasıdır. Bu janrda olan mətnlər folklor yaradıcılığı prosesini müşahidə etmək və anlamaq üçün xüsusi əhəmiyyət daşıyır.[3]

Tərtibçilər bu kitabın nəşrə hazırlanmasında yaxından iştirak etmiş "Türk xalqları folkloru" şöbəsinin əməkdaşı Sədiqə Cəfərquliyevaya, "Dədə Qorqud" şöbəsinin əməkdaşı Ləman Süleymanovaya, Şərqşünaslıq İnstiutunun aspirantı Elmira Fikrətqızına minnətdarlıq edir. "Türk xalqları folkloru" şöbəsinin elmi işçiləri İlkin Rüstəmzadənin (O həm də nağılların süjet göstəricisinin müəllifidir), Zəfər Fərhadovun, kiçik elmi işçi Ülkər Ələkbərovanın və laborant Sevinc Bağdadovanın əməyini xüsusi qeyd etmək istərdik. Tərtibçilər kitabın nəşrə hazırlanmasında xüsusi səy göstərmiş adı çəkilən əməkdaşlara dərin təşəkkürlərini bildirirlər. Bunanla yanaşı, folklor nümunələri söyləyənlərin hamısını minnətdarlıq hissi ilə xatırlayırıq. Nümunələrinin toplanması işində yaxından kömək etmiş Məşədi Bağdadov, Yusif Məmmədov, Rüstəm Rüstəmov, Əliağa Aslanov (Qubadlı), Tahir Salahov, Əli Aslanov (Laçın), Camal Sultanov, Arif Süleymanov (Zəngilan), Abbas Abbasov və Taryel Abbasova (Cəbrayıl) təşəkkürlərimizi bildiririk.

----------------

1. Hans Robert Jauss. Toward an Aesthetic of Reception, Mineapolis, 1982.

2. С.Н.Азбелев. Проблемы международной систематизации преданый и легенд, – Русский фольклор, М – Л., 1966, X с. s. 183-184

3. Yenə orada, s. 185.

# I. MİFLƏR, ƏFSANƏLƏR, RƏVAYƏTLƏR, XATİRƏLƏR

## YERLƏ GÖYÜN YARANMASI

Xudavəndi-aləm yer – göyü yaradanda yer-göy yaranır. Yaranannan sora yer yerdə, göy göydə durmur, lərzə gəlir. Göydən vəhy gəlir qələmə (qələm bunnan irəli qoşa deyilmiş, ucu birimiş). Cənab Cəbrayıl qələmə buyurur ki,yaz!

Deyib:

– Nə yazım?

Deyib:

– Allah!

Yazıb:

– Allah.

Deyib:

– Durmadı kı?

Deyib:

– Yox.

Deyib:

– Yaz!

Deyib:

– Nə yazım?

Deyib:

– Allah, Məhəmməd! (Hələ yaranmıyıb ey Məhəmməd-zad. Dünya təzə yaranıb).

Deyib:

– Durmadı?

Deyib:

– Durmadı.

Deyib:

– Yaz! Allah! Məhəmməd! Əli!

Genə durmadı. Genə deyib:

-Yaz! Allah! Məhəmməd! Əli! Fatma! Həsən!

Genə durmadı.

Genə deyib:

– Allah! Məhəmməd! Əli! Fatma! Həsən və Hüseyn! Deyən

kimi yer yerdə, göy göydə taraz durur. İstər ərşin, istərsə də yerin hər ikisinin altı boşdu.

## AY

İki qardaş varmış. Çöldə ot yığırmışdar. Biri deyir:

–Acmışam, gəl, çörəh yeyəh. O biri qardaş deyir:

– Namaz qılax, sora yeyək. Birinci qardaş ajıxlanır, deyir:

– Gərəh elə eliyəm ki, bütün aləm görə, saa nifrət eliyə.

Odu ki, qardaşını vırır yabıya, qaldırır göyə. İndi göydəki ay yabaynan göyə qaldırılan o qardaşdı. Ayın üzündəki ləkə yabanın yeridi elə.

## KARVANQIRAN ULDUZU

Bir karvanın sahibi onu dan ulduzuynan qarışıx salır. Yola düşüllər. Ha gedillər, səhər açılmır. Onnar borana düşüb ölüllər. Elə o vaxdan bı ulduzun adı Karvanqıran qalır.

## DÜNYANIN KƏSİRLƏRİ

Göynən üş quş gedir. Quşdar bir-birinə suval verir ki, bı dünya həx dünyadı, yoxsa nəhəx dünyadı?

Üçüün biri deyir ki, bı dünya həx dünyadı. Ortanjıl deyir ki, yox, nəhəx dünyadı. O ücdəki deyir ki, dünya həx deyil, üş şey kəmdi: dəryanın dibi yoxdu, qatırın balası yoxdu, göyün də ücü yoxdu.

## NOVRUZ BAYRAMI

Novruz bayramı Cənabi Əmirin taxta çıxan günüdü. Hərə bu Cənabı Əmirə ənam aparır. Bir kişi bir dəstə novruz yığıp aparır kişiyə verir ki, mənim heş nəyim yoxdu, Cənab Əmir. Bu da mənim padarkamdı. O günnən qalıf ki, novruzun bayramıdı. Cənabı Əmiri tutuflar o vaxdı. Neçə il türmədə saxlıyıflar. Sora boşluyuflar. Günahsız olub da. Çıxıfdı taxta.

## AĞACLARIN SƏCDƏSİ

### I mətn

Belə deyillər ki, köhnə ildən təzə ilə keçəndə su dayanır. Ağaşdar səjdiyə gəlir, at gövşüyür, söyüd deyir: "Mən də, mən də". Bı vaxt hər kim nə niyyət desə, qabıl olunar.

Bir arvad bayram gecəsi su gətirməyə gedirmiş. Görür ağaşdar səcjdiyə gəldi. Niyət eliyir ki, sənəyi qızıl olsun. Sənəyi qızıl olur. Sora deyir ki, boynum sınaydı, susuz evə necə gedəcəm. Arvadın boynu sınır.

### II mətn

Rəvayətə görə, üç ağac idi. O ağacdar indi də varıydı. Məsələn, köhnəsi yıxılıb yerində üçü bitib, böyüh ağaşdı. Camahat indi də ora pir kimi itayət eliyir. Bu nə vaxdan qalıbdı?

Keşmişdə həmişə bı novruz bayramında, ilin axırı bayramında, tezdən gəlinnər gedirmiş çərşənbə suyu gətirməyə bulaxdan, çeşmədən.

Bir gəlin də tezdən hamıdan qabax durur ki, getsin çeşmədən çərşənbə suyu götürsün, görür ki, haman çinar ağajının başı gəldi yerə, qalxdı, bir də gəldi yerə, qalxdı. Üçüncü dəfə gələndə yaylığın açıb başınnan atır, çinar qalxanda yaylıx da qalxır çinarın üsdündə. Səhər camahat durur, görur yaylıx çinarın başındadı, yellənir, qırmızı yaylıx. Gəlin nağıl eliyir ki, bəs suya gedirdim, belə-belə oldu. Onnan sora ta, indiyə pir deyə camaat itayət eliyir, qurban kəsillər, çırax yandırıllar.

## QARININ GÜNLƏRİ

Bir qarının bir xeyli çəpişi varıymış, içində də bir ala çəpiş. Qarı mart girən vaxtı ala çəpişi qurban deyib ki, çəpişdəri salamat çıxsın. İl yaxşı gəlir. Martın dokquzunda ( indiki aprelin 8-də) hər yer gül-çiçəh olur. Qarı verdiyi vədə əməl eləmir. Deyir: "Martım çıxdı, dərdim çıxdı". Mart qarıdan qisas almax üçün apreldən üş gün borc alır. Aprelin 10-dan 13-nə kimi qar yağır. Qarının çəpişdəri qırılır. Aprelin 13-də hava açılır. Qarı deyir ki, vədə

verdim qurban kəsmədim. Ona görə də ovlaxlarım qırıldı. Özünü vırır yerə, deyir: "Otta...otta".

## BƏHLUL DANƏNDƏNİN ÜÇ SƏHVİ

Belə danışıllar ki, Bəhlul Danəndə dünyadakı şeylərə ad verirmiş. O, deyib ki, mən üç adı düz qoymamışam. Gərəh,

İyniyə tikən deyəydim,
Ayrana doyran deyəydim,
Gəlinə ayran deyəydim.

## GÖYDƏN GƏLƏN QURBANLIQ QOÇ

Deyillər ki, peyqumbər əsrində bütün cannılar bir-biriin dilin bilərmiş. Deyir, bir kişi gələr bir varrı adama çoban olar. Səhər qoyunu açar, buraxar çölə. Qurddar dəstəynən gələr. Deyəllər ki, ə kişi, bizə bir qismət ver, bizim səfərimiz uzaxdı, bı arada kismətimiz yoxdu. Deyir ki, mən bı qoyunu böyün götümüşəm, özümün də yoxumdu, mən sizə hardan verim?

Deyir:

– Gə saa, and içəh, sən get ağannan icazə al.

Deyib:

– And iç.

Deyiblər:

– Zəmanənin adamı olax, əyər sənin heyvanaa xain baxsax.

Kişi gedir, ağasına deyir:

– Mən belə şeyə təsadüf eləməmişəm.

Ağası deyir:

Getginən doğru olsa, səkqər kürə qoyun keçən il də kısır qalıp, ver onnar yesin.

Gəlip görür ki, qurtdar qoyuna dəymiyip. (Qoyunu qurda tapşırmax da o vaxtdan qalıp). Qoyunu verir. Qoyunu parçalıyıllar, qarnınnan quzu çıxır. Quzunu yemillər. Deyir:

– Ay canım, quzunu mən neyniyim?

Deyillər:

– Quzuya icazə almamısan. Bizim səfərimiz uzaxdı, biz gedəsiyih.

Yol eliyir qutdar. Həmin quzunu çəkillər ərşə. Deyillər, İbrahim peyqumbər əleyhissəlam İsmayılın başın kəsməh istiyəndə həmin qoç yenir, kəsillər. Ona görə deyillər, İsmayıl qurbanı təmiz, eyibsiz, qaragöz, qırmızı, cavan heyvan olmalıdı. Hamısı olub, dəynə, olub... sözdəri də qalıp.

## İBRAHİM PEYĞƏMBƏRİN QARĞIŞI

İbrahimxəlil peyğəmbərin atası gedirdi məscidə. Onnarda, o yerdə üç dənə, on dənə, qırx dənə allah qəyiriblər, biri onnan uzun, biri onnan gödək insan şəklində dəə, guya qırx dənə allahdı. Bunnar buna ibadət eliyirmişdər. İbrahimxəlil peyğəmbər, cavan oğlandı da, bir gün atasına deyir:

– Ata.

Deyir:

– Nədi?

Deyir:

– Ata, mən də gedim də o məscidə, mən də Allaha ibadət eliyim dəə.

Kişi istiyir qoymuya, arvad deyir:

– Qoy getsin də, niyə qoymursan?

Gedir görür, qırx dənə ağajı düzüblər ora, hamı gedir bını öpür bir-bir, gedir başdan çıxır, guya ibadət eliyillər.

İbrahimxəlil peyğəmbər baxır, axşam qəyidillər gəlillər evə. Gejə dədəsi yatannan sora, baltanı qoyur çiyninə düz gedir allahların yanına. Vırır otuz doqquzunu əzir, baltanı qoyur qırxıncının çiyninə, qəyidir gəlir.

Səhər xəbər gedir padşaha ki, əvin yıxılsın, allahları qırıblar. Hər kimə deyir,tapa bilmir.

Padşah hökm eliyir, İbrahimxəlil peyğəmbərin atasına ki, gərəh nətəhər olur-olsun, sən bını tapasan. İbrahimxəlil peyğəmbər axşam gəlir evə, deyir:

–Ay oğul, padşah ha belə deyir, gərəh onu, allahları qıranı tapasan!

Oğlu deyir:

–Məni apar padşahın yanına, mən tapım, mən bilərəm.

Dedi:

– Ə oğul, nejə?
Dedi:
– Hə, sən məni apar padşahın yanına.
Gedillər padşahın yanına:
–Salam.
–Əleykəsalam.
Dedi:
– Ə oğul, nejə taparsan?
Dedi:
– Bilirsən, nə var? Bu allahlar nə iş görübsə, böyüh Allahın ajığı tutub, qırıb.
Deyir:
–Ə, məhlim oğul, ağac ağacı öldürə bilər?
Deyir:
–Bəs ağaj da Allah olar?
Padşahın bına qəzəbi tutur, əmr eyliyir ki, böyüh bir düzdə, böyüh bir tonqal qalıyın, cavanı atın içinə.
Gedillər böyüh bir tonqal qalıyıllar, bir usta çağırır, deyir, bir manjanax qur. Manjanağ hazır olur. Dört tərəfdən nəfit atıllar, tonqal yanan vaxtı gətirib İbrahimxəlil peyğəmbəri qoyullar manjanağa, nəqqədər eliyillər manjanax qalxmır. Ustanı padşah çağırtdırır:
–Gəl, köpəyoğlu, mənnən var almısan, dövlət almısan, bı nə sirdi?
Usta deyir :
–Padşahi-aləm sağ olsun, bu böyüh sirdi, burda hər kəs öz bajısına zina eləsə manjanax qalxar. Heç kim yaxın durmur da, havayı şeydi. Qara adında bir nəfərin Çin adında bir bajısı varımış, deyir mən zina eliyijəm. Eliyillər. Eliyən kimi manjanax götürür İbrahimxəlil peyğəmbəri atır tonqalın ortasına, altında padşahın bir gözəl qızı var imiş. Qız da dərhal sıçrıyıb, minir manjanağa, deyir:
– İbrahimxəlil peyğəmbəri saxlayan Allah, məni də saxla. Deyən kimi manjanax bını götürür atır odun içinə. İbrahimxəlil peyğəmbər qıznan oturub söhbət eliyillər, məhlux da gözdüyür ki, bınnar yanajax.
İbrahimxəlil peyğəmbər görür ki, qatıra ardıç yüklüyüllər, ardıç qurudu diyən qatır oynuya-oynuya gəlir. Bir dəstə qız da kef

eliyir, camahatın çoxu qan ağlıyır. Qurbağa gedir suyu ağzında gətirir, kəhlih dağda qaqqıldıyır. İrahimxəlil peyğəmbər belə görəndə deyir:

Ardıç, göyün getməsin,
Qatır, qulun tutmasın,
Qız, cehizin bitməsin.

Deyir, onnara qarğış eliyir. O vaxdan ardıcın göyü getmir,qızın da cehizi bitmir. Kəhliyi də vırmax günahdı.

## PEYĞƏMBƏRLƏ AHULAR

Qurax idi. Peyqümbər gedir Turi-səniya, Allah-talaynan kəlmələşməyə. Ahular bilir ki, peyqumbər gedir meraca. Deyillər:

–Ya peyqumbər, meracda Allah-taladan soruş, gör, biz susuz öləjəyik, ya su içib öləjəyik?

İki dənə də ahu qoşullar.

Deyillər:

– Su olsa siz o daşın başında oynaşın, bizim xəbərimiz olsun. Siz gəlinjən bizim bağrımız partdıyar.

Allah dedi:

–Ey peyqəmbər, get, o ahulara denən ki, onlara su yoxdu.

Peyqəmbər gəldi. Ahular çıxdı qabağına, dedi:

–Allah-tala buyurdu ki, onlara su yoxdu.

Peyqəmbər əleyhisalam bir az aralaşmışdı. Ahular dedi ki, gəlin bırda oynaşax. Biz gedincən onnar orda səvinişsinnər, onnarın qəlbinə dəymiyəx.

Onnar o tərəfə qaçışdılar, bı tərəfə qaçışdılar. Peyqümbər bir on-on beş metr getmişdi ki, hava qaraldı, göy guruldadı, hər yanı su aldı.

Peyqümbər qayıtdı ki, Xudavəndi – aləm, sən xaliqsən. Sən dedin, mən də ahulara xəbər verdim.

Dedi:

–Ey Musa, o ahular ki, onnarın qəlbinə dəymədi, mən onnarın günahın bı ahulara bağışdadım. Qoy işsinnər.

## ARDIC

Deyir, bir gün peyğəmbəri qovurmuşdar. Peyğəmbər gəlib ardıc ağacının dalında gizdənib. Peyğəmbər alqış eləyib, deyib: "Ardıc, görüm səni il on iki ay göy qalasan!"

## ARDIC VƏ KƏKLİK

Deyillər, rəvayətə görə, imamları yeziddər qavırmış, gəlib ardışın yanında gizdənillər. İmamlar görür ki, kəhlih bınnarın yerin bildirəjeh. O zamannar kəklih danışırmış. İmamlar deyir:

– Kəhlih, sənin dilin lal olsun, ardış, sənin də yayın-qışın göy olsun.

O zamannan da kəhlih ta danışmır, ardış da yay-qış gömgöydü. Ona görə də ardışı kəsməh günahdı.

## KƏKLİK

Peyğəmbər qovax ağajının koğuşunda gizdənibmiş. İki kəhlih var. Onnarın biri "qovaxda, qovaxda" deyə-deyə peyğəmbərin yerini deyib. Bı kəhlih sona kəhlihdi, onun əti yeməlidi.

Bir kəhlih də var, ayağı qannıdı. İmam Hüseyinin qanına batıb, kəhlih gəlib İmam Hüseynin bajısının yanına. Bajısı soruşub ki, hardan gəlirsən?

Kəhlih deyir:

– İmam Huseyinin davasınnan gəlirəm, ey vay! İmam Hüyeyinin qanıdı, qərq olmuşam, ey vay!

Ayağı qannı kəhliyin ətini yeməy olmaz, günahdı.

## DİLLƏRİN YARANMASI

Firon dünyanın pədşahıydı. Adamların hamısı bir dildə danışırdı. Firon bir qala tihdirir. Bütün dünyanın adamları bu qalıya daş daşıyır. Bir həmli arvat da bı qalıya daş aparırdı. Yolda həmini yerə qoyur. Əlini tutur göyə ki, xudavəndi-aləm bı zülmü götürmə. O günnən sonra hərə bir dildə danışır. Minarə də yarımçıx qalır.

## GÖN ARXASI, YOXSA KÖŞƏ ARXASI?

Temurləng pətşah idi. Ermənilər Temurun yanına gəlir ki, şah sağ olsun, bizə bir gön arxası torpax ver, göy-göyərti əkəh, bejərəh. Pətşah fikirrəşdi yenişə-yoxuşa ki, bir gön arxası nə olan şeydi, lap ikisin verərəm.

Dedi:

– Razıyam, hərəəzə bir gön arxası torpax verərəm, bı nədi ki?

O vaxtdar da pətşahın özünün ayrıja torpağı varıdı. Teymurləng göstəriş verdi adamlarına ki, gedin ermənilərə iki gön arxası torpax verin. Ermənilər getdilər gönü köşə çəhdilər, uzun ip elədilər, gönün bir köşəsi oldu, məsələn, iki kilometr, üş kilometr. Torpağı bı qaydaynan hesapladılar verdilər ermənilərə.

Vaxt oldu məhsul götürüləndə Temurləng gördü ki, məhsul xeyli azalıp. Soruşdu adamlarınnan ki, əə, bı il məhsul niyə belə az oldu? Dedilər ki, qibleyi-aləm, torpağın filan qədərin verdirdin ermənilərə.

-Ayə, nə ermənilər?

Dedilər:

–Sən vermisən. Hərəmizə iki gön arxası.

Dedi:

–Ayə, mən gön arxası demişdim, köşə arxası ki deməmişdim. "Tfu" dedi, nəqqədir erməni vardı başdadı qırmağa. Bir-iki erməni qalmışdı. Temurləng dedi ki, bir vaxt gələjəh, eşidəjəhlər ki, erməni addı bir millət varmış, deyəjəhlər, görən nejə millətmiş bı ermənilər.

Ona görə də Temurləng bir-iki ermənini öldürmədi, sağ saxladı.

## ÜÇ BACI QƏBRİSTANLIQLARI

Deyillər ki, bı Qaracallı, Qarağaşdı, İşıxlı qəbirsannıxları üş bacının törəmələrinin qəbirsannıxlarıdı. Lap qədimi qəbirsannıxlardı. Adamları küpədə basdırırmışdar.

## ANA LAYLASI

Bir varlı heç bir ağaş bitmiyən yerdə ağac əhdirməh isdiyir. Bı adam car çəhdirir ki, kim bir ağac əkib ona qullux eləsə, ona filan

qədər pul verəjəm. Hərə bir ağac əhdi. Ona qullux elədilər. Bıra oldu bir meşəlih. Bıra yavaş-yavaş heyvannar yığışdılar, oldu bir aləm. Bir gün bütün heyvanajatdar yığıldılar. Dedilər ki, bizə bı gözəlliyi bəxş eliyən adama gərəh bir yaxşılıx eliyəh. Görən bı ağacın sahibinə əhsən desin. O dedi, nə eliyəh, bı dedi, nə eliyəh? Dedilər, gəlin, hər bir yaranmış, öz balasına öz dilində bir layla desin. Hərə bir layla dedi. Axırda bülbül dedi. Bülbül deyəndə hamının laylasını rədd elədilər, bülbülünkünə razılıx verdilər. Bülbül bulara örgətdi. Hamı bülbülün laylasını oxumağa başdadı.

Bir gün ana sübh tezdənnən öz balasına layla deyib oxuyur:

Əziziyəm gündə mən,
Kölgədə sən, gündə mən.
İldə qurban bir olur,
Sənə qurban gündə mən.

Meşədəki heyvannar bını eşidir. Deyillər ki, heş bir yaranmışın laylası ananın laylasına bənzəməz. Gəlin,bını örgənəh. Bütün heyvannar onnarın laylasına örgəşir.

## QARDAŞ MƏHƏBBƏTİ

Əzrayıl gəlir bir qadının yanına ki, ya oğluun, ya əriin, ya da qardaşıın canın alajem. Qadın deyir:

Oğlum ölər, beldən allam,
Ərim ölər, eldən allam.
Qardaşım ölər, hardan allam?

Yalvarıram ki, qardaşıma dəymə. Bı sözə görə Əzrayıl onnarın heş birinə dəymir, cannarını almır.

## ŞEYTAN FƏHLƏLƏRİ

Şeytan yolda durmuşmuş. Uşax bir daş atır, gedif şeytanın gözün tökür. Şeytanın gözün tökəndə şeytan diif ki, gör sizin başınıza nə oyun açıram, siz də görəsiz. Biz şeytan fəhləsiyih. Şeytan bizim qəlbimizdə olmasa, biz işdəmərih. Şeytan bunnarın hamısının qəlbindən çıxır. Qurban olduğuma səhər xəbər gəlir ki, bütün bəndələrin hamı oturuf qəbiristannıxda. Gedir qəbiristannığa, deyib, a bəndələrim, nə iş görürsüz? Deef ki, onsuz da öləjəyih. Gəlmişih bax burda

oturajayıx. Nə vaxt öldüh öləh. Deyif: "Bu heş kəsin işi deyil. Bu şeytanın işidi". Gedif şeytanın əlinə-ayağına düşür. Deef ki, qurban olum, başına dönüm, da xayişnən, minnətnən, dol mənim bəndələrimin qəlbinə, mənim bəndələrim işdəsin.

## HUMAY QAYASI

Deyillər, Humay addı bir kadın varıymış, uşağı olmurmuş. Niyət eliyif gedir həmən qəyənin ortasında, o cığır görünən yerin baş tərəfində bir daş varmış, başın qoyur o daşın üsdünə, yatır, onnan sora uşağa qalır. O vaxdan ora ziyarətgah olur. Ora su da çəkiblərmiş. Yeri indi də qalır. Sora qəyənin arası uçur. Aşağıda deşihdaş var ha, qabaxlar yerimiyən uşaxları da gətirif həmən daşdan keçirərmişdər.

## DAŞ HƏRƏMİ– HƏRƏM DAŞI

Deyillər, el dağa gedəndə bir kadının sancısı tutur. O daşın dibində həmləni qoyur yerə. O daş kadını naməhrəm gözünnən gizdiyir, ona görə də o daşın adı qalır Daşhərəmi. Hərəmdaşı da deyillər.

## KƏHƏRDAŞI

Çobannarın bir addı-sannı seytal atı varmış. Adnan deyilirmiş. Gedif orda arxaş salıflarmış. Urufu ədətdi, at dönüf olur daş. O vaxtdan da həmən daşa Kəhərdaşı deyillər.

## ÇOBAN DAŞI

Çoban varmış dana, qağa... Çoban gedir qoyunun yığır, yatızdırır o düzdə. Göy gurulduyır, ildırım şaqqıldıyır, urufu ədətdir, çoban tilsimə düşür. Qoyunnu-quzulu, idti-pişihli daşa dönür. Qabax əli-ayağı bildirirdi, sora uşaxlar zorruğuna salıf, qırıflar. Genə də çobandı, baxırsan, özü də duruf.

## QOÇ DAŞI

Deyir, tərəkəmənin sürüsü bərad ottuyurmuş, sürüün qoçu Allah-taalanın əmiriynən dönüf oluf daş. Soralar tərəkəmələr bır-

dan gəlif evə keçəndə o daşın başına dolanardılar, öpüf sora keçərdilər. Ora ayrı yerrərdən ziyarata da gələrdilər.

## QIRXLAR PİRİ

### I mətn

Qırxlar piri var. Ora hər yerdən ziyarətə gəlillər. Deyilənə görə, 40 nəfər oturub namaza, ibadətə. Elə orada da ölüblər. Deyilənə görə, bunnar bir kişinin (peyğəmbərin) övladdarıdı. Bınnar daşa dönəndə kişi Tanrıya şükür eliyip ki, mənim övladdarım ibadət vaxtı ölüblər. Bı, Tanrının xoşuna gəlib. Ona bir övlad da verib.

### II mətn

Ora tatdan, tərəkəmədən gedənnər çox olub.

Guya deyilənə görə, qoşun yeridiblər ora, neyniyə bilər? Qırx qızın başın kəsiblər. Bıra kənd yeri olub da, ora oba olub. Başdarın kəsiflər doğruyuflar. Orda kanal varıydı. Arxa da qırxlar arxı deyirdilər. Kəsif onnarın qanın töküflər. Kanaldan da gedən su guya qırx qızın qanıdı. Ziyarətgahıydı. Ocaxıydı.

### III mətn

Zəngəzurun Qarakilsə kəndindəki Qırxqız qayasının dibində bir göl var. Deyirlər, bir gün qırx qız bu göldə çimirmiş. Birdən hay düşür ki, qoşun gəlir. Qızdar geyinməyə məcal tapmırlar. Göyə üz tutub deyirlər: "Allah, sən bizi qurtar, rüsvay olmayax!"

Allah bunnarın sözünü eşidir. Qaya parçalanır, qızlar övliya olub qayaya çəkilir.

İndi Qırxqız qayası ocaxdı. Camaat ora ziyarətə gedir.

## ÖKÜZ PİRİ

Gorus rayonunun Xətif kəndi var. Orda iki erməni bir-biriynən ispor eliyir. Deyir, mən filan çayın suyunu bıra gətirəjem. Bı çayın yolunda erməni bir müsəlman ustuya pir tihdirir. Erməni ustuya deyir ki, gərəh filan erməni suyu çəhdirməmiş, piri tikəsən. Müsəlman ustanın tihdiyi pirə indi "vəng" deyillər.

O biri erməni görür ki, vəngin hazır olmağına bir şey qalmıyıb. Gedir ağ alıb gejəynən çəkir dağın üstünə. Müsəlman usta ağı su bilib qorxur. Öküzünü  qabağına qatıb qaçmağa başdıyır. O qədər qaçır ki, öküzün bağrı çatdıyıb ölür.

Erməni səhər görür ki, dağdan aşağı sallanan ağdı. Sora nə qədər ustanı axtarırsa tapa bilmir. Vəng yarımçıx qalır. İndi ustanın öküzünün öldüyü yer pirdi. Ona “Öküz piri” deyillər. Adamlar o pirə qurban deyir, ziyarət eliyillər.

## CAVANŞİR ATANIN GÜMBƏZİ

### I mətn

Üstü tağbəndiydi, içinə daş döşənmişdi. İçində, ortada göy daş varıdı. Deyillər, kim bırdan bir daş aparsa, dövlətdi olar. Babam Kalbayı Mehdi gedib ordan bir daş gətirir. Gejə yuxuda görur ki, Cavanşir ata deyir: "Kalbayı, mənim daşımı niyə gətiribsən? Apar yerinə qoy.  Aparmasan, əvəzində oğluu əlinnən alacem". Babam səhər yuxudan durur, ancax daşı aparıb yerinə qoymur. Günorta oğlu ölür. Onnan sora "tobalatma" deyib, aparıb daşı  qoyur yerinə.

### II mətn

Cavanşir gümbəzi Çınqıllının yanındakı təpədəydi, sora 50-ci illərdə topa tutub dağıtdılar. Çınqıllı batmış  şəhərdi, orda böyüh bir şəhər varmış. Deyillər, Cavanşirin şəhəriymiş. Cavanşir vırışmada ölüb, aparıb o təpədə basdırıblar, sora oldu qəbirstannıx. O gümbəzin salamat vaxtı içinə  də girmişəm. İçində, düz ortasında bir böyüh daş varıydı. Bir də divarboyu, yerdən bir az yuxarıda daş oturajaxlar varıydı. Uçannan sora onun yazılı daşdarı, şəkilli daşdarı varıdı. Ermənilər maşınnan daşıdı, o ətrafdakı kətdərin adamlarını aparıb divara hördülər.

## MƏLİK ƏJDƏR GÜMBƏZİ

Cijimli kəndinin yuxarı başında yerrəşir. Qoşa gümbəzin biri Məlik addanır, o birisi Əjdər addanır. Əjdər gümbəzinə "Kar gümbəz" də deyillər. Pəhlivannar o gümbəzi tikəndə biri  o birinə daş verirmiş. Daş verən deyirmiş, "Daşı al". Amma hörən eşitmirmiş.

Daş verən qarğıyar, deyər: "Görüm səni kar olasan". Bı sözdən sora gümbəzi hörən pəhlivan yox, onun tikdiyi gümbəz kar olar. İndi Malik gümbəzi səsdənir, amma Əjdər gümbəzi səsdənmir.

## QARAĞAŞLI GÜMBƏZİ

Deyillər, bir qıznan bir oğlan varmış. Bı dərəən arasıynan güjdü sel gəlir, qız qalır o tay düzdə-Gəyən düzündə, oğlan da qalır bı tayda. Bınnar bir-birin çox istiyirmişdər, ancax hələ evlənmiyibmişdər. Oğlan bı taydan ha baxır qızı görəmmir, qız o taydan ha baxır oğlanı görəmmir. Sora başdıyallar hərə bir gümbəz tihməyə. Gümbəzdər hasıla gəlməmiş, oğlan da, qız da ayrılığa dözəmmiyib ölüllər. Qız Gəyən düzündəki yarımçıx gümbəzdə basdırılır.

## AT İRİZİNİN PİRİ

Qurban olduğum yolnan gəlirmiş. Gəlib, bir meşənin qırağında atı yorulub bının. Orda su çıxırmış. Əyilib atı su içə. O atın irizi qalıb həmən orda. Bir dənə də başdaşı əmələ gəlif qəybinnən qurban olduxlarımızdan. Ora hamı gedirdi. Çırax yandırıllar, nəzir qoyullar.

## AĞ YALIN PİRİ

Qurban olduğum, canım qurban, maviyələr başın kəsmişmiş. O biri qardaşına ayan olub da. Deyib, get oğlum, harda o sənin qabağaa çıxdı onu orda dəfn eliyərsən.

Bı gəlib bizim kəndin özündə olub e bı iş. Tarovluda. Gəlib Ağyalın piri deyillər. Orda qurban olduğumu basdırır.

Camaat durub gedip görüb ki, orda bir başdaşı var, yazılı. Oranı həmişşə ziyarat edirdıx. Qurban olduxlarımızdan qalmış bir ocağıydı da ora.

## OĞLANNICA PİRİ

Bıra elə bir yerdi ki, ora çıxmax çətindi. Düz qayanın başındadı. Rəvayətə görə, guya bir qadın orda yayma bişirirmiş. Onun da

bir uşağı varimiş. Həmin vaxt uşağı təmizləməh lazım gəlir. Arvad bilmir neyniyə. Götürür kündəynən uşağı təmizdiyir. Ona görə də onnar Allahın qəzəbinə düçar olullar. Daşa dönüllər. Bı saat da orda oxlay, kündə, saj da var.Hamısı olduğu kimi, daşa dönüblər. Camaat  ora nəzir-niyaz deyirdilər.

## QATIRIN ZİYARƏTİ

Ziyarət ojağı (Ziyarət dağındadı) uşax paylıyırdı. Bir harsının da uşağı olmurmuş. Gedif mollanın, seyidin yanına. Deyif:

– Get ziyarata, uşax qismətin var.

Gəlif qatırı minif, ziyarata qatırnan gedif. Elə ojağı qatırnan da fırranıf. İl tamam olanda, qatır axı qulunnamır, qatır qulunnuyuf, amma arvadın uşağı olmuyuf. Arvad gəlif mollaya deyif ki, sən yalan demisən! Molla da bına deyif ki, sən getdin ziyarata, yoxsa qatır getdi? Qatır getdi, dolandı, ona görə də qatır qulunnadı.

## MAZANNƏNƏ

Mazannənə adlı bir arvad dağda sacı qoyub çörəh salırmış. Nəvəsi də ona köməh eliyirmiş. Bu zaman yer üzünü su almağa başdıyır. Su qalxdıxca uşax dağın başına çıxır. Mazannənə suyun altında qalır. Bu o vaxt imiş ki, Nuh peyğəmbər gəmi ilə gəlirmiş. Diri dağına çatanda uşağı görüb gəmiyə götürür. Uşax diri qaldığına görə dağa "Diri dağı" deyillər.

## BUĞAKƏR

### I mətn

Bir kasıp kişi oler. Bunun bir əz boğdası oler, bu boğdanı əhməh isder. Bu kişi öküz tapammer, Allaha yüz tuter, diyer:

– Ay Allah, axı balalarım acınnan qırıler, nətəri eliyim ki, bu boğdanı əkim?

Kişi gecə yater, yuxuda görer ki, bir kişi indi  gəlip buna diyer: "Sən səhər toxumu apar zəmiyə, əhməğnən işin olmasın". Kişi səhər tezdənnən durer, toxumu aparer səper zəmiyə, ama kişinin həfsələsi gəlmer. Diyer:

– Vallah, gizlenecəm, görüm bu nə əməldi?

Kişi girer kola. Bir az gözler, görör ki, buğa nemrazınnan çıxer, başler zəmini əhməğə. Kişi gözler, zəmini əkip qurtarıllar. Durer ki, görsün bu nə işdi, elə yaxınnaşanda buğalar yox oler. Hələ bunnan da əzəl bir qələ buğa açıler geder çıxer daş üsdünə. Burdan da yerin adı qaler Buğa əkər (Buğəkar).

### II mətn

Bir kişi gedip, Buğakərin qapısıın birin çıxarıp ki, gətirip salsın qapsına, daynə. Alıp dalına gətirip. Gətirip, evə gətirəndə qapı düşmüyüp bının arxasınnan, yapışıp. Yığılıp öyladı-zadı ki, evin dağılsın, apar qoy yerinə, daynə. Onnan sora, dedilər, qorxuplar.

## OVÇU PİRİM

### I mətn

Ovçu Pirimin əvvəlcə adı varıymış. Diri dağında yaşıyırmış. Bir gün Ovçu Pirimin oğlu maral dərisi geyir, çıxır dağa. Ovçu Pirim onu öldürür. Görür ki, oğludu, o vaxtdan adını dəyirşir.

### II mətn

Avçı Pirim çox avçılıx eliyip, çox açılmıyan dərtdərə çarə eliyip. Bir gün gedip ava görür ki, bir tühlü, qıllı bir heyvan var. Avçı Pirim tüfəngi tutdu bına sarı, gördü yox, imkan yeri yoxdu bını vırmağa. Heyvan Avçı Pirimə dedi:

– Adın nədi?

Dedi:

– Mən özüm.

Avçı Pirim adın demədi, adın dandı. Avçı Pirim gördü ki, yox ee, bı bına qalib gələjaxdı. Avçı Pirim gördü bı neyniyir, o da onu eliyir. Avçı Pirim əlin basdı nefdə, sürtdü üsdünə. Avçı Pirim oddan yalavı götdü vırdı çuxasına, çuxa başdadı alışmağa. O da odu götdü basdı öz üsdünə alışdı. Bı qıllı heyvandı, dərhal başdadı yanmağa. Avçı Pirim çuxasın soyundu atdı bir qırağa, qaşdı gizdəndi. Bı qıllı heyvan alışdı yandı, çığıra-çığıra qaşdı o yana, qaşdı bı yana. Bı heyvanın yoldaşdarı töküldü gəldi.

–Ayə saa nooldu, kim elədi səni belə?

Dedi:
–Mən özüm.
Dedilər:
–Həə?
Dedi:
– Hə.
Dedilər:
–Onda öz cəzandı çək.

**III mətn**

Bir gün Avçı Pirim getdi peyqumbərin yanına. Dedi:
–Ya peyqumbər, bı heyvanajatın dilini maa örgət.
Peyqumbər dedi:
–Dil başa bəladı.
Dedi:
–Yox ee, ya peyqumbər, noolur-olsun bı heyvannarın dilin maa örgət.
Pequmbər dedi:
–Yaxşı, heyvannarın dilin öyrədim saa. Amma bı şərtnən ki, gərəh bu sirri heş kəsə demiyəsən.
Dedi:
–Yaxşı.
İndi heyvannarın hamısı danışır, kuşdarın hamısı danışır, Avçı Pirim bilir. Arvat qır-sakkız oldu, yapışdı bının xirtdəyinnən:
–Gərəh, maa örgədəsən. Niyə sən o kuş orda nə deyirsə, başa düşürsən? Gərəh maa da örgədəsən, mən də başa tüşəm.
Avçı Pirim nəqqədir elədi, arvat əl çəhmədi. Avçı Pirim qaldı labıt. Dedi:
–Yaxşı, arvat, bir icazə ver, gedim bir hərrənim gəlim saa cavap verim.
Getdi gördü, bir qoyun sürüsü var, ottuyur. Bir arx var, enni arxdı. Qoç bir qoyunu qavır. Qoyun, xırdaja heyvandı da tez sıçradı, bı arxdan getdi o tərəfə. Qoş da ki, ağır qoşdu, quyruxlu qoşdu. Qoyun qoça dedi ki, sən də adda bıra. Qoş dedi ki, yox, mən addamıram.
Dedi:
–Noolajax, adda da.
Dedi:

–Yoxx, axmax olma, mən Avçı Pirim dəyiləm ki, dişi sözünə baxam, soora da məğlub olam. Sən olmazsan, gedərəm ayrı qoyunun yanına.

Avçı Pirim bını eşitdi. Axşam  hərrəndi gəldi əvə. Arvat genə başdadı ki, heyvannarın dilin örgədərsən maa?

Avçı Pirim dedi:

–Arvat, ta dərsdəri keşmişdi, ta bı sirri saa deyəmmərəm.

Oydu ki, sirri arvada vermədi.

## OMBADURMA

### I mətn

Vallah, bizdə afçılar "ombadurma" deyərdilər. Ovçu bir silahnan yüz ov vırsa, onun qavağında maral omba durar. Bizim tərəflərdə bir kişi ov vıranda görüf ki, tüfəngi qaldıranda bir zənən, qız xeylağıdı, silahı salanda olur ov, silahı qaldıranda olur zənən xeylağı. Üç dəfə bı minvalla eliyir, baxır ki, yox, bırda bir sirr var. Kişi gətirir silahın basdırır. Onnan indiyənə qədər deyillər ki, hər kimin qavağında ov omba dursa, silahın  basdırmasa, silahın qəzəbinə gələr.

Ovçu ovun atmasın,
Ətin tərəziyə qoyub satmasın,
Ovçu sənin isbin– kisbin partlasın,
Bı dağda bir maral yaman ağladı.

### II mətn

Hansı avı yüzə kimi vırsan, gərəh ta o avı vırmıyasan. Vırmax istiyəndə dönüb olur məlaykə, göyərçin. Bizim kətdə iki adam avın qanununu pozduxlarına görə cəzalanıflar. Balakişinin əliyini Allah ilana döndərif, vırıf. Biriin də gözü kor oluf, əyağı topal. Ona görə ki, avda əlih gözünə maleykə kimi, qız kimi görünür, bı baxmır, vırır, vırdığına görə də elə olur.

## QƏDİM DƏFN ADƏTİ VƏ ÖLÜMÜN YARANMASI

### I mətn

Deyir, bizim peyğəmbər əleyhisalam dünyaya gələnə qədər ölüm olmuyuf. Beş yüz il, min beş yüz il yaşıyarmışdar. Qojalanı aparıf qoyurmuşdar meşələrdə, qurd-quş yeyirmiş. Amma bizim

peyğəmbər dunyaya gəlif bı vəziyyəti görənnən sora, gedif Turi-Sənaya Allahnan kəlmə kəşip, deyip: “Xudavəndi-hədiyyət, mən millətimin belə yaşamağını istəmirəm, ölüm haxdı, yaranan torpağa getməlidi”. Onnan sora ömur veriflər bizə, ölüm ömrü: yüz əlli. Hesab elə ki, yüz il də yaşayannar oluf, indi yenif yetmişə, həştada.

### II mətn

Bir kişinin atası bərk qojalmışdı, oğluna dedi:

–Bala, çılçanı götü, apar dədəmi qoy meşədə, gə. Çılçanı da ver birisinə. Ölmür da.

Çılçanı verir, aparır. Oğlan bıçax götümüşmüş. Kişi görür ki, bı çılçanın da yarısın kəsip gətirip. Deyir:

–A bala, onu niyə kəsdin?

Deyir ki, bırda lazımdı, mən saxlıyajam.

Deyir:

–Nəyə görə?

Deyir:

– Ona görə ki, sən də qojalassan, mən çılçanı hardan tapajem? Səni büküf ona, aparıf qoyajem meşədə.

Kişi barmağın dişdiyir: "Ay-hayy, mən neynəmişəm, gör? Bı uşax mənnən nə qədər ağıllıdı".

Gedir ayrıdan atasın alır çiyninə, gətirir qoyur əvinə.

Bınnan əvvəl qojalmax yoxuydu, dünya binayət olanda. Mən Kərbala Ürüstəm kişini gördüm, Eynəzirdə, bı tərəfdə bir kət var, orda. Yüz əlli yaşı vardı, diş gətimişdi ayrıdan.

### III mətn

Qojaları qabaxjan səbətə qoyurmuşdar. Sora aparırmışdar bir xaraba yerdə qoyurmuşdar, basdırmax yoxumuş. İravayətə görə, biri deyir ki, ay bala, səni də qojalanda səbətdə gətirip qoyajaxlar bıra. Oğlan fikirrəşir, sora gedip dalına alıp gətirir əvə. Əvdə qojalıp ölür.

### IV mətn

Babam nağıl eliyirdi ki, keşmişdə insannr ölmürmüş. Olüm yox umuş. O qəddər insannar qojalırmış. Haman qojalmış babanı, atanı təyin yer varımış, ordan salırmış, orda ölürmüş.

Bir dənə də bir kişi... həddinnən artıx ölüm vaxtı gəlir. Oğlu

şəllənir ki, aparsın genə o təyin olunmuş yerdən salsın öldürsün. Yolda yorulur, qoyur yerə ki, dinjəlsin, atası gülür. Oğlu baxır deyir, ata, mən səni özün bilirsən ki, el adətinə görə ölümə aparıram, sən də gülürsən.

Deyir ki, yox eyy, ay bala, ona görə gülmürəm. Mən də atamı aparanda, bırda qoydum yerə dinjəldim. O yadıma düşdü. Onuçun gülürəm. Onnan sora, oğlu fikirrəşir , ta aparmır. Deyir, həə, mənim də oğlum məni aparajax qojalanda. Qaytarır gətirir. Onnan sora insannara ölüm həkk olunur ilahi tərəfinnən. Guya ilahi tərəfinnən öldürməyə Əzrayıl təyin edilir. Bala, belə rəvayət eliyirdilər.

## GÜMULUQ PƏHLƏVAN

Yanımda danışıblar eşitmişəm ki, bı gümbəz Gümulux pəhlivan gümbəzidi. Bajısıynan bırda yaşıyırmışdar. Gümulux pəhlivan çox uzun adam olub. Boyu beş-altı metir olarmış. Gümbəzin bir qapısı varmış, həmişə yatanda Gümulux pəhlivan ortası deşih bir daş varıymış, gümbəzin qapısını onnan örtərmiş. Belə böyüh daşnan örtməyinin səbəbi oymuş ki, qorxurmuş bajısını qaçırdallar. Gümulux pəhlivanın bajısı çox gözəliymiş. Bı çaylarda onnan gözəl qız yoxuymuş. Gümulux pəhlivan yeddi gün yatırmış, yeddi gün oyax qalırmış. Gümbəzin qapısın da ona göra böyüh daşnan örtürmüş kü, bı yuxuda olanda gəlib bajısını qaçırmasınnar.

Aşağı kətdərdə bir oğlan Gümulux pəhlivanın bajısını istiyirmiş. Ancax Gümuluxdan həm qorxurmuş, həm də imkan eliyib qızı qaçırəmmirmiş. Qızın da rayı varımış bı oğlana. Bir gün həmin oğlan yoldaşdarıynan gəlir qızı qaçırmağa. Haman gümbəzin ağzına çatanda qız içəridən böyüh daşın deşiyinnən işarə eliyir ki, Gümuluğun oyanmax vaxdıdı, gedip yeddi günnən sora gəlin. Bınnar qayıdıb gedillər. Yeddi günnən sora qırx cavan oğlan gecə gəlir qızı qaçırmağa. Nəkqədər eliyillər, daşı gümbəzin ağzınnan götürə bilmillər. Gümulux yatmamışdan qabax qızı da salırmış içəri, birəlli daşın deşiyinnən yapışıb çəkirmiş gümbəzin ağzına. And içibbiş ki, kim mən yatanda bı daşı götürüb qırağa qoysa, bajımı ona verəjem. Qızı isdiyən oğlan özüynən bir ling götürübmüş. Lingi salır gümbəzin divarıynan daşın arasına, daşı itəliyib adamkeçər yer açır. Qızı çıxarıb qaçıllar. Gümuluğun yeddigünnüh yuxusuun birinci

günüymüş. Yatdığı yerdə qəfil bına agah olur ki, bajısını qaçırıblar. Ayılır, görür gümbəzin qapısı açıxdı, bajısı da yoxdu. Tez çıxıb qarannıxda çayaşağı yüyürür, bıralar hamısı meşəliymiş. Bir yerdə kəsilmiş ağacın qələmi batır Gümuluğun dabanına. Gümulux yolunnan qalmır, qanı axa-axa çayaşağı yüyürür, gəlib Mollunun qabağına çıxır. Ürəyinə damır ki, bajısın bu kətdən qaçırıblar. Haylıyır, camaat tökülür çayın qırağına.

Gümulux deyir:

– Mən demirəm, məəm bajımı niyə qaçırıblar, anjax mən o adamı görməh isdiyirəm. O adam mənnən gücdu olmalıdır ki, bajımı qaçırda bilsin.

Oğlanı gətirib qanı çox axdığınnan halsızlaşan Gümuluğa göstərillər. Gümulux baxır ki, bapbalaca bir oğlandı.

Deyir:

–Halaldı, sən ki, məəm bajımı bı boy-buxunnan qaçıra bilibsən, demax sən mənnən güjdüsən.

Gümulux bını deyib canın tapşırır. Gümuluğu gətirib həmən gümbəzdə basdırıllar.

## QARAĞAŞLI GÜMBƏZİ

Onun nə vaxt tikildiyini görən olmuyuf. İndi uçuluf. Kəndin qırağında üş daş da varıydı. Həmən daşdardan birin bizim kətdə bir nəfər, Səttar adında adam gətirif yandırdı ki, əhəy eləsin, xəstəlih tapdı, nə illah elədi sağalammadı. İlan əti yedi, donuz içalatı yedi, xeyri olmadı. Bir qəşəh daşıydı, göbələhli daşıdı. Qalan iki daş bı sahat da qalır. Biri gələh daşıdı, biri də qoşdu. Deyillər ki, orda Uzunbulux addı bir adam yaşıyırmış. Oqqədər uzunuymuş ki, əlin uzadıb çaydan su götürüf içərmiş. Həmən adam evdə olmuyanda kətdən bir adam gəlif gümbəzi uçuruf. Uzunbulux gəlif görüf ki, əvi uçuluf, qarğış eliyif. Deyif ki, hər kimsə ki, mənim evimi uçuruf, erkəyi yarımasın, dişisi qarımasın. Sora əvin təzədən tikif.

## QALA QAYASI

### I mətn

Deyillər ki, bı qalada nəhəh adamlar yaşıyırmış. Qəyənin aşağısı da cin-şəyətinnən doluymuş. Orda bir Şeytan bulağı var,

indi quruyuf. Qalanın ətrafında tikili yerrəri varıydı, küplər varıydı, özüm görmüşəm birini. Qəyənin aşağısında köhnə qəbirsannıx yerində əhəy yandırmaxdan ötrü çala qazırdıx. İki küp çıxdı, içində bir yığın sümüh. Bizim kəttə bir Xasməmməd varıydı, çox cantarax adamıydı. Sümüyün içinnən omba sümüyünü götürdü, öz qıçına tutdu, sümüh Xasməmmədin başına çatdı. Gör nə azman adamlar varıymış ha o vaxdar.

### II mətn

Deyillər, qabaxlar orda qala varmış. Mən özüm çıxmışam, kaha var, ojax yeri var. Ocax lap qəyənin burnundadı, bir dənə də qəbir var. Deyillər, bırda ocax yanırmış, bir ocax da Muradxanın üstündəki qalada yanırmış. İndi həmən yerə "Qalalı" deyillər. Qala qəyəsinə bircə yerdən yol var. Deyillər, orda qaroul çəkərmişdər. Gəlif gedənnəri bilərmişdər.

## ARAZ ÇAYINI ADLAYAN ADAM

Köhnədə insannar çox uca olub. Bəs nejə olmuyub ki, Araz kimi bir çaydan Abəzər adda bir kişi addıyıp keçirmiş.

## TƏKGÖZ DİV

Deyillər, bı Başaratın dağlarında mağarada bir güjdü təhgöz adamaoxşar bir şey varımış. Yırtıcıymış, mal-heyvana yaman korrux verirmiş. Deyillər, divdən əmələ gəlməymiş. Soralar heş bilmərəm, necə olub?

## KOROĞLU ARŞINI

Koroğlu görüf bəzirgannar karvannan, qəflə-qatırnan gəlir. Ətraf kətdərin camahatını yığır ora. Qəflə-qatırı boşaltdırıf. Ölçü tapılmıyıf, Koroğlu iki təpəən arasını ərşin eliyif, əliynən ölçüf, paylıyıf paltar-parçanı camahata. O vaxtdan da iki təpəən arasıın adı qalıf “Koroğlu ərşini”. Cavanşir ata gümbəzinnən azca əyənədi.

## KOROĞLU DAŞI

Əfsaniyə görə, Koroğlu Qıratını minip, daşın birin tərkinə bağlıyıp, birin də qabağa. Qojaların dediyinə görə, həmin düzdə çapıb. Ağəp (Ağarüp) deyillər o düzə. Qubaddıda da var, Cəbrayılda da var, düzəngahlarda ağarüplər var. Bizdəki iki böyüh daşdı. Onun üst tərəfin yonuplar, çaladı, çırağban yeridi. Yağ tökürmüşdər, yandırırmışdar işarə üçün. Arazın o tayınnan bəri işarə verirmişdər gejələr. Bı daşdarı həmən Koroğlu gətirip qoyup.

## HƏZRƏT ƏLİ VƏ SALSAL PƏHLƏVAN

Deyillər ki, bu  pir Salsal pəhlivanın bajısıın qəbridi. Həzrət Əli eşidir ki, Salsal pəhlivan addı bir pəhlivan var. Deyir, necə ola ki, bı pəhlivan məni saymıya. Gəlir indiki Qalalıya, dönür olur qoca bir kişi. Salsal pəhlivan gəlib görür ki, onun ottuğunda bir qoca kişi atını bağlıyıb, heş bını da saya salmır.Deyir:

– Sən nə karəsən ki, mənim ottuğuma at bağlıyırsan?

Deyir:

– Ə, gedin mənim qalxanımı, papağımı, qılıncımı gətirin.

Qırx pəhlivan Salsalın qalxanını, qırx pəhlivan papağını, qırx pəhlivan da qılınjını sürüyə– sürüyə gətirillər. Salsal pəhlivan deyir ki, gərəh əvvəlcə mənim bı zincirri qalxanımı yerdən qaldırasan, sora vırışax. Həzrət Əli deyir:

– Mənim də şərtim var, gərəh əvvəlcə mənim qəməmi yerdən qaldırasan, sora vırışax.

Salsal pəhlivan əlin atıf istiyir qəməni qaldırsın, görür qaldıra bilmir. İkiəlli  yapışır, qurşağatan torpağa batır. Sora Həzrət Əli çöçələ barmağını ilişdirir Salsalın zəncirri qalxanına, fırrıyıf tulluyur göyə. Salsal görür ki, qalxan yerə düşsə, torpağa bataceh, deyir, qurban olum, elə elə ki, yerə düşməsin. Həzrət Əli qalxanı genə bir barmağıynan tutuf yerə qoyur.  Başdadılar, vırışmağa. Salsal qılıncı çaldı, dərəni duman bürüdü. Duman çəkiləndə Salsal gördü, qabağında qoja kişi dəyil, bir cavan oğlandı. Bildi ki, bı Əlidi. Namısa boğuluf dedi:

–  Vır.

Əli qəməni qoydu Salsalın təpəsinə, dedi:

–Haran ağrıyır?
Salsal dedi:
– Beynimin içi.
Həzrəti Əli bir az sora soruşdu ki, indi haran ağrıyır?
Salsal dedi:
–Ürəyim.
Əli dedi:
– Sənin ürəyində gavırrıx qalır.
Bını deyif qəməni çəhdi, Salsal pəhlivan iki parça oldu. Xəbər getdi Salsalın bajısına. Salsalın bajısı bir gözəl qızıydı. Həzrət Əli gördü, bıdı, bir gözəl qız gəlir, vallah əndamına baxırsan, hayıl–mayıl olursan.Qız dedi:
– Hər kimsən, bilmirəm, əhd eləmişəm ki, qardaşımı kim öldürsə, ona gedim. Çünki çox zalımıydı. İndi sən öldürübsən, sənə gərəh gedəm.
Həzrət Əli dedi:
– Yaxşı, alaram, anjax səfərdən qayıdannan sora. Onatan gözlə. Həm də "lailəllahi" ürəhdən qəbul elə, sora alaram.
Bını deyif, Əli qoşunu gəlməmiş getdi gavırrarın üstünə. Qayıdıf gələndə gördü ki, qız xəsdədi, can üsdündədi. Amuduxda bir otax tihdirir, qız ölənnən sora aparıf basdırır ora. İndi həmin qızın qəbridir, Amuduğ piri. Onun yanında bir bulax var, bir həftə, qırx gün su gəlir, sora bir həftə, qırx gün quruyur. Deyillər ki, qız sözdə "lailləlahı"ı qabul eləmişdi, ürəhdə yox. İndi su gələn vaxtı "lailləlah" dı, gəlmiyən vaxtı gavırdı.

## SULTANBUD GÜMBƏZİ

İki oğlan bir qızı isdiyirmiş. Biri Maxsuddu kəndinnən imiş, biri də Qaradağlı kəndinnən. Onnar şərt kəsillər ki, gecə hərəsi bir təpə qayırsınnar; kimin təpəsi uca olsa, qızı o alsın. Maxsuddu kəndinnən olan oğlanın qayırdığı təpə uca olur. Ancax Qaradağlı kəndinnən olan oğlan razı olmur. Bınnar davıya başdıyıllar. Maxsuddudan olan oğlan ölür. Bının cənazəsini basdırıllar, ancax oğlanın budu döyüş meydanında qalır. Bacısı qaradağlılardan icazə alıp qardaşının budunu bırada basdırıp. Qəbrin də üsdündə gümbəz tihdirir. Ona görə də, bı gümbəz Sultanbud addanır.

## QIZ QƏBRİ

Bizim kəndin yuxarı başında "Yazı" deyilən bir düzən yeri var. Onun yaxınnığında Şah yolu, Şah dərəsi, Şahtaxtı addı yerrər var. Belə danışıllar ki, şah öz qoşunuynan gəlir bırdan keçir. Şah yolu, Şah dərəsi addarı da şahnan bağlıdı. Belə danışıllar ki, şah tutduğu yeri bəlli eləməh üçün bir yerə torpax tökdürür, bir təpə əmələ gəlir. O təpə indi də durur. Şahın qızı ölür bırda. Qızı bırda basdırıllar. O qəbir indi də qalır. O qəbrə "Qız qəbri" deyillər.

## TORPAQ TƏPƏ

Bizdə indi deyillər ki, filankəsin torpağını torbaynan daşıdılar. Belə danışıllar ki, qədimlərdə bir oğlan qız istiyəndə qız tərəfə şərt qoyarmış ki, oğlan tərəf torpax daşısın, təpə düzəltsin. İki oğlan istiyirsə, onda o oğlannardan hansı çox torpağ daşısa, ta yekə təpə düzəltsə, qızı ona verərmişdər.

## SARI TƏPƏNİN YARANMASI

Koroğlu daşınnan o tərəfə Sarı təpə var. Deyilənə görə, Cənab Əli qoşunuynan bıra gəlib. Qoşuna deyib ki, hər kəs bıra bir torba torpax töhsün. Bırda bizdən bir yadigar qalsın. O boyda qoşun hər biri bir torba torpax töküb. Sarı təpə belə yaranıb.

## SINIQ KÖRPÜ

### I mətn

Taftağ adında bir düzdə naməlum bir qız Həkəri çayının üstünnən körpü saldırmağa gəlir. Həmin çayın üstündə üş dənə kənd olur. Kəttərin adı o vaxta qədər məlum dəyilmiş. Həmin qız öz dövlətiynən, varıynan daş yığır, lazımı torpağ yığır, yumurta yığır, fəhlə yığır. Həmin qız başdakı kəttə bir neçə ay qalır. O qız kişi paltarında olur. Heş kəs bilmir ki, bı kadındı. Qız bı kəndin adını qoyur Korrar. Gedir bir neçə ay qalır orda, kənttə. Bı kənttə də hiss eliyəmmillər ki, bı kadındı. Çox qər-qər eliyən adamlarmış. Qız o kəndin də adın qoyur Qaraçılar. Sora qalır aşağı kənttə, bir

kişiin evində. Kişi tezdən durur, aftafanı doldurur isti suynan, məhrabanı da salıp qoluun üstünə, gəlir qonağın əlinə sü töhməyə. Suyu tökür, qız tez əlin çəkir. Əlin çəkən kimi ev yiyəsi deyir:

– Qızım, su istidi?

Qız baxır ki, bının qız olduğunu ev yəəsi bildi, deyir:

–Yuxarıdakı kəttərdə bı qədər qaldım, qız olduğumu bilmədilər, siz bildiiz. Ona görə də bı kəndin adını qoydum Şıxava, yəni, Bilijilər kəndi.

Həmin körpüün sınığı bı sahat da durur.

## II mətn

Bir kişiin bir qızı varmış, çoxlu dövləti varmış. Deyir gərəh bir xeyirri iş görüm. Oğlan paltarı geyir, gəlir Həkəriin üstünnən körpü salmağa. Adın soruşullar, deyir, adım Alıdı. Üç ilə körpü tihdirir. Hər il bir kəttə qalır. Kəttə bilmirlər ki, bı qızdı. Körpünü tihdirif qurtarır. Getməh mağamı gələndə üzün tutur kətdərə sarı, deyir:

Alıyam, az gedərəm,
Yolları düz gedərəm,
Gəldim şıx ölkəsinə,
Qız gəldim, qız gedərəm.

# QIZ QALASI

## I mətn

Xanazır ojağının yaxınlığında Qız qalası var. Qız qalası Arazın qırağındadı. Eşitdiyimə görə, İran şahlarının övladdarının biri qızı istiyir. Qızın qardaşdarı narazı olullar. Özdəri üçün bir qala qurullar. Qızı orda müdafiə eliyillər. Qalıya saxsı borularnan yerin altınnan su çəkillər. Bınnarı orda çox mühasirədə saxlıyıllar. Anjax onnarın iradəsini qıra bilmillər.

Axırda bir ağsaqqal peydah olur deyir ki, mən suyun yolunu taparam. Deyir, qatırı 40 gün yedirdin. Onu susuz saxlıyın. O, hökmən suyun yolunu tapajax. Qatır gəlir, boru keçən yolda ayaxlarını döyür. Oranı qazıb suyun qabağını kəsillər. Qala susuz qalır. Ona görə də qalanı dağıdıb qızı aparıllar.

## II mətn

Altı qərdəş olur. Ular Ağbət üsdündə bir qələ tihdirillər. Bunların da bir bacıları var imiş. Eran xanı qızı istermiş, ular da vermermiş qızı. Əldərədə qoca kişilər diyerdilər, Meydaədiyinnən aşağı qələ də mənşir bir qəleymiş. U qələdə Əbdülhüseyin Məmmədoğlu öz küflətiynən yaşermiş. Unun da bir qəşəh qızı var imiş. Ağbət qələsindəki qərdəşlərdən biri bu qızı isdermiş, u da qızı vermermiş. Ular qoşunu gətirellər Meydaədiyində durellər. Qələ çox qəlbiydi, qız tərəfi də çox güjlüydü. Qızın də rəyi var idi bu oğlana. Qız bir qarı yoller oğlan tərəfə. Diyer: "Qarı, oğlana deynəginən on il də burda qalıp dava eləsələr, məni aparammecaxlar. Qatıra duz versinnər, su verməsinnər, qatırı susuz qoysunnar. Qatır suyu tapıp kəsməsə, qələni alammecaxlar". Qatır susuz qaler; geler yenişdə qulağın dayer yerə, suyu taper. Yeri dırnağıynan əşer, güngü taper qatır. Oğlan tərəf qəliyə gedən suyu (qəliyə su Qutdu çeşmədən yer altıynan həlbəççə gəlermiş) kəser.

Bular (qız tərəf) təslim olellər. Qızı alellər aparellər qoşunun içinə, dədəsigili də çapellər talellər. İndi qıza diyellər: "Dəda neçə oğlu, neçə qızı var?" Qız diyer: "Dədəmin mənnən sora əyalı yoxdu". Diyellər: "Nətəri saxlerdi dədən səni?" Qız diyer: "Nətər saxlecax, qərə qoyunun iliyiynən, qiymeynən saxlerdi məni". Diyellər: "Bəs dədən səni u tər saxlerdi, qarını yolladın, qələni verdin ələ, dədiy satdın, həə?" Qız dinmer, işi başa düşer. Nökər diyer ki, bir dəli qatır gəti bura. Qızı saşlarınnan möykəm bağler bu qatırın quyruğuna. Nökərə diyer. "Minginən qatıra; bir qoy Meydaədiyinnən Küş yalına tərəf, Küş yalınnan da qeytər gəti belə". Nökər qatırı gətirer, baxellər görellər ki, qızın bicə saşları qalıp. Oğlan diyer: "Sən dəda nə bafa qıldın ki, ma da qılasan?"

Urdan qoyellər, gedellər, görellər ki, u qələni də u tay xanı alıp, qızı da aparıplar (bacıların). Qələdə bir neçə adamların da qırıplar, öldürüplər.

Qələ daşının əxvalatı belə oler.

## III mətn

İrannan bir xan tez-tez bu tərəflərə hücum edib qarət edər, qızları kəniz kimi aparармış. Bir nəfər bəy, qızını qorumaq məqsədi ilə Diri dağın başında qala tikdirib qızını orada gizlədir. Xan

qızı almaq üçün qalaya hücum edir. Qız xanın adamlarının qalaya yol atdığını görüb özünü qaladan atır. O vaxtdan bu qalaya "Qız qalası" deyirlər.

### IV mətn

Diri dağının ətəyində Dirili kəndi var. Qız qalası Diri dağının üstündədir. Bu qala bir xanın imiş. Bir gün bir qız dilənməyə gəlir. Xan qızı öz əyalətində saxlayır. Bir gün xan ovdan gələndə bu qızı bir də görür, onun gözəlliyinə heyran olur. Xan qızı qalaya dəvət edir. Xanın niyyətindən xəbərsiz qız qalaya gedir. Qalada xan qıza əl atır. Qız xanı yaxına qoymur. Xan qəzəblənib qızı qaladan atır.

Camaat səhər qızın cənazəsini görür. Bir arvad qızın bu halını görüb belə bir bayatı çəkir:

Mən aşıq yana dağlar,
Od tutub yana dağlar.
Kimsəsiz qız atılıb,
Qaladan yana, dağlar.

## XUDAFƏRİN

Xudafərin adlı bir şəxs Araz çayının üstündə körpü tikdirməh istiyir. Çayın on bir yerinə qızıl atır və ustalara tapşırır ki, körpünün oturacaqlarını oradan qoyun.

## XUDAFƏRİN SUYUNUN ŞƏFASI

Bir kişinin gözü kor imiş. Bu yuxuda görür ki, Xudafərin körpüsünün altından axan sudan gözünə vursa gözü açılar. Kişi durub gəlib Xudafərin kəndinə. Körpünün altındakı sudan gözlərinə vurur, kişinin gözləri açılır.

## KƏSİK BAŞ GÜNBƏZİ

Bir usta şagirdi ilə gümbəz tikdirirmiş. Şagird dəvələrlə uzaqdan daş daşıyırmış. İndiki günbəz tikilən yerdən keçəndə buraya bir-neçə daş atırmış. İmkan düşəndə bu daşları yonub ustasının

tikdiyi günbəzə bənzər günbəz tikirmiş. Bir gün usta görür ki, uzaqdan gözünə bir günbəz dəyir. Bilir ki, bu günbəzi şagirdi tikib. Ustanın paxıllığı tutur. Şagird ona daş verəndə daşı başına atır. Şagird ölür. Günbəz yarımçıq qalır. Ona görə də bu günbəzə "Kəsik baş günbəz" deyirlər.

## ÜÇ QARDAŞIN DAĞI

Bizim qarşımızdakı İran dağlarında "üç qardaş" adlı dağ var. Deyilənə görə, üç qardaş xanın çobanı imiş. Duman olur, qardaşlar qoyunları itirir. Nə qədər axtarırlarsa tapmırlar. Xan onların boynunu vurdurmax istiyir. Qardaşdar üzlərini Məkkəyə sarı çevirib deyir:

– Ya Allah, bizi daş elə.

Qardaşdarın ikisi daş olur. Üçüncü qardaşın daş boynuna çatınca xan boynun vurur. Ona görə də o dağların ikisinin ucu şiş, birininki isə kəsikdi.

## CƏBRAYIL ATA OCAĞI (Cəbrayıl rayonu)

Cəbrayıl ata şıx olubdu. Altı oğlu olup: Mahmud, Alı, Maşan, Mirzəcan, Yarəhməd, Hasan. Mahmudlu, Alıkeyxalı, Maşannı, Mirzəcannı, Əhmətdilər, Hasannı kətdəri onun oğlannarının törəmələridi.

## AĞ OĞLAN, COMATIL, SEYİD BABA (SARI SEYİD) OCAQLARI (Cəbrayıl rayonu)

Ağ oğlan, Comatıl, Seyid Baba (Sarı Seyid) üçü də qardaş olub. Hər ocaxdan bir işıx yanıb birləşirmiş.

## SEYİD BABA (Cəbrayıl rayonu)

Seyid baba məzarı ilə oğlunun məzarı bir-birindən on addım aralıdı. Oğlu evlənməmiş dünyadan köçüb. Ona görə də oğlunun məzarı atasınnan üstündü. Seyid baba Türkiyədən gəlmədi. Əsil adı Mirəli Mirhəsən oğludu.

## CƏBRAYIL ATA, AĞ OĞLAN, COMATIL OCAQLARI

Cəbrayıl ata, Ağ oğlan, Comatıl (Cəbrayıl rayonu) qardaş oluplar.

## TUP-TUP PİRİ

Deyilənə görə Cənab Əmir Düldülü aparıb bağlıyır ora. Mağara kimin bir yerdə. Üstən damcı damır. O qədər damıb ki, daşın üstündə yer açıb. Orda Dül-dülün rəddi var. İndi də ora qurban aparıllar.

Çevirtkə gələndə, kim gedib o pirin suyunnan götürüb arxıya baxmadan gəlsə, murad quşu o saat gəlib çevirtkəni qoymur ki, buğdaları yesin.

Pirdən su gətirən adamın dinməyə haqqı yoxdu. Əyər dinsə, onda təsirdən düşər. Yanıncan yançı gəlirdi. Bir o adamın arxıya baxmağa haqqı yoxdu. Arxıya döndü, təsirdən düşürdü.

Bizim kəntdə qurax olub. Seyid gedib axşamı o pirdən su gətirib, səhəri yağış yağıb.

O pirə getdin, gərəh xoruz aparasan. Ora ayrı heyvan çıxartmağ olmaz. Sıldırım yerdi. Yuxarıdan baxanda, adamın gözü axır. Ora belədi: durursan damcının altında əyər, niyətin hasil olmasa, başaa damjı düşməz. Başa damcı düşməsə, su götürmürsən. Götüsən də faydası yoxdu.

Fərəş kişi gedib o sudan gətirib. Fikirləşib ki, aparım öz zəmilərimə səpim ki, mənimki yaxşı olsun. Bının yanınja gedən deyir:

– Səhər durdum, tuluğa baxdım gördüm ki, tuluxda su lap azdı. Fərəş kişi dedi ki, apardım səpdim öz zəmilərimə. Deyir:

– Həmən ili yaxşı taxıl oldu. Ancax Fərəş kişinin sünbüllərinin içində bir dənə də buğda olmadı.

Xəyanət belədi!

## NƏZİR BULAĞI

Yazı düzündə taxıl susuzduxdan yanırmış. Bizim camahat Allaha üz tutuf diləh diliyillər. Deyillər ki, ay Allah, yağış yağdır, bulax üstə qurban kəsəciyih. Elə olur ki, yağış yağır, məhsul batmır. Camahat aparıf, Yazı düzünün yuxarı dərəsində bulax var, orda öküz kəsillər. O vaxtdan həmən bulağın adı qalıf Nəzir bulağı. Həmin dəriyə də "Nəzir dərəsi" deyillər.

## HAL

### I mətn

Mənim dədəmin doğmaca dayısı özü tutub. Bının yaxşı minih atdarı olurdu. Səhərrər durub, gedib görürmüş ki, atdar qan-tər içində. Atın biriin belinə qır yaxıllar. Səhər gəlib görür ki, atın belində həm adama, həm az da meymuna oxşar adam yapışıb qalıb. Tez gətirib yaxasına iynə sancıllar, gətirillər əvə. Kişi bütün damardəyəninə tapşırır ki, halın yaxasınnan nəbadə iynəni çəkəsiz. Halı bircə suya buraxmırmışdar. Əvdə qalan işdərin hamısını bına elətdirirmişdər. Bir xüsusiyəti varımış ki, hər işi tərsinə eliyərmiş. Bını o ki var işdədənnən sora kişi bına tobalatma verir, sora deyir:

– Mən gedənnən sora, bının iynəsin çəkərsiz, qoy çıxsın getsin, tobalatma vermişəm.

İynəni çəkillər, hal yox olur. Onnan sora bizim nəslin, yeddi arxa dönənimizin gözünə hələ hal görükmüyüb.

### II mətn

Hal gəlib qəbirrəri eşirmiş. Eşəndə kişi qorxmuyuf, gəlib halı tutup. Tutan kimi, iynəni sancıb bədəninə. Tutub gətirib saxlıyırmış. Qıçı uzun olub, döşdəri uzun, qaşdarı da gödəh olub. Qaratəhər olub. Gödəhcə məxmərfason tühləri varıymış. Özü də pastayannı bədənini yalıyarmış. Gejə olanda elə çığırırmış ki.

Sirri şeylərdən xəbər alırmışdar. Cavab verirmiş, məsələn: deyirmişdər ki, bıyıl görəsən təbiyət nejə olajax. Deyirmiş ki, habelə, qış belə olajax. Habelə şeyləri deyirmiş. Soruşanda ki, filankəsin övladı olajax, ya yox. Deyirmiş ki, olajax, ya olmayajax. Gün tutulanda, hal deyirmiş ki, filan yerdə, filan pətşah pətşəhlihdən düşüf. Döşdəri süddüymüş.

Bir gejə nə təhər eliyibsə, iynə bədəninnən düşüf. Gejəynən qaçıf. Özü də hoppana-hoppana qaçırmış.

### III mətn

Zeynal qoja tutub halı gətirib. Mənim qaynatamın babasının babası. Yeddicə il işdədib. Uşaxlar aşıx-aşıx oynuyurmuşdar. Hal gəlir, bı uşaxlara deyir ki, bı iynəni çəkin, bı aşıxları verim sizə. İynəni çəkillər. Bı, çıxıb gedir. Bı deyir:

– Mən bı evdə çörəh yemişəm axı. Gərəh bı evdən halallıx alam. Gələr bajadan dəər ki, Zeynal Qoja, mən gedirəm. Maa çörəyii halal elə.

Kişi dəər ki, yen gəl aşağa, evdə halallaşax.

Deyir:

– Yox, ta mən aşağa gələnmənəm. Sən aşağıdan de, mən də bırdan eşidim. Məə halal elə. Mənim bir uşağımın iki yaşı var idi, sən gətirifsən bıra. İndi uşağımın doqquz yaşı var. Uşağım məni gözdüyür.

### IV mətn

Hal, deyillər, qadındı, uzun döşdəri olur, adi insan kimidi. Ancax qadınnarın gözünə görsənir, kişilərin gözünə görsənəndə kişilər həmməşə tutullar onu. Bizim kətdə, deyillər, Cəfər kişiin babası hal tutubbuş, işdədirmiş qapıda. Bir dəfə köhnə kətdə olanda hay düşdü ki, İntizarı hal aparır. Tüfəh atdılar, səs-küy elədilər ki, hal qaşsın. Deyillər, hal çörəyİ qurtarmazmış, halın özünü gətirif, çörəy saldırarmışdar ki, qutarsın.

### V mətn

Halı tutuflar, nəhlət dabanına, o, mərdimazar şeydi. Ojağa gəlir, ojax sahıbı iynəni vırır üstünə. Üş gün saxlıyır. "Nəqqədər dabandəyənin var dəymiyəcəm, burax gedim", – deyir. Ocax sahıbı bıraxmır. Meyxanımın babasıın ocağıdı. Axırda and işdirillər, bıraxıllar. Deyillər, lap insana oxşuyur, döşdəri dizinə düşür, arvaddarın qənimi. Uzax bı evdən, həmilə arvaddarın için-içalatın aparır. Arvad həmə gələndə gərəh tez gedif çayı xənjəlliyəsən, tüfəh-tapança atallar. Arvadın için-içalatın aparıb hal suya çəkir, çəkən kimi də zahı arvad ölür, hal da onun için-içalatın yeyir.

### VI mətn

Qadın naxoşduyanda, hal gəlir, durur bacaan ağzında, fırsat tapıf, qadıın ürəyini çıxarıf aparır. Camalın babası Əmrah, bacaan ağzında hala iynə sancıf halı tutur. Onnan sora, hər gecə halın uşaxları gəlif bacaan ağzında ağlaşarmışdar. Hal yalvarır ki, buraxın gedim, hala and işdirillər, boynundakı mıncığı dartıf qırıllar, sora buraxıllar. O mıncığ olan evə hal yaxın gələmməz, yeddi ar-

xa dönənətən hal yaxın düşəmməz.

Zahı arvadın yanına dəhrə qoyallar, çörəy qoyallar, pıçax qoyallar. Hal aparanda tüfəy atallar, gedif suyu qılışdıyallar.

## VII mətn

Bizim kətdə bir Salman kişi vardı. Bir gün çaylaxdakı yonjalıxda ot piçirdi. Qağamnan getmişdih yanına. Böyüh bir qarağaj vardı, kölgəsinə min qoyun yerrəşərdi. Salman kişi gəldi, ottu kölgədə. Qağam dedi ki, Salman dayı, bir keşmişdən söhbət elə, qulağ asax. O halı nətər tutmuşdum, onnan danış. Salman kişi dedi ki, Məhəmməd bir gün axşam çöldən gec gəldim evə. Yorğun-arğınıydım. Sona su qoydu, suya düşdüm. Sora dedi ki, ay Salman, səhər qaymax yeyə bilmeyessən, camışdar gəlmədi. Naəllaş qalıf durdum əyağa. Yoxuşnan yenirdim, bir də gördüm bir ağ paltarrı bir yekə arvad dalında sənəh arxadan üzüyuxarı çıxır. Birdən ağlıma gəldi ki, bə hal olajeh. Hal da kı pak adamın gözünə görsənər. Mən də suya düşmüşdüm axı. Bir də gördüm, çatır maa. Üstümdə sanjax da vardı, iynə də. Anjax karıxdım, əlimdə pıçax vardı, gecə vaxtıydı dana. Tutdum bı arvadın qolunnan pıçağı soxdum paltarın qoluna. Pıçağı soxan kimi başdadı yalvarmağa, dedi ki, burax gedim, Cırzoğallıda iki uşağımı qoyuf gəlmişəm. Buraxmadım. Dedi ki, səni and verirəm yeddi arxa dönənəə, burax gedim, gəlmişəm su aparmağa, uşaxlarım gözdüyür, ərim də taxıl döyür. Nə illih elədi, buraxmadım. Evə çatan kimi qara aftafanı qoydu ojağın üstünə, süpürgəən götdi evi süpürdü. Üç il saxladım anjax nə illah elədim xəlvətə düşəndə, maa əl vermədi. Hər gün gedirdi Çoban taxtdan, Qala dərəsinnən, ən çox da Qorxuşdan təzəh yığıf gətirirdi, evi silif-süpürürdü, çörəh salırdı. Xamırı qutarmax bilmirdi. Mındarrıyırdı, sora qutarırdı. Kətdə toyda heş kim onun kimi oynuyanmazdı. Kətdə çox adam görüf onun oynamağını, hər axşam yalvarırdı ki, burax gedim. Axırda mən bilməmişəm, kimsə açıb sanjağı, iynəni çıxardıf, o da çıxıf gedif.

Kətdə danışıllar ki, o vaxt hal Salman kişini qarğıyıf, deyif ki, sən ki mənim balalarımı yəəsiz qoydun, səən xeyir tappıyassan, yurdun kor qalaceh. Elə də oluf. Salman kişi öləndə yurdunda heş kim qalmadı. Baldızı oğlu Abbasov Məhəmməd mülkünə yəə çıxdı.

## VIII mətn

Hal cannı, döşdü-başdı adamdı. Ağ paltarnan gəzir. Qəşəh arvaddı, örkən çəkərmişdər ətrafına. Başıın altına çörəh, pıçax qoyarmışdar. Hal zahıın içalatını çıxarıf aparırmış. Tez gedib suyu xənjərriyillər. Deyillər, tüfəh da atmax lazımdı. Deyillər, hal əliin xamıra vıranda xamır bərəkətti olar.

## IX mətn

Bizim kəndə, Minkəndən bir arvad gəlmişdi, bir oğlu da vardı, adı da Poladıydı. Danışırdı ki, bəs qara damda olurdux. Ərim harasa getmişdi, dörd qaynım vardı, hərəsi bir sürüyə gedirdi. Axşamıydı. Mən də ağır ayağıydım. Utandım, çığırmağa. Uşax oldu, yudum, bələdim. Bı vaxdı bacadan bir səs gəldi: "Sərəndaz, Sərəndaz, gəlim?" baxdım ki, bajadan baxan bir arvaddı, hama heş kimə oxşaddammadım. Qapıın azca araladım, qaynımın birin çağırdım, gəldi. Dedi:

– Üstəə daş yağmasın, bə niyə demiyibsən, arvad-uşaxdan çağırax? Hal – nağılı bına dedim.

– Qağa bir arvad bacadan baxır, bir boyunbağısı da var, sallanır, az qalır yerə dəysin, deyir: "Sərəndaz, Sərəndaz, təhsən, gəlim?" Mən də qorxudan dinmirəm. Sora da çəkilir.

Qaynım dedi ki, mən gizdənəcəm, genə gəleceh. Deyərsən, gə, denən qapıdan gə. Qaynım çölə çıxan kimi həmən arvad genə bacadan dedi: "Sərəndaz, Sərəndaz, gəlim?,

Dedim.

– Gə.

Dedi:

–Hardan gəlim bacadan, yoxsa qapıdan?

Dedim:

– Qapıdan gə.

Bı qapıdan gələndə, qaynım iynəni taxır bının yaxasına. Üç ay saxladılar, işdətdilər. Qonum-qonşuya tapşırmışdılar ki, iynəsin heş kim çəhməsin, çəhsələr yox olaceh. Bı Polad onda bir xırda uşağıydı, hal bını aldadır, bı da iynəni çəkir. Onnan da yox oldu, getdi.

## X mətn

Böyüh uşax olmuşdu. Bacım mamaçaydı, dedi, gedirəm əvə, eşiyə çıxsan qaralanıb eləsən, deyərsən, "Xalaa dabanına..." Az keş-

mişdi, çox keşmişdi, bilmirəm bir də gördüm məni çağırıllar, deyillər:– "Ay Milayım, heyy, ay Milayım, heyy". Dedim-: "Xalaa dabanına..." O sahat səs kəsildi. Deyillər, hal zahı arvadın içalatın aparır.

## XI mətn

Hal adamın gözünə görühməz. Qəyələrdə gəzər. Qəfil adamın üstünə də atılar. Bizim o dar dərədə bizim Abbası qorxutmuşdu, atılıf üstünə gədə bağırdalax olmuşdu. Deyirdi, bir əceyif kişi varıydı, bir də getmiyəceh ora. Hal həm də qadındı, zahı arvadların üstünə gəlir. Qavmax üçün gedillər suyun üstünə, dəhrə vırıllar, xənjər vırıllar, suya tüfəy atıllar. Hal ancax kimin üstünə gəlirsə, onun gözünə görükmür. Hal zahının için-içalatın aparıf suya çəkif yeyir, özü də girir suya.

## XII mətn

Bizim kətdə Əhmədin babası Əli kişi bir gün qarannıx dərədə yay vaxtı görüf kü, bir zənən xeylağı var. Uzun döşdəri var, çılpaxdı. Gözəl kadındı anjax qabaxda döşdəri yekədi, bir də ayaxları yekədi, dabanı da tərsinədi. Əli kişi çox təmiz adammış. Hal da anjax təmiz adamların gözunə görükər. İndiki adamların hamısı mındardı. Əli kişi bı kadını, götürüf gəlir evə, bına zənən paltarı geyindirir. Bı kadın, qalır bı evdə. Bir gün Kablayı Səkinə, hələ onda uşağıymış, gəlir Əligilə, hal çörəh salırmış. Hal bına deyir, bala, bə iynəni çək. Uşax iynəni çəkir. Hal yox olur. Xamır eləjə qalır. Ev adamnarı bı xamırı ha kündəliyir, qurtarmır. Əli kişi duruf, genə gedir qarannıx dəriyə, bilir ki, halı görə biləceh. Həqqətən, hal görükür bının gözünə. Əli kişi deyir ki, ay bacı, bəs xamırı ha kündəliyirih, bıdı neçə gündü qurtarmax bilmir. Bəs neyniyax? Hal deyir, əmi, get denən o xamırın kündəsinin dalınnan kəssinnər, onda azalaceh. Elə də eliyillər.

Bala, hal mındar adamnarın duşmanıdı, gözdərinə görühməz.

## XIII mətn

Zahının qırxı çıxana qədər qoymazdar öz paltarını yusun. Yoxsa hal aparar. Çünki hal qırx gün zahı arvadnan hərrənir. O, insanın ciyərin xoşduyur. Ciyəri suya çəkib yeyir. Qadın su başında olanda, hal onu tez aparar.

Halın döşdəri yernən sürünür. Döşdərini kürəyinə atar. Törtöküntülü olur, saçı dağınıx, boyu hündür, ağ paltarı olur.

Hal ən çox qoz ağajının dibində, suyun qırağında olur.

Halı tutublar. Uşağı aldadıb üstünnən iynəni aşdırıf qaçıf. Deyib, hər şeyi gennən sorğu-sual elədıız, amma niyə cavan ölülər onun səbəbini soruşmadınız.

Hal hər şeyi tərsinə eliyir. Odu ki, tərsinə iş görən adama dəli deyillər: hal cınsısan, azz?

## XIV mətn

Bizim kənddə bir kişi var Xanalı adında. Elə kənd də onun babalarının adıynan elə addanır. O kişi danışır ki, babam danışırdı ki, dəyirmanda dəyirmançıydım. Bir arvad gəldi əlində bir qab yemək. Dedi ki, ürəyindəkini demə, bı yeməyi ye. Deyir, mən bının sir-sifətinnən şübhələndim. Üstümdə iynə vardı. Onu taxdım bı arvadın üstünə, gətirdim evə. Demə bı halıymış. Gətirdim evə bir müddət saxladım. Odunumu yardı, suyumu gətirdi. Yalvardı ki, uşağım var, qoyub gəlmişəm, burax gedim. Mən də iynəni çəhdim üstünnən, çıxdı getdi.

## XV mətn

Kalva Səkinə nənəm bir cüt oğlan doğur, köbəyini kəsir, bağlıyır. Hal bajadan düşür. İstiyir Kalva Səkinə nənəmin ciyərini çıxartsın. Kalva Səkinə nənəm iynənin sap keçən yerini qırıb, iynəni taxır halın üstünə. Sap keçən yer qırılmıyanda, hal o deşiyə çöp salıf, iynəni üstünnən çıxardır.

Halın Narrı dərədə iki uşağı varmış. Gedip onnarı əmizdirip qayıdırmış. Bir gün Kalva Səkinə nənəmin qardaşı çöldən qara süpürgə qırıp gətirir. Hal qara süpürgəni görəndə başdıyır ağlamağa ki, balalarım öldü. Çünki qara süpürgədə tilsim var, hal onun üstünə çıxanda uşaxları ölür.

Hal Kalva Səkinə nənəmgilə kündə salırmış. Salmaxnan qurtarmırmış. Soruşurmuşdar ki, niyə qurtarmır? Deyirmiş ki, onda gərəh kündənin birini itə atam, ya da gərək teştin altına vuram. Elə eliyəndə, doğrudan da kündə qurtarırmış.

Hal yalvarır ki, uşaxlarım öldü, məni buraxın gedim. Dabanın dağlıyıp onu buraxıllar. Hal and içir ki, yeddi arxa dönənizə qədər

sizə yaxın düşmüyəcəm.

Hal deyir:

– Mənnən hər şeyi soruşduuz, amma uşaxların, cavannarın ölümünün çarasını soruşmadıız.

## XVI mətn

Balaca bulağıydı (Gülüstan bulağı), suyu da azıydı. Deyirdilər ki, bı bulağın özündə cin-şəətin söhbəti var idi. Bulağın ətrafında, orda olan evlərdə, gejə, məsələn, tək adam uzax-böyük, qadın olanda onnarın gözünə görünürmüş. Qadın paltarında, kişi paltarında. Bir qadın yenə gedib ordan su götürəndə görüb kü, bir qadın gəldi onun yanına. Bı bınnan danışıb o yan, bı yan, nəysə ağlı bir şey kəsmiyib. Bilir ki, bı adam döyül da. İynə götürüb salır o arvadın üstünə. Arvada da köməh eliyir suyu evlərinə gətirir. Arvad deyir ki, sən hara gedirsən? Deyir ki, daha heç hara. Mən sənin qulunam. Bir-iki il burda qalır. Qulluqcu, kəniz kimi. Amma bı da özünə çıxış yolu axtarırmış. Bir gün gedir həmin bulaxdan su gətirməyə. Həmin qadını özüm də görmüşəm. O qadın altı-yeddi yaşdarında bulaxda imiş. Arvad uşağa deyir ki, bala, barmağıma tikan batdı. İynəni götürginən, burdan tikanı çıxart. Uşax döşünnən iynəni götürür ki, tikanı çıxartsın. Baxır ki, yoxdu.

## XVII mətn

Bir arvad bulağa su gətirməyə gedirmiş. Görür ki, bulağın gözündə bir yekə, hündür boylu qadın çimir. O dəyqə bilir ki, bu haldır. Yaxınnaşıb iynəni üstünə taxıb, görürüb kəndə gətirir. Bını kəntdə işdədillər. Yalvarır ki, məni bıraxın, gedim. Hala and içdirillər ki, bizə dəyib toxunmuyajaxsan. Sora iynəni üstünnən götürüf buraxıblar. Çıxıb gedib.

Hal aparan qadının başına qara kömür qoyurdular.

## XVIII mətn

Bizim ulu babamızın adı Ataymış, sora ona Cindil Ata dedilər. Ata İşıxlıdan bir qıznan nişannıymış. Hər gecə gedərmiş, Şıx qəbirsannığınnan keçib nişannısıynan görüşürmüş. Bir dəfə gedəndə qəbirsannıxda qulağına səs gəlirmiş, sora öz kətdərinin arvaddarının sir-sifətində adamlar bının qabağında oynuyurmuşdar. Bı əhva-

lat həm gedəndə, həm də qayıdanda olurmuş. Həmməşə də, Ata atın üstündə olarmış. Ata bınnara fikir verməzmiş, atı kənardan sürüb keçərmiş. Bir dəfə də keçib gedənnən sora gələjək qaynənəsi deyir ki, sir-sifətin niyə bu gündədi? Əvvəl, Atıya çıxardıb bir iynə verər, deyər ki, bı dəfə də qabağaa çıxsalar, saa nə desələr, əməl elə, fürsət tap, iynəni keçir biriin paltarına. Ata da gələr, həmən yerdə gənə yığıncax düşər. Toy-qavaldan sora bının qabağına bir qab yeməh qoyallar. Fürsət tapıb iynəni taxar biriin paltarına, cinnər çığrışıb qaçallar, iynə taxılan qalar. Sora qabağındakı yeməyə baxır, görür ki, bı yeməh at təsidi. Sora iynətaxılanı götürüb gələr evə. Bir müddət bını evdə saxlıyıllar. Bütün işdərə köməh eliyirmiş. Çörəh salanda qurtarmırmış, bir tikəsin itə atarmış, sora qurtararmış. Atanın bir bayısı olur də evdə. Ata evdən gedənnən sora cin Atanın bayısın "qara dam deyilən" damın bajasınnan asırmış. Nəyə asırmışsa, bilinmirmiş ki, nədən asılıb. Ancax özü bilirmiş. Deyirmiş ki, di get, Ata, sən maa əziyyət veersən, mən də səən bajaa. Ata evə gələndə tez açarmış. Ataan tapşırığına görə kətdə heş kim cinin iynəsini çəhmirmiş. Cin nəqqədər yalvarırmışsa, heş kim aşmırmış. Ata axırda bilir ki, cin onun bayısına əziyyət verir. Bilmir neynəsin. Dünya görmüş adamlar ona məslahat verillər ki, cinnər çox etiqaddıdırlar, and içdir ki, sizin nəslə toxunmecehlər, burax getsin. Ata da onu and verir, buraxır. Onan sora, deyillər ki, atanın nəslinnən özünnəngetmə, cin gözəgörükmə olmuyuf. Bınnan sora, Atıya Cindil Ata deyiflər.

Bı əhvalatı maa doxsan yaşında nənəm söylüyüf.

## XIX mətn

Deyilənlərə görə, hal zahı qadının üstünə gəlirmiş. Bunun ciyərin çıxardıf aparırmış. O vaxdı bunu hal aparanda kişilər gedərmiş, harda su varsa (ciyarı suya çəkərmiş guya, sora aparıf yermiş), onu gülləliyərmişlər. Onda kadın özünə gələrmiş.

Bir dəfə, deyilənlərə görə, bir kadın heylə hal gələndə iynəni götürər sancar halın üstünə. Guya bunu saxlıyırlar, qul kimi işdədirlər. Rəvayətə görə, ey, özüm görməmişəm. Bir gün bu ağlıyar, özünü öldürər ki, məni boşduyun da, gedim. Çox da qoçax, işdəh adam olub guya. Biri də diif ki, bizdən nə isdirsən, səni boşduyax. Ağsakqallar, qarasakqallar boşdamax isdəmirdi. Həmən gəlin

boşduyuf. Gəlin fikirləşir, fikirləşir, diif, buna nə verim? Diif ki, qapımın ziblin sa verirəm. İynələri bunun üstündən çəkif, bu yoxa çıxıf. Hər səhər dururmuşdar ki, qapıları gül kimidi.

Diirlər, halın guya yekə döşləri olurmuş, çox da yekə adam olurmuş. Döşlərin birin belə atarmış (çiynin göstərir), birin də belə atarmış.

Zahıya yaxın düşməməsi üçün yanına iynə, sancax, baş altına qılınc qoyarmışdar, su qoyarmışdar, suyun içinə nə tökürlər onu bilmirəm. Qapın ağzında əli tüfəngli, əli qılınclı adamlar durarmış, qapını qılınclayarmış.

## QURDADÖNMƏ

### I mətn

İşıxlıda bir Nəcəfqulu varıdı, onun xırda qardaşı Zalın başına damlamaca canavar donu atmışdılar, dönüb olmuşdu canavar, canavarrarnan gəzirdi. Sora öldü.

### II mətn

Arvat dar vaxtı bayıra çıxır. Başına dəri atıllar olur canavar. Bir müddət canavarrarnan gəzir. Bir gün onnar bir atın üstünə hücum eliyillər. Bı adam-canavarın ağzı atın belində olan yarıya dəyir. O sahat bı arvat canavar dərisinnən çıxıb gəlir evlərinə. Uşaxları əvə qoymağ itstəmillər. Deyillər ki, dişdərin vəhşi heyvan dişdərinə oxşuyur. Arvat başına gələnnəri uşaxlarına nağıl eliyir.

### III mətn

Bizim kətdə bir kişi olur. Dar vaxtı bı yuyunar başı açıx çıxar çölə. Canavar dərisini atıllar, bının başına. Arvad bını gözdüyür, bı gəlmi. Kişi hər gejə axşam gedib səhər gəlirmiş. Canavar dərisini də peyindihdə gizdədirmiş. Arvad bını güdür. Görür ki, kişi canavar dərisi geyip getdi. Arvat kişinin qardaşdarına xəbər eliyir. Onnar güdüllər. Kişi canavar dərisin gizdədib evə gələndə dərini yandırıllar. Kişi dərini yandırmağa qoymurmuş. Dəri yananda kişi çığırıp ayılır. Kişi ayılanda deyir ki, axır vaxtdar getmək istəmirdim. Kəndin aşağısında bir at tutmuşdux onun yarasınnan dişliyib diksinmişdim. Canavarrar məni məcbur eliyirdi-

lər. Kişi deyirmiş ki, çöldə qalan qoyunnar bizə urzadı. Onnarın işığı gəlir. Biz də gedip onnarı tapıb yeyirih.

## IV mətn

İşıxlıda bir nəfər, Qəbil adında adam qoşulmuşdu canavara. Həmməşə canavar gələrmiş, kişi də qoşularmış o canavara, gedib hərrənif gələrmiş. Bədən geyməsi də varıymış. Qardaşı bir gün geyməni tapıb yandırır. Onnan da təsirdən düşür, ta canavara qoşulub getmir.

## V mətn

Zal adında bir nəfər varmış. Gejələr gedib səhər gələrmiş əvə. Arvadı bınnan şübhələnir, güdür, görür, kişi durdu çıxdı bayıra, getdi girdi kərmə qalağına. Sora ordan bir qurd çıxdı, qaşdı getdi çölə. Arvad səhərə kimi gözdüyür. Görür, səhər üzü qurd genə qayıtdı girdi kərmə qalağına. Görür ki, Zal kərmə qalağınnan çıxdı əvə. Adam oqqədər qurddarnan hərrənir ki, dişdəri də dönüb olur qurd dişi. Ta soralar əvə də qayıtmır, qalır qurddarın içində, yağın ki, soralar tələf olur gedir.

## VI mətn

Mənim böyüh qardaşım İslam danışırdı ki, mən uşağıydım, bostan qoruxçusuydum. Asdan addı bir adam varıydı, zərbədəs adamıydı. O uşax yeyirdi, gecə uşax aparırdı. Bilən yoxuydu ki, uşaxları kim aparır. Bı gəlif kusanda ağzınnan uşax barmağı, bir də boyunbağı düşür. Arvadı görür. Sora arvad barmaxnan boyunbağını götürüf gətirir qohumlarınnan birinə göstərir, deyir ki, ərim kusdu, ağzınnan bir uşax barmağı, bir də boyunbağı düşdü. Bı xəbər kəndə yayılanda hamı bilir ki, uşaxları aparan Asdanıymış. Boyunbağıın yəəsi tanıyır boyunbağını. Bı məsələ açılannan sora Asdanın qayınatası malgələn vaxtı onu pusur. Görür, bıdı Asdan evdən çıxıf gedir şama sarı. Gözdüyür, Asdan qayıtmır, gəlir gejə qızınnan soruşur ki, Asdan qayıtmıyıf? Qızı deyir ki, yox, axşamnan hara gedifsə, gəlif çıxmıyıf. Gejə hay düşür ki, filankəsin uşağın canavar apardı. Qaynatası günüz tüfəh götürüf Asdanın getdiyi iznən gedir şəldə bir mağara görür, mağarıya girir, görür ki, bir canavar mağaranın dibində yatıf. İstiyir vırsın, ancax vır-

mır, deyir, bir səs eliyim, duranda vırram. Səs eliyir, görür, canavar qalxmadı. Tüfəngin burnuynan belə eliyir, görür ki, bı canavar dəyil, canavarın dərisidi. Dərini yandırır, Asdan da cahıl-cuhulların içindəymiş. Qayınatasını söyür, yıxılıp üzünnən gedir. Ayılanda danışır, deyir, ta eləmərəm. Onnan sora ta uşax yemir.

## VII mətn

Axşam vaxtı bir qadın, bizdə namaz vaxtı deyəllər bına, bı vaxddar paltarın dəyişib, suya gedəndə bir canavar özünün örtüyünü atır həmin qadının üstünə. Bı qadın da olur qurd, həə, qarışır qurda. Onnara qarışsa da, onnarnan ayaqlaşmır, insandı da, onnar ava gedəndə bı da yırtıb dağıda bilmir. Yavaş-yavaş örgənir. Guya o vaxt onnar bir heyvan yeyiblər. Guya qismət yetirif onnara. Guya başdarında alov olurdu, yanırdı. Deyir ki, elə vaxt olub ki, məsələn, ən uzax yerdə, Qaradüzdə onnar qismət yeyirmişdər. Axır bu qadın ələ keçir. Örtüyünü yırtıllar, dönür təzdən qadın olur. Dişləri-zad uzanıpmış. Adı Zalxaymış, ona "Qurd Zalxa" deyiblər.

## VIII mətn

Mənim öz anam deyirdi ki, bir qadın başın yuyub, başı sulu-sulu qapıdan çölə çıxıb başını yuduğu suyu çölə atmağa, bırda qadının başına qurd donu atıblar. Gejələr pastayannı qurddar, canavarrar gəlirmiş. Bı özü çıxırmış, gedip qarışırmış canavarrara. Onnarnan gedirmiş av eləməyə. Ta canavarrar ona toxunmurmuşdar. Özü də həmin paltarı geyirmiş. Çiy ət yeməkdən, görüflər də, dişdəri uzanmışmış. Onu çox ora-bıra aparırlar. Axırı bir molla deyir ki, başqa bir çarə yoxdu. Onun ancax gərəh paltarın oğruyuf yandırasınız. Onu girəvəliyip paltarı soyunub qoyanda gejə güdüblər. Paltarın yandırıblar. And içirdilər ki, o qadın bir səsnən, haynan gəlib özün atırmış oda ki, elə bilin ki, məni yandırırsıız. Paltarı yandırdıxdan sora, o qadın əvvəlki vəziyətinə qayıdır.

## QARAÇUXA

## I mətn

Qarağaşdıda bir Məmmədrəhim vardı, Nəsib adında bir oğlu vırdı, ermənilər öldürdülər. Bı indiki Nəsibin adını onnan götü-

rüblər. O Nəsib ölənnən sora adın qoydular bına. Bir dəfə Nəsib qoyunnarı yığıb aparırmış, görür qabaxda da bir qara çuxalı adam gedir, ha çağırır, bı cavab vermir. Gəlib evdə dədəsi Məmmədrəhimə deyir. Məmmədrəhim deyir:

– Bala adam onu çağırmaz, söyməz, o bizim qaraçuxamızdı dana, ayax üstədi. Elə odu-budu Nəsibin qaraçuxası ayax üstədi, neynəsə, elə deyillər, yaxşı adamdı.

**II mətn**

Atam danışırdı ki, bir səhərisi malı verdim yaylıma. Malın içində gördüm bir adam, mənnən də layıxlı, malı alaqarannıxda çox dağılmağa qoymur. Mat-məəttəl durub mən də baxırdım. Baxdım, baxdım, gördüm, heş nə yoxdu. Nənəmə dedim, dedi, bala, o bizim qaraçuxamızdı. Saa köməh eliyirmiş ki, alaqarannıxda mal dağılmasın.

**III mətn**

Qış vaxtıydı, getmişdim çaydan su gətirməyə. Suyu doldurub başımı qaldırdım, gördüm buzun üstündə bir qara paltarrı adam var. Adam deyəndə ki, qara paltarrı bir adamaoxşar şeyiydi. Qorxdum ,başım gijəllənər. Evə  gəldim, nənəm dedi ki, bala, o sənin qaraçuxandı, qoymuyub suya yıxılasan.

**IV mətn**

Bir bızavımız varıdı, gecə açılıf gedirdi, duruf gedirdih axtarırdıx, tapammirdih, sora gəlif görürdüh ki, mıxa bağlıdı. Atam deyirdi ki, bala, bızavı bizim qaraçuxamız bağlıyıf.

Heyvanı ötürürdü örüşə, bizim heyvan itmirdi, qırxdan çox atımız varıdı. Salvartıda qoyuf gəlirdih. Sisyanın başınnan, Ərəfsədən attar qarrıyanda tökülüf gəlirdi örüşə. Deyirdilər ki, Alxan kişiin qaraçuxası var, onun heyvannarına heç zad olmur.

**V mətn**

Bir uşax gəlif atasına deyir ki, ay dədə, çöldən heyvanı gətirirdim evə. Gördüm, dalımca bir adam gəlir. Mən qoyunun qabağını yığanda gördüm, o adam qoyunun dalını yığır. Uşax danışır ki, dədə, mən qorxdum, dedim, görən bı kimdi . Dədəsi deyir:

–Bala, o bizim qaraçuxadı, sənə köməy eliyib, bını heş kəsə danışma. Bını danışmazdar.

### VI mətn

Mənim babam Salahın at ilxısı varmış. Bə ilxını ötürərmiş çölə. Qar yağanda ilxını kəndə gətirərmiş. Bir gün Salah kişi gedib ilxını gətirməyə. Birdən ilxıya canavar düşür. Görür ki, o tərəfdən qaraçuxalı bir adam xəncəlnən kəsdi canavarrarın qabağını qoymadı ilxıya yaxın düşməyə. Salah babam başa düşüp, bı onun qaraçuxasıdı, ona köməh eliyip. Salah babam gedip həmən yerdə kaha vurdurup orda yurd saldırıp. İndi də oraya Salah kahası deyillər.

### VII mətn

Qonşu Bayramuşağı kəndində (indi o kənd yoxdu) bir kişi varmış – Alı kişi. Onun çarığında buğda bitərmiş. O qəddər əkin-biçinnən məşğuluymuş ki, çarığını, corabını çıxartmağa macal tapmazmış. Bir gün bir nəfər görür ki, Alı kişinin atı qayanın başında doğdu. Qulunu az qaldı qayadan düşə. Görür ki, Alı kişi peyda oldu, qoymadı. Qulun az qaldı qayadan düşə, kişi qayıdıf, gəlir kəndə. Görür ki, Alı kişi kənddədi, qalır məətəl. Deyir ki, Alı əmi, axı mən səni qəyənin başında gördüm, qulun qayadan düşürdü, sən qoymadın düşə. Alı kişi deyir, a bala, o mənim qaraçuxamdı. O qulunu sənə bağışdıyıram. Odu ki, deyillər ki, Alı kişinin qaraçuxası dikdi, yəni baxtı yaxşıdı.

## CİN YIĞNAĞI

### I mətn

Dəhan kəndinnən Məmmədqulu kişi var. O danışırdı ki, Dəhan meşəsiynən gedirdim. Gördüm, bırda toydu, çal-çağırdı. Gördüm, mənim arvadım da bırdadı. Kənddən başqa qız-gəlin də var bırda. Məni də zornan çəhdilər ki, ortuya ki, gərəh oynuyasan. Sora çörək qoydular qabağıma. Bismillah eliyip yeməh istiyirdim, gördüm, heç kim yoxdu. Başa düşdüm ki, cinnərimiş çalıb-çağırırmışdar.

### II mətn

Bir kişi olur. Kişi gedif dərmana. Yolnan gəldiyi yerdə görür ki, bir yerdə yaman toy çalınır. Kişini məcbur-məcbur aparıllar bu

toya. Baxıf görür ki, bu toyda oynayan arvadın ikisinin paltarı bunun arvadının paltarıdı. Bunun qabağına yağlı yeməh qoyullar. Yeməyi götürüf basır arvadın birinin paltarına. Çörəyi qabağına qoyanda, pissimillah deyif çörəyi kəsəndə bir də baxıf görür ki, qabağında heş nə yoxdu. İki-üş dənə at təsi var. Gəlir evə, arvadına deer ki, o paltarını bir gətir bura. Arvadı deer:

– A kişi, dəli olmusan, nəsən?

Deef:

– Yox ey. Patları gətir bura. Bəs belə bir işə düşmüşəm.

Kişi baxıf görür ki, əlinin izi paltardadı.

## CİNİN TUTULMASI

Biri var idi, biri yox idi, bir Həsənəli addı kişi var idi. Bu Həsənəli kişinin bir yekə Qəreyiz öküzü var idi. Gündə bu kişi öküzü qatıp qabağına aparıp ötürürmüş Çəsin dəriyə. Axşam olanda gedip öküzü gətirərmişdə. Görərmişdə ki, öküz qan-tər içindədi. Öküzü həmməşə aj gətirərmişdə. Bir gün belə, iki gün belə, üş gün belə, beş gün belə. Bir gün görüllə ki, öküz dəy lap qəncəlip əldən gedir. Həsənli axşam gəlip avradına deyir:

– Arvat, belə olmaz, mən bu öküzü səər əməlli-başdı güdejem. Gəreh örgənəm görəm munun başının qazıyası nədi?

Hə, öküzü güdür, görür ki, üş dənə cin minip öküzü gəzdirir elə-belə. Kişi yüyürür, bula sırr olur. Həsənli kor-peşman qəyidir evə. Qəyidir əvə, avradına deyir:

– Bəs avrat, öküzümüzü minənnəri tapbışam.

Arvat deyir:

– Bəs nə eliyəh?

Kişi deyir:

– Dur bikgə qır töx qazana, ərisin.

Qırı əridir qazanda, gətirir yaxır öküzün belinə. Yaxır öküzün belinə, səər tezdənnən genə ötürür Çəsin dərədən yoxuşa. Kişi qəyidir gəlir əvə. Görür ki, üş dənə cin minip öküzün belinə, qopammıyıp, budu, çığıra-çığıra gəlillə. Buları öldürür, öldürənnən sora dəy öküzü eşigə buraxmır.

Yeyillə, içillə, mətdi-muradına yetişillə.

# II. SƏNƏT TAPINAQLARI

## SOFU, ÇƏLƏBİ, SEYİD

### I mətn

Evimizdə olan vaxdı Sofu gətirzdirdih. O, sözdər deyirdi, yadımda yaxşı qalmıyıf. Deyirdi: "Ay mamayi, day mamayi, dağda gəzən, daşda gəzən..." Sora ilannarın adını deyirdi. Deyirdi, deyirdi, sora carcının arasınnan ilan gəldi, düşdü yerə, düz gəlif durdu sofu İsmayılın qabağında. Qırmızı ilanıydı, başını qaldırdı, sora sofu İsmayıla baş əydi. Sofu İsmayıl dedi ki, "Ay Allahın heyvanı, bırdan çıx get". Elə o söznən də ilan sürüşüb getdi. Sofu İsmayıl dedi ki, ta bı ilan sizin eviizə görükmüyəjəh, qorxmuyun, payımı, qismətimi verin, varım gedim. Nənəm getdi, un gətirdi verdi.

### II mətn

Evimiz dəmyə yerdəydi, tez-tez hayatda ilan görürdüm. Çıxıf görürdüm ki, qapıda yatıf. Ancax öz adamlarına dəymirdi. Bir gün bir sofu gəlmişdi, çoxlu da ilannarı varıydı. Dedim ki, bəs bizim hayatda ilannar var, qorxuram uşaxları vırıb-eliyə. Dedi ki, dəyib-dolaşmır ki? Dedim, yox. Gəldi hayata, torbadan bir ilan çıxartdı, əvvəl mənim boynuma doladı, diliin altda nəsə dedi. Sora dedi ki, ta qorxmuyun, bırda ilan görükmüyəjəh. Doğurdan da, soralar orda mən ilan görmədim, indi də təzə yurddayıx.

### III mətn

Sobuda ilan ocağı var. Qənd göndəririh, pul göndəririh, yainki bir bəxşeyiş göndəririh. O ilan ocağınnan torpax gətirirdih, tutiya vırırdıx uşağın üstünə, ta ilan ona dəymir. Lap atginan o torpağı ilanın üstünə, o ilanın ixtiyarı yoxdu ku, ta dərbənd eliyə çıxa gedə bir yerə. Ama başqa yerdən o torpağı götüməh olmaz, ancax o ocağın torpağınnan olar. O torpağa "afsın torpağı" deyillər.

### IV mətn

Söyləndə (indiki Əzizbəyovda) bir ovçu varmış. Ova çıxır, axşam evə qayıtmır. Aradan üş gün, beş gün keçir, bu ovçu evə gəlmir. Qohum-qardaş, qonum-qonşu düşür dağa-daşa, onu axtarır.

Heş bir nişanası tapılmır. On günnən sora belə qərara gəlillər ki, yəqin hardasa başına bir iş gəlib, ölüp. Odu ki, ovçuya yas saxlıyıllar, ehsan verillər. Camaatın-mərəkənin lap gur vaxtı ovçu çiyində tüfəng qayıdıp gəlir. Camaat nə qədər soruşur ki, "Hardaydın? Bı vaxta qədər harda qalmışdın?", ovçu demir. Camaat dağılannan sora arvadına açıp danışır ki, düşdüm dərin bir quyunun dibinə. Əlimi işıxlı dünyadan üzdüm, dedim, yəqin bir günahın yiyəsiymişəm ki, düşdüm bura, burda qalacem, qurd-quş basıp yeyeceh məni. Bir az keşdi, gördüm quyunun dibində yol var, ordan işıx gəlir, işıx yavaş-yavaş mənə yaxunnaşır. Yaxına gəldi, gördüm qorxulu bir ilandı, məni tüfəngli– zaddı udar. İlan yaxunnaşdı mana, başın qoydu yerə, başdadı mana baxmağa. Qarannıx düşdü. Gördüm, ilan quyruğuynan bir mənim budumnan vırır, bir öz yanına, yerə vırır. Başa düşdüm ki, məni çağırır yanına. Gəldim yanına. İlanın yanında gecələdim. Səhər oldu. İlan quyudan atıldı, getdi. Bir iki sahatdan sora gəldi, quyunun başınnan bir dovşan atdı, çör-çöp atdı yanıma. Sora özü də düşdü, gəldi yanıma. İşarə elədi ki, dovşanı pişir çör-çöpnən. Çör-çöpnən od qalıyıp dovşanı pişirdim. Verdim ilana yemədi. Dovşanın ətini işarə elədi ki, ye. Yedim. Yeddi gün bı minvalla keçdi. Yeddinci gün genə səhər durup getdi. Həmişə qayıdanda başı üstə gəlirdi, bı dəfə quyruğu üstə gəldi. İşarə elədi quyruğuna ki, quyruğumnan yapış. Qorxa-qorxa yapışdım quyruğunnan. İlan qaldırdı quyudan çıxartdı məni. Bir əlih vırdım, verdim ona. Quyruğunu qoydu quyunun qırağına, yerə vırdı, başını yellədi. Yəni mənim barəmdə heş kimə demə. Ordan birbaş gəldim evə.

Ovçu bınnarı arvadına danışır. Bərk-bərk tapşırır ki, bı barədə heş kimə bir söz demə.

Aradan bir xeyli vaxt keçir. Bir gün ovçu yaşayan kəndə bir ilanoynadan ovsunçu gəlir. Yekə bir ilanı oynadıb camaata görsədir. Camaat baxıp deyir: "Nə yekə ilandı!". Ovçu özünü saxlaya bilməyip deyir: "Bı nə ilandı ki. Mən bir ilan görmüşəm ki, bu onun yanında yalandı". Ovsunçu ovçudan əl çəhmir ki, de görüm, o ilan hardadı? Yerini göstər, gedim tutum. Ovsunçu nə qədər yalvarırsa, ovçu quyudakı ilanın yerini demir. Çox yalvar-yaxardan sora ovçu əlaşsız qalıp ilanın yerini deyir. Deyir, bəs filan yerdə

bir quyu var, ordadı. Ovsunçu deyir ki, apar məni ora, gərəh camaatın gözünün qabağında o ilanı ovsunnuyup tutam, sən də bax. Ovçu ovsunçunu həmən quyunun başına gətirir. Ovsunçu camaatın yanındaca bir duva oxuyur, quyunun başına dairəvi bir cızıx çəkir. İlan quyudan çıxır. Dairəvi cızığın içində qıvrılıp baxır. Camaatın içində ovçunu görür, tüpürür onun üzünə. İlanın tüpürcəyinin yerinnən ovçunun əti əpriyip yerə tökülür.

## V mətn

Orta Yeməzdidə bir Hajı kişi varıdı, o söhbət elədi. O da babasınnan eşidib. Orta Yeməzdinin qabağında bir Seyiddər kəndi var, orda bir ağır seyid varmış.

Belə olur ki, mənim ulu babam bəyiymiş. Nəysə bir gün bının quşu küsüp gedir. Bı çox əsəbləşir, deyir:

–Bı quş hara getdi, noldu, nətər oldu?

Sora bu öz qəlbində deyir ki, mən gedəjəm bu seyidin ojağına, həmin o seyid ojağına, niyyətnən. Üş niyyət tutur. Deyir:

– Əyər bı üş niyət hasil olsa, mən o seyidi, həqiqətən seyid kimi tanıyajam. Yox əgər tutmasa, mən onu seyid kimi tanımıyajam.

Gəlir, atı minir, gəlir. Bı da çox böyüh kət döyül, üş-dörd evdi. Rəvayətə görə, oğlan gələrmiş bı seyidin qapısına, sağalarmış, gedərmiş. Sora gedərmiş bı seyidin zəmilərin biçərmiş, sora oturarmış üstünə. Zəmilərdəki dərzdər hamısı düzülərmiş arxasınja, gələrmiş dolarmış xərmana. Rəvayatda, bax, bı qayda söhbət eliyillər.

Mənim ulu babam gəlir bı ojağa öz niyyətdəriynən. Dedim, üş niyyət tutur: əyər mən gedəndə bı seyid mənim ayağıma durmasa, mənim quşum gəlsə, bir də ki, yemədiyim xörəyi orda yesəm, mən o seyidə səjdə eliyəjəm.

Deməh, niyyətdəri tutur, gəlir kişinin qapısına, atdan düşür. Bılların da bir nökəri varmış. Gəlir atı bağlıyır. Qapılarında da belə böyüh dağdağan ağajı var, indi quruyub yıxılıp.

Gəlir girir içəri, seyid də oturmuşdu lap yuxarıdan, buxarının qırağınnan. Bəy gəlib içəri girəndə bı heç tərpənmir də. Sora bı kişi hesabını götürür ki, hə, mənim qəlbimdə tutduğum niyyətimin biri hasil oldu. Salamlaşır, kalamlaşır, oturullar, bir əz də söhbət eliyillər. Həə, bı kişi çox fikirridi, axı, bının quşu itip, bı harda olsun? Şəxsiyyətinə toxunur ki, gəlip çıxmadı? Sora bı

seyid baxır, baxır, deyir ki, bəy, narahat olma, quşun indi gələr. Bir əzdən sora nökər gəlir, girir içəri, deyir:

–Ağa, çöldə bir qızılquş oturub.

Deyir:

–Ay ağa, axı, bı gündə yediyim qatıxdı da, qatıxdı.

Deyir:

–Yox. Sən yediyin qatıx ayrıdı, amma bı qatıx ov qatığıdı.Bı əlih qatığıdı, maral qatığıdı. Yeyə bilmərsən. Yemədiyin xörəhdi, ye.

Bəy tamam inanır ki, bı ağır seyiddi.

## VI mətn

İndi bı adam – Seyid Mahmud Navıs dağında olurmuş. Köçüp gedip dağa, Navıs dağına. İrannan gələllər bının əvin çapmağa. Nə ki bı ətrafın ilanı var, tökülər qapını kəsər. İlanın biri düz Navısa... Kişi baxar, ilanı tumarrar, deyər ki, hə, yəqin bı arada adam çalıp, bı gəlip ojağa. İlan bir az yalmanıp qəyidip. Qəsdən də kişi deyip ki, bırda bir iş var, mən bınnan getməliyəm. Gəlib görüb ki, ilannar qapını kəsip, oğrular da əvi yığışdırıb, boyunnarını büküblər. Deyib:

– Ə, Allah sizə nəhlət eləsin. Gəlin, gəlin bırdan çıxın gedin.

Çıxıp gedillər. Həqiqi olmuş işdi.

## VII mətn

Muradxanın qırağında bir böyüh qarağaş varımış, ojağıymış. Tamam kişigilin tayfası ojax sayılırmış. Bir gün bı tayfadan bir oğlan uşağı ocağa gələn ilanı öldürür. Atası deyir, bala, Allah saa nəhlət eləsin, sən bı ilanı niyə öldürdün, bı ojağa gəlirdi.

Bir gün bınnar ata-bala gedillər kəvşəndə cüt sürüllər. Cütü saxlıyıllar qaracağın dibində, çörəy yeyillər. Bir də görüllər, bıdı bir ilan libasında adam gəldi. Ağ ilan geyimindədi. İlan-adam kəsdirir kişiynən uşağın başıın üstünü. Uşağın atası durur ayağa, deyir, Allah saa nəhlət eləməsin, nəyə gəlmisən? Kişi başa düşür ki, ilan intiqama gəlib. Ona görə deyir:

–Bı öküz lazımdısa, apar. İlan-adam quyruğunu bılıyır, deyir, yox. Kişi deyir, onda mənim özümü apar. İlan genə quyruğunu bılıyır, yəə durmur onnarın heş birinə. İlan-adam qatır oğlanı qabağına, aparır. Kişi dallarınja gedir, deyir, görüm, axırı necə olur. Bir dəriyə çatanda kişi görür, ilan da, uşax da birdən yox oldu, gö-

yə çəkildi. O vaxtdan bı dəriyə "İlannı dərə" deyillər.

## VIII mətn

Hajı Qasım Çələbinin 40-100 müridi olub. Onun bir müridi oluf Siriyli Mürşid adında. Deyiflər ki, indi sən buna müriddih vermisən, qoy bir nömrə görkəzsin, görəh nətəhərdi. Bı Hajı Qasım Çələbi də Mürşidə deyif ki, orda ət qavrılır, get əlini sal içinə, onu bıla. Qaynayan ətin içinnən əl çıxar?

Mürşid də gedif qavırma qazanına habelə əlin salıf bılıyıf, ət də paqhapax qaynıyır. Deyif: "Tay gördünüz?" Əli də yanmıyıf ha, o qazanda qaynayan əti elə eliyif ki, Mürşidin əlinə buz kimi yapışıf.

## IX mətn

Dədəm nağıl eliyirdi ki, belimi yel qurutmuşdu. Məni atın üstünə qoyub Hacı Qasım Çələbinin yanına apardılar. Hacı Qasım Çələbi gecə məni evində saxladı. Yay vaxtıydı, məni çıxartdı çardağa ki, burada yat. Yatmışdım, gördüm səs gəlir. Başımı qaldırdım ki, kəfənə bürünmüş bir kişi, boynunda zəncir, Hacı Qasım Çələbiyə deyir:

– Hacı, amanın günüdü, mənə köməh elə!

Hacı Qasım Çələbi deyir:

– Nə köməh eliyim? Allahın nəhlətini keçirmisən boğazına, öz cəzandı çəkirsən.

Başa düşdüm ki, boynuzəncirli kimdisə, təzə ölən bir adamdı. Nə günah eliyibsə, torpax onu götürmür, zəncir boğazında, kəfən əlində düzü-dünyanı dolaşır.

## X mətn

Seyidi bir kətdən bir kəndə qonax çağırıflar. Ona Yanıx-yürüh deyiflər. Seyid gedəndə diif ki, şallağımı verin. Buun şallağın evdə tapmıyıflar. Tapmıyanda (bunun bir dəstə qızı varmış, tək bircə dənə də oğlu varmış, adı Şabəndə imiş) diif ki, Allah sizi elə yandırsın, bir Şabəndə qalsın içizdə.

Kişi gedif bir kəndə toya. Toyda oturmayıf.

Diiflər:

– Niyə belə eliyirsən?

Diif:

– Gələndə ağzımdan belə bir söz çıxıf, indi mənim evim yandı.
Diiflər:
– Kişi, heylə şey olmaz.

Birdən görüflər ki, burda da aşırım yer varmış, bir adam çağırır ki, bəs deyin ki, həmən o Yanıx-yürüyün yiyəsi gəlsin. Kişi də gedəndə, şallağı tapmıyanda, bir ilan sallanır, kişi ilanı şallağı əvəzinə alıf əlinə getmişmiş. Gəlif görüllər ki, evi yanıf. Yürüyü iki dənə ağaca bağlamışlar. Bu ağacda yürüx yürünür. Həmən onnarın qəbrinə "Yanıx-yürüh" deyərlər. Uşağı olmayan aparıf yürüh asırdı.

### XI mətn

Keçmişdə hardansa seyiddər, dərvişdər gəlib bizim Zəngilanın Sobu kəndində yurd-yuva salıb. Bu kənd uca bir yerdədi, ondan yuxarıda kənd-kəsəh yoxdu. Sobunun suyu başqa kəndlərdən keçib gəlmir deyin, təmizdi. Dərvişdəri bu təmizlih çəkib gətirib bura.

Sobuda bir kişi varmış, çayın suyunu üfürürmüş su qayıdıb geri axırmış. İlanı qamçı eləyib əlinə götürürmüş, divarı at kimi minirmiş. İlanı divara vururmuş, hamının gözünün qabağında divar yeriyirmiş.

### XII mətn

Bir gün axşamtərəfi Hacı Zeynalabdin ağanın həyətində oturmuşuq. Bir ilan gəldi düz Hacı Zeynalabdin ağanın həyətinə. Boz gürzəydi. Uşaxlar qışqırışdılar, hay saldılar ki, Zeynalabdin ağa, ilan! ilan! Hacı Zenalabdin ağa dedi: "Allah sənə nəhlət eləsin, genə neynəmisən, gəlmisən bıra?" Hacı bir dairə çəhdi. İlan bu dairədən kənara çıxmadı. Sonra Hacı, çəliyinin ucuyla dairədən bir cızıx çəkdi, dedi: "Allahın heyvanı, indi gedə bilərsən".

İlan da bu cızıxla sürünüb getdi. Aradan bir az keçməmiş bir nəfər gəldi ki, ağa, məni ilan çalıb.

Demə, ilan onu çalıb gəlibmiş Hacı Zeynalabdin ağanın ocağına.

## OCAQLARIN YARIŞI VƏ MÖCÜZƏLƏRİ

### I mətn

Eşitmişəm ki, pirlər üç qardaşdı: Xanazır, Babakər, Pillər.

Pillər dəvəni minir, Xanazır qatırı minir, Babakər ilanı. Xanazır hamısınnan tez çatır. O biri qardaşdar böyühlüyünü verillər ona.

## II mətn

Atam Dünyamalı maa deyirdi ki, bala, Sobuda seyiddər görmüşəm, iki qardaşıdı. İkisi də bir-biriynən deyişip. Deyillər ki, hansımız gücdüyüh? Deyillər, gücümüzü sınıyax. O deyip, "mən gücdüyəm", bı deyip, "mən gücdüyəm". O birisi də deyip ki, mən gücdüyəm, mən də ilanı qamçı eliyip minnəm tifara, tifar yeriyər. Hamının gözünün qabağında deyir, suyu hayxırıp, su da gedip, o biri seyid də tifarı minib ilanı qamçı eliyip vurup tifara, tifar yeriyip. Sobuda olup bı seyiddər. Ona görə o seyiddər gedib, Sobuda olup ki, bütün çayın, çeşmənin başında hər kət var, Sobu çayının, Sobu çeşməsinin day elə bil ki, başında kət yoxdu. Sobudan çıxan su sırf-təmiz, pak sudu. Ona görə o seyiddər gedip. Sobuda daş bağlıyıp qalın. O seyiddərin ojaxları o qədər gücdü olup ki, ilan bir ziyannıx eliyəndə, o ilan gəlip o kişinin ojağının qırağında qıvrılıb yatıp. Əlbəhəl kişi deyib ki, bı hardasa bir ziyannıx eliyip ki, bı ilan gəlip bıra kişinin ojağın tutup durup. İlanın tüpürüp üstünə o ilan ölüpdü. Kişi ajıxlı tüpürüp ki, "Allah saa nəhlət eləsin, harda bir ziyannıx elədin gəldin çıxdın bıra" – tüpürüp üstünə öldürüp.

## III mətn

İranda iki qardaş mübasə eliyillər, (onnarın əjdadı gəlib Sobuya) deyir ki, mən möcüzat göstərərəm, o birisi də deyir ki, mən sənnən də artıx göstərərəm. Deyir, buyur da! Çağırıp, çöldən av gəlip. Av gəlip, çöl avı. Gəlib bılların huzurunda durup. İxtiyar verip ki, Allahın heyvanı, gəldin, xoş gəldin, gedə bilərsən. İndi bı birisi artıx hirsdənib də, bı birisi qardaş. Tifar qurmuşmuşdar, təzə tifar. Çıxıp tifarın üstünə, tifardan bir ilan çəkip, şallax əvəzi vırıp, tifar yeriyip. Yeriyəndə deyip, ay dad, tərpənmiyin, səninki mənimkinən də artıx oldu.

## IV mətn

İki qardaşdılar – Şıx Əzəddin, Seyid Məzlum ağa. Pirdə onnarın qəbri var. Bı qardaşdar Qazan Zəmi kəndinnən oluplar. Bı ojax çox ağır ojaxdı. Bı ojağa deyilən qurban yerdə qalmaz. Deyir, üş qardaş Şıx Əzəddinə qonax gəlir. Qardaşdar ona inammırmışdar. Şıx Əzəddin arvadına deer ki, aş pişir, vır dəmə. Arvat aş pişirir, vırır dəmə. Aş hazır olanda Şıx Əzəddin bir sənəh suyu götürüp tökür

aşın üsdünə. Qonaxlar fikirrəşir ki, bir sənəh suyun qabağında aşda aşdıx qalmaz. Ama arvat aşı qablara çəkip gətirəndə görüllər, su nə gəzir, aş ləzzətdicə aşdı. Gejə olur, qonaxlar yıxılıp yatıllar. Səhər durub görüllər, Şıx Əzəddinin həyəti çölün heyvanıynan doludu, arvat-uşax bı heyvannarı sağır. Qonaxlar deerlər: "Hə, bıra əsl ojaxdı". Sən demə, bı üş qardaşın da İran tərəfdə ojağı varmış. Onnar gəlipmiş Şıx Əzəddinin güjün sınamağa.

**V mətn**

Genə bir dəfə Hajı Qasım Çələbi meşənin içiynən gəlirmiş. İki-üç nəfər siriyli gəlif üstün kəsdirif. Deyiflər ki, sən bırda hökmünü görkəzirsən görkəz, görkəzmirsən, səni doğruyajıyıx. Ənə baxıf, bənə baxıf, görüf ki, orda, qıraxda kəhlihlər oxuyur. Deyif: "Ay Allahın heyvanı, görmürsən (hələ onda siriylilər ona inanmırmışdar) bı pülüylülər qabağımı kəsif məni öldürürlər, niyə bəri yenmirsən?" Əlin açıf, kəhlihlər gəlif biri qonuf bir əlinə, o biri də o biri əlinə. Quşdarı sığallıyıf, öpüf, deyif:

– Di uçuf gedin.

Siriyli həylə eliyif onu. O da hökmün görkəzif. Həylə kişiymiş.

**VERGİLİ ADAMLAR**

**I mətn**

Bizim kətdə bir Süsənbər arvad varıdı, dədəsiin-nənəsiin bircə qızıydı. Bı yaxınnarda öldü. Müharibə vaxtı qəbirstannığın yanında taxıl döyürdü. Biz uşağıydıx, mindirirdilər bizi vəlin üstünə bı Süsənbər arvad gedip uzanırdı tayaan dibinə. Birdən qışqırıb uzandığı yerdən qalxırdı. Bir cürə arvadıydı. Deyirdim, ay Süsənbər xala, niyə elə eliyirsən? Deyirdi, bala, yuxuya gedən kimi arxamnan qışqırıllar, söyüllər, deyillər, niyə yatırsan?

Deyirdim, ay Süsənbər xala, başqaları yatanda niyə heylə olmur? Deyirdi, ay bala, sən xırda uşaxsan, neyniyirsən soruşmuş? Bir dəfə ərimə demişəm, bı günə düşmüşəm. Süsənbər xalanın bir üzü qapqaraydı, həmən tərəfdən gözü də koruydu. Nəqqədər eliyirdim, sirrin demirdi. Bir dəfə gözümə gilas qabığı düşmüşdü, gözümü döyürdü, o qədər döydü, döydü, yapışıb qaldı gözümdə. Bir gün Süsənbər xala soruşdu ku, ay bala, o gözündəki nədi?.

Dedim. Başımı qoydu dizinin üstünə, iynəni çıxarıb gözümnən qabığı götdü, qoydu ovjuma. Süsənbər xala diliynən də gözdən saman çöpü, qar-qabıx çıxarırdı. Dilin birjə dəfə gözdə hərriyirdi, o sahat təmizdənirdi. Yapışdım yaxasınnan, qopmadım, dedim, danış, sirri maa de. Naəllaş qalıb dedi. Dedi, bala cavan vaxtı, təzə ərə gedən vaxdı bir ağ attı gəlib dururdu çardağın yanında, adımnan çağırırdı, durub düşürdüm çardaxdan. Mən yerə düşməmiş quş kimi alıb məni qoyurdu tərkinə, aparırdı qəbirstannıxları gəzdirirdi, bütün qohum-əqrabanı maa göstərirdi, deyirdi, hama bı sirri heş kimə aşma, saa elə bir çörəh verəcəm ki, ölənətən kasıblıx nə olduğun bilmiyəssən. Sora gətirib məni qoyurdu çardağın yanında, yox olurdu. Kamıl da bir-iki dəfə görmüşdü, məni döyürdü, öldürürdü, deyirdi, de görüm, bı gecə vaxtı hardan gəlirsən? Mən də demirdim. Kamıl elə bilirdi, pis yola gedirdim. Axırda məjbur qalıb dedim. Dedim, Kamıl, bı sirri saa deyərəm, anjax bınnan da çörəyimiz kəsildi. Danışdım Kamıla, yatdıx. Təzəcə yatmışdım ki, üzümə bir şillə dəydi. Görürsən, yeri qalıf. Gözüm kor oldu, qaldım taygöz. Dedim Kamıla, di get, indi qazan, saxla məni, görüm nejə saxlıyırsan? Onnan sora beləjə kasıflıxdan qurtarammırıx. Onnan sora o ağ attı ta heş vaxt gəlmədi.

### II mətn

Bı əhvalat Ördəhli kəndində olup. Qızgil evlərini pirin yanında tihdirmişdilər. İki dənə ilan gəlir. Birinin üstündə qara yaylıx, o birisinkində bilmirəm nədi. Gəlir, deyir, vergi verəjiyih. Qız nəysə görürmüş. Qızın dili tutulur. İrəhməttih Seyid Hüseyn ağagilə gedir. Orda bir üş-dörd gün qalannan sora dili açılır. Seyid Hüseyn ağaynan söhbət eliyir. Deer ki, belə... Seyid Hüseyn ağa deer ki, bala, götürməsən, səən dilin açılmayajax. Onnan sora götürür. Seyid Hüseyn ağa deyir ki, bizim evdə bir baydaça var, bizə deyərsən, onu da unnan doldurup verəllər saa, kimin ki, boğazı ağrıyır, una batırıp əli çəkərsən boğazına, boğazına nə olsa, çıxajax. Həyləliynən ona vergi verilir. O kəlağayı ki var, onu uşağı olmuyan qadınnar belinə bağlıyır, uşağı olur, o ilan verən kəlağayı. Əyər o kəlağayını qız götürməsəydi, dili açılmazdı, lal olardı.

## III mətn

Keşmişdə uşağın boğazı ki, gəlirmiş, hər adamın əli, hər adamın səbəbi düşmür ki, mən də boğaz basım, anginası qəyitsin. Ancax belə var ki, ilan ilannan görüş zamanı, bir-biriynən ki dolaşır, qarşına çıxanda, istiyir kişi olsun, istiyir qadın qismi olsun, bı onun fərəsətinnən asılıdı, bir daş atar, elə olur ki, ilan bir-birinnən aralaşır. Elə şərt o deyil ki, aralaşa biri o tərəfə, biri bı tərəfə gedə, elə aralaşan kimi şərt odu ki, arasınnan keçəsən, deyəsən: – Əlim boğaz dərmanı!

Yainki, deyəsən, əlim sarılıx dərmanı, ya başqa bir yara dərmanı. Ta ayrı şey yox, nəyi deyirsənsə, onu sağalda bilirsən.

# III. MƏRASİMLƏR, OVSUNLAR

## ŞAMAN MƏRASİMİ
## (Tas qurma)

### I mətn

İndi o tasınan əlaqədar sizə bir şey deyim. Bir nəfər qadın dəli olmuşdu. İbrahimin nənəsi deyirdi ki, gözümnən gördüm. Muradnan Molla Tağı tas qurdular. Murad görücüydü, Molla Tağı da tas qururdu. Deyir, bu molla qaba vururdu cinnəri adıynan çağırırdı. Murad da deyirdi ki, filan cin gəldi, o birisi gəldi, bı birisi gəldi. Deyir ki, cinnərin içərisində bir axsağı var, arvad şəklində, o gəlmir. Molla da Quran ayələrinnən oxuyub, o cinə qarğış tökürmüş, deyirmiş ki, Allah saa lənət eləsin. Murad birdən deyirmiş ki, molla budu gəlir, vahiməsi basır məni. Molla deyirmiş ki, qorxma.

Deyilənə görə, həmən adamı dəli eliyən cinnəri gətirə bilsəymiş, o adam sağalarmış.

### II mətn

Bizim Aladin kəndində molla varıydı. O, tas quranda görmüşəm. Mis baydanı molla yudu. Yuyannan sora yarıya qədər suynan doldurdu. Baydıya ya qızıl üzük salırdılar, ya da bir abbası sikkə. Bı baydıya bir abbası sikkə saldı. Molla əlinə bir çubux götürdü. Görücü də yanında, duvanı yazır. Arada yazısını saxlıyıb çubuğu döyüb deyirdi: hilal gəl, hilal gəl. Arvada görüjü deyirdi: Gəldilər? Deyirdi: Hər ikisi gəlib. Molla deyirdi: Soruş, gör onnarın sayı neçə nəfərdi. Arvad da soruşub deyirdi: Yeddi nəfərdi, altı nəfərdi. Hamısı gəlib biri qalıb. Görücü deyirdi ki, bu adam saa neyniyib ki, sən belə eliyibsən? O, da deyirdi ki, isti su töküb uşağım cıbırıx çıxıb.

Yenə də çağırdı. Molla duvanı yazıb ocağı qalıyırdı. Deyirdi: And olsun Allahın vəhdətinə, hökmü-Süleymana duvanı yandıraram. Arvad (görücü) deyirdi ki, orda çığırışıllar. Deyillər ki, denə duvanı yandırmasın.

Molla deyirdi ki, denən and olsun hökmü – Süleymana, gəlməsəniz yandıraram.

Axır ki, arvad gəldi. Yəni axırıncı cin də gəldi.

Dedi ki, ona denə ki, and işsin Süleyman peyğəmbərin hökmünə ki, bına xətər toxundurmayajax. Tövbə eləsin.

Cinə dedi, cin dedi: Eləmirəm.

Molla duanı tuturdu oda. Görücü deyir ki, Molla duanı oda tutanda, cin qızdırmalı adam kimi əsirdi.

Görüjü deyirdi ki, and içillər. Deyillər ki, and olsun Süleyman peyğəmbərin hökmünə, ta biz ona bir dəfəlik dəymiyəjiyih.

Onnan sora həmin adam (dəli olan) müharibədən qabax neçə il milisdə işdədi. Soyra Bakıda dükan müdürü işdiyirdi. Keçən il Allahın rəhmətinə getdi.

Bırda bir arvad dəli olmuşdu, Fatma adında. Getdilər. Nüvədidə Gülü varıdı-Molla Gülü gətdilər bıra. O, belə bir pərdə qurmuşdu, onun dalında tas qurerdi. Deyirdi ki, cinnəri mən görürdüm. Quranı varıdı. Toynan onu sağaltdılar. Molla dedi, şarapnan-şırapnan toy çaldılar, onu sağaltdılar. Nəğərə vıran, zəngula vıran, qoyunhavası vıran... toynan o gəlini sağaltdılar. Onnan sora o gəlinin üş-dörd uşağı oldu.

O aşağıda-Ərdəlidə biri varıdı, onu da toynan sağaltdılar. Üş gün toy vırıldı, yəəsi nə qədər çəltih verdi, bığda verdi, birbalalı inəh verdi o toyçulara. O dəli arvad oynadı, oynadı, oynadı, tər götürdü, o toynan da başınnan çıxdı. Sora Molla Gülü dedi:

–Nətəhərsən?

Dedi:

–Getməliyəm zoğala, armıd yığmağa, getməliyəm, bağa getməliyəm.

Onnan da sağaldı, gözümnən görmüşəm.

### III mətn

Tası, suyu qoyur bıra. Onun duvası var, oxuyur, ollar gəlir. Onun xüsusi görücüsü var. Bırda bizim bı Sobu kəndində İtay addı bir arvadıdı, vəfat elədi, o görürdü. Bax o bəyəx dedim ki, ilan çalmışdı ha, Hümbət kişi, o da görürdü. Amma hər adam görmür.

Həə, orda o görücü ollarnan danışır, addarı deyir, niyə o xəstiyə toxunmuşmuşdar, onu örgənir. Necə ki, bizim addar var, bax, həylə deyirdilər: Əli, Vəli, Qulu... belə-belə deyirdi. Adı elə bizim addar kimidi, müsəlman adıdı. Deyirdi ki, müsəlman olanın adı elə müsəlman adıdı, o xaşpərəsdən olanınkı da xaşpərəst adı-

dı. Hə, elə onnarın da müsəlmanı, xaşpərəsti var. Onnarı dedirdir mənşəri oxuyur, oxuyannan sora onnarı yığır qarğoya. Onnan sora anda verir. And içillər ki, tay dəymərih. Xəstə də yaxşı olur.

## QURDAĞZI BAĞLAMA

### I mətn

Qurdağzı duasın mən özüm bilirəm, özü də eliyirəm. Dədəm deyirdi ki, mən hələ Məşədə getməmişdim. Bırdan keşdüh Nüvədi-Vıramjana. Bırdan da bir kasıp kişi, iki qardaşıdılar, bircə öküzü varıdı, bizimnən getdi. Bının öküzü yayınıb, itip. Duman da hər tərəfi basıp. Deyir, gəldi Qulu kişi, Məşə Rəsul bəyə dedi:

–Məşə Rəsul bəy, öküzüm itip, ona bir qurdağzı bağla.

Məşə Rəsul da dedi ki, ə, Xaməmməd, ona bir qurdağzı bağla.

And içirdi dədəm, deyirdi, qurd ağzın bağladım. Gəlip tüşüplər, öküz yatmışımış. Öküzü cırmaxlamışdılar, elə eləmişdilər, cırıx-cırıx, ama ağzı açılmamışdı.

### II mətn

Bax, budu e, burda, İsrafil Əmoğlu addı kişidi. Deyir, qoyuna gedirdim, qoyunu böldürmüşdüm, beş-altısı qalmışdı örüşdə. Gəldim əmimə dedim (dədəmə əmi deyirdim) qurd ağzı bağladı. Səhər getdim, deyir, yolnan gedənnər dedi:

– Ə, odu eyy, qoyunnar odu orda, içində də qurd, ağzı açılmır yeməyə.

### III mətn

Astan bir gün gəldi ki, inəh yozdaxdı, qaçıp. Alməmməd, ona bir qurdağzı bağla. Dedim:

–İrəngin de.

Bağladım. İnəyi səhər getdilər, tapdılar, bızav yoxdu. Dedi ki, ə, bızavı qurd yeyip.

Dedim:

–Ə, mən neyniyim, bızav dünyuya gəlməmişdi, onun rəngin soruşmadım, bir şey eləmədim.

Onun irəngin nəzərdən keçirdirsən, örüşü nəzərdən keçirdirsən, deyirsən: "Bismillahi rəhmanı rəhim". Üş dəfə ancax. "Fəqə-

riora fədəm dəmə əleyhim rəbbehim bi zəmbehim zəvvaha vəlos yaxari üqübaha kuf" üş dəfə deyip nəfəs almırsan ancax. Birnəfəsə üş dəfə deyənnən sora qərəsaplı, möhkəm bıçax olsa, bıçağa "hüff", olmasa, qırmızı qatmıya "hüff" eliyirsən. Hünəridi yesin.

## IV mətn

Şəmsü, həvə Qərux əfət,
Dəmdəmə,
Əleyhim,
Rəbbihim,
Müzəmmim,
Fəssəfi,
Valihi,
Ya Xəfi,
İqbahi (Qurd adı).
Bu sözləri oxuyursan, qurdun ağzı bağlanır.

## V mətn

Bınnan əzələ qurd aşığına dua yazırdılar. Kimə sürtsəymiş arvadını boşuyarmış. Qurdu murdarrıyanda təsirdən düşürdü.

## VI mətn

İnəyi itən adam əlinə qazan götürür. Onu üç dəfə hərriyib deyir: "Allah, sən canavarrarın, çaqqalların, oğruların dilini bağla". Bunnan sora qazanı ağzı üstə çevirir.

## VII mətn

Qurdun əlini kəsillər. Mərdimazar aparır saxlıyır, adam yox, mərdimazar. Bir adamın bir şeyi itsə, onun üstünə molla dua yazır. Sora aparıb əlini yandırıllar. Onu oğurruyan adam qıc olur, gəbəni aparıbsa gəbə qırışır.

Qurdun əlini gərəh aparıb uzaxda yandırasan. Ona görə uzaxda yandırıllar ki, yandırannan sora quraxlıx olur. Uzaxda yandırıllar ki, quraxlıx bıra gəlməsin.

## İLAN OVSUNU

Qadan alım, sofular (ilan ovçusu) gəlirdi. İlan duvası oxuyurdu. İlannarın adını sayırdı:

Talxam haydı,
Şalxam haydı,
Cəfəri, Cəfəri,
Cinni bəşər, Şahmar, Yelmar, Gülmar.
Mələyim, quzum,
Şünağzı məndə,
Döyməsin, aşmasın,
Yüzənni gəlsin,
Ya Süleyman peyğəmbər.

Deyib, duza püf eliyirdi. İlannarı dolandırırdı adamın başına. Duzu səpirdilər həyətə, heyvannara verirdilər ki, sədəmə toxundurmasın.

## DOLU OVSUNU

Seyid Həsən ağaan oğlu Zeynalabdin ağa bir gün gəldi bizə, dedi ki, gəlmişəm bı yerin, bı torpağın dolusun bağlıyam iyirmi beş ilin vaxtına. İki gün gəzdi atınan. Bağladı. Elə onnan da dolu-molu yoxudu. Onun vaxtı bıyil qurtardı. Bıyil kəfşəni, üzümü, hamısın dolu vırdı, yudu, götdü, getdi.

## TARLA OVSUNU (OXÇU)

Bir kəndə sıçan çox dolanıbsa, qabağın almağ olmursa, keşmişdə gedib oxçu gətirərmişdər. Oxçu oxu həmən kəndin kövşənində yerdə cızıx sala-sala arxasınca çəkib aparır. Kövşəni dolanıb gəlir, gəlir cızığı əvvəl çəhdiyi yerə. Ancax cızığı birrəşdirmir, arada yer saxlıyır ki, sıçannar həmən birrəşmiyən yerdən dayriyə girib ölsünnər, bıralardan çıxıf getsinnər.

## UŞAĞI XƏLBİRDƏ GƏZDİRMƏ

### I mətn

Bizim qonşuda Mürsəl vardı, onun bir qızı vardı, yeddi il yerimə-

di. Adı Fatmaydı, Xırda xala onu neçə dəfə xəlbirə qoyuf kətdə gəzdirirdi. Deyirdih, ay Xırda xala, niyə belə eliyirsən? Deyirdi, bala, gərəh Fatmanı yeddi qapıda gəzdirəm, hər qapıdan bir ovuş un alam, o unnan kökə pişirəm, axşam mal gələndə təpədə diyirriyəm naxırçıın qabağına, naxırçı da götürə o kökəni kəsə yeyə. Onda Fatma yeriyəcəh. Fatma, səni yanmıyasan, yeddi ildən sora yeridi, hələ şəhərri də oldu. Odu eyy, Sumqayıdda yaşıyır.

**II mətn**

Uşax yerimiyəndə xəlbir qoyullar, yeddi evə gəzdirillər, hər evdə nəzir çörəh verillər. Həmən çörəhləri malayağı vaxtı naxırçıya verillər. Üş cuma axşamı yeddi qanını gəzdirillər, sora dəyirmanı navın altınnan keçirillər, böyürtkən koluun başına fırrıyıllar. Yerimiyən uşağa "çiləli uşax" deyillər.

## SEYİDİN ÖVLAD VERMƏSİ VƏ UŞAĞIN QORUNMASI

Biz çox uşax olmuşdux, ancax qalan mənəm, bir də qardaşım. Uşaxlar olurmuş, hama qalmırmış. Qardaşımnan qabax iki bajım olub, ölüb. Bir gün dədəm Qarağaşdıya gəlibbiş (biz bırdan dəyilih, Teşdahatdanıx, Başaratın üstündədi). Hə, dədəm bırda Seyid Mirişə irast olur. (Seyid Miriş çox ağır seyid oluf. Onun əvi ocağ oluf, indi də oğlu Seyid Məmmədin qapısına ilannar ziyarata gəlir, əvin adamına da dəyib dolaşmıllar). Hə, Seyid Miriş dədəmnən soruşur ki, niyə belə bikafsan? Dədəm bir söz deməmiş, Gəddinə qurban olduğum deyir, bilirəm niyə bikafsan. Qayıt get əvinə, bir ildən sora əvində bir oğlan göreysən. Dədəm qayıdıf gəlir. Bir ildən sora qardaşım olur. Sora nənəm genə hamilə olur. Bir gün uzanıb fikirrəşirmiş ki, oğlumu Seyid Miriş verdi, indi ki qız olejeh, qalmıyejeh. Bı fikirnən də yatır.Yuxuda görür ki, bir ağ abalı, ağ saqqallı, ağ ammamalı, nurru sifat bir adam durdu başıın üstə, dedi: Qorxma, uşağın ölmüyəjəh, hama gərəh uşax olan kimi gedif o kasıf Alının əvinnən paltar gətirif geyindirəsən uşağa. Nənəm yuxudan ayılır. Bir müddətdən sora mən oluram, gedif Alının əvinnən maa paltar gətirif geyindirillər. Mən əyax tutannan sora öz əvimizdə qalmırmışam, elə hey qaçırmışam Alıgilə. Gedif gətirirmişdər, genə qaçıf gedirmişəm.

## ZAHININ ÜZNÜYÜNÜ ALMA

Zahı qadının üznüyünü götürmək üçün mal ayağı, yəni axşam mal-heyvan gələn vaxt qadını uzadıllar qapının ağzına. Bir nəfər qadın bir kasa suyu şahlı tərəzinin bir gözünə qoyub xəstə qadının başınnan ayağına yelliyir, deyir:

Mən aşix sucuğaz,
Sudan içdim bucuğaz.
Üzüldü üznüyün götdüm,
Dərmanıdı bucuğaz.

Bı sözdəri deyə-deyə kasadakı suyu üç dəfə xəstənin başından ayağına tərəf yelliyir. Xəstə qadın deyir:

Yer, üzünüyümü verirəm sana,
Qüvvəə ver mana.

Bunnan sora üzünüyünü götürən qadın kasadakı sudan xəstə qadının dörd bir tərəfinə atır. Suyu ovucluyub atdıqca xəstə qadın deyir:

Yer üzünyümü verirəm sana,
Qüvvəni ver mana.

Suyu xəstə qadının başınnan ayağına qədər üç dəfə yelliyəndə xəstənin üzünə sudan bir damcı da düşməməlidi.

Bu, üç çərşənbə axşamı dalbadal təkrar olunur.

## QORXU GÖTÜRMƏ

Uşağın qorxuluğunu götürmək üçün hərsini odda qıfqırmızı qızardıllar. Bir qab su götürüllər. Çərşənbə günü gəlib uşaq yatan yerdə durullar uşağın başının üstündə. Hərsini basıllar suya, səs çıxır. Bu səsə uşax oyanır, diksinir. Hərsini üç dəfə basırsan suya. Bir dəfə uşağın baş tərəfində, bir dəfə orta tərəfində, bir dəfə də ayax tərəfdə bunu təkrarrıyıllar. Sora o sudan götürüb uşağın üz-gözünə sürtürsən.

## SANCI GÖTÜRMƏ

Sancılanan uşağın sancısını kəsməhdən ötrü uşağı verəllər ərə getməmiş qadının qucağına. Qadın uşağın əmgəyini ovxalıyar, uşağın qarnını qoyar başına, fırrıyar. Guya belə olanda uşağın sancısı kəsər.

# IV. MƏRASİM NƏĞMƏLƏRİ
## GÜNƏŞİN ÇAĞIRILMASI (QODU-QODU)

### I mətn

Hava yağışdı olanda gün çıxartmaq üçün çömçüyə bir parça keçirirdilər, düşüb qapılara oxuyurdular:

Kodu gördüyün varmı?
Koduya salam verdiyin varmı?
Kodu gedənnən bəri,
Gün üzü gördüyün varmı?

Kodu gəldi düşürün,
Süddülücə aş bişirin,
Kodu gün çıxartmasa,
Vurun boynun düşürün.

### II mətn

Çox yağıntılı olanda, gün çıxmıyanda bir neçə adam çömçənin başını yaylıxnan gəlin kimi bəziyir. Bını qapı-qapı gəzdirillər, pay istiyillər, bu sözləri oxuyullar:

Qodu-qodu gördüyün varmı?
Qoduya pay verdiyin varmı?
Qodu gedənnən bəri,
Gün üzü gördüyün varmı?

Çatma, çatma, çatmıya,
Çatma yerə batmıya.
Hər kəs Qoduya pay verməsə,
Sijimi dönsün qatmıya.

Qodu gəldi, dindirin,
Qodunu ata mindirin.
Qodu gün çıxartmasa,
Vurun onu sındırın.

## YEL ƏLLİ

Bizim yerdə Novruz bayramı gələndə arvatdar yığışırdılar, bayram eliyirdilər.

Onnar iki cür nənni düzəldirdilər. Birinin uzunnuğu 20 metir olardı. Biri də iki çala ağac olurdu. İpləri qoşa qoyurdular. Qadının biri bu ipin üstündə otururdu ayaxlarını verirdi onun ipinə. Biri də o ipdə oturub ayaxlarını uzadırdı bının ipinə. Bu yannan o yana uçurdular.

Oxuyurdular:

Bı deyirdi:

O tayda qoş yatıbdı.

O deyirdi:

Ay daha nənni yel əlli.
Buynuzdarın çatıbdı,
Ay daha nənni yel əlli.

O biri oxuyurdu:

Fatma nənəm yatıbdı.

Bı deyirdi:

Ay daha nənni yel əlli.
Dizi quma batıbdı,
Ay daha nənni yel əlli.

Bahar gəlib xoş gəlib,
Ay daha nənni yel əlli.
Demə, əli boş gəlib,
Ay daha nənni yel əlli.

Bahar necə qəşəhdi,
Ay daha nənni yel əlli.
Hər tərəfi çiçəhdi,
Ay daha nənni yel əlli.

Bını ona görə oxuyurdular ki, yanı əkin əkməyin vaxtıdı. Özü də qadınlar xor kimi oxuyurdular. Biri birin, digəri o birin oxuyurdu.

## XIDIR NƏBİ

Ocağın başına Xıdır Nəbidə toplaşırlar. Qış yarı olanda guya Xıdır Nəbi olur. Həmən Xıdır Nəbidə deyərlər ki,

Xıdır Nəbi, Xıdır İlyas,
Bitdi çiçəh, oldu yaz.

Xıdır gəlir haynan,
Altı qara daynan.
Day batdı palçığa,
Yağ gətirin yağlıyax,
Dəsmal gətirin bağlıyax.
Dəsmal dəvə boynunda,
Dəvə Şirvan yolunda.
Şirvan yolu buz bağlar,
Dəstə-dəstə gül bağlar.
O gülün birin üzəydim,
Saşlarıma düzəydim.
O evdəki cavan kimiysə
Onun toyunda sındıra-sındıra süzəydim.

Torba atarmışlar içəri:

Çatma çatmıya,
Çatma yerə batmıya.
Hər kəs Xıdıra ləyaxlı pay verməsə,
Muradına çatmıya.

Belə deermişdər. Bular da gətirif evdə yağdan, baldan nə varsa verərmişdər. Bir qabda xaşıl bişirərmişdər, qoarmışdar ki, gecə Xıdır gəlif əlin basajax ora. Rəvayətə görə, səhər dururmuşdar ki, orda əl var. Nə biləh özdəri basırmışdar, yoxsa əlimiş.

## SAYAÇI SÖZLƏRİ

Anam, a nazlı qoyun,
Qırqovul gözdü qoyun.
Pendirin kəsmə-kəsmə,
Qatığın üzdü qoyun.

Anam, a qızıl qoyun,
Gəl yollara düzül qoyun.
Yiyən sənə kəm baxsa,
Qaç əlinnən üzül, qoyun.

Nənəm, a  səkil qoyun,
Başında kəkil qoyun.
Arana isdi düşüb,
Yaylağa çəkil, qoyun.

Çal qoyun çallanar,
Quyruğu da sallanar,
Çodar görər allanar,
Yiyəsi də pullanar.

Anam, a qoyunun ağı,
Dolan gəl, düzü dağı.
Qızdara cehiz  ağı,
Çobana çarığ bağı.

Anam, qara əbrəş qoyun,
Qarlı dağlar aş qoyun.
Ay  qaranlıq gecədə,
Çobana yoldaş qoyun.

Anam, a kərdi qoyun,
Otdadı durdu qoyun.
Ayaqların yerə döyür,
Görüpdü qurdu qoyun.

Anam, boz ala qoyun,
Yolda yaz ala qoyun.
Yazı yaxşı gələndə,
Maa qız  ala, qoyun.

# V. PİRLƏR VƏ OCAQLAR HAQQINDA MƏTNLƏR

## GÖBƏKDAŞ

Uşağı olmuyan qadınnar Göbəhdaşa gedəllər. Qarınnarını açıb göbəhlərini qoyallar o daşın yerinə, daşın başına fırranallar ki, uşaxları olsun. Arpa dağıynan Buğda dağıın arasındadı o daş. Üş-təpə tərəfdədi.

## DƏLİKDAŞ PİRİ

Dəlihdaş Qarakilsədədi, pirdi. Ortasınnan yekə bir deşih var. Niyət eliyirsən, hasıl olanda gedirsən, hərrənirsən, üş dəfə keçirsən. Qız-gəlin gedib bayramda orda oynuyur, daşa nəzir qoyullar. Parça bağlıyıllar, daşı paltar-palaznan bəziyillər, yaylıx bağlıyıllar.

## HASAR

Bizim qəbirsannığın qırağında bir hasar vardı, özüm gözümnən görmüşəm, yerimiyən uşaxları gətirif o hasarın başına dolandırırdılar ki, uşax yerisin.

## DEŞİKDAŞ

Humay qayasının altında daş var, deşihdi. Özüm görmüşəm, Şüşə nəvəsini gətirib, o deşihdən keçirtdi ki, uşax qüvvətdi olsun, həm də tez yerisin.

## SANDIQ DAŞ

Qabaxlar bı daşa sitayiş eliyiflər. Kimin dalağı uzanarmış, aparıf həmən daşın dibinə duz basdırarmış, qarnın daşa sürtərmiş, bınnan da sağalarmış. Qulunc xəstəliyi olannar da, gedib o daşda quluncun qırarmış. Bınnan da qulunc xəstəliyi gedərmiş.

## PİR AĞAC

Böyüh qaratikan koludu. Niyət eliyif, qırmızı bağlıyıllar, dibinə daş atıllar. Soralar yağış yağmıyanda, ordan daş gətirib, suya salıllar ki, yağış yağsın.

## SEYİD HÜSEYN AĞANIN QƏBRİ

Qəbirdi, yanında şam ağacı var. Pirdi. Deyillər, ilannar da gəlib halqa bağlıyıllar. Ağzı əyilən, dəli olan adamları gətirillər ora, gecə yatırdıllar orda, sağaldır. Orda niyət eliyif, çırax yandırıllar, qurban kəsillər, ojax çörəyi pişirif, yoldan ötənnərə paylıyıllar.

## AĞAC EHSANI

Keşmiş qəbirsannıx oluf, o ağaş da ordadı. Tut ağajıdı. Gözümü açannan görmüşəm ki, o ağac elə o boydadı, durub orda. Mən həyətimin başında bir tut əhmişəm, demişəm, ay camahat, bı ağacı əhmişəm, o ağacın yolunda verirəm.

## QARATİKAN KOLU

Böyüh bir qaratikan kolu var. Niyyət eliyip bı kolun dibinə daş atıllar. Yağış yağmıyanda ordan daş gətirip suya atıllar ki, yağış yağsın.

## TUT PİRİ

Bı ağaş Qarağaşdıynan bizim aramızdadı. Tut ağajıdı. Orda ehsan verərdilər. Niyət eliyif, niyəti hasil olanda, gedib orda yoldan keçənnərə ehsan verərdilər.

## TUT PİRİ – KƏRİMİN AĞACI

Kəndin ortasındadı. Ağzı əyilən adamı aparırdılar ağacın dibinə. O ağaca ilan da gəlir, davşan da. İlanın boğazında daş qalır, gəlir ora, daş düşür.

Kərimin ağacına hər yerdən gəlillər. Xəstə, xəstə yəəsi də, ge-

cə qalır ağajın dibində. Səhər duruf gedillər. Nəzir qoyullar, niyət eliyillər. Kərim ağacı tutdu, tut ağacıdı.

## YEL OCAĞI

Biri xəstə oler, qolu qıçı ağrer, yel ojağına nəzir deyir, görürsən toyux aparellər, çəpiş aparellər, hər kişdənin öz quvatına görə qurban kəsellər. Bınnan irəli yağlı qalınja olurdu, yağlı qalınja aparerdilər. O ojağın torpağınnan götürüp, ağrıyan yerrərinə sürterdilər, sağalerdi.

## DİŞ AĞACI

Avdalanın yanında Diş ağacı var. Yanında təh gümbəz vardı, sora uçurdular. Uçuran adamı, deyillər, güllələdilər, bir incinarmış. Həə, o diş ağacı dağdağandı. Kimin nəziri varıymış, aparıf verərmiş. Gedif görürdüm ki, qırmızı yaylıxlar doluyuflar ağaca, budaxlarına. Tərəkəmə eliyirdi, nə niyətdəri varıymışsa, gəlif o cür eliyif gedərmişdər.

## İŞIQLI DAĞININ PİRİ

Kənddən 10 kilometr aralıda yerrəşir. Ora dağın ətəyinə qədər gedirdih. Atnan qalxırdıx. At ordan o tərəfə getmirdi. Ora gedən adam niyyətə gedirdi. Yağış yağmıyanda gedib, ordan daş gətirib hansısa bir bulağa salırdılar. Aradan bir yarım sahat, 15 dəyqə keçənnən sora yağış tökürdü. Ora gedən adam nə gərəh danışmazdı, nə də arxıya dönməzdi. Əyər danışsaydı, arxıya dönsəydi, niyyəti qəbul olmazdı. Onun əsas sirri bu idi. Dağın hundurruyu 2700 metr idi. Dağın lap başına dəmir fışka qoymuşdular. Fışkıya qalxannar da varıydı. Butulkuya ad-adres yazıb qoyurdular, dibinə basdırırdılar. Gedib-gələnnər deyirdi ki, orda bir ojax var, nejə bir kalafa kimi geniş yerdi. Nəzir deyirdilər.

Sisyanın iki böyüh dağı olup. Salvartı və İşıqlı dağı.

İşıxlı dağı deyəndə gün çıxannan batana qədər işıx, gün döyüb onu.

## SÜMÜKLÜ PİR

Dağın şüş kəlləsində idi. Sisiyanın axırıncı kəndi var idi. Bazarçay. 41-45 müharibə vaxtı və müharibədən qabax o vaxtı ora malaqannarı sürgün eliyirdilər. O kəndin özündə malaqannar yaşıyırdılar. Orda böyük düz var idi. Ora malaqan çiməni deyirdilər. Bu çimənliyin qabağı böyuk bir dağıydı. Ora Sümühlü pir deyirdilər. Bu dağın düz kəlləsindəydi. Orda bulax yoxuydu. Bulax dağın aşağısında idi. Köşməmişdən on beş il qabax ermənilər bir daşın üstündə xaç şəkli çəkib aparıb atmışdılar ora. Ermənilər son vaxtı ora ziyarətə gedirdilər.

## QARA PİR

Ona görə ora Qara pir deyirmişdər ki, kim xoş gün görmürmüş, ağ gün tapmırmış, gedip o pirə ziyarat eliyirmiş. Eliyirmiş ki, mənim taleyim qara gəlifdi. Xoş gün istiyirəm özüm üçün.

## ŞƏHİDLƏR DAŞI

Bala, bizim kətdə taxıl əkilən yerdə bir ençədaş yığımı varıydı. Bı daşın adına "Şəhiddər daşı" deyirdilər. Xaşpərəsdər bı daşın güjünə inanmırdılar. Bı daşı ermənilər aparıb tikiliyə qoyublar. Səhər duruf görüflər ki, daş yoxdu. Daşı öz yerində görüflər. Onnan sora, inandılar ki, bı ojaxdı. Bına dəymək olmaz.

Hava quraxlıx olanda o daşın bir qırığını götürüf su üstünnən keçməməh şərtiynən, evdə içində su olan qaba salırdılar. O daş qabda qalana kimi yağış yağırdı. Sora daşı aparıf həmən yerə qoyurdular.

## DAĞDAĞAN PİRİ

O Xustub dağında ağac yanıb. Bunnan bir balaca kəsöv gəlib düşüb ora. Orda bitif. Dağdağan ağacı da kəsövin yerində bitip. Bu pir ziyarətgahdı. Ora kim gedir, orda şam yandırır.

## XUSTUBUN DAĞI

Hündür dağdı. Dəniz səviyəsinnən çox hündürdü. Bu dağa ziyarata gedillər. Təmiz adamı qəbul eliyir.

## KOROĞLU DAŞI

Koroğlu daşı çala ağ daşdı, 20 sm uzunnuğudu, 50-60 sm enidi. Ona "ağ oyux" da deyillər. Qıratın ayaxlarının şikili düşüb o daşın üstünə.

## FAL DAŞI

Fal daşı Sirik kəndinin yaxınlığındadı. Kim o daşın üstünə çıxır, o sahat hava qarışır, yağış yağır.

## ZİYARƏT DAĞI

Bu dağ Qalacıq (Cəbrayıl rayonu) kəndindən 35-40 km aralıda yerləşir. Qapısı var, hər tərəfi daşdı. Pəncərəsi dəyirmidir. Balaca bir taxça var. Niyət eliyən qadın əlini ora salır. Arpa gəlsə oğlu, buğda gəlsə qızı olar. Ora xoruz qurbanı deyirlər. Qırmızı xoruz daha yaxşıdır. Xoruzun başı, ayağı, tükləri pirdə qalmalıdır.

## TUMAS ATA

Dağ Tumas kəndində (Cəbrayıl rayonu) Tumas ata piri var. Quraxlıx olanda o dağa müsəlliya gedillər, yağış yağır.

## DÜLDÜL PİRİ

Horovlu kəndində (Cəbrayıl rayonu) Düldül piri var. Əlinin atının dırnağınnan su çıxıb. Ora yel xəstəliyi olannar gedir.

## DALAX DAŞI

Şükürbəyli kəndində (Cəbrayıl rayonu) dalax daşı var. Dalağı xəstə olannar ora ziyarətə gedir.

# VI. MİFOLOJİ VƏ ETNOQRAFİK MƏTNLƏR

Dünyanın gedişin, dolanacağının hamısını Fatma nənəynən götürürdülər. Dünyanın anasının adın Fatma nənə çağırırdılar. Fatma nənə hər şeyin anasıdı.

* * *

Deyirlər ki, yer yeddi qatdan ibarətdi. Deyillər ki, bizdən aşağıda da yer var, yuxarıda da. Güya torpax var, yaşayış var.

* * *

Dünyada nə qədər cannı var, bir o qədər cinni var. Vaxtıynan o bir millət olup, olar ancax bizdən yeyiplər, özdəri qazanıb-eləmir. Məhəmməd peyğumbər əleyhissəlamın qanunuynan gərək təmiz əl uzadanda "bismillah" deyəsən. Olar bir «bismillah«dan ürkür. Nə qədər cannı varsa, bir o qədər də cinni var.

Köhnə kişilər dəərdilər ki, bir vaxt gələcəh, insannar o qədər kiçiləcəh ki, silahların yovşan kolundan asıb deyəcəhlər ki, bı nə qəlbi ağaşdı?

* * *

Atın yalını açırsan, darıyırsan. Amma iki günnən sonra cin ona elə düyün vurur ki, heç açmax olmur. Ya da görürsən ki, at pəyədə yuxuda ola-ola yırğalanır, cin minib çapır onu.

* * *

Hal aparmasın deyin zahı arvadın ayağının altına qayçı, pıçax, tüfəng qoyurlar. Yaxasına, yastığına iynə, sancax sancıllar. Dörd tərəfinə sijim qoyullar. Yastığının altına duz-çörəh qoyullar. Hal yaxına düşə bilmir.

* * *

Bizim ocax hal saxladığına görə bizim kişilərin paltarının bir qırağını aparıllar qırxlı arvadın yanına qoyullar ki, hal o qadına toxunmasın.

* * *

Qaraçuxa insanın talehidi. Əyər qaraçuxan dihdisə, sənin nə işin varsa, yaxşı olacax. Allah eləməmişdən, qaraçuxan yatdı, hər işin yatdı.

* * *

Qaraçuxa övleyadı. Qaraçuxa evin astanasında durar, amma

gözə görünməz. Evin astanasına çatdın, gərək salam verəsən qaraçuxaya. Çünki evin içində məleykələr var. Evdən çıxanda da qaraçuxuya salam verib gedirsən. Deyillər ki, filankəsin Qaraçuxası dik durub, yəni ona heç nə olmaz.

* * *

Vırğın Allahdan gələn bir baladı. Adamı vırır. Su qırağında vırır, yatmış yerdə vırır. Vırğın vıran adam naxoş olur.

* * *

Ocaxda maleykə var. Odu ki, ocağa su tökməzdər.

* * *

Dar vaxtı suyun üstə getməzdər. Suyun içində məlakələr var, adama toxunullar, ağzı əyilir, qolu quruyur. Vırğın vırıf, deyillər, belə adamlara.

* * *

Kaftarkus pişih kimi bir şeydi. Ancax ilih yeyir. Təzə ölüləri qəbirdən çıxardır, iliyini yeyir. Uzanıf açılanda sicim kimi olur, yığılanda bapbalaca olur. Ancax qəbirdə olur. Qəfil atılır atın üstünə, adamın boynunnan yapışır.

* * *

Deyillər, kaftarkus insannan dönmədi. Təzə qəbirrər söküb meyidi aparır. Gərəh gedib təzə qəbirin üstündə od yandırasan. Kaftarkus oddan qorxur.

* * *

Kimin üstündə Kaftarkustu tükü olarsa, o cəsarətdi olur.

* * *

Geymədiyin paltara iynə taxsan, cin yaxın gəlməz.

* * *

İsti suyu yerə atmazdar. Yerdə bizdən çox yaşıyannar var. Onnarı yandırar. Onnar yananda suyu atana əziyət verir. Onnar bismillah deyir, amma Rəhmani rəhimi deyə bilmir.

Un çuvalının içinə nal qoyallar ki, cin gəlib aparmasın.

* * *

Çərşənbələr beşdi. Beşinin biri yalançıdı. U yalançı çərşənbədə elə-belə, yalandan deyib yandırırlar. Birinci suya düşərmiş, ikinci oda düşərmiş, biri yerə düşərmiş, dördüncü də yelə düşərmiş. Atalar deyib dumanlı yazım gəlsin, küləkli qışım. Dumanlı yaz çox

məhsul gətirən olur. Küləkli qış harda bol məhsul varsa, bilməh olmazdı məhsulu hara salacaxdı. Axırıncı çərşənbəni çox dəbdəbəynən keçirərdilər. Şah oğlu Şah Abbas deyirmiş ki, bircə mənim yediyim çörəh axırıncı çərşənbədə ürəyimə yatır ki, həmin gündə hamının qazanı od üsdə olur, qaynıyır.

Sora qız-gəlin yığılarmış, gedərmiş, durarmış bir yerdə. Məclis qurarmışlar. Orda padşah seçilərmiş. Padşah kadın olarmış. Qadın lap əmr eyləsə ki, gedin filan padşahı, filan xanı gətirin, xan gəlif həmən arvadın qarşısında baş əyərmiş. Verdiyi qərarın hamısını yerinə yetirərmiş.

* * *

Elə ocaxlar var ki, ora qara qoç qurban kəsəllər. Elə ocaxlar da var ki, ora səkil (ayağı ağ) qoç qurban kəsəllər.

* * *

Axır çərşənbədə kim obaşdannan su gətirib evin yan-yörəsinə, mal-heyvanın, uşaxların üstünə səpsə, o ev bərəkətli olar.

* * *

Axır çərşənbədə subay qızdar baxtını yoxluyullar. Yumurtanı su üstündə ağacın, ya kolun dibinə qoyar, yannarına qara, bir də qırmızı irəh qoyallar, səhər gedib baxallar, yumurta qırmızıya toxunubsa, deməh, baxtı açılaceh, qarıya toxunubsa, deməh, hələ ərə gedəmmiyəjeh.

* * *

Hamı çalışarmış ki, axır çərşənbə gedib hamıdan qabax su gətirsin. Üçüngü deyillər ki, suda peyğəmbər nəfəsi var.

* * *

Axır çərşənbə yumurta aparıb çəmənniyə qoyardılar, yanına da qırmızı cohər qoyulardı. Əyər həmən gejə çəmənniyə şeh düşsəydi, onda yumurta da cöhərdən qızarardı. Deməli, nə niyət tutardınsa, o hasıla gələrdi. Niyət tutannarın çoxu ərgən qızdar olardı.

* * *

Çərşənbə axşamı yumurta aparıb su qırağında böyürtkən koluun dibinə qoyursan, iki dənə yumurta olur. Biriin yanına qara karandaş, biriin də yanına qırmızı karandaş. Niyət eliyirsən. Səhər obaşdan gedirsən, qırmızı boyansa, demax niyətin tutuf, qara boyanıbsa, demax tutmuyuf.

*   *   *

Gecə, deyillər, su dayanır. Su dayanan vaxtı görsən ki, su dayanır, niyətin tutur, görməsən tutmur.

*   *   *

Axır çərşənbədə bulaxdan daş gətirirdih. Evin hər küncünə birin atırdıx.

Birin də çuvala. Qojalar deyirdilər ki, bu dövlət, var gətirir. 2-3 günnən sora atırdıx.

Çuvaldakı daş da xəmir yoğrulana kimi qalırdı. Səhəngə də daş atırdıx. Su qutarana qədər qalırdı.

*   *   *

Axır çərşənbənin səhəri o başdan duruf səhəngi götürüp bulağa gedirik. 3 dəfə bulağın üstnən atılırıx. Orda da deyir ki, ağır-uğurruğun bu suda qalsın. Bulaxdan 5 daş götürüb səhəngə atırıx. Çöldən, qırılmalı otdardan 5-ni də atırıx genə səhəngə, özü də kim tez gəlir o bulağa, ora kanfetdən, buğdadan bir şey qoyur ki, bilsin ki, biz sizdən tez gəlmişih.

Bala, bu daşı ona görə səhəngin dibinə atırıx ki, ağırrığımız-uğurruğumuz bu daşnan qalsın suyun içində. Ot da ona işarədi ki, evimizə urza-bərəkət gətirsin. Sora səhəngi evə aparırıx, suyun içirik. Səhəngin suyu qutarıncan, bala, bir 15 gün içində qalır. Sora daşı evin küncdərinə atırıx. Üzümüzə gələn Novruza qədər qalır, sora yenisin gətiririk. Ot səhəngin içində qalır.

*   *   *

Obaşdannan sənəhnən su gətirif evə-eşiyə səpillər ki, hər şey təzələnsin. Çayın qırağınnan daş da gətirif unun içinə qoyullar ki, bərəkətti olsun.

*   *   *

Söyüd ağacı təkcə il axırı səjdə qılır. İl axırı söyüdün, başqa ağaşdarın səjdə qılmağını bir at, bir də it bilir. At kişniyir, ayağını yerə döyür, it də uluyur.

*   *   *

İlin axır cümə günü yemək bişirib apararlar qəbirstanlığa, qəbrin üstə yeəllər.

*   *   *

Novruz bayramının birinci günü yağış yağsa, yaz yağışnan

olar. İkinci günü yağış yağsa, yay da yağışnan olacax, üçüncü gün yağış yağsa, payız yağışnan olacax.

* * *

Sarmaşıx gülü xarabalıx bitkisidi, evdə salmazdar. Suyumu pisdi, harda əkilsə, ora xaraba qalar.

* * *

Çiçəh açmıyan güllərin düşər-düşməzi olur.

* * *

Sarımsağın düşər-düşməzi olur. Sarımsağı həyət-bacada əkərsən, o evdə bədbəxt hadisə olar.

* * *

Söyüd ağacın həyətdə əkməzdər.

* * *

Suyumu pisdi, deyin, həyətdə iydə əkməzdər.

* * *

Qarağacı kəsməzdər, qarğışcıl ağaşdı.

* * *

İydə ağacıynan şam ağacını, bir də söyüdü qapıda əhməzdər. Deyillər, bı ağaşdar abadannıx sevməzdər.

* * *

Barsız ağacı həyətdə əhməzdər.

* * *

Cavan adam qoz ağacın həyətdə əhməz.

* * *

Qoz ağacın əkən barın yemir.

* * *

Qoz ağacın qoca adam əkər.

* * *

At alan evlər inciri nə kəsməlidi, nə yandırmalıdı. Deyillər ki, əyər inciri kəssələr, o evdə at nəsli kəsilər.

* * *

Ehsan ağaşdarını kəsməzdər: inciri, dağdağanı.

* * *

Cavan ağaşdarı kəsməh günahdı.

* * *

Dağdağan, saqqız ağacını kəsməh günahdı.

*   *   *

Çinar ağacın kəsməzdər, günahdı.

*   *   *

Həmərsin, injir, dağdağan, çinar ağaşdarını yandırmax günahdı, zərər çəkərsən.

*   *   *

Bar verən ağaşdarın dibində yatmazdar.

*   *   *

Çinarın, söyüdün, qarağacın dibində yatsan, adama xətər dəyməz.

*   *   *

Cəvizin dibində yatmazdar, adamı vırğın vırır.

*   *   *

Bayquş qapıda uluyanda qonduğu ağacın dibinə duz-çörəh qoyuf deyəllər: "Sən bı duz-çörəh, çıx get". Çıxıf gedərsə, ev ziyannıx çəhməz.

*   *   *

Bayquş kimin bağında səs eləsə, o evə bədbaxtlıx üz verər. Gərəh kəsövünən vırasan. Kəsövünən vıranda dərd-bəla uzax olar.

*   *   *

At olan evdən gün batannan sora kənara tərəzi çıxartmazdar ki, at tələf olar. Əyər məjbur olsan, onda gərəh tərəzi aparan adamnan bir qiymətdi  şeyi alıb saxlıyasan tərəzini qaytarana kimi.

*   *   *

Göyərçin təzə tikiliyə qonanda qovallar, nufusu pisdi. Göyərçini vırmax da olmaz.

*   *   *

Canavar ayağı qudumlu olar.

*   *   *

Səfərə çıxanda qabağına ilan, canavar çıxsa işin yüngül olar.

*   *   *

Qabağaa pişih, koramal çıxanda gərəh papağını yeddi dəfə fırrıyasan.

*   *   *

Hansı ilanın gözü qoyun gözü kimi dəyirmidi, onu öldürməzdər.

*   *   *

İnsan nəfəsinə, gül iyinə gələn ilannar var, onnarı öldürmək günahdı.

* * *

Kəklihdə Əzrayıl tükü var.

* * *

Səmənd at həmməşə qurumlu olar. Hansı evdə olsa o ev xeyir çəkər.

* * *

İt uluyanda gərək evdən bir şey çıxardasan ki, evə, uşaxlara ziyan dəyməsin. Ya da gərəh nəzir verəsən.

* * *

Balaca ləlәkləri olan ilan var, onu öldürmək olmaz.

* * *

İlan qabağaa çıxanda səfər uğurru olar.

* * *

Koramalı öldürmək günahdı.

* * *

İlan günah eliyəndə ziyarətə gedər.

* * *

İlan adam vıranda ocağa gedir, əxrəp qəbirsənniyə.

* * *

İlan bir adamı çalanda gərəh tez həmin adamı aparasan ocağa, əyər tez aparsan, o adam sağalır, ilan özü ölür. İlan adamı çalannan sora özü gedir ocağa. Əyər ilan çaldığı adamnan qavax ocağa getsə, onda o adama əlac olmaz.

* * *

İlanı vurub öldürüllər. Sora saxlıyıllar gejə düşsün, ilan ildız görsün, tamam ölsün. Üçüngü ilan ildız görmüyüncə, ölməz deyillər. Gejə düşənnən sora ilan ölür, səhər götürüb onu basdırıllar.

* * *

Yatan pişiyi oyatmax günahdı.

* * *

İtin ayağı yüngül olar, pişiyin ayağı ağır olar. Ama pişiyi öldürməzdər.

* * *

Əliyi öldürməh günahdı, üçüngü ahlı heyvandı.

* * *

Qaranquşu vırmax günahdı.

* * *

Hacıleyləyi vırmax günahdı.

* * *

Səfərə çıxanda tülkü qabağa çıxsa, səfərin uğurru olar.

* * *

Səfərə çıxanda əyər dovşan sağdan çıxıb sola getsə, səfərin uğurru olar, soldan çıxıb sağa keşsə, səfərin uğursuz olar.

* * *

Ayağı qannı kəhliyin ətini yeməh olmaz, günahdı.

* * *

Gejə ev süpürməzdər.

* * *

Süpürgəni evdə dik qoyanda ajılıx olur, ölü gözdənir.

* * *

Dar vaxtınnan sora evə süpürgə vırmazdar, yoxsa o evin bərəkəti qaçar, bədbaxtlıx üz verər.

* * *

Süpürgəni ayaxlasan, üç dəfə yerə tüpürməlisən.

* * *

Süpürgə üstəə dəyəndə şər-şəbətə olur.

* * *

Süpürgəni yandıranda qarrıyar.

* * *

Axşam evi süpürməzdər, evdən zibil atmazdar – evin bərəkəti qaçar.

* * *

Qara süpürgə bol olan il qış sərt olur.

* * *

Duz günü səfərə çıxmazdar.

* * *

Həftənin cüt günnəri səfərə çıxanın uğuru xeyirli olar.

* * *

Təzə bir heyvan alıb gətirəndə ayağının altına dəmir atıllar ki, dırnağı bərk olsun, xeyirri olsun.

* * *

Bir yerə gedəndə qabağına 3 dəfə pis adam çıxsa, əyaxyalın gedə bilərsən. Dördüncü dəfə də pis adam çıxanda getsən günah özündədi.

* * *

Ölgün olana deyillər, qərəmət basıb.

* * *

Yuxuu qarışdıranda itə çörəh, toyuğa bir qab dən atarsan. Sora suya nağıl eləsən, xətər sovuşar.

* * *

Dar vaxtı, yanı axşamçağı, şər qarışanda suyun üstünə getməzdər.

* * *

Axşam, şər qarışanda yatmazdar. Deyillər, o zaman qismat paylıyıllar.

* * *

Bir axşam, bir də səhər dar vaxtıdı. O vaxtlar yatmax olmaz. Axşam vaxtı yatanda adama toxuma olar, xəstələnər.

* * *

Mal gələn vaxtı xoruz bannasa, ziyannıx olar,gərəh o xoruzu kəsəsən.

* * *

Təzə ev tikəndə tikilinin üstünə yol tərəfdən yumurta qoyullar. Üçüngi yumurta göz qaytarır.

* * *

Təzə evə haram ulağın kəlləsin asallar ki, göz dəyməsin.

* * *

Təzə tikiliyə nal, dağdağan, üzərrik asallar.

* * *

Bostana, ağaca göz dəyməsin deyə at, it kəlləsi, buynuz vırıllar.

* * *

Ocağa həmməşə su tökəndə ziyannıx olar, əncax gərəh özü öz həmdinə sönə.

* * *

Uşağa bir yaşınnan dörd yaşına qədər mal-heyvan, qoyun-keçi ürəyi verməzdər yeməyə. Onda uşax qorxax olar.

* * *

Balaca uşağın ayağı xarab olanda, yerimiyəndə onun çiləsini töküllər. Uşağı daşın, qayanın deşiyinnən keçirillər. Bunnan sora uşax yeriyir.

* * *

Üç uşağı sünnət eliyəndə birin saxlıyıp sora kəsdirillər. Çünki üş nəsdi, uşağa göz dəyər.

* * *

Kəsdirilən uşağın yanına yumurta qoyallar ki, göz dəyməsin.

* * *

Süd bişən qazanın altınnan qonşuya od verməzlər. Üçünkü onda süd verən heyvan tələf olar. Əyər süd verməli olsan, qazanın üstünə gərəh kömür, ya da göy ot atasan.

* * *

Pişikcaynağı addı bir ot var bizim tərəflərdə. O ot nəzər qaytarır.

* * *

O dağ-daş ki, pirdi, onun yanınnan keçəndə yaşmanmax lazımdır. Başıaşağı getməh lazımdı.

* * *

Pis yuxu görəndə axar suya danışmaq lazımdır ki, su aparsın.

* * *

Xəmiri kündəliyəndə xəmirin qırın-qırtısını qaytarıb təzədən təhniyə atmazdar. Onda hal onu götürür.

* * *

Pıçax stolun üstündə ağzı yuxarı düşsə, demək qurban tələb eliyir. Qurban kəsmah lazımdı.

* * *

Duznan baş darağını qonşuya verməzdər. Verərsən, o evdən başağrısı əskik olmaz. Duz torbasının başında dua var.

* * *

Göy paltarnan qara paltarın düşər-düşməzi olur.

* * *

Qurd saxlıyanda (baramaqurdu) yumurtanı qoyullar təpəkənin ortasına. Sarıçiçəyi də qoyullar qapının başına ki, göz dəyməsin.

* * *

Ayın qulağı dik olanda, deyəllər, havalar xam olajah, bulanmış olanda, ala-bula görsənəndə, deyəllər, bu ayın bir çənağası var.

* * *

Böyüh çillə 40 gün olur (dekabırın iyirmi ikisinnən fevralın birinə qədər). Kiçik çillə fevralın birindən iyirmisinə kimi olur. Boz ay fevralın iyirmi birinnən martın iyirmi birinə qədərdi. Boz aya alaçalnov da deyillər.

* * *

Kiçik çillədən 10 gün keçəndən sonra Xıdır Nəbi bayramı olur.

Bayramda xəşil, qovut bişirillər. Qovutu qoyullar həyətə. Qovutu sığallıyıllar. Əyər Xıdır Nəbi çəliyini qovuda bassa bərəkətdi olar.

* * *

Xıdır Nəbidə yatmazdar. Bına qədirçıxartma deyillər.

* * *

Xıdır Nəbidə buğda qavırıllar, qovut bişirillər. Qovutdan aparıb zəmiyə səpillər ki, məhsul bol olsun.

* * *

İl qurax olsa, su tısbağasını güneydə bağlıyallar, yağış yağar.

* * *

Yağış yağmıyanda bir adam niyyət eliyib gedir günahsız yerə öldürülən bir adamın qəbrinin üstünnən şəhid daşı (torpağı) götürür. Arxıya baxmadan gətirib suya atır. Bunnan da yağış yağır.

* * *

Gün çıxmıyanda da gedillər şəhid daşını gətirib atıllar ojağa. Bunnan da gün çıxır. Yağış yağmıyanda cöngə də götürüp seyidnən bərabər gedirih ojağa. Cöngəni firrıyırıx əkin yerinin başına. Seyid dua oxuyur. Sora cöngəni kəsip yeyirih. Qurban ətinnən evə gətirmək olmaz.

* * *

Çəvirtgə taxılı süng eliyir,zəmini virana qoyur, quruca torpax qalır. Belə deyillər ki, əyər çəvirtgə gələndə tez gəlib murad quşunun suyunu gətirə bilsən, onda murad quşu da suyun dalınca gələjəh. Suyu harda saxlasan, murad quşu da orda dayanajeh, çəvirtgəni başdıyajeh qırmağa.

* * *

Göy guruldamadan pencər yeməh haramdı. Göy guruldamamışdan qabax pencər yeyən qocalar.

* * *

Biri istiyir ki, o birinin qızını alsın oğluna. Bu istəyi heç kimə aşmamışdan qavax gedir bir yerə bir daş qoyur. Aradan bir xeyli vaxt keçənnən sora gəlir daşı çevirib baxır. Əyər daşın altında bir cücərti olsa, ot-zad göyərsə, onda gedər öz istəyini qız yiyəsinə bildirər. Çünkü bilər ki, daş altında cücərti əmələ gəldisə, deməh onnarın qohumluğu xeyirli olar.

* * *

Gəlin evə gələndə ayağı altında heyvan (qoyun) kəsillər. O qoyunun ətini, illah başını, ayağını üç gün müddətində heş bir qonum-qonşuya vermək olmaz. O heyvanın əti ancax o evdə yeyilməlidi, üç gün keçənnən sora qonşulara vermək olar.

* * *

Gəlinə qara şey aparmazdar.

* * *

Toyda qara qoyun, qara inəh kəsməzdər.

* * *

Övladı olmayan adam sağlığında ehsan verər.

* * *

Cavan ölənin toy parçasını qəbrinin üstünə tökürlər.

* * *

Təmiz adamları (evlənməyənləri, ərə getməyənləri, uşaxları) bakirələr qəbirstanlığında basdırıllar.

* * *

Ölü ölməmişdən qabaq onun ehsan çörəyini bişirmək olmaz. Çünki Əzrayıl onun başını kəsəndə, qanı yerin yeddi qatına qədər hər şeyi qana bulaşdırır. Çörək də qana bulaşır. Odu ki, onu qabaqcadan bişirmək günahdı.

* * *

Ölünü aparanda cinazəni aparan atın yalmanına nal, sarımsaq, çarıq asardılar ki, yüngüllük olsun, ölüm-itim olmasın.

## VII. YUXUYOZMALAR

Yuxu gözə düşməhnəndi. Eləsi var, yuxuda soğan görür, ziyan çəkir, eləsi var xeyir çəkir.

Yuxuda böyürtkən görəndə, deyillər, tezlihnən görüşəssən.

Yuxuda ip (sijim) görəndə, deyillər, yol gedeysən.

Yuxuda hana uzatmax xeyirdi.

Yuxuda yaylıx göz yaşıdı.

Yuxuda qara yaylıx görmək yaxşıdı, arxadı.

Yuxuda it görməh, it qapmax odu ki, səən dalınca danışıllar.

Yuxuda ilan nəfəsdi.

Yuxuda ölü görmək yaxşıdı.

Yuxuda ağlasan, sevinərsən.

Yuxuda ölməh ölməməhdi. Görsən ki, bir adam ölüf, deməh, ona ömür verirsən.

Yuxuda ölmüş qohum adam qol götürüf oynuyursa, ziyannıx çəkərsən.

Yuxuda ayaxqabı görməh ziyannıxdı.

Yuxuda çadır – ölümdü.

Yuxuda ölüm – ömürdü.

Yuxuda mey – yasdı.

Yuxuda pul – səsdi.

Yuxuda at – muratdı.

Yuxuda palto – arxadı.

Yuxuda vırmax – qüvvəddi.

Yuxuda güzgü – baxtdı.

Yuxuda su – aydınlıxdı.

Yuxuda dişin düşməyi – pisdi.

Yuxuda ölü bir şey verirsə – qismətdi.

Yuxuda ölüyə bir şey verirsənsə – qismətini verirsən.

Yuxuda qoz – səsdi.

Yuxuda ölünün evə gəlməyi – ölünün evdən adam aparmasıdı.

Yuxuda ölüm – göz yaşıdı.

Yuxuda alma – qızdı.

Yuxuda armud – oğlandı.

Yuxuda xiyar – oğlandı.

Yuxuda qıfıl – pisdi.

Yuxuda bağlı qapı – pisdi.
Yuxuda çörəh – urzidi.
Yuxuda qan – qovuşuxdu.
Yuxuda saç açmax – ölümdü.
Yuxuda ayaxqabı – darrıxdı.

## VIII. ANDLAR

Allah haqqı.
Allahın adı haqqı.
And verirəm bizi yaradana.
And verirəm kimi çox istiyirsən onun canına.
And olsun gejəni, gündüzü yaradana.
And olsun göy qurşaxlı kişiyə.
And olsun hər səhəri üzümüzə xeyirriyə açana.
And olsun bərəkətə.
And olsun ölənnərimizin ruhuna.
And yerimiz haqqı.
Balamın canına and olsun.
Balalarımızın ruhuna and olsun.
Bərəkət haqqı.
Bı atın yalmuradı haqqı.
Bı günün batar vaxtı haqqı.
Saqqız ağacı haqqı.
Səni and verirəm gejəni gündüz eliyənə.
Səni and verirəm gözə görünməz Allaha.
Səni and verirəm göyün-yerin sahibinə.
Suyun axarı haqqı.
Suyun mələhləri haqqı.

## IX. ALQIŞLAR

Ağbaxt olasan.
Ağ çörəhli olasan.
Ağgünnü olasan.
Ağ gün üzəə doğsun.
Allah dadaa yetsin.
Allah doyunca versin.
Allah canıı sağ eləsin.
Allah o dünyavı versin.
Allah saaköməh eləsin.
Allah sənin başınnan töhsün.
Allah səni qanadıın altında saxlasın.
Allah səni ocax sahibi eləsin.
Allah yönüü bəri salsın.
Allah ürəyincə versin.
Aydınnıx içində olasan.
Ayrılıx görmüyəsən.
Balalarıın xoş sədası eşidilsin.
Barrı-baharrı olasan.
Başacan olasan.
Başında ağ qar olsun.
Bəxtəvər olasan.
Bəlıya tuş gəlmiyəsən.
Bı açılan səhər kimi yolun açıx olsun.
Binəli olasan.
Canın bəla görməsin.
Canın xəstəlih nədi bilməsin.
Canın sağ olsun.
Cənnəttih olasan.
Dadaa Allah yetsin.
Dərd nədi bilmiyəsən.
Doyunca görəsən.
Ev yəəsi olasan.
Evin binə olsun.
Evin avand olsun.
Əhdəə çatasan.

Əkdiyiin barın görəsən.
Əlində-ovcunda qalsın.
Əllərin yorulmasın.
Gecənin, gündüzün yəəsi işdərii yoluna qoysun.
Günün xoş keçsin.
Göy qurşaxlı kişi köməyində dursun.
Halal-xoşun olsun.
Hara getsən, işin uand olsun.
Həmməşə səni uja dağlarda olasan.
Xoş günə çıxasan.
Xoşbəxt olasan.
İmanıı Allah versin.
İşdərin avand olsun.
İşin xeyirri, uğurru olsun.
İşıxlığa çıxasan.
Kəmərii Allah qurşasın.
Kölgəə Allah qalın eləsin.
Qaraçuxan yatmasın.
Qədəmin mübarəh olsun.
Qədəmin uğurru olsun.
Qərib imamzada dadaa yetsin.
Qollu-putaxlı olasan.
Qolsuz Həzrət Abbas dadaa yetsin.
Qolsuz Həzrət Abbas hara getsən, sənin işii uvand eləsin.
Quru ağacın göyərsin.
Min yaşa.
Muradaa çatasan.
Nemətdi olasan.
Neylim, nejə eliyim demiyəsən.
Ocağın sönməsin.
Ocağınnan həmişə tüstü çıxsın.
Ojax sahibi olasan.
Ovqatın olsun.
Ömrün Mehdi ömrünə dönsün.
Ömrün şaddıxnan keşsin.
Ömrün uzun olsun.

Pis gün görmüyəsən.
Saa Allah köməh eləsin.
Sağ canınnan evində yaşıyasan.
Səfərin ağ olsun.
Səhər üzaa xeyirriyə açılsın.
Səhərin mehi üzünə gülsün.
Sulu olasan.
Suyun gəlmiş, çörəyin bişmiş olsun.
Suyun kəsilməsin.
Şər sənnən yan keşsin.
Şər-şəbətədən uzax olasan.
Şikarın ağ olsun.
Toyun mübarəh olsun.
Uca dağlardan olasan.
Uğurun açıx olsun.
Ulduzdarıız barışsın.
Umud evi olasan.
Umudun kəsilməsin.
Uşaxların atalı-analı böyüsün.
Üzaa xeyir açılsın.
Üzün ağ olsun.
Vay sözü qulağa dəyməsin.
Yarıyasan, yarıyannardan olasan.
Yolların açıx qalsın.
Yönüü Allah bəri salsın.
Yurdunnan bala səsi gəlsin.
Zəhmətin hədər getməsin.
Zirvələrə çıxasan.
Ziyannıx tapmıyasan.

## X. QARĞIŞLAR

Ağacın kəsilsin.
Ağzaa qəyə dəysin.
Ağzaa yaylıx bağlansın, görüm.
Ağzın yumulsun.
Ağzınnan  çıxan qoynuna girsin.
Ağzınnan yellər aparsın.
Al qanın göl olsun, göl qanın xırman.
Allah əjirii artıx versin.
Allah heş dadaa yetməsin.
Allah səni heş yarıtmasın.
Atın ölsün, noxta əlində qalsın.
Ayağın cütdənsin.
Bala dediyin yerdə dodağın yeddi yerdən para-para olsun.
Bala qucağına alıb layla çalmıyasan.
Bala, səni görüm, heş yarımıyasan.
Balıx kimi qarnın qap-qara olsun.
Beynin burnundan gəlsin.
Bəxtəvərriyi məndə görəsən, ah-vayı özündə.
Bəlaa Allah versin.
Bəlıya tuş gələsən.
Boyaa xam ip ölçüm.
Boyaa boz qatma tutum.
Canın şaddıx görməsin.
Cavan öləsən.
Ciyər dağı görəsən.
Ciyərin parçalansın.
Ciyərin köz-köz olsun.
Çörəh atdı olsun, sən piyada.
Çörəh üzaa qəhət olsun.
Dabanaa nəhlət.
Dalınca qara daş.
Dəli vırğın səni vırsın.
Dilin ağzında yansın.
Dizində ağ tüh bitsin.
Ev yiəsi olmuyasan.

Evin binə tutmasın.
Evinnən xeyir görmüyəsən.
Əjirin artıx olsun.
Əkəsən pişmiyəsən, piçəsən yığmıyasan.
Əlində-ovcunda qalmasın.
Əllərə möhtac olasan.
Əndamın yansın.
Getdiyin yerdə yolun bağlansın, günün batar vaxtınnan istəmişəm.
Getdiyin yol sənə qənim olsun.
Görüm, heç Allah sənin nəfərii göyərtməsin.
Görüm, heş ataan yurdunda qalmıyasan.
Gözünən mayıf qalasan.
Günün batar vaxtınnan istəmişəm, hara getsən heş işin avand olmasın.
Günün göy əskiyə bükülsün.
Hara getsən, xeyir görmüyəsən.
Haramın olsun.
Hay deyəndə hayaa gələn olmasın.
Heş atdanmıyasan.
Heş üzün ağ olmasın.
Xeyir görmüyəsən.
Xeyir çörəyi tapmıyasan.
Xoşbəxt olmuyasan.
İldırım vursun səni.
İşığın yanmasın.
İşin avand olmasın.
İyid arxan yerə dəysin.
İyim-iyim gedəsən.
Kələyin kəsilsin.
Qanaa bulaşasan.
Qapın bağlı qalsın.
Qapın boş qalsın.
Qara daş dalınca.
Qara daşa rast gələsən.
Qara vurğunun güjdü gəlsin.
Qara yaraynan öləsən.
Qara yellər aparsın.

Qara yola gedəsən.
Qarabaxt olasan.
Qaraçuxan yatsın.
Qədəmin qara gəlsin.
Qolun qırılısın.
Qudumun kəsilsin.
Qudumun qara gəlsin.
Qulağaa yuyuju barmağı girsin.
Qulağın Quran səsi eşitməsin.
Qulaxdan qut olasan.
Lalıya-lalıya qalasan.
Lələdağ olasan.
Mehtər qalasan.
Mənzil başına çatmıyasan.
Məəttəl  qalasan.
Muradıı Allah verməsin.
Nənaa əl-üzü qannı qalsın.
Od qənim olsun.
Oddanasan.
Ojağın sönsün, koman kəsilsin.
Oyum-oyum oyulasan.
Ömrün ah– vaynan keçsin.
Ömrün qayım olsun.
Ömrün kəsilsin.
Ömrünə balta vurulsun.
Papağın boş qalsın.
Papağın yerə girsin.
Sağ gedib səlvər qayıdasan.
Sağ gedib, zəlil gələsən.
Səni görüm, əndamın yansın.
Səni görüm, ay qız, qapılar açıb heş içinnən girmiyəsən.
Səsin batsın.
Su qənim olsun.
Suyun kəsilsin.
Sümühlərin çırtma-çırtma yansın.
Şikarın bağlansın.

Şil qalasan.
Şil-küt olasan.
Tüstü üzünə həsrət qalasan.
Tüstün təpənnən çıxsın.
Umudsuz olasan.
Urzasız qalasan.
Urzu üzünə həsrət qalasan.
Uşağınnan xeyir görmüyəsən, bəhrin yemiyəsən.
Uşax üzünə həsrət qalasan.
Uşaxlarınnan görmüyəsən.
Ürəyin şeştərrənsin.
Üzün ağ olmasın.
Vayaa oturum.
Vurğun vursun.
Vurğunun güjdü gəlsin.
Yaman günə qalasan.
Yannaraa piltə qoyulsun.
Yarımıyısan.
Yeddi dağın dalınnan sorağın gəlsin.
Yerində qıvrıla-qıvrıla qalasan.
Yolun yömrülsün.
Yurdun boş qalsın.
Yurdunda qurd ulasın.
Yurdunda bayquş ulasın.
Zarıncı qalasan.
Zəlil olasan.

# XI. NAĞILLAR

## ADAMYEYƏN QIZ

Bir kasıf kişiin bir oğlu, bir də qızı varımış. Bı qız özün çox ayar aparırmış, gəlif-gedənə göz-qaş atırmış. Bir gün qardaşı isdiyir bını öldürsün, atası-anası qoymur, deyir:

– Ay bala, bir bacı, bir qardaşsız, öldürüf nə qazaneysən?

Bir neçə vaxt keçir, bı gədəynən qızın atası, anası ölür, qalıllar bir bacı, bir qardaş. Bı qız başdıyır adam yeməyə. Yeyir, yeyir, axırda kətdə adam qalmır. Oğlan görür bacısı bını yeyacax, çıxır qaçır. Qaçanda çörəh tapmır, bir torba şəfdəli yığır. Yolda bı şəfdəlini yeyir, dənəsin tökür yerə.

Az getmiş, qabağına bir aslan, bir qurd, bir ayı, bir qaflan, bir də bir tülkü çıxır. Qoşulur bınnara, bir neçə vaxt bir yerdə yaşıyıllar. Bir gün oğlan deyir:

– Gedim, görüm, bacım neyniyir? Bəlkəm ta adam yemaxdan əl çəkif?

Gəlip çatır kəndə. Bının bir atı varmış, atı salır tavlıya. Gəlip görür ki, bajısı oturuf. Bajısı bını görən kimi şaddanır, duruf boynun qucaxlıyır, deyir:

– Nə yaxşı gəldin, neçə gündü acam.

Bayıra çıxır, çox keşmir, qayıdır, deyir:

– Qardaş, atıı bir qıçın yedim.

Oğlan gedip baxır, görür, atın bir qıçı yoxdu. Bir az da keçir, gedip görür, atın o biri qışdarı da yoxdu. Bajısı deyir:

– O biri qışdarını da yedim.

Deyir:

– Neynax, leşini də ye.

Qız gedir tavlıya. Oğlan tez əyaxqabılarını çıxarıp içinə duz doldurur, bir ip tapıp bacadan sallayır. Bajısı gəlir, deyir:

– Qardaş, leşini də yedim, indi nobat sənindi. De görüm, ayağınnan başdıyım yeyim, ya başınnan?

Oğlan ha fikirrəşir, görür, yox, ta ayrı əlaş yoxdu, deyir:

– Ayaxlarımdan ye.

Qız ağzınnan oğlanın əyaxlarını dartışdıranda əyaxqabının içindəki duz tökülür bının gözdərinə. Bı başdıyır gözdərini avışdır-

mağa. Oğlan macal tapıp qaçır. Qız başdıyır bını qavmağa. Oğlan qaçır, qız qavır, oğlan qaçır, qız qavır. Oğlan görür, ta nəfəsi yoxdu, qabağına şəfdəli ağacı çıxır, tez dırmaşır ağaca. Bı həmən şəfdəli ağacıydı ki, oğlan əvdən qaçanda özüynən apardığı şəfdəlini yeyif dənəsini töhmüşdü yerə, o dənələrdən də bı ağaş bitmişdi. Oğlan baxır ki, bajısı çataçatdadı, başdıyır çağırmağa:

– Aslan heyy! Qurd, ayı, tülkü, çat dadıma!

Aslan, qaplan, qurd, ayı, tülkü özünü yetirip qızı parçalıyıllar. Bınnar bı qızı yeyəndə bajısıın bir damcı qanı düşür şəfdəli yarpağıın üstünə. Oğlanın ürəyi durmur, bı yarpağı götürüp qoyur cibinə. Yolda oğlan görür, nəysə bının böyrünü deşir. Baxır ki, yarpaxdakı bir damcı qandı, bının böyrünü başdıyıf yeməyə. Yarpağı çıxarıp atır, tülkü qanı yalıyır. Deyir, bınnan sora bı heyvannar yırtıcı oluflar.

## TÜKLÜCƏ

Biri varıdı, biri yoxuydu, bir padşah varıydı. Bu padşahın üç oğlu varıydı. Bu oğlannar böyüdülər, həddi-buluğa çatdılar.

Bir gün bular – bu üç qardaş gedirmişdər çöldə oyun oynuyurmuşdar, ov eliyirmişdər öz aralarında. Məsəlçün, biz də uşax vaxtı çilingağaj oynuyardıx səhərə kimi. Yatmazdıx da. İndi onnar da gənc olduxlarına görə gedillər çölə ov-zad eliyillər, məsəlçin, kabab eliyillər, yeyillər. Sora orda başdıyıllar bir oyun oynamağa. Ox atmax oyunu. Həə, ox atıllar. Bı kiçih qardaşın oxu gedir düşür qəbirsannığa. Bı gedir oxunun dalınca, o vaxt da deyirmişdər ki, yəni bu nəhs olar, qəbirsanlığa düşən ox həmin adamçün nəhs gətirər da, yaxşı düşməz. Bı, elə-belə bikef durur gedir oxunun dalınca. O biri qardaşdar da qayıdıp gəlip, bunu gözdəmillər. Bı kiçih qardaş gedir oxunu götürməyə. Gedir qəbirsannıxda görür ki, deməli, köhnə qəbirlərin arasında belə kollux var da. Kol basıf, o vaxt keçmişdə qəbirləri düzəltmirmişlər axı. Kol-kos basarmış, itərmiş qəbirlər. Oxunu götürür. Qayıdanda görür ki, bir səs gəlir arxadan. Oğlanın adı Məlik Cümşüd imiş. Görür ki, səs deyir ki, ey Məlik Cümşüd, getmə, dayan, məni də apar. Ama səs qadın səsi imiş. Dayanır, o yana baxır, bu yana baxır, görür ki, heş kəs yoxdu. Genə yoluna davam eliyir. Görür ki, genə həmən səs gəlir:

– Ey Məlik Cümşüd, dayan, ayax saxla, məni də götür.

Genə dayanır, baxır o yana, bu yana, görür heş kim yoxdu. İstiyir ki, getsin, görür üçüncü dəfə həmən səs gəlir. Axırı məcbur olur qayıdır. Deməli, oxunu götürdüyü yerdə baxır ki, bir dənə tühlücə. Necə bı kirpi fasondu, amma kirpidə tikannı tühlər olur, bunda yumuşaxdı. Ağlına gəlməz ki, dillənən budu. İstiyir ki, qayıtsın, görür ki, dillənən həmən tühlücədi. Götürüp qoyur paltosunun cibinə. Çıxır gəlir. Kor-peşman fikir eliyə-eliyə qayıdıf gəlir. Bınnarın ayrı– ayrı özdərinin otaxları varmış. Girir öz otağına, üzüquylu yıxılır kravatının üstündə yatır. Behuş olur. Üç sutka bı gejə-gündüz elə yatır.Üç  gündən sora ayılır, durur geyinir, üzünü-zadını yuyur, gedip çörəh-zad yeyir. Sora görür ki, qapı döyülür. Bı Tühlücəni də cibindən çıxarıp belənçi akuşka var imiş, o vaxt taxça deyirmişdər, çıxardıp elə qoyur ora, taxçanın üstünə. Durur qapını açır, görür ki, padşahın elçisidi. Həə, gəlir ki, ey Məlik Cümşüd, padşah buyurur ki, parça göndərip, atres deyillər, gəlinlər tiksinlər, köynəh tiksinnər, görüm hansının əl işdəri yaxşıdı. Bı istiyir ki, acıxlı cavab versin, bəs atam belə olsun, atam məni haçan evləndirip ki, mənim gəlinim də onunçun köynəh tiksin. Belə ajıxlı deyəndə elçi istiyir qayıtsın. Bı Tühlüjə dillənir ki, ey Məlik Cümşüd, denən qoy get, tikərih. Məlik Cümşüd deyir ki, qoy get, tikərih, gəlip apararsan. Elçi gedənnən sora Tühlüjə bir də dillənir ki, ey Məlik Cümşüd, get məni götürdüyün yerdə dayan, denən ki, Pəri qızı Pərzad xanım, Hürü qızı Hürzad xanım deyir ki, mənim dürümüdüyünümü versin, gətir. De, qayıt gəl, dayanma orda. Gedir, deyir orda, genə qayıdır gəlir. Görür, köynəh tikilip asılıp. Ama köynəh elə tikilif ki, elə-belə qoyursan şah olur, elə bilirsən ki, əl gəzmiyif orda.  Həə, ta bir söz demir, qalır. Elçi gəlir köynəhləri yığanda görür, bı da verir. Padşah yoxluyur, deyir:

– Halal olsun kiçih gəlnimə mənim. Çox gözəl əl qabiliyyəti var.

Bir gün də elçi gəlir ki, bəs padşah xəbər göndərip ki, oğlannarım, gəlinnərim gəlsinnər. Onnarı qonax çağırır da. Evlənməh münasibəti ilə hamısını bir yerə yığır. Burda toy şənniyi eliyir. Yeməh-içməh verir. Genə elçi gəlir, xəbər verəndə Məlik Cümşüd istiyir ki, acıxlı cavap versin, Tühlüjə dillənir ki, denən elçiyə, get, gələrih. Elçi çıxır gedir. Tühlüjə dillənir ki, ey Məlik

Cümşüd, get məni götürdüyün yerə, denən ki, Pəri qızı Pərzad xanım, Hürü qızı Hürzad xanım deyir ki, mənim bərimi-boxçamı versin, gətir. De, qayıt gəl. Məlik Cümşüd gedir orda deyir, qayıdır gəlir. Özü də fikir-xəyalın içində. Bı nə haqq-hesabdı, bı nə işdi mənim başıma gəlir. Gəlir görür ki, bir dənə gəlin geyinib. Bı o qəddir gözəldi ki, elə bil ki, gün doğup. Bı özündən asılı olmayarax az qalır ki, ağlı başınnan çıxsın. Həə, gəlin qayıdır ki, ey Məlik Cümşüd, səbr elə, geyinim. Həə, bı dayanır, geyinir qutarır. Ama görür ki, bının sinəsində bir dənə iri qara xalı var. Bı qalır bunun yaddaşında. Geyinənnən sora deyir ki, ey Məlik Cümşüd, hazırraş, atan bizi qonax çağırıp, gedəjəyih. Bınnar axşam gedillər qonaxlığa. Görüllər ki, o biri qardaşlar da gəlinnəri ilə bırdadı. Padşah da oturup taxta. Bınnar oturullar, yeməh-plov gəlir. Plov yeyəndə Məlik Cümşüdün gəlini bu düyüdən yığır qollarına. O biri gəlinnər görür ki, bı həm yeyir, həm də düyüdən yığır qollarına. Deyillər ki, o yığır ki, nişanlısına aparsın. Gəl biz də yığax. Nəysə, yeməh qutarır, süfrə yığılışandan sora musiqi çalınır, oynuyullar. Gəlinnər bir oynamalıdıllar, oğlannar da bir. Durullar, oyuna girillər. Məlik Cümşüdün gəlini sağ qolunu qaldıranda qızıl tökülür, sol qolunu qaldıranda gümüş. Hamı əl vurup "əhsən" deyillər. O biri gəlinnər girir oynamağa. Sağ qolun qaldıranda düyü tökülür, sol qolun qaldıranda düyü tökülür. Bınnar pərt olur. Məjlis qutarır, hərəsi öz evlərinə gedillər. Bı iki qardaş bırdan da kiçih qardaşdan üz döndərillər. Onun paxıllığını çəkillər, deyillər, bırda nə isə bir sirr var. Biz gərəh bunu öyrənəh.

Genə bir gün hazırraşıllar, gedillər ova. Kiçih qardaşı da aparıllar. Kabab çəkillər. Hava soyux olur da. Həmin gəlin Məlik Cümşüd geyinən vaxtı tühlüjəni Məlik Cümşüdə verir ki, elə yerdə saxlıyarsan ki, bına bir bəni-insan dəyməsin. Əgər buna bir bəni – insan gözü dəysə, əyağına dəmir çarıx geyərsən, əlinə dəmir hasa alarsan, dəmir çarıx bəlkə dağıla, deşilə, dəmir hasa yeyilə, qala bir qarış, onda bəlkə məni tapa biləsən. Bı da qalır bının yaddaşında. Həə, bı iki qardaş bını hər dəqiqə izdiyillər ki, görsünnər bı sirr nədi?

Məlik Cümşüd fikirrəşir ki, paltosunun varatnikində gizlətsin. Varatnikin altında cib tikir, tühlüjəni qoyur ora. Bınnar başdıyıllar ox atmağa. Məlik Cümşüdün başı qarışan vaxtı, paltonu axtarıllar.

Varatnikini qaldıranda görüllər ki, bırda bir cib var. Tühlü bir şey görürlər. Deyillər nə sirr varsa, yəqin burdadı. Bunu çəkip atıllar ojağa. Ojağa atan kimi bir dəfə cız eliyif, vso, yox oldu.

Həə, iyi gedir əlbəhəl gəlinin burnuna. Gəlin quş olup, uçup gedir. Məlik Cümşüd gəlip evə görür ki, gəlin yoxdu. Paltosuna baxır, görür ki, tühlüjə yerində yoxdu. Başa düşür ki, bunu qardaşdarı eliyif. Sırazı yıxılır kravatının üstünə bihal, düz bir həftə özündə olmur. Bir həftədən sora ayılır. Deyir: "O, geyinəndə axı mənə belə bir söz dedi ki, dəmir çarıx geyəsən, əlinə dəmir hasa alasan, dəmir çarıx deşilə, dəmir hasa yeyilə, bir qarış qala, bəlkəm, onda məni tapasan". Durup gedir dəmirçinin yanına. Bütün bunnarı hazırratdırır, hakqını verir. Düşür yola. Gözü gördühcə, ayağı getdihcə gedir. Nə bilim neçə ay gedir. Ta o yerə çatır ki, dəmir çarıxlar dağılıp deşilir, dəmir hasa yeyilip bir qarış qalır. Bir gün axşam tərəfi olur, hava da isti olur. Bir kəhrizin qırağına gəlir. Əl-üzünü yuyup oturur ki, bir az dincəlsin. Bı da yorğun olduğuna görə yuxu onu tutur. Sən demə, bu yaxınlıqda həmən gəlinin qalaçası olur. Gəlinin qulluxçusu gəlip kəhrizdən su aparanda görür ki, bırda bir oğlan yatıp. Oğlan okqəddər gözəldi ki, şəkli suya düşür. Gedir hamısın xanıma xəbər verir. Gəlin əlbəhəl barmağını dişdiyir, bilir ki, o, Məlik Cümşüddü. Qulluxçuya deyir ki, apar onun başının altına bir balınc qoy, üstünə də bir ədyal ört. Əmma özün qarovulun çək onun. Nəbada, buraxarsan onu, durup gedər haa. Onu hökmən gətirərsən mənim yanıma. Qulluxçu da xanımın dediyin yerinə yetirir. Oğlanı gözətdiyir. Oğlan duruf qalxır ki, getsin, qulluxçu deyir ki, ay oğlan, mənim xanımım səni yanına çağırır. Sən onun yanına dəyməmiş bırdan gedə bilmərsən. Məlik Cümşüd deyir ki, mənim yolum uzaxdı, çox gedəjəm, xanımına mənim minnətdarlığımı bildir. Siz mənim dərdimə çarə eliyə bilmərsiz. İcazə verin, mən çıxım gedim. Oğlan nə qədər deyir, əmələ gəlmir. Axırı ki, bunu məcburən xanımın yanına gətirir. Xanımın otağına girəndə görür ki, heş kəs yoxdu. Pərdənin dalından səs gəlir. Görür ki, xanım pərdənin dalınnan deyir:

–Ay oğlan, kimsən, hardan gəlirsən, hara gedirsən? Söhbət elə.

Deyir:

–Xanım, bı söhbət çox uzundu, xayiş eliyirəm soruşmuyasız.

İcazə verəsiz, mən yolumu davam eliyim, yolum çox uzundu. Siz mənim onsuz da dərdimə çarə tapa bilməzsiz.

Deyir:

–Yox, sən başına gələn əhvalatı danışmasan, bırdan heç yerə gedə bilməssən. Yaxşısı odu, gəl danış.

Bı başdıyır mən nağıl elədiyim kimi əvvəldən bıra qədər başına gələn əhvalatı danışır. Gəlin bilir də onsuz da. Həə, qulax asannan sora deyir ki, indi o gəlini görsən sən tanıyarsan? Deyir:

–Tanıyaram.

Deyir:

–Nədən tanıyarsan?

Deyir:

–O geyinən vaxtı onun sinəsində iri bir dənə qara xal vardı.

Həə, belə deyəndə pərdəni açır, sinəsində qara xal. Oğlan istiyir özün atsın onun üstünə. Xanım deyir:

-Tələsmə.

Qulluxçuları çağırıp deyir ki, aparın bını hamama. Sora yaxşı yedizdirin, içizdirin, qoyun dincəlsin. Üç günnən sora onu gətirərsiz yanıma.

Xanımın dediyi kimi eliyillər. Üç günnən sora gəlir xanımın yanına.

Xanım deyir:

– Məlik Cümşüd, birinci imtahandan sən yaxşı çıxmadın, indi mən səni bir yerə göndərəcəm, ikinci dəfə sınaqdan çıxartmalıyam. Əgər bından yaxşı çıxdın, çıxdın, çıxmadın baxtınnan küs.

Deyir:

–Xanım, sən məni ölümə də göndərsən, hazıram.

Deyir:

–Gərəh sən gedif Simavar padşahının əhvalını öyrənəsən, gəlip mənə danışasan.

Deyir:

–Nə deyirəm, gedim.

Bına yol çörəyi hazırlatdırıllar, yola düşür. Yola düşəndə gətirir ona bir üzüh verir, salır barmağına. Deyir ki, sənə bı üzüh bəlkə köməh elədi. Üzüh sehirli olur da.

Məlik Cümşüd az gedir, çox gedir, soraxlaşa-soraxlaşa gəlir Sim-

avar padşahının vilayətinə. Oturur elçi daşının üstündə. Padşaha xəbər verillər ki, bir cavan oğlan sizi görməh istiyir. Məlik Cümşüdü padşahın yanına aparıllar. Məlik Cümşüd görür ki, padşahın otağına bir it bağlanıpdı, qancıq itdi. Bir dənə də insan kəlləsidi, saçı tökülüp kürəyinə. Elə təzəcə başdıyırdılar söhbət eləməyə, padşaha yeməh gəlir. Qonağa da həmin xörəhdən bir qab gəlir, bir qab da həmən xörəhdən itə gəlir. Oğlan məhətdəl qalır ki, bı nə sirdi? İtə padşahın yediyi xörəhdən niyə gəlsin? Qalır fikirrəşə– fikirrəşə.

Padşah deyir:

–Buyur, cavan oğlan, yeməyini ye.

Deyir:

–Xeyr, padşah sağ olsun, mən yemiyəcəm.

Deyir:

–Niyə?

Deyir:

– Çünki məni bı sirdən agah eliyəsən, görüm, sən padşah ola-ola, bı it nədi sənin otağında, qabağında da bir yelbəli insan kəlləsi, özü də ki, padşah yeyən xörəhdən itə də gəlir?

Padşah gülür,deyir:

– Gözəl oğlansan, görürəm cavan oğlansan, qonağsan, başqa bir sözün-söhbətin varsa, buyura bilərsən. Ancax bı sirri sən soruşma, yeməyini ye. Sora başqa söhbətin varsa eliyərih. Yoxsa xoş gəldin! Bı sirr böyüh sirdi, bı sirr çıxmamalıdı bırdan.

Deyir:

– Xeyr, mənə söhbət eləməsən, bı sirri açmasan, mən nə yeməh yeyəcəm, nə də ki, bırdan gedəcəm.

Padşah durur. Bının qolunnan tutur, yendirir padvala. Görür ki, padvalda o qədər insan kəlləsi, insan cəsədi var ki, həddinnən çox.

Deyir:

– Görürsən bınnarı.

Deyir:

– Bəli.

Deyir:

– Bınnar da hamısı gəliplər sənin kimi bı sirri öyrənməyə. Bırada da qalıflar. Bı sirr bırdan çıxmamalıdı. Ona görə xahiş eliyirəm sənnən, heyifin gəlmir bı günə düşəsən? Görürəm çox gözəl oğlan-

san, cavan oğlansan. Sənə mən qıymax istəmirəm, yeməyini ye, başqa işin varsa, başqa söhbətin varsa, mənə de.

Deyir:

–Xeyir, mənim qanım onnarın qanınnan qırmızı deyil, mənə də söhbət eliyərsən, mənim də boynumu vurarsan.

Deyir:

–Şərtləşdih.

Deyir:

–Onda buyur yeməyini ye, söhbətimizi eliyəh.

Yeməhlərini yeyillər. Amma oğlan fikir verir itə. Görür ki, it yemədi. Padşah durdu, bir– iki şallax çəkdi o kəlliyə. Kəlliyə bir-iki şallax çəkənnən sora it zingildədi, başdadı yeməyə. Yeyənnən sora, süfrə yığışannan sora, padşah başdadı söhbətini eləməyə.

Dedi ki, ey Məlik Cümşüd, söhbətimizi eliyəcəyih, amma şərtimiz şərtdi.

Padşah başdadı söhbətə, dedi:

–Ey Məlik Cümşüd, bı gördüyün it, həmən bı qancıx mənim həyat yoldaşım olup, özü də əmim qızı olup. Bınnan biz uzun illərdi ki, bir həyat yoldaşı kimi bırda yaşıyırdıx. Vaxt gəldi, deyir, bir də gördüm ki, bı əmimqızı gecələr çıxır çölə, hara isə gedir, soyux, buz kimi gəlir, girir yorğan – döşəyə. Soruşdum ki, ay əmiqızı, adı da Gül idi, bəs sən bu vaxt hardan gəlirsən, soyux, qiyamat? Dedi ki, aşpaz tutan, allah evini yıxsın, o qədər xörəyi pis pişirillər, mən qarın ağrısına düşürəm, qalıram çöldə. Deyir, ta aşpaz qalmayıp, qəssab qalmadı, hamısıın boynun vurdum. Ta o yerə qaldı ki, aşpaz, qəssab tapılmadı ki, gəlip mənə qullux etsin. Qorxudan gəlmirdilər. Axırı, deyir, əlacım kəsildi. Bir gün dedim bunu izləyəcəm. Şübhələndim daha doğrusu. Baş barmağımı kəsdim ki, yuxum gəlməsin, incitsin, mənim yuxum qaçsın. Sarıdım gecə, özümü vurdum yuxuluğa. Canımı dişimə tutdum, guya yatmışam. Bir də gördüm, durdu çıxdı. Geyindi çıxdı. Mən də geyindim çıxdım. Dava paltarımı, qılıncımı, qalxanımı bağladım. İzdədim, görüm, bı hansı tərəfə gedir. Gördüm, bının atı hazırdı. Mehtər atı çəkipdi. Qalxdı atın belinə.

Dedim:

– Adə, mehtər, atı çəh.

Mehtər dedi ki, padşah sağ olsun, bı vaxt nə at. Belə deyəndə

mehtərin boynun vurdum. Mindim atı, bının dalınca qarabaqara-qarabaqara getdim. Sürür meşəyə sarı. Mən də bunun dalınca. Xəbəri yoxdu ki, mən gəlirəm. Məsafəmiz uzaxdı, amma görürəm. Gəldi, deyir, meşəliyin ortasında bir açıxlıx yer var, bırda uzun bir kaha var. Bırda quldurlar yaşıyır. Çatan kimi bıra, quldurlar gəldi, atı tutdu. Düşdü. Atı çəkdilər, tavlaları var, keçdi girdi içəri-kazarmanın içinə. Girdi içəri. Mən də, deyir, atımı kənarda bağladım. Gəldim, deyir, çıxdım bı kahanın üstündə. Bını izdiyirəm. Uzanmışam damın üstünə. Gördüm ki, bı qırx quldurlar, oturufdu cərgeynən. Başçıları başda oturuf.

Deyir, bu keşdi 40 quldurların hamısıynan görüşdü, öpüşdü. Gah onun qucağında otdu, gah bunun qucağında otdu. Cərgiynən getdi, başçılarının qucağında oturdu, ta durmadı. Durmuyanda, deyir, dişim bağırsağımı kəsir, qeyrətim qəbul eləmir. Getdim, deyir, düzü çəkindim də, birdən birə 40 quldurun içinə necə girim? Tavladan atdarı aşdım, buraxdım. Özüm də qapının başında uzanmışdım, qılınc əlimdə hazır. Gəlirlər, indi səsi eşidirlər, atdarın səsinə gəlillər bir-bir baxmağa. Gəldihcə boyunnarın vururam. Axırı, deyir, şübhələndi başçıları. Özü də durup gəldi. Görür gedən qayıtmır, özü durup gələndə əmim qızı Gül də, deyəsən, başa düşdü, şübhələndi, tez çıxdı, atını mindi, düzəldi yola. Baş quldurun başını vurdum. Kəlləsini gətirdim atdım xurcuna, atın belinə mindim, bunun dalınca. Əmim qızı mənnən qabax çatdı. Bı əmim qızı tilsim bilirdi. Bilirdim ki, məni tilsimə salacax. Gəldi düşdü, atı verdi mehtərə, keçdi otağına. Mən də atı mehtərə verdim, keçdim içəri. Mən qapıdan içəri keçəndə məni tilsimə saldı.

Dedi:

–Get, itin biri it.

Mən oldum it. Səmavar  padşah oldu it. Buraxdılar məni, yeməh vermədilər. Getdim ac-susuz qaldım  çöldə. O it məni boğdu, bı it məni boğdu. Arıxladım. Sora mənim qəssəbimin qızı həmən bı əmim qızının şəxsi quluxçusu idi. Ancax ona qullux eliyirdi. O da bilir ki, bı tilsim bilir. O da fikir verir ki, axı bı Simavar padşah yoxdu. Şüphələnir, ola bilər ki, bı arvad onu tilsimə salıp. Ama qorxudan heş kəsə demir. Nəysə, bı gedir, bir gün atasına deyir ki, ay ata, axı padşah görükmür. Bəlkə, arvadı onu tilsimə salıp. Ata-

sı deyir ki, a bala, heç yanda bını demə. Padşah eşidər, bizim nəslimizi, kökümüzü kəsər. Deyir:

–Yox, mən, nəysə, şübhələnirəm.

Bir gün, deyir, gəlmişəm həyətə. Bı gəldi, mənə yeməh atdı. Qulluxçu gəldi, qulağına dedi ki, sən Simavar padşahsan? Mən başımla təsdih elədim. Qayıtdı getdi. Qayıdıp gedənnən sora, gedir əmim qızının başın yuyur, canın yuyur, orasına keçir, burasına keçir, qulluxçusudu da, bir təhər bı tilsimi bınnan o cür duyur. Gətirip tilsimi oxudu, verdi mənə, dedi:

– Get, Simavar padşah.

Mən oldum həmənki adam. Özümə gəldim. Tilsimi də verdi mənə. Gəldim, deyir, elə qapıdan içəri girəndə arvad istədi tilsimə əl atsın, tez oxudum, tilsimi bına vurdum. Dedim ki, get qancıx. Bı oldu bir qancıx. Yenə də deyir, getdi öz yoluynan. Getdi qoşuldu itdərə. Genə, deyir, namusum qəbul eləmədi. Axırı məcbur oldum, tutdum, gətdim bağladım öz otağıma. İndi, deyir, ay oğlan, şərtimiz şərtdi. Bı, mənim həyat yoldaşım, əmim qızı Güldü. İndiki, hal-hazırda arvadım həmən qəssəbin qızıdı. O da ki, oynaşının kəlləsidi. Ona görə də mən yeyən xörəhdən gəlir ona da bir qab. Yeməyi o, hikkəsinnən yemədi. Durdum bir-iki şallax çəkənnən sora başdadı yeməyə. Mənim sirrim bıdı. İndiyə kimi bı sirr heş yana çıxmıyıf ki, mənim adım biyabır olmasın. İndi də gərəh çıxmasın. Şərtimiz şərtdi, gərəh boynun vurulsun.

Oğlan deyir:

– Şərtimiz şərtdi, padşah sağ olsun, icazə ver ayaxyoluna dəyim, gəlim. Beş dəyqə mənə vaxt ver. Sora qanım halaldı.

Deyir:

– Buyura bilərsən. Ancax belinə gərəh ip bağlıyım.

Deyir:

– Bağla.

Belinə ip bağlıyır. Aftafa götürür, gedir əyaxyoluna, girir içəri. İpi açır belinnən, bağlayır aftafanın boğazına. Üzüyü də barmağından çıxarır, salır aftafanın lileyinə. Özü çıxır qaçır. Qaç ki, qaçasan. Deyir, asta qaçan namərddi, götürülür. On dəyqə keçir, on beş dəyqə keçir, Məlik Cümşüd qayıtmır.

Padşah səsləyir:

– Ey Məlik Cümşüd.
Üzüh səs verir:
– Bəli.
– Gəl də, nə oldun?
– Baş üstə,– üzüh səs verdi. Yarım saat, bir saat keçdi, Məlik Cümşüd gəlmədi. Axırı padşah məcbur olur, durup gedir. Görür ki, Məlik Cümşüd nə gəzir. Üzüh də bağlanıp aftafanın boğazına.
Deyir ki, köpəyoğlu, apardın sirrimi. Məlik Cümşüd qaçır, gəlir öz xanımının yanına. Padşahın əhvalatını öz xanımına nağıl edir. Sora bınnar gedillər kəbin kəsdirillər, qırx gün, qırx gecə toy vurdurullar. Məlik Cümşüd qalır bırda, öz arzularına çatıllar. Siz də öz arzunuza çatasız.

## QARAÇUXASINI AXTARAN KİŞİ

Bir kişi varmış. Çox həylə də yaşdı dəyilmiş. Çox kasıp tüşür. Kim bını görür, deyir:
– Əə, bədbaxtın Qaraçuxası yatıp.
Bir gün gedir ağsakqalın yanına, deyir:
– Əə, mən neyniyim?
– Get peyğəmbərdən xəbər al.
Deyir:
– Saa fəda olum, ya peyğəmbər, məxlux maa deyir ki, Qaraçuxan yatıp. Mən neyniyim? Qaraçuxamı hardan tapım mən?
Peyğəmbər buyurur ki, Qaraçuxan filan yerdədi, məsələn, Süsən dağının təpəsindədi, get, axtar, tap.
Deyir:
– Mən gedip Qaraçuxamı tapacam.
Kişi bir-iki cad götürür, düşür yola. Xeyli gedənnən soyra bir kor şirə irast gəlir. Şir bına tərəf cumanda deyir:
– Ay Allahın heyvanı, niyə cumursan məni yeməyə?
Deyir:
– Mən müstəhəqəm. Gözüm olsa, səni görsəm, ya irəhm elərəm, ya da məslahat elərəm, heş yemərəm. Ama koram, heş bir şeyim yoxdu, səni bıra göndərən yəqin maa urzu göndəripmiş.
Dedi:
– A Allahın heyvanı, mən bəni-insanam. Mən də bədbaxtam.

Ona görə ki, çox kasıp tüşmüşəm, deyillər, Qaraçuxan yatıp. Mən Qaraçuxamı axtarmağa gedirəm. Maa dəymə, bəlkə orda saa da bir şafa yolu taparam. Gedim, ordan xəbər gətiməsəm, gənə yolum bırdandı, genə yeyərsən də.

Dedi:

–Yaxşı, indi ki, həylədi, mənim gözümə şəfa gətisən, nəinki səni yeyərəm, illah saa ənam verərəm.

Razılaşdılar. Şir buna dəymədi. Getdi boyul. Bir müddət gedənnən sora bir vilayətdə görür ki, ağaş var, kölgədi, bir-iki cütcü oturup çörəh yeyir, öküzdəri də ötürüplər ottamağa, dincəlmağa.

Deyillər:

–Yolnan gedən şəxs, kimsən? Gəl çörəh yeyəh.

Kişi gəlir:

– Salaməleyküm.

– Əleyküməsalam.

Oturur, cütcülərnən çörəh yeyir. Cütcülər soruşullar ki, qardaş, kimsən, hardan gəlip hara gedirsən?

Deyir ki, qardaş, vallah, nə deyim. Allahdan gizdin deyil, bəndədən nə gizlədim, çox kasıbam, hər kim elə məni gördü, dedi, Qaraçuxan yatıp, get peyğəmbərdən səval elə. Gedip peyğəmbərdən soruşdum, dedi: "Qaraçuxan odu, Süsən dağının təpəsində, get axtar, tap, oyat daa". Düşdüm yola, indi gəlmişəm bıra çıxmışam.

Cütcülər dedi:

– Əə, qardaş, indi ki, gedirsən, bizim də elə Qaraçuxamız yatmış kimidi, bu zəminin neçə ildi toxumun səpirih, ancax ya toxumun götürürüh, ya götürmürüh, bı torpax bizə ürüsxət vermir. Qaraçuxaya bizim də dərdimizi de.

Dedi:

–Yaxşı.

Kişi düşdü yola. Getdi gördü ki, bir quru vilayət var , ora arx çəkillər, millət qarışqa kimi işdiyir. Zənənnən tutmuş ağsakqala, qarasakqala kimi hamı işdiyir.

– Salaməleyküm.

– Əleyküməsalam.

Dedilər:

– Qardaş, bırdan su çəkirih. Bir çaydan arx götürürüh. Arxı çə-

kirih, gətiririh bı düzə, gecə yatırıx, səhər gedirih ki, düppələndüzdü, arx– zad yoxdu.

Dedi:

–Vallah, mən bir bəni-insanam. Mən gedirəm Qaraçuxamı axtarmağa, deyillər, Qaraçuxam yatıp. Qaraçuxamı tapıp sizin də vəziyyətinizi dəərəm. Bəlkə sizə bir yol oldu.

Arxı çəhdirən patşah dedi:

– Kişi, indi ki gedirsən, əgər bı sudan bir sorax gətisən, bizim bı arx başa çatsa, səni dünya malına qəni elərəm. Səni göz bəbəyim kimi saxlıyaram.

Dedi:

– Baş üsdə.

Getdi, elə bil Süsən dağının təpəsinə çatmışdı, gördü ki, bir sürü qoyun var, çoban yatıb, üzdən irax, elə itdər də yatıp yanında, canavar gəlir qoyuna təpilməğa. Bir adam qoymur, canavarrar qoyuna təpilə. Kişi də getdi ora yaxın. Dedi:

– Ə qardaş, kimsən ki, qoyunun sahibi yatıp, itdər yatıp, sən bı sürünü qoruyursan?

Dedi:

– Vallah, mən bı çobanın Qaraçuxasıyam. O yatıp, ama mən oyağam da, onun malın qoruyuram.

Dedi:

– Əə, saa qurban olum. Mən də bu dərdin sahibiyəm. Mən də Qaraçuxamı axtarıram.

Dedi:

– Odu ha, Qaraçuxalar ordadı. Sən də Qaraçuxanı çağır, gələcəh.

Getdi, bir az gedənnən sora dedi:

– Ey mənim Qaraçuxam, hardasan, gəl, niyə yatmısan?

Dedi ki, bilirsən nə var?

Dedi:

– Nədi?

Dedi:

– Gedərsən bırdan bir saxsı cürdəyi doldurarsan suynan, bir nazih qatmaynan asarsan bir qəlbi yerdən. Nə vədə ip qırılıp saxsı düşərsə yerə, sınsa, bil ki, mən oyanmışam, sınmasa mən də yatmışam.

Kişi dedi:
– Ha belə, başıma bir iş gəldi. Bir kor şirə ürcah oldum.
Dedi:
– O şirə de ki, bir axmax adam yesin, gözü açılacax.
Dedi:
– Ha belə, gəlirdim, iki qardaş cüt əkirdi.
Dedi:
– Onnara da denən ki, o ağacın dibində bir küp qızıl var,nə qədər ki, o qızılı götürmüyüplər, o torpax bar verməz. Bir torpax iki bar verməz. Bir torpax bir bar verər.
Dedi:
– Ha belə, bir patşah da var.
Dedi:
– Get o patşaha denən ki, o qızdı, nə qədər ki, başbir olmuyup, ərə getmiyip, onun mətləbi hasil olmuyacax.
Kişi qayıtdı, düşdü yola. Gəldi sifdə patşaha ürcah çıxdı. Xoş beş, on beş, dedi ki, qibleyi-aləm, vəziyyət belədi.
Padşah dedi:
– Bıra gə, bıra gə. Bı sirri bir sən bilirsən, bir mən. Elə gə sən məni al, sən ol patşah, mən də olum sənin xanımın. Ta bını başqa adam bilməsin.
Dedi:
– Yox, mən bı işə yaxın durammaram. Mənim Qaraçuxam deyip, gərəh ipdən cürdəh asasan.
Nəkqədir dedi, dedi, vır, öldür, qəbul eləmərəm.
Gəldi iki qardaşdarın yanına. Dedi ki, ha belədi. Qardaşdar getdilər, qızılı eşdilər, çıxartdılar. Dedilər:
– Qardaş, elə torpax ki, bizə urzu verip, qızılın hamısı sənin.
Dedi:
– Əə, yox, maa lazım dəyil.
Dedilər:
– Onda üş bölax daa. İki biz, bir də sən, üş böləh.
Dedi:
– Yox, maa lazım dəyil.
Dedilər:
– Niyə?

Dedi:

– Mənim Qaraçuxam deyip, cürdəyi ipdən asarsan, gözdərsən.

Kişi qızılı götümədi. Gəldi gördü bıdı şir nərildəyir. Hənirti eşitdi, cumdu bının üsdünə. Dedi:

– Cumma, cumma, şad xəbər gətimişəm. Haman adamam ki, Qaraçuxamı axtarmağa gedirdim.

Dedi:

– Həə, de görüm, nə dedi Qaraçuxan?

Dedi ki, ha belə, bir axmax adam beyni yesin, onun gözdəri açılar.

Dedi:

– Yaxına gəl eey, axı eşitmirəm sən dediyin sözdəri.

Belə yaxına gələndə bırdan–xirtdəyinnən belə tutdu, dedi:

– Əə, patşahlığı bıraxmısan, qızılı bıraxmısan, gəlmisən ki, mən gedəcəm saxsı asacam. Elə sənnən axmağın tapmıyacam.

Kişini xirtdəyinnən qopartdı, yedi.

## GÜLÜ QAH-QAHIN NAĞILI

Biri gejə yatır, görür bir ay bir çiyninnən çıxıp, bir gün də bir çiyninnən. Yuxudan ayılır. Bı oğlanın adı olur Baxtıyar. Ata-anasına deyir ki, bəs mən bu gejə bir yuxu görmüşəm, gərəh bı yuxunu yozam. Ata-anası deyir: – Ay bala, tək oğlansan, hara gedirsən? Deyir: – Yox, gərəh gedəm.

Yolda Baxtıyar bir çobana irast olur. Çoban bınnan soruşur ki, hara geersən? Deyir ki, bəs sirdi.

Deyir:

– Nə verim sirri maa verəsən?

Deyir:

– Çoban qardaş, adın nədi?

Deyir:

– Baxtıyar.

Deyir:

– Sən də Baxtıyar, mən də Baxtıyar. Sirrimi saa verrəm, ancax əvəzində gərəh qoyun verəsən.

Deyir:

– Verrəm.

On qoyun verir, Baxtıyar götürmür, on beş qoyun verir, deyir:

– Yox. Gərəh  bütün sürüü verəsən.
Deyir:
–  Yaxşı, sürümü verdim.
Bı Baxtıyar sürüün verir yuxugörən Baxtıyara. Altdan-üsdən geyinip düşür yola. Az gedir, çox gedir, gəlip çıxır bir körpünün yanına. Qarannığıymış, görür körpüün altında bir atdı dayanıp, yanında bir at. Bı atdı bını görən kimi çağırır, deyir:
– Baxtıyar, gəldin, min ata, dalımca sür.
Bəli, Baxtıyar minir ata, bı qaraltıın dalısıjan düşür. Bir xeyli gedənnən sora qabaxdakı atdı dayanır, Baxtıyar çatır bına. Atdı baxır ki, bı onun gözlədiyi Baxtıyar dəyil. Deməynən bı qızıymış. Körpüün altında vədələşippişdər, bı vilayətdən qaçırmışdar. Qız deyir:
– Ay adam, bilmirəm kimsən, ancax belə görükür kü, qismət beləymiş. Sənin də adın Baxtıyardı, onun da adı Baxtıyardı. Taleh yazan, görükür ki, belə yazıppış. Atdan düş, bir qismət kəsəh.
Atdan düşüllər, bir çəmənnihdə atdarın çidarrıyıp bıraxıllar. Oğlan subaşına çıxır, qayıdıp görür ki, vallah, qız bir sıfra açıp kim, təndirüsdü, hər nə desən, var sıfrada. Qız deyir:
– Baxtıyar, mən bir xəzinadarın qızıyam. Atam məni bir nəfərə verirdi, mən bir ayrısını istiyirdim. Odu ki, vədələşdih ki, qaçax, atamın xəzinəsinnən bı sırfanı götürmüşəm. Bı sırfa sehirri sırfadı. Hər vəda dadımıza çataceh. Mənim adım Pəridi, heş fikir eləmə, qızıldan-gümüşdən nəkqədər istəsən, varımızdı.
Bınnar yeyip-içillər, sırfanı yığışdırıllar, qoyullar atın xurjununa, düşüllər yola. Bəli, bınnar qırx gün, qırx gejə yol gedillər, gəlip çıxıllar bir padşahın vilayətinə. Pəri xanım Baxtıyara qızıl-gümüş verip deyir:
– Çıx şəhəri axtar, bir usta tap, apar padşahın imaratına baxsın, o cürə bir imarat tihtirəh.
Baxtıyar çıxır şəhərə, axtarıp bir usta tapır, deyir:
– Padşahın bı imaratınnan tikə bilərsən?
Deyir:
–  Tikərəm.
Bəli, usta yığışıp gəlir şəhərin qırağında Pəri xanımnan Baxtıyara bir imarat tikir. Baxtıyar Pəri  xanıma maslahat eliyir, deyir:
– Qoy bu vilayətin padşahını qonax çağırım, bizi də bir adam

yerinə saysın.

Pəri xanım deyir:

– Baxtıyar, sən gəl bı padşahı qonax çağırma. Məəm gözəlliyim bir yana, bı padşah bizim sırfanı görsə, sanjılanaceh, bizi qoymuyaceh bırda irahat yaşıyax.

Baxtıyar razı olmur. Pəri xanım çox deyir, Baxtıyar az eşidir, dediyinnən dönmür, gedip padşahı qonax çağırır. Padşah deyir vəzir-vəkilinə:

– Balam, bı kimdi ki, belə, məni qonax çağırır? Gedəh görəh bı nətər adamdı?

Bəli, padşah vəzir-vəkiliynən yığışır gəlir Baxtıyarın imaratına. İmarat, nə imarat, padşahınkınnan da gözəl cah-calallı. Söhbətdən sora ortaya sırfa salınır. Padşah baxır ki, bı sırfada nə desən var. Onun qarnına sanjı dolur. Durup gəlir sarayına. Bir-iki gün keçir. Padşah vəziri çağırır, məsləhət eliyir, deyir:

– Necə eliyəh ki, Baxtıyarı itirəh, sırfası qalsın bizə?

Vəzir məslahat eliyir, deyir:

– Çağır Baxtıyarı, göndər dərya atının südünü gətirsin. Ora gedər-gəlməz yoldu, gedər, qurd-quş tələf eliyər, sırfa da qalar sana.

Baxtıyarı çağırıllar, padşah əvvəldən girir yorğan-döşəyə. Baxtıyar gəlip görür ki, padşah yorğan-döşəhdədi. Deyillər:

– Bəs şah xəstələnip, ona dərya atının südü lazımdı.

Şah zıkkıldaya-zıkkıldaya deyir ki, Baxtıyar, bı südü ancax sən gətirə bilərsən, gərəh gedəsən.

Baxtıyar kor-peşman qayıdır imaratına. Pəri xanım görür, bıdı, Baxtıyar gəlir, fikir-zikir içindədi. Soruşur ku, noolup?

Deyir:

– Bəs padşah azarrıyıp, təbib dərya atının südünü dərman buyurup, padşah bı işi maa tapşırıp.

Pəri xanım deyir:

– Gördün, mən saa demədimmi ki, padşahı qonax çağırma. Hələ yaxşı ki, məni görmüyüp, yoxsa məni də əlinnən alaceydi.

Baxtıyar deyir:

– Bəs necə eliyəh? Yaxşısı bıdı bırdan qaçax gedəh.

Pəri xanım deyir:

– Yox, bı namarddıx olar. Sən belə elə. Gedərsən, filan yerdə

bir dərya var, qırağında təhnəli bulax. Bırdan da bir tulux çaxır alarsan. Gedip o bulağın suyunu qurudup təhnənin suyun boşaldarsan, yerinə çaxır tökərsən, çəkilip gizdənərsən. Bir də göreysən, dəryadan bir sürü at çıxdı. O atdarın içində bir yəhərri-yüyənni maydan olajeh, o maydan təhnədən içəndə atılıp minərsən belinə, çaparsan bıra kimi. Nəbada dönüb dala baxasan.

Baxtıyar Pəri xanımın dediyi kimi eliyir. Görür kü, bıdı, dəryadan bir sürü at çıxdı, ilxının içində bir yəhərri-yüyənni kəhər maydan da var. Maydan təhnədən içəndə atılıp minir belinə, çapır. İmaratına çata-çatda deyir, bir dönüm baxım, görüm bı nə tappıltıdı? Dönüp baxan kimi arxadan gələn ilxı yoxa çıxır. Atı gətirip salır tavlıya. Səhər südün sağıp isti-isti aparır padşaha. Padşah görür Baxtıyar südü gətdi, sağ-salamatdı. Tez vəziri çağırır hüzura, deyir:

– Vəzir, bir tədbir qıl, Baxtıyar qayıtdı.

Padşah Baxtıyarnan əhd bağlamışdı kı, Baxtıyar qayıtmasa, onun imaratına saab dursun. Fikirrəşirdi ki, Baxtıyar qayıtmaz, imarat da, sehirri sırfa da ona qalar. Vəzir deyir:

– Padşah sağ olsun, bu dəfə ona bir kələh düzəldəcem ki, ömürbillah qayıda bilmiyəceh. Çağır denə bəs azarramışam, təbib buyurup kü, gərəh Qah-Qah gülünü iyliyəsən. İyləsən, sağalacehsən. Bını da ancax sən gətirə bilərsən.

Padşah genə girir yorğan-döşəyə. Baxtıyarı çağırtdırır. Baxtıyar gəlip görür kü, padşah genə yorğan-döşəhdədi. Padşah deyir:

– Baxtıyar, ölürəm, təbib buyurup ki, gərəh Qah-Qah gülünü iyliyəsən ki, sağalasan. İndi ələş qalıp saa, gərəh gedip o gülü gətirəsən.

Bəli, Baxtıyar genə bikefləyir, qayıdıp gəlir Pəri xanımın yanına. Pəri xanım görür kü, Baxtıyar genə bikefdi. Soruşur kü, noolup? Deyir:

– Bəs padşah genə azarrıyıp, mənnən Qah-Qah gülünü istiyir.

Pəri xanım deyir ki, Baxtıyar, o gül çox uzaxdadı, Təbriz şəhərinə gərəh gedəsən. Gedərsən, Təbrizin qırağında bir göl var, qırağı qamışdıxdı, gizdənərsən o qamışdıxda. Görəsən üş dənə quş uça-uça gəlip qonaceh gölün qırağına, çevrilip olacehlər qız, soyunup girəjəhlər gölə. Gərəh gizdinjə o qızdardan biriin paltarın oğurruyasan. Sora o quşdar nə niyyət eləsən, yerinə yetirəcehlər.

Baxtıyar düşür yola, gəlip çıxır Pəri dediyi gölün qırağına.

Gizdənir, xeyli keçənnən sora görür kü, bıdı, üş dənə quş uça-uça gəlip qondu gölün qırağına, dönüp oldu gözəl-göyçəh qız, soyunup girdilər gölə. Baxtıyar göz-gözə vırıp bu qızdarın biriin paltarın oğurruyur, girip qamışdıxda gizdənir. Qızdar sudan çıxıp geyinəndə görüllər biriin paltarı yoxdu. Qızdardan biri qalır paltarı oğurranan qızın yanında, biri genə quş olup uçup gedir. Deməynən bı quşdar Gülü Qah-Qah xanımın üş malekə qızdarıymış. Çox keşmir, uçup gedən quş yanında da bir quşnan qayıdıp gəlir. Deməynən bı quş da Gülü Qah-Qah xanımın özüymüş. Deyir:

– Ey bəni-insan, nə niyyətə gəlipsən, hasil olaceh, qızın paltarın ver.

Baxtıyar qamışdıxdan paltarı tulluyur, qız geyinir. Gülə-gülə qamışdıxdan çıxır. Quşdar Baxtıyarı da qanaddarına alıp uçullar öz məkannarına, gətirip qırx gün, qırx gecə toy eliyillər, həmən qızı verillər Baxtıyara.

Bir gün Baxtıyar çox bikaflıyır. Gülü Qah-Qahın qızı deyir ki, niyə bikefsən? Baxtıyar açıp danışır kı, bəs mənim bir arvadım var, filan vilayətdə qoyup gəlmişəm, niyyətim də budu. Gülü Qah-Qah gəlir, qızı danışır kı, bəs hal-nağıl belə.

Gülü Qah-Qah deyir:

– Gedin, əyər qızım Pəri xanımnan gözəl olsa, qızım olsun arvadın, Pəri olsun qulluxçun. Pəri xanım gözəl olsa, onda qızım olsun qulluxçun, Pəri xanım arvadın.

Bəli, Baxtıyarı alıp qanaddarına gətirip qoyullar imaratının yanında. Baxtıyar içəri girip görür kü, Pəri xanım bının yolun gözdəməhdən heyva kimi saralıp. Bını görəndə Pəri xanım çox sevinir. Gülü Qah-Qahın qızın görəndə bıkaflıyır, bilir ki, Baxtıyar bını alıp gətirip. Nəysə, Gülü Qah-Qahın qızı qah-qah çəkip güləndə ağzınnan bir dəstə gül düşür. Baxtıyar bu gülü götürüp gedir padşahın yanına. Padşah görür kü, Baxtıyar gülü də gətdi. Baxtıyar gedənnən sora vəziri çağırtdırır, deyir:

– Bir tədbir qıl.

Vəzir deyir:

– Şah sağ olsun, ta tədbirim yoxdu. Gərəh bı dəfə öldürəh, odda yandırax.

Bı sirr Pəri xanıma agah olur. Deyir:

– Baxtıyar, padşah səni yandıraceh, səni iki dəfə ölümnən

qutarmışam, ancax bı dəfə mənnih dəyil. Bı dəfə Gülü Qah-Qahın qızı səni qutara bilər.

Gülü Qah-Qahın qızı deyir:

– Arxayın ol, səni odun içinnən elə götürəcem ki, heş kimin xəbəri olmuyaceh.

Sabah olur. Padşah əmr eliyir, meşədən odun gətirip çin vırıllar. Baxtıyarı tutup gətirillər, qaldırıllar çinin üstünə, altdan od vırıllar. Gülü Qah-Qahın qızı Baxtıyarı odun içinnən elə götürür kü, heş kim xəbər tutmur, gətirip qoyur öz imaratında yorğan-döşəyin içinə. Tonqal yanıp qutarır. Padşah əmr eliyir ki, külü əliyin, içinnən sümühlərin seçip çıxardın, görəh bı nətər yanıp. O işdəri görən birdən yanmaz. Külü əliyip görüllər ki, içində sümüh-zad yoxdu. Padşah deyir:

– Vəzir, bı nə işdi?

Vəzir söz tappır, deyir:

– Şah sağ olsun, yağın Baxtıyar gedip cənnətə.

Padşah deyir:

– Çin vırın, mən də yanıp gedəcem cənnətə.

Çin vırıllar, şahı yandırıllar. Şah odun içində gözdüyür kü, uçup getsin cənnətə, görür, heş uşmax olmadı, başdıyır qışqırmağa: "Ay yandım, ay kül oldum! Qutarın məni". Kim girəceh odun içinə?! Padşah yanıp kül olur. Sora quş uçurullar ki, təzə padşah tihsinnər. Quş uçup qonur Baxtıyarın imaratıın üstünə. Neçə dəfə uçurullar, quş genə gedip qonur Baxtıyarın imaratına. Deyillər ki, Baxtıyar yanıp, gedəh görəh orda kim var axı, quş gedip qonur ora? Gedip görüllər ki, Baxtıyar sağ-salamatdı. Deyillər, elə əsl padşah bıdı. Gətirip Baxtıyarı eliyillər padşah.

Bir gün Baxtıyar yorğan-döşəhdə uzanıppış, hər arvaddan da bir uşağı oluppuş: biri oğlan, biri qız. Uşaxların biri gəlip çıxır Baxtıyarın bir çiyninə, biri də çıxır bir çiyninə. Baxtıyar bərhdən qah-qah çəkip gülür. Arvaddar soruşur ku, ay Baxtıyar, bırda nə gülməli şey var kı, gülürsən? Baxtıyar deyir:

– Bəs mən bir yuxu alıp, bir sürü qoyun vermişdim, bı uşaxlar həmən yuxudu.

Bırdan başdıyıp Baxtıyar hal-nağılı danışır. Bınnar əhvalatdan halı olullar. Deyillər, bınnar xoşbaxt ömür sürüllər.

## NARGİLƏ

Biri də varmış, yeddi qardaşmışlar, bir kişinin, bir arvadın yeddi oğluymuş. Bir gün ana hamilə olur. Diif ki, ana, biz çıxacağıx ova, qardaşımız olsa, tüfəng asarsan, bacımız olsa, ələh. Qardaşımız olsa, qayıdajağıx, bajımız olsa, yox. Bunun da gəlir bir qızı olur. Paxıl qonşu ələyi dəyişdirib tüfəng asır. Tüfəng asanda oğlanlar çıxıf gedif dağlara. Qızın da adı olur Nargilə. Qız bir gün (bir ala danası varmış) bunnan hərrənirmiş. Ala dana da ölür. Öləndə durur aparıf bunun qarnın yuyanda görür bir qarğa gəldi qondu ora ki, niyə ağlıyırsan bir danadan ötəri? Diif:

– Da mənim heş nəyim qalmadı. Bir canımdı, atamdı, anamdı. Qardaşlarım yox, bajım yox.

Diif:

– Sənin qardaşların var, sən bilmirsən.

Diif:

– Yox.

Diif:

– Onda sən o qarından bir xeylax ver ma, yeem, qarnımı doyuzdurum. Get bir torba da arpa götür. Asajam mən ayağımdan. Səni aparıf çıxardajam həmən qardaşların olan yerə.

Bu belə də eliyir. Arpanı yerə tökə-tökə gedir. Gedir görür ki, qardaşları yoxdu. Qapıın dalında dəyirman daşı var, nə var, girir bura. Girif görüf ki, qazan var, nə var, yeməh var. Duruf bunnara bir qazan yeməh bişirir. Bir dirəh varmış, diif:

– Dirəh, aralan, girim içəə.

Dirəh aralanıf, girif içinə. Qardaşlar gəlif məəttəl qalıf. Bu nə işdi, nə güjdü? Əvvəl böyüh qardaş qalır, sora o biri qardaşı qalır. Yeddisi də qalır, görür ki, yox. Yatırmışlar, dururmuşlar hər şey hazır. Balaca qardaş barmağını yarır, elə qız dirəyə girəndə qızı tutur. Qızı tutanda qız düzünü danışır ki, mən sizin bajınızam. Qardaşlar diir:

– Bajı, bir ala pişih var. Birdən nəbadə bir şey yiyəndə pişiyə verməzsən. Pişih işiyif ojağımızı keçirsə, ta od tapmıyajağıx.

Qız, təsadüfən qardaşıın cibindən kişmiş tökülmüşdü, yadından çıxır kişmişin hamısını yeyir. Yiyəndə pişih gəlif ojağı keçirir. Baxıf görür ki, aralı yerdə ojax yanır. Bu gedif görür bir koma-

dı. Bu komada qız saçından asılıf. Qız bunu görən kimi deef ki, bura niyə gəldin? Bura divin evidi. Səni bu saat yeyəjəh. Diif:

– Onda ma bir az köz ver, mən qaçım, çıxıf gedim.

Diif:

– Qaçını götür, kəs közdən götür.

Qaçıynan közdən kəsir, götürəndə cibində sap varıymış, bu sap düşür, bir ucu da ilişir buna. Sap düz bunnarın evinə qədər gedir. Div gəlif der ki, bura adam gəlif. Burdan adam-badam iysi gəlir, yağlı gödəm iysi gəlir. Qız and-aman eliyir. Diir ki, udey, qaçı ojağın qırağındadı. Bu səfər baxır görür ki, ip gedir. İpnən gedir, çatır. Qapını möhkəm qaarmışlar. Diif ki, barmağıı çıxart, sa bir üzüh gətirmişəm. Qız barmağın çıxaranda qızın barmağın salır ağzına, sorur, çıxardır. Neçə gün gəlir, deer ki, barmağını çıxartmasan, qardaşlarının gedif hamısını öldürəjəm. Qız da qorxusundan barmağın çıxarırmış, bu sorurmuş. Qardaşlar baxıf ki, qız soluf-saralıf, tamam əldən düşüf. Qız boynuna alıf ki, bəs belə-belə.

Qapıın ağzında böyük bir quyu qazıflar. Quyu qazanda div gəlir düşür quyuya. Quyuya düşəndə bunun üstünü basdırırlar. Quyunun ustündən bir yeməli ot bitir. Qız bu otdan götürüf yeyir. Yiyəndə qız olur hamilə. Qardaşları diir ki, bu nə işdi belə. Qız başına gələni danışır ki, o otdan qırdım yedim. Qardaşları bir də baxıb ki, həqiqətən, div diridi, ölmüyüf. Qız deer ki, biz gedəh atamızın, anamızın yanına. Mən atamı bilirəm da hardadı. Qardaşdar durur gedir. Gedəndə qardaşları həmən divin adamlarımı, nəyi olursa, əsir götürürlər. Qız gedir çatır atasının, anasının yanına. Ordan gedir xəbər verir. Xəbər verəndə qayıdıf gəlif bunları qurtarırlar-qardaşları. Camaat köməh eliyir. Gediflər atasının, anasının yanına. Orda bir yaxşı şənlih edif, yeyif-içif yerə keçiflər. Biz də yeyif-içif məddi-muradımıza çatax.

## FATMANIN NAĞILI

Bir arvadın iki qızı varıymış-biri doğmaymış, biri ögey. Arvadın bir danası da varıymış. Dananı qatır doğma qızın qabağına, bir çəngə də yun verir, deyir:

– Apar dananı Humayın yalında otar, bu yunu da  apar did.

Qız aparır dananı Humayın yalında otarır, yunu da yavaş-yavaş

didməyə başlıyır. Birdən külək qalxır, qızın bir əlçək yununu yumalıya-yumalıya atır dərəyə, ordan da aparıb bir qarının bacasından içəri salır. Qız gəlir qarının qapısına. Çağırır deyir:

– Qarı nənə. Yel baba bir əlçək yunumu əlimdən aldı, bacannan saldı içəri. Onu ver, aparım.

Qarı çıxır qapıya, deyir:

– Ay bala, gəl içəri, əlçəyi verim, apar.

Qız deyir:

– Qarı nənə, niyə gəlim, ver aparım dayna.

Qarı deyir:

– Ay bala, gəl içəri.

Qız baxır qarı əlçəyi verməyəcəh, deyir: "Gedim görüm qarı məni neyləyir". Qız içəri keçənnən sonra qarı deyir:

– Ay bala, başıma bax, gör nə var?

Qız baxır, görür qarının başında bit qaynaşır, deyir:

– Uyy, qarı nənə, başın nə gündədi?!

Qarı deyir:

– Bala, Allah üzünü qara eləsin.

Qız deyir:

– Qarı, ağzını Allah yoluna qoyma, tez ol əlçəyi ver, çıxım gedim.

Qarı deyir:

– Bala, get Humayın dərəsiynən aşağı, çaya çatmamış qabağına iki bulax çıxacax, birinin suyu qaradı, birinin suyu ağ. Ağ suda başını yuyarsan, qara suda üzünü. Sonra gəl, əlçəyi verim, apar.

Qız naəlac qalıb qarı dediyi kimi eləyir: ağ suda başını, qara suda üzünü yuyur. Başı olur ağappax, üzü olur qapqara. Qayıdıb gəlir, əlçəyi alıb, ala dananı da qabağına qatıb gedir evlərinə. Anası görür, budur, qızı gəlir – yaman gündə. Bir dizinə çırpır, bir başına, deyir:

– Uyy bala, bu nə gündü düşübsən, səni hansı yamangünnü bu hala salıb?

Səhər olur. Arvad dananı qatır ögey qızın qabağına, bir çəngə yunu da verir əlinə, deyir:

– Apar dananı Humayın yalında otar, bu yunu da did.

Ögey qızın adı Fatmaymış. Fatma ala dananı aparır Humayın yalına, bir daşın üstündə oturub yunu didməyə başlıyır. Külək qalxır, qızın əlinnən yunu qapıb göyə qaldırır, yumalıya-yumalıya

gətirib həmən qarının bacasınnan salır içəri. Qız yunun dalınca gəlib çıxır qarının qapısına. Çağırır, deyir:

– Qarı nənə, qarı nənə, Yel baba əlçəyimi gətirib bacannan saldı içəri, sən Allah, onu ver, aparım gedim.

Qarı deyir:

– Gözəl qızım, göyçəh qızım, gəl içəri, verim əlçəyi, apar.

Qız keçir içəri. Qarı deyir:

– Ay bala, Allah dadına yetsin, dadıma yet, kürəyimi qaşı.

Qız bir söz deməyib qarının kürəyini açır, görür yara-xoradı. Qarıya yazığı gəlir, xartdıya-xartdıya qaşıyır. Qarı deyir:

– Ay bala, Allah üzünü ağ eləsin, Humayın dərəsiynən sallan aşağı, çaya çatmamış qabağına iki bulax çıxacax, birinin suyu ağdı, birinin suyu qara. Ağ suda üzünü yuyarsan, qara suda başını. Sora gələrsən, əlçəyi verrəm, gedərsən.

Fatma qarı dediyi kimi eliyir. Ağ bulaxda üzünü yuyur, qara bulaxda başını. Üzü olur ağappaq, gün kimi işıq verir. Qara bulaxda başını yuyur, saçı olur qapqara, şəvə kimi parıldıyır. Qayıdıb gəlir qarının yanına, əlçəyini alıb, ala dananı qabağına qatıb yollanır evə. Analığı görür bir şey uzaxdan işıx verə-verə gəlir bunnara sarı. Yaxınnaşanda baxır görür ki, ögey qızıdı. Qızın başına bir-iki qapaz salır, belinə bir-iki təpih vurub deyir:

– Yarımıyasan, harda qalıbsan, gəlib çıxmırsan? Ev süpürülməyib, odun yarılmayıb.

Arvad qızın paltarını çıxardıb cırım-cındır geyindirir, başına cındır çarşab salıb oturdur bir puşkaxda. Sabah olur. Arvad yenə ala dananı qatır Fatmanın qabağına, deyir:

– Apar dananı otar, həm də çır-çırpı yığ.

Bərk-bərk də tapşırır ki, üz-gözünü açma. Fatma dananı aparır Çobantaxtaya. Dana otduyur, Fatma da başdıyır yavaş-yavaş çır-çırpı yığmağa. O tərəf-bu tərəfə baxıb görür, heç kim yoxdu, üz-gözünü açır. Demə, Qara quzeyin ətəyində bir çoban qoyun otarırmış. Çoban görür dərədə bir şey işıx verir, yaxınnaşıb görür ki, bir qızdı. Az qalır çobanın ağlı başınnan çıxsın. Pusub görür ki, bu qız axşam filan evə getdi. Sabahısı çoban özü elçiliyə gəlir. Arvada deyir ki, bəs sənin qızını istiyirəm alam.

Arvad Fatmaya cılım-cındır geyindirib oturdubmuş bir puşkax-

da. Öz qızını gətirib çobana  görsədir. Çoban baxıb görür ki, bu qız gördüyü qız deyil. Kor-peşman çıxıb gedir.

Arvad Fatmaya deyir:

– Gedəh su gətirəh, paltar yuyax.

Gedirlər çayın qırağına. Arvad qızıynan köməkləşib Fatmanı basır çaya, Fatmanı çay aparır. Bir xeyli gedənnən sonra su vurub Fatmanı çıxardır qırağa. Çoban yalda qoyun otarırmış. Görür ki, çayın qırağında nəsə bir şey par-par parıldıyır. Gəlir görür ki, Fatmadı. Tez çuxasını çıxardıb salır qızın çiyninə, götürüb gəlir evə. Deyir: "Allah mənimkini yetirdi".

Çoban özünə bir yaxşı toy eləyir, Fatmanı alır. Fatmanı alandan sonra çobanın var-dövləti başınnan aşır.

## GÖYÇƏK FATMA

Biri varıydı, biri yoxuydu, Fatma addı gözəl, göyçək bir qız varıydı. Fatmanın bir qardaşı, bir atası bir də anası varıydı. Onlar hamısı bir yerdə çox xoşbəxt yaşıyırdılar.

Bir gün bədbəxtliydən Fatmanın anası ölür. Atası uşaqlarının üzülməməsi üçün yenidən bir arvad alır, evlənir. Bu analıx uşaxlara yaxşı baxmır, onları axşama kimi iştədir, ağır işdərə göndərir. Hər gün uşaxların üstündə əriynən dalaşır. Deyir, gərək uşaxları azdırasan, yoxsa bir gün də səndə oturmaram. Axırda arvad ərinə deyir ki, yox, sən gərək bıları öldürəsən. Kişi razılaşır, əlaçsız qalıb razılaşır. Deyir:

– Biz bu uşaqları necə öldürək?

Analıx deyir ki, mən Fatmanın saçını darayaram, bu vaxt darağı onun boynuna batıraram, ölər. Kişi deyir:

– Bəs oğlum?

Analıx deyir ki, sən də onun başın qırxanda lezvanı başına batır, qoy ölsün. Əri razılaşır.

Fatma atasıynan analığının bı söhbətini eşidib gəlib qardaşına danışır. Qardaşı deyir:

– Axı indi biz neyləyəcəyik?

Fatma deyir:

– Sən mənim darağımı götürüb qaçarsan, o mənim saçımı daramax istiyəndə, mən də darağı almax bəhanəsiynən sənin dalınca

qaçaram. Beləliynən canımızı qurtararıx.

Belə eliyirlər. Analıx Fatmanın saçını daramağa çağırır. Bu zaman qardaşı gəlib onun darağını götürüb qaçır. Fatma da bının dalınca qaçır. Onlar az gedib, üz gedib, dərə-təpə düz gedib, bir yaşıl çəmənliyə çıxırlar. Qardaşı Fatmaya deyir ki, mən susuzluqdan yanıram. Fatma uzaxda bir çobanı görür. Gedib ondan harada su olduğun soruşurlar. Çoban suyun çox uzaqda olduğunu deyir. Onlar qərara gəlirlər ki, su olan yerə qədər getsinlər. Çoban olara deyir ki, oradan bir neçə çay axır. Bunların hərəsi bir heyvanın çayıdı. Ən axırıncısı insan üçündü. Onlar çaya tərəf üz tuturlar. Maral çayına çatanda qardaşı dözə bilməyib bu çayın suyundan içmək istəyir. Fatma qardaşına mane olmax istəsə də, qardaşı bı sudan içir. Dönür olur maral. Bına görə Fatma çox ağlıyır, qardaşıynan birlikdə yol gedib bir neçə çinara rast gəlirlər. Fatma qardaşıynan çınarın dibində oturur, deyir:

– Əyıl çınarım, əyil, əyil çınarım, əyıl.

Fatma elə bı sözdəri demişdi ki, çınar əyilir. Fatma çınarın ucuna çıxır, çınar göyə qalxır təzədən. Fatma bir müddət çınarın ucunda qalır, quş kimi görünür. Qardaşı da gündüzdər meşədə otdıyır, gecələr gəlib çınarın dibində yatır.

Bılar düşən vilayətin bir patşahı olur. Bir gün patşah köməkçisini göndərir ki, get atı sula. At suya yaxınnaşır, amma nə qədər eliyir, içmir. Köməkçi bından təəccüblənir, atı evə gətirir. Patşaha bı əhvalatı danışır. Bir-iki gün belə olduqdan sonra patşah özü atı sulamağa gətirir. At yenə də su içmir. Patşah suya baxanda çinarın kölgəsini görür, dönüb çinara baxanda onun ucunda nəsə görür və əmr verir ki, onu düşürsünlər. Köməkçilər nə qədər edir, onu düşürə bilmirlər. Birdən meşənin yanında bir daxma görürlər. Daxmadakı qoca qarını çınarın dibinə gətirirlər. Patşah deyir:

– Ay qarı, sən çinarın ucundakını düşürə bilsən sənə özün ağırlığında qızıl verəcəm.

Qarı bununla razılaşır. Qarı gedib çör-çöp və qazan gətirir. Sonra ocaq qalıyır, qazanı tərsinə ocağın üstünə qoyur. Ona nə qədər su tökürsə, qazan ağzı üstə olduğuna görə dolmurdu. Fatma bına dözməyib ağacın ucundan aşağı düşür. Qazanı döndərib içini suynan doldurannan sonra deyir:

– Ay qarı nənə, bını belə eləmək lazımdı.

Qarı deyir ki, get çınarın dibindəki sandıqdan mənim darağımı gətir. Fatma sandığa baxır ki, daraq yoxdur. Qarıya deyir ki, bırda darax yoxdu. Qarı deyir ki, bir də əyil bax. Fatma əyiləndə qarı onu sandığa salıb ağzını örtür. Qarı sandığı götürüb saraya aprır.

Padşah əmr verir ki, sandığın ağzını açsınlar. Qarı sandığı açanda patşah görür ki, onun içində gözəl, göyçək bir qız var. Padşahın oğlu bı qıza vırılır. Qız da ona vırılır. Bınnar qırx gün, qırx gecə toy eliyirlər. Fatma başına gələn əhvalatların hamısını bına danışır. Bir gün Fatma yoldaşınnan xayiş edir ki, həmin çınarın dibinə getsin. Yoldaşı bına razı olur. O, çınarın dibinə gedir və deyir:

– Əyil çınarım, əyil.

Çınar əyilir. Fatma çınarın ucuna çıxır. Axşam qardaşı çınarın dibində yatmağa gələndə Fatma onu görür, görüşürlər. Sonra yenidən çınarın başına çıxır. Ordan görür kü, bir qaraçı dəstəsi gəlir. Dəstənin başçısı Fatmadan xayiş eliyir ki, onu da oraya çıxartsın. Fatma bınnan razılaşır. Onu çınarın başına çıxardır. Bı Fatmanın təzə paltarını soyundurur, Fatmanın özün də aşağı atır. Bu zaman yer aralanır, Fatma ora düşür, yer təzədən bağlanır. Qaraçı Fatmanın təzə paltarını geyinib padşahın evinə gedir. Ora getməmiş üzünü-başını örtür. Fatmanın əri bınnan şübhələnir. Fatmaya deyir ki, üzünü niyə örtmüsən? Qaraçı deyir:

– Başımı yumuşam, ona görə də örtmüşəm ki, soyux vırmasın.

Bir həftə keçir. Əri soruşur:

– Ay Fatma, bəs başın qurumadımı?

Bını padşah eşidir. Gəlib onun üzünü açır. Görüllər ki, bı qaraçıdı. Patşah bı qaraçını cəzalandırır. Patşahın oğlu gedir çınarın dibinə. Görür kü, çınarın dibində bir maral dil açıp ağlıyır. Patşahın oğlu Fatmanın danışdığı əhvalatı yadına salır. Bilir ki, bı maral Fatmanın qardaşıdı. Ondan soruşur:

– Fatmanı gördünmü?

Maral əhvalatı ona danışır. Deyir ki, Fatma düşdüyü yerdə gül bitif. Oları, o gülləri apar bəstə. Yaxşı bəsləsən Fatma da, mən də düzələcəm. Patşahın oğlu bı gülü yaxşıca bəsliyir. Bir müddət keçdikdən sonra padşahın oğlu görür ki, güldan partlıyır. Fatma güldanın içinnən çıxır. Bı vaxt qapı döyülür. Qapını açanda görül-

lər ki, gələn Fatmanın qardaşıdı. Padşahın qızı ilə Fatmanın qardaşına qırx gün qırx gecə toy edirlər. Bınnar hamısı bir yerdə mehriban yaşıyırlar.

## ASLAN BALASI

Bir gün bir arvad meşəyə gedir. Uşağı meşədə qoyup gəlir. Uşax da döş uşağıymış. Aslan görür ki, bırda bir uşax var. Uşağı götürüp aparır öz balasının yanına. Orda bu uşağı da, öz balasın da əmizdirir. Uşax yekəlir. Bir adam meşəyə getmişmiş. Görür ki, meşədə bir dənə uşax var. O adam da padşahın adamlarınnanmış. Uşağı götürüp gətirillər.

Padşah deyir ki, elə gətirin mən saxlıyım. Bını özümə oğullux götürəjəm. Padşah özünə oğullux götürür. Padşahın bir dənə də oğlu varıymış. Oğulluğunun adın qoyur Aslan balası. Çünki bu, aslanın südün əmip. Sora bınnar, iki qardaş bir yerdə yekəlillər. Aslan balası günü-gündən kökəlir, yaxşılaşır. Bının oğlu da günü-gündən arıxlıyır. Padşah çağırır oğlun, deyir.

– Ay bala, saa noluf ki, sən arıxlıyırsan, günü-gündən geri gedirsən?

Deyir:

– Nə bilim?

Sora Aslan balasına deyillər ki, ay bala, heç olmasa sən xəbər al. Bəlkə saa dedi:

Aslan balası soruşur qardaşınnan:

– Qardaş, de görüm, niyə günü-gündən arıxlıyırsan?

Deyir ki, mən ona görə arıxlıyıram ki, bir qız var, onu istiyirəm. Soruşullar ki, kimi istiyirsən da? Deyir ki, o yeddi qardaş devlər var ee, onnarın bajısın istiyirəm. Bı da deyir ki, yanma səni, sən hara getdin çıxdın. O devlər o xəntərə adam-zad qırıllar, sən nə danışırsan? Sora Aslan balası hər şeyi açıp padşaha nağıl eliyir ki, yeddi qardaş devlərin bajısın istiyir. O deyir ki, a səni yanma, nə xəntərə qoşunla gediplər onun qəpisinə, onnar bajıların vermir. Onnarı qırıf qavalıyıllar. Sən hara əl atırsan? Deyir ki, almasan, öləjəm.

Aslan balası qalxır ayağa, deyir ki, mən gətirəjəm onu.

Qıratı Aslan balası, Düratı da pədşahın oğlu minir. Aslan balası, qavaxja gedir. Gedip çatıllar onnarın qaldıxları yerə. Oğlanı

qoyur ağacın dibində. Özü siftə gedir, deyir ki,  görüm evdədilər?

Qız çıxır qəpiyə. Qız tanıyır. Deyir ki, ay Aslan balası, bura hara, sən hara? Sən nə zadnan gəlmisən bura? Bəs sən qorxmursan qardaşdarımnan? Nə üçün gəlmisən?

Deyir:

– Gəlmişəm səni qardaşıma alım. Onnan yana gəlmişəm.

Deyir:

– Nə danışırsan, qaradaşdarım nə xəntərə adamları qırıf qavalıyıf.

Deyir:

– Niyə axı? Sən birinə getməlisən, ya yox?

Deyir:

– İndi ki, həylədi, qardaşdarımın şərti var. – Ev yekəliyində bir qazannarı varıymış. Bütün avları vurup gətirillər, hərəsi bir  şələ, yeddi dənə av. Salıllar dirijə qazana. – Onu sən gərəh üş dəfə götürəsən, qoyasan üstə, qoyasan yerə. Gərəh onu yerinə yetirəsən. Bir dənə də yoğun ağaş  var. Bir dəfə balta vurasan ona. Bir də buğdaynan arpa bir-birinə qərişihdi. Bını gərəh bir gejənin içində seçəsən.

Qız deyir ki, indi ki, gəlmisən, saa yazığım gəlir. Gəl mən deyim.

Qızın barmağında tilsimli üzüh varıymış. Üzüyü çıxarıf verir ona, taxır barmağına.

Deyir ki, bunnarı belə eləməlisən ki, sizi öldürmüyə. Məni sizə verip üç gün də toy eliyəsidirlər.

Təzə danışmışdılar ki, görür ki, qızın qardaşdarı gəldi. Yeddisi də şələli. Onlar da  Aslan balasın tanıyıllar. Görüşüllər. Deyillər ki, nə irisknən gəlmisən bura. Deyir ki, bəs gəlmişəm sizin bajınızdan yana. Qardaşdar soruşullar ki, kimə alırsan, özünə, yoxsa başqasına? Deyir ki, qardaşıma.

– Qardaşın hanı?

Deyir ki, bəs qardaşımı qorxudan qoymuşam ağacın dibində. İndi gedim, gətirim.

Qardaşdarın biri də bınnan gedir. Oğlan da yatıp ağzı açıx. Bütün mirçəhlər eyzən ağzına dolup.

Deyir:

– Ədə, ədə, bıdı sənin qardaşın? Ə, bına verirsən bizim bajımızı?

Deyir:

–Yorulup, onçun həylə uzanıp yatıp.
Deyir:
– Bunun lijimi nədi? Biz bajımızı buna verəh? Bu arıx, qəjir oğlandı.
Deyir:
– Bı günü-günnən bajınızın dərdinnən xarap olup. İndi ilaf yaxşı olajax, kökələjəh.
Oğlanı da götürüf gedillər. Sora deyir ki, ay Aslan balası, bizim şərtimiz var. Onu yerinə yetirərsən, qızı verərih apararsan. Yerinə yetirməsən ikinizin də başını kəsəjiyih. Avların hamısıın töküllər o qazanın içinə. Qazanı üş dəfə qoyur üstə, üş dəfə də yerə. Haman bı Aslan balası eliyir bu işdəri.
Birjə dəfə baltanı ağaca vırır. Ağaş öz-özünə kəsilir.
Aslan balası fikirrəşir ki, mən buğdaynan arpanı nejə seçəjəm.
Birdən yadına düşür ki, qarışqaları yolnan gedəndə istiyirmiş ki, əəğıynən əzsin. Sora deyir ki, əl vurmuyum, əzilməsin qarışqa. Qarışqanın böyüyü deyir ki, ala, qanadımızdan götür.Saa köməhliyə durarıx. Bunun qanadınnan götürüp qoyur cibinə.
Birdən yadına düşür. Bınnarın qanadını bir-birinə belə (göstərir) eliyir. Görür ki, qarışqalar sürüynən gəldi. Qarışqalar deyir ki, Aslan balası, sən yat, biz hamısıın seçəjiyih.
Tezdən səhər açılır. Aslan balası durup görür ki,qarışqalar seçip ayrıja-ayrıja qoyuplar. Qızın qardaşlarının biri gəlip qəpini döyür.
Deyir:
– Seçmisən?
– Hə, seçmişəm. Gəlin baxın.
Gəlip baxıllar, məhətdəl qalıllar. Üç gün qardaşdar toy vurullar. Bajıların yola salıllar.Aslan balası Qıratı minip qızı da qoyup tərkinə. Oğlan da Dür atı minir.Aslan balası deyir ki, qavaxda mən gedim, birdən qızı alallar. Özüün də əlində də xənjəri, gedillər. Yolda oğlan deyir ki, ay Aslan, burda qız gərəh mənim tərkimdə olsun.
– Aslan balası deyir ki, ə, tutup əlinnən alallar daa, mən özümə aparmıram ki, aparıram saa.
Deyir ki, yox ee, gərəh mən aparam. Aslan balası sora Qıratı verir bına. Qızı qoyur tərkinə. Düratı da Aslan balası minif. Bının yolda əl-ayağın bağlıyıllar, Qırat axı tez gedir. Qızı əlinnən alıllar.

Aslan balası görür ki, əl-ayağı bağlıdı, əl-əyağın açır. Qıratı minif gedir, ordan vurur, burdan vurur, qızı onnarın əlindən alır. Yenə də qızı tərkinə alıp Qıratı minir, gedillər evlərinə.

Padşah çox sevinir. Deyir ki, bını Aslan balasınnan başqa heç kəs eliyə bilməz. Sora, üç gün, üç-gejə toy vurullar. Padşahın oğlu, qızla ayrıja otağı varıymış, orda yatır. Padşahın oğlu görür ki, bir ilan var, yuxarıdan gəlir ki, bunnarı vursun. Xənjər əlində gedir, onnar da yatmışmış da, onnarın başı üstündə dayanır, ilanı vurmax istəyəndə padşahın oğlu gözün açıp görür ki, Aslan balası əlində xənjər durup bunnarın başı üstdə. Qorxur, səhər atasına nağıl eliyir ki, bəs Aslan balası xənjərlə durmuşdu başın üsdə ki, məni vırsın, öldürsün, qızı götürsün özünə.

Padşah Aslan balasının yanına çağırır, deyir ki, qardaşın belə nağıl eliyir. Aslan balası deyir ki, maa nolup ki, qardaşımı öldürəm, qızın götürəm özümə. Elə özümə gətirərdim daa. Aslan balası əhvəlatı danışır. İlanı da gətirip göstərir.Aslan balasın da evləndirir, yeddi gün-yeddi gejə toy vurdurur.

## DƏRVİŞİN NAĞILI

Bir qoja kişi olur, bunun heş bir züriyəti olmur. Allah-taala tərəfindən bir dərviş peydah olur. Dərviş gəlir bınnara qonağ olur. Dərviş baxıf görür ki, bınnarın heş bir uşağı yoxdu. Deyir ki, bəs sizin uşağıız niyə yoxdu?

Deyir ki, yoxdu da, olmuyuf indiyətən.

Deyir:

– Mən sizə uşax verərəm, bı şərtnən ki, uşağın birin verərsiz maa.

Deyir:

– Lap yaxşı.

Gətirir dərviş cibinnən bir alma çıxardır kəsir, yarısın verir kişiyə, yarısın da kişinin arvadına. Elə olur ki, dokquz ay, dokquz gün, dokquz dəyqası tamam olanda bulların bir cüt oğlu olur. Oğlanın biriin adın qoyullar Səməd, biriin adın qoyullar Əhməd. Bullar böyüyüllər. Dərviş də çıxıf gedir. Aradan bir neçə il keçənnən sora artıx bullar böyüyüflər, məhtəfə gedillər, səkkizinci-dokquzuncu sınıfda oxuyullar. Bir gün görüllər ki, kəndin qabağınnan bir adam gəlir, həmən dərviş. Dərviş gəlir, bılların əvləri-

nə yaxınnaşanda bı kişi gətirir bı uşaxların ikisin də salır təndir quyusuna. Təndir quyusuun ağzına da bir daş yıxır ki, guya bizim uşaxlarımız olmuyuf. Dərviş gəlif soruşanda deyir ki, bəs heş bizim uşaxlarımız olmuyuf. Dərviş bulların adını çağırır ki, Əhməd, Səməd, hardasan? Uşaxlar tez quyudan cavab verir ki, ata, biz bırdayıx, bizi salıblar bıra, gəl bizi çıxart. Bılları quyudan çıxardır. Çıxardannan sora deyir ki, hansınız mənnən gedərsiz? Əhməd deyir ki, mən gedərəm. Həə, bir az çörəhdən, sudan hazırrıyıllar da. Bı uşaxların atası da məhətdəl qalır bu işə. Ona görə də dərvişi rədd eliyəmmir. Çünki əvvəldən şərtdəri varıdı. Dərviş uşağın birin götürüp çıxıp gedir. Aparır bir meşəlihdə, bir çəmənlihdə qırx otaxlı qalaça varmış, qoyur ora.

Dərvişin peşəsi bıymış ki, gedip avlıyarmış, quşduyarmış, gətirərmiş, bir yerdə yeyərmişdər. Həmməşə də gələndə bı uşağın üzünnən-gözünnən öpərmiş, əl-ayağın yuyuf yerini rahat eliyərmiş. Bir günnəri bı uşax öz-özünə fikirrəşir ki, bırda heş insan adında şey yoxdu. Bı nətəər olar axı, bı məni gətirə bıra? Ta artıx böyüh uşağıymış, hər şeyi başa düşürmüş. Öz-özünə fikirrəşir, durur bı qalaçanı gəzməyə. Hərrənir, görür, bir quyu var, ordan insan hənirtisi gəlir. Həə...

Deyir:

– Kimsən?

Deyir:

– Mən filankəsəm, adım da İsadı. Atam boynumu qılınjnan vırıp, gətirip salıp bıra. Əgər məni bırdan çıxartsan, mən saa yaxşı köməh eliyərəm. Bı da deyir ki, mən atamnan icazəsiz səni çıxarda bilmərəm. Deyir ki, mənim boynum kəsilip, bir azca qalıp ki, boynum qırıla düşə yerə. Getginən filan şkafda filan dərman var, o dərmanı gətirsən, mən o dərmanı boğazıma sürtsəm, dirilərəm, saa köməh eliyərəm.

Deyir:

– Bəs nətəər eliyim?

Deyir:

– Səən atan icazə vermiyəjəh, sən axşam bikef ol, axşam bikef olannan sora bəlkə o icazə verə.

Bı da o formu həylə axşam bikef olur. Gəlir yolağada oturur, atası gəlir, görür uşax bikefdi.

Deyir:
– Niyə bikefsən?
Deyir ki, bəs bırda heş bir adam, heş bir insan yoxdu, məni təkjə qoymusan bırda, qaralım gəlmir. Maa gərəh bir yoldaş tapasan.
Deyir:
– Bıra, nə bilim, hansı ölkənin hansı yeridi, saa yoldaş tapıb verə bilmərəm.
Deyir ki, onda icazə ver, mən özüm tapım.
Deyir:
– Hə, icazə verdim. Gedir həmən şkafdan dərmanı tapıp, aparıp atır quyuya, oğlan dərmanı sürtür boğazına, quyudan çıxır. Quyudan çıxannan sora bı heş bir fərq qoymur bı uşaxlara. Həmməşə gedip avlıyıp-quşduyup gətirərmiş, bullar ikisi də yeyip-içip ömür keçirdərmişdər.
Bir günnəri də İsa bına deyir ki, qardaş, bilirsən nə var?
Deyir:
– Nədi?
Deyir:
– Əgər atamız bizi oğul gözündə görürsə, niyə bı qırx otağın həçərini vermir bizə, bir gəzip görax bı otaxlarda nə var?
Deyir:
– Bəs nətəər eliyax?
Deyir:
– Bir ayrı çarəsi yoxdu, axşam bikef olax, bəlkə həçəri onnan ala biləh.
Axşam bir tərəfində əlih, bir tərəfində maral həmən dərviş gəlir. Gəlir görür uşaxlar bikefdi.
Deyir:
– Niyə bikefsiz?
Əhməd deyir ki, əgər sən bizi oğul gözündə görürsənsə, niyə bı qırx otağın həçərini bizə vermirsən? Bı da bı qırx otağın həçərini topuynan çıxardır verir.
Deyir:
– O nə şeydi ki? Siz bikef olmuyun onnan ötürü. Gedin gəzin. Bınnar da gedip gündə bir otağı gəzirmişdər. Bərri-bəzəhli otaxlarıymış da. Bir günnəri də o-quyudan çıxan həçərrəri sayır, görür otuz dokquz həçərdi, qırxınjı otağın həçəri yoxdu.

Deyir:
– Qardaş, bilirsən nə var?
Deyir:
– Nədi?
Deyir:
– Görürsən, atamız bı otuz dokquz otağın həçərini verdi bizə, qırxınjı otağın həçərin vermədi.
Dedi:
– Bəs nətəər eliyax.
Dedi:
– Bikef olax. Axşam bikef olax, bəlkə həçəri verə.
Bəli, bınnar axşam genə bikef oldular, biri yolağanın ağzında uzandı, biri bir yanda bikef oturdu. Axşam dərviş gəlip gördü bınnar genə bikefdilər.
Dedi:
– Niyə bikefsiz?
Genə Əhməd dedi:
– Əgər sən bizi oğul gözündə görürsənsə, niyə bəs bı otuz dokquz otağın həçərini verdın, qırxıncı otağın həçərin vermədin?
Dərviş çıxardır qırxınjı otağın həçərini verir. Verəndə deyir ki, siz nahax yerə qırxınjı otağın həçərin mənnən aldıız.
Bınnar gejə səhərətən yatmıllar ki, bırda nə məraxlı iş var ki, dərviş belə deyir? Səhər dərviş gedənnən sora durdular, otaxları bir-bir açа-açа getdilər, çıxdılar qırxıncı otağa.
Rəvayətə görə qış ayıymış, ancax görüllər bırada yaz təzə açılıf, bülbüllər cəh-cəh vırır, nə bilim, güllər elə açılıp, elə bilginən bahar ayıdı. Baxıp görüllər bırda böyüh bir havız var, havızın içində su var. Ama bir kadın şaxı düşüp bıra. Əynə-bəynə baxıllar, görüllər ki, bir kadının şikili vırılıp göyə. O qəddərənə gözəldi ki, heş deməzsiz. Bı kadının şikilin görən kimi bı Əhməd yıxılıp özünnən gedir. Bir könüldən min könülə vırılır bı kadına. O biri qardaşı bının yaxasına, boynuna su vırır, sürüyüp gətirir əvə, ölü halda yıxır taxdın üsdünə. Axşam dərviş gəlir, görür uşaxlar heş bının qabağına çıxmadı. Baxıf görür ki, oğlannardan biri taxtın üsdündə özünnən gedip.
Deyir:

– Mən dedim ki, dözmüyessiz? Nəyçün mənnən həçəri aldız?

Belə olannan sora Əhməd ayılır, deyir:

– İstiyir nolur-olsun, gərəh mən həmən kadını tapım.

Dərviş deyir ki, mən dəmir çarıx geyip, əlimə dəmir hasa alıp dünyanın hər yerini gəzmişəm, tapa bilməmişəm. Mən istiyirdim o qızı alım özümə, heş üzünü də görməmişəm, ancax şikilini əldə eləmişəm.

Əhməd deyir:

– Onda dur ayınnan-oyunnan, bizə nə vereysənsə ver, biz düşax yola.

Durdular, ayınnan-oyunnan, çörəhdən-yeməhdən, qızıldan, nə lazımdısa götdülər, iki qardaş qoşuldu bir-birrərinə, başladılar bütün dünyanı gəzip bı şikilin yiyəsin axtarmağa. Çox gəzənnən sora gəldilər çıxdılar bir şəhərə. Bir qarıdan soruşdular ki, belə bir Dünya Gözəlinin yerini bilmirsən (şikildəki qızın adı Dünya Gözəliydi).

Dedi:

– Hə, bala, o bizim şəhərdədi, filan padşahın bağında olur. Ora heş kim gedip-gəlməz. Orda o qız yeyib-içib, qırx injəbel qıznan gəzir.

Bullar yatıp rahatdanannan sora səhər tezdən durup geyindilər. Bı quyudan çıxan oğlan möhkəm tar çalıp oxuyanımış. Bı quyudan çıxan oğlan işıxlanmamış durup gedir, çəpərin bir gizdin yerinnən özünü salır bağa, başdıyır çalmağa-oxumağa. Nətəər oxuyursa, baxçada nəkqədər gül-bülbül varsa hamısı cəh-cəh vırır bı oğlaan səsinə. O xətər məlahətdi, o xətər yaxşı oxuyur ku, baxçada nə varıymışsa, hamısı qoşuluf ona oxuyur. Bir kəniz aftafanı götürür ki, su aparsın xanımın əl-üzünü yumax üçün. Nətəər ağzı əyilirsə bının oxumağına, elə aftafanın götü düşür havızın içinə, ama içinə su dolmur. Qaçır gedir xanımın yanına. Xanım deyir ki, bəs suyu töhginən əlimi yuyum. Görür su yoxdu. Deyir ki, aaz, bəs su hanı?

Deyir:

– Xanım, mən gördüyümü sən görsəydin heş aftafanı bıra gətirip çıxartmazdın, nə yaxşı hələ mən gəlib çıxmışam.

Deyir:

– Gedax, görüm.

Bınnar gəlmaxda, oğlan da tarı yığışdırır, çıxıp gedir qarının evinə. Gəlip görüllər ki, bəs, oğlan yoxdu. Sabah genə oğlan hə-

mən yerdə çalıp-oxuyur. Genə bir kəniz gəlip su götürəndə oğlanın oxumağına okqədər ağzı əyilir ki, aftafa da yadınnan çıxıp qalır bırda. Xanım soruşur ku, aaz, bəs su hanı?

Deyir:

– Xanım, mən gördüyümü sən görsəydin, heş özün gəlip çıxmazdın.

Genə durup gedillər, görüllər ki, oğlan yoxdu. Xanım bu işə qalır məətdəl. O biri gün xanım işıxlanmamışdan durur gəlir bağa. Bağı gəzəndə görür, bir oğlan oxuyur, okqədərə gözəldi ki, heç olmuyan kimi. Bir könüldən min könülə bı oğlana vırılır. Bı oğlana deer ki, mən atamnan ijazə alım, sən hər gejə gəlginən bizə konsert ver daa, oxuginən qızdarnan-qırx qıznan. Deyir ki, lap yaxşı. Sora boynuun dalın yalannan qaşıyr ki, yolumnan qalsam da gələrəm. Halbuki, dərdi budu elə.

Oğlan gəlir, çalıp-çağırır, oxuyur, gedəndə deyir:

–Xanım, icazə versən, mənim bir çəmadanım var. O çəmadanda mənim sınan şeylərim var, nə bilim, saza aid, tara aid, qarının da nadinc uşaxları var, sındırıp eyliyər, o çəmadanı gətirim, qoyum bırda. Havax ki, sən məni bıraxdın, gedəndə çəmadanı da apararam.

Xanım icazə verir. Bı gedir Əhmədin boyunda bir çəmadan düzəltdirir. Çəmadana içəridən açılan – bağlanan ilgəh qoydurur. Yühlüyür xanımın yatax otağına. Çalıp-çağırır, oxuyur, durup gedəndə deer:

–Xanım, can sənin, can çəmadan amanatı!

Durur, çıxır gedir. O gedənnən sora oğlan gejə yarısı ilgəyi açıp çəmadannan çıxır. Görür ki, xanım taxtda yatıp. Bir əlini qoyur taxdın sağ tərəfinə, bir əlini də qoyur taxdın sol tərəfinə, əyilir qızın sağ üzünnən öpür. Genə qayıdıf girir çəmadana. Səhər xanım durur, əl-əyağını yuyur, keçir güzgünün qabağına. Görür ki, üzünə bir xal düşüp. Tez çağırır qul-qarabaşı. Deer ki, nəyə görə, bı otağa adam buraxıbsız? Qul-qarabaş and-aman eyliyir. Hamı dəyir bir-birinə ki, nə adam-zad? Heş kim boyun olmur. Deyillər adam-zad olmuyup bırda.

Nə isə, gejə düşür, genə oğlan gəlip çalıp-çağırır. Gedəndə genə xanıma deer:

–Can sənin, can çəmadan amanatı.

Oğlan gedənnən sora genə Əhməd gejəyarı çəmadannan çıxır,

gəlir bı səfər də qızın sol üzünnən öpür. Genə girir çəmadana. Xanım səhər durup görür kü, bı səfər sol üzündə nişana var. Ona görə hirsdənir, deyir ki, ayrı çarəsi yoxdu, nə bəla varsa, bı çəmadandadı. Xanımın bir yaxın kənizi vardı, ona deer ki, sən bı sirri heş kimə aşma, gərəh gejə pusax, görax bı nə əməldi.

Xanım gətirir çeçələ barmağını yarır, için doldurur duznan, cunaynan sarıyır ki, bının yuxusu gəlməsin. Gejəyarı görür ki, çəmadan açıldı, içinnən bir oğlan çıxdı, xətti-xalına, gül camalına tamaşa elə. Bı, o birisi oğlannan da gözəldi. Oğlan əlini qoyur genə taxdın bir o tərəfinnən, bir bı tərəfinnən, qızın iki döşünün arasına əyilir. Əyiləndə qız tez əl atır oğlanın yaxasınnan tutur. Oğlan tez xəncəri çıxardır, qoyur qızın ürəyinin başına, deer:

– Səsin çıxdı, bırdan basacem o tərəfdən çıxsın. Ta onsuz da mənim qaçan yolum yoxdu.

Qız deyir ki, ta qorxma, ta o şeylərdən addıyıp. Sən mənimsən, mən sənin. Otur, söhbət eliyax.

Oturullar, söhbət eliyillər. Söhbət o yerdən gedir ki, bı oğlan nətəər eləsin ki, qızı bırdan çıxarsın. Çox götür-qoydan sora bı oğlan qıza deer ki, bilirsən nə var?

Deer :

– Nədi?

Deer ki, bir pılan cızarıx da. Artıx işıxlanmax üzrədi.

Genə oğlan durup girir çəmadana. Səhər açılır, axşam olur. Genə İsa qarının evinnən gəlir. Başdıyıllar çalıp-çağırmağa. Durup gedəndə deer:

– Xanım, can sənin, can çəmadan amanatı.

Xanım der:

– Kəs köpəyoğlu, otur aşağı.

Oğlan o sahat başa düşür ki, bırda nə isə bir hadisə baş verip. Səssiz oturur. Xanım pütün qul-qaravaşdarı yola salannan sora Əhmədi də çəmədannan çıxardır, oturullar üçü bir yerdə söhbət eliyillər. Söhbət onnan gedir ki, nejə eləsinnər ki, qızı bırdan çıxartsınnar. İsa deer ki, bının təhərini mən bilirəm. Misir patşahı elçi göndərip ki, ona gedəsən. Sən də razılıx verməmisən. İndi sən razılıx verginən ki, sən Misir patşahına gedirsən ərə. Səni gəlsinnər dəm-dəsgahnan, toynan-filannan aparsınnar. Elə ki qəbirstanlıxdan keşdin, əlii

qavzuyarsan, köş dayanar, deyərsən: "Ay camahat, Allah ölənnəriizə irəhmət eləsin, mənim irəhmətdih anam vəsiyyət eliyip ki, qızım ərə gedəndə gəlip məni ziyarət eləsin". Mən sənin anaan gümbəzində olajem. Sən gələrsən ora, gümbəzin içinə, sən paltarı çıxardıb verərsən maa, mən paltarımı çıxardıp verərəm sana. Mən gəlin adında gedərəm sənin nişanlınnan, sən qalarsan gümbəzdə. Mənim qardaşım da o qoşunun içində olajeh. Sora qardaşım gələr gümbəzə, siz ikiiz gedərsiz qarının evinə. Ordan əyənə mənim başıma nə iş gələjeh, o sorakı işdi, orda məni gözdüyərsiz.

Bı şəkildə razılaşıllar. Səhər tezdənnən qız atasına xəbər göndərir ki, mən artıx həddi-buluğa çatmışam, vaxtım keçir, qojalıram, indi Misir patşahına gedirəm.

Xəbər getdi Misir patşahına. Dəm-dəsgahnan Misir patşahının oğlu gəldi. Qırx gün, qırx gejə toy vırdılar, qıznan otdular arabıya, yola düşdülər. Getdilər, qəbristannıxdan keçəndə qız əlini qovuzdadı, kəjavə pütün dayandı, pütün qoşun dayandı. Gəldilər, qız durdu əyağa, dedi ki, ay camahat, Allah hamıızın ölənnərinə irəhmət eləsin, irəhmətdih anam öləndə vəsiyyət eliyip ki, qızım, ərə gedəndə gəlip bırda məni ziyarət eliyərsən. İndi siz məni bırda gözdüyün, mən keçim anamı ziyarat eliyim.

Hamı dedi:

–Afərin, halal olsun saa ki, sən anaan vəsiyyətin yerinə yetirirsən.

Qız sallana-sallana gəldi , getdi, girdi gümbəzə. Gümbəzdə oğlan hazırıdı, o sahat paltarın çıxartdı, verdı bına. Bı da paltarın çıxartdı verdi ona. Vallahi ki, bı Dünya Gözəli bir geyinmişdisə, bı min geyindi, min sallandı. Sallana-sallana dihdabannan gəldi otdu kəjavədə. Yola düşdülər. Gəldilər çatdılar öz məkannarına. Orda da qırx gün, qırx gejə genə toy vırıldı. Bı qaldı bırda. Bını aparanda apardılar saldılar oğlanın bajısının yanına. Bir üş-dört gün qalannan sora qaydadı ki, gəlin getməlidi, əriynən yatmalıdı, filan-bəşməkan. Bırda təzə gəlin dedi ki, bajı, bilirsən nə var? Allah ölənnərəə irəhmət eləsin, mənim irəhmətdih anam vəsiyyət eliyip ki, qızım, ərə gedəndə on gün ərinnən yatma, ərinə yaxın getmə. Onnan sora sən ərinnən yatsan, həmişə oğlun olaceh.

Dedi:

–Allah səən anaa irəhmət eləsin, çox ağıllı fikirdi.

Xəbər yayıldı oğlana da, oğlanın atasına da ki, belə.... Hələ on gün icazə yoxdu.

Bınnar bir-iki gün bir yerdə yaşıyandan sora, bir günnəri dedi ki, bajı, bilirsən nə var?

Dedi:

–Nədi?

Dedi:

–Allah ölənnərəə irəhmət eləsin, irəhmətdih anam vəsiyyət eliyərdi ki, iki möhübbətdi qız bir yerdə olsa, onnarın sirri-söhbəti, mehribançılığı ürəhdən olsa, bir toyuğu qızardıp göydən assalar, hansı əyağın vırıp toyuğu yerə yendirsə, o dönüb olar oğlan.

Dedi:

–Bajı, bınnan hasat nə var?

O sahat əmir verdilər, bir dənə toyux qavrıldı, gətdilər asdılar göydən.

Toyuğu asdılar, oğlan qız paltarındaydı, tullandı, əyağın vırdı, toyuğu saldı. Bəyin bajısı soruşdu ki, nooldu, oğlan oldun?

Dedi:

–Bajı, ta mən oğlanam.

Bınnar ikisi bırda alışdılar, verişdilər. İndi bı işin üsdü açılmamax üçün bırdan qaşmax lazımdı. Pılan cızdılar ki, nə təhər eliyəh, bırdan qaçax? Gejənin birində pütün qızıldan-gümüşdən yığdılar, dəm-dəsgah hazırladılar. Bağladılar iki ata. Atdara minip tərpəndilər. Gəldilər qarının əvinnən Əhmədnən qızı götdülər. Düşdülər yola, gəldilər bir göy çəmənnihdə uzandılar. Çox fikirrəşənnən sora hamı yatdı, bı quyudan çıxan yatmadı, gözünə yuxu getmədi. Baxdı gördü kü, iki göyərçin gəlip ağaca qondu. Biri o birinə dedi ki, ay bajı, ay bajı, bilirsən nə var? O, Dünya Gözəlidi. Dərviş min pəsdahnan istədi ki, aparsın özünə arvad eləsin, əmələ gəlmədi. İndi də bı yolnan bını aparır. Aparıp bınnarı öldürəceh. Bir quş var, bıraxajeh, bir qoçu var, buraxajeh, bıları zəhərriyip öldürəjeh.

Oğlan göyərçinnərin dilin bilirdi. Onnarın dedihlərini başa düşdü, yadında saxladı.

Durullar, atdarı minillər, gəlillər. Quyudan çıxan baxır görür ki, bının qardaşı çox bikefdi, deyir:

–Niyə bikefsən?

Deyir:

–Bikef dəyiləm.

Bir dağı aşanda görüllər ki, bir qızılquş qalxdı. Qızılquşun da ayağına dərviş zəhər sürtmüşmüş kü, gedip qona oğlanın başına, zəhərriyip öldürə. Quş qonmax isdiyəndə oğlan quşu vırdı. Əhməd soruşdu ku, qardaş, sən mənim dədəmin quşun niyə vırdın? Deyif ki, belə lazımdı.

Bir az gedənnən sora qoçu bıraxır. Dərviş qoçu da zəhərrəmişmiş ki, oğlanı zəhərriyip öldürsün. Oğlan tez qoçu öldürür. Axırı gəlip çatıllar imarata. İmarata çatan kimi İsa dərvişin başın o saat kəsir. Deyir ki, bu işin sahıbı sənsən. Kəsənnən sora Əhməd əyağın diriyir ki, gərəh bu sirdən məni agah eliyəsən. Sən bının başın niyə kəsdin? Qızılquşu niyə vırdın? Qoçu niyə öldürdün? İsa deyir ki, qardaş, mən bını saa nağıl eləsəm, axırda mən öləcəm. Gəl bu sirri mənnən soruşma. Əhməd əyağın diriyir. Axırda İsa məcbur olur, sirri başdıyır aşmağa. Deyir:

– Quşu ona göra vırdım ki, atan o quşun əyağın zəhərrəmişdi ki, səni öldürsün. Məni də elə eləmişdi.

Bını deyir, İsa dizətən olur daş. Əhməd görür, İsa oldu dizətən daş, deyir:

–Ta demə dalını.

Deyir:

–Yox, deyəcəm hamısını. Qoçu da ona görə vırdım ki, o da səni zəhərriyip öldürəceydi.

Bını deyən kimi İsa olur qurşağatan daş. Əhməd görür, İsa oldu qurşağatan daş. Yalvarır ki, ta dalını demə.

Deyir:

– Yox, deyəcəm. Dərvişin də başını ona göra kəsdim ki, kəsməseydim, sənin başını kəsəjeydi.

Deyip qurtarandan sora İsa bütöv olur sal daş, yıxılır yerə. Bınnar ağlaşıllar, başdarına– gözdarına döyüllər ki, bəs neyliyəh? Əhməd öz-özünə deyir ki, bı işdərin hamısını eliyən İsadı. Mən nə bilirdim ki, nə nədi, nətəəridi? Ona görə də gərəh mən ömrümün axırınatan çalışam, bı daşın dərmanını tapam ki, onu dirildəm. Əhməd dəmir çarıx geyip, dəmir hasa götürür, düşür bütün dünyaya, gəzir yenişə– yoxuşa, axır əmələ gəlmir. Bir gün gəlip çıxır bir

qalaçıya. Görür ki, pütün adamların hamısını bağlayıplar, qabağına alma töküblər, adamlar alma yeyir. O dedi: "Bıra nəə gəlmisən?" Bı dedi: "Bıra nəə gəlmisən?" Əhməd dedi ki, noolub? Dedilər ki, bəs bırda bir dev var, boyu bir qarışdı, səkqəli iki qarış, çatan kimi adamı tutur, səkqəlinnən bir tük çəkir, əl-əyağın bağlıyır, qabağına alma tökür. Qırx gün sayır, kökələnnən sora bir-bir yeyir. İndi səən də bizim kimi eliyəjeh. Əgər çatan kimi sən onun səkqəlinnən tutdun, tutdun, tutmadın, səə də bizim kimi eliyəjeh.

Aradan bir az keçənnən sora göy gurulduyur, şimşəh çaxır, div nərhənərnən gəlir, gələn kimi tutur Əhmədin əl-əyağın bağlıyır, başına bir kəmsih salır, bağlıyır bir yerə, deyir ki, dur bırda, qırx günnən sora vaxdın tamamdı. Bir ayrısını yeyir, çıxır gedir.

Əhmədin bir qardaşı qalmışdı əvdə, Səməd. Əhmədi dərviş aparanda o, nənəsinnən çörəhdən, ayınnan-oyunnan alıp düşür yola. Nağıl dili yüyrəh olar. Bir neçə günnən sora gəlip çıxır İsa daş olan yerə. Görür ki, iki qız var bırda. Oturup söhbət eliyillər. Oğlannan soruşur ki, kimsən, nəçisən, hara gedirsən? Sora durup gedillər yatmağa. Səməd görür ki, bı qızın biri getdi yatdı daşın yanında, o biri də bir ayrı yerdə tək yatdı. Səməd öz-özlüyündə fikirrəşir ki, bı nə olan işdi, bı nə sirdi? Səhər açılanda soruşur ki, bı işdən məni agah eliyin. Səməd qardaşına o qədər oxşuyurmuş ki, bı qızdarın qanı qaynıyır, ona deyillər ki, bəs, hal-nağıl belədi. İndi Əhməd neçə vaxdı gedip daşın dərmanını tapmağa, gəlip çıxmayıp.

Səməd qızdarnan halallaşıp düşür yola. Gəlip çıxır qalaçıya. Gəlip görür ki, qardaşın da bağlıyıplar, adamlar da bağlıdı. Bına da nağıl eliyillər ki, belə-belə. Səkqəli iki qarış, özü bir qarış gələjeh, səkqəlinnən tutmasan, əmələ gəlməz. Göy gurulduyur, şimşəh çaxır, dev gəlir. Bı, qoçax tərpənir, devin səkqəlinnən tutur, başın kəsir. Kəsənnən sora bı qalaça bütöv zür-zürüşə gəlir. Səməd çıxır yuxarı, axdarır, görür ki, bir gözəl qız var bırda, dev haradansa gətirip. Bı qız deyir ki, bəs məni də apar, məni qoyma bırda. Oğlan deyir:

– Bırda bir daş var, onu gərəh dirildəsən.

Qız razı olur.

Deyir:

– Onun dərmanı məndədi, mən onu dirildərəm.

Deyir:

– Əgər sən onu diriltsən, səni alıp özümə arvat eliyərəm.

Qızı da götürüp gəlillər həmin imarata, başdıyıllar bırda yaşamağa. Bı qıza hər gün deyillər ki, daşı dirilt. Deyir:

–Yox, vaxdı var.

Dokquz ay, dokquz gün, dokquz saat, dokquz dəqiqə, dokquz saniyə keçənnən sora Əhmədin Dünya Gözəlinnən bir oğlu olur. Uşağ olan kimi, qalaçadan gələn qız əyağın diriyir ki, uşağın başın kəsin daşın üstündə. Həm uşağın dədəsiin əli əsir, həm də nənəsinin əli əsir uşağın başın kəsmağa. Genə nənəsi özü zahı-zahı götürür öz balasıın başını daşın üsdündə kəsir. Qan tökülən kimi daş ayılır, oğlan dirilir.

## KEÇƏL NƏZƏR

Biri vardı, biri yoxdu, bir kişi varıdı. Bu kişi çox kasıp idi. Bunun evdən-eşihdən heç bir şeyi yoxudu. Bircə dəyirmanı vardı. Gejəsi-gündüzü bu dəyirmandaydı. Bunun dəyirmanının qapısında da bir dənə armud ağacı vardı. Bu armudun üsdü həmişə dolu olardı. Keçəl Nəzər səhər-səhər durub görür ki, armudu yığıplar. Deyir:

– Nə işdi, armud həmişə dolu olardı? Armudu kim yığa, mənim xəbərim olmaz?

Deyir, mən bunu izdiyəjəm, tutajam. Bir neçə dəfə izdiyir, bir şey tuta bilmir.

Bir gün bu əhvalatı başqa bir kişiyə söhbət eliyir ki, bəs mənim başıma bu cür oyun gəlip. Mənim armudumu kimsə gəlip yığır, ama mən tuta bilmirəm. Kişi bına məsləhət verir ki, getginən qır al, ərit, sürt armudun gövdəsinə. O kim olsa, nə olsa, gəlip çıxsa, armudun üstünə düşəndə yapışajax, qopa bilməyəjəh, onda tutarsan onu.

Keçəl Nəzər kişinin dediyi kimi eliyir. Gedir yatır. Səhər durub görür ki, tülkü gejə çıxıp armuda, düşəndə də düşə bilməyip, yapışıp qıra, qalıp ağajın üstündə. Deyir:

– A köpəh oğlunun tülküsü, mən səni yerdə axtarırdım, göydə tutmuşam. İndi sənin dərini dartıp boğazından çıxardajam.

Tülkü başdıyır yalvarmağa, ağlamağa. Deyir ki, bəs məni öldürmə, ömrüm boyu sənə qulluxçu olajam, nökər olajam. Axırı ki, Keçəl Nəzərin yazığı gəlir, öldürmür. Tülkü də öz andına əməl

eliyip Keçəl Nəzərnən dəyirmanda olur. Gedir kəndin qırağınnan toyuxdan-cücədən oğlurruyup gətirir, dəyirmanda bişirif yeyillər, burada yaşıyıllar.

Bir gün tülkü deyir ki, qardaş, gəlsənə, səni evləndirim. Nəzər gülür.

– Nəə gülürsən?

Deyir:

– Tülkü, sən məni ələ salırsan, nədi? Mənə kim gələr, evim yox, pulum yox, varım yox, bu dəyirmana kim gələr?

Deyir:

– Sənin işin yoxdu. Sən mənə "hə" denən, hər şey düzələr.

Bu da elə bilir ki, tülkü zarafat eliyir.

Deyir:

– Yaxşı, hə deyirəm.

Bir gün tülkü quyruğun atır belinə, düzəlir yola. Gəlir oturur padşahın elçi daşının üstündə. Padşaha xəbər gedir ki, bəs sənin elçi daşının üstündə bir dənə heyvan oturup. Padşahın adamları tülkünü padşahın yanına aparıllar. Tülkü deyir ki, bəs mən gəlmişəm padşahın kiçih qızını Nəzər padşah üçün elçiləməyə. Nəysə, tülkü okqədər tərifliyir ki, Nəzəri, burdan "hə" sözünü alannan sora sevinə-sevinə qayıdır gəlir. Yeyip-içənnən sora deyir ki, Nəzər qardaş, sənə padşahın qızını elçiləməyə getmişdim. Bəs razılığın almışam. Hazırraş,  gedəjəyih qızı gətirməyə.

Nəzər deyir:

– Əşi, sən nə danışırsan, sən məni neynəməh istiyirsən?

Deyir:

– Deyirəm ki, durginən düş mənim qabağıma, hara deyirəm ora gedəjəyih. Gedəh qızı gətirməyə.

Nəysə, çox o yan-bu yannan sora axırı Nəzərin əlajı kəsilir, durur düşür tülkünün qabağına. Gedillər bir çay qırağına. Tülkü deyir ki, Nəzər qardaş, sən otu burda-daşın üstə, məni gözlə. Mən gələrəm, bir yerdə gedərih. Mən gələnə  kimi heç yana tərpənmirsən.

Tülkü gedir padşahın sarayına. Saraya yaxınnaşanda baş-gözün yola-yola, döyə-döyə, qışqıra-qışqıra gəlir saraya. Padşahın adamları deyir ki, ay tülkü, nə  olup,  niyə özünü öldürürsən? Tülkü deyir ki, ta bunnan sora nə olajax? Bəs Nəzər padşah öz dəstə-

siynən, vəzir-vəkiliynən, qoşunuynan, cəhri-cəlalıynan gəlirdi toya, bəs quldurlar töküldülər, qırdılar, apardılar, taladılar. Ağlamışam, düşmüşəm ayaxlarına, yalvarmışam. Nəzər padşahın paltarın soyundurup aparıplar, elə lütünü almışam əlindən. Bəs gizdətmişəm yolda. Paltar verin, gedim gətirim. Deyillər, əşi, salamat qurtarıfdı, özü salamat qalsın, var-dövlət tapılar, hər şey olar.

Deməli, gətirillər bir dənə yaxşı at yəhərliyillər padşaha layix. Bir dəst ayaxdan başa qədər nə lazımdı, hamısını hazırlıyıllar, bağlıyıllar atın üstə, atın yedəyini verillər tülküyə. Tülkü deyir ki, mən özüm gedip gətirəjəm. Artıx adam lazım deyil. Şəhərdən də bir dənə dəlləh götürür, sabın alır, bir dənə də dəsmal götürüp, gəlir həmən çayın qırağına – Nəzərin yanına. Dəlləh Nəzərin başını-gözünü qırxır. Tülkü Nəzəri basır çaya, geyindirir. Padşahın libasını geyir, olur bir padşah. Nəzər mindi ata, tülkü də atın yedəyinnən tutup çəkə-çəkə götdü, gəldi padşahın sarayına. Padşahın adamları Nəzəri padşahın otağına aparıllar. Nəzər yol gələ-gələ tülkü buna bir neçə məsləhət verip deyir ki, sən bu gündən oldun Nəzər padşah ha. Olmıya-olmıya sən başqa cür hərəkət edəsən. Ağzınnan başqa bir söz-söhbət çıxmasın. Sən gərəh padşah kimi hərəkət eliyəsən, padşahnan oturacaxsan bir stulda. Sizə xörəh gələjəh. Padşah bir qaşıx götürəndə sən götürmə. İki qaşıx götürəndə sən bir qaşıx götür. Padşah sözün ikisini deyəndə sən birinə cavab ver. Ağıllı apar özünü. Yaxşı məsləhətdər verənnən sora mən yeddi fətirin yerini dolduracam. Nəzər tülkü dediyi kimi hərəkət eliyir. Ancax bir tərəfdən fikirrəşir ki, bu nə işdi, tülkü mənim başıma gətirir, bunun axırı nə olajax? Tülkü öz işində–kefində. Gedir padşahın aşpazının yanına, deyir ki, mənim ayrı qonaxlığım var. Mənə bir qazan aş lazımdı. Bir qazan xörəh aldırır, apartdırır ayrı otaxda qoydutdurur. Gəlir keçələ göz-göz eliyir, aparır ora. Qazanı qoyur qabağına, deyir ki, ye. Keçəl yeddi fətirin yerini doldurur, yeyir doyur. Tokqanın altın bərkidənnən sora durur gəlir padşahın yanına. Toy eliyir. Qırx gün, qırx gejə toy vurulur. Padşahın qızın alıllar Nəzərə-Nəzər padşaha. Toy qurtarannan sora bunları yola salıllar, qızı gətirməlidilər. Tülkü toyun qabağına düşüp oynuya-oynuya gəlir. Bir atı Nəzər minir, bir atı da gəlin arxasınca qoşur. Cəhri-cəlal. Musiqiçilər çala-çala gətirillər, yola salıllar bunnarı. Nəzər fikirrəşir ki, indi mən bunu hara aparım, dəyirmana aparım, hara aparım?

Padşah mənim dərimi soyajax. Tülkü də düşür qabağa, oynaya-oynaya gəlir bunnarın qabağına. Tülkü görür kü, qoyun sürüsü var. Çobanı çağırır ki, bəri gəl, ey çoban. Gəlir çoban, deyir ki, nolup, ay tülkü?

Deyir:

– Qoşunu görürsən, gəlir?

Çoban deyir:

– Hə, nədi, nolup?

Deyir:

– Gəlib soruşsalar bu sürü kimindi, denən Nəzər padşahın. Deməsən, sənin sürünü də əlinnən alajaxlar, özünü də öldürəjəhlər.

Deyir:

– Baş üstə, deyərih, onnan asan nə var ki?

Gedir bu sözü at otarana da deyir, donuz otarana da deyir. Bunnar da gəlip soruşanda deyillər ki, bəs Nəzər padşahındı. Nəzər də nə bilsin ki, bunu deyillər. Tülkü oynuya-oynuya gəlir ki, yeddi dənə div yay günüdü, özdərin günə veriplər. Divlərin də evləri var ki, şahın evindən də yaxşı. Varı, dövləti, qızılı, gümüşü, atdarı, nə bilim, hər şeyləri. Hə, burada bir ot tayası var. Atlar üçün ot yığıblar. Tülkü buları görür, ağlına bir şey batır ki, bunnara bir kələh gəlim, həmin qızı gətirəh bura. Bundan yaxşı yer yoxdu, Allah yetiripdi. Tülkü kənardan başdıyır qışqırır, baş-gözün yolur. Ağlıyı-ağlıya, özün döyə-döyə gəlir bunnara sarı. Divlər tez qalxırlar ayağa:

– Ay tülkü, nolup?

Tülkü deyir ki, köpəh uşağı, görmürsüz nolup? Qoşun gəlir üstünüzə. Gəlillər sizi qırmağa.

Deyillər:

– Əşi, biz neyləmişih?

Tülkü deyir ki, bilmirəm. Tez olun, qaçın gizlənin, gəlip görməsinnər sizi.

Deyillər:

– Bəs neyniyəh?

Tülkü deyir ki, girin ot tayasına, bir-birinizin üstün basdırın. Onnar elə eyliyir. Tülkü də hər tərəfdən spişkanı çəkib od vurur, yayın günü ola, quru ot ola, benzin kimi yanır. Divlər yanır, olur kül. Tülkü girir içəri, görür, yeddi divin xərci bir dənə qoşunu yola salar. Görür padşahın evinnən də yaxşı evdi bu. Arxeyinliylə

oruya-toyun qabağına gedir. Toyu çəkir gətirir bura.

Nəzər padşah fikir eliyir ki, mən neyniyim, hara aparım? Tülkü onnarı bura gətirir. Gedillər ki, hər şey hazır, yeyip-içirlər. Gələn adamlar qayıdıp gedillər. Üçü qalır burda.

Başdıyıllar burda yaşamağa. Keçəl Nəzər divin tüfəngin salır çiyninə gedir ova. Ovluyub gəlir. Nəzərnən gəlin evdə qalırlar. Gəlinin qulax yoldaşı ancax tülküdü. Heç bir şey yoxdu. Bir gün tülkü fikirrəşir ki, mən buna bu hörməti elədim. Dəyirman siçanı ola-ola gətirdim padşah elədim. İndi mən bunu yoxluyum, görüm bu yaxşılığı başa düşəjəh, ya yox.

Tülkü gəlinə deyir ki, bəs, deyəsən, mən xəstələnmişəm. Deyəsən, öləjəm, özümü pis hiss eliyirəm. Uzanır günün qabağına, özün vurur ölülüyə. Gəlin başdıyır ağlamağa. Gəlin o vaxt ağlıyır ki, uje Nəzər ovdan qayıdır, görür ki, gəlin ağlıyır. Soruşur:

– Nolup, niyə ağlıyırsan?

Deyir:

– Nə olajax bunnan artıx? Sənin nə vejinədi. Səhər çıxıp gedirsən, gününü keçirirsən, mən də qalıram burda tək-tənha. Bir dənə qulax yoldaşım o tülküydü, o da öldü. Ağlamıyım neyniyim?

Deyir:

– Əşi, öldü, öldü, cəhənnəmə ölsün, gora ölsün. Allahın heyvanıdı da, ölüb, ölüb da.

Götürür sapoxunun burnunda tulluyur zibilxanıya. Tülkü çabalıyır, qalxır əyağa.

Deyir:

– Ədə, a keçəlin biri keçəl, a dəyirman siçanı, mən səni padşah eləmişəm. Sənə padşah qızı aldım. Səni bu yerə gətirip çıxartmışam. İndi sən məni bəyənmirsən? Sapoxun burnunda aparırsan zibilxanıya, həə? İndi sapoxlu-zaddı olmusan?

Belə deyəndə Keçəl Nəzər tutulur. Ama gəlin durur ağlıya-ağlıya düzəlir yola, gəlir dədəsi evinə. Deyir ki, dəyirmançıya getmir. Belə deyəndə Keçəl Nəzər görür ki, yox, işdər şuluxdu. Bəs padşah bilsə, bunu anqırdajaxdı. Düşür tülkünün əl-ayağına, başdıyır yalvarmağa:

– Vallah, a tülkü, qələt eləmişəm, bilməmişəm, ölmüşəm, ölümü götür, günahımdan keç.

Axırı tülkü genə insafa gəlir. Gedir yarı yoldan qızı qaytarır, deyir ki, köpəyoğlu dəyirmançı döyüldü. Qaytarır, götürür gəlir. Genə başdıyıllar xoşbaxt yaşamağa. Həqiqətən, tülkü xəstələnip ölür. Keçəl Nəzər tülkünü yaxşı-yaxşı kəfənə bükdürür. Dəfn eliyir. Yaxşı münasibət eliyir ki, tülkü mənə yaxşı olup. Gəlinnən başdıyıllar xoşbəxt yaşamağa.

## TÜLKÜYNƏN DƏYİRMANÇI

Biri vardı, biri yoxdu, bir dəyirmançı vardı. Bı dəyirmançının bir dəyirmanı varıdı, bir kürkü varıdı, bir də bir çanağı varıdı. O çanaxda şahadı alırdı, fətir eliyirdi, yeyirdi. Amma dəyirmanın qapısında bir yaxşı armıd ağajı vardı. Dəyirmançı baxdı gördü ki, bı armıd günü-günnən azalır. Fikirrəşdi ki, kim gələ, kim neyliyə ki, bı armud belə azala? Dedi:

– Pusacem.

Pusdu, baxdı gördü kü, bir dənə tülküdü.

– Ə, köpoolun tülküsü, səni öldürəcem. Düş aşağı.

Dedi:

– Dəyirmançı qardaş, məni öldürmə, səni evləndirəcem.

Deyir:

– Ə, bədbaxt oğlu bədbaxt, mənim nəyim var? Maa arvat nəyə lazımdı?

Deyir:

– Yox, səni evləndirəcem.

Dəyirmançıynan tülkü bırda qardaş olsun, sizə xəbər verim bir padşahdan.

Bir padşah varıdı, bı padşahın bir qızı varıdı. Bı qıza çox yerdən müştəri gedirdi, heş kəsə vermirdilər. Tülkü bir gün getdi otdu elçi daşının üstündə. Padşahın vəzirrəri varıdı, baxdılar, gördülər elçi daşının üsdündə bir şey oturup, gəldilər:

– Kimsən?

Dedi ki, mən tülküyəm, gəlmişəm padşahın qızına elçiliyə. Ağama alacem.

– Ağan kimdi? Adı nədir?

Dedi:

– Ağam Armıd bəydi.

Dedi ki, bir belə dövləti, bir belə malı, bir belə pulu, bir belə sanı, bir belə cah-cəlalı, qoşunu.

Patşah razı oldu. Belə maslahat elədilər ki, Armıdı bəy gəlsin, patşahnan görüşsünnər.

Tülkü gəldi, dəyirmançıya dedi ki, dur, gedəceyih qızı görməyə. Dedi:

– Ə, tülkü, əvin yıxılsın sənin, mənim nəyim var, paltarım var, palazım var? Mən bir dəyirmançı adamam, paltarımda bir put unun tozu var.

Dedi:

– İşin yoxdu.

Gəldilər, bizim çay kimi qabaxlarınnan bir çay axırdı. Tülkü dedi:

– Dəyirmançı qardaş.

Dedi:

– Həə.

Dedi:

– Dəyirmançı qardaş, sən soyun paltarlarıı, ver maa. Əyağınzadın ilişər, yıxılarsan, paltarı axıdarsan.

Çayın ortasına gəldilər, qəşəh tülkü bı paltarı axıtdı çaya. Dəyirmançının paltarı axdı, lüt ana gündə qaldı. Dəyirmançı çıxdı çayın qırağına. Tülkü yüyürdü patşaha:

– Patşah, əvin yıxılsın sənin, bəs yeznən gəlirdi qızı görməyə, çayda paltarı,libası, atı,tüfəngi, tapancası– hamısı axdı.

Patşah car çəhdi, qoşun gəldi. Yığışdılar bına yaxşı at, şaşqa, paltar... Getdilər dəyirmançını geyindirdilər, düşdülər yola. Yola düşəndə bı tülkü dəyirmançıya yaxınnaşdı, dedi:

– Nəbada, nəbada üstünə baxasan, paltarına baxma!

Dəyirmançı görməmiş adamdı dana, yoxu idi, bir şalvara baxdı, bir pencəyə baxdı, bir yol belə, iki yol belə, tülkü bının yanın basdı, dedi:

– Ə, əvin yıxılsın sənin, saa nə dedim?

Bı padşah baxırdı, görür ki, yeznəsi paltara baxır. Dedi:

– Ə, tülkü, bı axı paltara çox baxır?

Dedi:

– Patşahi-aləm sağ olsun, deyir bı nə paltardı ki, mən geyinmişəm?

Deyir:

– Həə.

Yedilər, işdilər, bir neçə gün bırda qaldılar. Tülkü dedi ki, patşahi-aləm sağ olsun, mən məslahat eliyirəm ki, mənim ağamı əvələndirəsiz, toyunu eliyax, aparax.

Dedi:

– Yaxşı.

Qırx gün-qırx gejə patşah toy vırdırdı. Dəyirmançı tülkünü çəhdi qırağa, dedi:

– Əvin yıxılsın, bəs mən gəlini hara aparacem?

Dedi:

– Dinmə.

Dəyirmançı bırda qalmaxda olsun, tülkü, yeddi qardaş bir dev vardı, bı devlərin də yaxşı imaratı , dövləti, filan-bəşməkanı vardı, gəldi bı devlərə dedi:

– Salamməleküm.

– Əlekiməsalam, tülkü, xeyirdimi?

Dedi:

– Əviiz yıxılsın sizin, patşah cahi-calal çəkir, gəlir sizi qırmağa, durun!

– Bəs nətəər yanı? Biz indi neyliyax?

Dedi:

– Durun, başıızı götürün, hərəəz bir yana qaçın.

Bının içində bir ağ dev vardı, bı birəz mənim kimi yolu yeriyə bilmirdi.

Dedi:

– Mən hara girim?

Dedi:

– Gir ot təyəsinə.

Əvin böyründə ot təyəsi varıdı, girdi ot tayasına. Tülkü ibişqanı çaldı. Devi oddadı. Qayıtdı getdi patşahın yanına. Patşahın adamları dəyirmançını cah-calannan patşahın öz sərhədinə kimi gətdilər. Tülkü dedi ki, bağışdayın, sizə bir söz deyəjem. Ağamın nənəsi ölüp, heç özü eşitməsin, tör-töküntüdü, gəlin siz bırdan qayıdın geri.

Bulları qaytardılar geri. Dəyirmançı gəldi devlərin imaratına, gördü ki, vallah, bir dəm, bir dəsgah, filan-beşmakan var ki, gəl görəsən. Başdadılar bırda yeməh-işməh. Day bı dəyirmançı dedi

ki, tülkü, varım da sənsən, yoxum da sənsən.
Bı patşahın qızı tülkünü çox istiyirdi, olduxca çox istiyirdi. Tülkü bir gün özünü vırdı ölümcüllüyə, dedi ki, görüm bı kişi, bı mənim qardaşım maa baxır, baxmır?
Bı gəlin gəldi durdu tülkünün başının üstündə:
– Can tülkü, – dedi, tülküyə dil-ağız elədi.
Dəyirmançı gəldi, gördü ki, arvad tülkünün başı üstə özün didip-tökür:
– Ə, köpəh qızı, – dedi, – ölür, cəhənnəmə ölsün, quyruğunnan at, getsin əyənə.
Tülkü yerinnən qalxdı, dedi:
– Həə, dəyirmançı qardaş, mən səni tacir– patşah elədim, indi sən mənim başıma bı oyunu gətdin?
Tülkü getdi, gördü ki, devlər qəyənin dibindədi. Ajınnan hamısının boğazı üzülür. Dedi ki, bilirsiiz nə var?
Dedilər:
– Nə var?
Dedi:
– Durun gedəh, sizin əvinizdə bir gəlin var, bir də bir kişi. O kişiin öldürax, gəlin qalsın sizə.
Dedilər:
– Yaxşı.
Gətirdilər bir burğu qayirdilər. Bı burğunun bir ücün saldılar tülkünün başına, bir ücün də saldılar öz başdarına. Di yavaş– yavaş gəldilər, gördülər ki, dəyirmançı əvin balkonunda oturup. Dəyirmançı baxdı, gördü ki, tülkü üş devnən gəlir. Çağırdı:
– Ə, köpəhoğluun tülküsü, səən dədan maa yeddi dev boşduydu, üçün gətirirsən, bə bının dördü hanı?
Devlər bını eşidən kimi tülkünü çırpdılar daşa, tülkü vakqıdı:
– Yalandı!
O yana çırpdılar, vakqıdı:
– Yalandı!
Bu yana çırpdılar, vakqıdı:
– Yalandı!
Tülkünü cəhənnəmə vasil elədilər.

# OVÇU PİRİM

Bir gün Ovçu Pirim ova gedirmiş. Yolda görür ki, iki ilan bir-birinə sarılıblar. İlanların biri ağ, o birisi qaradı. Ağ ilan gözəl, qara ilan çirkiniymiş. Qara ilanı vurmax istiyir. Amma güllə ağ ilana dəyir, yaralanır. Qara ilan qaçır. İlannar Ovçu Pirimi ilannar padşahın yanına aparıllar. Yolda Ovçu Pirimə deyillər ki, padşah sənə deyəjəh mənnən nə istiyirsən, sən denə tüpür ağzıma. Ovçu Pirim əhvalatı olduğu kimi padşaha danışır. Padşah deyir ki, qara ilan mənim düşmənlərimdəndi. Mənim qızımı onun əlinnən aldığın üçün məndən nə istiyirsən? Ovçu Pirim deyir ki, tüpür ağzıma. Padşah ona deyir ki, saxlaya bilmərsən. Sora kişinin ağzına tüpürür. O vaxtdan Ovçu Pirim bütün canlılalın dilini bilir. Ovçu Pirim qayıdıb evinə gəlir. Günlərin bir günündə yaylağa köçürmüş. Madyan atını yüklüyür. Atın balası da varıymış. Yükün üstünə arvadını mindirir. Yolda getdihləri yerdə görür kü, dayça kişnədi. Ovçu Pirim görür ki, dayça deyir: "Ay ana, yavaş get, yorulmuşam". Anası cavap verir ki, ay sağ olasan, yük belimdə, bala qarnımda, biri yükün üstündə, biri də onun qujağında. Nejə olur ki, mən yorulmuram, sən yorulursan? Ovçu Pirim bu söhbətə gülür. Arvad bunu eşidir. Deyir ki, sən niyə güldün, burda heç kəs yoxdu axı. Kişi demir. Mübahisə düşür. Arvad deyir:

– Ə, əgər belədirsə, onda mən səndə oturmayajağam.

Yollarına davam eliyillər, görüllər yolun qırağında bir sürü qoyun otduyur. Ovçu Pirim görür ki, qoç bir şişəyi qovalıyır, gətirir arxın qırağına. Şişəh tullanır, qoç tullana bilmir. Baxır, baxır, deyir:

– Ağzına qaya dəysin, sən qızıl kərə şişəh olmasın, o biri qumral kərə şişəh olsun.

Ovçu Pirimə bu söz çox pis təsir eliyir. Öz-özünə deyir ki, bu heyvan mənnən ağıllı tərpəndi. Mən əl çəkə bilmirəm, heyvan əl çəkə bilir. O günnən gedir arvadının kəbinini geri oxutdurur. Arvadınnan ayrılır. Arvad iki körpə uşağıynan qalır. Ovçu Pirim böyüh oğlunu özünnən götürür. Bu Allaha xoş gəlmir.

Ovçu Pirim bir gün ova gedir. Oğlunu da özüylə aparır. Bir dağ keçisi vurur. Hava çox dumanlı, yağışlı olur. Ojax qalıyıb bir az ət bişirib yeyillər. Sora deyir ki, oğul, sən burda gözdə, gedim, bəlkə ov düşdü. Ovçu Pirim gedən kimi uşağı yuxu tutur, durur keçinin

dərisininin içinə girir. Qayanın dibində yatır. Ovçu Pirim hərlənib qayıdanda görür ki, qayanın dibində bir heyvan yatır. Ona güllə atır, uşax ölür. Ovçu Pirim çox peşman olur. Öz-özünə bir söz qoşur:

Kəhlik daşa dağıldı,
Səhdi daşa dağıldı,
Ovçu Pirim öz balasın vurdu,
Qanı daşa dağıldı.

O günnən Ovçu Pirim ovçuluğu atıp. Gəlir ayləsiynən barışır.

## İTİN PAYI

Bir gün Avçı Pirim həm kasıfın, həm də varrının evinə qonax gedir ki, görsün necə hörmət eliyəcəhlər?

Siftə varrının evinə qonax gedir.

Deyir ki, məni qonax istiyirsız? Deyillər ki, niyə qonax istəmirih, Avçı Pirim, nə yaxşı gəldin? Qarşılıyıllar bını. İndi kişiynən arvad qalıb məhəttəl ki, neynəsinnər, Avçı Pirimə nə kəssinnər.

Kişi deyir ki, qoyunu kəssəm, quzu məliyəcəh, quzunu kəssəm, qoyun məliyəcəh.

Sora deyillər ki, gətirəh pişiyi kəsəh. Pişiyi gətirib kəsillər. Soyub aşın altına qoyullar. Sora diricə qoyullar Avçı Pirimin qavağına. Avçı Pirim bilir haa pişiyi kəsiflər. Sora əlini belə eliyif (göstərir)deyir: "Allahın heyvanı, dur çıx bırdan get". Pişih axsırır, aşı teyxa dağıda-dağıda qaçır. Ev yəələri utanıllar, bilmillər ki, neyləsinnər. Avçı Pirim deyir ki, kişi, malın mar olsun, dağlara sirr olsun. Sən bir həylə mal-heyvannan qıyıf maa kəsmədin. Çıxıb gedir.

Ev yəəsi səhərisi tezdənnən duruf görür ki, malı, heyvanı açılıb çıxıb gedib. Gediblər dağlara sirr oluflar. Avçı Pirimin dediyi söz görürsən də nətər olub?

Sora gedir bir kasıbın evinə. Bir naxırçı varıymış. Qoyun otarırmış. Gedir onnarın evinə. Avçı Pirimi yaxşı qarşılıyıllar.

Kişi tez əlbəhəl gedir qoyunu gətirib başın kəsir. Avçı Pirimə yaxşı aş bişirillər, qoyullar aşın altına. Bir qab qoyullar məjmeyiynən Avçı Pirimin qavağına. Avçı Pirim dil bilirmiş. Görür ki, it qəpidə uluyur. Əənədə kişinin sürüsü varımış, o tərəfdə. Ordan da bir qurd uluyur ki, indi yaxşı olub elə. Avçı Pirim bı kişinin başın qatacax, mən də yaxşı qoyunnardan yeyəcəm.

İt də bırdan uluyur ki, bı Avçı Pirimə yaxşı aş bişiriflər. Əyər o aşdan siftə gətirif maa versələr, mən gəlib səni boğub öldürüb, başımı da qoyub sənin üstünə yatacam. Avçı Pirim aşı məjmeyidə aparıb diricə qoyur itin qabağına. Ev yəəsi, deyir ki, itə özümüz verəcəyih da. Avçı Pirim deyir ki, indi maa nə gətirirsiz, gətirin onu yəəciyəm.

Yeyib içənnən sora kişi deyir ki, indi mən gedim heyvanın yanına da. Qurd-zad gələr heyvanı aparar.

Avçı Pirim deyir ki, a kişi, getmə, arxayın ol. Bir heyvanın əysih olsa mən verərəm. Kişini qoymur getsin. Yatıllar. Səhər durub gedillər. Görüllər ki, gedib canavarı boğub öldürüb. Başını da qoyub üstündə yatıb. Bir heyvan da əysih dəyil. Avçı Pirim görür ki, bir qoyun məliyir ki, mən yüz balanın anası olacam. Ama cüt-cüt gətirir da, ekiz.

Naxırçı deyir ki, ay Avçı Pirim, gəlginə bı qoyunnardan hansın seçib-götürürsən götür.

Avçı Pirim məliyən qoyunu götürüb gedir.

## PADŞAHLA BALIQÇI

Bir qoca balıqçı vardı. Bir gün bu balıqçının toruna elə bir balıq düşdü ki, ömründə beləsini görməmişdi. Balığı gətirdi evə, dedi:

– Arvad, gəlsənə bu gözəl balığı qoyam məcməyiyə, aparam padşaha. Bəlkə padşahın xoşuna gələ, bizə bir  şey bağışlıya.

Arvad dedi:

– Nə deyirəm, a kişi, aparırsan, apar.

Kişi balığı qoydu məcməyiyə, üstünü bəzədi-düzədi, apardı padşaha, dedi:

– Qibleyi-aləm sağ olsun, gözəl bir balıx tutmuşam. Gör xoşuna gəlirmi?

Padşah gördü, doğrudan da, gözəl balıxdı, dedi:

– Qoy xanımı çağırım, görüm xanımın da xoşuna gəlirmi?

Xanım gəldi, baxdı, dedi:

– Bəh-bəh, əcəb balıxdı! Dünyada nə gözəl şeylər olurmuş!

Padşah dedi:

– Xanım, indi biz bu balıxçıya nə bağışlıyax?

Xanım  dedi:

– Əvvəlcə qoy bu kişi desin görəh bu balıx erkəhdi, ya dişi? Erkəhdisə, naməhrəmdi, yeyə bilmərəm, dişidisə, məhrəmdi, yeyərəm.

Padşah üzünü tutdu balıxçıya:

– Qoca, nə deyirsən?

Balıxçı dedi:

– Qibleyi-aləm sağ olsun, mənim işim tor atıb, balıx tutmaxdı. Mən yazıx hardan bilim balıx erkəhdi, ya dişi?

Padşah qəzəbləndi:

– Bilməsən boynunu vurduracam.

Balıxçı dedi:

– Padşah sağ olsun, mən balığı gətirdim ənam alam, gətirmədim özümü zülmə salam.

Padşah dedi:

– Bilmirəm, sənə qırx gün möhlət verirəm, sualın cavabını tapmasan, bəxtinnən küs.

Qoca kor-peşman padşahın yanınnan çıxdı, düşdü yola. Bir çoban dağın döşündə qoyun otarırdı. Gördü bir qoca kişi gəlir, yeriməyə halı yoxdu.

– Qoca, hardan gəlib, hara gedirsən?

– Oğul, mən bir dərdə düşmüşəm, soruşmasan yaxşıdı.

– A kişi, de görəh o nə dərddi elə?

Qoca açdı dərdini danışdı.

Çoban dedi:

– Rəhmətliyin oğlu, bunnan ötrü özünü niyə öldürürsən? O dərdin çarəsi məndə.

Çoban bir qara qoyunu sağdı, doğramac elədi, qoydu qocanın qabağına, dedi:

– Ye.

Qoca yedi, cana gəldi. Çoban sürünü qatdı qabağına, apardı kəndə, dedi:

– Ay camaat, gəlin qoyununuza yiyə durun, mən gedər-gəlməzə gedirəm.

Çoban balıxçını apardı, evdə rahatdadı. Səhər durdu, dedi:

– İndi gedəh padşahın yanına. Padşaha de ki, bu mənim oğlumdu, balığın erkəh-dişiliyini bu bilir.

Razılaşdılar, getdilər padşahın yanına. Padşah dedi:

– Qoca, sualın cavabını tapdın?
Balıxçı dedi:
– Padşah sağ olsun, sualın cavabını oğlum bilir, deyəcəh.
Padşah dedi:
– Yaxşı, desin görəh.
Çoban dedi:
– Yox, gərəh kağız yazıb, möhür basasan ki, sualın cavabını düz tapsam, mənə ənam verəcəhsən.
Padşah kağız yazdı, möhür basdı. Çoban dedi:
– Biri varıydı, biri yoxuydu, bir padşah varıydı. Bu padşahın bir quşu varıydı. Padşah bu quşu götürüb ova gedərdi. Bir gün yenə ova getmişdi. Quşu buraxdı göyə. Quş getdi, bir kəkliyi vurdu, saldı yerə. Padşah kəkliyin dalınca yüyürdü. Kəkliyi bir kolun dibinnən tapdı. Qayıdanda gördü susuzluxdan ciyəri yanır. Axtardı, çınqıllıxdan bir nəmişlih tapdı. Çınqılı eşələdi, bir çala düzəltdi. Gözlədi, gözlədi, çala suynan doldu. Ovcunu doldurdu ki, su içsin, quş şığıyıb qanadıyla vurdu suyu tökdü yerə. Padşah qəzəbləndi, dedi: "Köpəyoğlunun quşu, bir kəklihdən ötrü məni düzlərə saldın, indi də vurub suyumu tökürsən?"
Quşun başını üzdü, atdı yerə. Sonra fikirləşdi, dedi: "Əə, bəlkə bu suda bir əngəl var? Quş nahax yerə suyu vurub yerə tökməzdi axı".
Padşah bir az getdi, gördü bir əjdaha ölüb, bu əjdahanın zəhəri axıb qarışır suya. Padşah iki əlini vurdu dizinə, dedi: "Boynun sınsın, canım, heç belə quşu da öldürərdilər? Yazıx məni ölümdən qutarıbmış".
Çoban bu nağılı danışdı, dedi:
– Qibleyi-aləm, gəlsənə balığın erkəh-dişilyini öyrənməhdən əl çəkəsən, yoxsa quşu öldürən padşah kimi, sən də peşman olarsan.
Padşah dedi:
– Mənə qəzəl oxuma. De görüm balıx erkəhdi, dişidi?
Çoban dedi:
– Padşah sağ olsun, onda bir nağıl da danışım, sonra balığın erkəh-dişiliyini deyərəm.
Padşah dedi:
– Yaxşı, danış görəh.
Çoban dedi:

– Bir padşah qızılquş saxlıyırdı. Bir gün bu padşah qızılquşu əlində tutdu, dedi: "Köpəyoğlunun quşu, gözəl quşsan, amma layiqli bir şey gətirə bilmədin".

Quş uçub getdi. Bu gün quş gələr, sabah quş gələr, aradan yeddi gün keçdi. Yeddi günnən sonra quş gəlib çıxdı. Dimdiyində bir dənə toxum gətirdi, qoydu padşahın ovcuna. Padşah bir şey anlıya bilmədi. Vəziri çağırdı, dedi:

– Vəzir, quş gedib bir dənə toxum gətirib, bilmirəm nə toxumudu?

Vəzir dedi:

– Qibleyi-aləm, bu meyvə toxumudu, amma bilmirəm hansı meyvənin toxumudu?

Padşah dedi:

– Onda bağbanı çağırax, görəh bağban nə deyir.

Bağbanı çağırdılar, toxumu göstərdilər. Bağban dedi:

– Bu, alma toxumudu. Amma necə almadı, dadlıdı, dadsızdı deyə bilmərəm. Gərəh bu almanı əkib-becərəsən, sonra biləsən necə almadı.

Padşah dedi:

– Yaxşı, apar, ək-becər, görəh necə almadı?

Bağban toxumu əkdi. Toxum cücərdi, ağac oldu, ağac çiçəkləndi, iki alma gətirdi. Bağban getdi padşahın yanına, dedi:

– Padşah sağ olsun, quş gətirən toxumu əkmişəm, yaxşı bir ağac olub, o ağac yaxşı bir alma gətirib.

Bağban almanın birini dandı. Fikirləşdi ki, baxsın, görsün necə almadı.

Padşah dedi:

– Get almanı gətir, baxax.

Vəzir padşahın yanındaydı, bu söhbəti o da eşitdi. Bağban gedib almanı gətirincə vəzir qaçdı bazardan gözəl bir alma aldı. Səmmi qafil deyilən zəhərlə bu almanı zəhərlədi, qoydu cibinə. Gördü, budu, bağban bir məcməyini bəzəyib, almanı qoyub məcməyiyə, padşaha aparır, dedi:

– Bağban, hara gedirsən?

Bağban dedi:

– Vəzir sağ olsun, almanı aparıram padşaha.

Vəzir dedi:

– Ver almanı burda saxlayım, sən keç içəri, xəbər al, gör almanı nə vaxt aparmalısan. Bəlkə padşahın vacib işi var, deyəcəh, almanı indi gətirmə, sonra gətir. Desə indi gətir, gəl apar.

Vəzirin sözü bağbanın ağlına batdı. Məcməyini verdi vəzirə, getdi padşahın yanına. Bağban gedən kimi vəzir tez məcməyidəki almanı götürdü qoydu cibinə, cibindəki almanı qoydu məcməyiyə.

Bağban getdi padşahdan soruşdu ki, padşah sağ olsun, almanı gətirim?

Padşah dedi:

– A kişi, hələ bir soruşursan da? Tez elə, gətir.

Bağban qayıtdı, məcməyini vəzirdən alıb padşaha gətirdi. Padşah məcməyinin örtüyünü qaldırdı, dedi:

– Bəh-bəh, nə gözəl almadı!

Vəzir-vəkil də dedi:

– Gözəl almadı.

Padşah dedi:

– Vəzir, bu almadan adama bir az dadax, görəh nə dad verir?

Vəzir gördü iş xarabdı, dedi:

– Qibleyi-aləm, quş gətirib, nə bilməh olar necə almadı. Yaxşısı budu ki, qabaxca pişiyə yedirdəh, sonra özümüz yeyərih.

Padşah dedi:

– Ağıllı sözdü. Gedin bir pişih gətirin.

Getdilər, bir pişih tutub gətirdilər. Almadan bir dilim kəsib pişiyə yedirtdilər. Bir dəqiqə çəkmədi, pişih partlıyıb öldü. Qan vurdu padşahın beyninə, dedi:

– Qızılquşu gətirin!

Qızılquşu gətirdilər. Padşah tutdu quşun xirtdəyinnən, çəhdi, başını üzdü, atdı yerə, dedi:

– Körpəyoğlunun quşu, gedib zəhərli alma toxumunu gətiribsən ki, məni öldürəsən?

Bağban işi belə görüb qaçdı evlərinə. Arvad dedi:

– A kişi, bu nə sir-sifətdi? Rəngin niyə qaçıb?

Bağban dedi:

– Arvad, alma zəhərli almaymış, padşahın əlinnən qaçmışam.

Arvad dedi:

– A kişi, padşah aparar camaatın içində səni öldürər, biabır ola-

rıx. Gətir o almanı kəs, bir az sən ye, bir az da mən yeyim, öləh, canımız qutarsın.

Kişi gətirdi, almanı kəsdi, yarısını arvada verdi, yarısını da özü yedi. Arvad oldu on beş yaşında cavan bir qız, kişi də oldu on beş yaşında cavan bir oğlan.

Padşah adam göndərdi ki, gedin bağbanı gətirin bura, görüm bu nə kələhdi mənim başıma açdı?

Gəldilər, çağırdılar:

– Bağban, bağban!

Bağban dedi:

– Bəli.

Baxdılar, gördülər on beş yaşında cavan bir oğlandı. Dedilər:

– Oğlan, sənnən deyilih. Bağbanı çağırırıx.

Bağban dedi:

– Bağban mənəm.

Bu çox dedi, padşahın adamları az eşitdi, dedilər:

– Ay oğlan, sən nə danışırsan? Bağban qoca bir kişiydi axı.

Bağban dedi:

– Gedin padşaha deyin, o qoca kişi on beş yaşında bir oğlan olub.

Padşah başa düşdü ki, burda bir sirr var, dedi:

– Gedin o oğlanı gətirin bura.

Getdilər oğlanı gətirdilər. Padşah dedi:

– Sən bağbansansa, bir məni başa sal görüm, bu nə sirdi? Sən nətəhər dönüb cavan oğlan olubsan?

Bağban dedi:

– Padşah sağ olsun, o ağac bir yox, iki alma gətirmişdi. Birini sənə verdim, birini özümə saxladım. Almanı sənə verəndə pişiyə yedirtdin, pişih öldü. Dedim, məni də öldürəssən, qaçdım-getdim o biri almanı yedim ki, öləm, canım qurtara, camaat içində öldürüb məni biabır eləməyəsən. Almanın yarısını özüm yedim, yarısını arvada verdim. Mən oldum cavan bir oğlan, arvad oldu cavan bir qız.

Padşah dedi:

– Sən bağbansansa, onda de görəh bir toxumdan iki cür alma əmələ gələrmi?

Bağban dedi:

– Padşah sağ olsun, elə mən də ona məətdəl qalmışam.

Padşah dedi:
– Bəlkə almanı dəyişdirmisən?
Bağban dedi:
– Mən dəyişdirməmişəm. Dəyişdiribsə, vəzir dəyişdirib.
Padşah dedi:
– Sən nə danışırsan? Necə yəni vəzir dəyişdirib?
Bağban dedi:
– Padşah sağ olsun, mən almanı gətirəndə vəzir dedi, almanı qoy bura, get padşaha xəbər elə ki, almanı gətirmişəm. Mən də almanı vəzirin yanında qoydum, gəldim sənin yanına. Mən qayıdınca neylədisə, vəzir elədi.
Padşah vəzirin cibini axtardı, gördü alma vəzirin cibindədi. Almanı yedi, oldu on beş yaşında cavan bir oğlan, dedi: "Ay dadi-bidad, adam da elə quşu öldürərdimi?" Padşah  qılıncı çəhdi, vəziri cəhənnəmə vasil elədi.
Çoban nağılı danışıb qutardı, dedi:
– Padşah sağ olsun, gəl bu sevdadan əl çəh, balığın erkəh-dişiliyini soruşma, qızılquşu öldürən padşah kimi sən də peşman olarsan.
Padşah dedi:
– Mənə qəzəl oxuma. De görüm, balıx erkəhdi, ya dişi?
Çoban dedi:
– Onda gedəh sarayın zirzəmisinə, bu sualın cavabı ordadı.
Gəldilər zirzəminin qapısına. Çoban dedi:
– Qibleyi-aləm, əmr elə zirzəminin qapısını açsınlar.
Padşahın arvadı yeridi irəli, dedi:
– Əə, bayaxdan boş-boş çərənliyirsən, indi də dağ boyda kişini sürüyüb zirzəmiyə salırsan?
Çoban dedi:
– Qibleyi-aləm, xanıma de, aralı dursun, xanım çox gözəl bilir ki, balığın erkəh-dişiliyi zirzəmidədi.
Padşah xanımı bir qırağa itələdi, zirzəminin qapısını açdırdı. Gördü burda bir dəm-dəsgah var, gəl görəsən. Qırx bığıburma oğlan oturub gəbənin üstündə, qabaxlarında da yeməh-içməh.
Çoban dedi:
– Qibleyi-aləm, nətəhər olur, xanım bu qırx bığıburmanı özünə məhrəm bilir, amma Allahın balığını naməhrəm?

Padşah işi başa düşüb arvadını öldürtdü. Balıxçıyla çobana da ənam verib yola saldı.

## MƏHƏMMƏDLƏ PƏRİ

Keşmiş zamannarda bir padşah yaşarmış. Bu padşahın varı – dövləti hədadan çıxmışmış, ancax övladı olmurmuş. Vəziri də istəmirmiş ki, bunun övladı olsun. İstiyirmiş ki, var-dövləti qalsın vəzirə.

Bir gün padşah öz vəziriynən çıxıllar ova. Görüllər ki, bir xarabalıxda iki bayquş oturup. Bayquşdar nəysə bir-biriynən danışıllar.

Bayquşun biri deyir ki, sən qızını ver mənim oğluma. O birisi də deyir ki, bəs sən nə verərsən, mən qızımı verəm sənin oğluna? Deyir ki, sənə əlli dənə xarabalıx verirəm. Deyir ki, bəs sən əlli dənə xarabalığı hardan alarsan?

– Nə qədəri bizim bu padşahımız var, əlli dənə yox, yüz dənə belə xarabalıxlar olacax. Onun fikrini eləmə.

Nəysə, bunnar qayıdır gəlillər. Padşah deyir ki, mən gərəh bu zülümkarlıxdan əl çəkim. Camaatın hörmətini qazanmalıyam. Padşah camaatı yığır, ənam-zad paylıyır. Hamı alqış eləıməyə başlıyır.

Padşah bir gün gedir, o vaxtın biliciləri olurmuş, oların yanına ki, bəs mən neyniyim, mənim övladım olmur.

Bilici deyir ki, getginən camaata yaxşı ənam payla, camaata yeməh-içməh payla, qoy camaat razı qalsın, üzün tutsunnar Allaha ki, ay Allah, bizim padşahımız düz yola qayıtdı, buna bir övlad ver. Onda allah-taala bəlkə camaatın bu alqışını nəzərə ala, sənə bir dənə övlad bəxş eliyə. Padşah bu cür də gəlir eliyir. Hamı padşahdan razı qalır. Allaha yalvarır ki, ona bir övlad versin.

Allah bundan razı olur. Padşaha bir övlad bəxş eyliyir. Vaxt tamam olur. Onun bir cüt uşağı olur. Deyillər ki, padşah muştuluq versin, onun bir cüt övladı olup: biri qız, biri oğlan. Patşah muştulux paylıyır. Hamı sevinir.

Ancax padşahın vəziri istəmirmiş ki, bunun övladı olsun. Vəzir istəyirmiş ki, padşahın varı, dövləti qalsın bına. Ona görə də vəzir gedir, qarı olur, o vaxt küp qarısı deyirmişdər, qarının yanına, deyir:

– Sən gərəh bu uşaxları itirəsən.

Qarıya qızıl verir. Qızılı görən kimi qarının gözdəri işıxlanır.

Deyir ki, qarı nənə sənə qurban, arxeyin ol. O uşaxları elə itirjəm

ki, heç tapmasınnar. Ancax sən get, mənə bir dənə yeşiy düzəltdir gətir. Uşaxları qoyup içinə aparax.

Vəzir qarının dediyi kimi eliyir. Yeşiyi götürür gəlir, verir qarıya. Qarı gedir. Uşaxları oğurruyur, qoyur yeşiyin içinə. Sora arvadın yanına bir cüt it küçüyü qoyur. Gedir vəzirə deyir:

– Vəzir, yeşiyin ağzın yaxşı-yaxşı bağla, içinə su-zad getməsin. Apar, at filan çaya.

Vəzir elə eliyir. Yeşiyi atır çaya. Padşaha xəbər gedir ki, padşah sağ olsun, sənin arvadın bir cüt it küçüyü doğup. Padşah qalır məətdəl. Deyir ki, bəs bu nə işdi? Deyir ki, gedin onu darvazadan asın, qoyun gəlip-gedən tüpürsün. Elə də eliyillər. Ancax padşah şübhəli qalır. Əlaltı axtarmaxda olur.

İndi görəh uşaxlar nejoldu. Uşaxları çay aparır salır bir dəyirman arxına. Dəyirmana sü tökülən yer olur, nov deyillər, qalır onun başında. Dəyirmançı görür ki, su kəsildi. Çıxıp baxır ki, bir yeşih suyun qabağını kəsip. Yeşiyi gətirip açır. Görür ki, içində bir cüt uşax var. Sevindiyindən az qalır ki, göyə uşsun. Dəyirmançının da övladı yoxuymuş. Bir arvadı, bir də özüymüş. Sevinə-sevinə uşaxları götürüp qaçır evə. Arvadını muştuluxluyur ki, Allah bizə övlad yetirip. Uşaxları köynəyinnən keçirir.

Başdıyır uşaxları saxlamağa. Uşaxlar yavaş-yavaş böyüyüllər, məktəbə gedillər. Hə, məktəbə gedən vaxtı yolda uşaxlar zarafatlaşıllar, dalaşıllar. Qızın adın Pəri, oğlanın adın isə Məhəmməd qoyullar. Uşaxlar Məhəmmədə lağ eliyillər. Deyillər ki, sənin atan, anan yoxdu, səni dəyirmançı tapıp, dəyirmanın arxından tapıblar. Məhəmməd çox ajıxlanır, gəlillər evə. Başdıyır ağlamağa ki, düzünü deyin görüm, bizi tapmısız? Bunnar nəkqədər eliyillər, ancax Məhəmmədi inandıra bilmirlər. Axırı ki, bajısın da götürüb gedir.

Gəlirlər bir çölü-biyabanlıx yerdə bir qalaça var, orda Məhəmməd bajısına deyir ki, sən gözlə, mən görüm o qalaçada kim vardı. Gəlir, içəri girir, görür, heç kəs yoxdu. Girir tövləyə. Görür burda at bağlanıp. At bını görən kimi ağlıyır. At yel atı olur, qara olur, göynən uçan qabiliyyət olur onda.

At deyir:

– Məhəmməd, səni Allah yetiribdi, gəl mənə sahiblih elə. Mən neçə vaxtdı ki, ajam, bu evin sahibi düşübdü təhlükəyə, məhv

olub gedibdi, mənə baxan yoxdu.

Məhəmməd ata yem gətirip tökür. Gedip bajısını da götürüp gəlir. Başdıyıllar burda yaşamağa. Görür var-dövlət, hər-şey var, ancax sahibi yoxdu bunun, sahiblih eləməh lazımdı. Məhəmməd ova gedir. Bajısı da ev işləriynən məşğul olur. Ata da baxıllar.

Padşah köç eliyərmiş bir ay bir yerdə, o biri ay o biri yerdə. Bir gün də köç eliyir, bunnar tərəfə gəlir. Görür gözəl bir dənə bağdı. Xoşuna gəlir, deyir: "Elə burada düşəh". Düşürlər, burda çadırların-zadın qurur-eliyillər. Pəri xanım onnara xoş gəldin eliyir, görüşür. Sora axşam Məhəmməd ovdan qayıdır. Ovdan qayıdanda bajısı onu həmişə qarşıylıyarmış. Deyir ki, bəs Məhəmməd, padşah bizim qonağımızdı. Ovunu apar onun qabağına qoy, baş əy, görüş onnan. Məhəmməd də eyniylə eliyir. Xoş gəldin deyir. Padşah görür kü, bu oğlan o qədər gözəldi ki, elə bil padşahnan bir almadı, bölünüp. Bunu vəzir də hiss eliyir. Padşah oğlana sual verir ki, ay oğul, sənin əsil-nəcabətin kimdi? Deyir ki, padşah sağ olsun, dəyirmançı. Dəyirmançı deyəndə padşahın əl-ayağı soyuyur. Amma vəzir barmağını dişdiyir. Vəzir bilir ki, həmən uşaxlardı.

Hə, vəzir durmadan burdan qaçır qarının yanına. Deyir ki, qarı nənə, uşaxlar sağdı, filan yerdədi. Bəs amanın günüdü, neynirsən, eylə. Yoxsa padşah bilsə, məni dar ağajından asajax. Hə, qarı deyir ki, arxayın ol. Genə qarıya qızıldan-zaddan verir. Qarı deyir ki, arxayın ol. Gedip onu elə yerə göndərərəm ki, gedər, qayıtmaz. Qarı gəlir, o vaxt gəlir ki, Məhəmməd ovda olur. Pəri tək olur evdə. Görür ki, bir qarıdı, gəldi evinə, həyətinə. Deyir:

– Ay qarı nənə, gəl, gəl otur, söhbət eliyəh, təkəm, darıxıram.

Deyir ki, yox, qarı nənə sənə qurban, köçümüz gedir, qala bilmərəm. Qardaşına deynən ki, aralı dağda bir quş var, oxuyan quş, getsin onu gətirsin, o oxusun, sən də darıxma. Sənə qulax yoldaşı olar. Hə, qarı deyip oradan çıxır ki, qardaşı birdən öldürər-eliyər onu. Hə, qarı qaçır. Qarı qaçandan sora axşam olur, Məhəmməd ovdan qayıdır gəlir. Padşah da köç eliyif gedir. Bajısı deyir ki, qardaş, bəs bir nənə gəlmişdi, deyir ki, filan dağda belənçi bir quş var. Qardaşın getsin, gətisin, oxusun, sən darıxma. Məhəmməd deyir ki, ay bajı, nolar, gedərih, gətirərih, gətirərih, gətirəmmərih də, gətirəmmərih. Məhəmməd ata yem aparır, görür ki, at da ağlıyır. Deyir:

– Ay allahın heyvanı, sənə nə olup?

At deyir ki, ay Məhəmməd, bajın bizi elə yerə göndərir ki, ora çox çətin yoldu. Bu evin sahibi də həmən yolda məhv olup gedipdi. Deyir:

– Ağlama, gedərih, gətirə billih, gətirərih, gətirə bilmərihsə gətirmərih, da neyniyəh.

At deyir:

– Məhəmməd, onda səhər tezdən durarsan, məni yəhərlərsən, minərsən. Mən uçajıyam göynən, üstümdə bərh durarsan. O bir böyüh bağdı. İçində də bir böyüh qalaçadı, binadı. O hasarın çöl tərəfində yatajam. Sən gərəh hasarı aşasan. Quş ağajın üstündə oturup, arxası biz tərəfə, üzü bağa oxuyur. Sən gərəh quşun bir tükünü çəkəsən, özünü mənim üstümə salasan. Əgər bunu eliyə bildin, bəlkə mən səni qutaram, eliyə bilmədin, ta baxtınnan küs.

Deyir:

– Allaha pənah.

Səhər Məhəmməd durur, atı yəhərrəyir, minir, düşüllər yola. At göynən uçur, gəlir həmən hasarın dibinə düşür, yatır. Məhəmməd hasarı aşır, görür ki, quş ağajın üstündə oturub oxuyur. Quşun bir tükünü çəkir, özünü atır atın üstünə. At da qalxır göyə, Məhəmmədə deyir: "Möhkəm tut". Göy gurulduyur, yağış yağır, dolu tökülür, nərilti-gurultu, bunnar gəlillər. – "Ay aparır, qoymayın, ay tutun, apardı, qoymayın apardı". Bunnar sağ-salamat çatıllar evə. Gəlip görüllər ki, o quş da bunnardan qabax gəlip. Ağajı da gəlip. Ağajın üstündə bunnarın qapısında oxuyur. Hə, bajısı sevinə-sevinə qaçır bunnarın qabağına. Ay qurban olum, ay qardaş, nə yaxşı oldu.

Məhəmməd deyir:

– Bajı, indi razı oldun?

Pəri deyir ki, elə razıyam.

Gəlir, atı aparıp rahatdıyır, yemliyir, qayıdır gəlir.

Genə Məhəmməd ova gedərmiş. Bajısı da evdə qalarmış, quş da oxuyarmış. Bir gün bura padşah yenə köç eliyir. Çünki qan çəkir axı. Hə, qan çəkir.

Padşah da gəlir, görür burda gözəl quş oxuyur. Hə, bir əz də padşah şənnənir, xoşuna gəlir. Məhəmməd gəlir, baş əyir, xoş gəldin eliyir, ovun qoyur onun qabağına. Padşah genə sual verir ki, oğul, əsl-nəjabətin? Məhəmməd deyir ki, dəyirmançı. Padşah qalır belə.

Vəzir genə eşidir bunu. Padşah bir müddət qalannan sora genə köç eliyip gedir. Vəzir genə gedir qarının yanına, deyir:

– Ay qarı nənə, amandı.

Qarı deyir ki, bəs mən onu belə bir yerə göndərmişdim. Vəzir deyir ki, gedip də, gəlip də. Quşu da gətirip. Quş da oxuyur. Qarı deyir:

– Arxeyin ol, bu səfər gedər, gəlməz.

Qarı genə küpünü minip gəlir. Məhəmməd genə ovda olur. Qarı çağırır:

– Ay qızım, ay qızım.

Pəri çıxır:

– Ay qarı nənə, saa qurban olum, sən nə yaxşı gəldin.

Deyir:

– Nejədi qardaşın gətdiyi quş? Xoşuna gəlir?

Deyir:

– Elə yaxşıdı, elə yaxşıdı. Sənə qurban olum, sən allah, gəl. Gəl mənnən qal burda.

Deyir:

– Yox, köçümüz gedir, tələsirəm, qala bilmərəm, qardaşına deynən ki, o quşun sahibin də gətirsin.

Hə, deyir, qarı qaçır aradan çıxır. Axşam olur, Məhmməd genə ovdan gəlir. Görür bajısı bekefliyif.

Deyir:

– Ay bajı, niyə bekefləmisən? Nədi dərdin?

Deyir:

– Bəs qarı nənə gəlmişdi. Deyir ki, getsin o quşun sahibi qırxsaçlı qız var, onu da gətirsin, sənə də burda qulax yoldaşı olar, sən də darıxmazsan. Yaşayarsız bir yerdə.

Deyir:

– Ondan ötəri bekef oturursan. Gedərəm, gətirə bilsəm, gətirrəm.

Gedir tavlıya, görür ki, at da bikefliyif.

Deyir:

– Allahın heyvanı, nolup?

Atın gözdərin silir, atı yemliyir. At deyir:

– Ey Məhəmməd, bilirsən, sən özün gördün ki, bu yol nejə çətin yoldu. Bu evin sahibi də həmən qızı gətirə bilmiyifdi. O yolda

məhv oldu, alışıp yandı.

Deyir:

– Eybi yoxdu, Allaha pənah, gedərih.

At deyir ki, hə, səhər minərsən məni. Biz həmən yolu gedəjiyih, möhkəm durarsan üstümdə. Gedip mən hasarın genə çöl tərəfində yatajıyam. Sən hasarı keçərsən, girərsən qırx dənə otaxdı içəridən-içəri. Gedərsən, görərsən otaxların birində qırx saçlı qız oturup, hər saçı bir qızın əlində, yuyullar, darıyıllar. Hə, sən keçip gedip qırx saçlı qızın bir tükün çəkərsən, əlində o tük gəlip özünü salasan mənim üstümə. Bəlkə, qutara biləh.

Gedir, dediyi kimi səhər düşüllər yola. Gedillər, genə at hasarın çöl üzündə yatır. Məhəmməd düşür, gedir içəridən – içəri otuz dokquz otax keçir, qırxıncı otaqda görür, at dediyi kimi qırx saçlı qız qızıl teştin içində oturup, hər saçı bir qızın əlində yuyullar, darıyıllar, hörüllər. Məhəmməd qırx saçlı qızın bir tükünü çəkir, qaçır, özün salır atın üstünə, at qalxır havıya. Qalxan kimi görür ki, nərilti, gurultu, ay apardı, qoymayın. Yolda gələndə Məhəmməd atın üstünnən düşür dəryanın içinə. At başı üstə düşür. Dəryanın dibinnən Məhəmmədi çıxardır. Məhəmmədi çıxardır kənara. Diliynən Məhəmmədin üzün-zadın yalıyır, Məhəmməd gəlir özünə. Sora təzdən minir ata. Ordan sağ-salamat gəlip çıxıllar. Gəlip görüllər ki, qızıl teşt buların evindədi. Qızdar hamısı burda. Orda gördühləri kimi qırx saçlı qızın saçlarını yuyullar, darıyıllar, hörüllər. Hə, bajısı sevinə-sevinə qaçır Məhəmmədin qabağına.

Məhəmməd deyir:

– Razı qaldın?

– Qardaş, saa qurban olum!

Atı da aparıp rahatdıyır, gəlir. Bir müddət də bunlar yaşıyıllar. Hə, bir gün qarı yenə gəlir. Onnarı gəlir yoxluyur, görür ki, qarı gələndə Pəri xanım qaçır qabağına ki, guya qarı yaxşılıxlar eliyir da buna.

– Ay qarı nənə, sən nə yaxşı adamsan, gəl, gəl qonağımız ol.

Belə, elə, qarı bir tərəfin qaçax qoyur.

– Yox, bəs tələsirəm. Qardaşın gətirdi qırxsaçlı qızı?

Deyir:

– Gətirdi.

Deyir:

– Qardaşına deyərsən ki, o qırxsaçlı qızı alar. Gedər qırxsaçlı qızın qırx qardaşı var, olları da gətirər. Sən də gedərsən baş qardaşa. Elə bırda bir şəhər salıp yaşıyarsız.

Hə, nəysə qarı qaçır, aradan çıxır. Məhəmməd axşam ata yem aparır, görür ki, at yenə bekefliyif. Deyir:

– Məhəmməd, özün bilirsən ki, bu səfərdə az qala məhv olmuşdun. Bu yol çox çətindi.

Deyir:

– Eybi yoxdu, Allaha pənah.

Məhəmmədə deyir ki, onda səhər genə məni yəhərliyərsən, minərsən. Üstümdə bərh durarsan. Uçup gedəjiyəm mən. Mən hasarın dibində yatajıyam. Sən keçip gedərsən. Deməli, otuz dokquz otax keçərsən, genə qırxıncı otaxda qırx qardaş cərgiynən oturup namaz qılıllar. Sən gərəh keçip gedip baş qardaşın papağını götürüp özünü mənim üstümə salasan. Əgər sala bildin, səni bəlkə qutara bildim.

Deyir:

– Allaha pənah, gedərih.

Səhər açılır, genə dururrar, atı yəhərriyip minir, qalxır göyə, uça-uça gəlir həmən hasarın dibinə. Məhəmməd hasarı keçir, gəlir qırxıncı otağa, görür ki, at deyən kimi qırx qardaş cərgiynən namaz qılıllar hamısı. Baş qardaş başdadı. Məhəmməd gərəh keçsin getsin baş qardaşın papağını götürsün. Məhəmməd gedip baş qardaşın papağını götürüp qaçır, özün salır atın üstünə. At qalxanda genə nərilti, gurultu, bunnarın başına od-alov yağır. Hə, od-alov yağır. Nəysə, çətinlihnən sağ-salamat gəlip çıxıllar. Gəlip çatıllar, görüllər ki, bunnardan qabax demə orda nə vardısa daşına-divarına kimi gəlip bura. Qırx qardaş içində. Görüllər ki, namaz qılıllar. Hə, yenə bajısı sevinir. Məhəməməd aparıp atı irahatdıyır, gəlir. Yeyillər, içillər, başdıyıllar genə bu cür yaşamağa. Məhəmməd olduğu kimi genə gündə ova gedir.

Həə. Bir gün padşah genə köç edir bura. Gəlip görür ki, burda canlanma var. Burda qardaşdar var, burda qırx saçlı qız var. Hə, gəlir padşah genə düşərgəsin salır bura. Məhəmməd genə ovdan qayıdıp gəlir. Məhəməməd gələnə kimi baş qardaş padşahı qarşılayır, nə lazımdı ona hörmət eliyir.

Deyir ki, padşah sağ olsun, bəs sizin söhbətinizi aparmax mənim boynuma. Baş qardaş da tilsimliydi. Ollar yerin altın da, üstün də bilirmişdər.

Baş qardaş padşahın övlad əhvalatını bilir.

Məhəməməd genə ovdan qayıdır, axşam gəlir. Ovunu qoyur padşahın qabağına, baş əyir, xoş gəldin eliyənnən sora padşah genə sual verir.

– Oğul, əsil-nəcabətin?

Deyir:

– Dəyirmançıdı.

Padşah hiss eliyir ki, bılar bının övladlarıdı: qız da, oğlan da. Hə, axşam olur, yeyip– içməhdən sora oturullar, söhbət eliyillər. Baş qardaş başdıyır söhbətə.

Deyir:

– Padşah sağ olsun, deməli, keçmiş vaxtlarda bir dənə padşah olur. Bu padşahın övladı olmur. Nejə ki, mən başdamışam nağılı əvvəlindən bura qədər baş qardaş başdıyır söhbət eləməyə burda kı, vəzir getdi qarının yanına, qarını öyrətdi, qarı gəldi uşaxları götürdü, yerinə it küçüyü qoydu. Vəzir deyir ki, ay onu demə. Vəzirin qolun kəsillər. Hə, ora gəlir çatır ki, getdi qarıın öyrətdi ki, uşaxlar fılan yerdədi. Qarı dedi ki, onnarı məhf eliyəjəm. "Vaxsey, onu demə". Vəzirin dilin kəsillər. Belə-belə vəziri bu zülmnən öldürüllər, məhv eliyillər.

Padşah qırx gün, qırx gejə toy eliyir, qırx saçlı qızı alır oğluna. Öz qızını verir baş qardaşa. O qırx qızın da hərəsin alır o qırx qardaşın birinə. Burda başdıyıllar bir məkan salıllar, şəhər salıllar. Yeyib-içirlər, burda yaşıyıllar. Padşah da gedib adam göndərib o yoldaşını it dərisindən çıxartdırır, hamamlandırır, geyindirir-keçindirir, götürüb gəlir bura. Burda başdıyıllar yaşamağa.

## DARININ NAĞILI

Biriin uşağı olmurmuş. Deef ki, nətər eliyim? Görür ki, bir kişi bəri gəlir. Deef ki, bu darını tök altına, səhər duruf görəjsən ki, çoxlu uşağın var. Duruf görür ki, darı boyda okqədər uşağı var, okqədər uşağı var. Arvad təndirə çörəh salırmış. Deef: "Mən nətər eliyim?" Deef: "Yığılın təndirin başına". Bunnarı süpürgəy-

nən süpürüp hamısını tökür təndirə. Tökür təndirə, deer ki, ay Allah, mən bının birin niyə saxlamadım ki, atasına çörəh apara? Deef ki, nənə, mən burdayam. Baxıf ki, balaca bir uşaxdı. Deef:

– Mən səni hara qoyum?

Deef:

– Məni qoy eşşəyin qulağına, çörəyi də qoy, mən atama çörəh aparajam.

Gedir. Yolda padşahın adamları gedirlərmiş, görüllər ki, eşşəyin yanında kimsə bunnara söyüş söyür. Nəkqədər gəlillər eşşəyin yanına, hərrənirlər, heş nə tapmıllar, qayıdıllar. Bir də gedillər, bir də hərrənillər, bir də qayıdıllar, heş nə tapmıllar. Oğlan gedir, düşür atasının yanına.

– Ata, mən sənə çörəh gətirmişəm.

Kişi ayna-bayna baxır, diir:

– Hardasan?

Diir:

– Eşşəyin qulağında.

Eşşəyin qulağından götürüf. Diif ki, ata, sən otur, mən bir az öküzləri sürüm. Deef:

– Öküzləri sür, amma göyə baxma.

Göyə baxır, görür ki, nə? Okqədər meyvələr var. Bu meyvələr də divin imiş. Çıxır ağaca, meyvələri didir tökür, dişdiir tökür. Div gəlir, hamı yerdə dişdənib tökülüb. Bunu bir təhəriynən salıf yerə, qoyuf torbasına, götürüf aparır. Aparır evə. Bunun bir keçisi varmış, bir də quzusu. Quzuynan keçini tez salır torbaya, özü çıxır qaçır. Div diir:

– Bunu elə-belə öldürməyəjəm, ağaşnan döyüf öldürəjəm. Ağaşnan vurduxca keçi bəərir, qoyun məliyir. Deer:

– Keçim kimi mələ, qoyunum kimi bəyir. Qoyunum kimi mələ, keçim kimi bəyir.

Bunu öldürüf. Bir də baxıf görür nə? Keçi. Bir də görür ki, odey, orda hərrənir. Diif ki, ana, təndir qalıyarsan, bunu qoyarsan təndirin qırağında. Deyərsən ki, gəl təndirə çörəh sal. Çörəh salanda itəliyif salarsan təndirə, ağzını örtərsən. Təndiri odduyuf diyir ki, qarı nənə, mən çörəh salmağı nə bilirəm. Sən birin sal, sora da mən salım. Elə bu çörəyi salanda itəliyir salır, ağzın da ör-

tür. Div gəlir ki, bu qıfqırmızı bişif, qoyuf qabağına yeyəndə deef ki, bəh, bəh, bəh, nə bişirilif. Bu deef ki, bəh, bəh, bəh, ananın ətidi, ye. Deer: “Bunu neynim-neynim, bunu salajam atın yanına, at təpihnən vura, öldürə”. Gedib görür ki, bir atdı, bir donuzdu, bir itdi. Atın qabağına sümüh tökülüf, itin qabağına ot qoyuluf, donuzun qabağına nə qoyuluf, donuz da bunu yeyə bilməzmiş. Bir yerdə də kişmiş var. Kişmişi götürüf tökür atın qabağına, sümüyü götürüf tökür itin qabağına, əti də götürüb qoyur donuzun qabağına. At dillənif deer ki, səni mən burdan azad eliyəjəm. Div də qapıya dəyirman daşdarı qoymuşmuş yekə-yekə, salmışmış bura. At da dəyirman daşın açır. Ordan minif ata, qaçır gəlir.

## BORANININ NAĞILI

Bir kişi varmış, boranı əkmişmiş. Kişi diif: “Allah, mənim uşağım yox, bir şeyim yox”. Birdən boranı dillənif ki, bəs mən sənin uşağınam də. Kişinin yaxasından tutur ki, kişi, səə borcu–zadı olan yoxdu ki? Diif:

– Padşah məə iki şahı boşdudu, nə eliyirəm vermir.

Diif ki, məni qır tağdan, mən gedif alajam. Kişi qırıf, yumbalana-yumbalana gedəndə görüf ki, bir tülkü çıxır. Deer:

– Qarnım, tülkünü ud.

Tülkünü udur. Bir az gedir, görür bir canavar çıxdı. Deer:

– Qarnım, canavarı da ud.

Canavarı da udur. Bir az gedir, bir ayı çıxır, bir az gedir, su çıxır. Bunu da udur. Deeflər ki, padşaha, bəs, diir, bir yumru şeydi, gəlif ki, atama iki şahı boşdudu, versin. Diif:

– Atın toyuxların, qazdarın içinə, dimdihləsin yesin.

Aparıflar. Xəbər gəlif ki, qazı, toyuğu elə qırıf ki, heş biri də qalmıyıf. Onda tülkünü boşduyuf. Diif:

– Aparın atın quyunun içinə.

Bu səfərə qarnı canavarı boşduyuf, qoyununu da qırıf kişinin. Bu səfər diyif ki, aparın gamışdarın ayağı atta atın, gamışdarın ayağı atta itər. Ayını da boşduyuf, gamışdarı qırıf. Bu səfər diyif di ki, tonqal qalıyın,bunu atax tonqala. Neyniyirmişdər ölmürmüş. Bunu yekə tonqal qalıyıf atıflar tonqala, onda diif:

– Qarnım, suyu boşda.

Tonqalı da keçirif. Diif ki, bunu salın onda xəzinəyə, nə götürür götürsün. Təki bizdən rədd olub getsin. Salıllar xəzinəyə, xəzinədən doldurur qarnını, gəlir. Diir:

– Ana, məni sal çuala, döy.

Bunu salıb çuala görüf ki, çualla bir qızıl çıxdı. Kasıf adammış. Kefi kök dolanıf boranının hesabına.

## PEYĞƏMBƏRLƏ ÜÇ YOLÇU

Peyqumbər əlehsalam həmməşə Allaha duva eliyirdi ki, ya ilahi, sən insanlara irəhm elə. Bir gün cənabı Cəbrayıl gəldi, Allahdan xəbər gətirdi ki, ya peyqumbər, sən elə həmməşə adamlara irəhm diliyirsən. Gəlsənə, adamları bir yoxluyasan, sınaxdan keçirəsən.

Dedi:

– Nə deyirəm? Yoxluyax.

Peyqumbər əleyhsalam düşdü bir qoja sifətinə, otuz iki dişdən bir dənə nişanə qalmadı. Bir cırıx-cındır paltar geyindi ki, baxasan, dəərsən, heş bu bəni yaranmış dəyil. Çiyninə bir cırıx xurjun götürdü, içinə də bir arpa cadı qoydu, düşdü yola. Yolda bir yolçu gördü ki, arxadan bir qoja gəlir. Oturdu ağaş kölgəsində bunu gözlədi.

– Salam.

– Əleykəsalam.

Dedi:

– Hara gedirsən, qoja?

Dedi:

– Dolanışığım pisdi, dolanışıx dalınca gedirəm.

Dedi:

– Qoja, mən də o niyyətdəyəm, mən də dolanışıx axtarıram. Əyalım çoxdu, dolandıra bilmirəm. İzin ver, yoldaş olax, gedəh. Allah nə ürsxət yetirər, yetirər.

Razılaşdılar, getdilər. Yolnan bir yolçu gedirdi. Gördü ki, iki adam gəlir. Oturdu həmən o iki adamı gözdədi. Gəldilər çatdılar:

– Salam.

– Əleykəsalam.

Yolçu üzünü tutdu peyqumbərə:

– Qoja, hara gedirsən?

Dedi:

– Dolanışığım pisdi, dolanışıx dalınca gedirəm. Yolda bu adam da qoşulup maa, gedirih.
Dedi:
– Elə mən də dolanışıxdan əziyyət çəkirəm. İzin verin, mən də qoşulum sizə.
Razılaşdılar. Bir  xeyli getdilər. Yolda bir cavan oğlana irast gəldilər. Cavan soruşdu:
– Qoja, hardan gəlip, hara gedirsən belə?
Dedi ki, oğul, vilayətdə ajdıxdı, yol adamıyıx, belə gedirih.
Cavan oğlan dedi:
– Mən dolanajax axtarmıram.
Dedi:
– Bəs nə axtarırsan?
Dedi:
– Mən insan axtarıram. Əgər xudavənd-aləm mənə bir halal süd əmmiş kismət eləsə ailə qurmax üçün, taa maa heş nə lazım dəyil.
Dedi:
– Nə deyirəm.
Razılaşdılar. Bir xeyli yol gəldilər. Bir kolluğa çatdılar. Peyqumbər lap birinci rast gəldiyi adama dedi:
– Ora bax, gör nə görürsən?
Baxdı,  gördü,  bir cənnət misal bağdı. Peyqumbər dedi:
– Get, o bağ sənindi.
Bir xeyli getdilər. Bir dağın qırağınnan gedəndə bir çanqulluxdan keçdilər. İkinci rast gəldiyi yolçuya üzünü tutdu, dedi:
– Nə görürsən?
– Çanqulluxdu.
Dedi:
– Yaxşı bax.
Yolçu bir də baxanda gördü beş sürü qoyun.
Dedi:
– Get, o beş sürü qoyun sənindi.
Getdilər, bir kəndin qırağınnan gedəndə gördülər, bir toy səsi gəlir.
Dedi:
– Oğul, gedəh o toya, toydu da, təam da yeyəh, toya da baxax.
Dedi:

– Nə deyirəm, qoja? Məsləhət sənindi.
Getdilər toya:
– Salam.
– Əleyküməsalam.
Oturdular. Yeməh-zad gəldi. Yedilər-elədilər. İndi gəlin gələn vaxdı, çıxartdılar, atın yüyənini tutdular ki, gəlini mindirsinnər. Gəlinin gözü o oğlana sataşdı.
Dedi:
– Mən getmirəm.
Ay dad, ay fəryad, sənə nooldu?
Gəlin dedi:
– Mən o qojanın yanındakı o oğlannan gedəjəm.
Cumdular bu oğlanın üstünə ki, onu döysünnər. Peyqumbər yeridi qabağa ki, ay camahat, bunu niyə döyürsüz? Bəlkə Allah bunu buna qismət eliyip? Gəlin siznən şərt kəsax.
Dedilər:
– Yaxşı.
Dedi:
– Toy dayansın. Üş gün bir yaxşı köhlən atı verəh qızın nişanlısına, aparsın bu atı yedirtsin, içirtsin, otdan-samannan versin, amma su verməsin. Üçüncü günü sizin oğlanı qoyax suyun qırağına, bizim oğlanı aparax qoyax o güneydəki quru yerə. Gəlinin qolların arxadan bağlıyax, mindirəh ata ki, atın yolunu nizamlaya bilməsin. Əgər susuz at suya getdi, onda sizin oğlan nişannısını da götürsün getsin. Yox, əgər quru günəyə, bizim oğlanın yanına getdi, onda Allahın kismətidi, verin ona çıxsın getsin.
Hamı razılaşdı. Elə də elədilər. Atı buraxdılar. At düz getdi günəyə-oğlanın yanına, suya getmədi. Gəldilər, gəlini bu oğlana verdilər.
Oğlan evləndi, bir cüt oğlu oldu.
Bir gün İlahi buyurdu ki, peyqumbər, bir buyur get, yaxşılıx elədiyin bəni-adamları sına da. Peyqumbər birinci getdi bağbanın yanına. Bağın qırağıynan gedəndə gördü bir nəfər bel əlində işdiyir. Salam verdi, əleyk aldı.
Dedi:
– Oğul, bir cadım var, quruyup, bu qara üzüm salxımınnan bir salxım ver, çörəyimi isdadım yeyim.

Dedi:
– Ey qoja, bu bağın sahibi elə bir kopooludu ki, bilə saa bir salxım üzüm vermişəm, dünyanı dağıdar. Gedim ona deyim, o desə bir salxım, mən iki salxım verim.
Dedi:
– Yaxşı sözdü, izin verməsə, mən də yemənəm.
Getdi dedi.
Dedi:
– Ged əə, yolun qırağı doludu qoraynan. Qoradan-zaddan ver yesin. Hər yetənə bir salxım üzüm versəm, bağda bağlıx qalmaz ki.
Qulluxcu gəldi, yolun qırağındakı qoradan yığanda peyqumbər dedi:
– Ay oğul, o qoradan istəsəm, özüm də yığardım. Yolun qırağı doludu.
– Ay qoja, neyniyim, görmürsən, orda oturup vermir?
Dedi:
– Onda get, ona denən, gəlsin bəri.
Getdi çağırdı, gəldi.
Dedi:
– Əə, oğul, qoja kişiyəm, ağzımda otuz iki dişdən bir nişana yoxdu. Bir salxım üzüm versənə, yeyim?
Dedi:
– Vermirəm.
Dedi:
– Bax gör, bağda nə qədər üzüm var?
Bağ sahibi baxdı, gördü, bağ yoxdu, qaratikan kolluğudu. Peyqumbər getdi sürü sahibinin yanına. Gördü sürü günorta sağınına gəlip. Çobanın birinə yaxınnaşdı:
– Bərəkətdi olsun, çoban.
Dedi:
– Xoş gəldin.
Dedi:
– Oğul, uzax yol gedəjəm, bir cadım var. Bir qara qoyun südü sağ ver, bu cadı isdadım yeyim.
Dedi:
– Ay qoja, nə yaman işə saldın məni. Bu qoyunnarın sahibi elə zalım adamdı, bilsə ki, mən qoyunnan süd sağmışam, dərimə saman təpər. Özü burda olmasaydı, hə, qoyunnan çıtma-çıtma süd sağıp

verərdim, bilməzdi. Amma indi özü burdadı. Qoy gedim genə özünnən icazə isdiym, bəlkə Allah insafa gətirdi, icazə verdi.

Dedi:

– Nə deyirəm ki, get.

Getdi, icazə isdədi.

Dedi:

– Əə, yeri bir keçidən-zaddan sağ ver. Hər yoldan ötənə qara qoyun südü verəjəm?

Çoban gəldi keçini sağmağa. Qoja dedi:

– Ay oğul, keçi südü verərsən, qarnımı da pozarsan. Qoja kişiyəm. Verirsən, qoyun südü ver.

Dedi:

– Ay qoja, neynim axı? Yəəsi vermir ee.

Dedi:

– Onda get, sürü sahibinə de, gəlsin bıra.

Getdi çağırdı. Sürü sahibi gəldi.

Dedi:

– Ay oğul, qoja kişiyəm, bir qoyun südü nədi, yayın günündə sən maa keçi südü verirsən?

Dedi:

– Hər yetənə bir qoyun sağıp versəm, burda, bı sürüdə süd qalar?

Dedi:

– Bax gör nə qədər qoyun var?

Sürü sahibi döndü baxdı, gördü quru çanqulluxdu, sürü-zad yoxdu.

Peyqumbər getdi cavan oğlanın yanına. Gördü oğlan cüt sürür. Salam verdi, əleyk aldı.

Oğlan cütü saxladı. Hodaxçıya dedi:

– Əylə, əylə.

Hodaxçı cütü əylədi.

Dedi:

– Qoja, gəl, qoja, gəl. Hardan gəlirsən, hara gedirsən?

Qojanı əyləşdirdi. Dedi:

– Qoja!

Dedi:

– Nədi?

Dedi:

– Qoja, bax burda bizim üçün yeməh var, ama sən qojasan, bunnardan azca ye. Mən bu dəqiqə  isdi yeməh hazırradım gətirim.

Dedi:

– Oğul, bu maa çoxdu, uzax yol adamıyam, gedəjəm. Bir az dincəlim, gedirəm.

Dedi:

– Ye, işin yoxdu sənin.

Yedi. Dedi:

– Səni and verirəm Allaha, mənə qonaxsan.

Dedi:

– Allaha and verirsən, amma sənə çox əziyyət verəjəm.

Dedi:

– Nə eləsən xoşdu.

Oğlan qojanı götdü, gəldi evə. Arvada su gətirtdirdi, qojanın əyağın-zadın yudurtdu. Arvad döşəyi saldı. Qojanı uzandırdılar, irahatdadılar. Oğlan heyvannan-zaddan kəsdi, yumşaxca bişirtdirdi, yedilər. Yatmax vaxtı gəldi. Oğlan yatmadı. Gördü kişi sızıldayır. Getdi dedi:

– Qoja, niyə sızıldayırsan? Yoxsa yerin narahatdı?

Dedi:

– Ay oğul, mən saa demədim məni qonağ eləmə? Mən sizə çox zəlalət verəjəm.

Dedi:

– Nədi axı? Noolup?

Dedi:

– Ha belə, mənim bədənim gejə olanda yara tökür. Pal-paltar olur heş nə.

Dedi:

– Ə kişi, nə danışırsan? Bu sahat.

Tez arvadını çağırdı, bir dəst alt paltarı gətirtdi. Qojanın paltarını dəyişdirtdi. Sora qojadan soruşdu.

– Qoja, bu dərdin çarəsi yoxdu?

Dedi:

– Ay oğul, yoxdu.

Dedi:

– Mən yaxşı həkimlər tanıyıram. Gedirəm,  bu gejə hansı vi-

layətdə olur-olsun gətirəjəm, sənin bu dərdaa əlaj eləsin.

Oğlan getdi. Gejə arvat gördü genə qoja sızıldayır.

– Ay qoja, niyə elə sızıldayırsan?

Dedi:

– Ay bala, mən sizə demədim sizə çox zəlalət verəjəm?

Dedi:

– Ay qoja, elə şeyi qəlbaa gətmə.

Tez durdu əyağa, bir dəst paltar gətirdi, qojanın paltarını dəyişdi. Dedi:

– Ay qoja, səni and verirəm Allaha, de görüm, heş bu dərdin çarəsi yoxdu?

Dedi:

– Ay bala, ərin də getdi, bunun heş bir çarəsi yoxdu. Ama Allaha ki, and verirsən, deyim. Hər kəsin ki, ilkinə Allah bir cüt oğlan versə, onnarın başın kəsip qanın sürtsələr, yaram sağalar.

Dedi:

– Bını niyə demirsən, ilkimizə bir cüt oğlumuz var, qurbandı saa. Kəs, qanın götür.

Dedi:

– Yox, elə şey olar?

Arvat getdi, oğlannarını özü tutdu gətdi. Qolların bağladı, yıxdı qojanın qabağına.

Dedi:

– Kəs.

Qoja bıçağı sürtdü, qan çıxdı.

Dedi:

– Su töh, qoy pıçağı yuyum.

Arvat əl atdı, gördü sənəhdə su yoxdu.

Dedi:

– Qoja, icazə ver, gedim su gətirim

Dedi:

– Get.

Arvat sənəyi götdü, getdi bulağa. Bulağa gedəndə gördü, oğlannarının ikisi də bulaxda əlini yuyur. Arvat gözü oğlannarında əyildi suya. Sənəyi götürdü, gəldi evə. Sənəyi əydi ki, pıçağa su töhsün, gördü, su yoxdu, su götürmüyüp. Qoja dedi:

– Saa demədim, qəlbin darılajax?

Arvat dedi:
– Vallah, qəlbim darılmayıp. Gedim su gətirim.
Bir də sənəyi götürdü, getdi suya. Genə gördü oğlannarı bulaxda əl-üzünü yuyur. Ama bu dəfə suyu qəşəh doldurdu, gəldi evə. Gördü qoja yerində yoxdu. Uşaxlar da sappasağ yatıllar.
– Ay aman, ay dad, ərim gəlip məni öldürəjəh, qoja nejoldu?
Bu dəmdə kişi də bir həkimlə gəldi.
– Arvad, qoja nətəərdi?
Dedi:
– A kişi, qoja yoxdu.
Dedi:
– Nejə yoxdu?
Dedi:
– Ha belə.
Dedi:
– Bay sənin əvin yıxılsın. Bu qoja susuz atı quru günəyə gətirənmiş eey, tanımadıx.

## XEYİRXAH QOCANIN NAĞILI

Bir kasıp kişi olur. Çox kasıp kişi olur. Bının bir oğlu olur. Baxır görür ki, bını evləndirməyə bının gücü çatmıyacehdi, deyir:
– Oğul, mən səni evləndirə bilmirəm. Get, harda qazanırsansa, qazan gəti, mən səni evləndirim.
Deyir:
– Nə deyirəm, ata, "get" deyirsən, gedim daa.
Durur gedir, kəntdən bir balaja aralaşmış, baxır görür ki, iki nəfər də gəlir, olullar üç yoldaş. Bınnardan sorğu-sual eliyannan sora bı baxır görür ki, elə bınnar da bı dərtdədi, bının üçünün də fikri birdi. Deyir ki, əə, qardaş, gəlin, bu yol üçə haçalanır haa, hərəmız düşax bı yolun birinə. Ama gələndə hammız bı qara daşın dibində bir-birimizi gözdəməliyih.
Deyillər:
– Baş üsdə.
Bınnar tüşüllər yola. Birinci yoldakı bir əz getməmiş bir də görür, bını daldan haylayıllar da, çağırıllar:
– Ay bala, dayan görüm, kimsən? Hara gedirsən, nəçisən, nə karəsən?

Baxır görür kin, bəs gələn bir qoja kişidi.
– Salamməleykim, ay oğul.
– Əleykəsalam, ay baba.
– Oğul, hara gedirsən?
Deyir:
– Gedirəm çörəh qazanmağa.
– Ay oğul, nə işin sahibisən?
Deyir kin, vallah, heş bir iş bajarmıram, bir çobanlıxdan savayı. Mən ancax çoban ola bilərəm, başqa bir şey əlimdən gəlmir.
Deyir:
– Oğul, get, bıdee, bu yolun dalında bir sürü qoyun var, get onu götür otar.
– Ay baba, maa qoyun verən kimdi?
Deyir:
– Ədə, deyirəm get, o yolun dalında bir sürü qoyun var, götür otar.
Deyir:
– Baba, başına dönüm, vallah maa qoyun verməzdər.
Oğlan bir əz irəli gedənnən sora baxır görür, doğrudan da, elə bir sürü qoyundu, üzdən irax, yanında bir ala köpəh. Köpəh sarmaşır bının əl-ayağına.
– Baba, sən maa bı qoyunu hardan verdin?
Baxır görür baba yoxdu.
Baba özün yetirir ikinci yola. Birinci yoldakı bı oğlannan başı bir əz qarışmış olduğuna görə, bir xeylax aralanmışmış. Daldan haylıyır:
– Ay oğul, bir əyağıı saxla görax hara gedirsən?
Gəlir yetişir oğlana:
– Salamməleyküm.
– Əleykəsalam.
– Oğul, hara gedirsən?
Deyir:
– Baba, çörəh qazanmağa.
– Oğul, işin, peşən nədi?
Deyir:
– Baba, heş bi şey  əlimnən gəlmir, bir bağbançılıxdan savayı.
– Oğul, yen, bıdey, bırda-bı havızın qırağında yaxşı bir bağ var, götür o bağı, bejər.

– Ay baba, maa bağ verən kimdi?
Dedi:
– Ədə, mən deyirəm, yen, orda bağ var, götür bejər.
Baxır görür ki, doğurdan da bağ var. İndi səki geri qanrılır ki, babıya dil-ağız eləsin ki, baba, maa bı bağı verdiyaa göra çox sağ ol. Baxır görür ki, baba yoxdu.
İndi baba özün yetirir üçüncü yola. Bə xeylax aralanmışmış, daldan çağırır:
–Ay oğul, bir dayan görüm, kimsən? Nəçisən? Hara gedirsən?
Gəlir yetişir:
– Salamməléyküm, ay oğul.
Deyir:
– Əleykəsalam, ay baba.
– Oğul, hara gedirsən?
Deyir:
– Baba, çörəh qazanmağa.
Deyir:
– Sənətin nədi?
Deyir:
– Baba, heş bir şey əlimdən gəlmir.
Deyir:
– Allah maa bir halal südəmmiş yetirsin, mən də onun ücünnən dolanım dana.
– Ay bala, bırda mən halal südəmmişi saa hardan alım verim? Ay oğul, gəl çəltih ək, gəl taxılçılığnan məşğul ol, ay oğul, bağmançılığnan məşğul ol.
Deyir:
– Yox, baba, heş bir şey bajarmıram.
Deyir:
– Ay bala, bir toy səsi gəlir, eşidirsənmi?
Deyir:
– Eşidirəm, baba.
Deyir:
– Elə halal südəmmiş varsa da odu, yoxsa da. Əlinə bir ağaj al, kəs yolu,qoyma gedə. Həə, isdəsələr, nə desələr razı olma. Denə, elə toy elədiyiz qızı verin maa.

– Ay baba, məni öldürəllər.
Deyir:
– Əə, bırdayam, bı daşın dalında gizdənirəm, qorxma.
Bir müddət qalannan sora, görür, bıdırana  atdılar gəlir. Yolu bağlıyır. Gəlinin qayınatası cibinnən qomnan pul çıxardır, deyir:
– Ay oğul, ala, yolu aç.
Deyir:
– Yox, maa pul lazım dəyil.
Deyir:
– Oğul, ala onda bı atı, yolu aş gedax.
Deyir:
– Yox, maa at lazım deyil.
– Ə, bə saa nə lazımdı?
Deyir:
– O təzə toy elədiyiz qız.
Bını isdiyillər vıralar, bir möhkəm əzişdirələr, qoja daşın dalınnan çıxar, deyər:
– Əə, onu niyə vırırsıız?
Deyillər:
– Belə-belə.
Deyir:
– Əə, verin canıızı qutarın, onu Allah-taala sizə bəla yolluyup. Qızı verin ona, canınızı qutarın.
– Ay  baba, axı belə şey  olmaz.
– Yox, verin, cannınızı qutarın.
Qızı verillər oğlana. Qoja  deyir ki, get, odu eey, orda bir koma var, orda dolanın.
Gedir, görür, elə doğrudan da, koma var. Səki bı da isdiyir ki, qojuya dil-ağız eliyə, baxır görür ki, qoja yoxdu, gedip qoja. Bınnar başdıyıllar bırda dolanmağa.
İndi qoja gəlir, deyir ki, ədə, biri mənnən qoyun isdədi,biri mənnən bağ isdədi , biri də halal südəmmiş isdədi. İndi durum gedim, görüm bınnarın vəziyyəti nətəərdi?
Gəlir görür qoyun çoxalıp, çoban ağajın salıpdı, nətəəri deyim, bə kürəyinin arasına, bir bırda əyağın vırır yerə, bir oxumağ eliyir ki, gəl görəsən. Çağırır:

– Ay çoban, heey, ay çoban?
Deyir:
– Heey!
Deyir:
– Ajdın çobana, susadın sarvana. Gəlsana, bir əz yeməhdən-zaddan verəsən, yeyəh.
Deyir:
– Baba, başına dönüm, niyə yemiyəsən? Bu qoyunnan sağım, doğramaj eliyim, ye.
– Sağıp verir, deyir:
– Ye, ye, baba, ye başına dönüm, qojanın canı süd doğramasıdı, ye.
Deyir:
– Əə, mənim bir qarım var, o da maa hər axşam süd doğraması verir, hər səhər süd. Gəlsana, bu quzunun birin kəsəsan, bu qoca baban yeə.
Deyir:
– Ee, ay baba, sana qurban olum, gündə bı yolnan bəlkə onu gəlir-gedir. Bının hərəsinə bir quzu kəssəm, sürü dağılar.
Deyir:
– Ədə, gəl daşı ətəyinnən töh, bı quzunun birin kəs, bırda kabab eliyax, yeyax.
– Rəhmətdiyin oğlu, sən nə danışırsan? Yeyirsən ye, yemirsən, dur, yol açıxdı, get.
Qoja deyir:
– Əə,bir belə bax gör, o danışıx nə danışıxdı?
Baxır görür, qara daşın dibində, çombax əlində, nə qoca var, nə sürü.
Deyir:
– Həə, bir quzuya qıyseydim, sürünü yeərdim.
İndi özün yetirir bağbana sarı. Bağbana sarı yetişəndə görür ki, bağban elə bağ bejərip, iki göz isdiyir baxsın. Ama havızın qırağında bir alma var, üstündə üççə dənə alması var. Bı üç alma pütün bağın yaraşığına dəyər. Çağırır:
– Ay bağban, heyy, ay bağban, heey!
Deyir:
– Heey.
Deyir:
– Ay bağban, meyviyə bərh təmahım tüşür. Gəlsana, bı meyvə-

dən bir əz yığasan, verəsən yeəm.

Deyir:

– Baba, başına dönüm, bağı əkiplər elə yeənnən ötrü dana. Niyə yemiyəsən?

Durur bı cır armıtdan birin qırır, almadan birin qırır, bunnan gətirir, xülaseyi, tökür vedrəynən yerə, deyir:

– Di ye, baba.

Deyir ki, bala, meyvə yığılır yeməyə, ama o almannan birini ver maa.

Deyir:

– Baba, başına dönüm, vallah, bağı yaraşıxdan salammaram.

Deyir:

– Ə, gələn il, neynax, onun gətirər, o biri il on beşin gətirər, belə-belə. O almannan birin ver maa.

Deyir:

– Rəhmətdiyin oğlu, meyvə dedin, meyvaa verdim, yeyirsən ye, yemirsən dur cəhənnəm ol, cəhənnəmin dalınca.

Deyir:

– Bala, bax gör, dava-dalaşıx səsi gəlir, nədi?

Baxır, görür yoldaşının əlində genə çombax varıdı, bının əlində heş nə yoxdu.

Deyir:

– Bağçı qıydı, bağmançı qıymadı. Mən bir alma versəydim ona, bəlkə də bağı yeyərdim.

İndi də qoja gəlir halal südəmmiş alanın yanına. Görür bir gözəl uşaxdı, bir gözəl oğlandı, bir  də bir gözəl kadındı.

Deyir:

– İlahi, sən qıyma bınnara. Gör nə bir-birinə yaraşır ey.

Bı qəfildən yıxılır yerə:

– Ay aman, qılçam sındı, gəlin maa köməyə.

Arvad deyir ki, a kişi, bırda yaman fəryad səsi gəlir, sən dur bırda, bir mən qaçım, görüm, bu səs nə səsidi?

Deyir ki, yaxşı, get dəə. Gəlir, görür bir qoca kişidi, okqədərə bılanıp toza-torpağa kin.

– Ay baba, niyə yıxılmısan? Sana noolup?

Deyir:

– Bala, elə bırda qılçam qəfildən sındı, tərpənə bilmirəm.
– Baba, bə mən neyniyim?
Deyir:
– Get özaa bir yoldaş tap gəti, bir palaz gəti, məni götürün bir yerə.
Bınnar durur ər-arvad ikisi də gedir, bir palaz götürüllər, gedillər, çıxıllar qojanın yanına. Qojanı götürüllər. Elə bir əz qaldıranda deyir:
– Ay aman, qıçam çatdadı, məni qoyun yerə.
Qoyullar yerə.Götürün, götürüllər. Qoyun, qoyullar. Xülaseyi, bınnarı nəkqədərə edirsə, görür ki, heş bunnar, nətəəri deyir, heş qaş-qabax göstərmillər. Elə xoş gəlir bınnara.
Götürüllər bını bir təhər aparıp qoyullar qravatın üstünə. Kişi bının başının üstün kəsir, arvad da ayax tərəfini kəsir. Bılar çox qalır. Kişi elə baxır görür ki, biri başdadı, biri ayaxda. Heç bınnar, elə bil, nə heyvana gedir, nə toyuğa dən səpir, nə bir şey eliyir. Deyir kin, ay oğul, heş sənin bağınnan-bostanınnan yoxdu ki, gedəsən bir su verəsən, zad eliyəsən?
Deyir:
– Ay baba, sənin axırın olsun, neynax, bir ağaşdı da, bir tingdi, salaram, genə bağ olar.
– Ay oğul, bir toyuğa-cücaa...
Deyir:
– Ay baba, saa qurban olum, bir yumurtadan əmələ gələn şeydi dana. Toyuxdu, basdırarıx genə gələr bir cücə çıxar, genə həmən toyuxdu.
– Ay oğul, qoyuna-quzuya...
Deyir:
– Elə bilərəm qoyunum bir quzu doğmuyup dana. Genə həmən quzu olaceh.
Xulaseyi, bunu çox belə çətin ənvaynan yolluyur bağa. İndi bu arvad qayıdır ki, ay baba, biz neyniyax ki, sənin qılçan sağalsın?
Deyir:
– Bala, bir nahax qan, bəlkə mənim qılçamı sağalda. Başqa heş bi şey məni sağalda bilməz.
Deyir:
– Əə, mən nahax qanı bırda kimnən eliyəjəm? Elə yaxşısı bıdı, öz uşağımın başını kəsim.
Durur gedir bir qəməlti, bir qatma, bir də dəsmal götürür gəlir.

Baba deyir ki, ay qızım, bax bı qəməltiynən başın kəseysən, bı qatmaynan da əl-ayağın bağliyesən, bə bı dəsmal nəyidi?

Deyir:

– Baba, ana gözüdü də, gözü birdən dəyər gözümə, əl ayağım əsər. Gözün bağlıyecem.

Götürür, gözün bağleyir. Özü də gözün yumur. Uşağın başın kəsir. Avcına doldurur qannan, tökür bı qocanın üstünə, deyir:

– Oxxay, bala, Allah-tala sizi bir-birinizdən ayırmasın. Ama nə dincəldim.

İndi qoca durur, qəşəhcə çarıxların geyinir, oturur qravatın üstündə. İndi bı qaçır kişini muştuluxlamağa.

Deyir:

– A kişi, qoca sağaldı.

Deyir:

– Arvad, nəynən sağaldı?

Deyir:

– Hal-nağıl, uşağın başın kəsdim, sağaldı.

– Ay arvad, bəs yanındakı uşax kimdi?

Deyir:

– Ə kişi, vallah, indicə əl-ayağı bağlı qoyup gəlmişəm. Bu nə təhər olan hak-hesabdı?

Deyir:

– Onda gedax qojaan yanına, görax bu nə hak-hesapdı. Gəlillər:

– Salammeleyküm.

– Əleykəsalam.

Deyir:

– Qoca, indi nə təhərsən?

Deyir:

– Bala, Allah-tala sizi bir-biriizdən ayırmasın. O vaxtı ki, mənnən bir halal südəmmiş istədin haa, mən həmən qocayam. İndi Allah-tala sizi bir-biriizdən ayırmasın, o uşağıızdan sizə xeyir gəlsin, sizdən də o uşağııza.

## İBADƏT VƏ SƏXAVƏT

Bir gün İmam Həsənnən İmam Hüseyn mübahisə elədilər. İmam Hüseyn dedi ki, ibadət yaxşıdı, İmam Həsən dedi ki, yox,

səxavət yaxşıdı. Bılar ikisi aralarında razılaşa bilmədilər. Gəldilər babaları peyqumbər əleyhüssalamın yanına, dedilər:

– Baba, ibadət yaxşıdı, yoxsa səxavət?

Peyqumbər əleyhüssalam fikirləşdi ki, desəm ibadət yaxşıdı, Həsən inciyəcəh, desəm səxavət yaxşıdı, onda da Hüseyn inciyəcəh.

Dedi:

– Nəvələrim, gedin, sabah gəlin, sabah deyərəm.

Peyqumbər əleyhissalam düşdü yola, getdi. Gəlib bir kəndə çıxdı. O kənddə bir naxırçı varıdı. Bir arvadıydı, bir oğlu, bir də özü. Yaşıyırdılar. Kişi kəndin naxırına gedirdi, özünə bir öynə çörəh qazanırdı, yeyib dolanırdılar. Bir inəhləri vardı, bir də onun balası. Peyqumbər əlehissalam getdi bı naxırçının qapısına. Naxırçının cavan arvadı çıxdı onun qabağına.

– Salam.

– Əleykəssalam.

Dedi:

– Qızım, Allah qonağı isdiyirsən?

Dedi:

– Allaha da qurban olum, qonağına da, buyur, buyur.

Gətdi peyqumbəri içəri. Dedi:

– Evin sahibi naxıra gedib, icazə ver gedim naxırın yanına, evin sahibi  gəlsin evə.

Peyqumbər əlehissalama  agahdı onsuz da.

Dedi:

– Get, qızım, get.

Getdi ərinin qabağına. Dedi:

– A kişi, bilirsən nə var?

Dedi:

– Nə var?

Dedi:

– Bir qocadı, iki də cavandı – üzdərinnən nur tökülür, heç bəniinsana oxşamır, elə bil məlakədilər. Sənnən  icazəsiz onnarı evə çağırdım. Onnarı  nəkqədir lazımdı  çörəyə  qonax elədim. Onnar neçə çörəh yesə, bir o qədır mən çörəh yemərəm əvəzində.

Dedi:

– Ay arvat, həylə demə, ayıp dəyil?

Kişi gəldi. Xoş gəldin, beş gəldin eliyənnən sora kişi dedi:

– Arvat, bu danaynan bizi kim tanıyajax, gəlsənə bunu kəsəh qonaxlara.

Arvat dedi:

– İllap yaxşı, Allah qonaxlarıdı. Bir daneynən varrı olmuyacıyıx ki, onsuz da kasıpıx daa.

Razılaşdılar, dananı kəsdilər, yedilər. Yatmax vaxtdı bınnar özdəri getdi mal-qaranın yanında yatdı, qonaxlara evdə yer saldılar. Gecə səhərə yaxın kişi arvadı durğuzdu ki, çaydan-çörəhdən hazırrasın. Nəqqədir elədi, gördü arvad durmur, arvatda nəfəs yoxdu, arvat dünyasını dəyişip. Uşağı qaldırmax isdədi, gördü, uşax da dünyasın dəyişip. İstədi inəyi aça ötürə naxıra, gördü inəh ölüp. Kişi heş qəlbin sıxmadı. Fikirrəşdi ki, burda bir sirr var. Çıxdı getdi camaata dedi ki, ay camaat, ta mən sizin malınıza gedə bilmiyəcəm. Özü gəldi çaydan-çörəhdən elədi qonaxlara. Dedi:

– Bağışdıyın da, evin xanımı xəsdə kimi olup, durup sizə çay-çörəh hazırrıyammıyıp.

Yedilər, işdilər. Durdular kənddən çıxanda peyqumbər dedi ki, sən qəyit, qəyit.

Dedi:

– Yox, heç olmasa qoy filan yerəcən aparım yola salım.

Həmən yerə çatanda dedi:

– Heç olmasa qoy filan yerəcən aparım.

Belə-belə gəldilər bir dağda bir abid varıdı, ibadət eliyirdi Allah-talaya. İbadətgahında da hər öynə yeməh-işməyini məlakələr gətirirdi. Getdilər həmin abidin yanına çıxdılar.

– Salam.

– Əleykəssalam.

Dedi:

– Abid, bizi qonaq elərsənmi?

Dedi:

– Mən qonaxlıx necə eliyə bilərəm?! Mənim yeməyim Allahdan öynəbəöynə gəlir. Mənim yeməyim yox, işməyim yox. Allahtala nə göndərsə, onu yeyirəm.

Dedi:

– İcazə verərsən bu gecəliyə bu binada qalax, bizə soyux dəyməsin.

Dedi:

– Nə deyirəm, qalın.

Bılar qaldılar. Ərşi-əladan beş isdəkan çay gəldi, beş qab xörəh gəldi, beş dəs yatıb-duracax gəldi. Abid çayın birin işdi, xörəyin birin yedi, yatıb-duracağın birində yatdı. Dedi ki, yəqin Allah-tala yeyib-işməyimin, yatıb-duracağımın beş öynəsini birdən göndərib. Odu ki, qalanını da yığdı bir qırağa.

Bılar da quru yerdə uzanmışdılar, aj-susuz yatmışdılar. Səhər açıldı. Sübh tezdən genə məlakələr ərşi-əladan beş istəkan çay, beş qab xörəh, beş yatıb-duracax gətirdilər. Genə abid fikirrəşdi ki, yəqin genə Allah-taalanın başı qarışıx olacaq, ona görə beş öynənin yeməh-işməyini birdən göndərib. Dedi ki, birini yeyərəm, qalanını qoyaram bir qırağa.

Peyqumbər əlehsalam dedi:

– Abid.

Dedi:

– Bəli.

Dedi:

– Get gör qabdakı yeməh aşıb-daşıb?

Abid getdi, qabı aşdı, gördü qabda dünyanın ən nalayiq şeyləri var. Allah-tala abidin ruzusun kəsmişdi.

İmam Həsənnən İmam Hüseyn bütün bunnarı gördü. Gecə yol gəldilər. Bir kolluğa çatanda peyqumbər əlehsalam naxırçıya dedi:

– Oğul, gəlsənə bırdan qayidəsən.

Dedi:

– Ora nədi?

Dedi:

– Kolluxdu.

Dedi:

– Yaxşı bax.

Bir də baxdı, gördü yaxşı bir bağdı, arvadı çarhovuzun qırağında paltar yuyur, oğlu oyniyir, inəyi ottiyir, balası da yanında.

Dedi:

– Get, a bala, yaşa, ağ gün gör.

İmam Həsənnən İmam Hüseyn başa düşdülər ki, ibadətdən səxavət yaxşıdı.

## SƏXAVƏT

Kasıp bir kişi varmış. Madar bir oğlu olur bı kişinin. Uşax beş-altı yaşına çatanda kişi qızıl tapır. Kişi bu qızıldan ona-buna sələm paylıyır, xeyli varranır. Bir gün kişi ölür. Qızılın yerini nə arvadına, nə oğluna deyir. Oğlan səfeh livasda gəzib-dolaşır, axdarır. Qızılı tapammıyıp peyğəmbəri axtarmağa başlıyır. Peyğəmbəri tapır. Görür ki, peyğəmbər durup kiminin arxının suyunu artırır, kiminінkini azaldır. Oğlan peyğəmbərdən atasının qızıllarının yerini soruşur, deyir:

– Ya peyğəmbər, qızılları tapsam, onnan çoxunu kasıp-kusupa paylıyacem, bir azını da xərcdiyəcem.

Peyğəmbər Allahın yanına gedir, deyir:

– Ya İlahi, bir oğlan gəlip atasının qızıllarının yerini soruşur. Deyir, qızılları tapsam, çoxunu kasıp-kusupa paylıyacem, bir azını da özüm götürəcem.

Allah cavab verir ki, oğlana de, getsin atası basdırılan qəbirsannığa. Atası bütün ölülərnən gözünə görsəneceh. Atasınnan xəbər alsın, deyəceh yerini.

Peyğəmbər Allahın sözlərini oğlana çatdırır. Oğlan atası basdırılan qəbirsannığa gəlir. Görür ki, budu, ölülər gəlir, atası da qabaxda, başı adam başıdı, bədəni itdi, bir əyağı da axsıyır, ölülər onun atasını döyür. Oğlan atasınnan qızılların yerini soruşur. Kişi cavab verir ki, qızıllar qoşa çinarın arasındadı.

Peyğəmbər oğlana deyir:

– Hələ qızılı tapmağa tələsmə. Yerdən növbəynən üç daş götür. Yer ayrılaceh. Bax gör, nə görürsən?

Oğlan peyğəmbərin dediyi kimi də elədi. Yerdən bir daş götürdü. Gördü ki, yer ayrıldı, bir qapı açıldı. Gördü, bir oğlan oturup, qabağında yeməh var, amma yatıp-durmağa paltar-palazı yoxdu. Ev sahibi oğlanı görüp dedi:

– Qalsan evindi, getsən yolundu.

Oğlan geri qayıtdı. Yerdən ikinci daşı götürdü. Gördü, yer ayrıldı, qapı açıldı. Gördü, bir oğlan oturup, qabağında paltar-palaz var, yeməyə heş nəyi yoxdu. Ev sahibi oğlana deyir:

– Qalsan evindi, getsən yolundu.

Oğlan geri qayıtdı. Üçüncü daşı götürdü. Yer ayrıldı, qapı açıl-

dı. Gördü, gözəl bir oğlan oturup, evində hər şey var. İki qab yemək gəldi qabaxlarına. Başdadılar yeməyə. Bir ilan gəldi, ev sahibinin boğazınnan çaldı, yediyinin hamısı zəhər olub töküldü yerə.

Oğlan ordan da geri qayıtdı. Gəldi evlərinə. Anasıynan qoşa çinarın arasını qazdılar, qızılları çıxartdılar. Oğlan dediyi kimi də elədi. Qızılın çox payını yetim-yesirə, kasıp-kusupa payladı, az bir payını özdərinə xəşdih götürdü.

Oğlan getdi peyğəmbərin yanına, gedi:

– Ya peyğəmbər, axı gördüyüm sirrər qarnımı dağıdır. Atamın bədəni niyə it bədəniydi? Ölülər onu niyə döyürdülər? Niyə birinci oğlanın qabağında yeməh varıydı, amma yatıp-durmağa paltarı yoxuydu? Niyə ikinci oğlanın qabağında pal-paltar varıydı, amma yeməh yoxuydu? Niyə üçüncü oğlanı ilan çaldı, yediyini zəhərə döndərip burnundan töhdü?

Peyğəmbər oğlana belə cavap verdi:

– Sənin atan kasıp-kusupu incidip günaha batmışdı. Ona görə də İlahi onun bədənini it bədəninə döndərmişdi. Atanı döyənnər sələm verdiyi kasıp-kusuplarıydı. Sən yeddi il yeddi yolun ayrıjında yetim-yesirə yeməh payla, onnan sora atanı sana göstərəcem. Birinci oğlanın yeməyi yeyiləndə xoşu gəlip, amma paltarı əyaxlananda ürəyi gedip. Odu ki, Allah ona yeməyi bol verip, amma paltar, mitil vermiyip. İkinci oğlanın yeməyi yeyiləndə ürəyi gedərmiş, amma mitili, paltarı əziləndə xoşu gəlirmiş. Odu ki, İlahi ona yeməh vermiyip, paltar, mitil verip. Üçüncü oğlan hər cəhətdən adam olup. Qırx yaşına qədər çox hörmətdi olup. Qırx yaşında olanda on beş yaşında bakirə bir qıza böhtan deyip. Həmən qız indi doxsan beş yaşında bir qarıdı. İndi o qarının ləhnətdəməsidi, ilan olup oğlanı vurur.

Oğlan peyğəmbərin bu sözdərini eşidip dedi:

– Ya peyğəmbər, gedip o qarıdan halallıx alsam, oğlanı bağışdıyarmı?

Peyğəmbər cavap verdi ki, hə, bağışdıyar.

Oğlan dedi:

– Əyər bağışdamasa, dalıma alıp gətirəcem. Yorulanda səni çağıracem, gələrsən.

Oğlan gedip qarını tapdı. Bazarrıx eliyip verdi qarıya ki, qarı

nənə, yaxşı bir aş bişir, oturax yeyəh. Qarı aş pişirdi, oğlannan oturup yedilər. Oğlan dedi ki, bəs filan vaxt filan adam sənə böhtan deyip. Onu halal elə.

Qarı dedi:

– Yox, onu halal eləmərəm. Allah ona lə'nət eləsin.

Oğlan qarını götürüp aldı dalına, yola düşdü. Bir xeyli gedənnən sora yorulup peyğəmbəri çağırdı. Peyğəmbər gəldi, qarıya dedi ki, sənə böhtan deyən o adamı bağışda.

Qarı dedi:

– Yox bağışdamaram, Allah ona lənət eləsin.

Peyğəmbər üzünü tutup Allaha, dedi:

– Allah, sən mənim sözümü göyərt.

Allah peyğəmbərin sözünü göyərtdi: qarını on beş yaşlı qız elədi. Peyğəmbər ona böhtan deyip günaha batan oğlannan oların kəbinin kəsdi.

Oğlan evlərinə qayıtdı. Yeddi il yeddi yolun ayrıcında yetim-yesirə yeməh payladı. Bunnan sora peyğəmbər atasını göstərdi ona. Gördü ki, atası öz şəkilindədi – başı adam, bədəni it bədəni deyil ta. Atası dedi:

– Bala, Allah sənin dizində ağ tüh göyərtsin, mənim günahımı yudun.

**ÜÇ QIZ**

Biri varıydı, biri yox idi, bir kişi varıydı. Bu kişinin amın-zamın bicecə qızı varıydı. Bı kişinin üzdən irax bir ulağı, bir də bir iti varıydı.

Günnərin bir günündə bu kişinin qızına üş yerdən elçi gəlir. Qız bir, elçi də üç. Bu kişi qalır neyniyim-neceliyimdə. Deyir: "Barilahı, mən necə elçiləri kor-peşman qəytərim qapımnan".

Kişinin illacı kəsilir, elçilərin üçünə də söz verir. Elçilər qəyidillə, gedillə əvlərinə. Munun üzdən irax ulağı da boğaz imiş, iti də. Bu Allaha xoş gəlir, gətirir ulağa da qız verir, itə də.

Gün o gün olur ki, gəlillə qızı aparsınna. Qızdarın üçün də aparılla, gedillə.

Bir il geşdi, üç il geşdi, beş il geşdi, kişi getdi qızdarın görsün. Kişi getdi çıxdı əzəl ifdarda qızdarın birinin evinə. Gətidilə, yedilə, işdilə, kişiyə hürmət elədilə. İndi yatanda kişi oğlannan soruşdu:

– Qıznan nətər irəfdar eliyirsən, nətərdi qız? Sa dirseh-zad görsətmir ki?
Oğlan dedi:
– Əşi, Allah sənnən də irazı olsun, sənin qızınnan da. Çox yaxşıdı, sözdə-salahdadı, əncəh hordan az qalır adamın suratın it kimin çığarıhsın.
Kişi barmağın dişdiyir ki, bu itdən olan qızdı.
Kişi qəyidir gəlir əvinə. Bir neçə gün geçənnən sora gedir o biri qızın əvinə qonax. Genə yeyillə, içillə, sohbət eliyillə, yatanda kişi soruşur giyəvinnən:
– Qıznan irəfdarın nətərdi, nətər yola gedirsiz, qonum-qonşuynan nətərdi?
Giyəvi muna cavab verir:
– Əşi, Allah sənnən də irazı olsun, sənin qızınnan da irazı olsun. Çox yaxşıdı, ama hordan eşşeh kimi bir damarı var, tutur, dediyinnən dömmür. Qızın munnan başqa eybi yoxdu.
Kişi bilir ki, bu da eşşehdən olan qızdı. Kişi qəyidir gedir əvinə. Ara səhliyənnən sora gedir o biri qızın evinə. Ordan-burdan deyillə, danışılla, dilləşillə, çöreh yeyillə. Çöreh götürülənnən sora gədə avrada deyir:
– Əəz, bizim dədənnən artıx qonağımız olmeceh ki? Get bir qarpız gəti, kəsəh.
Qız gedir bir qarpız gətirir, gədə əlində qarpızı fırradır, deyir:
– Bu kaldı, get o birisin gəti.
Qız gedir, genə həmin qarpızı qəytərip gətirir. Gedə genə qarpızı alıp fırradır, deyir:
– Bu da marrammıyıp, get başqasın gəti.
Qız gedir genə o qarpızı qəytərir gətirir. Xulaseyi, qırh dəfə dönə belə dabanqırma gedir-gəlir, gedir-gəlir, elə həmin qarpızı gətirir. Axırımcı dəfə oğlan qarpızı alır, fırradır, deyir:
– Hə, bu qarpız qarpızdı.
Qarpızı yeyənnən sora durulla, girillə yerə yatmağa. Bu kişi giyəvinnən xəbər alır:
– Qıznan salahıyatın nətərdi, irəfdarınız necədi, necə yola gedirsiz?
Gedə cavap verir:
– Allah sənnən də irazı olsun, sənin qızınnan da. İrəfdarlıdı, çox yaxşı candı, cannara dəyən candı. Əşi, bizim bicecə qarpızı-

mız cəmi var idi. Mən munu qırh dəfə dabandömməzə döndərdim, bicə dəfə demədi ki, ə, zalım oğlu, sənin cəmi bicə qarpızın var, bu əziyyəti maa niyə verirsən. Halal süd əmmiş adamdı, Allah irazı olsun munnan.

Kişi barmağın dişdiyir ki, bu öz qızıdı.

İndi ay əmin qurbən, bu dünyanın adamı üş diritdi: it cinsi, eşşeh cinsi, bir də adam cinsi. Bu adamlar qarışıpla bir-birinə, hər xasıyatda adam var.

## QİSMƏT ALLAHDANDIR

Bir kasıp kişi olur, adı Paşa olur. Paşa bir gün eşidir ki, Allah hamıya qismət paylıyır. Tez gəlir Allah-talanın yanına, deyir:

– Ey Allah-tala, maa da bir qismət ver, gedim uşaxlarımı dolandırım.

Allah deyir:

– Ey mənim bəndəm, bütün qismətdəri paylamışam, elə bir qismət qalmıyıb ki, saa verim.

Bir neçə gün keçənnən sora Allah Paşaan yanına çağırıp deyir:

– Ey mənim bəndəm, mənim bircə qismət payım qalıb, gəl onu saa verim.

Paşa deyir:

– Ey Allah-tala, o nədi?

Allah deyir:

– Ey mənim bəndəm, qismət payınnan bircə atıjılıx qalıb. Get bir yay, bir ox al, başda atıjılığa.

Paşa çox fikir eliyir, deyir:

– Ey Allah, maa möhlət ver, gedim məslahat eliyim.

Allah deyir:

– Get məslahat elə.

Yazıx Paşa gəlir kəndə, ağıllı kişilərə məslahat eliyir. Hamı deyir:

– Ay Paşa, Allahdan böyüh bir kəs var? Hamını Allah xəlq eliyip, nə qismət verirsə, ona da yəə dur.

Paşa deyir:

– Ey kəndin ağsakqalları, mənim səkkiz-dokquz uşağım var, mən onnarı atıjılıxnan nətəər dolandırım?

Deyillər, Allahın saa acığı tutub, ona gora saa həylə qismət verip, biz neyniyəh?

Yazıx Paşaan alajı kəsilir, gedip bir yay, bir ox alır, gətirir əvə. Çox fikir eliyir, görür kü, atıjılıxnan bı kətdə dolana bilməyəcəh. Arvadına məslahat eliyir, deyir:

– Arvad, gəlsənə, biz bırdan köçəh bir ayrı şahın ölkəsinə?

Arvadı bına razı olur. Nəysə, onnar köçüllər Şah Abbas deyilən bir şah varımış, onun ölkəsinə. Bir neçə ay yol gedənnən sora onnar çatıllar Şah Abbas yaşıyan şəhərin kənarına. Yazıx kişi bilmir neynəsin, bir mağara tapır, uşaxlarımı içinə yığıp başdıyır ox-yayını düzəltməyə. Ancax yazıx kişini bırda kim tanıyır ki, ona iş də gördürə. Bir neçə ay iş görə bilmir, yalannan oxu atıb-tutarmış, deyərmiş: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm".

Şah Abbasın bir vəziri varıydı, adı Qara Vəziriydi. Qara Vəzir ölkəni gəzərmiş. Şəhərin qırağınnan keçəndə görür kü, bir səs gəlir. Çox fikir verir, görür səs bir mağaradan gəlir. Atın sürür mağaranın yanına. Görür ki, mağarada bir kişi, bir arvat var, səkkiz-doqquz da uşax var. Kişi elə öz-özünə deyir: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm". Qara Vəzirə heş fikir vermir. Paşa kişi buna fikir vermədiyindən Qara Vəzir acıxlanır. Deyir:

– Ay kişi, adamın əvinə qonax gələndə adam qonağa belə hörmət eliyər?

Yazıx Paşa neyləsin? Deyir:

– Ay qonax, Allah maa nə verip ki, saa da verim, qonağ eliyim, deyim düş qonağım ol?

Vəzir Paşaya deyir:

– Ə kişi, hələ sən maa de görüm, sən kimsən, haradan gəlipsən, kimnən icazə alıp bura düşüpsən? Torpax yiyəsiz dəyil, torpağın yəəsi var, genişməmiş bırda yurd salıpsan.

Paşa çox fikir eliyip deyir:

– Düz deyirsən. Maa düzünü de görüm, sən kimsən, təhər-töhrünnən böyüh adama oxşuyursan?

Qara Vəzir deyir ki, kişi, mən Şah Abbasın vəziriyəm. Paşa deyir:

– Vəzir sağ olsun, mən elə sizi deyip gəlmişəm.

Vəzir deyir:

– Onda gəl belə bir iş eliyəh.

Paşa deyir:

– Nə iş?

Vəzir deyir:

– Gərəh bı işi Şah Abbas bilməsin, nə qazansan, onun yarısı mənim olsun.

Paşaan əlajı kəsilip vəzirə deyir ki, noolar, razıyam.

Vəzir atı sürüp gəlir. Paşa başdıyır yayın-oxun işdətməyə. Nəqədər işdiyirsə, elə hey deyir: "Gördüyümü görmüşəm, bildiyimi bilmişəm".

Bı sözdər dilinnən düşmür. Ama nəkqədər işdəsə də, əlinə heş bir şey keşmir.

Günnərin bir günü Şah Abbas Qara Vəziri çağırıp yanına dedi ki, səhər çıxaceyih vilayatı gəzməyə. Şah Abbas öz vəziri-vəkiliynən çıxır vilayatı gəzməyə. Qara Vəzir elə hey istiyir ki, Şah Abbası Paşaan daxmasınnan yayındırsın, olmur. Şah Abbas hər yerə baş çəhməh istiyir. Paşaan daxmasının yaxınnığınnan keçəndə Şah Abbas səs eşidir. Yaxınnaşır, görür, içəridən səs gəlir, kimsə deyir:

– Gördüyümü görmüşəm, bildiyimi bilmişəm.

Şah soruşur:

– Vəzir, bı nə deməhdi?

Vəzir deyir:

– Şah sağ olsun, elə bir şey dəyil.

Padşah atının boynunnan vırıb gedir Paşaan mağarasına sarı. Şah çağırır, deyir:

– Ay əv yiyəsi, bir çölə çıx.

Paşa görür ki, bı kimdisə vəzifəli şəxsdi. Çölə çıxır, görür ki, doğrudan da, təhər-töhürünnən, nəm-nişanınnan elə padşahın özüdü. Şah Abbas kişidən soruşur ki, ə kişi, sən nə vaxtdan bırda olursan? Qara Vəzir tez Paşıya göz vırır. Paşa deyir:

– Şah sağ olsun, elə iki-üş gündü ayrı vilayatdan gəlip düşmüşəm bıra.

Şah atdan düşdü, girdi mağarıya. Paşa ürəhdən utandı, ama fikirrəşdi ki, elə şah mənim belə dolanmağımı görsə yaxşıdı. Bəlkə maa rəhmi gəldi. Şah Abbas gördü ki, mağarada heş nə yoxdu, uşaxlardı, ər-arvatdı, bir də bir ox-yaydı. Şah soruşdu ku, kişi, bı nədi?

Paşa dedi:

– Şah sağ olsun, bı atıjılıxdı, bınnan dolanıram. Allah bını maa qismat verip. Şah sağ olsun, uşaxları dolandıra bilmirəm, atıjılıxnan çörəh qazanmax olmur.

Şah qayıdıp ata mindi, getdi sarayına. Aş bişirtdirdi, bir mecmahıya qoydurdu, altınnan da qızıl düzdü, nökərə verip Paşaan daxmasına göndərtdirdi. Tapşırdı ki, aşı göndərəən adın deməsin. Bəli, nökər gətirip aşı verdi, çıxıp getdi. Paşa fikirrəşdi ki, elə bı aşı göndərim Qara Vəzirə, bəlkə, maa dəyip dolaşmıya. Qara Vəzir aşı yeyənnən sora görür, aşın altı qızılnan doludu.

Deyir:

– Sən bı kişinin bijdiyinə bax, gör nəkqədər qızılı var ki, maa da bir mecmahı göndərip.

Bir müddət keçir, padşah ata minip gedir Paşanı yoluxmağa. Gedir görür, elə Paşa genə cındırın içindədi. Bir söz demiyip qayıdır. Bazardan bir xeyli balıx aldırır, arvadına tapşırır ki, balıxların qarnın yar, arasına qızıl doldur. Arvad da yekə balıxları yarıb qızılı doldurur, xırda balıxlar qalır. Nökər balıxları gətirib Paşagilə verir. Paşa arvada deyir:

– Arvad, xırda balıxları bişir, yekələrin aparım verim vəzirə.

Elə də eliyillər. Vəzir balıxların qarnınnan qızılları götürür.

Bir-neçə vaxdan sora padşah genə gəlir Paşanın daxmasına. Görür genə bir həsirdi, bir də Məmmədnəsir. Şah Abbas şübhələnir, öz-özünə deyir: "Bırda nəysə var". Genə bir söz demiyip qayıdır. Paşıya bir eşşəh göndərir, palanın da içinə qızıl düzdürür, nökərə tapşırır ki, denən, eşşəynən meşədən odun qırıp gətirip satsın. Ama nəbadə palanı sata, ya da gözdən qoya.

Paşa bir müddət elə də eliyir. Görür bınnan da bir şey çıxmadı, deyir, aparım eşşəyi satım. Bu yanan da Qara Vəzir Paşanı güdür, bic adammış, bilir ki, bə eşşəyin palanında qızıl var. Xülasə, Qara Vəzir bazarda bir adama pul verir, deyir:

– Get o eşşəyi al.

O adam eşşəyi alıp gətirir. Qara Vəzir palanı götürüp eşşəyi verir həmən adama. Bı yannan da Şah Abbasın adamları güdür, palanı alanları izdiyillər, görüllər, Qara Vəzirdi. Şah Abbas atını sürür Paşaan daxmasına. Deyir:

– Ə kişi, mən saa aş göndərmişdim, o aşı neynədin? Ama düzünü de.

Paşa baxır ki, gizdətməyin yeri yoxdu, deyir:

– Şah sağ olsun, apardım Qara Vəzirə verdim.

Şah deyir:

– Kişi, bə balıxları neynədin?
Deyir:
– Balıxların da xırdasın pişirip yedih, yekələrini aparıp verdim Qara Vəzirə.
Şah Abbas bı işdən qəzəbləndi. Qara Vəzirin boynun vırdırdı, Paşanı gətirip özünə vəzir qoydu. Ama beş günən sora Paşa öldü. Bına gora deyiplər ki, qismət Allahdandı, adamnan dəyil.

## SÜLEYMAN VƏ BAYQUŞ

Deyilənlərə görə, Süleyman həm peyğəmbər, həm də padşah imiş. Davud peyğəmbərin oğludur. Quşların, heyvanların dilini bilirmiş. Süleyman peyğəmbər özünün kiçik arvadını çox sevirmiş, onu hər şeydən qısqanırmış.
Ona görə də arvadı tələb edir ki, mənə quş sümüyündən elə bir imarət tikdir ki, çöldən baxan heç kim məni görməsin, mən isə hamını görüm.
Süleyman arvadın sözünü yerə salmır, xəbər edir ki, dünyada nə qədər quş varsa, bir yerə yığışsınlar.
Quşlar yığışır. Süleyman soruşur ki, quşların hamısı gəlibmi?
Cavab verirlər ki, təkcə bayquş gəlməyib. Süleyman peyğəmbər əvvəlcə adam göndərir, bayquş isə imtina edir, gəlmir. İkinci dəfə yəhərli at göndərir (bunu ələ salmaq mənasında), bayquş yenə də imtina edir. Peyğəmbər deyir ki, o, itə layiqdir, ona görə də it göndərin. İt gedir, bir az sonra bayquş itin üstündə gəlir.
Süleyman gülür və ona rişxəndlə deyir:
– Adam göndərdim, at göndərdim gəlmədin, indi iti minib gəlmisən?
Bayquş cavab verdi ki, mən adamla ona görə gəlmədim ki, adam hövsələsizdir, yavaş gəldiyim üçün məni vurub öldürərdi. Atla da ona görə gəlmədim ki, yəhərli at düşmən malıdır, yolda qabağımıza çıxan adam məni görüb atın üstündən yerə ata bilərdi və özü atı minib gedərdi. Mən itləri çox vəfalı bildiyim üçün onunla gəldim.
Süleyman peyğəmbər baxdı ki, bu düz danışır, deyəsən, ağıllı quşdur. Ona görə də qərara gəldi ki, bayquşa bir neçə sual versin.
Süleyman dedi:
– Dünyanın keçmişi çoxdur, yoxsa gələcəyi?
Bayquş cavab verdi ki, keçmişi çox olsa da, keçib gedib, gələ-

cək çoxdur, ağıllılar gələcək üçün fikirləşməlidirlər.

Süleyman peyğəmbərin o biri sualı belə oldu:

– Dünyada kişi çoxdur, yoxsa qadın?

Bayquş dərhal cavab verdi:

– Dünyda arvad çoxdur, kişilər azdır.

Peyğəmbər etiraz etdi:

– Mən hara baxıram kişi görürəm, kişi çoxdur.

Bayquş razılaşmadı:

– Qadın qadındır, qadının ağzına baxan kişilər də qadındır.

Peyğəmbər dedi ki, buna sübut?

Bayquş cavab verdi ki, sən peyğəmbərsən, həm də padşahsan, arvadının tapşırığı ilə dünyanın quşlarını buraya toplamısan ki, onları qırıb quş sümüyündən imarət tikdirəsən, arvadın isə sümüklərin arasından çölə baxa, özü görə, özgələr onu görməyə. Ona görə də sən özün də kişi deyilsən!

Süleyman peyğəmbər sanki yuxudan oyandı, öz-özünə dedi ki, doğrudan da, mən bu qədər canlının qanına nə üçün bais olum?

Bayquş Süleyman peyğəmbərə dedi ki, adam göndər çayların, göllərin kənarındakı qamışları qırsın, ondan saray tikdir, arvadın da o qamışın arasından çölə baxsın. Qadın hamını görəcək, onu isə heç kim görməyəcək.

Süleyman peyğəmbər bayquşun ağlına əhsən dedi və bayquş üçün hər gün üç sərçə cirə kəsdi. Qalan bütün quşları azad etdi, bayquşa da "bəy quş" adı verdi.

İndi də hər gün üç sərçə bayquşun sərəncamına gedir, ikisini başına dolandırıb buraxır, birini yeyir.

## SÜLEYMAN PEYĞƏMBƏRLƏ QARI

Süleyman peyğəmbərin atası bir qız isdiir. Qız deer ki, maa əhdi-peyman eylə ki, sənin nə varın-döylətin varsa, məndən olan oğluna verəjsən. Bu da bunu deyir. Sora həmən kadının altı-yeddi oğlu olur. Ama birinci oğlu Süleyman olduğuna görə varının hamısın verir Süleyman peyğəmbərə. Süleyman peyğəmbər də, rəvayətə görə, üş yüz il yaşıyır. Bir gün yolnan gedirmiş, görüf ki, cavan bir qız oturuf tikilinin qabağında. Bu qıza nəysə çox könlü yatır.

– A qız, məə gələrsənmi?

Qız diib:

– Məmuniyyətlə gələrəm.

Diib ki, ala onda üzüyü, tax barmağına. Üzüyü verir qıza, taxır barmağına. Gedir, günorta gəlir, görür ki, burda orta yaşlı kadın oturupdu. Buna heş nə demir, çıxır gedir. Bir də axşam gəlir ki, burda bir qoja arvad oturuf. Çox ayna-bəynə baxır, qoja arvad diir:

– A oğul, nə gəzirsən?

Diir:

– Bırda bir cavan qız var, mən onunla əhd-peyman eliyif iş üçün gəlmişəm.

Deef ki, o mənəm. Deef ki, beylə şey olmaz. Diir ki, o mənəm. Səhər-ertə cavan qız oluram, günortalar da orta yaşlı kadın oluram, axşam da bax belə, qoja oluram. Diif:

– Onda a qarı nənə, üzüyümü ver.

Diif ki, bu otduğun evin üstünə çıx, üzüyün ordadı, atmışam ora. Kişi çıxıf görür ki, burda okqədər üzüh var Süleyman adına. Deef ki:

– A qarı nənə, Süleyman adına olan üzüh bircə məndədi. Axı sənin üzüyün bırda okqədər var ki.

Diif:

– Oğul mən qoja dünyayam. Sənin kimi yüz Süleyman yola salmışam.

## ELYAS PEYĞƏMBƏR

Eylas peyğəmbərin dişi ağrıyırmış, arvadına deyir ki, çıx el yoluna, gör kim gedirsə, çağır, gəlsin söhbət eliyəh, dişimin ağrısı yadımnan çıxsın. Arvad da el yoluna çıxır. Görür ki, yolnan bir qoja kişi gedir. Qoja arvadı görüf soruşur ki, yolda niyə durmusan? Arvad cavab verir ki, ərimin dişi ağrıyır. Məni göndərdi ki, yoldan keçəni çağırım söhbət eləsin, başı qarışsın, diş ağrısını yadınnan çıxartsın. Qoja deyir:

–Mən gedif söhbət eliyərəm.

Qojadan gəlişinin səbəbini soruşur. Qoja Eylas peyğəmbərə deyir:

– Cavannıxda addı-sannı bir pəhlivanıdım. Mənim bir pəhlivan dostum varıydı. Gözəl bir qız istiyirdi, qız da onu istiyirdi. Müharibə düşdü. Dostum öz sevgilisiynən müharibədə öldü. Gətir-

dim onnarı sizin bu yerdə basdırdım. Onnarın hərəsini bir qəbirə qoydum. Amma gördüm qəbirrər birrəşdilər. Əlaşsız qaldım, onnarı bir qəbirdə basdırdım.

Eylas peyğəmbər deyir:

– Qəbri açax.

Qəbri açıllar, görüllər ki, sevgililər, elə bil, indijə basdırılıf. Elə bil uzanıb yatıplar. Eylas peyğəmbər əlini çəkir sevgililərin kürəyinə, ayılıllar. Qoja bir ah çəkir. Peyğəmbər soruşur ki, niyə ah çəkdin? Qoja cavab verir ki, kaş mən də bunnarnan öləydim, indi bunnarnan barabar da dirilip yaşıyaydım. Peyğəmbər qojanı da cavannaşdırır. Eylas peyğəmbər deyir:

– Qəbrin üstündə bitən ağaç sənin öz şallağının sapıdı. Sən qəbrin yanında qoyuf getmişdin, gördüm, qəbrin başdaşı yoxdu, götürdüm şallağın sapını-çubuğunu sancdım qəbrin baş ücünə, göyərdi belə ağaş oldu.

## ƏZRAYILIN KİRVƏLİYİ

Bir kasıp oğlan varmış. Gedir beş qardaşın bir bajısın alır. Amma beş qaynınnan heş biri onun qapısını aşmır. Oğlan uşaxlarına sünnət eləməh istiyir. Heş kim ona kirvə olmax istəmir. Oğlan deyir: “Belə ki oldu, onda ölsəm, bınnan yaxşıdı”.

Evdən baş götürüp gedir ki, özünü atsın dənizə. Allah-tala çıxır qabağına. Soruşur ki, hara gedirsən, niyə gedirsən? Cavap verir ki, mən kasıbam, heş kim mana kirvə olmax istəmir, gedirəm özümü atam dənizə.

Allah-tala deyir:

– Mən sana kirvə olaram.

Oğlan soruşur ki, sən kimsən?

Deyir:

– Mən Allah-talayam.

Oğlan deyir:

– Elə sənsən bütün bu işdəri törədən, sənsən birini varrı, birini kasıp eliyən.

Allah-tala görür ki, yox, oğlanı yola gətirə bilmiyəcəh, gedir Azrayılı göndərir. Deyir:

– Get, filan yerdə belə bir oğlan var, özünü dənizə atmax isti-

yir, ona kirvə ol.

Azrayıl gəlir. Oğlana deyir:

– Mən sana kirvə olaram.

Oğlan soruşur ki, sən kimsən?

Cavap verir:

– Azrayılam.

Oğlan deyir:

– Hə, sənnən mənimki tutar. Çünkü sən heş kimə fərq qoymursan, hamının canını alırsan.

Onnar razılaşıllar. Azrayıl deyir:

– Sən kasıpsan, pulun yoxdu. Sən belə eləmə. Filan yerdə bir padşah var, oğlu xəstədi, padşah loğman axtarır oğlunu sağaltmağa. Gedərsən o padşahın imarətinə, deyərsən mən təbibəm, gəlmişəm oğlunu sağatlmağa. Aparacaxlar səni oğlanın yanına. Baxarsan, mən oğlanın baş tərəfində dursam, onda demə ki, oğlan sağalceh. Sən deyərsən ki, xəstəyə əlaş yoxdu. Yox əgər oğlanın ayax tərəfində dursam, deməli, oğlan sağalacax, sən deyrəsən ki, xəstəni sağaldacem.

Oğlan Azrayılın dediyi kimi eliyir. Gəlir padşahın sarayına, deyir ki, mən təbibəm. Onu aparıllar padşah oğlunun yanına. Oğlan görür ki, Azrayıl xəstənin ayax tərəfində durup. Odu ki, deyir:

– Oğlanı sağaldaram.

Allah-talanın köməyiynən oğlan xəstəni sağaldır. Padşah oğlana çoxlu qızıl-gümüş verir. Oğlan gəlip özünə yaxşı ev-eşih tikhdirir. Qayınnarı bu cah-calalı görənnən sora gəlillər bajısıgilə. Deyillər:

– Səhv eləmişih, qələt eləmişih, gərəh sizdən üz döndərmiyeydih.

Oğlan qayınnarını bağışdıyır. Məclis qurulur. Oğlan Azrayılı çağırır. Azrayılı kirvə tutur. Oğlannarını sünnət elətdirir.

Aradan xeyli vaxt keçir. Azrayıl gəlir ki, kişinin canın alsın. Kişi on il də ömür istiyir. Allah-tala ona on il də ömür verir. On ildən sora Azrayıl gəlir kişinin canın almağa. Kişi deyir:

– Qoy çıxım, bir dünyaya baxım, sora al canımı.

Kişi çıxır, dünyaya baxır, qayıdır, Azrayıl onun canını alır.

## ƏZRAYILIN KƏLƏYİ

Dəryaynan bir gəmi gedirdi. Tufan qopdu, bı gəmi dağıldı. Necə oldusa, gəmidə olan bir hamilə qadın sağ-salamat qaldı, ölmə-

di. Qadın iki dənizin ortasında olan bir quru yerə çıxdı. Arvad bırda da doğdu. Onun bir oğlan uşağı oldu. Allah Əzrayıla əmr elədi ki, o arvadın vaxtı tamamdı, get onun canın al. Əzrayıl gedif arvadın canın aldı.

Bir astanın balası olmuşdu. Allah həmən astana əmr elədi. Aslan gedif iki dənizin arasınnan uşağı götürdü, çıxartdı qırağa. Uşax astanın südünü əmif böyüdü.

Bir çoban varıdı, onun oğlu-uşağı olmurdu. Həmən çoban meşədə bı oğlanı götürdü, adını da Məhəmməd qoydu.

Bir gün Əzrayıl boz atın üstündə gedirdi. Gedirdi bir adamın canını almağa. Əzrayıl Məhəmmədi görən kimi tanıdı ki, iki dənizin ortasında doğulan oğlandı. Əzrayıl atı verdi Məhəmmədə, dedi:

– Bı atı tut saxla, amma minmə.

Əzrayıl gedənnən sora oğlan sıçrıyıp atın belinə mindi. Gördü, dünya bir xəlvir kimi görsənir. Oğlan başa düşdü ki, bı atın yiyəsi Əzrayıldı.

Əzrayıl qayıdıp gəldi. Gördü ki, oğlan atın üstündədi. Oğlana dedi:

–Atdan düş, qardaş olax.

Məhəmməd atdan düşdü.

Dedi:

– Qardaş olax, amma bir şərtim var: mən kəlmeyi-şəhadətimi axıra qədər demiyənə kimi canımı almıyasan.

Vaxt keçdi, dövran dolandı, bir gün Əzrayıl gəldi ki, bəs Məhəmməd, kəlmeyi-şəhadətini de, canını alecem. Məhəmməd kəlmeyi-şəhadətin yarısın dedi. Üzünü Əzrayıla tutdu ki, bəs, qalanını da yüz ildən sora deyəjem.

Əzrayıl Məhəmmədin canını ala bilmədi. Axırı yekə bir qəbir qazdı. Məhəmmədə dedi:

– Gəl, gir bı çalıya, gör bıra yerləşirsənmi?

Məhəmməd qəbrin içinə girəndə Əzrayıl onun canını aldı.

## ƏZRAYILIN ƏDALƏTİ

Bir kişi qapı-bajanı bağlıyır. Bir qızı varmış, onu qoyur evdə, deyir:

– Gedirəm qonşu kəndə, üç günnən sora qayıdacem, ev-eşihdən muğayat ol.

Qız evdə oturmuşdu, gördü ki, bir oğlan peyda oldu. Qız qaldı məəttəl. Dedi:

– Ay oğlan, sən kimsən?
Oğlan dedi:
– Mən Əzrayılam, gəlmişəm sizin kəttə Kalvatı var, onun canın almağa.
Qız deyir:
– Kalvatı çox yaxşı adamdı, onun nə pisdiyi olub ki, onun canın alırsan? Yazıxdı , onun canın alma.
Əzrayıl dedi:
– Yox, almağına alecem, ama sən də gələrsən onnara. Bircə sənin gözdərinə görsənecem. Görərsən, onun canın nejə alıram.
Qız gəlir Kalvatıgilə, görür ki, Əzrayıl çöküb kişinin sinəsinə, onu çox əzabnan öldürür. Kalvatıya zülm verə-verə başını kəsir. Qız qayıdır evlərinə. Bir gün keçir. Sabahısı oğlan yenə peyda olur. Qız soruşur ki, indi kimin canın almağa gəlmisən?
Oğlan deyir:
– Sizin kənddə bir qarı var, indi də gəlmişəm onun canın almağa.
Qız deyir:
–Yaxşı eləmisən, o qarı çox pis qarıdı, elə onun canı nəqqədər tez alınsa, okqədər yaxşıdı.
Oğlan deyir:
– Sən də gələrsən qarıgilə, sənin gözünə görünecem, baxarsan, görərsən qarının canın nejə alıram.
Qız gəlir qarıgilə. Görür ki, oğlan genə peyda oldu. Çıxartdı bir dəstə gül iylətdi qarıya. Qız oğlannan soruşur ki, bu nə işdi? Kalvatı çox yaxşı adam ola-ola, sən onu əzabnan öldürdün, ama qarı çox pis adamdı, sən ona bir dəstə gül iylədib öldürdün? Oğlan deyir ki, bir gəlin gəldi o Kalvatı qəssabın yanına. Onnan bir kilo ət istədi ki, aparsın balalarıynan yesin, neçə günüydü ki, acıydılar. Gəlin ət istiyəndə Kalvatı ət vermədi. Gəlin korpeşman qayıtdı. Yolda gördü ki, bir küllühdə bir toyuq var, haram olub atıblar küllüyə. Gəlin haram toyuğu götürür ki, gətirsin evlərinə, balalarıynan yesin. Qarı görür ki, gəlin küllühdən nəsə götürdü. Soruşdu:
– A gəlin, o nədi küllühdən götürdün?
Gəlin dedi:
– Heç nə.

Qarı çox məcbur elədi, gəlin dedi ki, bəs bu haram toyuxdu, küllühdən götürdüm ki, aparam balalarımnan yeyəm. Qarı dedi:

–Apar onu at təzədənnən küllüyə.

Gəlin apardı atdı. Qarı getdi qəssab Kalvatıdan beş kilo ət aldı, verdi gəlinə. Gəlin apardı evlərinə. Odu ki, sənin yaxşı adam hesab elədiyin Kalvatı cəhənnəmnik oldu, sənin pis adam saydığın qarı behişdik oldu.

## BELƏ DƏ QALMAZ

Bir kişiin çoxlu uşağı varımış. Bı kişi oğlan uşaxlarınnan biriin qonşu şaha qul verir. Bir müddət keçir, anası deyir:

– Ay kişi, get gör oğlumuz neyniyir, necə yaşıyır?

Kişi heybəsini doldurup yola düşür. Gəlip görür ki, oğlu cüt sürür, oğluun halına yanır. Oğlu deyir:

– Ata, qayıt öz vilayatımıza, keçip gedər, belə də qalmaz.

Kişi kor-peşman qayıdıp gəlir. Bir müddət keçir, genə arvad deyir:

– Ay kişi, bir get gör oğlumuz neyniyir, necə yaşıyır?

Kişi genə heybəsin doldurup düşür yola. Gəlip görür ki, oğlu bı dəfə işdiyənnərin başı üstədi. Deyir:

– Bala, allaha şükür, cütdən canın qurtarıp.

Oğlan gülüp deyir:

– Ata, belə də qalmaz.

Kişi sevinə-sevinə qayıdıp gəlir.

Genə bir müddət keçir. Arvad genə bını yolluyur hal-əhval bilməyə. Kişi gəlip görür ki, bı vilayatda hamı qara geyinip, soruşur:

– Noolup?

Deyillər:

– Bəs vilayatın padşahı ölüp.

Bəli, kişi oğluynan görüşür, oğlu bına deyir:

– Ata, belə də qalmaz.

Bir müddətdən sora kişi genə gəlir, görür ki, hamı qırmızı geyinip. Soruşur ki, noolup, hamı qırmızı geyinip? Deyillər ki, bəs padşahlıx quşunu uçurtdular, vilayata təzə padşah tikdilər. Kişi gəlir, görür ki, padşah seçilən bının oğludu, ölən padşahın arvadını da veriplər bına. Deyir:

– Bala, Allaha şükür kü, padşah da oldun.

Oğlan gülüp deyir:
– Ata, bu da keçər, belə də qalmaz.
Bəli, kişi qayıdıp gedir. Bir müddət  də keçir. Kişi qayıdıp oğlunu yoluxmağa gələndə görür ki, vilayət genə qara geyinip. Soruşup bilir ki, bəs padşahın arvadı ölüp. Kişi bına ürəyində sevinir, deyir, oğlum cavan adamdı, ölən köhnə padşahın arvadıydı, mənim oğlumun tayı dəyildi, indi özünə uyğun arvad alar. Gəlir oğlunun yanına. Ürəyindəkiləri oğluna da deyir. Oğlu genə gülüp deyir:
– Ata, belə də qalmaz.
Bir xeyli vaxt keçir. Kişi oğlunu yoluxmağa gəlir. Bını ağlıya-ağlıya qarşılıyıllar. Kişi görür ki, genə hamı qara geyinip. Soruşur, ağlıya-ağlıya deyillər ki, bəs sən gedənnən sora oğlun– bizim padşahımız azarradı, indi də ölüp. Kişi başına-gözünə döyür, oğluun sözdəri yadına düşür. Deyir ki, bəs, mən hər dəfə oğlumun yanına gələndə o maa bı sözdəri deyərdi : "Ata, belə də qalmaz". Deməynən, taleh Allahdandı, necə yazılıpsa, elə də olaceh. Ona göra da deyillər ki, alnaa nə yazılıpsa, o da olur.

## KASIB OĞLANLA PADŞAH

Bir patşah olur, çox da yaşdı olmur, orta sinnidə olur. Bının vilayətində bir qarı vardı, onun da bir oğlu vardı. Bı oğlan görür ki, bayramda, çərşənbədə, toylarda hamı bəzənir-düzənir, bı lüt, heş bi şey yoxdu geyməyə. Gəlir, deyir:
– Aneyi-mehriban, bilirsən nə var?
Deyir:
– Nədi?
Deyir:
– Mən də filankəs kimi geyinməliyəm.
Deyir:
– Ay bala, onun atası var, anası var, dövləti var, varı var. Mən qoja qarıyam, cəhrəynən ip əyirip çörəh alıp yeyirih. Mənim bınnan artıx gücüm heş nəyə çatmır.
Oğlan deyir:
– Ya mən deyən olmalıdı, ya bı vilayətdən çıxajem.
Arvat çox deyir, bı az eşidir. Axır ki...
– Ana, ta mən getməliyəm.

Çıxır şəhərin kənarına. Görür ki, tacir gəlir, deyir:

– Tacir ağa, olar ki, mən də sənnən gedəm? Nə yüküm, nə karvanım var. Heş zadım yoxdu. Elə-belə yetim oğlanam, dolanmax üçün bir çarə axtarıram.

Deyir:

– İndi ki, elədi, onda mənim yanımda qal, köməh elə, dolandırım səni.

Deyir:

– Yox, mən bı şahın vilayətinnən çıxmalıyam.

Deyir:

– Yaxşı.

Minir dəvənin belinə, gedir başqa vilayətə çıxır. Tacir deyir ki, oğul, mənim altı ay yolum bı başadı, altı ay da o başadı. Altı ay tamam olanda bırdan geri qayıdajem. Tacir özünə layix pal-paltardan da alıp verir oğlana. Bir əz də xəşdih verir ki, dolan. Tacir gedir, oğlan qalır bırda. Bı valayətdə belə qayda-qanun varmış ki, kim ki, bir uşağı götürüp köynəyinin altınnan keçirərmiş, onu əvlatdığa götürərmiş. Oğlan gəzip dolanır, bir tacirə rast gəlir. Tacir deyir:

– Kimsən, nəçisən, hansı vilayətdən gəlmisən?

Deyir:

– Ha belə, dolanışıx axtarıram, başqa vilayətdən gəlmişəm.

Deyir:

– Qal mənim yanımda, işlə.

Axşam oğlanı da götürüp aparar evə. Tacirin də övladı yoxmuş.

Deyir:

– Maa oğullux eliyərsən?

Deyir:

– Eliyərəm.

Deyir:

– Elə ki eliyərsən, onda gətisinnər köynəhdən keçirsinnər.

Oğlanı köynəhdən keçirip oğulluğa götürüllər. Tacir baxır ki, bı oğlan çox fərasatdıdı. Deyir:

– Oğlum, bir tükan da aşsam işdədə bilərsən?

Deyir:

– İşdədərəm.

Tacir gətirir, o malları ki, tükanda yığılıp qalmışdı, satılmırdı,

onnarı verir oğlana. Bı oğlanda o qədər gözəllih, o qədər mərifət varımış ki, elə istər-istəməz hamı gəlir bının bı insaniyyətdiyinə, bı gözəlliyinə mayıl olur. Hamı gəlip bınnan alver eliyərmiş. Bir müddətdən sora oğlan deyir:

– Tacir ağa, tükanda ta heş-zad yoxdu, satmışam hamısını.

Tacir deyir:

– Bı nə sirridi? Mən neçə ildi o şeyləri sata bilmirdim, əlimdə qalmışdı, sən onnarı nejə satdın, nə təhər satdın?

Gəlir görür, doğrudan da, tükan boşdu, oğlan şeylərin hamısın satıp. Deyir:

– Yaxşı.

Elə qutunun qapağını qaldırır, görür ki, həddindən artıxdı, bir maata olan şeyi iki maata satıp. Tacir pütün tükannarın ixtiyaratın verir bı oğlana. Bütün məmləkətə səs düşür ki, tacirin bir oğlu var, həm camalca gözəldi, həm qabiliyyətcə insan adamdı. Pətşahın da bir qızı varmış. Bu səs ki, pətşahın qızına çatır, çatanda bı qız qəlbində oğlana vırılır. Deyir: "Bı nejə adamdı ki, şahların adın kölgədə qoyup,aləmə səs salıp". Qız icazə alır atasınnan, bir dəsdə qıznan gəlir. Qız bir könüldən min könülə vırılır bı oğlana. Vırılır, gedir atasının yanına, deyir:

– Ata, bilirsən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Ata, mən filankəsin oğluna gedəjəm.

Atası deyir:

– Nejə yani, filankəsin oğluna gedəjem?

Nə qədər eliyir, olmur. Axırda adam yolluyullar, axşam tacirin oğlunu çağırıllar patşahın yanına. Söhbətdən sora pətşah deyir:

– Mənim bir qızım var, onu verəjem saa.

Deyir:

– Sən şah, mən bir qərib, yetim oğlan. Mənə nə layıxdı ki, sənin qızıı alam.

Şah nəkqədi bına başa salır, oğlan qəbul eləmir.

Qız deyir:

– Ata, indi ki, həylədi, mən bir kələh işdədəjəm.

Deyir:
– Nə kələh işdədəssən?
Deyir:
– Mən bir fənd işdədərəm, işi düzəldərəm.
Qız yenişə-yoxuşa gəzir-dolanır, bı oğlanın hansı vilayətdən olduğunu örgənir. Örgənənnən sora gəlir deyir:
– Ata,  bilirsən nə var?
Deyir:
– Nə var?
Deyir:
– İndi sən mənim  boyum barabarında bir yəşih qayıtdır.
Patşah bir usda çağırtdırır, qızın boyu barabarında bir yəşih qayıtdırır. Elə yəşih qaytdırır ki, içinə bir damcı su keşmir. Qız yeşiyə elə yeməhlər qoydurur ki, yeyəndə çölə çıxmağa ehtiyaş qalmasın. Saşdarın da iki-iki, üç-üç burdurur, oturur yeşihdə, deyir:
– Ağzını bağlayın, aparın qoyun şəhərə, deyin, ay yeşiy alan, alan da peşmandı, satan da. Heş kəs almıyacax. Bir fırıldax eləyin verin o oğlana. Qoy məni götürsün, aparsın.
Razılaşdılar. Yeşiyi götürüp aparıllar şəhərə: "Ay yeşih alan, alan da peşmandı, satan da", – dəə-dəə gedillər.
Oğlan tükanda işlədiyi yerdə görür ki, belə bir yeşih satıllar. Fikirrəşir, deyir: "Əə, boş yeşiyin nəyi var ki, alanda peşmançılığ ola". Çağıtdırır yeşih satannarı:
– Əə, neçiyə verirsıız?
Başqalarına: "Min manat, iki min manat" demişdilərsə, bına deyillər: "Əlli manat". Oğlan  pulun verir, yeşiyi alır. Hamballara deyir:
– Əə, bını küşdən qoyun, dursun orda.
Bınnar yeşiyi qoyup oənə gedən vaxt tacir altı aylıx səfərinnən qayıdır. Tacir gəlir:
– Salaməleykum.
– Əleyküməsalam.
Görüşür-öpüşür.
– Oğul, kefin, damağın?
Oğlan deyir:
– Kefim yaxşıdı. Ha belə, bir yeşih almışam. Bını  gedəndə apararsan, verərsən anama. Boş yeşihdi, çörəhdən-zaddan qoya.

Tacir deyir:
– Yaxşı.
Ama nə tacir soruşur, nə də oğlan maraxlanır ki, bı yeşih nejə açılır, bının açarı hanı? Tacir yeşiyi qoyur dəvənin birinin üsdə, düz gətirir verir qəriyə. Elə tacir oənə gedən kimi qəri fikirrəşir ki, açar yoxdu, nəynən aşsın? Bir qırıx dəhrəsi varmış, dəhrənin ujuynan qanırır, yeşiyin qapağını qoparır. Qopardanda qəri istiyir çığırsın, qız deyir:
– Çığırma, məni sənin oğlun alıp, siyasətnən göndərip bıra ki, heş kəs bilməsin. Səs salıp eləmə.
Qəri səsin çıxartmır. Görüşüllər, öpüşüllər, xoş-beş on beş.
Deyir:
– Qəri nənə!
Deyir:
– Nədi?
Deyir:
– Bı şəhərdə bir babat tikili yoxdu, onu alax da?
Deyir:
– Başaa dönüm, gəzim-dolanım, baxım da.
Deyir:
– Afsanat ev olsun ee, uçux-söküh olmasın.
Razılaşdılar. Qarı düşür, bu dərə sənin, o dərə mənim. Deyillər:
– Pətşahın dədədən qalma bir tikilisi var. Onnan savayı tikili yoxdu. O da ki, satmaz.
Gəlir qıza deyir ki, belə.
Deyir:
– Neynəh, pətşahın olsun. Get pətşahı çağır, denən ki, tikilini sat maa.
– Ay qızım, axı mənim pətşahın yanında nə işim var?
Deyir:
– Sən get tikiliin isdə.
Gedir patşahın yanına.
– Ay qəri nənə, xoş gəlmisən. Qəri nənə, sən hara, bıra hara?
Deyir:
– Gəlmişəm də.
– Nə əcəp? Nəə gəlmisən?

Deyir:
– Qoja arvadam da, quru torpağın altında canım çıxır. Deyillər, dədədən qalma bir tikilin var, gəlmişəm onu almağa.
Pətşah gülür. Fikirrəşir ki, qəri maa zarafat eliyir, mən güləm.
Deyir:
– Həə, satıram.
Deyir:
– Neçə verim?
Deyir:
– Qəri nənə, nə kefin isdiyir ver.
Deyir:
– Yox, şah sağ olsun, qiymətin de.
Deyir ki, məsələn, üş min tümən.
Pətşah zarafatcan deyir.
Deyir:
– Qibleyi-aləm, birin keş maa, qoja arvadam daa.
Deyir:
– Baş üsdə.
Pətşah da elə bilir, zarafat eliyir da qəri.
Deyir:
– Minin keşdim.
Deyir:
– Oğlum gedip, qəriblihdədi, minin də keş ona.
Deyir:
– Keşdim.
Deyir:
– Oldu min tümən da?
Deyir:
– Hə.
Deyir:
– Onda kağız yaz, möhür vur.
Pətşah kağız yazır, möhür qoyur. Qəri pulu verir, kağızı alır. Pətşah qalır məətdəl. Qəri gəlir qızın yanına. Gejəynən qəriyə pul verir, yaxşı usdalar tapdırır, tikilini bəzədir, düzədir, hər işdəri gördürür. Qəriynən qız gejəynən köçüllər, gedillər ora. Pətşah bir gün gəzməyə çıxıpmış. Qız da həmən gün oturupmuş balqon-

da. Pətşah gəlip bırdan keçəndə baxır ki, belə... bir qız durup ordan baxır. Deyir:

– Əə, vəzir, bı nədi, bı nə sirdi?

Deyir:

– Hal-əhvalat belə daa, qərinin əvidi bı əv, qız da bilmirəm nə qızdı, kimin qızıdı.

Pətşah atı sürür illap yaxına. Baxır ki, doğrudan da, bı qız nazənin sənəmdi, oturup. Pətşah bir kouldan, min koula qıza aşiq olur. Qız görür ki, əhvalı dəyişdi, pətşahın halını pozmur.

Pətşah gəlir, çıxır taxda, deyir:

– Vəzir, o qərinin qızını almax lazımdı.

Deyir:

– Əə, əvıı xuda-kərim yıxsın, qərinin qızı nə qəyirir?

Qərinin bircə dənə oğlu var, o da itkin düşüp, deyillər, çıxıp, qoyup gedip əənə, qərinin qızı nə qəyirir?

Orda qız da qəriyə deyir ki, qəri nənə, ətini şişə taxalar, boynaa alma ha, əhvalat bu yerdədi. Alma, alsan mən gedəjem, oğlun da havayı gedəjeh. Desələr, denən, qonşuun qızıymış gəlip bıralara, mən heş görməmişəm.

Pətşahın adamları gəlir. Nəkqədə eliyillər, qəri boynuna almır, deyir:

– Mənim qızım nə qəyirir? Bir oğlumdu, o da çıxıp gedip, qürbət eldədi, itgin düşüp.

Gəlip pətşaha xəbər verillər. Pətşah deyir:

– Noolur olsun, yerin deşiyində də olsa, mən qızı tappalıyam.

Otuz iki dişin altınnan çıxan söz otuz iki aləmə yayılır. Bir tək özün saxladın, saxladın, saxlamadın, bir ayrısına dedin, yayılajex aləmə. Bırdan-ordan örgənir pətşah əhvalatı. Pətşah götürür bir namə yazır oğlana. Yazır ki, səni qız alan yerdə belə olasan, elə olasan. Gəldi bırda məni öldürdü, indi kef çəkir. Qərinin dilinnən yazır. Naməni aparıp çatdırıllar oğlana. Oğlan fikirrəşir yenişə, fikirrəşir yoxuşa, başa düşür ki, ey dili-qafil, nə fırıldax varsa, o qutunun içindədi. Tacirin yanına gəlip deyir:

– Ateyi-mehriban, icazə ver mən gedim. Anamdan belə məhtub almışam.

Razılaşdılar. Nejə ata-oğul kimi halallaşıllar. Xəşdih-zad da götürüp oğlan yola tüşür. Tüşür yola, axşam qarannıx tərəfi gəlir.

Gəlir görür, əə, anasının daxması nə qəyirir?! Xarabadı, yerində durup, ama qəri yoxdu. Oğlanın huşu başınnan gedir. Deyir: "Yazılan gerçəhdi da". Bir oturur, ağlıyanan sora görür ki, bir nəfər gəldi. Soruşur, deyir:

– Qardaş, bırda belə bir qəri olurdu, o hanı?

Deyir:

– Əə, zalım oğlu, qəri nə qəyirir? Qəri fılan pətşahın tikilisin alıp kef çəkir.

Deyir:

– Nə danışırsan? Nə tikili, nə kef çəkir qəri?

Oğlan gəlir həmən tikiliyə. Həmən vaxtdı da qəri əvdə yoxmuş. Oğlan gəlir, görür anası yoxdu, deyir, elə namədə yazılan düzümüş, qız anamı öldürüp. Oğlan xənjəri çıxardır, qızı vırır. Heş nə ağın soruşur, nə qərəsin. Qızı vırır, qız ölümcül yaralanır. Qan tutan adam, dəəllər, yeriyə bilməz axı. Quruyur belə qalır. Anası o vaxt yetirir, görür, oğlan əyax üsdə quruyup qalıp, qızı da qan aparır.

Deyir:

– Oğul, sən gələn yollara daş yağaydı. Qara yola, qara sahada gələydin. Belə kisməti, belə ürüsxəti əldən alallar, ay bədbaxt oğlu?

Qəri yenişə-yoxuşa fikirrəşir, deyir:

– Oğul, ta bir işdi olup. İndi ki, belədi, mən bunu dünyasında torpağa qoya bilmənəm. Bı sirr açılar. Qoyax yeşiyə, atax dərya-ya, hara aparar, aparar.

Razılaşdılar. Yeşiyə qoyup atıllar dəryaya.

Bir vilayətin pətşahı gejə yatır, yuxuda görür, dəryaynan bir şey gəlip. Tezdən durur əyağa, deyir:

– Ə, vəzir, bilirsən nə var?

Deyir:

– Nə var?

Deyir:

– Yuxuda görmüşəm, dəryada bir şey var. Qəvvazdarı göndərmişəm dəryaya. Yuxunun gerçəyi də olar. Gedəh dəryanın qırağına.

Gedillər dəryanın qırağına. Qəvvazdara deyir:

– Odu eey, bir şey gəlir. Onu gətirin bıra. Dünya malı olsa sizin, insan olsa mənim.

Gedillər sandığı çəkillər, gətirillər, açıllar, görüllər bir nazənin

sənəmdi, heç üzü baxmalı dəyil, ama xənjəl də vırılıp ürəyinin başına, ölümcüldü. Tez pətşah həkim çağırtdırır, həkim deyir ki, iki ilə mən bını sağaldaram.

Pətşah deyir:

– Əgər sən bını iki ilə sağaldıp insan kimi mənə versən, üç özün ağırrıxda qızıl verəjem sənə.

Razılaşdılar. Gətirir bir ilə xənjəri ordan çəkir. İkinci ilə sağaldır. Vax gəlir, iki ili tamam olanda pətşah çağırır həkimi, qızılı verir, deyir:

– Ananın südü kimi halal olsun!

Pətşah qıza deyir ki, bəs mən bu qədər xərş çəkip səni sağaltmışam, gərəh mənə gedəsən.

Deyir:

– Mən sənə gedirəm, ama mən nəqədər ola, gənə zənən xəylağıyam, heç olmuya, üç ay vaxt ver, qoy yaxşılaşım, sora razılaşarıx, toy elə, kef sənindi, istəyirsən heç eləmə.

Aldadır da pətşahı. Razılaşıllar. İndi qəriynən oğlan neyniyir? Oğlan deyir ki, mən gərəh özümü öldürəm. O paxıllıx eliyən pətşah da deyir ki, mən gərəh o qıza oxşar bir qız alam, bəlkə onda ürəyim sakitdəyə. Bu pətşah pətşahlığı-zadı tərgidir, özünü vırır məmləkətə.

Qız bir gejə yatır, baxır ki, babatdaşıp. Deyir, noolur-olsun, mən o qərib oğlana ərə getməliyəm. Gejəynən durur, asda qaçan namərtdi, qaçır. Zənən xəylağı, heş bir yeri tanımır, qaçhaqaç qaçır, gəlir görür ki, bir yonjalıxdı, bağlıxdı. Həə, orda söyüd ağacı var, dibində də bulax var. Bırda bir az su içir. Qadın xəylağı, qaşmış adam, fikirrəşir ki, ta günüz mən heş yana gedə bilmənəm. Çıxır söyüdün arasında gizdənir. Gizdənir ki, axşam düşsün, gejə olanda qaçım, bı pətşahın torpağınnan aralaşım. Şahın da bı bağı qoruyannarı var axı, böyründə tapança, çiynində tüfəng, belində xəncəl. Qoruxçu gəlip bırdan keçəndə isdiyir ki, atın suvarsın, nə qədər eliyir, at suya yaxun durmur. Bı, şallaxnan vırır bir-iki dəfə, deyir:

– Kopoolun atı, gündə işdiyin sudu da, burda nə var ki, işmirsən?

Çox vırır, yox eey, at deyir, vır, öldür məni, girmənəm.

Qaravul atdan düşür, yüyəninnən tutur, gedir suyun qırağına. Baxır insan şikili var suda. Deyir:

– Əə, bu nədi?
Bunu bir vahimə tutur. Deyir:
– Əə, bırda zənən nə qəyirir?
Deyir: “Yəqin məni qara basır”.
Bir də dəqiq baxır, deyir, yox, zənən xeylağıdı. Deyir:
–Ay qız, kimsən?
Qız deyir:
–Ədə, səs salma, dinmə.
Dinmir. Deyir:
–Dinmə, tüşüp gəlirəm.
Tüşüp gəlir. Deyir ki, mənim başıma belə bir müsibət gəlip. Bı pətşah məni almax isdiyir. Mən də dedim, itə gedim, qurda gedim, bu pətşaha getmiyim, indi ki, məni kisəmt gətirip saa çıxardıp, elə saa gedəjim, ama pətşəh bilsə, səni də öldürər, məni də. Gəl siyasət işdədəh.
Dedi:
– Nə işdədax?
Deyir:
– Sən üst paltarıı çıxart ver maa, mən də üst paltarrarımı soyunum verim saa. Minim sənin atına, at sizin qapıya gedəcəh da, özgəsinin qapısına getmiyəcəh ha, at məni aparsın sizin qapıya, sən də daldan gəl çıx. Kimdi səni axtaran?
Razılaşdılar. Bılar paltarı dəyişdilər.
Deyir:
– Oğlan, harda gəlip çatsan bir dəst paltarın, bir atın, bir tüfəngin-nəyii götümüşəm verərəm.
Qız ata mindi, qaş ki, qaçasan.
Bir şəhərin pətşahı ölmüşmüş, pətşah seçirmişdər. O vaxtdar hansı pətşahın övladı yoxdu, quşu buraxarmışdar, kimin başına qonsa, onu pətşah elərmişdər. Qız gedir həmən şəhərin qırağında bir qəriyə qonax olur. Özü də kişi paltarında. Oturullar, söhbət eliyillər. Deyir:
– Qəri nənə.
Deyir:
– Nədi?
Deyir:

–Axı, bırda təbil var, bu nə təbildi?

Şah qızıdı, bilir hər şeyi.

Deyir ki, oğul, bizim pətşahımız ölüp, indi sabah dövlət quşu buraxajehlər, kimin başına qonsa, onu pətşah eliyəjehlər. Ona görə təbil vırılır.

Deyir:

– Qəri nənə, tamaşa eləməh isdiyirsən?

Deyir:

–Yaxşı.

Səhər açılır. Gedillər ora. Məhlux yığılannan sora kuşu bıraxıllar. Kuş dövr eliyir, hərrənir, gəlir qonur bu "oğlanın" başına. Gəlillər bını aparıllar.

–Bəs sən kimsən?

Deyir:

– Qəribəm, yol adamıyam, qərib vilayətdən gəlmişəm.

Dedilər:

– Kopoolun quşu avaralıyıp, bı qədər adamı bıraxıp, gedip tanınmaz-bilinməz bir adamın başına qonup. Yəqin çaşıp daa.

Həə, kuşu bir də aparıllar, genə bıraxıllar, genə bı kuş gəlip bı "oğlanın" başına qonur. Deyillər:

– İndi ki, belədi, sən bı məclisdən çıx get.

Deyir:

–Yaxşı.

Bı qarını da götürür gəlir. Girillər dama. Kuşu genə bıraxıllar. Kuş bajadan gəlir qonur "oğlanın" başına. Deyillər:

– Ərənnər üçə deyip, kuş üş dəfə yanılmaz.

Üçüncü dəfə buraxıllar. Kuş genə gəlip "oğlanın" başına qonur. Razılaşıllar, "oğlanı" pətşah eliyillər. Çox rəhmdil, çox ədalətdi, çox bajarıxlı pətşah olur. Özü də oğlan paltarı geyip, heş kim bilmir bını, maxlux bunun canına qurban deyir.

Bu bir gün fikirrəşir ki, məni axı dörd-beş adam axtarır. Məni dirildən pətşah da axdarajeh, bı qaravılçı da məni axdarajeh, qərip də axdarajeh, paxıl pətşah da axdarajeh. Götürür bir dəst yaxşı paltar geyinir. Bəzənir-düzənir, girir bir otağa. Vəzir-vəkili çağırır.

Deyir:

– Bilirsiz nə var?

Deyillər:
–Nə var?
Deyir:
–Bir şəkilçəkən gətirin.
Gedip bir şəkilçəkən gətirillər. Şəkilçəkənə deyir ki, get bir sahatdan sora gəlginən mənim xanımım var, onun şəklini çək. Şəkilçəkən nə bilir ki, bı arvaddı, ya kişidi. Şəkilçəkən gedənnən sora vəzirə tapşırır ki, şəkilçəkənə de, gəlsin fılan otağa. Gedir girir otağa, bəzənir-düzənir. Şəkilçəkən gəlir onun şikilin çəkir. Şikilçəkənə deyir:
– Bını qəşəh böyütdürürsən.
Vilayətdən gedən yol ayrıjında bir bulax varmış, o bulağın qırağında bir mehmanxana tihdirir. Gələn-gedən qalır orda. Şikili vırdırır ora, ora da gündəlih adamlar qoydurur. Deyir ki, hər kəs o şikilə baxıp bir söz desə, onu tutup gətirin mənim yanıma.
Bə qoruxçu ki, vardı, onun mənzili yaxındı, bı qoruxçu hamıdan tez gəldi çıxdı bı vilayətə. Gəlip çıxanda baxdı, dedi:
– Boynun sınsın, ay mənim kimi kişi, səni kişilığıynan o zənən aldatdı. Mən nə bədbaxt adamam.
Bunu tutdular, apardılar pətşahın yanına. Pətşah bını görcəh tanıdı. Dedi ki, bına bir yer ayırın. Yeməyini-işməyin verin. Mən nə vaxt çağırsam gətirərsiz.
Bir müddət sora qızı dirildən gəlir bı vilayətə. Gəlir, şikili görən kimi deyir:
– Boynun sınsın, canım, mən də vilayətə şahlıx eləməh isdiyirdim, şaxlıx belə olar eey.
Bını da tutub gətirillər. Qız bunu da tanıyır. Adamlarına deyir:
– Buna yaxşı qullux eləyin. Mən nə vaxt çağırdım onda gətirərsiz mənim yanıma.
Bir az aradan keçər. O pətşah ki, bına bayıs olmuşdu, gəlir bı vilayətə, bı şəkili görəndə deyir ki, həyif saa, həyif saa. Dəəndə bunu da tutup aparıllar. Bunnan da başına gələn əhvalatı soruşdu vəzirin-vəkilin yanında. Bu da dedi ki, belə olup, bəşməkan olup.
Deyir:
– Bını aparın, elə yeməh verməyin ki, doya. Elə yeməh verin ki, qala aj. Ta bına ölüm cəzası vermir.

İlaxır bını vıran qərib oğlan gəlip çıxır. Şəkili görəndə ürəyi gedir, yıxılır yerə. Bını tutullar, gətirillər. Nişannısı bını tanımır, bı oğlanı tanıyır. Deyir ki, oğlan, kimsən, nəsən? O şikil nədi ki, kimdi ki, sən ona baxdın, belə oldun?

Deyir:

–Vallah, heş mənim deməyə taqətim çatmır, heş mənim dilim gəlmir. Çağıtdırır bu oğlanı da, verir birinə. Deyir:

– Apar bını yaxşı yedirt-içirt, yaxşı istirahət eləsin. Vax gələndə mən çaarram.

Bunu da aparıllar.

Bir gün taxtda vəzir-vəkili yığır, deyir:

–Vəzir!

Deyir:

– Nədi?

Deyir:

– Şikilin yanında adamlar tutup gətmişih, bu gün onnarın məhkəməsidi.

Xəbər verillər, məxlux yığılır. Buların dördün də gətizdirir. Bir-bir danışdırır. Birinci kişi deyir ki, ha belə, mənim paltarımı-zadımı əlimnən aldı o şikildəki qız.

Deyir:

– Gətirin bının paltarın-zadın verin, bı xəş qoyup da, bı kişi günahkar dəyil.

Bına iki at verillər, hər nəyin alıplar, onu verillər.

Qızı dirildən deyir ki, bı şikili olanın yolunda ağırı qızıl vermişəm.

Deyir:

–Vəzir, özünün dörd ağırı qızıl ver, yola sal, bı da getsin.

İndi bı pətşah ki, bayıs olup, bı bayıs olan pətşahı danışdırır, deyir ki, bəs belə, bu cür vəziyyət oldu, bais oldum.

Deyir:

– Bunu aparın o dar ağajının yanında saxlıyın.

Bını aparıllar dar ağajının dibində saxlıyıllar.

Qızın nişannısı, qəribi gətirillər. Qərib də başına gələn rəvayəti başdıyır danışır. Deyir:

– Günahsız bir yerdən qana bayıs oldum. Şikili görəndə dəli olmuşam.

Dedi:
–Yaxşı, bunu da əyləşdirin qıraxda.
Əyləşdirillər.
Dedi:
– Cahamat, bu adamların dediyini sübuta yetirməh üçün mənə on beş dəyqa vax verin.
Vaxt aldı, girdi içəri. Kişi paltarın soyundu, töhdü yerə. Zənən paltarı geydi, çıxdı aralığa. Dedi:
–Ay cahamat, bu dörd adamın dördünün də dediyi adam mənəm. Ağbirçəklər, ağsakqallar, məni üzürlü sayın, mən zənənəm.
Döşün belə aşdı, xənjər yarasın göstərdi.
Dedi:
–Ay cahamat, indi nə deyirsiniz? Neyniyəh bu dörd nəfərə?
Gətdilər, bayıskar pətşahı dar ağajından asdılar.
Dedi:
– İndi özünüzə şah tutun, icazə verin mən getməliyəm, qəribin anası indi gözdüyür.
Məxlux dirəndi:
– Xudavəndi-aləm səni bizə bir məlaykə kimi göndərip, elə şey yoxdu, buraxmarıx səni.
Onnar sora getdilər qəribin anasın da gətdilər. O vilayətdə oğlannan xoşbəxt yaşadılar.

## SƏMƏRQƏND PADŞAHININ QIZI

Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn, ya İmam Hüseyn, özün yet bütün bəndaa dadına, biz də içində. Sən pis xalqı, xain xalqı həmişə pis günə qoy.
Deyir, oğul, günnərin bir günü, biri varıdı, biri yoxudu, Allah varıdı, şəriki yoxudu. Allahın şəriki ola bilməz. Səmərqənd adında bir şəhər, bı sahatı da durur həmən yer, orada bir pədişah olur. Bir pədişah olur, bının övladı olmur. Günnərin bir günü baxır ki, qapıya dərviş gəldi. Cənabi-Əmirin qəsidəsin deyir, bının çox xoşu gəldi. Dedi ki, xəzinədara, gedin bına bir kəşkül – bıllarda çanax kimi kəşkül varıdı, mən gördüm bı dərvişdərdə, biz çanax diyirih, o kəşkülə çilə deyillər, yanı ki, on girvəngə tutan qab – mənim varımnan doldurun. Dedi:

– Əvin yıxılsın, bir belə?
Dedi:
– Sa dedim, apar!
Özü çıxdı küləfirəngidən baxdı, xəzinədar getdi, gətdi bını verəndə bı dərviş dedi:
– Əzizim, mən pay alan dərviş dəyiləm, pay verən dərvişəm. Ma pay lazım dəyil.
Dedi:
– Bəs neyniyim?
Pədişah eşitdi, dedi ki, o dərvişi çıxart bıra. Dərviş gəldi çıxdı, baş əydi, diz çöhdü. Pədişah yeridi bının qabağına, qoymadı. Dedi:
– Qibleyi-aləm, mən pay verməh üçün gəlmişəm, pay alan dəyiləm. Dünya malı mənim gözümün qabağında bir zibildi. Eşitmişəm sən çox gecə-gündüz ax-vaydasan, ayilən, özün, al bı almanı verirəm sənə, yarısın özün ye, yarısın ver aylaa, mən getdim, vaxt olar, gəlip çıxaram, payımı allam.
Aldı bı almanı, kəsdi yarısın verdi ayləsinə, yarısın özü yedi. Doqquz ay, doqquz gün, doqquz saat, gəldi Allah bir uşax verdi bına. Uşax verdi, bını verdilər dayəyə. Getdilər, gəldilər, o yan-bı yan, bıın adın qə qoyax, neyləyəh? Dedilər: "Adı Məhəmməd". Ya Məhəmməd peyğəmbər, özün yet dada. Adın qoydular Məhəmməd. Bı bını oqqədər istədi, oqqədər istədi ki, bını bir tikili tihdirdi, ayrıca qoydu bıra, mollanı da qoydu bıra. Dedi:
– Molla, bı uşax elmi qurtarana qədər nə ay görəcəh, nə gün görəcəh, nə ölkə görəcəh, nə insan. Gördü, səni öldüməliyəm.
Dedi:
– Baş üstə. Mənə nə var, səən uşağındı da!
Dedi:
– Nəqqədər haqqı eliyir, verəcəm.
Belə elədi, gətdi bını qoydu, oxutdu, ta o qədər ki, bir gün bıların dərsi gəldi çıxdı coğrafiyadan gün, ay, ildıza. Bı uşağ oxudu, dərrakəli uşağdı, baxdı, dedi:
– Molla, bı gün nədi, ay nədi, ildız nədi? Bax, bırda yazır, sən bını ma demirsən?
Gördü ki, ta bı yekəlip, on səkkiz-yirmi yaşı var bının.
Dedi:

– Sən öl, demədin, səni bı saatı bırda öldürəcəm.
Deyir:
– Yaxşı, mən gedirəm, o pərdəni çəkərsən belə, sən onda hər şeyi görəcəhsən. Ya da götü mürəkkəbqabın vırginən o pərdiyə, səən işin yoxdu.
Pərdəliyidi, heş tərəf görünmürdü. Gətdi bı uşax pərdəni vırdı, bı zaman gördü bir şey düşdü içəri, yüyürdü, bırda "çıp" elədi, orda "çıp" elədi. Bı gündü də, şüası düşüb.
O vədə molla qaşdı, dedi:
– Qibleyi-aləm, oğlun dərsi qurtarıb, özü də vəziyət belə olup, gedəh oğluu təhvil götü.
Gəldilər, gördülər bu uşağ oqqədər süpürləşib bı günnən ki, ta ölür, tər bını basıp. Molla gəldi, dedi:
– Ay oğul, o gündü, sən onu tuta bilməzsən, sən bir çölə bax.
Çölə baxanda baxdı ki, paa, sən ölmüyəsən, avçılar tulalı-mulalı gəlillər. Dedi:
– Ateyi-mehriban, bı nədi gəlillər dəzgahnan?
Dedi:
– Oğlum, onnar avçılardı, ova gediplər, ceyran ovuna, indi qayıdıp gəlillər.
Dedi:
– Bəh-bəh-bəh! Ay ata, bına mən də gedə bilərəm?
Dedi:
– Niyə getmirsən, oğlum? O da mənimkidi, mən yollamışam. Bə o yediyin ceyran əti həmən ovdu.
Çağırır, çox bı xalqa xidmət, nəzir-niyaz verənnən sora bı uşax tələsir. Deyir:
– Ata, ma qoşun ver, mən gedəcəm ova.
Dedi:
– Oğlum, qarıxma.
Getdi vəziri verdi bına, dedi:
– Vəzir, bu oğlumu təlimnən çıxart, örgət müharibəni, qılış vırmağı.
Onda qılış davasıydı da. Belə sən ma qəfildən vır, ölüm, belə şey yoxudu.
Vəzir bına tam örgətdi. Örgədənnən sora dedi:

– Qibleyi-aləm, hazırdı oğlun.
Deyəndə dedi:
– Gət yanıma.
Gətdi. Dedi:
– Oğlum, üş dənə şey atacam göyə, onu oxun ucuynan tuta bildin, billəm ki, hazırsan, tutmadın, buraxmıyacam.
Bının hamısın uşağ elədi. Dedi:
– Hə, oğul, indi hazırsan, gedə bilərsən.
Ağır qoşun verdi bına. Əhməd adında bir vəziri varıdı, ona dedi:
– Vəzir, məəm bı uşağımı öz qirənisəmnən yüz kilometir bəri apar, öyənə çıxdı olmaz.
Dedi:
– Baş üstə.
Getdilər çıxdılar, hesab elə, Noraşın sərhəddinə. Bir dənə ceyran çıxdı, bı uşax ceyran görmüyüp. Əmr elədi ki, o ceyran kimin tərəfinnən getsə, onun boynun vıracam.
Nə isə, bını arıya aldılar. Bı ceyran elə bir şeydi ki, ya gərəh vırasan, bı yaralana, getmiyə, ya da atdın dəymədi, bı getməlidi.
Dedilər:
– Ay qıbleyi-aləm, qoy vırax yaralıyax.
Dedi:
– Yox! Mən bını diri tutmalıyam.
Dedilər:
– Yaxşı.
Aldılar üzüh qaşı kimi arıya. Bı da Allahın işiydi. Ceyran sıxıldı, yığıldı bı oğlanın böyrünnən getdi. Gedəndə bı çox məyus oldu. Gördü belə ceyran gedir da. Bının da atı karrı at idi, pədişah atın yaxşısın verip. Atı döndərdi bının dalıncan. Ceyran getdihcən bı qavdı, getdihcən bı qavdı. Bı oqqədər qavdı ki, tamam uzaxlaşdı. Nəqqədər atı sürdülər bının dalınca, yetirəmmədilər. Vəzir qaldı naəllaş, dedi ki, onsuz da məni pədişah öldürməlidi. Mən bı qoşunu hara aparım, qırdırım?! Bı getdi öz qirənisəsinnən addadı İrana. Da bı bırdan o yana gedə bilmədi.
Getdi qabağı tüşdü bir cəzirəliyə, ceyrandı, özün verdi cəzirəyə, ondan sonra onu kim tapa bilər? Nəqqədər bı ceyranı hərrədi, üş gün-dörd gün bı meşədə bı yol tapbadı çıxmağa.

Vəzir də qayıtdı. Dedi:

– Qibleyi-aləm, bı başım, bı sənin qılıncın, o da cəllad. Vəziyət belə oldu, bı da xalq, mən yetirə bilmədim. Qirənisəni də keşməyə mənim ixtiyarım yoxdu. Bı bilmirdi ki, qirənisə nədi, bını keşdi bı. Mən ancax keçə bilməzdim.

Dedi:

– Vəzir, düz eləmisən. Allah vermişdi, aldı da. Mən nə dəə bilərəm.

Bı xalq eşitdi, bının bütün xalqlarının hamısı qara geyindi ki, bının qırxı çıxıncan biz qara geyinməliyih.

Üş gün, dörd gün keçənnən sora bı oğlan cəzireynən, meşəy--nən at sürür. Bı zaman gördü kü, belə bir şey işildiyir. Gördü kü, böyüh bir çay var. Getdi çıxdı bı çayın qırağına. Ac, susuz, pədişah oğlu. Atı çayın qırağıynan sürdüyü yerdə gördü ki, bir dənə bağdı, bının qapısına bir şikil vırıplar, özü də yazıplar ki, kim şiki-lə baxsa, boynu vırılmalıdı, kim bı bağa girsə, nəsli kəsilməlidi. Dedi: "Ə, mən onsuz da ölürəm, sən öl, bir bı bağa girəciyəm". Gəldi, baxdı, bir qız şikilində, ilahi-pərvərdigar, bını Allah elə bil ki, özü nurunnan yaradıp. Dedi: "Yaxşı". Gəldi qəşəhcənə bı qa-pını aşdı, atın da apardı, qolbənd elədi, ötüdü bı bağa. Gördü alma var, ac adam, bı almadan yedi. Bir xurcunu varıdı, bını da bı alma-dan doldurdu. Birəz gəzdi. Gəzdi, getdi gördü kü, bir havuz var, bının üstündə qaravat var, yorğan-döşək var. Dedi: "Yox e, bırdan çıxan dəyiləm, mən onsuz da öləciyəm, bırda yatmalıyam".

Bı söyündü, havızda qəşəh çimdi, özün yıxdı yorğan-döşəyə.

Bı kimin olsun, Səmərqənd pədişahının qızının. Bı yatmaxda olsun, üş gündü yuxusuzdu. Bu zaman qız deyir ki, qızdar!

Deyillər:

– Bəli.

Deyir:

– Gedəcəyih bağa.

Durullar, geyinillər, gecinillər, pədişah qızıdı, beləliynən gəlil-lər çıxıllar bağa. Güllü bağı varımış, bırda gəzirmiş. Deyir bı qul-luxçuya ki, get avtafanı doldur gəti, mən dəstəmaz alacam.

Getdi gördü bir şəkil düşüb suya. Elə bir oğlandı ki... Baxır bı suda nə var ki, mən neyniyim?! O yanə baxır, bı yanə baxır, belə baxanda görür ki, qaravatda bir oğlan yatıp, üzünün bir tərəfi dü-

şüp suya. Elə-belə bir gözü bında bı qarabaş aftafanı vırdı suya, gəldi, xanım əlin tutdu, əydi, su yoxdu.

– Ə, köpəkqızı, məni sarımısan, özüü?! Bı nədi?

Bir də qayıtdı. Qayıtdı, gənə gözü bı oğlanda aftafanı vıranda birəz su doldu. Gətdi bir də tökəndə yarısında qutardı (bilirsiz də dəstəmaz uzun çəkir).

– Ə, köpəkqızı! Tutun bını, asın!

Dedi:

– Xanım, məni asdırma, evin yıxılsın, mən gördüyümü sən görsəydin, bını da gətiməzdin.

Dedi:

– Nədi?

Dedi:

– Bıdı eyy...

Dedi:

– Nə danışırsan, mənim yerimdə insan yassın, bı nə deməhdi, qapıda şikilə baxmıyıp bı? Bı nə cəsarətdi, bı kimdi, bı özünnən deyən qoçax?

Hədəliyə-hədəliyə gəldi, dedi: "Bını öldüməliyəm, elə yerində öldürəciyəm". Qulluxçu dedi:

– Xanım, səni and verirəm səni-məni yaradan xəliqə, hirsin tutmasın, qılıncı qoy yerinə, ged o surətə bax, sora onu öldür, sora da məni.

Qılıncı taxdı yerinə, gəldi. Gəldi, baxdı gördü, vallah, bir oğlan yatıp, xudavənd-hədiyyət minbir qələm vırıp bına. Ürəhdən vırıldı bına. Dedi:

– Qızdar!

Dedilər:

– Nədi?

Dedi:

– Qızdar, bı oğlan bir həftədi ajdı, bının gözəlliyinin yarısı gedip, insanlığının yarısı gedip. Gedin düyü gətirin, hələ bı oğlan çox yatacax.

Getdilər düyü gətirdilər, yağ gətirdilər.

O qız dedi: "Mən pişirim"", bı qız dedi: "Mən pişirim". Dedi:

– Yox, bını mən özüm pişirməliyəm.

Özü bir yaxşı pilov pişirdi. Yedilər-işdilər. Bir qab çəhdi qoydu bir dənə qızıl mejmeyiyə, üstün çörəyin qoydu, üstünü mələfiynənmi, məhrəbiynanmı örtdü, dedi:

– Çıxın!

Ama iki kəllə belə qənd, bir az da saman bağladı bir güllü dəsmala, qoydu bının xurcununa.

Çıxdı getdi.

Oğlan durdu, gördü bir şey var bırda. Qızıl mejmeyi... pilov buğlanır. Dedi: "Xudaya, bını sən özün gətdin, ya bını eliyən eliyip?" Dedi: "Sən öl, bını yeməliyəm". Yedi, toqqanın altını bərkitdi, durdu tərpəndi. Tərpəndi, çıxdı bağdan, soruşdu: "Ay qardaş, bıra nə ölkəsidi, kimin ölkəsidi?" Dedilər: "Filan pədişahın". Baxdı gördü yox e, dədəsinin bırda izi-tozu yoxdu, bı gör nə qədər yol gedip. Belə-belə xəbərriynən, bıra filan yerdi, bırdan gessən, filan yerdi, sora sənin ölkəndi. Bı pulu yox, bir şeyi yox, ava getmiş adamdı. Bınnan xayiş elədi, biri bırdan ötürdü, biri ordan, bir ayamı, qırx günəmi gəldi çıxdı öz ölkəsinə.

Pədişah xəbər vermişdi: "Kim mənim oğlumun sağ gəldiyin maa desə, qoyup tərəziyə qızılnan çəkəcəyəm".

Nə isə, bir cütçü qoca cüt əkirdi. Gördü bir oğlan gəlir. Bı da axı bını görmüyüp. Birinci günü gəlip, ikinci günü də gedip ava.

Dedi:

– Ata, salammeleykim.

Dedi:

– Əleykiməsalam.

Dedi:

– Ata, işin irəli!

Baxdı gördü bu öküzdərin də üstünə qara çəkip, özü də qara geyinip, cütü də qara boyuyup.

Dedi:

– Ay ata, o nədi, öküzün qara, paltarın qara, cütün qara, bı nə deməhdi?

Dedi:

– Oğlum, bilirsən nə var?

Dedi:

– Nədi?

Dedi:
– Ürəyimi təzələmə. Bizim bir padişahımız var. Xudabəndi-hədiyyə sonnan-sona ona bir uşax vermişdi. Bıdı, bir aydı-qırx gündü bı uşax itib ava gedəndə. Hamımız qara geyinmişih. Bir-iki günə qırxı gəlir, paltarımızı onda dəyişəcəyih.
Dedi:
– Gə sa bir söz deyim.
Dedi:
– De.
Dedi:
– Cütü də qoy bırda, mən gözdüyürəm. Qaç pədişaha müjdə apar ki, oğlun gəlir.
Dedi:
– Ə oğul, nə danışırsan, sənsən?
Dedi:
– Hə.
Bı qoca, indi qaçır. Qoca qaşdı gəldi, rast çıxdı bir naxırçıya. Naxırçı qışqırdı:
– Ə, qoca, hara?
Dedi ki, neyniyirsən hara gedirəm? Dedi:
– Ə, ma de, bəlkə adam-zad gəlir, nətər, necə, niyə qaçırsan?
Dedi:
– Belə pədişahın oğlu gəlir, gedirəm muştuluğa.
Yavacca gəldi, bını tutdu, naxırçı adam... qolların bağladı, yıxdı yerə. Özü yüyürdü.
Yüyürdü getdi, rast gəldi pədişahın çobanına.
– Ə, naxırçı, hara?
Dedi:
– Heş yerə. Elə gedirəm.
Özü eliyip axı. Deyir, etmə, edəllər. Bir az getməmiş qarıxdı, dedi:
– Pədişahın oğlu...
Elə bildi tuta bilmiyəcəh.
Dedi:
– Ə, köpoyoğlu, qırx ildi mən pədişaha qulluğ eliyirəm, indi sən gedəsən...
Yüyürdü bını tutdu, əl-ayağın bağladı, dalına da bir-iki təpih.

Özü getdi.

Getdi gördü ki, xalq yığışıp pədişahın başına. Oturuplar, söhbət eliyillər. Elədi, hamı ağlayır, kimisi gülür. Nəysə. Çoban dedi:

– Maa yol verin.

Çobandı da, beyni qandı.

– Ə, maa yol verin, mən pədişahın yanına...

– Ə, a bala, axı nolup? – dedi vəzir-vəkil.

Dedi:

– Ə, onu yoxluyun, dəyənəh çiynindədi. Gələr qəflətən vırar kişini. Dedi:

– Yox e, maa yol verin!

Kəsdilər qabağını, dedilər:

– Həbelə gedəmməssən, soyunginan.

Dedi:

– Ə, köpoyoğlu, dəyənəynən sizi qırram. Pədişahın oğlu gəlip, mən gedirəm muştuluğa.

Dedi:

– Ə, buraxın, ədə.

Buraxdılar, gəldi. Dedi:

– Oğlum, oğlumu gözünnən gördün?

Dedi:

– Yox.

Dedi:

– Kim dedi?

Dedi:

– Naxırçı.

Dedi:

– Bını tutun bağlayın bıra.

Tutdular bağladılar. Dedi:

– Mənim nə günahım?

Dedi:

– Axı, gözünnən görməmisən, maa yalan satısan, oğlum.

Bını bağladılar. Dedi:

– Döymüyün.

Birəz keşdi, kimsə bı naxırçıın əl-ayağıın aşdı, bı da sürünə-sürünə gəldi:

Dedi:
– Nətər?
Dedi, belə-belə...
Dedi:
– Özün gördün?
Dedi:
– Xeyr, özüm görmədim, qoca vardı, o maa dedi.
Dedi:
– Qocaan neylədin?
Dedi:
– Əl-ayağın bağlıyıp qoymuşam, odu eyy, çayda.
Dedi:
– Bını da tutun, bağlıyın.
Bını da tutdular, saldılar ora. Adam yolladı, dedi:
– Gedin o qoca kimdi, hardadı, gətirin bıra.
Gəldilər gördülər qoca yazıx çalışır elə...
Əl-ayağın aşdılar, gətirdilər mindirdilər bir ata, yetirdilər pədişaha.
– Salammeleykim.
Dedi:
– Əleykimsalam.
Dedi:
– Qoca, nə gördün?
Dedi ki, mən pədişah oğlun görmüşəm. Tanımıram, özü məni müjduya yolluyup, qibleyi-aləm.
Dedi:
– Niyə gəlmədin?
Dedi:
– Naxırçı tutdu məni, bağladı.
Dedi:
– Yaxşı. Atı min, get oğlumu gəti. Mən sənə inanıram. Qoşun yollamıram, yalan çıxar, sora səni asaram.
Mindi atı, getdi oğlanı götüdü, gəldi.
Pədişah qalxdı, dedi:
– Qocuya üç ağırı qızıl, nə istəyir onu verin. Naxırçıya iki ağırı, çobana bir ağırı. Çoban düz eləmiyip.

Üş qocuya, iki ona, bir bına tutdular, təmin elədilər. Verdilər, qutardılar. Gəldi, pədişah əvi şennih, vırhavır, tuthatut, yeməh-işməh, yenə xələt-filan.

Gün o gün oldu ku, bu oğlan aşdı xurcunu, almanı tökdü, payladı qızdara, ona-mına, baxdı ki, bir dənə dəsmaldı, içində də bir belə samandı, iki yumuru da qətdi. Fikirrəşdi, dedi: "Bax, bu nə ola bilər, bı samannan qət nə deməhdi?" Bunu çox fikir götdü, bı düşdü xəstəliyə. Bını tapa bilmədi. Xəbər getdi ki, qıbleyi-aləm, oğlun ölür. Nə qədər doxdur gətdi, alim gətdi, loğman gətdi, bilici gətdi... Bircə bilici dedi ki, bı nəysə bında fikir əlamətidi, bında ayrı bir şey görmürəm, bında xəstəlih yoxdu. Axır haqq-hesabda bının anası gəldi. Dedi:

– Ə, saa mən süd vermişəm, səni xaliq göydən verip maa, sən axı de görüm dərdin nədi? Qız istiyirsən, bütün şəhəri yığım, hansı kefindi onu götü. Vəzirin qızı, vəkilin qızı, filanın qızı...

Dedi:

– Yox, ana, mənim fikrim bu xurcunuma qoyulan bı samannan bı qətdi, nəyə göradı, bını mən bilmirəm.

Nağıl elədi, belə-belə... Nə bilsin hara gedip, hara getdiyini bı bilmir.

Pədişah vəziri çağırdı, dedi:

– Vəzir, bı samannan qəndin mənasın tapbasan, atan yeyip atamın çörəyini, özün də öz çörəyimi yeyirsən, səni öldürəcəm.

Dedi:

– Qibleyi-aləm, qırx gün maa vax ver.

Bı vəzirin də evində bir keçəl var, bını elə pis gündə saxlayır ki, bu kopoyoğlu, bı var-dövlətnən, inan, para çörəyin vermir ki, bının qarnı doysun. İcazə verdi, dedi:

– Get gəz.

Otuz doqquz gün bı vəzir at sürdü bütün ölkələrə, bütün yerlərə. Dedi: "Bax, belə bir variyant... Kim nə olduğun bilmir". Heş kim bilmədi. Ta səhər artıx qırxıncı günü, meydan oynayacax, vəzir asılacax. Gəldi axşam çatdı əvə. Dedi:

– Qarı, dur ayağa, maa su qoy çimim, girim hamamlanım, səhər məni pədişah asmalıdı.

Ağlaşma... bının qəbiləsi töküldü ağlaşan-gülüşən... Keçəl də

bir kuşdən oturmuşdu özüçün qurtalanır... Neyləsin?! Birdən Keçəl bir qəhqəhə çəkdi, güldü. Dedi:

– Ə, Keçəl, mənim dərdim hara, sənin bu gülməyin hara? Ə, oğrəş, bu gülməh nə gülməhdi?

Dedi:

– Gülmiyəcəm ki, səni asacaxlar? Çərə assınnar, cəhənnəmə assınnnar. Mən neyniyim, assınnar!

– Ə, Keçəl, nə danışırsan, nə deyirsən? Sənin keyfin durup? Bının qohumları istədi bını... Dedi:

– Ə, öldürmüyün, qoyun görah bı niyə belə eliyir, nəyə gülür.

Bını gətdilər otağa. Dedi:

– De görüm ə, nəyə gülürsən?

Dedi:

– Ə, kopoyoğlu, bir vəzir, bir pədişah, onun alimləri bir samannan ki qəndin mənasın tapbır, tüpürüm o padişaha da, onun vəzirinə də.

Deyəndə dedi:

– Keçəl, başa...

Dedi:

– Yox, dostum, başımın qatmağı yenip əynindəki şalvara bax, paltara bax! Bilirəm, öləsən demərəm!

Səhər açıldı. Vəzir getdi tezdənnən. Dedi:

– Vəzir!

Meydan sulanıp, hazır...

Dedi:

– Vəzir, tapbısan?

Dedi:

– Qibleyi-aləm, tapbışam da, tapbamışam da.

Dedi:

– Bu nə deməhdi, tapbışam da, tapbamışam da?

Dedi:

– Mənim əvimdə bir on beş ildi bir keçəl var. Düzdü, ona pisdih eləmişəm, indi kopoyoğlu maa dedi ki, axşam, biz yığılmışdıx, ayiləm ağlaşırdı, maa dedi ki, bir samannan qəndin mənasın bilmiyən pədişaha da tüpürüm, onun vəzirinə də, vəkilinə də. İndi yalvarıram, deyir: "Öləsən, demərəm!"

Qəsid yolladı, adam yolladı, xayış elədi.

Dedi:
– Yüz padişah olsun, getmərəm.
Bı bına o qədər zülüm verib ki, bı vəzir, arvadı, ayiləsi də. Bir adam gəldi bını danışdırdı, dedi:
– Niyə getmirsən?
Dedi:
– Gərəh vəzir məni ala dalına, apara o meydana, padişahın qabağında qoya yerə, sora deyəm.
Gəldilər dedilər. Padişah dedi ki, gedin mənim adımnan deyin ki, axı, ayıbdı, bı mənim vəzirimdi, düz çıxmaz, bütün ölkə yığışıp bıra, xalq yığışıb.
Dedi:
– Nolsun,o onun maviniydi, mən də vəzirin maviniydim. Yediyi pilavın heç olmasa sür-sümüyünnən maa vereydi. Getmərəm, nolur olsun. Öldürmək istəyir, gətisin öldüsün.
Gəldilər dedilər:
– Belə-belə, qibleyi-aləm.
Dedi:
– Vəzir, özün bilərsən, mən nə deyim?!
Vəzir bütün qəbiləli getdi, dedi:
– Nə istiyirsən verəh, səni yıxağ tərəzinin bir gözünə, qızıl...
Dedi:
– Yox e, alassan məni dala, aparassan padişahın o məjlisində qoyassan yerə, mən o sözü deyəcəm.
Ölüm elə kopoyoğludu, hamı qorxur, mümkün dəyil!
Vəzir dedi:
– Yox, gedəcəm elə-belə. Qoy məni öldüsün!
Padişahın arvadı gəldi Keçəlin hüzuruna.
Dedi:
– Oğul, salamməleykim.
Dedi:
– Əleykiməsalam.
Dedi:
– Məni tanıyırsan?
Dedi:
– Xeyir, birinci dəfədi görürəm

Dedi:

– Mən pədişahın böyüh haramisiyəm, o uşax da mənimdi. Daşı ətəyinnən tök, maa bağışda.

Dedi:

– Niyə mən üş günnən aj qalanda bir adam məni çağırıp demədi ki, gələsən mənim qarnımı doyurasan, indi mən də sənə haqq-hesabı deyim. Neyləyəh, həramısan, halalı ol.

Dedi:

– Məni ana kimi qabul elə, mənim bir oğlumu ölümə vermə.

Dedi:

– Gessin o vəzir qurban olsun saa, o pədişah dostuna. Dur gedəh, ana!

Gəldilər. Hamı baş əydi, bı keçəl dik getdi.

Dedilər:

– Ə, bı nə qayrır?

Dedilər:

– Ə, kopoyoğlu, pədişahın oğluun ölümü bının əlindədi, bının nəyinə qalıp pədişah, ə.

– Salammeleykim, qibleyi-aləm.

Dedi:

– Əleykiməsalam, oğlum.

Baxdı, bir keçəldi, cırım-cında...

– Ə, keçəli götürün!

– Hara?

– Ə, hamama!

İnan, bəlkə iyirmi dənə üzsürtən verdilər. Bını düzəltdilər, yeniş-yoxuş, o yan-bı yan, kastum, filan-bəşməkan... Geyindi oldu bir şahzadə. Paltar adamı abıra salar, oğlum.

Dedi:

– Qibleyi-aləm, onda deyəcəm ki, oğluu ölüm-dirim ixtiyarın verəsən məə.

Pədişah yerə baxdı, göyə baxdı, dedi: "Onsuz da əlimnən gedir daa". Dedi:

– Keçəl, verdim.

Dedi:

– Onda qırx dəvə yükü ləl-cəvahir, parça-qənd, nə lazımdı,

yük tut, hazır elə.
Dedi:
– Neynirsən?
Dedi:
– Sən tut də. Özü də yazginən ki, o malın mən hamısın xəjdəsəm, rədd eləsəm, sən dinmiyəssən.
Yazdı hamısın möhürrədi.
Dedi:
– İndi gəti hamısın düz ora, görüm.
Gətdi, düzdü, qoydu. Dedi:
– Oğlunu gəti bıra.
Oğlu da gəldi.
Dedi:
– Oğul, sənin ixtiyarın məndədi, öldüsəm, öldürəcəm, qaldısam, qaldıracam. O atan, o da sən. İstiyirsən deyim, istəmirsən demiyim.
Dedi:
– Mən nə deyə bilərəm?!
Dedi ki, ay camaat, indi qulağ asın.
Dedi:
– Oğul, indi otu.
Otdu.
Dedi:
– Oğul, bir neçə gün cəzirədə sən gedənnən sora gəzdin yenişyuxarı, axır getdin çıxdın bir çayın qırağına. Çıxdın?
Dedi:
– Bəli.
– Özü də ac, yuxusuz, çayın qırağıynan getdin, gördün ki, bir yerdə bir şəkil asılıp, deyillər, bına baxan da öləcəh, bı bağa girən də. Axırı dedin: "Ə, ölüm ölümdü, girəcəm". Getdin girdin o bağa?
Dedi:
– Girdim.
– Almanı yığdın, yedin, doydun. Atı da bıraxdın bağa?
Dedi:
– Bəli, bıraxdım.
– Getdin bir qarabat tapdın. Əl-üzüü yudun, qarabatın üstündə

yıxılıp yatdın ajqarına. Gecə pədişahın qızı gəldi. Baxdı, gördü belə... Səhər ayıldın, durdun, gördün ürəyin acınnan gedir, gördün bir qab aş, pilov. Yedin-işdin, yeyib-içənnən sora da, bir dəsmal da qoyuplar xurcuna, onu sən bilmədin, gəldin əvdə aşdın. Ə kopoyoğlu, o öz adresin  verdi saa, ay oğlan, bını pişirən  mənəm, pədişah qızıyam, mən Səmərqənd pədişahının qızıyam, kefin istiyir, gə məni al. Bını tapmağa nə var ki.

Hamı:

– Afərin, Keçəl, afərin, Keçəl! – deyir.

Deyir:

– Afərin yeri dəyil ki.

Dedi:

– İndi qibleyi-aləm, nökər-nayibi düzəlt, mən getdim.

Bir at  Məhəmməd mindi, bir at bı mindi.

Dedi:

– Ancax məni çox gözdə ha, bilmək olmaz işin axırı hara gedəcəh. Mən pədişah alverinə gedirəm, qız alverinə.

Tərpəndi. Böyün bırda tüşdü, səhər orda tüşdü, belə-belə gəldi mənzil başına çatdı. Bir oğlana at verdi, dedi:

– Get bı pədişahın hüzuruna – Səmərqənd pədişahının hüzuruna, denən ki, fılan ölkədən – Əhməd pədişahın ölkəsinnən bir dənə tacir gəlip, deyir: "İcazə versə, mən bir-iki aylığa malımı xırıd eliyip sataram".

Bir də xonça bəzətdirdi ki, bəh-bəh... Dədəsinin malı dəyil ki, pədişahın malıdı.

Apardılar xonçanı. Dedilər:

– Bəs belə-belə, bir adam gəlip.

Dedi:

– Buraxın gəlsin.

Xonçanı qoydu, sözün dedi.

Xonçanı apardılar əyəndə aşdılar. Gəldilər, dedilər:

– Qibleyi-aləm, sənin xəzinəən yarısı qədər bırda – xonçada var. Bının taciri belədi, gör pədişahı kimdi bının!

İcazə verdi. Gəldi qəfləni töhdü, nökər-naibi vırhavır, tutha-tut... Gördü qonşuda bir qarı var. Dedi:

– O qarını çağırın gəlsin.

Qarı gəldi:
– Eşidirəm, oğul. Qəribsən?
Dedi:
– Hə, qəribəm.
Dedi:
– Nədi?
Dedi:
– Nənə, ma bırdan bir adam tap ki, alım, bırda bir-iki ay qalacam da, dolanım bırda mən, subay oğlanam.
Dedi:
– Qarı nənən saa qurban, onu mən eliyə bilmərəm.
Dedi:
– Ə, onnan bir əz tök onun avcına.
Pədişahın malıdı, özüün dəyil ki, qızırğalana. Bının avcını doldurdular. Dedi:
– Oğul, axşama qədər saa elə bir adam tapacam ki, tarixən sənin olsun.
Ged bir bağbanın qızın tapdı, yaxşı insannarın birin. Hə, gəldi, qızı da gətirtdi. Keçəli də apardı. "Bir-birinizi bəyənirsiz?" "Hə". Keçəl kəbin kəsdirdi Allahın şəriəti-qanunuynan bını aldı. Başdadı kefin sürməyə. Bırda tükanı aşdı, Məhəmmədi qoydu tükana, dedi ki, gəzirsən, gördün ki, bırda muşdux əlli qəpiyədi, sən qırx qəpiyə satarsan. Gördün parçanın metrəsi yirmi qəpihdi, sən on qəpeyə ver. Artığa versən, səni öldürəcəm ha!
Bı minvalnan Məhəmməd baxdı gəldi dedi: "Papuruz on beş qəpehdi, fılan şey fılanadı". Belə-belə, hay düşdü bı şəhərə: "Bir tacir gəlib, ə kişi, bizim yerdə on beşə olan papuruzu bı verir on ikiyə". Bınnan kim almaz. Dünya döndü bının üstünə.
Bir gün bı söz yetişdi pədişah qızına. Qızdara dedi:
– Qızdar!
Dedilər:
– Nədi?
Dedi:
– Hazırranın. Deyir, qəribdən bir tacir gəlip. Onun oğlu mal satır. Gedəh onnan hərəyə bir xələt alacıyam. Gedəh görəh nətəhirdi?
Keçəl tapşırdı ki, Məhəmməd, gələlər deyələr ki, o topu qoy, onu

ver, onu qoy, onu ver, kopoyoğlu, cıqqırın çıxsa, səni öldürəcəm!

Dedi:

– Yaxşı.

Bını da bı görmüyüp axı. Bir zaman otumuşdu belə, gördü çöldə hırtdan-hırtdan düşüb, pədişah qızı gəlir, yol verillər bına. Gördü qırx incə qızınnan gəldi daxil oldu içəri. Baxan sahata oğlanı tanıdı. Dedi:

– Ay oğlan, qızdara xələt alacam, topu yendir.

Yendirdi. Dedi:

– Yox, o pisdi, o birin yendir.

Belə-belə, bı malı tam qatdı-qarışdırdı. Deyib axı, cıqqır çıxartma da. Dedi:

– Yaxşı e, yoruldun. Gəti o maldan üş metir bına, bı maldan üş metir bına...

Bı qızdarın hərəsinə bir xələt aldı, özü də bir yüngülvarı şey aldı. Qayıtdılar getdilər.

Axşam Məhəmməd getdi əvə. Dedi:

– Hə, bala, nətər oldu?

Dedi:

– Ateyi-mehriban, pədişah qızı gəlmişdi.

Dedi:

– Hə, de görüm, noldu?

Dedi:

– Şikildə gördüyüm qızdı. Mən onun surətin görməmişəm. Ancax şikildə gördüyüm qız haman qızdı.

Dedi:

– Hə?

Dedi:

– Hə!

Dedi:

– O qız nə dedi?

Dedi:

– Gəldi maa dedi o parçanı, bı parçanı...

Dedi:

– İrədd eləmədin?

Dedi:

– Yox.
Dedi:
– Hə, yaxşı, oğlumsan!
Bı qız da əmisioğluna nişannıdı. Böyünə-səhərə toyu olmalıdı. Bu durdu bir xonça bəzədi pədişahın malıynan. Götdü getdi meydanda otdu. Dedilər:
– Qibleyi-aləm, həmən tacir gəldi bıra.
Dedi:
– Ədə, gedin pişvaz eliyin bı taciri, nəğayrırsız?
Getdilər taciri gətdilər. Otdular, qəşəhcənə söhbət-fılan...
Dedi:
– Qullux?
Dedi:
– Qullux belədi, qibleyi-aləm, hamı tökülər gedər, sənə mənim iki kəlmə sözüm var, deyərəm.
Hamını töhdü çölə, dedi:
– Buyurginan.
Dedi:
– Mən tacir adamam, sənin qızın gedip, dükanda mənim oğlum görüp. Sorağ eləmişəm, deyillər pədişahın qızıdı. Mən istiyirəm ki, sən qızı verəsən mənim oğluma.
Pədişah dedi:
– Tacir, mən səən gəliraa da bələdəm, insannığa da, hər bir şeyi öyrənmişəm, bıdı, iki aydı-üç aydı bırdasan, əfsus ki, qız qardaşım oğluna nişannıdı. Mən neyniyə bilərəm? Büyünə – səhərə toyudu.
Dedi:
– Yaxşı da. Mən saa nə deyə bilərəm?!
Qayıtdı getdi. Qayıtdı getdi, fikirrəşdi yenişə-yuxarı. Dedi: "Mən nəğayrım, iki aydı xalxın malın dağıdıram, çox da demişəm belə. Səhər öldürəcəh məni. Mən nəğayrım?” Çox fikirrəşənnən sora bir qarı tapdı. Dedi:
– Qarı nənə!
Dedi:
– Bəli.
Dedi:
– Qarı nənə, gedirsən pədişah qızına deyirsən ki, fılan tacirin

oğlu səni istiyir. Gör nə deyir?
Dedi:
– Ay bala, ora gedənin dilin kəsillər, əyağın kəsillər, mənim orda nə işim, dəlisən-nəsən?
Şah malı müftə maldı, yığdı qarıın ətəyin doldurdu. Qarı dedi:
– Ölsə də, qarı nənən gedəcəh.
Getdi. Qız çağırdı:
– Baa, xoş gəlmisən, ay qarı nənə. Nətər, necə?
Dedi ki, bala, belə, qulağına pıçıldadı.
Dedi:
– Qızdar, bir qom bıra heyva çubuğu gətirin.
Bı qarını o qədər döydürdü ki, şiş-kabab elədi. Qarı götürüldü, gəldi. Dedi:
– Qarı nənə?
Dedi:
– Qarı nənaa öldürüplər. Qarı nənanda iş var ki...
Dedi:
– Əşşi, de görüm, nooldu?
Dedi:
– Bir qom heyva çubuğu kəsdirdi, bala, mənim enimə-uzunuma...
– Qarıya pul verin!
Gətdilər qarıya pul verdilər. Dedi:
– Məhəmməd, qız deyir ki, gəl heyvanın dibinə. Get, amma yatma ha, kopoyoğlu, yatsan, səni öldürəcəm.
Bı pədişah qızıdı, el yata, oba yata, bı çəkəcəh saat birə-ikiyə.
Həə, çox gözdədi, az gözdədi, Məhəmməd getdi otdu heyvanın dibində. Ha gözdə gələcəh... Yorunuq adam, axşama qədər işdəmiş pədişah oğlu... Mənim kimi fəhlə dəyil ki, səhərə kimi yatmıya. Bını yuxu tutdu, belə... heyvanın dibində yatdı. Yatdı, qız gəldi, gəzdi dolandı gəldi gördü yatıp. Bının cibinə bir aşıx saldı. Saldı, qayıtdı getdi.
Səhər Məhəmməd getdi. Dedi:
– Ə, nooldu?
Dedi:
– Əşşi, məni aldadıllar. Qız nədi, gəlməh-zad nədi?
Dedi:

– Ə, cibini görüm, kopoyoğlu.

Cibinə baxdı, gördü bir aşıx. Dedi:

– Ə, kopoyoğlu, axşamnan yatmısan. Deyip: "Hələ uşaxsan, get aşıx-aşıx oyna". Məhəmməd baxdı, dedi: "Ə, bı nə işdi, bı nə bilir mənim cibimdə aşıx var?"

Dedi:

– Yaxşı.

Səhər genə qarını yolladı. Qarı getdi.

Dedi:

– Ə, nədi qarı nənə?

Dedi:

– Elə dünənki sözə gəlmişəm.

Dedi:

– Ə, fındıx çubuğu gətirin.

Gətdilər, bına ikisin vırıncan qarı aradan çıxdı, götürüldü. Gəldi. Dedi:

– Nətər oldu?

Dedi:

– Qarı nənən saa qurban, bı dəfə yaxşı çıxdım, ikicə çubux yedim.

– Ə, qarıya pul.

Verdilər.

Dedi:

– Ə, adam oğlusan, deyir: "Gə fındığın dibinə, gəlirəm ora". Get!

Genə bı yazıx getdi. Az otdu, çox otdu, bı gözdədi, bı gəlmədi. Genə mını yuxu tutdu. Fındığın dibində yatdı. Qız gəldi, gəzdi, dolandı, gördü bı genə yatıp. Gətdi bının cibinə bir üzüh saldı.

Səhər genə getdi kor-peşman.

Dedi:

– Ə, nədi?

Dedi:

– Əşşi, gəlib-eləmədi, səhərə kimi yatmamışam.

Dedi:

– Yaxşı, cibıı görüm.

Cibinə baxdı, dedi:

– Ə, deyip: "Uşaxsan, ged üzüh-üzüh oyna". Ə, məəm başıma

nə oyun gətirirsən?
Dedi:
– Qarı nənə!
Dedi:
– Yox e.
Dedi:
– Qorxma, ged e.
Bı dəfə gedəndə qızdar dedi:
– Qarını bıraxax?
Dedi:
– Ə, bı mənim süd nənəliyimdi, məni bı saxlıyıp, qarını bıraxın gəlsin, nə danışırsız?!
Qarı getdi otdu qızın yanında.
Dedi:
– Qarı nənə, mənim süd nənəmsən, nədi, nətəvirin?
Dedi:
– Bala, elə dünənkinə gəlmişəm.
– Ə qızdar, alma...
Qarı götürüldü, qapıdan çıxdı, yol verdilər.
Keçəl gördü, sən öl, qarı tüğyan gəlir.
– A qarı nənə, nə oldu?
Dedi:
– Bala, "alma" deyən saat qapıdan çıxdım. Özü də bı dəfə məni götdü nənəliya.
Dedi:
– Həə, iş düzəlip.
Dedi:
– Kopoyoğlu, altdan get almaan dibinə, inan, yatsan bı gecə axırı səni öldürəcəm.
Məhəmmədi yolladı, özü də bəridən sıçradı almada oturdu. Otdu almada, bı Məhəmməd çox gözdədi, yuxu döyəndə almaan birin bırdan "tarapp"... Keçəl ağaşdadı axı.
– Hə, kopoyoğluun almasına bax.
Götdü bını başdadı yeməyə. Yedi, birəz keşdi, genə yuxuluyanda bı almaan birin də "tarapp"... Bı minvalnan gözdədi. Qız artıx qapıdan girdi. Ağaşdan düşdü, dedi:

– Ə, kopoyoğlu, alma deyil e, mənəm. Qız odu haa, axırıncı gecədi bı. Özü də saa bir əməl deyəcəm, gəlib səni tutub-eləsələr, sən mənim qapıma üş dənə daş vırdırırsan, birin başdan, birin ortadan, birin də əyaxdan, mən bilərəm ki, səni tutuplar.

Dedi:

– Baş üstə.

Qız gəldi, görüşdülər. Bəs nətəvir-necə... Söhbət-filan beşmekan... Bınnarın kəbinin Allah kəsmişdi. Bir-birinə deyihli kimiydi da, aşıx-məşuxdular. Deyir, aşıx-məşuxlara heş kəbin də düşmür haqq-hesab eləsən. O adəm ürəkdən sevdi-sevildi bına kəbin də tüşmür. Bınnar hər ikisi bırda yatmaxda olsunnar, saa deyim mının əmisi oğlunnan.

Əmisi oğlu qumar vırırdı. Gecənin bir vaxdı qumardan ayıldı, durdu, pul uduzmuşdu, qalxdı, dedi: "Sən öl, qanımın bı qara vaxtı gedəcəm bağa, əmiqızım bağdadı".

Bı gəldi barıın aşdı, gördü, paa, əmisi qızı yatıp bir oğlannan gəl ki, görəsən.

– Ədə, bı nədi?

Bir ip tapdı, bunların hər ikisin cüt bağladı, sarıdı. Aldı çiyninə, nər kimi oğlandı, az getdi, çox getdi, da bını şəhərin əyağındakı qapıya çatanda qoydu, çağırdı dedi:

– Fılankəs, qapıya bir şey söykəmişəm, gözdə, gəlirəm.

Dedi:

– Əşi, mən şey gözdüyənəm?

Əv yiyəsi gəldi, baxdı, gördü Məhəmməddi, pədişah qızına sarıxlıdı. Dedi:

– Səni dünya malınnan qəni eliyəcəm, get, mənim tacirimi, atamı tanıyırsan da, qapısın başınnan bir daş vır, ortasınnan birini, birini də əyaxdan.

Dedi:

– Baş üstə.

Dedi:

– Səhər nə istəsən, tükannan səni qəni eliyəcəm.

Getdi, bir daş vıranda Keçəl dedi:

– Arvad!

Dedi:

– Nədi?
Dedi:
– Uşaxları tutuplar, qalx.
Ortadan daşı vıranda dedi:
– Ortadan sarıyıplar ikisin də bir yerdə.
Üçüncün vıranda dedi:
– Sən bilərsən, şəhərin əyağında birinci ev kimin evidi, məni düz apar ora!
Gəldilər gördülər ikisi də sarıxlı... Bılların ikisin də aşdı, bıraxdı. Arvadnan girdi bıra.
Dedi:
– Məni sarı.
Bını sarıdılar. Məhəmməd qaşdı öz evinə, qız da qaşdı öz evinə.
Pədişaha getdi xəbər verdi:
– Təxtin tarac olsun, deyirsən belə... Get gör qızın nə əməllərdən çıxır?
Dedi:
– Nə danışırsan gecənin bu vaxtı?
Dedi:
– Gedah gözünnən gör. Fılan qapıya söykəmişəm.
Pədişah qılıncın aldı əlinə, dedi:
– İkisin də bı saatı doğramalıyam!
Gördü pədişah gəlir, sən öl, yannarında qoşun, attı-bəşməkan. Keçəl bınnan qardaşdıx olmuşdu. Bildi ki, bı sahat bı istidi, gələn kimi bını doğruyacax. Elə birəz yaxınnaşmışdı, dedi:
– Ə, sənin pədişahlığın başaa dəysin. Mən böyün ayləmnən getdim sənin bağında kef eliyəm. Bı nə dəm-dəzgahdı, məni bütün el-aləm içində biyabır elədin?
Pədişah gördü, həə, bı bının qardaşdığı tacirdi. Qayıtdı qılıncı qoydu qardaşı oğlunun təpəsinnən. Axı bı başqa ölkədən gəlmişdi, qonağıydı, bınnan da qardaşdıx olmuşdu. Dedi:
– Ay qardaş, məni bağışla.
Dedi:
– Ta bağışdamax yeri yoxdu.
Aşdı bılları bıraxdı.
İndi bının təziyəsin saxlıyır da. İndi lazımdı qırx gün bını göz-

dəməh.

Dedi:

– Bala, vaxt azalıp, dayan görəh!

Həə, qırx gün oldu, bizim atımız yüyrəhdi, bının qırxı çıxdı. Bir gün bir xonça bəzədi, getdi pədişahın hüzuruna. Xonçanı verdi. Xonçanı verənnən sora dedi ki, qıbleyi-aləm, qabaxda bir söz dedim, dedin belə, mən əl çəhdim. İndi də özün vırdın, öz qardaşın oğlunu öldürdün. Sənnən mən qardaşıx, mən də qardaş, sən də qardaş, gəti qızı mənim oğluma. Artıx qırx da çıxıp.

Dedi:

– Mənim gözüm üstə.

Gətdi qızı verdi, toyun elədi. Keçəl qızı verdi Məhəmmədə. Ordan da nə qədər vırhavır... gəldi çıxdı pədişahın hüzuruna. Pədişah nə qədər Keçələ xələt verənnən sora özünə vəzir götdü, necə bir ağıllı insan kimi. Siz də ağıllı olun, yeyəh-içəh, duşmannar puç olsun, sizin kimi dosdar var olsun. Ömür Allah versin sizə, ömrüüz uzun olsun, sağ olsun.

## ŞAH ABBASLA KEÇƏL

Şah Abbas öz vəziri Allahverdi xannan gedirdi. Gördülər bostan yeri var. Şah Abbas dedi ki, vəzir, get bı bostanda nə varsa, birin götü gəl.

Bı da gördü ki, bostan savılıp, bir yekə boranı var. Fikirrəşdi, dedi: "Əə, bı boranını aparım? Bı yeməli dəyil, bını niyə aparım? Yox da şah maa deyip nə tapsan, gəti. Məəm də tapdığım boranıdı, aparım".

Apardı boranını, bulağın qırağında atdarı bıraxmışdılar, otduyurdu. Dedi ki, şah sağ olsun, vallah, savılmış bostandı, bircə boranı var, onu da gətirmişəm.

Dedi:

– Göt gə bıra.

Gətdi. Boranının üstünə pıçağnan, yaxşı xət düşür axı, yaxşı yazılır, Şah Abbas yazdı ki, "dünya bir kor eşşəhdi, quyruğunnan nejə tutsan, elə də gedər". Altdan qol çəhdi, möhrün də basdı.

Boranını qoydular bulağın qırağına, atdarı mindilər, çıxdılar getdilər. Bir keçəl də mal otarırdı. Günorta malı töhdü çayın qıra-

ğına, gördü bir boranı var. Gördü belə bir şey yazıplar ki, "dünya bir kor eşşəhdi, quyruğunnan nejə tutsan, elə də gedər". Altında Şah Abbasın qolu, möhürü.

Boranını vurdu qoltuğuna, gətdi, verdi nənəsinə. Getdi bazardan bir-iki kilo pambıx aldı. Boranını bühdü, qoydu bir çəmədana, ağzın kilitdədi. Həçəri verdi nənəsinə ki, nənə, bı boranının başınnan bir tüh əskih ola, nə mənəm, nə sən.

Axşam car saldı ki, ay cahamat, mənim pulumu gətirin, iki ay da qabax. Elə bil bir ay otarıp, bir ayın pulun almalıydı. İki ay da qabağın aldı ki, gətirməsaz, səhər mala getmiyəjem.

Kim otarajeh malı? Alaşdarı kəsildi, üç aylıx pulu topladılar, gətdilər verdilər bına. Pulları qoydu cibinə, Arazdan addadı İrana. Bir yaxşı dəs kastum aldı, geydi. Getdi otdu bir yeməhxanada. Əlin döydü istola, xidmətçi gəldi. Elə şeylər dedi ki, adın eşidip, heç özünü görmüyüp. Gətdilər töhdülər istolun üstünə. Hərəsinə çəngəlnən bir vırdı, onu əənə itələdi, bını bəənə itələdi, hay-küy saldı. Yeməhxananın yəəsi yaxınnaşdı bına, dedi:

– Ay qardaş, sən bı yeməhləri niyə belə eliyirsən? Niyə yemirsən?

Dedi:

– Bilirsən nə var?

Dedi:

– Nədi ki?

Dedi:

– Mən Şah Abbasın oğluyam. Gəlmişəm bı şəhərin işdərinzadın yoxlamağa.

O vədə Şah Abbas pütün padşahların padşahıydı. Odu ki, yeməhxanaan yəəsi əl-ayağa tüşdü, tez getdi arvada məslahat elədi ki, bəs nətəər eliyax, Şah Abbasın oğlu gəlip? Otaxların birin boşaltdı, xalıdan, gəbədən döşətdi, bına bir xudmanı yer düzəltdi öz əvində.

Keçəl yalannan bir kağız qoydu qabağına, guya şəhərin işdərin yoxluyup yazır.

Bir günnəri bazar günüymüş, arvatdar getmişmiş çimmağa. Bı yeməhxananın yəəsin də arvadı getmişmiş çimə. Patşahın arvadı da bırdaymış. Yeməhxana yəəsiin arvadı deyir ki, mən qabaxcan gedəjem. İran patşahıın arvadı deyir, mən qabaxcan gedəjəm. Arvat tayfasıdı da, birin bı deyir, birin bı, dalaşıllar. Patşahın arvadı deyir:

– Aaz, sən kimsən mənim qabağımı kəsəsən?

– Bilirsən nə var? Şah Abbasın oğlu gəlip, bıdı, bir aydı bizdədi. Pütün şəhərin işdərin yoxluyur. Səhər, biriyün görərsan başına nə oyun açıcehlər.

Arvad tayfasıdı da, əmələ gəlmir. Tez gəlir, ərinə xəbər verir ki, bəs əvin yıxılmasın, Şah Abbasın oğlu bıdırana, filankəsin əvində, sənin işdərini yoxluyur bir aydı, sənin xəbərin yoxdu.

– Vəzir, vəkil!

Vəzir-vəkil tökülüp gəlir.

– Bəs neyniyəh? Nətəər eliyax?

Deyillər ki, qabaxcan gedax görax bizi nətəər qəbul eliyir da. Qapını döyüllər. Bı yerdən durur, vəzir-vəkili qatır bir-birinə. Deyir:

– Ədə, köpəyoğlannarı, bı şəhəri alt-üst eləmisiz, özbaşınalıx yaratmısıız, bırda siz iş görmamısıız.

Belə, filan. Keçəl döyür, ikisin qatır bir-birinə. Yola salır, bılar gedir. Əmələ gəlmir, aradan neçə müddət keçənnən sora bılar deyillər ki, bircə tədbir var. O tədbiri də eliyax, eşitdi, eşitdi, eşitmədi gərəh bı gejə yühnən bı şəhərdən çıxax qaçax. Tədbir də bıdı ki, şahın qızın gərəh bına verax. Şaha dedilər:

– Patşahi-aləm sağ olsun, əyər qızıı Şah Abbasın oğluna vermasax, təhri yoxdu, gərəh bı şəhərdən qaçax.

Nəysə, bı qızı bəzədilər, apardılar keçəlin yanına. Keçəl bı qızı görənnən sora bı qıza aşıx oldu. Aşıx olannan sora qızın dədəsi bir kağız yazdı Şah Abbasa ki, bəs sənin oğlun gəldi mənim şəhərimi yoxluyanda mənim qızıma aşığ oldu, fılan ayın fılan vaxtında fılan yerdə hazır ol. Bir kağız da bı keçəl yazdı ki, əziz atam, mehriban atam Şah Abbas, gəldim sənin tapşırığınnan fılan şəhəri yoxluyup kutarannan sora fılan patşahın qızına aşığ oldum. İndi gətirirəm. Ata, hələ-həlbət mənim peşvazıma, qabağıma çıxın.

Kağız getdi çatdı Şah Abbasa. Şah Abbas oxudu. O vədə Şah Abbasın heş bir züryəti yoxudu. Şah Abbas arvadı çağırıp yanına asdı-kəsdi, dedi:

– Səni öldürrəm, bı sahat de görüm, mənnən gizdin harda oğlan doğmusan?

Arvad and-aman elədi, vəzir-vəkil töküldü ki, ə kişi, tədbirin

olsun, bını yoxluyax, bir görax nətəərdi, axırın yoxluyax, onnan sora.

Alacı kəsildi. Şah Abbas xəbər göndərdi bütün şəhərə ki, kim mənim oğlumun qabağına çıxajehsə, fılan ayın fılan vaxtında fılan yerdə olsun.

Atdarı minən tərpəndi. O dedi: "Ə, Şah Abbasın oğlu nə qəyirir?" Bı dedi: "Ə, Şah Abbasın oğlu nə qəyirir?" Bı dedi: "Əə, oğlu nə qəyirir?"

– Ə, ağa deyir, sür dəriyə, sür dəriyə da. Nə işaa qalıp?

Nəyisə, çatdılar. Qoşun gəldi qabax-qabağa. Bu oğlanın qoşunu bəənnən, Şah Abbasın qoşunu bəənnən. Bılar da ikisi-keçəlnən qız oturup bir arabada. Keçəl əyildi qızın qulağına dedi ki, mən nətəər hərəkət eləsəm, sən də həylə hərəkət eliyərsən.

Gəldi bı qoşun bırda dayandı, bı da bırda dayandı. Oğlan düşdü getdi atasının əlinnən-əyağınnan öpdü, gəldi oturdu arabada. Atdarı sürdülər. Qoşun gəldi töküldü Şah Abbasın qapısına. Qırx gün, qırx gejə bına toy vırdırannan sora, qonaxlar gedənnən sora Şah Abbas keçəli çağırtdırdı yanına. Arvadı da otuzdurdu, vəzirvəkili də. Dedi:

– Bı mənim arvadım, bı mən, bı da sən. De görüm, ə oğraş, hardan mənim oğlum olmusan? Kim əkip səni, kim bejərip ki, mənim oğlum olmusan?

Dedi:

– Şah sağ olsun, heç əsəbləşmə, mən sənin doğmaja oğlunam.

Dedi:

– Nətəər?

Dedi:

– Xayiş eliyirəm, maa möhlət ver da, mənim sənədim var, gərəh gedəm onu gətirəm.

Hə, şah keçələ adam qoşdu ki, birdən qaçar. Keçəl tərpəndi, gəldi öz evlərinə.

– Nənə, boranı dururmu?

Dedi:

– Bala, nə təhər qoymusan,həylədi.

Keçəl boranını vırdı qoltuğuna, getdi, qoydu Şah Abbasın qabağına. Şah dedi:

– Bı nədi?

Dedi:
– Xayiş eyliyirəm, üstünü oxu.
Oxudu, gördü ki, yazıplar ki, "dünya bir kor eşşəhdi, quyruğunnan nejə tutsan, elə də gedər". Altdan da Şah Abbasın qolu, möhürü.
Dedi:
– Şah sağ olsun, sən həylə yazımışdın. Mən də o kor eşşəyin quyruğunnan belə tutup gəlmişəm. İstəyirsən məni öldür, istəyirsən məni saxla.
Dedi:
– Elə oğlumsan ki, oğlumsan. Get kefii sür.

## ŞAH ABBASLA PİNƏÇİ ALLAHVERDİ

Şah Abbasın belə bir qanunu vardı: iş vaxtında hər kəs işləməsə, işsiz dolansa, öldürtdürürdü. Əgər iş tapmırsansa, sənə iş verirdi. Hər kəs iş saadından sora işdəsə, onu da cəzalandırırdı. Şah Abbas deyirdi: "Bu iş səni dolandırmır, qalıp işdən sora işdiyirsənsə, onda ayrı iş isdə, ayrı iş verim. Yoxsa iş vaxdınnan sora işdəməh olmaz. Gejə yatmax üçündü, gündüz işdəməh üçündü".
Bozdux hava sərin olur, adamı isdər-isdəməz yuxu tutur. Pinəçi Allahverdi bazarda pinəçilih eliyirdi. Şah Abbas da dərviş libasında şəhəri gəzirdi. Heş kəs onun dəqiqliynən tanıya bilməzdi. Mində bir adam tanıya bilərdi. Bir gün gəlip bazar-tükanı gəzəndə gördü Pinəçi Allahverdi yuxluyup. Dedi:
– Allahverdi! Pinəçi Allahverdi!
Uyanmadı.
Bir də bərhdən dedi:
– Pinəçi Allahverdi!
Pinəçi Allahverdi gözünü aşdı, gördü Şah Abbasdı. Dedi:
– Pinəçi Allahverdi, yatmısan?
Dedi:
– Şah sağ olsun, ədalataa güj eləmə, yatmamışam.
Dedi:
– Nə təhər yatmamısan? Budu, vəzir-vəkil hamı şahitdi. Mən səni iki-üç dəfə çağırmışam, uyanmamısan.
Dedi:

– Qibleyi-aləm, yatmamışam ee, məni sükut aparıp.
– Əə, sükut nədi?
Dedi:
– Şah sağ olsun, Pinəçi Allahverdi pinəçiliynən ailəni-uşağı nejə dolandırır? Hərdən məni sükut aparır, mənim qəlbimə söz gəlir, onu satıb dolanıram. Yoxsa mən beş-üş qəpiynən nə dolanıram?!
Dedi:
– İndi söz gəlip qəlbəə?
Dedi:
– Bəli.
Dedi:
– Onu maa de görüm.
Dedi:
– Müftə dəyil ki? Puluynandı.
Dedi:
– Pulun verirəm daa.
Dedi:
– Əə, vəzir, pulu say ora.
Vəzir pulu sayıp verdi.
Dedi:
– İndi de.
Dedi:
– Hər nə iş tutsan, axırını fikirrəş.
Şah Abbas bir o yana baxdı, bir bu yana baxdı, fikirrəşdi: "Ə, mən Şah Abbas olam, pinəçi məni aldada, mənim pulumu ala, nədihanədi, bir quru söz deyə". Əsəbləndi. Fikirrəşdi ki, durum buna cəza verim, aləm deyəjəh ki, Şah Abbas elədi ki, sifətində insan sifəti qalmıyıp. Gəldi evə, arvat dedi:
– Şah sağ olsun, noolub saa? Nədi belə?
– Arvat, heş deməli zibil dəyil. Pinəçi Allahverdi məni aldadıp.
Arvat bının hövsələsini soyutmax üçün dedi:
– Sözün qiyməti var?! Nə danışırsan sən?!
–Ay arvat, nejə?
Dedi:
– Üzüyü çıxart bura.
Dedi:

– Neynirsən?
Dedi:
– Səbr elə.
Arvat zərgər çağırtdırdı, üzüyü verdi, yazdırdı ki, "hər nə iş tutsan, axırını fikirrəş". Üzüyü taxdı Şah Abbasın barmağına.
İndi sizə kimdən deyim, pinəçi Allahverdidən. Pinəçi Allahverdi durdu ayağa, şələ-şüləsini yığışdırdı, dedi ki, yaxşı elədim pulun aldım, gedim bazarrıx-zad eliyim, çıxım gedim evə. Elə də elədi. Getdi evə, arvat dedi:
–A kişi, bı nədi?
Dedi:
– Belə.
Dedi:
– A kişi, nə danışırsan?
Dedi:
– Bəli, nejə danışıram, elədi.
Dedi:
– Əşi, yalan danışma. Düzünü de görüm, kimin əvini talamısan, kimin əvin oğurramısan?
Dedi:
–Arvat, canın üçün, Şah Abbası aldadıp pulun almışam. Qoy doyunca yeyim, istirahət eliyim, nə vaxt öldürər, öldürər.
Allahverdi hər dəqiqə yol gözdüyür ki, indi pətşah məni öldürtdürəjeh.
Şah Abbasda belə qanun varıdı: əlinin altda nə qədər adam varıdı, hərə bir ac tapıp gətirərdi. Şah onları yedirdip-içirərdi. Vəzir-vəkil Şah Abbasın əlinnən bezmişdi. Belə qərara gəlillər ki, Şah Abbası aradan götürsünnər. Vəzir dedi:
– Gəlin bir iş eliyəh. Şahı görən kimi deyəh ki, bəs şah sağ olsun, rəngin yaman qaçıp, qan artıxlığın var, dəlləyi çağırax, qan alsın. Əvvəldən də dəlləh çağırax, nəştəri zəhərriyip verəh əlinə, pətşahı cəhənnəmə vasil eləsin, canımız kutarsın. Bı nədi əə, abrımız getdi.
Razılaşdılar. Vəzir getdi bir neştər qayırtdırdı, zəhərrətdirdi, gətdi. Səhər tezdənnən baş vəzir getdi Şah Abbasın yanına:
– Salam.
– Əleykəsalam.

– Şah sağ olsun, irəngin niyə elə dəyişip?
Şah Abbas dedi:
–Vəzir sağ olsun, mən özümdə elə bir şey hiss eləmirəm.
Dedi:
–Yoox, dəəsəən, qan artıxlığın var sənin.
Dedi:
–Vəzir nə əlaj eliyəh.
Vəzir dedi:
– Pətşah sağ olsun, bırda çətin bir şey yoxdu ki. Dəlləh çağırax, bir əz qan alsın.
Razılaşdılar. Vəzir dedi:
– Qibleyi-aləm, sabah naharda gəl yeməh yemə, qanın duru vaxdı dəlləh gəlsin, qan alsın.
Sabah oldu. Bir qoja dəlləh çağırdılar. Vəzir yolda güdürdü dəlləyi. Dedi:
– Dəlləh, hara gedirsən?
Dəlləh dedi:
– Gedirəm patşahdan qan alam.
Dedi:
– Görüm hajatıı. Şah yanına gedirsən, bir abırlı hajat aparırsan, ya yox?
Dəlləh çıxartdı, neşdərini görsətdi.
Vəzir dedi:
– Əə, əvin yıxılsın, bı eşşəh neşdəridi. Bını qoy bir yana, patşah boynuu vırdırar, yazıxsan.
Dedi:
– Neyneyim, olanım bıdı, qoja adamam, ayrı neşdəri indi mən hardan alım?
Dedi:
– Sən dur bırda, mən gedim neşdəri gətirim.
Vəzir getdi, neşdəri verdi dəlləyə. Dəlləh neşdəri bühdü qoy-du şeylərin arasına. Getdi girdi pətşahın yanına.
– Salamməleyküm.
– Əleyküməsalam.
Şah buyurdu:
– Qoja, mənnən ötrü nə qullux, nə əjəb?

Dedi:
– Şah sağ olsun, sən çağırtdırmısan məni.
– Nəçisən?
Dedi:
– Dəlləyəm.
Dedi:
– Həə?
Dedi:
– Hə.
–Dəlləh, mənnən qan alsan, bir ziyannıx olmaz ki?
Dedi:
– Heş nə olmaz, ancax xeyri olar. Qanın dəyişər, cavan qan gələr daa.
Dedi:
–Yaxşı, nə deyirəm.
Dəlləh qolların çirmədi. Birdən pətşahın barmağındakı üzühdən oxudu ki, hər nə iş görsən, axırın fikirrəş. Kişi belə qurudu, dih qalxdı?
Dedi:
– Qoja, niyə durdun?
Dedi:
– Şah sağ ol olsun, sənin barmağındakı üzühdə yazılanı oxudum, ona görə.
Dedi:
– Bəs sən dəlləh dəyilsən, qan almamısan?
Dedi:
– Elə bu yaşıma qədər qan almışam.
Dedi:
– Bə niyə duruxursan?
Dedi:
– Şah sağ olsun, mənim bir neşdərim vardı. Bir nəfər onun əvəzinə maa ayrı bir neşdər verdi. Pis neşdər dəyil. Ama bilmirəm, dərin gedər, dayaz gedər, qan çox gedər, az gedər?
Dedi:
– İndi o adamı tanıyırsan?
Dedi:

– Tanıyıram.
Dedi:
– Vəzir-vəkil, hamınız yığılın bıra.
Hamısın yığdı bıra. Dedi ki, dəlləh, qoluu çirmə, neşdəri əvvəl vır bına, sora maa vırarsan. Vırdı vəzirə, vəzir uzandı, yerdə qaldı. Hər kim ki, pətşaha qarşı iş qurmuşdu, Şah Abbas əmr elədi, dəlləh hamısını neşdərlədi, uzatdı yerə. Şah Abbas qırmızı geyindi, çıxdı taxta. Çıxdı nə çıxdı, buğa kimi höykürdü. Çağırdı qoşunbaşını:
– Dəli Bejan!
Dedi:
– Nədi?
Dedi:
– Get Pinəçi Allahverdini çağır, gəlsin bıra.
Getdi Pinəçi Allahverdinin qapısına. Pinəçi Allahverdi gördü, bıdı, Dəli Bejan gəlip. Ayiləsiynən halal-hümbət eliyip görüşdü. Getdi Şah Abbasın yanına. Gördü, Şah Abbas xoruz kimi qıpqırmızı qızarıp, qəzəplidi.
Dedi:
– Pinəçi Alahverdi, məni aldatdın ha?
Dedi:
– O sözün qiyməti beş yüz tüməndi, mən yüz tümən demişəm. Pulumun qalanın da ver.
Nəkqədir Şah Abbas dedi, bı cavap verdi, Şah Abbas dedi, bı cavap verdi. Şah Abbas dedi:
– Onda bıra gəl.
Getdi, qapını aşdı, vəzir-vəkilin meyitini görsətdi, dedi:
–Vallah, səni bıllardan betər eliyərəm.
Dedi:
– Şah sağ olsun, bıllar zəhərrənip ölüp.
Dedi:
– Nə bilirsən zəhərnən ölüp?
Dedi:
– Görmürsən, gömgöy göyəriplər?
Soyundu, Şah Abbas çıqqanı-zadı töhdü yerə, dedi:
– Bu günnən şah sənsən, götür şahlığımı. Sənin sözün olma-

saydı, indi mən yoxdum.

Dedi:

– Şah sağ olsun, ədalətəə güj eləmə, geyin şahlıx paltarını. Gejə sənin ayağın gəzəni, günüz mənim başım gəzməz. Mən ölkəni dolandıra bilmərəm.

Dedi:

– Onda vəzir ol mənə.

Dedi:

– Bına irazı olaram.

O vaxtdan Pinəçi Allahverdi oldu Vəzir Allahverdi.

## ŞAH ABBASLA VƏZİR ALLAHVERDİ XAN

Bir gün Şah Abbasla vəzir Allahverdi xan gedirlər, çox narahat olurlar. Qayıdıf gələndə yağış bunnarı tutur. Tutanda gəlirlər bir evdə yatırlar. Yatanda gejə görür ki, vəzir Allahverdi xan gülür. Diif:

– Vəzir niyə gülürsən?

Deef ki, şah, soruşma. Deef ki, güldüyü ma deməlisən. Diif ki, bəs belə-belə. Bu qara quldu. Bu gejə onun bir oğlu oldu, sənin də bir qızın oldu. Sənin qızını yazdılar bu oğlana, getdilər. Deef ki, nətər olur-olsun, o oğlanı bulardan almalıyıx. Gətirir buna qızıl verir. Bu da kasıf adammış. Oğlanı bundan alır. Yolda onun qarnını yarıf atırlar suya. Suya atanda dərmançı görüf ki, su kəsildi. Duruf görür ki, bir oğlan uşağıdı. Bu dərmançının başı çıxırmış bir az o vaxtkı təbabətdən. Oğlanı gətirir, qarnını tikir. Görür ki, heş bir yerinə xətər keşmiyif, tikir eliyir, saxlıyır oğlanı. Oğlan yekəlir. Genə bu vəzir, bu kişi gəlif burdan keçəndə (o, həmişə dərviş libas oluf gəzərmiş ki, görüm ölkəmdə nə var, nə əhvalat var, kim nijədi?) vəzir genə gülüf. Diif ki, a vəzir, niyə güldün? Diif ki, həmən oğlan budu, dee, dərmançının qapısında. Girif qapıdan içəri, dərmançıdan soruşur, dərmançı mən deyən əhvalatı şah Abbasa danışır. Şah Abbasın da bircə dənə möhürü varmış. Deef ki, yadımdan bir şey çıxıf qalıf. Vəzirimə bir namə yazım, göndərim. Yazır ki, vəzir, bu oğlan ora çatan kimi boynun vurdurursan. Oğlan gedif, bağda yorulur, uzanır. Qız baxıf görür ki, bir qəşəng oğlan yatıf burda. Qız baxan kimi aşıq olur bu oğlana. Baxıf ki, papağı düşüf yerə. Papağının içində bir kağız var. Kağızı götürüf oxuyur. Görür ki, atası yazıb ki,

belə-belə. Atasının möhürlü kağızı varmış qızda. Qız yazır ki, vəzir, oğlan ora gələn kimi mən gələnə qədər toy eliyif qızı verirsən ona. Oğlan gəlir, toy eliyir. Padşahın hökmünnən çıxmaq olmaz.

Şah Abbas gələndə baxır ki, birinci oğlan gəlir padşahı pişvaz eləməyə. Deer ki, ay evin yıxılsın, dee, həmin oğlan, gəlir qabağımıza, – vəzir deef. Deer:

– Belə şey olmaz.

Gəlir vəzirin, vəkilin çağırır:

– Bu nə olan şeydi?

Kağızı qoyurlar qabağına ki, yazdığın namə, bu da bu. Ordan qalıf ki, yazıya pozu yoxdu, taqdira tədbir yoxdu.

## ŞAH ABBAS VƏ ÜÇ OĞRU

Şah Abbasa cənnət-məkan Şah Abbas deyillər, yaxşı rəhimli olduğuna görə. Deməh, bütün məmləkəti gəzirmiş dərviş libasında, görəh camahat nətəri dolanır? Nəysə, Allahverdi vəzirnən bir dəfə səyahətə çıxır gejə. Gəzməyə çıxıllar, görüllər ki, bir qəbirsannığda kümbəz var, kümbəzin içinnən səs gəlir, işıx gəlir. Şah Abbas vəzir Allahverdi xana deyir ki, sən atı tut, mən gedif baxajam, görüm bı vaxtı bı qəbirsannıxda nə səsdi, nə işıxdı? Nəysə, Allahverdi vəzir atı tutmaxda olsun, Şah Abbas kümbəzə gəlməhdə. Gəlib görür kü, kümbəzin içində üç adam var. Soruşur kü, kimsız, nəçisız? Deyillər ki, bəs biz gəlmişih oğurruğa gedəh. Deyir ki, əyə, bəs nətəhər oğurruğa gedəsız, haranı oğurruyasız? Deyillər ki, bəs Şah Abbasın xəzinəsin oğrruyajıyıx. Deyir:

– Bəs belə-belə, mən də onnan yanğılıyam, elə mən də belə bir şey axtarırdım ki, mən də gedəm qisasımı onnan alam.

Şah Abbas belə deyir. Sonra deyir ki, hamma bırda belə bir şərt kəsəjiyih. Deyillər:

– Nədi?

Deyir ki, bəs siz üçüüz da nə sənətin sahibisız? Biri deyir ki, mən bu sənətin sahibiyəm ki, qarannığda bir adam görsəm, qırx ildən sonra da həmin adamı tanıyajam. Biri də deyir ki, mən tilsimkaram, gedəjiyih oxuyajam, qapılar hamısı öz-özünə açılajax, xəzinənin qapısı açılajax. Deyir:

– Bəs sən nə?

Deyir ki, bəs mən də itin dilin bilirəm, it nə desə bilirəm. Nəysə, bıllar sohra Şah Abbasdan soruşullar ki, bəs sən nə sənətin sahibisən? Deyir:

– Mən də bığımın bir tərəfin tərpədəndə  qırx adamı ölümdən kutarram.

Nəysə, dördü də yeriyillər, gedillər xəzinəyə, yaxınnaşanda it hürür. İt hürür, o it dili bilən deyir ki, ə, əyağıızı saxlıyın. Deyif:

– Nədi?

Deyir:

– İt deyir ki, oğru gəlif, yəyəm də içindədi.

Belə deyəndə Şah Abbas bının boynunun dalınnan basır, deyir:

– Ənə yeri ə, yox bir it dili bilir, yox bir yəyəsi də içindədi.

Nəysə, gəlillər bı tilsimkar oxuyur, qapılar açılır. Qapılar açılır, qızıldan yığıllar, şəllənillər, götürüf gəlillər kümbəzə. Gəlillər kümbəzə, kümbəzdə qəşəhcə dört yerə bölüllər, Şah Abbasın da payın verillər. Soruşullar sən hardansan, sən hardansan? Əsgər yoldaşı kimi soruşullar. Mən filan yerdən, mən filan yerdən, Şah Abbas da deyir ki, mən də filan yerdənəm. Tay demir mən Şah Abbasam.

Nəysə, gedir Allahverdi vəziri çağırır, qızıl da dalında–öz qızılı. Deyir:

– Nədi?

Deyir:

– Danışma, atı min, qayıdax geri.

Atı minillər, qayıdıllar geri. Gəlillər saraya. Səhər açılır. Hə, nəysə, deməh Şah Abbas çıxır taxta, qırmızı geyinir mamırların göndərir, deyir ki, gedin oları, bir filan  kəntdədi, gedin gətirin, mən də arvad paltarın geyinif gələjəm, amma yolda qoymuyun su içələr. Gətirin filan bulağın üstünə, orda görəh məni tanıyajaxlar, yoxsa tanımıyajaxlar. Bı da arvad paltarı geyir, gəlib bulağa, mamırlar da bıları gətirillər, yolda da qoymullar su içməyə. Gəlif suya, su bılar içəndə, hə, Şah Abbas başın bılıyır ki, bı nədi? Deyir, görüm bını tanıyıllar, tanımıllar. Bının biri deyir:

– Sənin kimi qəhbələrin fırıldağına düşmüşüh.

Hə, tanıyır. Qəşəhcə bıları gətirif çıxardır ora. İndi dar ağacı qurdurur bıları asdırmağa. Bıları dar ağacına gətirəndə o tanıyan dedi ki, axı sənin kimilərin fırıldağına düşmüşüh. Dedi ki, bəs sən

onda deyirdin ki, mən bığımın bir tərəfin tərpədəndə qırx adamı qutarram, axı indi heç sən üç adamı qutara bilmirsən axı. Deyif:

– Gedin, sizin həraza bir kənd verdim. Gedin orda dolanın. Bir də Şah Abbasın xəzinəsinə gəlmiyin. Xəzinədən götdüyüzü da gətirin qoyun yerinə.

## ŞAH ABBAS VƏ QOCA

Yazıx, fağır bir adam olur, həmişə dalında odun, şələdə odun daşıyıf şəhərdə satırmış. Bı kişi o qədər odun satır, satır, bının beli cidav olur. Arvadı bına deyir ki, a kişi bilirsən nə var? Gedərsən Şah Abbasdan bir şey diliyərsən, görəh Şah Abbas nə verəjəh. Allah birdi dayna, Şah Abbasa verən Allah bizə də versin.

Nəysə, kişi geyinir gedir. Nəyi var ki, nə də geyinə? Köhnə paltarınnan-zaddan geyinir, gedir oturur elçi daşının üstündə, Şah Abbasın qapısının ağzında elçi daşı varmış, oturur orda. Şah Abbasa deyillər ki, şah sağ olsun, vallah, bir nəfər gəlif oturuf. Şah Abbas çağırır. Deyir ki, bəs sən kimsən, nəçisən, nə istiyirsən? Deyir:

– Şah sağ olsun, mən Şah Abbasın qardaşıyam, Şah Abbasnan görüşməliyəm.

Nəysə, Şah Abbas da arif adammış dayna, o saat deyir:

– Hə, o vaxtı dədəm nağıl eliyirdi ki, bir arvada siğə olmuşam, orda bir qardaşın var, öyəy qardaşın var. Onu götürün gəlin bıra.

Bını gətirillər Şah Abbasın hüzuruna, görür ki, bının üst-başı tamam cındırdı. Deyir ki, bını aparın hamama, aparın dəlləhxanaya, əyninə bir dəst layıxlı kəstum geyindirin, gəlsin. O vaxtı dədəm deyirdi ki, sənin bir qardaşın var. Nəysə, dəlləh-zad üzün təmizdiyir, hamamlandırırlar, gəlir oturur. Amma arvad bına demişdi ki, gör Şah Abbas nə deyəjəh. Nəysə, bı adamlar hamısı çəkilir, gejə düşənnən sohrasına deyir:

– Şah sağ olsun, mən sən yatan yerdə yatmalıyam. Sən hansı otaxda yatırsan, mən də o otaxda yatmalıyam.

Nəysə, kişi də bının yanında yatır. Şah Abbas o başdan durur, dəstəmaz alır, üzün tutur Allahın dərgahına, deyir ki, ya xudavəndialəm, sən maa ver, mən də sənin millata verim. Kişi də bının dediylərin eşidir. Səhər açılır, səhər açılanda bı kişi qayıtmalı olur. Kişi də kəndin naxırına gedirmiş. Kişi əynindəki paltarın da orda-

hamamın küncündə soyunub qoymuşmuş ora. Kişi qəşəhcə gedib öz paltarın geyinir. Şah Abbasın da qəstumun qəşəhcə soyunuf qoyur ora, ya Allah, daban alır əvə. Gedir arvadın yanına. Arvad deyir:

– Noldu, nə gördün, nə eşitdin, nə dedi?

Deyir:

– Ay arvad, vallah, heş nə, elə üz tutdu Allahın dərgahına ki, ay Allah, sən maa ver, mən də sənin millata verim.

Deyir:

– Əşi, bınnan asad nə var? O başdan dur, sən də Allaha yalvar, mən də.

Nəysə, kişi naxırı təzədən təhvil götürür, axı üş günün vaxtına getmişdi. Kişi getdi naxırın otarmağa. Amma bılar üz tutur Allahın dərgahına dua eliyirlər. Kişinin naxırında bir sarı keçisi varıydı, mənim sarı keçim kimi, təpədən gəlmədi. Kişinin ajığı tutdu, eyha-eyha, gəlmədi. Nəysə kişi hirsinnən bına bir tolamazdı, cumdu keçinin dalınca. Kişi yıxıldı. Kişi baxdı gördü kü, yerdə zincirdi. O üjü də yerə basdırılıf, bu üjü də, amma orta elə-belə zincirdi. Kişi qarannığıydı, bıra bir daş qalağı elədi, qoydu, heyvanı yığdı, götdü, getdi, apardı əvə. Arvada dedi ki, bilirsən nə var? Səhər maa çörəh gətirərsən, eşşəyin üstünə bir də bir xurcun qoyuf gətirərsən. Nəysə, arvad kişiyə çörəh aparmaxda olsun, təzəh adıynan, təzəh yığmax adıynan, kişi dartdı gördü ki, bir qulflu küpə bı tərəfdədi, bir qulflu küpə də bı tərəfdə. İkisi də ağzınatan doludu qızılnan. Qızılı götürür yığır dağarına, xurcununa, gətirir əvə. Kişi səhərdən çağırır camahata deyir ki, ay camahat, naxırıza naxırçı tutun, tay mən naxıra getmirəm. Kişi başdıyır indi gedir bazara. Bazardan heyvan alır, qoyun alır, mal alır, başdıyır naxırçı tutur, mehtər tutur, çoban tutur. Kəndin qırağında bir səhra yeri alır, böyüh səhra yeri alır qızılnan. Sohrasına başdıyır arana gedir, dağa gedir, bının varı– dövləti artır. Kişi oldu tay ağa, arvadı xanım, nökəri, qul-qaravaşı. Nəysə.

Bir gün arvad deyir:

– Bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Gedərsən Şah Abbasın binasın tikən injineri taparsan, gətirərsən bıra.

Nəysə, gedib injineri-Şah Abbasın bı binasın kim tikif, kim eliyif, məsələn Zəfər eliyif, Zəfəri götürüf gəlir. Deyir:

– Hakqıı verəjəm, Şah Abbasın əvin nətəri tihmisənsə, nətəri eləmisənsə, o cür  çarhovuzdu-zaddı eliyərsən.

Su gətirif kəhrız vurur, yoxsa bilmirəm artizan  vırır bının həyatına. Qul-qaravaş bir tərəfdən artır, mal-qara bir tərəfdən, qızıl bir tərəfdən. Nəysə, kişi gətirir Şah Abbasın əvinnən  bir barmax da yuxarı əv tihdirir bırda. Çarhovuz, qala çəkilir, nəysə, yaylağa, arana, nə bilim tay nə? Şah Abbas vəzir Allahverdi xannan məmləkəti gəzəndə, gəlib bırdan keçəndə görüllər ki, bırda bir bina var, toşnu Şah Abbasın binası formu. Nəysə, bir-birinə baxır, deyir:

– Ə, bı kimdi? Şah Abbas mənəmsə bı məmləkətin yiyəsi, bəs bı kimdi belə bir bina tihdirif? Nə paççağa xərc verir, nə zəkat verir, bı nədi? Allahverdi vəzir,  beyjə bırda qonax qalajıyıx, bı əvdə qonax qalmalıyıx.

Nəysə, qonax qalıllar, görüllər ki, əyə, sən ölmüyəsən, bının qulu, qaravaşı, bının yanında Şah Abbasınkı nədi. Kişi bılara dəm-dəsgah zad, bılara yaxşı hörmət eliyir. Kişi bıları tanıyır. Tanyır Şah Abbas olduğun, amma bılar bını tanımır. Kişi indi aryı dəm-dəsgahdadı geyimdədi. Nəysə, qonax qalıllar gejə. Səhər açılır. Səhər açılanda kişiyə deyir ki, sən kimsən bu dəm-dəsgahı yaratmısan, mən Şah Abbasam, bəs sən kimsən? Deyir:

– Şah  sağ olsun, mən də Şah Abbasın qardaşıyam. Həmən  ki, fılan vaxtı sənin üzaa ha dedim ki, sənin qardaşınam, sən də bir qəstum verdin maa, mən də qəstumu soyundum qoydum ora,  indi buyur, götürə bilərsən, qardaşıx. Heyvanın  yarısı sənindi, bı gəlirin yarısı sənin, mən sənnən qardaşam, yarsı da mənim.

Deyir:

– A kişi, mən saa heş nə verməmişəm.  Bı dövləti Allah saa verip. Allah özaa qismət eləsin. Bı kəndin də, məmləkətin də  bidehin ala bilərsən, orda dolanarsan heş bir xəzinə də maa lazım dəyil.

Bı da Şah Abbasın nağılı.

## KASIB KİŞİ İLƏ TACİRİN DOSTLUĞU

Bir gün Şah Abbas dərviş libas olub ölkəni gəzməyə çıxır. Bir daxmaya rast gəlir. Görür, bu daxmada bir kasıb kişi arvadıynan ömür sürüllər. Kişinin vur-tut bir keçisi varmış. Gətirir, bu keçini kəsir qonağa. Yola salanda da qonağın yoluna ət pişirtdirib qoyur. Şah Abbbas kişiyə deyir:

– İstambula gəlib taparsan məni. Mən Şah Abbasam.

Vaxt keçir, gün dolanır, günnərin bir günündə həmin kişi deyir:

– Arvad, istəyirəm gedəm İstambula, Şah Abbası tapam.

Kişi çimip təmizdənir, çarığın davanın bərkidir, caddan-cuddan götürüb İstambula yola düşür. Gəlib İstambula çatır, gedib Şah Abbasın imarətini tapır. Görür ki, Şah Abbas namaz qılır. Şah Abbas kişiin görüb tanıyır. Deyir:

–Get ibadət elə, namaz qıl.

Kişi kor-peşman qayıdıp gəlir komasına. Arvad soruşur ki, a kişi, nooldu? Şah Abbası gördünmü?

Kişi deyir:

– Gördüm, amma dedi, get ibadət elə, namaz qıl.

Arvad deyir:

– A kişi, şah boş söz deməz, ibadət deyir, ibadət elə, görəh noolur?

Kişi çimib təmizdənir. Möhür əvəzinə gedip bir çaylax daşı tapır. "Allahu-əkbər" deyip namaz qılmağa başdıyır. Arvad da kişiyə baxıb namaz qılır.

Bir gün kişi yuxuda görür ki, ona deyillər:

–Aç ovjunu sikkə qoyax.

Kişi ovjunu açır. Görür ki, ovjuna, doğrudan da, sikkə qoydular. Kişi deyir:

– Arvad, dur çırağı yandır, görəh nə qədərdi?

Arvad durdu, çırağı yandırdı. Baxdılar, gördülər ki, iki şahıdı.

Kişi səhər tezdən iki şahını götürüb gedir bazara. Görür, balıx satıllar. Amma balıx iridi. İki şahılıxdan yuxarıdı. Kişi deyir:

– Cəmi iki şahım var, mənə iki şahılıx balıx ver.

Balıxsatan arabanın altında qalan, toz-torpağa bulaşan iki balığı götürüp kişiyə verir, iki şahını onnan alır.

Kişi balıxları evə gətirir. Arvad balıxları yaranda hərəsinin içərisinnən bir qiymətdi daş çıxır. Bu daşdar elə işıx verir ki, evə

çırax-zad lazım olmur.

Tacir gəlir kişinin daxmasına, deyir:

– A kişi, o daşın birinə otuz qatır yükü verirəm.

Kişi dinmir.

– Əlli qatır yükü veirirəm.

Kişi dinmir.

–Yüz qatır yükü verirəm.

Kişi bu dəfə də dinməyəndə arvad cavab verir ki, yaxşı, razıyıx, Allah xeyir versin. Tacir daşın birini alıp aparır. Gedip fikirrəşir ki, bir fırıldax qurum, o biri daşı da alım. Gəlip kişiyə deyir ki, sən yaxşı adama oxşuyursan, mən isdiyirəm sənnən siğə qardaşı olam. Kişi deyir:

–Noolar, olax.

Tacir gedip bir kağız yazdırır ki, filankəslə siğə qardaşı olurux, mən ölsəm malım, mülküm ona çatır. Tacir kağızı kişiyə oxuyur. Deyir:

– Görürsənmi, bu günnən biz qardaşıx.

Kişi deyir:

– Lap yaxşı.

Tacir deyir:

– O daşı mənə bağışla, axı biz qardaşıx.

Kişi deyir:

– Al verim. Nə böyüh şeydi ki. Bının hərəsinə bir şahı vermişəm.

Tacir bı sözdəri eşidəndə deyir:

– Ay dadi-bidad, mən başı batmış o daşın birinə yüz qatır yükü vermişəm.

Tacirin ürəyi partdıyıp ölür. Onun İranda əlavə yüz qatır yükü, mal-mülkü varıymış. O mal-mülk də kişiyə çatır. Kişi varlanır, özünə böyüh bir imarət tikdirir.

## YUMURTA BOYDA BUĞDA

Biri varıydı, biri yoxuydu, bir padşah varıydı. Bu padşahın buğda anbarının içinnən yumurta boyda bir buğda tapılır. Padşah vəzirini, vəkilini çağırır, deyir ki, bı nə işdi? Heç kim bı sirri öyrənə bilmir. Padşah vəzirinə deyir ki, sənə qırx gün vaxt verirəm. Əyər bı buğdanın sirrini öyrənib gəlib deməsən, boynuu vurdurajam.

Vəzir düşür ölkənin canına. Dünyagörmüş adamların, bilijilərin, baxıjıların yanına gedir. Genə də sirri aça bilmillər. Sora eşidir ki, uzax bir kətdə yüz yaşınnan yuxarı bir qoja yaşıyır. Yollanır ora, qapını döyür. Vəzir də dərviş paltarında olur. Bir qadın qışqıra-qışqıra, deyinə-deyinə gəlib qapını açır. Vəzirə ajıxlanır:

– Nə istiyirsən?

Vəzir gəldiyinə peşman olur. Amma içəri keçir. Görür ki, bir kişi yorğan-döşəhdə yatır. Vəzir məsələni açıb deyir. Kişi vəzirə deyir ki, mən bu sirri bilmirəm. Bəlkə böyük qardaşım bu sirri bilir. Vəzir böyüh qardaşın evinə gedir. Genə də qapını döyür. Bir arvad qapını açır. Böyüh qardaş da deyir ki, mən də bı sirri bilmirəm, filan yerdə böyüh qardaşım yaşıyır, get onun yanına. Vəzir gedir o qardaşın evini tapır. Qapını bir xoşsifət arvad açır. Vəzir qadının xoş sifətini görür, deyir ki, Allah qonağı istəmirsiz? Qadın "xoşgəldin" eliyib vəziri içəri dəvət edir. Vəzir otağa girir, görür ki, heç kim yoxdu. Deyir ki, məə sizin əriz lazımdı. Arvat: "Bı saat gələr" – deyir. Oğluynan vəzirə çay göndərir. Aradan bir az keçənnən sora vəzir görür ki, cavan bir oğlan əlində zənbil içəri girdi. Arvad evdə qonağ olduğunu xəbər verdi. "Allaha şükür"-deyərək gülə-gülə kişi içəri girdi. “Eşidirəm”, dedi. Vəzir dedi ki, məə siz yox, filankəsin böyük qardaşı lazımdı. “Elə böyük qardaş mənəm”-dedi. Ev yiyəsi deyir ki, sən birinci qardaşımın evinə gələndə nejə qarşılandın, sora ikincinin evinə gələndə nejə qarşılandın? Vəzir deyir ki, heç bir xoş sifət görmədim. Amma məni burda xoş sifətnən qarşıladılar. Böyük qardaş deyir ki, ona görə də mən belə cavan qalmışam. Bunnan sora vəzir nəyçün gəldiyini deyir. Sora qardaş vəzirə yumurtanın sirrini açır. Deyir:

–Vəzir, bizim kəntdə bir kişi varıydı. Bu kişinin əlində bir parça torpağı varıydı. Torpağı hər il əkib-bejərirdi. Onnan dolanırdı. Bir vaxt kişinin əli aşağı düşür. Məjbur olub torpağını satır. Həmən kəntdən bir kişi bu torpağı alır. Vaxt gəlir, kişi həmən torpaxda buğda əkir. Torpağı əkən vaxtı torpaxdan bir küp çıxır. Küpün içi qızılnan doluydu. Torpax yiyəsi küpü götürür, gəlir torpax satanın evinə. Bəs deyir ki, qardaş, sənin yerii əkəndə bı küp ordan çıxdı. Bı sənə də çatajax. Kişi deyir ki, əyər o mənə qismət olsaydı, mən əkən vaxtı çıxardı. Bı sənin qismətindi. Heç birisi küpə yiyə durmur.

Onda deyillər ki, gedəh qazının yanına. Qazıya hər şeyi deyillər. Qazı onnardan soruşur ki, övladdan-uşaxdan nəyiiz var? Torpax satan kişi deyir ki, bir oğlum var. Torpax alan kişi də deyir ki, mənim də bir qızım var. Qazı deyir ki, sənin qızıın kəbinini onun oğluna kəsirəm. Həmin ili həmin torpaxda əkilən taxıl yetişir. Yığın vaxtı görüllər ki, buğdanın hər biri yumurta boydadı. Həmin buğdadan biri düşüb həmin padşahın xəzinəsinə.

Vəzir kişidən razılıx eliyir. Gedib bütün əhvalatı padşaha nağıl edir. Bunnan da vəzir özünə hörmət qazanır.

## ÜÇ SÖZ

Potışahnan vəzir gəzməhdən gələndə gördülər ki, yulun qırağında bir quca kişi üş kum kül quyup. Bu kişi külün birin dağıdıp dedi:

– Bu kül u kişinin boşına ki, öz sırrın öz ovradına verey.

İkimci külü dağıdıp dedi:

– Bu kül u kişinin başına ki, öz qohumların quyup, özgə kimsələrinən utu-dur eley.

Üçümcü külü dağıtdı, dedi:

– Bu kül u kişinin boşına ki, özünnən böyüyə qullux eley.

Bu sözləri sınamaxdan ötü üş yüz tümən pul verip bu sözlərin üçün də aldı vəzir. Vəzir gəldi əvə. Bu sözdəri sınamaxdan ötü potışahın bir dənə qoçun gətdi gizlətdi. Getdi özü bazardan u nəmdə, u nişanda qoç aldı gətdi. Ovrada dedi:

– Qoçun başın kəseyəm.

Qoçun başın kəsdi. Qoçun əti yeyildi qutardı. Vəzir öz ovradını bu sözü sınamaxdan ötü bərh döydü. Potışah da səs salıp, adamları yığıp dar ağacının dibinə. İndi potışah dey:

– Qoçumu mənim kim yeyip dillənsin, çəkeyəm dar ağacına.

Bu vədə vəzirin arvadı yerey irəliyə, dey:

– Potışah, boşın sağ ulsun, öz vəzirin öz qoçu yeyip, sən də comatı çəkesən dara.

Potışah vəziri çəhdi dar ağacınını altına. Potışah dedi:

– Mənim qoçumu sən yemisən?

Vəzir dedi:

– Bir sat möhlət ver, yanıma da bir adam qoş.

Vəzirə potışah bir adam qoşdu, bir sat da möhlət verdi. Vəzir

gəlip homan adamnan içəridən-içəriyə getdi. Getdilər çıxdılar yop dibdəki əvə. Potışahın qoçun çəhdi gətdi dar ağacının altına. Potışah soruşdu vəzirdən:

– Bu necə işdi?

Vəzir dedi:

– Bəs sənnən gəzməhdən gələndə külü üş yüz tümən verip söz əvəzinə almadım? İndi gör nətər düz çıxdı.

Vəzir boşley sözün dalın danışey:

– U ki mənnən ötü qohumlarım dar ağacının altında ağleydi, qulluğu verdiğim adamlar da güleydi mənə. Öz qohumlarımı buraxıp, yaddarınan uturup-durmuşam. Sözün biri budu. Sözün ikimcisi udu ki, öz sırrı öz ovradaa vermiyəsən. Sınamaxdan ötü ovrada bir-ikisin əyirtdim, ovrat da sənə xəbər gətdi ki, qoçu mən yemişəm. Sözün biri də udu ki, utuz ildi mən sənə vəzirəm, bir qoşdan ötü sən məni dara çəkesən. Özünnən böyüyə qullux eləməh nəhəhdi. Yop elə mən sənin qoçu yemişəm, axı utuz il də sənə qullux eləmişəm. Nətər uldu ki, bir qoçun dərdinnən məni dar ağacına çəkesən?

İndi dəy mən öz qohumlarımı quyup yaddarınan utu-dur eləmem, sırrımı öz ovradıma demem, böyüyə də qullux eləmem.

## PADŞAHLA DƏMİRÇİ

Deyir, qonaxlıq olur, padşah qonaxlıq eliyir. Camahatın hamısını çağırır yığır ora, yeməh-işməhdə. Yeməh-içməhdən sonra bir-bir durğuzdurur əyağa, deyir, sən nə sənətin yəəsisən, sən nə sənətin yəəsisən? Biri deyir, mən palan tikirəm, biri deyir, mən tifar hörürəm, biri deyir, mən həkiməm. Bir cavan oğlanı da durğuzdurur əyağa, deyir, sən nə sənətin sahibisən? Deyir, mən dəmirçiyəm. Deyir, sənin sənətin sənət deyil, dur məclisdən çıx. Bı cavan oğlan durur çıxır küçüyə. Küçəynən üstdən aşağı gedəndə öz-özünə deyir, ə, palan tikanın, nə bilim tifar qoyanın, kimi-kimi hamısını məclisdə saxladı, maa dedi ki, sənin sənətin sənət dəyil, məni qovdu. Bəs mən neylim, nəynən dolanacam? Mən nə təhər yaşıyacam? Küçəynən üstdən aşağı gələndə görür ki, bir çəhmə qəyiran yer var. Öz-özünə fikirrəşir ki, bı da sənətdi da, dönüm elə bı çəhmə qəyirmağı örgənim. Gəlib görür, bir qoca kişidi, deyir:

– Əmi, sən bırda nə iş görürsən?

Deyir ki, mən çəhmə düzəldirəm.

Deyir:

– Ola bilər ki, məni də götürəsən şəyird? Bir yetim gədəyəm, çəhmə tikmağı örgənim, o da bir sənətdi.

Qoca deyir:

– Bala, nolar, gəl örgən.

Bir beş-on gün işdiyənnən sora qoca görür ki, bı çox fərasətti oğlandı. Nə deyirsən, onu götürür, nə deyirsən, eliyir, əyaxqabı tikməyi-zadı, hər şeyi bacarır. Təxminən bir ay bırda işdiyənnən sora bir günnəri padşahın qızı qırx qıznan küçeynən gedirmiş hamama. Bu oğlan da bir elan yazıp vırıppış qapıya ki, kimin nə arzusu varsa, bırda qəbul olur. Qapıya yazmalıydı ki, bırda əyaxqabı qəyrılır. Oğlan savaddı oğlanıydı da, qəşəh xətnən yazıp vırır qapıya ki, bırda kimin nə arzusu var, qəbul olunur. Padşahın qızı gəlib keçəndə bı elanı oxuyur, görür çox qəşəh bir xətnən yazılıp, kimdisə savadlı adamdı, amma mənası düz deyil axı. Nətər yanı, kimin nə arzusu var, bırda qəbul olunur? Gəlir ayağın birin qoyur içəri, görür bir cavan oğlandı, bir də bir qoca kişidi. Deyir:

– Bırda nə iş görürsüz?

Deyir:

– Əyaxqabı tikirih.

İndi padşahın qızı ta əyağın birin qoyub da içəri, sözün geri götürməməhdən yana deyir ki, bəs ola bilər ki, maa bir cüt əyaxqabı tikəsiz? Kişi dinməmiş oğlan deyir:

– Olar, bı şərtnən ki, get əlli metir aralıda dur, əyağı çıxart, ölçüsün götürüm.

Qız öz-özünə fikirrəşir ki, bı nətər ustadı ki, əlli metrədən ölçü götürür?

Bı qız gedənnən sora bı oğlan əyaqqabını tikir. Qız səhər tezdənnən gəlir ki, görüm əyaxqabı hazırdımı? Padşahın qızına əyaxqabı əskik deyil ki. Oğlanın əlli metir aralıdan ölçü götürməyi qızı maraxlandırır. Deyir ki, axı, görüm bı əlli metrdən ölçü götürüp nətər əyaxqabı tikir? Oğlan çıxardır əyaxqabını verir. Qız geyir əyağına, görür ki, lap əyağına görədi. Qız çıxır gedir. Aradan bir neçə gün keçənnən sora oğlan öz-özünə fikirrəşir ki, mən belə sənət yəəsi olam gələm bırda əyaxqabı tikəm, bınnan dolanam –

belə olmaz. Madam padşah məni məclisdən qovup, mən hər şeyi bıraxıram, gedip patşahın qızıl xəzinəsini yaracam. Oğlanda hər cürə alət varıdı, dəmirçiydi axı. Dəmiri kəsə bilirdi, doğruya bilirdi. Ona görə də xəznə yarmax onun əlində hasand idi. Gecəyarı gedir xəzinəni daldan yarır, sandıxları kəsir-doğruyur, qoynun-qoltuğun qızılnan doldurur, çıxır. Sora xəznəni elə düzəldir, qayırır ki, heş məhlim eləmir ki, bı xəznə yarılıp. Xəznənin də qaravılçısı-zadı qabaxdadı da, nə xəbərrəri var? Bı oğlan hər gecə gəlir xəznəni yarır, qoynun-qoltuğun doldurur çıxır. Oğlan gətirdiyinnən bı ustaya da verirdi. Usta ona yalvarır ki, bala, səni ant verirəm səni yaradan Allaha, məni də aparginən, heç olmasa qoynumu-qoltuğumu doldurum, bir gözüm doysun daa. Oğlan deyir:

– Əşi, neynirsən axı, mən gətirirəm saa da verirəm dana.

Hər bir şeyin hesabı olan kimi, bu xəzinənin də hesab-kitabı vardı. Ayın başında otdular hesabladılar, gördülər ki, xəznədən filan qədər qızıl yoxdu. Hamı dedi ki, balam, bı qızıla nə gəldi, necoldu, nətəər oldu? Vəzir dedi ki, patşahım sağ olsun, bırda surğuş qırılmıyıp, bir yerdən yarılmıyıp, bıra heş bir bəni-insan gəlmiyip. Yəqin məleykələr Allah-təala tərəfindən çəkir göyə daa. Patşah deyir:

– Əşi, necə yanı, mənim halal malımı maleykələr çəkir nədi?

Qırx gün sizə vaxt verirəm. Tapdız, tapdız, tapbadız oğrunu, başıız fərmandadı.

Vəzirnən vəkil gəlir çox fikirrəşir. Vəzir deyir ki, pətşahi-aləm sağ olsun, mən tədbir fikirrəşmişəm.

Patşah deyir:

– Nədi?

Vəzir deyir ki, gətiginən bir yerdə bir yeməhxana açax, orda olan çəngəl-pıçax nə varsa, hamısı qızıldan olsun. Bir eylan vırax qapıya ki, kim pulsuz yeməh istiyirsə, gəlsin bırda yesin. O kimdisə – o xəznəni yaran, qızılı tanıyan adamdı daa. O çəngəli-pıçağı elə-belə adi adam bilməz ki, qızıldandı. Xəznəni yaran kimdisə, vərdişkar adamdı. Bir dəfə əyağı düşəcəh bıra. Yeyip-içənnən sora çəngəl-pıçaxdan birin mütlax aparaceh. Qapıda güdühcü qoyax, qapıdan çıxannarın ciblərin axtarsınnar. Kimnən çıxsa, elə xəzinəni aparan da odu.

Bir günnəri bizim bı dəmirçiin də əyağı tüşür həmən küçüyə. Baxıp göör ki, bir eylan vırıplar ki, bəs kim pulsuz yeməh istiyirsə, gəlsin bıra. Bı da keçir içəri. Qəşəh yuyunur, gəər oturur. Yeməh gəər bının qabağına. Baxır görür ki, çəngəl-pıçax hamısı qızıldandı. Oğlan deyir:

– Mən nə axmaq adamam. Gecə səhərətən yuxusuz qalıram, gedirəm xəznəni yarıram. Gündə gəlim elə bırda yeməyimi yeyim, hərdən də bir pıçax-çəngəl götürsəm, bəsimdi.

Bı minvalnan durdu çəngəlin birin götdü, qoydu cibinə. Qapıdan çıxanda gördü ki, qapıda güdühçülər qoyulup, çıxannarın cibin axtarır. Gördü ki, özünnən qabax bir qoca arvat var, şal bağlıyıp ortasına. Tez gətdi çəngəli arxadan saldı arvadın şalına. Arvat da qoca arvatdı da, orasına-bırasına baxdılar, bıraxdılar. Oğlanı da axtardılar, gördülər bir şey yoxdu, buun da bıraxdılar. Oğlan gəldi küçədə arvadın şalınnan çəngəli elə çəkdi ki, heş arvad bilmədi. Çəngəli götdü getdi.

Axşam hesapladılar, gördülər ki, çəngəlin biri yoxdu. Dedilər ki, həə, həmən xəznəni yaran adamdı, çəngəlin birin aparıp.

Aradan bir neçə gün keçənnən sora bı səfər vəkil dedi ki, patşah-aləm sağ olsun, ayrı bir çarəsi yoxdu, gətiginən bir yeri bəziyax, bir otax bəziyax, sənin qızın da çox gözəldi,aparax sənin qızını qoyax ora. Orda hər barmağına bir dənə birliyand üzüh taxax. O kimdisə, onun bıra da əyağı düşəcəh. Birliyand qızıldan da qiymətlidi, onun tamahı durmayacax, mütləh qızın barmağınnan birin çəhməlidi. Qıza da möhür hazırlayax verəh, kim üzüyü barmağınnan çəhsə, qızın möhürnən vırsın alnına. Onnan sora hara getsə, hansı vilayətə getsə, möhürnən tapaceyıx onu.

Bı minvalnan otağı hazırradılar. Qızı apardılar qoydular ora, möhürü də verip nə lazımdı tapşırdılar.

Bir günnəri genə bizim bı dəmirçinin əyağı tüşdü bı küçüyə. Gördü ki, bir eylan yazıplar: "Kim pətşahın qızını görməh istiyirsə, fılan yerdə ona baxa bilər". Oğlan girdi içəri, gördü ki, qızı oturduplar taxtda, bəzənip-düzənip, ama hər barmağında bir dənə birliyand üzüh var. İçəri də doludu adamnan. Hamı baxır.

Bı da tanıyır qızı – çəhmə tikip axı qıza. Çatdı qızın yanına, çatan kimi əl atdı üzüyün birin çəhdi, üzüyün biri çıxdı. Qız yer-

dən qalxdı, möhürnən vırdı düz oğlanın alnına. Oğlan tez əl atdı qızın əlinnən möhürü aldı, içəridə nə qədər adam varıdı, hamısını möhürrədi, çıxdı çölə. Töküldülər yenişə-yoxuşa, baxdılar, gördülər bının hamısı möhürrüdü. Nə bilsinnər bının hansıdı xəznə yaran?! Bı kələh də baş tutmadı.

Oğlan genə başdadı hər gecə xəznəni yarıp aparmağa. Misir patşahı da bı vilayətin patşahıynan qardaşdığımış, möhkəm dostumuş. Bı əhvalatı eşidir, ordan xəbər göndərir ki, sən nə patşahsan ki, sənin xəzinənnən belə qızılı çəkip aparıllar, sən bir oğrunu tapa bilmirsən? Bı dərt də bir yannan patşaha əsər elədi.

Bir günnəri qız gördü ki, atası saralıp-solur. Dedi:

– Ata, sən mana icazə verginən, mən o oğrunu taparam.

Patşah dedi:

– Qızım, səni dünya malına qane edərəm. Məni bı əzapdan kutar.

Qız gəldi, heş kimin xəbəri olmadan xəznənin dörd bir yanını qazdırdı adam boyda, qırı əritdi töhdürdü ora ki, bura kimdisə, insan gəlir da, onu tutsun. Həsirnən-filannan üstünü ötdürdü ki, bilməsin. Həmən gecə usta oğlannan əl çəhmədi ki, çəhmədi. Dedi:

– Səni ant verirəm səni yaradan Allaha, məən də aparginən.

Oğlan da bilmir axı bırda belə iş olup – tələ quruplar.

Olmadı, oğlan ustaan da götdü apardı. Genə kəsdiyini kəsdi, doğradığını doğradı. Oğlan ustaya dedi:

– Usta, keç.

Usta əyağının birin atdı, o birin atanda şarap düşdü quyuya. Oğlan baxdı ki, usta gedir yavaş-yavaş. Usta dedi:

– Ay bala, mən gedirəm.

Oğlan dedi:

– Qorxma, çıxardecem.

Əyağın qoydu kişinin çiyninə, addadı o tərəfdən qoynun-qoltuğun doldurdu qızılnan. Addadı bəri tərəfə, kişinin başın bir az özünə sarı elədi, xəncərnən kişinin başın kəsdi. O qəddərə saxladı ki, qanı-zadı süzüldü. Ordan olan palazdan-zaddan bir şey götürüp kişinin başın pühdü. Kişinin başın götdü. Genə xəznənin düzəltməlisin düzəltdi, qayırmalısın qayırdı, çıxdı gəldi.

Səhər tezdənnən qız genə adam göndərdi, getsinnər, baxsınnar. Qız səhərətən yatmamışdı ki, oğru gəldisə, təliyə düşməlidi.

Getdilər gördülər bir adam var, düşüb boğazatan batıp qıra, başı yoxdu. İsti su töhdülər, dəm-dəsgəhnan bir təərnən çıxartdılar, yudular-təmizdədilər. Bir də qızılı saydılar. Gördülər genə aparıplar. Qız bildi ki, kimdisə genə apardı. Bı başı kəsilən kimdisə, bədbaxdı, gəlib düşüb elə bıra. Qızılı aparan aparıp. Qız əmir verdi ki, meyidi aparıp bazarın darvazasınnan asın. Kim gəlib bının yanında ağlasa – qohumunnan, arvadınnan-uşağınnan, o adamı gətirin mənim yanıma.

Oğlan səhər tezdən çıxdı bazara. Gördü ki, bazarın darvazasınnan ustanın meyidini asıplar. Oğlan gəldi ustaan arvadının yanına, gətdi qızılı da töhdü onun qabağına. Dedi ki, xala, bilirsən nə var? Arvad dedi:

– Nədi?

Oğlan dedi:

– Sən bilirsən ki, biz həmişə gedirdih oğurruğa, ərinnən qızıl gətirirdih. Bı işdən xəbərin var. Bı gecə də ketdih, kişini öldürdülər. Bı qızıl, nə qəddar istiyirsən oğul-boğul xəşdə. Ta ayrı çarəsi yoxdu, ta mən neyniyim?

Arvad başına-gözünə döydü ki, heç olmasa mən ərimin meyidini görüm, onnan sora basdırım. Ta indi işdi olup-olup, oğurruxdu.

Oğlan dedi ki, indi ki, ərıı görmax istiyirsən, nətəər deyirəm, heylə elə. Arvat dedi:

– Nətəər eliyim?

Oğlan dedi:

– Bir cəvəran yumurta götürərsən, gedərsən bazara. Kişinin meyidini bazarda darvazadan asıplar. Elə ki, kişinin meyidinin yanına çatdın, əyağın ilişdirərsən daşa, cəvəran yumurtanı buraxarsan. Yumurtalar tökülüb əzileceh. Başaa-gözaa döyüp o ki lazımdı, orda ağlıyarsan. Elə ki, səni apardılar, soruşdular, bı kişi sənin neyindi? Deyirsən ki, mən dul arvadam. O bazardan bı bazara yumurta yığmışam, gətirəm satam, uşaxlara çörəh alam. Mən yumurtaya ağlıyıram ki, gələn bazaratən mənim uşaxlarım nə yeyəcəh?

Arvat durdu getdi, cəvərəni doldurdu yumurtaynan, apardı bazara. Meyid asılan yerə çatan kimi əyağını ilişdirdi daşa, cəvaranı buraxdı, yumurta dağıldı, sındı. Arvat başına-gözünə nə ki lazımdı, döydü, ağladı. Patşahın adamları bını götüdülər, apardılar qızın

yanına. Qız soruşdu:

– Xala, niyə ağlıyırsan, nəyindi o kişi?

Arvat dedi:

– Ay bala, mən bir dul arvadam, o bazardan bı bazara yumurta yığmışdım, satam, uşaxlara çörəh alam. Yıxıldım, yumurta sındı. İndi gələn bazaratan mən uşaxlara nə verəcəm?

Qız tapşırdı xəznədara, arvada qəpikdən-quruşdan verdilər, dedi:

– Xala, bı pulnan apar gələn bazaratan dolan. Yumurta, yığ... genə gələn bazar gətirip satarsan.

Bı minvalnan oğru genə tapılmadı. Artıq qırx gün tamam olmaxdaydı. Bir-iki gün qalmışdı ki, tamam olsun. Vəzirnən-vəkil asılmalıydı. Oğlan tapılmamışdı axı.

Oğlan gördü ki, bı vəzirnən-vəkili nahaxdan öldürəcehlər. Oğlan gəldi elçi daşının üstündə oturdu. Vəzir-vəkil gəldi ki, nə dərdin var? Oğlan dedi:

– Mənim sözüm-söhbətim sizə dəyil. Mənim patşahnan işim var.

Oğlan getdi patşahın yanına. Dedi:

– Patşah-aləm sağ olsun, Allahdan gizdin dəyil, indi bəndədən nə gizdin olar. Sən bilirsən ki, sənin xəznaa hər gecə yarıp aparıllar. Bını bütün dünya bilir. Maa əsər eliyən səən o qardaşdığındı ki, gündə bir dəfə saa xəbər göndərir ki, sən nə patşahsan bir oğrunu tapa bilmirsən? İndi sən maa icazə ver, mən gedim o patşahın özünü oğurruyum gətirim.

Patşah elə bilir ki, bı dəlidi. Çağırır vəzir-vəkili, deyir:

– Bı nə deyir, nə danışır? Aparın bına puldan-zaddan verin, yazıxdı, çıxıp getsin.

Oğlan deyir:

– Ə kişi, yox ey, mən sənnən söz danışıram. Mən gətiməsəm, boynumu vırdırın.

Patşah dedi:

– Yaxşı, get gəti.

Oğlan deyir:

– Yox, mən belə gedə bilmərəm. Gərəh kağız yazax, sora.

Padşah deyir:

– Ə, ona bir kağız qərəliyin verin.

Oğlana kağız yazıp verirlər. Oğlan əyağın diriyir ki, yox, gərəh

möhür də vırasız.

Padşah kağızı möhürrüyür. Oğlan kağızı alır, qoyur qoynuna. Səhər tərpənir, gecə yarı çatır həmən patşahın bağına. Özüynən mışar götürür, çəkiş götürür, yeşih-meşih götürür. Gedir padşahın bağında meyvə ağaşdarı, nə var, hamısın doğruyur tökür yerə. Başdıyır yonmağa, guya taxta düzəldir. Padşah səsə alt paltarında pəncərədən baxır ki, ədə, bir pəzəvəngin biri ilişib bağa, bağı doğruyur, istahatdan salır. Tez elə alt paltarında gəlir bının yanına. Deyir:

– Ay oğul, bını niyə doğruyursan?

Oğlan deyir:

– Patşah-aləm sağ olsun, Allahdan gizdin dəyil, bəndədən nə gizdin olar? Sənin o qardaşdığın, o fılan patşah ağzınnan canı çıxanda vəsiyyət elədi ki, mənim tabıtımı mənim qardaşdığımın bağındakı ağaşdardan düzəldərsən. Orda mən çox yeyib-içmişəm. İndi əl-ayağıma dolaşma, bir az aralı dur, mən işimi görüm.

Patşah başına-gözünə döyür. Sora deyir:

– A bala, bəs ipdən-zaddan gətimisən, ölçünü bilməyə?

Oğlan deyir:

– Əşi, ya sən, ya o. İkizin də boyu birdi. Gir bı yeşiyin içinə görüm nətəridi?

Patşah yeşiyin içinə girən kimi oğlan qapağı üstən basıp mıxlıyır. Kəndiri salır ortasına, atır çiyninə, tərpənir patşahın yanına. Aparır qoyur patşahın qabağına. Patşah deyir:

– Ay oğul, bı nədi?

Oğlan deyir:

– Ə kişi, aş gör nədi?

Ağzını açanda görür içinnən alt paltarda qardaşdığı çıxdı. Qardaşdığı görür bı patşah sağdı, qucaxlaşırlar. Bı patşah özünü sındırmır, deyir ki, görürsən, gündə maa bir xəbər göndərirdin ki, oğrunu tapa bilmirsən. İndi səən özünü oğurratdırıp gətimişəm bura.

Patşah göz basır öz adamlarına ki, bı pəzəvəngi gözdəsinnər, birdən qaçıp gedər, bınnan əməl əskik dəyil. Bir neçə gün yeyipiçillər. Patşah qardaşdığın yola salannan sora bını çağırır deyir:

– İndi söhbət elə, görüm, bı nə kələkdi?

Oğlan deyir:

– Patşah sağ olsun, mənim dəlil-sübutum var, ayın-oyunum var, icazə ver, gedim gətirim, sora.

Patşah icazə verir. Gedir oğurradığı qızılları, çəngəli, birliyantı gətirir, qoyur patşahın qabağına, deyir:

– Yadındamı, məclisdə adamlardan sənətini soruşurdun. Biri dedi ki, tifar qoyanam, biri dedi, palan tikənəm, nə bilim, biri dedi, aliməm. Mən də dedim, dəmirçiyəm. Dedin ki, səən sənətin sənət dəyil, dur çıx məclisdən. Mən də sənətimi dəyişdim, bı sənətin yəəsi oldum. İndi istirsən məni öldür, istiirsən məni saxla.

Patşah deyir:

– Elə axmax adam mənəm, əsil patşah sənsən.

Qızın da verir bına, bını qoyur patşah. Onnan da kutarır çıxır gedir.

## EKİZ QARDAŞLARIN NAĞILI

Bir vilayətin padşahı ölür. Vəzir-vəkil Tavuz quşun uçurullar, quş gedip qonur padşahın on dört yaşdı bir oğlu qalıpmış, onun əviin qabağına. Genə uçurullar, genə gedip qonur həmən oğlaan əviin üstünə. Vəzir-vəkil tökülüşür padşah oğluun qapısına, deyillər:

– Neçə dəfə quş uçurtdux, Tovuz quşu sənnən əl çəhmədi, gəl padşahlığı qabul elə, vilayatı dolandır. Padşahın oğlu deyir:

– Əşi, mən nəyəm ki, bı vilayatı dolandıram? Mən özümü hərriyəmmirəm, sizə nə təhər padşahlıx eliyə bilərəm? Yox, yox, mənnən keçin.

Vəzir-vəkil, cahamat deyir ki, yox, elə şey olar? Quş bir şey bilir ki, gəlip bıra qonur, ancax gərəh sən olasan patşah. Padşah oğlu baxır ki, başqa cürə olmuyaceh, deyir:

Onda maa bir il möhlət verin, sora olaram.

Naəlaş qalıp vilayatı bir illiyinə tapşırıllar vəzirə. Nağıl dili yüyrəh olar. Bir il fırranır keçir. Gəlillər padşah oğluun yanına, deyillər:

– Vədə tamamdı, çıx taxda.

Padşah oğlu deyir:

– Əvvəlcə məni atamın torpaxlarında gəzdirin, sərhəddəri gösdərin, sora çıxajem taxda.

Bəli, atdarı yəhərriyillər, çıxıllar səfərə. O kət sənin, bu kət mənim, bı vilaytın sərhəddərin dolanıllar. Bir gün gəlip çıxıllar

bir kəndin yanına, görüllər çəmənnihdə bir sürü mal otduyur. Bir inəh yatıp yerə. Padşah oğlu deyir ki, kim diyər, bı inəyin qarnındakı balası dişidi, ya erkəhdi?

Heş kim bilmir. Padşah oğlu deyir ki, ama mən bilirəm, bı inəyin qarnındakı balası dişidi, bənöyüş bızavdı, alnında da qaşqası var. Padşah oğlu bını deyən kimi kolluxdan bir qah-qaha səsi gəlir. Dəməynən, elə padşah oğlu yaşında bir naxırçıdı, padşahın adamlarını görüp gedip kolluxda gizdənipmiş. Padşah oğlu atın sürür kolluğa, deyir:

–Sən kimsən ki, məəm sözümə qah-qah çəhdin?

Bı oğlan, adı da ola Məhəmməd, kolluxdan çıxır, deyir ki, mən bı sürüün naxırçısıyam, adım da Məhəmmətdi. Sən hamısın düz dedin, ama bı buzov qaşqa dəyil, quyruğu qatdanıp gəlip alnına, odu ki, sən elə bildin qaşqadı. Padşah oğlu cibinnən bir kisə qızıl çıxarıp atır Məhəmmədə, deyir:

–Bı inəyin haqqı, kəsin görəh sən deyən düzdü, yoxsa mən deyən?

İnəyi kəsillər, görüllər ki, Məhəmməd deyən düzdü, bızov qaşqa dəyil. Padşah oğlu ürəyində deyir: “Əyə, bı mənnən ağıllıdı, gərəh bını aparam yanıma”.

Deyir:

– Məhəmməd, maa vəzir olarsan?

Məhəmməd deyir ki, yox, məəm yolum başqadı, səninki başqa. Padşah oğlu nəkqədər eliyir, Məhəmməd razı olmur. Axırda padşah oğlu fikirrəşir ki, bı işdə zor fayda verməz. Gedim bir müddətdən sora məslahatnan gətirrəm yanıma

Padşah oğlu qayıdır sarayına. Bir müddət keçir, adam göndərip Məhəmmədi çağırtdırır yanına. Ora Məhəmməd, bıra Məhəmməd, Məhəmmədi tapammillər. İndi də saa kimnən deyim, Məhəmmətdən.

Məhəmməd axşam naxırı kəndə gətirir, fikirrəşir ki, bı padşah oğlu mənnən əl çəhmiyəjəh, nətəər eləyim, necə eləyim ki, məni tapamməsin? Məhəmməd götürür paltarın dəyişir, başına da bir qoyun dərisi keçirir, olur bir keçəl qız. Gəlir padşahın sarayına, yalvarır ki, bəs yetim qızam, maa bırda bir iş verin, işdiyim, həm də qalım. Bı keçəl qıza yazıxları gəlir, götürüllər yeməhxanıya, deyillər: “Yazıxdı, bırda qabdan-qajaxdan yuyar, həm də bir qarın çörəh yeyər”.

Məhəmməd bırda qalsın, bı yannan da padşahın oğluun halı olur pərişan. Deyir: “Nətəər olsa, gərəh Məhəmmədi tapam”. Vəzirnən vəkili çağırır yanına, hərəsinə bir kisə qızıl verir, deyir:

– Düşün vilayatdara, hər yerdə soruşun ku, dünyada ən güjdü şeytan hansıdı?

Patşah oğlu bilir ki, elə-belə axtarmaxnan Məhəmmədi tapmax olmaz, ona görə də bı sözü vəzirnən vəkilə deyip yola salır. Vəzirnən vəkil çox yeri dolanıllar, hər yerdə padşah oğlu tapşırdığı sözü soruşullar, hərə bir şey deyir. Vaxt tamam olur, vəzirnən vəkil yorğun-arğın qayıdıp gəlir. Padşah yeməhxanasının yanından keçəndə Məhəmməd qız paltarında, başında da qoyun dərisi çıxır bınnarın qabağına, deyir:

– Gəlin bir çay için, sora gedərsiz.

Vəzirnən vəkil girillər yeməhxanıya, oturullar, Məhəmməd bınnarın yanına gəlip deyir ki, mən bilirəm, siz nə axtarırsız, çayızı için, mən bir əhvalat danışacem, gedip padşah oğluna deyərsiz. Vəzirnən-vəkil deyillər: “Balam, bı keçəl qız nə bilir, biz nə axtarırıx?” Fikirrəşillər ki, yağın eşidipdi, eşidip bilənnərdən soruşupdu. Məhəmməd başdıyır nağıl eləməyə. Deyir:

– Bir kətdə bir ailə varmış, çox mehriban dolanırmışdar. Ata-anaymış, iki də qardaşıymış. Bınnarın qonşuluğunda bir qarı da varmış. Bı qarı ha çalışırmış ki, ayilənin mehribançılığını pozsun, bajarəmmirmiş. Vaxt olur ki, bı qardaşdarın ata-anası ölür. Bınnarın da evlənməh vaxtıymış. Yığışıp məslahat eliyillər ki, bəs gərəh bı qardaşdar evlənsinnər. Qardaşdar gedip hərəsi bir qız alır. Qonşu qarı deyir: “Həə, indi mən arzuma çataram, bı ailəyə bir məğlətə salaram”. Bir gün qardaşdardan biri gedir çölə odun qırmağa, arvadı qalır əvdə. Qarı tumanını çırmayıp alır əlinə, gedir çöldəki qardaşın yanına, deyir: “Ay namıssız, sən bırda odun qırırsan, arvadın əvdə qardaşınnan oynuyur, belə də namıssızdıx olar?” Qarı oradan da gəlir bulaxda o biri qardaşın arvadına deyir: “Ay axmax, səən başın qarışıp bırda su götürməyə, ərin orda qayınarvadınnan pis əməldən çıxır, özüm görmüşəm”. Bəli, çöldəki qardaş dəhrəni, baltanı qapıb cumur əvə, onnan qabax da bulaxdakı arvad özünü yetirir əvə, saşyolmasına çıxır. Bı yannan da qardaşdar bir-birin qanına qəltan eyliyir. İndi bilin ki, dünyada ən gücdü şeytan adam şeytanıdı.

Vəzirnən vəkil çaylarını içip durullar ayağa, gəlillər padşah oğluun yanına. Padşah oğlu deyir ki, gəlib çıxdıız? İndi danışın görüm, nə öyrənipsiz? Bınnar eşitdihlərini danışıllar, padşah oğlu qəzəblənir, deyir:

–Sizə bı qədər qızıl vermişəm, elə öyrəndiyiz bınnardı? Cəllad, tez apar bınnarın başın bədəninnən üz!

Cəllad bınnarı cələhliyip aparanda vəkil deyir:

– Amandı, öldürməyin, bəs biri qalıp.

Padşah oğlu deyir:

– Danış.

Vəkil Məhəmməddən eşitdiyini nağıl eliyir. Padşah o saat başa düşür ki, bını danışan Məhəmməddi. Deyir:

– Deyin görüm, bını harda eşidipsiz?

Məhəmməd də bərh-bərh tapşırmışdı ki, bəs deməzsiz kimnən eşidipsiz. Ona gora da vəkil deyir:

– Bəs yadımnan çıxıp, yolda kimsə danışıp.

Padşah oğlu deyir:

– Tez ol yadaa sal, yoxsa ikiziin də boynu vırılaceh.

Qorxudan vəzir-vəkilin canına titrəmə düşür. Deyillər:

– Amandı, öldürtmə, deyəh. Bəs hal-nağıl belə, bını bizə səən yeməhxananda bir keçəl qız var, o danışıp.

Padşah oğlu əmr eliyir, Məhəmmədi gətirillər. Deyir:

– Əyə, sən doğurdanmı qızsan?

Məhəmməd baxır ki, padşah oğlu bının keçəl qız olmadığını əliin içi kimi bilir, deyir:

– Yox, mən elə Məhəmmədəm.

Padşah oğlu əmr eliyir, Məhəmmədi aparıllar hamama, yuyundurup-geyindirip gətirillər genə də padşah oğluun yanına. Padşah oğlu deyir:

– Məhəmməd, sən gəl, mənə vəzir ol.

Məhəmməd deyir:

– Padşah sağ olsun, sən də, mən də bir toxumnan əmələ gəlmişih, ama, Allah-tala taleh yazanda saa bir ağ qoş göndərip, buynuzdu, kərə, quyruxlu qoşdu. Maa da bir qara qoş göndərip, buynuzsuz, quyruxsuz qoşdu. Ona gora ki, buynuzunnan quyruğunu qatdayıp qoparıp. İndi mən saa vəzir olammərəm, talehimiz ayrı cü-

rə yazılıp. Padşah oğlu bıın dediyiynən razılaşır. Məhəmməd patşah oğluynan halallaşıb genə qayıdır öz kətdərinə. Allahın verdiyi ömrü yaşıyır, padşah oğlu da öz ömrünü yaşıyır.

İndi ekiz olanda noolar, hərəən öz ömrü var, onu yaşamalıdı.

## ŞAHIN TƏNBƏL QIZI

Şahın tənbəl qızı vardı. Hər gün onun paltarını geyindirir, əl-üzünü yuyur, əllə yemək verirdilər. Qız həddi-buluğa çatmış, ər vaxtı keçmişdi, tənbəl olduğu üçün adamların içinə də çıxmır, gecə də, gündüz də yatırdı.

Bir gün bir nəfər dəllək qıza elçi gəldi. Şaha xəbər verdilər, gülüb dedi ki, o bədbəxtə qızın vəziyətini deyin, çıxıb getsin. Elçiyə qızın vəziyətini dedilər, heç də təəccüblənmədi. Padşahla görüşdülər, padşah razılıq verdi. Toy edib tənbəl qızı gəlin apardılar. Xeyli vaxt keçmişdi, padşahın arvadı ərinə dedi ki, gedək qızı yoxlayaq, razılaşdılar.

Padşahla arvadı qızın görüşünə getdilər, dəlləyin evinə çatarkən gördülər ki, qız həyətdə işləyir, paltar yuyur, sərir, həyəti süpürür və s. Padşahla arvadı gözlərinə inanmadılar. Nəhayət, həyətə çatdılar, qızlarını gördülər, yenə də inanmadılar. Qız qoçaqlaşmış, tez-tez hərəkət edir, evi sahmana salır, çay-çörək hazırlayır, su gətirir, hər işə baş vururdu.

Axşam ev sahibi, qayınatası, qayınanası gəlib padşahla xeyli söhbət etdilər, çay-çörək yedilər, padşah yenə də gördüklərinə inanmırdı, qız haqqında söhbət saldılar, heç bir şikayət, pis söz eşitmədilər.

Səhər açıldı. Baxdılar ki, qız gecədən durub, evin işlərini görüb, çay-çörək hazırlayıb, süfrəyə düzüb. Padşah və xanımı çay-çörək yeyib həyətə çıxdılar, dincəldilər. Qız bunların yanına gəlib soruşdu ki, bu gün siz nə iş görəcəksiniz?

Padşah arvadının üzünə baxıb gülümsündü və dedi ki, qızım, biz qonağıq, qohumuq, bu gün istirahət edəcəyik, nə iş görməliyik ki?

Qız cavab verdi:

– Ata, bura elə xarabadır ki, işləməyənə çörək vermirlər, bəs sizə axşam çörək lazım deyil?

Padşah başını silkələyib dedi:

– Mən padşah da olsam, bu dəllək qədər intizam yarada bilmə-

mişəm, mənim tənbəlimi gör nə cür tərbiyə edib!

## AĞILLI VƏ AXMAQ NÖKƏR

İki nəfər cavan nökər işləmək üçün xanın həyətinə getdilər. Xan bunlara baxıb çarıqlarını çıxartdırdı, hər çarığın içinə bir neçə qum saldı və dedi ki, bu gün gedib bu sürünü otarın, axşam gələndə yenə çarığınızın içinə baxacağam, kim qumu axşama qədər ayağında saxlasa, onu  nökər götürəcəyəm.

Sonra çarıqlarını geyməyi tapşırdı. Oğlanlardan biri elə oradaca qumu çarığından çıxarıb yerə  atdı və dedi ki, götürmür götürməsin, özümü çolaq edəcəyəm? O biri çox müti idi, qum ayağında axşama qədər sürünü hərlədi, ayağı qanadı, axşam axsaya-axsaya xanın həyətinə gəldi və özü də tam əmindir ki, xan bunu nökər götürəcəkdir.

Xan gəlib dedi ki, çarıqlarınızı çıxarın, çarığında qum olan zıqqıldaya-zıqqıldaya çarığını çıxartdı, xan gördü ki,  içi bütöv  qandır, dedi ki, sən öz canının qədrini bilmirsən, mənim malımın qədrini nə biləsən, çıx get.

O biri oğlan çarığını çıxarmadı  və dedi ki, səhər həyətdə ikən qumları çıxarıb atıb.

Xan sonuncu oğlanı nökər götürdü.

## İKİ QARDAŞ

İki qardaş varmış. Çox varrıymışdar. Bir gün kiçih qardaş görür ki, arvadı pis yola gedir. Bir gün belə, beş gün belə, kiçih qardaş görür ki, arvadın öhdəsinnən gələmmiyəcəh. Deyir ki, yaxşısı bıdı, hər şeyi atım, çıxım gedim böyüh qardaşımın yanına. Elə də eliyir. Vardövlətini arvada qoyub çıxıb gedir qardaşının yanına. Qardaşı bının gəlişinnən çox şad olur, ancax görür ki, kiçih qardaşı nəysə çox fikirridi. Soruşur ki, qardaş, niyə belə bikefsən? Qardaşı başına gələn qəziyyəni danışır. Deyir ki, qardaş, arvaddarın hamısı bir toxumdandı, heş birinə eytibar yoxdu. Böyüh qardaşı bından injiyir. Qardaşı ta bir söz deməyip durur. Sora çörəhdən-zaddan yeyip yatıllar. Kiçih qardaş gejənin bir yarısı hənirə ayılıp yorğanın qulağını azca qaldırıp görür ki, qardaşının arvadı yavaşca qapıdan çıxdı. Tez-tələsih palta-

rını geyinip bının dalınca çıxır. Başdıyır qardaşı arvadını izdəməyə. Görür ki, qardaşı arvadı gəldi, durdu havızın yanında, daşı çəhdi, havızın suyunu tamam boşaltdı. Sora havızın içinə girdi. Daş vardı, qaldırdı, pilləkənnən yendi havızın altına. Kiçih qardaş bir az gözdüyüp həmən pilləkənnən yenir havızın dibinə. Görür ki, bir otaxdı, qapının arasından işıx gəlir. İşıx gələn yerdən baxıp görür ki, otaxda bir vırçatdasındı, gəl görəsən. Qardaşı arvadı da bir bığıburma kişinin qujağında lümlütdü, mazaxlaşıllar. O birilərinin də hərəsinin yanında bir arvad kefə baxıllar. Kiçih qardaş tez piləkənnən çıxır yuxarı, gəlip qardaşını oyadır. Deyir: "Dalımca gəl". Bir yerdə gəlip həmən piləkənnən yenillər aşağı. Böyüh qardaş işi belə göröndə əl atır xənjərə, isdiyir girə içəri. Kiçih qardaş tez onun qolunnan yapışır, çəkir yuxarı. Zorrama çıxardır çölə, çəkə-çəkə havızdan uzaxlaşdırır. Sora deyir ki, gördün, mən deyəndi, arvaddarın hamısı bir zibildi. Çox fikirləşirrər, bir yol tapammillər. Axırda böyüh qardaş deyir ki, çıxah gedəh bu vilayətdən. Elə yerə gedəh ki, orda arvad cınsı olmasın. İki qardaş baş götürüp gedillər. Az gedillər, çox gedillər, elə bir yerə çatırlar ki, adamdan başqa hər şey varmış. Böyüh qardaş deyir ki, gə bı ağacın altında bir az dinjələh! Elə təzəjə oturubbuşdar ki, bir də görüllər ki, bıdı, uzaxda səhranın ortasında bir nəhəng qara şey peyda oldu. Qardaşdarın qorxudan az qalır bağırrarı çatdasın. Görüllər ki, bu qara şey onnara sarı gəlir. O yana baxıllar, bu yana baxıllar, gizdənməyə bir yer tapammillər. Əlacsızlıxdan çıxıllar ağacın başına. Sən demə, bu bir deviymiş. Dev gəlir ağajın altına, əlində bir sandıx varıymış, onu qoyur yerə. Qırx yerdən kilidi varıymış bı sandığın. Dev başdıyır bu kilidləri bir-bir aşmağa. Axırda sandığın içinnən bir qız çıxardır. Qız o xətərən gözəliymiş ki, az qalır, qardaşdarın ikisi də huşunu itirib yıxılsın yerə. Dev sora başını qoyur qızın dizinə, yatır. Ağacın altında bir bulax varıymış. Qardaşdarın şəkli düşürmüş suya. Qız bunnarı görür. Başını qaldırır yuxarı, işarə eliyir ki, düşün aşağı. Ancax qardaşlar qorxudan düşmək istəmillər. Onda qız işarə eliyir ki, əyən düşməsəz, devi oyadajam sizi öldürsün. Qardaşdar məjbur olup ağaşdan düşüllər. Qız bınnara deyir ki, gərəh hər ikiniz mənnən olasız. Qardaşdar razı olullar. Sora qız deyir ki, barmağızdakı üzühdəri çıxarın. Qız bir dəsmal çıxardıb açır, arasında üş yüz, dörd yüz üzüh varıymış. Qardaşdara deyir ki, üzühdəri atın bu

dəsmalın içinə. Qardaşdar elə də eliyillər. Sora qız onnara deyir:

– Bı dev məni qırx kiliddi sandığın içində saxlıyır ki, mən kişi üzü görməyim. Ancax bı üzühləri görürsüz, bınnarın hamısı sizin kimi gözəl-göyçəh oğlannarındı. Mən onnarın hamısıynan olmuşam. İndi elə çıxıb gedin ki, heç iziiz-tozuuz da qalmasın bıralarda. Qardaşdar tez-tələsih bıralardan uzaxlaşıllar. Çox gedənnən sora kiçih qardaş deyir:

– Qardaş, gördün ki, arvaddarın hamısı bieytibardı.

## VƏFASIZ QIZ

İki varrı qardaş varmış. Onnardan birinin bir oğlu varmış, o birinin bir qızı. Qardaşdar məsləhətdəşillər ki, uşaxları göbəhkəsdi eləsinnər. Elə də eliyillər. Əmiqızıyla əmioğlu deyihli olullar. Ay keçir, il dolanır, uşaxlar böyüyür, bir-biriynən əhd-peyman bağlıyır. Qardaşlar qojalıllar, ömürrərini uşaxlarına tapşırıb dünyadan köçüllər.

Günnərin bir günü qız xəsdələnir, ölüm yatağına düşür. Oğlan görür ki, qız ölüm yatağında, gedir qonşu vilayətdə sünnətini dibinnən kəsdirir. Geri qayıdıp gələndə görür ki, bəs, qız sağalıp, durup ayağa. Oğlan bikef olur. Aradan neçə gün keçir, qız görür ki, əmisi oğlu onnan gen gəzir, ona yaxın düşmür. Qız bunun səbəbini öyrənməh isdiyir. Oğlan deməh istəmir. Qız yalvar-yaxar eliyənnən sonra oğlan açıb sirri deyir. Qız deyir:

–Əyər elədisə, ta bizimki tutmaz.

Oğlan deyir:

–Axı bizim əhd-peymanımız var.

Qız deyir:

–Əhd-peymanımız olsa da, olmasa da, bizimki tutmaz.

Oğlan baxır ki, qız dediyinnən dönmür, deyir:

–Elə elə ki, bu sirr evdən kənara çıxmasın. Mənim qırx nökər-naibim var, hansını bəyənirsənsə, onu seç, ərə get ona.

Qız nökər-naibdən bir pezəvəngini seçir ki, bəs bına ərə getmək istəyirəm. Oğlan toy tədarükü görür, qırx gün, qırx gejə toy çaldırır.

Bunnar burada qalsınnar, sənə kimnən xəbər verim, şah oğlu Şah Abbasdan. Şah Abbas ölüm ayağındaymış. Anasına vəsiyyət eliyir ki, ana, mənölənnən sora halva bişirərsən, bütün məmləkə-

ti gəzərsən, kimin dərdi olmasa, bu halvadan ona verərsən. Şah Abbas ölür. Anası halva bişirir. Halvanı götürüb məmləkəti dolanır. Hara gedirsə, dərdsiz adam tapmır ki, halvadan versin ona. Şah Abbasın anası gəlib görür ki, bir yerdə toydu, çal-çağırdı. Deyir: “Hə tapmışam, burda dərdli adam olmaz”. Arvad görür ki, toy eliyən gözəl bir oğlandı, amma qızın otağına heyvərə bir adam girdi. Qalır məətdəl. Oğlannan soruşur ki, bəs, nə sirdi? Oğlan demək istəmir. Arvad çox xahiş eliyənnən sora açıb sirri söylüyür. Arvad deyir: "Mən elə bilirdim ki, bu toy-busatın sahibinin dərdi-qəmi olmaz. Sən hamıdan dərdliyimişsən ki. Mənim cavan oğlum ölüp. Amma mənim dərdim sənin dərdinin yanında yalanmış. Belə ki, görürəm, deyəsən, heç dünyada dərdsiz adam yoxdu".

## ƏLLƏMƏ

Biri vardı, biri yoxdu, bir kişi və iki qızı vardı. Bu kişi getdiyi yerdə bir uşaq tapır. Uşağı gətirir evə. Arvadına deyir ki, Allah bizə oğul yetirib. Gətir adını qoyaq Əlləmə.

Bir gün kənddə toy olur. Ata-ana gedirlər. Əlləməyə də tapşırırlar ki, qızları çimizdirsin. Əlləmə qızları suya basır. Dişləri ağara qalır. Söykəyir divara. Ata-anası toydan gələndə soruşurlar ki, Əlləmə, qızların başını yudun? Deyir ki, hə, yumuşam. Odey, gülüllər orda. Baxırlar ki, qızlar ölüb. Atası deyir ki, Əlləmə, get öküzlərə ot qoy. Buynuzlarına qədər otun içində qalsınlar. Əlləmə gedir öküzlərin başını kəsir, otun içinə qoyur. Gəlib atasına deyir ki, ata, tapşırıqlarını yerinə yetirdim. Ata-ana baxırlar ki, Əlləmə qızlarla öküzlərin axırına çıxdı. Onlar fikirləşib səyahətə çıxırlar. Bir yerdə kişi arvada deyir ki, arvad, çömçə qalıb evdə. Əlləmə yükün içindən çıxıb deyir ki, ata, mən götürmüşəm. Kişi baxır ki, iş şuluqdu. Gecə üç yer salırlar. Əlləməni də ortada qoyurlar ki, gecə çaya atsınlar. Gecə Əlləmə özünü kənara verir. Gecə Əlləmə ilə kişi arvadı atırlar çaya. Əlləmə deyir ki, kişi, arvadı da axıtdıq getdi. Kişi görür ki, Əlləməylə bacara bilməyəcək, özünü atır çaya. Dövləti də çatır Əlləməyə.

## ARVAD ŞƏRİ

Bir kişi olur, cütün əkirmiş, kasıb dövrüymüş dana. Arvad da

hər gün günorta bına yeməh pişirip aparırmış. Bir gün də kişi namaz qılıb çörəh yeyənnən sora deyir:

–Allah, saa şükür, canımızı salamat, ruzumuzu bol elə.

Arvad deyir:

–Kişi, bir söz demədin.

Deyir:

–Nəyi demədim?

Deyir ki, demədin bizi arvad şərinnən sav. Kişi deyir ki, əşşi, arvad kimdi ki, onun şəri də ola?!

Arvad deyir:

–A kişi, deynən bizi arvad şərinnən sav.

–Əşi, – deyir, – get işıın dalıncan. Arvad nədi ki, onnan ötrü hələ mən ilahıya üz tutam.

–Yaxşı, qalsın qulağında.

Hə, kişi sabahısı günü yenə gedir cütə. Bı da yeməh-zad hazırrayır, dörd dənə də balıx götürür gedir. Görür ki, kişi o başdan cüt sürə-sürə gəlir. Balığın dördün də xəlvətcə basdırır yerə.

Kişi gəlir, elə cüt getdiyi yerdə görür ki, cütün ağzınnan dörd dənə balıx çıxdı.

– Ə, bı cütün ağzından balıx çıxdı!

Kişi bir əz də sevincəh balıxları gətirir, arvada deyir ki, arvad, bəs cütün ağzında torpaxdan balıx çıxdı.

Arvad deyir:

– Ə kişi, torpaxda balıx olmaz.

Kişi deyir ki, əşi, nətəər yanı, mən özüm cüt sürəndə çıxıpdı.

Deyir:

– İndi, vallah, deyirsən, amma inanmıram.

Deyir:

– Aparginən bını, axşama bir yaxşı yeməh hazırra. Aş bişirərsən, balığı da qoyarsan altına.

Arvad balıxları götürər, gətirər əvə. Gətirər, bişirər, qonşudan da bir-iki arvat çağırar, balıxları yeyəllər.

Həə, kişi axşam gələr:

–Arvad, balıxları neylədin? Bişirdın?

Arvad deyər ki, a kişi, balıx nədi, zad nədi?

Deyir ki, ay arvad, sənə bəs dörd dənə balıx vermədim?

Deyir:
–A kişi, sən maa balıx verməmisən.
Həə, kişi əl atar ağajın götürər, arvadı o ki var buduyar, camaat, qonum-qonşu haya tökülər:
–Noolub?
Arvad deyir ki, bəs kişinin başına hava gəlip.
– Əə, nətəər?
Kişi deyir ki, ə, böyün cüt sürəndə ağzında dörd dənə balıx çıxdı şumnan. Vermişəm bına ki, aparginən bişir. İndi gəlip deyir ki, balıx yoxdu.
Camaat "ha, ha" gülər, deyəllər:
–A kişi, doğrudan, səən başaa hava gəlip. Şumda balığ olmaz.
Camaat çəkilər gedər. Sabahı günü kişi genə durar gedər cütə. Arvad da günorta yeməyin bişirər aparar. Kişi yeməz, deyər:
–Arvad, balığın yerin deməlisən.
Bı da deyir:
–A kişi, mən balıx üzü görməmişəm.
Xülasə, kişi bırda da bına bir-ikisin çəkər, deyər:
–Get, axşam gəlirəm, balıx hardadı, tapginən.
Axşam gəlir, deyir ki, arvad, balıxlar hanı? Deyir ki, ə kişi, vallah, səən başa hava gəlip. Axı mən, doğrudan da, sənnən balıx görməmişəm. Kişi genə götürər bı tuluğ ağacın, bını buduyanda haya camaat tökülür. Camaat gəlir. Arvad deyər ki, ay camaat, bının başına hava gəlip.
Camaat götürər qab-qajax, buduyallar ki, bu kişiin başına hava gəlip. Kişini kənddən sərsəri kimi qovallar. O deyir "dəli", bı deyir, "dəli", uşax deyir, "dəli gəldi", böyüh deyir, "dəli gəldi". Kişi kətdən çıxar, deyər: "Həə, ta bı məni dəli yerinə qoyup". Gedər, üstünnən bir müddət keçər, kişi deyər ki, ə, gedim görüm bı arvad neyləyir?
Gəlir evə, görür ki, arvad həyətdədi, amma bularda da bir dərviş qonax var. Kişi deyir ki, indi gedim, görüm arvad məni tanıyajeh, tanımayajeh.
Deyir:
– Salaməleyküm, bajı, Allah qonağı istəyirsən?
Deyir:

– Allaha da qurban olum, qonağına da.
Kişi deyir ki, hə, arvad məni tanımadı.
Gəlir, axşam arvad yeməh hazırrayır, bı dərvişə də, bı kişiyə də yeməh verir. Kişi hələ ümüdünü üzmür. Deyir: "Əyər bu dərvişə ayrı yer salsa, özüynən mənə ayrı yer, deməli, bı məni tanıyıp, olmasa, deməli, məni tanımayıp".
Axşam gətirir arvad yer salır, bir yer dərvişə, bir yer kişiyə, özünə də ayrı yer salır. Kişi deyir: "Hə, arvad məni tanımadı". Kişi özündə belə hesap aparır. Deyir ki, ay bajı, mən vaxtlı gedəcəm, məni xoruz banında, hava işıxlaşmamış oyat. Yolum uzaxdı.
Hə, bılar gedənnən sora arvad kişinin paltarın götürər, qoyar dəvrişin yeriin qırağına, dərvişin də paltarın götürər, qoyar kişiin yeriin qırağına. Bir az axşamnan keçir, ay qaranlıxlayanda kişini dümsüklüyür ki, bəs dur, xoruzdar bannadı. Kişi durar gejə qaranlığında böyründəki paltarı geyinər gedər.
İndi bu gedir yolnan, gün çıxır, baxır kölgəsinə, görür ki, əyə, bı bının öz kölgəsi dəyil. Deyir: "Əə, bu arvada bax, ə, bının başı xarab olup, mən bına demişəm ki, məni oyat, bı dərvişi oyadıp. Deyir, həə, arvadın başı xarap olupdu".
Qayıdır dala. Deyir:
– Ay qonağ, bəs sən indijə getmişdin?
Deyir:
– Ay bajı, mən səə demişdim sən məni oyat, sən dərvişi oyatmısan.
Belə deyəndə arvad deyir ki, hərif, sən elə həmən kişisən ki, o gün də deyirdin şumda balıx var. İndi de görüm, şumda balıx olar, olmaz? Mən elə səni oyatmışam, dərvişi oyatmamışam. İntaası, paltar sənin dəyil, dərvişin paltarıdı.
Kişi görür ki, arvad elə əvvəldən bını tanımışmış.
Arvad deyir:
– İndi nətəər olar, de görüm, kişini Allah arvad şərinnən saxlasın, ya yox?
Deyir:
–Arvad, elə sən deyəndi, kişini Allah arvad şərinnən saxlasın, daha da artıx.

## KƏMSƏRİN NAĞILI

Bir qoca kişi olur, arvadı da qoca olur. Bınnarın uşaxları olmurmuş. Arvad hamilə olur. Bınnar cütə gedirmişdər. Arvad çıxır çardaxda yatır. Yuxuda görür ki, çardaxda bının bir oğlu oldu, dayısı bına bir alma verdi, alma yumalanıb çardaxdan yerə düşdü, uşax da almaan dalısıcan yıxılıp öldü. Kişi gəlir, yuxusun danışır. Kişi deyir:

– Kəmsərsən, dur xurcuna bir-iki cad qoy, çıxıp gedirəm.

Arvad deyir:

– Hara gedirsən?

Deyir:

– Sənin əlinnən çıxıp gedirəm. Sənin kimi bir kəmsərə rast olunca çıxıp gedəcəm.

Gedir bir kəndin qırağına çıxır. Görür bir kadın suyun üstündə paltar yuyur. Arvad deyir:

– Əmi, hardan gəlip hara gedirsən?

Kişi bına cavab verir ki, mən cənnətdəydim, çıxıp gedirəm cəhənnəmə, genə qayıdacem cənnətə.

Arvad deyir:

– Ə kişi, sənnən bir söz göndərim, orda məən dədəmnən nənəmə irast olsan, gələndə maa bir xəbər gətirərsən.

Kişi deyir:

– Addarı nədi?

Arvad deyir:

– Dədəmin adı Mıstafadı, nənəmin adı Elmicahan.

Arvad deyir ki, saa bir az qızıl versəm, apararsaan dədəmnən nənəmə?

Deyir:

– Niyə aparmıram. Gedirəm, qayıdanda aparıp cənnətdə verərəm. Yazıxları gördüm, acınnan qırılırdılar.

Arvad bir xurcun qızıl gətirir, əriin atın da yəhərriyir, deyir:

– Apar ver dədəmə gələndə minsin, bı qızılı da xəşdəsinnər.

Kişi atı minir, Allahına şükür eliyir, gedir. Bir müddətdən sora arvadın əri gəlir evə. Arvad deyir:

– Bəs qızılları göndərdim dədəmə. Cənnətdən gələn vardı, verdim apardı. Atı da göndərdim dədəmnən nənəm piyada qalmasın.

Kişi qonşudan bir at alıp düşür qızılı aparaan dalınca. Qoca kişi

görür, ədə, dalısıcan bir duman qopup. Başa düşür ki, arvadın əri-di. Qabaxda bir dəərman varımış. Qoca kişi tez girir dəyirmana, dəyirmançıya deyir:

– Tez ol gizdən. Odu eyy, o gələn bozatdı padşahın adamıdı. Padşahın qızı naxoşduyup, dəyirmançı başını dərman deyiplər. Gəl paltarımızı dəyişəh, sən gir donuzduğa gizdən.

Tez üst-başın una bılıyır. Atdı gəlip düşür, girir dəyirmana. Deyir:

– Hanı o adam?

Qoca kişi barmağıynan donuzduğu görsədir. Gəlip deyir:

– Çıx ordan.

Nəkqədərə eliyir, dəyirmançı çıxmır donuzduxdan. Dəyirmançı görür, qanın qurtarmmiyəcəh, başın vırır daşa, deyir:

– Qoy sənnən də olsun, mənnən də.

Dəyirmançının başı partdıyır, ölür. Bı yannan da qoca kişi atı minir, o biri atı da yedəhliyir, düşür yola. Kişi çıxır, görür, iş-işdən keçip, bı biri at da getdi.

Qızılı aparan kişi qaydıp öz arvadının yanına. Deyir:

– Sənnən də kəmsər varmış. Sən hələ yaxşısısanmış.

O yannan da o biri kişi qayıdır pay-piyada geri. Soruşullar ki, bəs qonşunun atın neynədin? Deyir:

– Qaynatam arvadımın göndərdiyi ata minip gələceydi, qonşu-un atın da mən göndərdim ki, qaynanam da piyada qalmasın.

Bını deyip, arvadı salır təpiyin altına, sora da boşuyur.

İndi o qədər kəmsər arvad var ki.

## ÇOBANIN DUASI

Biri varıymış, biri yoxuymuş, bir çoban varıymış. Çoban çox kasıbıymış. Bının arvadı səhəng dalında suya gedir. Orda iki ar-vad da suya gəlmişmiş. Bınnar molla arvaddarıymış. Bu molla ar-vaddarı çobanın arvadına deyir ki, sən çoban arvadısan. Əvvəl biz doldurax, sora sən. Onnar dolduruf gedillər.

Çobanın arvadı evə gəlib ərinə deyir ki, mən sənnən çıxacam.

Kişi deyir ki, saa noolub? Bınnarın beş uşağı da olur. Arvad deyir ki, beş uşağı da saa atacam, gərəh sən molla olasan.

Kişi deyir ki, mən çoban adamam. Aynan beyi qanmıram. Mən nətər molla olacam? Arvad deyir ki, yaxşı olarsan.

Arvad gedir dükannan molla kitabını, bir dənə şarf, bir də əmə-mə papağı, bir dənə baldon alıb gətirir. Kişini geydirir. Deyir ki, a kişi, səni burda tanıyıllar, get ayrı bir ölkiyə. Kişi gedir ayrı bir öl-kiyə. Getdiyi yerdə bütün mollaları çağırır yanına. Hamısı əsə-əsə gəlir ki, görəsən, nə xəbər olacax, sual verəcək. Kişi gəldi taxtın üstünə çıxdı. Deyir ki, kim öyrənmiyif getsin öyrənsin gəlsin. Bıl-lar sevinillər. Dəvələri yühlüyüllər, düz mollanın qəpisinə aparıl-lar. Sora çobanın arvadı deyir ki, a kişi, kənddilər bilsə ki, biz var-ranmışıx, deyəcəhlər ki, bu sizdə hardandı?

Deyir ki, a kişi, gəl köçəh getdiyin yerə. Gecə köçək ki, kənd-lilər görməsin. Köçüllər, gedillər. Orda qalıllar. Kişiyə müşteyit deyillər. Bala, müşteyit bilikli deməhdi. Yerin altın da, üstün də bilirmiş. Həmən vilayətin padşahının xəzinəsini 40 quldurrar gə-lib aparıblar. Pədşaha deyillər ki, burda bir dənə müşteyit var. Ye-rin altın da, üstün də bilir.

Padşah da əmr eliyir ki, kişi gəlsin yanıma.

Kişi arvadına deyir ki, ağız, qoymadın ki, mən naxırçılığımı eliyim. Mən aynan beyi qanmıram, gedim nə deyim? Arvad deyir ki, a kişi, Allaha pənah, get. Kişi gedir. Padşah deyir ki, 40 quldur mənim xəzinəmi aparıb. Əyər tapmasan, boynuu vuracam. Kor-peşman evə qayıdır. Arvadına deyir ki, bəs mən neynim? Hardan bilirəm? Arvad deyir ki, getginən padşaha denə 40 dənə qaz ver-sin. 40 gün də möhlət al. Kişi qazdarı evə gətirir. Sora 40 quldur eşidir ki, bı yerin altın, üstün bilir. Bir quldur gəlib mollanın da-mının üstünə çıxır ki, görsün, molla nə deyir? Kişi arvadına deyir ki, get qazdarın birini gətir kəsək yeyəh. Arvad gedir qazı gətirir. Kişi deyir ki, ay arvad, bu qırxların biri. Həylə dəəndə o quldur elə bilir ki, ona deyir. Gedir yoldaşdarına xəbər verir.

Sora o biri axşam ikinci quldur gəlib dama çıxır. Kişi deyir ki, get qazı yenə gətir. Arvad gətirir. Kişi yenə deyir ki, ay arvad, bu qırxlardan ikincisi.

Hə, sonra onlar yenə qaçıb yoldaşlarına deyir ki, kişi yaman bi-lir. Genə də üç nəfər gəlir dama çıxır, qulax asır. Kişi yenə də de-yir ki, ay arvad, o qazı gətir. Bu 40-dan üçü. Quldurrar eşidib qa-çıb gedillər. Sabah tezdənnən quldurrar gəlir qəpiyə. Deyillər ki, bəs Molla, sən özün yaxşı bilirsən biz nəyə gəlmişih. Amanın bir

günüdü bizi padşahın əlinə vermə. Xəzinəni odey, qəbirstanlıxda basdırmışıx. Gəl, özün apar. Bizi padşaha demə. Molla deyir ki, gedin 37 gün qaravıl çəkin orda. 37-ci günü mənə təhvil verərsiz. Sora qazı gətirib, gündə birini yeyillər. 37 gün tamam olandan sora kişi gedir qəbirstanlıxda onnardan təhvil alır. Deyir ki, çıxın gedin sizi pədşaha verməronm. Kişi pədşaha xəbər göndərir ki, adamlarını göndərsin. Xəzinəni tapmışam. Odey, qəbirstanlıxda. Gəlin aparın. Gəlib aparıllar. Sora padşah kişini çağırır. Xəzinənin yarısını verir molluya, deyir ki, halal olsun saa. Sən yerin altın da bilirsən, üstün də. Xan-bəy kimi dolanıllar. Arvad deyir ki, gördün, a kişi, səni necə molla elədim.

## QARA ÇƏYİRTKƏ

Biri varıydı, biri yoxuydu bir kişi varıydı. Bu kişi o qədər qara, arıx idi ki, kənd camaatı ona Qara Çəyirtkə deyərdilər. Bu kişi kəndin naxırına gedərmiş. Onun gözəl arvadı varıydı. Bunnar çox mehriban, bir-birinə sədaqətli oluplar. Arvadı çox gözəl olduğuna görə padşah onu özünə almax istiyir. Lakin arvad razılıx vermir. Məsələni ərinə danışır. Qərara gəlillər ki, gejəynən çıxıp başqa bir vilayətə getsinlər. Özlərinə koma düzəldip yığışıllar içinə. Kişi bir gejə qapıya çıxan vaxtı görür ki, padşahın xəzinəsini quldurlar daşıyıp aparıllar. Kişi bunnarı izdiyir. Gördü ki, aparıp dağın arxasında torpağa basdırıllar. Sora hoy düşür ki, padşahın xəzinəsini aparıllar. Padşah bütün görücü, biliciləri yığır ki, xəzinəni aparanları tapsınnar. Əmr verir ki, kim tapsa, ona çoxlu mal-dövlət verəjəm, ancax heç kəs tapa bilmir. Kişi bunu eşidir. Əvvəlcə ürəh eləmir ki, gedip padşaha desin. Sora fikirrəşir ki, deməliyəm. Baxıcı kimi gedip padşaha xəbər verim. Kişi bir dənə keçə parçası tapır. Onu iki qat eliyir. Arasına bir neçə kağız parası qoyur. Kömürnən bir-neçə yazı yazır. Gəlib padşahın elçi daşının üstündə oturur. Padşahın adamları onu saraya aparıllar. Kişi deyir ki, mən sənin xəzinənin yerini deyəjəm. Padşah deyir ki, onda mən də səni dünya malınnan qane eliyəjəm. Kişi deyir:

– Padşah sağ olsun, sənin xəzinəni quldurlar Dəli dağın altında torpağa basdırıplar.

Padşah əmr edir. Ora adamlarını göndərir. Görüllər həqiqətən

xəzinə burdadı. Xəzinəni dəvəyə yükləyip saraya gətirillər.

Padşah verdiyi vədə əməl eliyib kişiyə qızıl-gümüş verir, ev tikdirir və öz yanında bir görücü kimi saxlıyır.

Dünya padşahlarına xəbər çatır ki, filan padşahın belə bir görücüsü var. Bir gün bu padşahı bir padşah dostu görücüsüylə birlihdə evinə qonax çağırır. Qonax gedillər. Kişi hey elə fikirrəşir ki, bunnan elə bir şey soruşalar, bilməz, padşah da onun boynun vurar. Bu zalım padşahın vəziri gəlib görücüyə yaxınnaşır. Deyir ki, görücü, padşahın qızının qızıl üzüyü itipdi. Üzüh məndədi. Birdən sənnən soruşsalar üzüyü tap, elə elə ki, mənim adım olmasın. Yoxsa padşah mənim boynumu vurdurar. Kişi elə bil yuxudan ayılır. Deyir ki, vəzir sağ olsun, padşahın qapısında qazı var, özü də nişanalı? Vəzir də deyir ki, alaboğaz bir qaz var. Kişi deyir ki, apar üzüyü xəmirə bük, ver, qaz udsun. Vəzir də kişinin dediyi kimi edir.

Axşam oturup söhbət etdihləri vaxtı padşahın dostu deyir ki, mənim qızımın qızıl üzüyü itipdi. Görücü bu üzüyü tapsın. Kişi başdıyır baxmağa. Varaxlarını oyana-buyana eləyib baxannan sora deyir ki, padşah sağ olsun, üzüh alaboğaz qazın qarnındadı. Padşah əmr edir ki, qazı kəsin. Kəsirlər. Görürlər, həqiqətən üzüh burdadı. Kişiyə çoxlu qızıl-gümüş verir.

Bir gün yenə bunlar qonaxlıxda olan vaxtı yeməkdən sonra axşam oturub söhbət edirmişlər. Bir də görüllər ki, qara çəyirtkə tullandı düşdü bunnarın qabağına. Padşah tez əlini çəyirtkənin üstünə qoyur ki, görücü görməsin. Deyir ki, görücü biləjəh ki, əlimin altındakı nədi? Kişi bir dəyqə fikirrəşir. Öz-özünə deyir ki, qazının sünnət toyudu. Axırım gəldi çatdı. Hərrənə, fırrana axırım çatdı bu diyarda, ay Qara Çəyirtkə!

Belə deyəndə padşah əlin götürür. Hamı əl çalır, kişini alqışlıyır. Genə də qızıl-gümüş pay verillər. Padşah kişini götürüp öz diyarlarına qayıdır. Kişi bir at güjü qızıl-gümüş evinə gətirir. Arvadı sevinir. Amma kişi qorxudan bilmir ki, neyləsin.

Bir gün oturup arvadnan məsləhətdəşir. Deyir ki, ay arvad, bəs nətəhər eliyək. Padşah bilsə, bizi də öldürəjəh. Qərara gəlillər ki, kişi özünü vursun xəstəliyə. Gejələr çıxsın qışqırsın. Ağzına gələni danışsın. Arvad da hay salsın ki, kişi başını itirif. Heç bir şey bilmir. Beləynən bu kişi bayıra çıxır. Padşahın sarayının

qabağında dayanıp başdıyır qışqırmağa. Qışqırır ki, ay padşah, ev uçdu, qaç, ev uçdu, qaç. Padşah şirin yuxudan oyanıp arvad-uşağını götürüp, saraydan çıxıp qaçıllar. Qaçan kimi  evin bir tərəfi üçüb tökülür. Səhərisi padşah onu yanına götürüb özünə vəzir eliyir. Başdıyır sarayda yaşamağa.

## KEÇƏL VƏ DAYISI

Kasıb bir kişi yaşıyırmış keşmiş dövürlərdə. Bu kişinin bir arvadı varıymış, bir özü. İkisi yaşıyırmışlar. Hə, deməli, bu arvad kişiin indi bəyənmirmiş, neyniyirmiş, istiyirmiş ki, uzaxlaşdırsın özünnən. Hə, qonşuları varıymış, mollanın oğlu. Molla fasonuymuş o da. Arvad da bunnan əlbirimiş. Bu kişi gedərmiş yaxşı ət alarmış, yaxşı un alarmış, yaxşı yağ alarmış. Evdə bu arvad bişirərmiş, düşürərmüş. Yaxşısını, yağlısını, ətdisini mollanın oğluynan özü yeyərmiş, kişidən bixəbər. Unu əliyərmiş, üzünün kəpəyini bişirirmiş, cad deyirmiş da, küt, verirmiş kişiyə. Kişi də küt yeməhdən ağzı yara olmuşmuş yazığın. Xörəyi bişirirmiş, yavan suyunu yeyərmiş, ətin, sümüyünü verərmiş. Bir gün bu kişi, o vaxt avamçılıx olur dana, guya başa düşmürmüş nəymiş. Yolu düşür qonşusuna. Gedir  qonşuya, görür ki, elə gözəl xörəh iyi vurur bunu, ətri vurur. Oturub, süfrə açıblar, çörəh yeyillər. Kişini də buraxmıllar, gətirip otuzdurullar süfrələrinin başında. Bına da xörəh çəkillər. Çörəh qoyullar kişiyə burda, yeyir, görür ki, çox ləzzətlidi. Ama kişi fikirrəşir ki, axı elə bu kişi əti alanda mən də həmin ətdən almışam, niyə bullarda belə ləzətlidi, bizdə dadsız, duzsuz,  yağsız, ətsiz? Bu un alanda həmən undan mən də alıram. Niyə belə? Bu fikirnən kişi durur gəlir öz evinə. Gəlir arvadına deyir:

–Ay arvad.

Deyir:

–Nədi, a kişi?

Deyir:

– Arvad, o qonşumuz alan unnan mən də allam, qonşumuz alan ətdən mən də allam, qonşumuz alan yağdan mən də allam. Nejə ollarda bişən xörəhlər, çörəhlər belə ləzzətdi, daddı olur, bizdə bişən belə dadsız, yavan? Mən ta küt yeməhdən ağzım-burnum yara tökübdü. Mən ölürəm axı, niyə belə?

Deyir:
– Əşi, başına daş düşsün. Hələ bilmirsən niyə belədi?
Deyir:
– Niyə, ay arvad?
Deyir:
– Ona görə ki, sənin bacın Bağdadda oturubdu. Əlli fırıldax eliyir orda, evin xeyir-bərəkətin aparır. Evdə xeyir-bərəkət qalmır. Ona görə belədi.

İstiyir ki, kişini uzaxlaşdırsın da, getsin Bağdada-bajısının yanına. Bu, öz bildiyini, öz kefini eləsin bırda.

Deyir:
–Arvad, düz deyirsən?
Deyir:
–Hə, kişi. Bəs indiyədək sən bilmirdin bını?
Deyir:
– Onda mənə yol çörəyinnən-zaddan qoy. Mən gedəciyəm o bacıma toy tutacıyam. Onun atasın belə eliyəjəm, anasın belə eliyəjəm. Da başdıyır da, kişi hirsdənir. Hə, arvad gətirir kütdən-zaddan bişirir, qoyur bının xurcununa. Kişi səhər durur, xurcunun atır çiyninə, ağacın alır əlinə, düşür yola. Az gedir, çox gedir, neçə illər gedir. O vaxt da piyada gedərmişdər. Neçə illər yol gedir, gəlir axırı ki, çıxır Bağdad şəhərinə. Bağdad şəhərinə çatır. Gəzə-gəzə, soruşa-soruşa gəlir. O vaxt bacısı da çıxmışmış həyətə. Bir də görür ki, bir kişi gəlir, bının qardaşına oxşuyur. Arvat neçə ildi ki, bı qardaş həsrətiylə yaşıyırmış da. Həə, gəlir yaxınnaşır, görür ki, doğrudan da, qardaşıdı, qaça-qaça yüyürür, qollarını açır.
Deyir:
– A qardaş, sən hara, bura hara, ay xoş gəldin, ay beş gəldin.
Qolun salır qardaşıın boynuna.
Qardaşı deyir:
– Qardaşının da atasının goru belə olsun, sənin də. Həə, qardaşın yoxdu, ölüb qurtarıbdı, nə qardaş, qardaş.
Deyir:
–A qardaş, nolub? Mən sənə neyləmişəm, neçə ildi sənin həsrətıynən yaşıyıram, qardaş həsrətıynən.
Deyir:

–Yox ee. Görürsən mənim ağzımı, burnumu?
Deyir:
–Nolup?
Deyir:
–Hamısı kəpəh yeməhdən, küt yeməhdən.
Deyir:
– Ay qardaş, mən sənə neyləmişəm? Neyliyirəm mən sənə? Bəs niyə belə olmusan? Gəl bir evə, görəh nədi, nə döyül.

Kişini götürür, gəlir evinə. Arvadın da bir oğlu olur, keçəl. Keçəllər də bic olullar axı. Çoxbilmiş olullar. Axşam olur, keçəl də işdən qayıdır, gəlir.

"Hə, dayı, xoş gəldin, beş gəldin". Görüşür, öpüşür dayısıynan. Həə, indi kişi başına gələn əhvalatı söhbət eliyir, mən elədiyim kimi bıllara söhbət eliyir. Keçəl əlbəhəl başa düşür. Barmağın dişdiyir, həə, bı arvadın fırıldaxları, işdəhləridi.

Deyir:
– Dayı, fikir eləmə, hər şey yaxşı olar, düzələr.

Kişini bir ay saxlıyıllar bırda, mığayat olurlar. Kişi bir əz əmələ gəlir. Sora keçəl kişini də götürür, gəlir dayısıgilə. İndi keçəl gəldiyinə görə arvad özün bir az naza qoyur, düzəldir guya. Heç bir şeydən arvadın xəbəri yoxdu guya. Gəlir keçəlnən.

– Ay Keçəl, xoş gəlmisən, beş gəlmisən. Nə yaxşı, nə yaxşı.
Deyir:
– Elə neçə il idi bəs görmürdüm dayımı da. Dayım gəldi, görüşdüh, dedim elə gəlim dayıdostumu da görüm eliyim, hal-əhval tutum, həm də bir az dayıma köməh eliyim işdərinə.
Deyir:
– Neynəh, çox əcəb, çox yaxşı.

İndi səhərisi gündən, deməli, keçəl dayısıynan gedir işə, çölə. Çöldə cüt əkillər, taxıl əkillər. Bı dayısına köməh eliyir. Arvad da qalır evdə. Amma Keçəl gedir yoldan qayıdır, busur, izdiyir bı arvadı. Hər dəyqasın izdiyir. Busur, görur ki, arvad mollanın oğluynan görüşür. Görür ki, arvad mollanın oğluna deyir ki, bəs cütünüz hansı tərəfdədi? Günorta bir az yeməh-zad düzəldim, fəsəli-zad gətirim, yeyin. Deyir ki, cütümüzdə bir ala öküz var. Bir də səhər mən gedəndə yolnan alma soyajıyam, qabığın yola tökə-tökə ge-

dəjiyəm. Həmən yernən, həmən yolnan gəlib görəysən. Bax gör, hansı cütdə ala öküz var, gəlginən, bil ki, o bizim cütdü. Həə, deməli, Keçəl səhər durur, qaçır dükana, beş-on metr ağ alır, aparır doluyur qara öküzün belinə. Həə, bir əz də alma alır, tökür cibinə, başdıyır evin yanında qabığın soya-soya, tökə-tökə gedir.

Həə, günorta üstü görür, həə, bıdı arvad bir bağlama alıb başına, gəlir. Tez deyir ki, dayı, cütü saxla, dayıdostu gəlir. Mən gedim, köməh eliyim ona, xeyir ola, nəə gəlir? Qaçır arvadın qabağına. Arvad görür ki, gələn Keçəldi. Həə, alır şələsini, götürür gəlir.

– Ay dayıdostu, bu nə əziyyətdi çəkirsən?

Deyir:

– Nə bilim e, dedim dayın da, sən də bırdasan, sizə bir əz ayın-oyun hazırradım, gətirdim ki, dayınnan yiyəsiniz.

– Həə, çox gözəl, nə zəhmət çəkirsən?

Gətirir.

– Dayı, cütü saxla, gəl bıra.

Açır dəstərxanı, görür arvadı bişirif-düşürüf hər şeyi, gətirib. Keçəl deyir ki, dayı, başda, başda ye. Oturullar. Bismillah eliyillər. Başdıyıllar yeməyə.

Arvad qalır qarnıynan qırıla-qırıla. Axırı dözə bilmir.

Deyir:

–A kişi!

Deyir:

–Nədi, ay arvad?

Deyir:

– Deyəsən bizim o qonşunun da cütü bıralardadı. Qonşu molladı. Adamın işi düşür. Onu çağır, gəlsin da, bir tikə yesin Allah verənnən. Allaha xoş gedər.

Kişi isdiyir dursun getsin, keçəl deyir ki, dayı, mən olan yerdə hara gedirsən? Otur yerdə, çörəyini ye, qoja kişisən. Bu saatı çağırram.

Keçəl durur, sıçrıyır, gedir çağırır kənara.

Deyir ki, bilirsən, köpəyoğlu, dayım səni hədəliyir, inan ki, səni tutsa ha, öldürəjəh, böyüh tikəni qulağın boyda eliyəjəh. Öldürəjəh səni, doğruyajax səni. Bu da şübhəlidi axı, özünnən. Deyir: "Yəqin bir şey başa düşüb kişi".

Qayıdır gəlir.

Deyir:

– Dayıdostu, vallah, billah, bu anda, bu qurana, nə qəddər elədim gəlmədi.

Bullar yeyillər. Arvad qalır qarnıynan qırıla-qırıla. Axırı deyir:

–A kişi, dur özün get. Sən ağsakqalsan, sənin sözünü sındırmaz.

Dəhmərliyir kişi, durur gedir. Kişi elə yaxınlaşdıxca mollanın oğlu götürülür ee, qaçır, kişi getdihcə o qaçır. Kişi görür ki, bından qaçdı, qayıdıp gəlir, deyir:

–Ay arvad, mən getdihcə o qaçır, gəlmədi. Nə təhər eliyim? Ta qisməti deyil.

Bıllar yeyirlər, içirlər, qurtarıllar. Keçəl bükür dəstərxanı-zadı, verir arvadın qoltuğuna. Arvad düşür yola, qayıdır gəlir.

Cütlərin əkillər. Keçəl deyir:

– Heç bir söz danışma, demə. Ama mən nə desəm, mənnən razılaş. Hər şey düşəjəh qaydasına.

Deyir:

–Nə deyirəm, Keçəl.

Bir gün də Keçəl yenə busurdu. Gördü ki, yenə mollanın oğluynan arvad nəysə xısın-xısın danışıllar öz aralarında.

Yavaşca qulax verir, görür ki, arvad oğlana deyir ki, bəlkə bir pirzad yeri biləsən. Aparım bir nəzir-zad qoyum, bu keçəlnən dayısı ölsün, rədd olsun getsin, biz azad yaşıyax. Hə, bını keçəl eşidir. Genə çıxır gedir. Gedir dayısının yanına köməh eliyir. Axşam gəlillər evə. Oturullar, yeyip-içənnən sora dayıdostusuna deyir:

– Dayıdostu, bəlkə nəzrin, niyyətin-zadın ola? Bir yaxşı pir yeri bilirəm. Əgər varsa, apar. Nə desən, hasil olajax. Bilirsən nə ağır ocaxdı!

–Ay Keçəl, çoxdan mənim nəzirim-çırağım var. Belə bir ağır ocax tapa bilmirəm ki, aparım.

Deyir:

–Mən yerin billəm da. Yerin deyim saa, apar.

Deyir ki, bax o bizim cütdən yuxarı dağ var. O dağın üstündə bir dənə böyüh ağaş var. O ağaj ağır pirdi. Gərəh ocağa yaxın getməyəsən. Bir on beş metr aralıda dayanasan. Qollarını açasan, çağırasan. Özü də səs verir çağıranda. Ay pir, deyəndə, səs verir, onda nə sözün var ürəyində deyirsən, apardığın ayın-oyunu da qoyursan

yerə, dala baxmadan qayıdıp gəlirsən. Gələndən sora nə arzu eləmisən hamısı yerinə yetəjəh. Deyir ki, onda sabah günorta gələjəm. Deyir ki, filan yolnan gələrsən, gəlib bizim cütün yanıynan keçəjəhsən, filan yolnan gedib görəjəhsən böyüh bir dənə ağaşdı, palıd ağajı. Gərəh 15 metrdən qabağa getmiyəsən haa. Ayın-oyunu qoyub yerə çağırasan. Qayıdanda da geri baxmırsan. Arvad hazırlaşır. Çıraq-zad, fəsəli-zad bişirir, hazırrıyır. Səhəri düşürlər yola. Keçəl görür ki, arvad gəlir. Deyir:

– Dayı, sən cütü saxla, dinjəl, mən gəlirəm indi.

Qaçır gedir, ağacın küfülü olan arxasında girir küfülə.

Görür arvad gəldi. Keçəl dediyi kimi eliyir. Çağırır ki, ay pir. Keçəl deyir ki, hıı.

Deyir:

– Keçəl ölsün.

Deyir:

–Hıı.

Deyir:

–Dayısı da ölsün.

Deyir:

–Hıı

Deyir:

–Mollanın oğlu məni alsın.

Deyir:

– Hıı

Nəysə, ürəyin boşaldannan sora ayın-oyunun qoyur orda yerə. Qaydır gedir, düzəlir yola. İsdiyir ki, getsin. Keçəl deyir ki, kəbin inəyin ətinnən kəs, ver,dayısı da, Keçəl də yeyib öləjəhlər. Elə deyir ki, arvad bını eşidir. Deməli arvad çıxır gəlir. Keçəl ayın-oyunun götürüb, gəlir dayısının yanına.

Açıllar, yeyillər, içillər.

Deyir:

– Dayı, biz axşam evə gedəndə, arvad sənə desə ki, dur kəbin inəyini kəs, sifdə bir əz oyan-buyan elə ki, arvad, nolubdu, inəyi niyə kəsim? Amma dərinə getmə. Mən də sənə köməh eliyəjəm. Durub inəyi kəsərih. Arxeyin ol! Gedib inəyi kəsəjiyih. Mən də ojağı qalıyajam. Ətindən kabab eliyib yeyərih doyunca. Doyandan

sora mən uzanajam, deyəjəm dayı, mən ölürəm. Uzanıb tir-tap olajam, tərpənmiyəjəm. Sən də bir əz ye, uzan, denə, Keçəl, mən dəəsən öləjiyəm. Sən də uzan. Guya sən də öldün. Arvad tez sevinə-sevinə qalxajax, qaçajax mollanın oğlun çağırajax. Elə ki, gəldilər, sürütdəyəjəhlər ki, aparsınnar atsınnar bir yerə, tez mən sıçrayıp qapının dalın bağlıyaram. Sən də mənə köməh elə.

Axşam olur, işdərini qurtarıllar, gəlillər evə. Oturullar.

Arvad deyir:

–Kişi!

Deyir:

–Nədi, arvad?

Deyir:

– Kişi, dur inəyi kəs.

İnəh də, deməli, arvadın olur, cehiz veriblər arvada. Ona görə də, inəyin adı kəbin inəyidi.

Kişi deyir:

–Ay arvad, dəli olmusan, nəsən? Nejə yanı, dur inəyi kəs. İnəyi niyə kəsim?

Deyir:

– A kişi, inəh mənimdi. Deyirəm kəs, kəs da. Lazımdı ki, deyirəm da.

Kişi bir əz nəm-küş eliyənnən sora Keçəl də qarışır işə, deyir:

– Ay dayı, inəh dayıdostunundu. Gətiribdi, indiyənə kimi saxlıyıp, indi də saxlamır. Deyir kəs, sən də kəs da. Da bının nə şeyi var.

Nəysə, inəyi kəsillər, soyullar, doğruyullar, töküllər, yeyillər. Yeyib doyannan sora tir-tab olur Keçəl, guya Keçəl öldü. Kişi uzanır, deyir ki, mən də öləjəm.

Kişi də uzanır, tir-tap olur. Arvad baxır ki, bullar ikisi də öldü. Tez durur, sevinə-sevinə qaçır. Mollanın oğlun çağırır ki, a kişi, gəl, bəs ikisi də ölüp. Gəl, onnarı sürütdüyəh, aparıb atax bir yana. Mollanın oğlu gəlir. Kişini götürüp qoyullar çölə ki, qayıdıp keçəli də aparsınnar. Tez Keçəl sıçrıyıp, qapının dalın bağlıyır.

Baltanı götürür əlinə, deyir ki, dayı, mənə köməh elə.

Deməli arvadı, mollanın oğlunu da doğruyullar, aparıb gejəynən töküllər quyuya, qayıdıb gəlillər. Yeyillər, içillər, yıxılıb yatıllar. Səhər tezdən durur Keçəl, gedir kənddən bir yaxşı arvad tapır dayısına. Götürüb gəlir, qoyur dayısının yanında. Deyir:

– Səni Allaha tapşırıram, dayımı saa. Əgər dayımın bir tükü əysih olsa, gəlib səni onnardan betər eliyəjəm. Dayı, qorxma ta. Nənəm deyir, ta evin dini-bərəkətini aparmıyajax. Hamısı burda qalajax. Yaşıyın.

Burda halallaşır, düşür yola. Gedir öz anasınını yanına, bunnar da burda başdıyıllar yaşamağa.

## BU FIRT O FIRTDAN DEYİL

Kənd camaatı bayram hazırlığı görürdü, naxırçı Bayramın evində isə ələk bulanmırdı, kişi çox fikir edirdi, arvadı isə kişiyə tez-tez ürək-dirək verirdi:

– Allah kərimdir, harada olsa bizim də bayramlığımız gələcək!

Vaxt gəlib çatdı, sabah bayram idi, naxırçının arvadı dükana getdi, tacir xanımı içəri dəvət etdi, xanım isə pulsuz idi. Bunu başa düşən dükançı tacir xanıma şirniyyat, şəkər, meyvə qurusu yığışdırıb verdi, xanım götürmək istəməsə də, tacir ürək-dirək verib xanımı yola saldı. Xanıma dedi ki, gəlib bayramınızı təbrik edəcəyəm, görüş vaxtını da razılaşdılar.

Xanım sonra qəssabın dükanına gedib, 5-6 girvənkə yaxşı ət çəkdirdi, qəssab da gəlib bayramını təbrik edəcəyini dedi, qadın tacirə dediyi vaxtı eyni ilə qəssaba dedi.

Naxırçının arvadı məscid tərəfdən gedib mollanın qabağına çıxdı, molla xanımın bayramını təbrik edəndə qadın işarə verdi ki, pulsuz nə bayram?

Molla dərhal bir dəst pul çıxarıb naxırçının arvadına verdi və dedi ki, gəlib bayramını evinizdə təbrik edəcəyəm. Qadın tacirə, qəssaba verdiyi vaxtı mollaya da verdi, özü də dedi ki, qapı bağlı olsa, bacadan gələrsən!

Nəhayət, qadın qayıdıb evinə gəldi, bayram tədarükü gördü, naxırçı Bayrama da dedi ki, buxarını yaxşı yandır, dəmir-dümür, nə varsa yığ ocağa. Kişi maşa, şiş, dəhrə, balta nə varsa yığdı ocağa.

Axşam oldu, verilmiş vaxtda bu üç nəfər qapıya yığışdı, əvvəl bir-birinə acıqları tutdu, biri dedi ki, Xənpəri mənə söz verib, o biri dedi ki, mənə söz verib. Qapını tərpətdilər, dalı bağlı idi, molla dedi ki, mənə deyib ki, qapı bağlı olsa, bacadan gələrsən, ona görə də mən ehtiyatdan ip gətirmişəm. Bunlar bacaya yığışdılar.

Bacadan baxıb içərini qaranlıq gördülər, axır ki, danışıb şərtləşdilər. Qəssab tələb etdi ki, mən birinci getməyiləm, molla isə razılaşdı ki, axıra qalsın. Düşüb-çıxmaq üçün vaxt təyin etdilər: qəssab 15 fırt sayılana  qədər razılaşdı, molla razılaşmadı, xahiş etdi ki, mənim fırtımı 25 edin, razılaşdılar.

Əvvəlcə ipi belinə bağlayan qəssab bacadan endi, evə enən kimi qızmar dəmirlər bunun üstünü kəsdi, bunun oturacağına bir neçə qızmar dəmir dəydi, qəssab qışqırdı ki, çəkin, yuxarıdan da dedilər ki, hələ vaxtın var. Qəssab qışqırdı, çəkdilər. Qəssab olan əhvalatı bunlara demədi. İndi taciri salladılar, tacir də yerə çatan kimi qızmar dəmirlər bunun oturacağını dağladı, tacir qışqırdı ki, çəkin, qəssab bir az yubatdı, molla isə tez çıxmağın tərəfdarı idi, ona görə də tez çəkib taciri də çıxartdılar.

Molla salavat çevirdi, ipi belinə bağladı, həm də xahiş etdi ki, ipi bir az gec çəksinlər, molla xəylağı bir az ağır tərpənir. Mollanı da salladılar, yerə çatanda qızmar dəmirlər bunun da üstünə gəldi, molla nə qədər elə-belə atıldısa da, naxırçı və arvadı bunu da dəmirlə dağladılar. Molla çığırdı ki, çəkin, yuxarıdan dedilər ki, sənin fırtın çox qalır. Molla qışqırdı:

– Bir fırt, beş fırt, on beş fırt, hamısı birdən fırt, çəkin köpək oğlanları, bu fırt o fırtdan deyil!

Qəssab və tacirin başına gəlmişdi, bilirdilər, ona görə də mollanı çəkmirlər, çığırtısını eşidirlər:

– Hamısı birdən fırt, bu fırt o fırtdan deyil, çəkin, namərdlik etməyin.

Nəhayət, mollanı da çəkib çölə atdılar. Bayramla Xənpəri bayram hazırlığını yeyib, özləri də bir-birini təbrik etdilər.

## ŞİRLƏ TÜLKÜ

Bizim yerdə bir Süsən dağı var, bir də bir Əsgülüm dağı var. Süsən dağında bir şir yaşıyırmış. Eşidir ki, Əsgülüm meşəsində yaxşı yem var. Deyir, yaxşı, var, var da, gedim görüm mən də orda yaşıya bilərəmmi? Gedir bir çaydan keçir. Belə Əsgülüm sərhədinə girəndə bir tülkü, balaca bir açıx yer varmış, orda ov eliyirmiş, siçan tuturmuş. Oturub deşiyin ağzında marığa yatıbmış ki, siçan indi çıxar, bir azdan çıxar. O qədə marığa başı qarışır ki, bir də görür, bir şir

yaxalıyıp bunu – iki-üç addım qalıp ona çatmağa. Qaçammır daa.
Deyir:
– Əə, şir lələ, xoş gəlmısən, sən hara, buralar hara?
Deyir:
– Əə, tülkü lələ, sən nə bilirsən ki, mən buralı deyiləm, bura gəlməyəm?
Dedi:
– Eee, şir sağ olsun, mən ömrümü bu Əsgülüm dağında yaşamışam. Nə qədi şirrər varsa, bəlkə beş dəfə biriynən, üç dəfə biriynən rasdaşmışam, ama səni indi görürəm.
Dedi:
– Doour deyirsən, mən Süsən dağınnan gəlmişəm. Deyillər, bu meşə səfalı meşədi, burda yaşamaq yaxşıdı.
Dedi:
– Çox səfalı meşədi.
Dedi:
– Axı mən nabələdəm.
Dedi:
– Gə mənnən qardaş olax, mən görsədim, sən də avla gəti, bir yerdə yəəh daa. Dolanax.
Dedi:
– İllap yaxşı.
Razılaşdılar.
Şir dedi:
– İndi, qardaş, bərk acmışam.
Dedi:
– Bəri gəl.
Tülkü gördü, bir çoban qoyun aparır, bını apardı ora, dedi:
– İndi o qoyun, o da sən.
Şir sıçradı. Çoban gördü şir gəlir, qaşdı. Şir qoyunnardan birin vırdı cənginə götdü gəldi. Özünü verdi bir qaratikan kolunun dibinə. Allah heç həqqi tanıyanı ac eləməsin. Acıydı, başdadı yeməyə. Tülkü sınıdı durdu bir qıraxda. Şir birdən başın qaldırdı gördü, axı tülkü yemir. Dedi:
– Əə, tülkü qardaş, gəl sən də ye daa.
Dedi ki, axı qorxuram.

Dedi:
– Kimnən, nədən?
Dedi:
– Sənnən.
Dedi:
– Bə mən deyirəm dəə.
Dedi:
– Yox, desən də mümkün yoxdu.
Dedi:
– Neyniyəh?
Dedi:
– İndi ki, həylədi, qoyunun boğursağın – acı boğursaq götürüm, onnan sənin qollarını daldan yalannan bağlıyım.

Qoyunun acı boğursağınnan qurudub keşmişdə oxcular kiriş düzəldərdilər, çox möhkəm olardı.

Tülkü dedi:
– Qoy bu boğursağnan qolunu yalannan bağlıyım, guya ki, bağlısan. Mən arxeyin olum, bir tikə yeyim, aj qalmıyım.
Dedi:
– Noolar, qardaş olmuşux, bir dəyqa, iki dəyqa mənim qolum bağlı qalsın. Sən aj qalmıyassan ki?

Tülkü şirin qolunu bağladı. Gözdədi, gördü kü, gün vurdu boğursağı qurutdu, oldu kiriş. Tülkü durdu belə dolaylandı getdi. Şir dedi:
– Tülkü qardaş, hara gedirsən?
Dedi:
– Çıxıram gedəm daa.
Dedi:
– Bə mənim qolum bağlı qaldı.
Dedi:
– Cəhənnəmə bağlı qalsın.

Şir qəzəpləndi, çəhdi kirişi, qolların yarıya qədər kiriş kəsdi. Kirişi şir qıra bilər? Hoppuldu o ənə, hoppuldu bu ənə, özünü verdi qaratikanın kölgəsinə, qaldı burda. Qan bunu aparır, neyləsin, heş bir çarəsi yoxdu. Gördü, bir siçan ordan hoppanır o ənə-bu ənə.

Dedi:
– Şir, a Allahın heyvanı, niyə belə qalmısan?

Dedi:
– Ha belə, vəziyyət belə oldu.
Dedi:
– Maa dəymərsən ki, sənin qollarını açam?
Dedi:
– Bir yaranmışı ki, zindannan qurtarasan, ona kim dəyə bilər?!
Siçan gəldi yavaş-yavaş gəmirdi, kirişdəri doğradı töhdü yerə, şiri qurtardı.
Şir Əsgülümnən Süsən dağına qayıtdı. Gedirdi yolda, Oxçu çayında bir şirnən rasdaşdılar. O şir soruşdu:
– Əə, şir qardaş, hardan gəlirsən?
Dedi:
– Əsgülümnən gəlirəm.
Dedi:
– Niyə gəlirsən? Deyillər, ora çox səfalı yerdi.
Dedi:
– Əə, nə səfalı yerdi?! Bir meşənin bağlıyanı tülkü ola, açanı siçan, o meşədə qalmaxdansa, qalmamağım yaxşıdı.

## DƏYİRMANÇININ NAĞILI

Biri var idi, biri yox idi, bir dəyirmançı var idi. Bu dəyirmançının bir inəyi uley. U həmmişə ineyi kəndin qabəğinə utdamağa ötireymiş. Bu dəyirmançı bi gün görey ki, bunın ineyi günnən-günə arıxley. Dəyirmançı qunşilərinin maslahatiynan qırnan saqqızı qatıp ineyin belinə yaxey, ötirey genə kəndin qabəğinə. Bu vax görey ki, ineyin belində axşam, budı, bir tülki, bir canavar, bir də bir ayi galey ava. Dəyirmançi tüfəngi götürey gedey uların üsdinə. Tülki qurxıdan əl-əyağa düşip dey:
– Ay dəyirmançi qardaş, məni öldürmə, saa bir xuruz gatırım ki, səsinnan qulax bassın.
Dəyirmançı tülkünü buraxey. Nubat çatıy canavara. Canavar dey:
– Ay dəyirmançı qardaş, məni öldürmə, saa bir quyin gatırım ki, quyrığı yerinan sürinsin.
Dəyirmançı bunu də buraxey. Axırda nubat galey ayiyə. Ayi dey:
– Ay dəyirmançı qardaş, məni öldürmə. Yanıqquzda yəxşi cavızım var, qatırçını yulla, silkə, bir salxım gatısın uşaxlara.

Nağılı-tül, dəyirmançı buların üçin də buraxey. Tülkiynan canavar kişi kimi öz sözlərinin əyəsi uleylar. Dəyirmançı öz qatırçisini ayinin dalıncə yulley. Qatırçı cavız ağacinin dibinə çatan kimin, ayi agəşdan qışqırıp deyi:

– Çıx burdan, man dəyirmançi-zad tanimeyram, yeqin qul-qabırqa azaram.

Qatırçı kur-peşman qayidey galey ava. Tülkü yulda çıxey bunın qabəğinə. Qatırçı ayinin dedihlərin tülkiyə bitbəbit dey. Tülki dey:

– Get qatırın buyninə zınqırov as, quy gal, heç işin ulmasın.

Burdan tülkü galey ayinin yaninə. Qatırçı də galey qatırın buyninə zınqrov asey, genə düzdey yula. Qatır galey, zınqırov saslaney. Ayi səsi eşidey, dey:

– Ay tülki, bu na sasdı?

Tülkü dey:

– Bəs patişahın uğli azarreyif, ayi əti axdareylar

Ayi dey:

– Ay tülki, bir çara qıl. Harada gizlanım?

Tülki çuvalın ağzın açey, dey:

– Gir çuvalın içində gizlən.

Ayi çuvalın içində gizlaney. Qatırçı galıp çıxannan sura, qatırçiynan tülki agəci götirey, ayini ölincə vureylar. Cavizi də yühleyip gatiriyler dəyirmançiyə.

## TÜLKÜ BABASINDAN QOZ OĞURLAYIR

Biri vardı, biri yoxdu, bir tülkü vardı. Bu tülkü ac idi. O fikirləşir ki, nə edim ac qalmayım? O, babasıgildən qoz oğurlamağa gedir. Tülkü gedir, gedir, qabağına bir xoruz çıxır. Xoruz deyir:

–Tülkü lələ, hara gedirsən?

–Babagildən qoz oğurlamağa.

–Məni də özünlə apar.

–Gəl tut quyruğumdan.

Onlar yollarına davam edirlər. Yolda qarşılarına bir ilan çıxır. İlan:

– Tülkü lələ, hara belə?

– Babagildən qoz oğurlamağa.

– Məni də özünlə apar, sənə kömək edərəm.

– Gəl tut quyruğumdan.

Gedirlər, gedirlər, qabaqlarına bir toxmaq çıxır. Toxmaq deyir:
– Tülkü lələ, hara belə?
– Babagildən qoz oğurlamağa.
– Məni də özünlə apar.
Hamısı gedirlər və yolda inəklə qarşılaşıllar. İnək:
– Tülkü lələ, hara belə?
– Babagildən qoz oğurlamağa.
– Məni də özünlə apar, sənə kömək edərəm.
– Gəl tut quyruğumdan.
Onlar az-çox gedirlər, gəlib babagilə çatırlar. Tülkü xoruzu ocağın içinə qoyur. Toxmağı qapının başından asır. İlanı babanın ayaqqabısının içinə qoyur. İnəksə dama çıxır ki, ona kömək eləsin. Birdən nənə səs eşidir. Babanı durğuzur ki, evə kimsə girib. Baba deyir:
– Oğru nə gəzir, yat.
Nənə:
– A kişi , vallah, səs gəlir. Damda kimsə var.
Kişi durub ocağı yandırmaq istəyəndə xoruz dimdiyi ilə vurub onun gözünü tökür. Kişi qışqırır:
– Ay gözüm!
Baba çarığın geyib qaçmaq istəyir ki, ilan onu çalır. Kişi qışqırır:
–Vay ayağım.
Qapını açmaq istəyəndə toxmaq başına dəyir. Baba yıxılır. Tülkügil də qozu götürüb gedirlər. Bir dağın başında oturub qozu sındırıb yeyirlər.

## DƏVƏ, TÜLKÜ VƏ QURD

Dəvə yol gedip yorulmuşdu. U, acınnan yolda döşənip yatmışdı. Tülkü dəvənin yatdığın görüp diyer:
– Dəvə qərdəş, niyə burda yatmısan?
Dəvə diyer:
– Ay tülkü qərdəş, acınnan işdən düşmüşəm. Əyə ma bicıqqana ot gətirsən, dilimi verərəm yiyərsən.
Tülkü tez gedip ot tayasınnan iki burma saler, gətirer verer dəviyə. Dəvə otu yiyer, qalxer əyəğə.
Tülkü diyer:
– Ay dəvə qərdəş, indi dili ver, yeyim.

Dəvə dilin saler eşiyə, tülkü görer ki, odu, göyün yüzündə. Tülkü acığ eliyip mıtdana-mıtdana qoyer, gedir. Bu vədə tülkünün qabağına bir qurt çıxer. Əxvalatı tülkü qurda nağıl eler. Qurt diyer:

– Qeyit, gedəh mən də iltimas eliyim, dilin versin sa.

Tülkiynən qurt qeyidillər, gələllər dəvənin yanına. Qurt diyer:

– Kişi gərəh tüpürdüğün yalamasın.

Dəvə diyer:

– Mən sözümnən qaşmerəm; mən verrəm, ama u qapammer.

Qurt diyer:

– Siz razı olun, mən qapım, verim, tülkü yesin.

Bular razılaşellər. Dəvə dilin saler eşiyə ki, qurt dilin qapsın, versin tülküyə. Bir qələ qurt atıler, ama qapammer. Dəvə görer ki, qurt onun dilin qapecax. Dəvə boynun dih tuter, qurt ikinci qələ dəvənin dilin qapanda qurdun xitdəyin yığer ağzına. Tülkü qaçer, çıxer bir qəlbi yerə, diyer:

"Acınnan ölən dəvənin herisinə bax, herisinə,
İltimasa gələn qurdun gerisinə bax, gerisinə."

## QƏZA TORU

İlanla qızılquş dost olur. Bir gün ilan qızılquşa deyir:

–Torpaxda sürünməhdən bezmişəm. Məni də özünnən qalxız göyə, baxım görüm dünya necə görsənir.

Qızılquş ilanı qanadına alıb qalxır göyə. Deyir ki, bax gör, nə görürsən?

İlan deyir:

– Bütün dünyanı görürəm. Dünya nə gözəlmiş!

Qızılquş bir az da yuxarı qalxır, deyir:

– Bax gör, indi nə görürsən?

İlan deyir:

– Hər yanı dumanlı görürəm, heç nə seçə bilmirəm.

Qızılquş bir az da yuxarı qalxır, deyir:

– Hə, ilan qardaş, bax gör, indi nə görürsən?

İlan deyir:

– İndi heç nə görə blimirəm.

Qızılquş deyir:

– Mən hər şeyi görürəm. Biz indi bir xırmanın üstüynən uçu-

rux. Xırmanda, samanın içində bir ağsaplı iynə var.

İlan deyir:

– Yerə en. Əyər dediyin düz çıxmasa, səni oradaca çalacam.

Qızılquş yerə enir. Xırmandakı iynəni tapıb ilana göstərir.

İlan deyir:

– Əhsən sənin gözlərinə! Xoşbəxtsən!

İlanla qızılquş bir-birindən ayrılır. Qızılquş göyə qalxır, ilan yenə torpaxda sürünməyə başlıyır.

Bir gün ilan sürünə-sürünə gəlib bir ovçu torunun üstünə çıxır. Görür ki, qızılquş tora düşüb. İlan deyir:

– Qardaş, sənin iti gözlərin varıydı, necə oldu ki, görmədin, gəldin düşdün bu tora?

Qızılquş deyir:

– İlan qardaş, bu tor qəza torudu mən düşmüşəm. Qəzanın beş barmağı var: ikisiylə qulaqları tıxıyır, ikisiylə gözləri örtür, biriylə də dili-ağızı bağlıyır. Qəza torundan qaçmax olmaz.

# XII. LƏTİFƏLƏR

## ÇARIQ

Əmirxanda Ocaxverdi varıdı, o gələr Bartaza, bir arvada qonax olar, Tərsultan adında. Ayağında pinə çarıx varımış. Deyər:

– Tərsultan?

Deyər:

– Nədi, Ocu? (adına Ocu deyirdilər).

Deyir:

– Məni obaşdan oyat.

Deyər:

– Kopəyoğlu, idarə müdürü dəyilsən, bir şey dəyilsən. Səhər aftafanı qaynədəciyəm, iç, yola düş, genə cəhənnəm ol, çıx get dənə.

Tezdənnən arvad durur ki, Ocaxverdi yoxdu, çarıxlar bıdı bırdadı, köhnə çarıxdı. Çıxır qənşərə, görür Xanazur yoluynan Ocaxqulu gedir. Deyir:

– Ocu, Ocu! Çarıxları bırda qoymusan.

– Deyirəm axı, əyağımı daş əzir?!

Deyir:

– Ə, köpəyoğlu, bəyəm bıra əyaxyalın gəlmişdin?! Qəyidir, gəlir o pinə çarıxlarını geyir.

## SƏN NƏ VERMİSƏN?

Ocaxverdi evlənər, orda (Bartazda) bir Kərim vardı, onun keşmiş arvadını alar. Kərim bı arvadı çıxardar, bı Ocu alar. Bir gün Ocaxverdi gələr Bartaza, görər altı-yeddi ağsaqqaldı, duruf söhbət eliyillər. Elə Kərim də bılların içindədi. Ocaxverdi bıları aralayır o yana-bı yana, Kərimnən əl tutuşar. O ağsaqqal, bı ağsaqqal, hərə bir ağaş vırar bına, deyər:

– Kopoyoğlu, Kərim kimdi ki, onnan əl tutuşursan, biznən əvvəl görüşmürsən?

Deyər:

– Ə, kopoyoğlu sənsən, Kərim maa bir arvad veripdi, sən nə veripsən?

## KEÇİ

Hökumət camatdan vergi topluyurmuş. Vergini çox ağır qoyubmuş. Hər adamnan neçə kilo ət, neçə kilo yağ, yumurta istiyirmiş. Bir kişinin də vur-tut cəmi bircə keçisi varmış. Gəlib bu kişidən də vergi istiyillər. Kişi deyir:

– Alın bu keçini. Ət də burdadı, yağ da burdadı, yumurta da burdadı.

## BİR-BİR ÇIXIRIQ

Bizim Cicimli kəndində bir Həmzə kişi varmış, çox baməzə adammış. Bir gün kənd soveti onnan soruşur ki, niyə hamıız bu dərədə ev tikirsiiz, niyə düzə çıxmırsıız? Həmzə kişi də yuxarıda, düzdəki qəbirsannığı görsədib cavab verir: "Bu dərədən o düzə çıxmağına çıxırıx, ama bir-bir çıxırıx".

## XƏNCƏR ƏHVALATI

Hökumət qadağan eliyir xançalı götürməyi. Amma bir kişi varmış, o, xançalsız durammırmış. Xahiş eyliyir ki, heç olmasa, icazə verin, xançalın tiyəsini qırım, eləcə qınını, dəstəyini gəzdirim üstümdə. İcazə verilir. Bir gün o kişinin biriynən yenə sözü düz gəlmir, dalaşıllar. Kişi xançalının dəstəyini çəkif qınınnan çıxarır, diriyir dalaşdığı adamın qarnına.

Deyir:

– Evin yıxılsın, xançalın tiyəsi hanı?

Kişi deyir:

– Nəsənə olajeh, soxmuşam sənin qarnına.

Bını eşidəndə o adamın qorxudan canı çıxır.

## ÖLƏN YOXDU

İki arvad danışır ki, ölüyə görə molluya nə qədər pul verillər. Biri deyir ki, filankəs öləndə molluya yüz manat verdilər, filankəs öləndə əlli manat verdilər. Cabbarxan addı məzəli kişi vardı, baxdı bu arvaddara, dedi:

– Bizim yerdə ölünü çəkillər. Əlli kiloluğun öz qiyməti var, yetmiş kiloluğun öz qiyməti var. Çəkisinə baxıp pulun verillər.

Arvaddar dedilər:
– Nə pis adətiiz var.
Cabbarxan kişi halını pozmadı:
– Niyə pis adət olur. Gördülər bahalıxdı, ta ölən yoxdu.

## SƏNİN KİMİ CIR OLUB

Bir gün boydan balaca bir kişi gedib yumurta alırmış. Yumurta seçəndə üzünü yumurta satan qarıya tutup deyir:
– Ay xala, bu yumurtalar niyə belə balaca-balacadı?
Arvad cavab verir:
– Başına dönüm, xoruzu sənin kimi cır olub.

## DANALARI YATAP APARDILAR

Mincivan qəsəbəsində Məhərrəm adında bir kişi var. Qalxozun yerinə düşən malları yığıb aparıllar İmranxan bəyin kəndinə. Qalxozun idarəsi orda yerrəşir. Qalxozun yerinə düşən danaları da yığıb aparıllar ora. Danaların yiyəsi çıxır Məhərrəm kişinin qabağına, soruşur ki, danaları görmədin?
Deyif:
– Danaları yatap apardılar.

## İŞLƏMƏYƏN DİŞLƏMƏZ

Kənddə Mehman adlı bir kişi vardı, rəhmətə getdi, çox hazırcavab idi. Deyir, Lenin yoldaş deyif: "Oxumax, oxumax yenə də oxumax". Hamı getdi oxumağa, gördü işdiyən yoxdu, dedi:
– İşdəmiyən dişdəməz.
Lenin dedi:
– Torpax kənddilərindi.
Hamısı töküldü işdəməyə, heç gözdəmədilər ki, desin qazancı kimindi?

## ƏVVƏL TUT ƏK, SONRA UŞAQ

Mənim uşaxlığım Mehri rayonunun Əmara kəndində keçip. Orda böyük bir göl tihmişdilər. Kəhrizin suyunu gölə yığıb qalxo-

zun sahələrinə buraxırdılar. Bizim günümüz o göldə keçirdi. Göldə çimip gölün qırağında Kərbalayı Muxtar addı bir kişi vardı, onun bağına çox korrux verərdih, iri tutdarı vardı, çıxardıx, əyib yeyərdih, səpəliyib yeyərdih, hər gün bizi qovurdu, bir gün bezip başdadı söyməyə:

– Atava lənət uşax əkən, əvvəl tut ək, sora uşax ək, niyə əvvəl uşax əkip mənim üstümə ötürürsən.

## HEÇ DƏLLƏK DƏ BU QƏLƏTİ ELƏMƏZ

Bir gün bir yetim oğlan küçəynən gedirmiş. Məşədi Orucqulu baxır ki, bu oğlanın lap böyüh saçı var, gözdərinə enip, çağırır, bala, gəl otur bu daşın üstündə, başını qırxım. O da gəlip oturur. Məşədi Orucqulu bının başını təmiz-təmiz qırxır. Həmən yetim oğlan əlini çəkir başına, deyir:

– Məşədi Oruc dayı, heç dəllək də bu qələti eləməz.

## PİŞİK ÖLƏR AĞLARSAN

Bir kişi görür ki, bir kürd pişiyi çaya basıb yuyur.

Deyir:

– A kişi, o pişiyi elə eləmə, ölər.

Kürd deyir:

– Ölməz!

Kişi başını buluyur, gedir. Qayıdanbaş görür ki, kürd pişiyi qabağına qoyub ağlıyır. Deyir:

– Sənə demədimmi o pişiyi soyux suda yuma, ölər?

Kürd deyir:

– Yuyanda ölmədi, sıxanda öldü.

## CİBİNDƏ HEÇ PUL VARIYDI?

İki kürd, olur. Birinin adı Məti olur, birinin adı Budax. Çoban olullar. Dağda bir nəfəri öldürüllər. İşin üstu açılır, iş düşür məhkəmiyə. Məhkəmə nə qədir eliyir, bıllar boynuna almır ki, biz öldürməmişih. Axırı məhkəmə qayıdır ə, yaxşı elədiz da, yaxşı öldürdüz, canıız sağ olsun, bəs onun gibindəki pulu neynədıız.

Tez bı Məti baxır Budağın üzünə deyir ki, Budağ, ə, sənin canın, onun cibində heç pul variydi?

## DOŞABIN DADSIZIYDI

Bir kürd qızı gəlir Bakıya. Şəhəri gəzəndə bir çəhməçi dükanının qabağınnan keçəndə görür ki, qabda elə doşaba oxşuyan şey var. Çəhməçi gönü, badoşu-zadı isdadıb, onun suyudu. Bı kurd də elə bilir ki, doşabdı. Deyir ki, qərdeşim, döşşəbin piyeləsi neçiyədi?

Çəhməçi də baxır, belə deyir ki, beş manat.Deyir ki, onnan bir piyelə ver mana. Bı duru piyalanı doldurur qoyur qabağına.

Kürd çıxardir çörəyin-zadın doğruyur içinə, qaşığı alır əlinə yeyir. Yeyənnən sora çıxarıb pulu verir. Deyir ki, qərdeş, demə ki, kürd idi, qənmedi, döşəbin dadsızıydı.

## QARININ TOYU

Bir qızdırmalı kişi dəvənin üstündə gəlirmiş. Birdən başı gicəllənir, dəvədən yıxılır. Dəvə gəlib bir naxırçıya ürcah olur. Naxırçı dəvəni naxıra qatıb aparır.

Naxırçının iki qardaşı varıymış. Biri əkinçiymiş, biri dəyirmançı. Naxırçı deyir:

– Gəlin, bu dəvəni kəsib yeyək.

Dəyirmançı deyir:

– Dəvəni kəssək, anamız xəbərriyəcək.

Əkinçi deyir:

– Gəlin dəvəni kəsib anamıza toy eləyək, kəbinini də kəsək aftafıya.

Qardaşlar razılaşdılar. Dəvəni kəsib deyillər:

– Ana, sənə toy eliyirik, kəbinini də aftifaya kəsirik.

Üç günnən sora dəvənin yiyəsi özünü yetirir. Qardaşdardan soruşur ki, bu nəm-nişanda dəvə görməmisiz?

Deyillər:

– Yox.

Kişi görür ki, təpənin başında bir qarı oturup.

Qarıdan dəvəni soruşur. Qarı deyir:

– Dəvəni kəsib mənə üç gun toy elədilər, kəbinimi də kəsdilər

aftafıya.
Kişi deyir:
– Gör nə günə qalmışam ki, qarı da məni doluyur.

## GÖY GÖZLƏRİM GÖRMƏZ

Təzə gəlinin könlünə döyməc düşür. Amma qaynatasınnan çəkinir. Deyir, görəsən göygöz də əməlli-başdı görür? (qayınatasının gözü göymüş). Əlini tutur kişinin gözünün qabağına. Kişi özünü görməməzdiyə vurur. Gəlin arxayın olup fətiri götürür, yağı tökür qaba, döyməc eliyir, yeyir. Amma sinirə bilmir. Qaynatası gəlini yüyrüyə qoyup yırğalıyır, deyir:
Göy gözdərim görməz,
Yağnan fətir döyməc,
Gəlin bunu sinirməz.
Kişi yırğalıyıb-yırğalıyıb, gəlinini sancıdan qutarır.
Gəlin deyir:
– A qaynata, qoy bir söz də mən deyim.
Qaynanam-qaynar qazan, yandırar-yaxar,
Qaynım-qayın ağacı, qapıda bitər.
Qaynatam-pendir-çörəh, canıma yatar.

## TARF VƏ TERF ƏHVALATI

Bı kənddər qoşadıllar.
Bir kişi olur. Bının iki arvadı olur. Biri Tarfda, biri də Terfdə. Kişi gedirmiş beş gün orda, beş gün bırda qalırmış. Bir gün də yaz ağzı bir arvadının yanınnan o biri arvadının yanına gələndə çay daşır. Su bunu götürüf gedir. Arvaddar da arxayın olur ki, Tarfdakı yola salıf Terfə, Terfdəki də Tarfa. Üç günnən sora kişinin meyitini tapıb gətirillər. Hay düşür ki, kişi ölüf. Arvaddara deyillər ki, nətəər kişinizdən xəbəriz yoxdu. Bı deyir ki, mən elə bildim Tarfdadı, o deyir, mən elə bildim Terfdədi. Sora burdan belə bir söz yaranmışdı ki,
Tarfdakı deyir, Terfdədi,
Terfdəki deyir, Tarfdadı,
Ta demir ki, çayda şarap-şurupdadı.

## MAT QALMIŞAM

Bir adam olur. Bı hiyləgər adammış. Deyir, gərəh elə bir iş görəm ki, adamın gözü baxa-baxa oğurrux eliyəm.

Yoldaşı deyir:

– Ə kişi, həylə şey olmaz.

Deyir:

– Olmaz? Gedəh mən göstərim.

Gedillər, çıxıllar bir hündür yerə. Görür ki, bir kişi iki öküzü qoşub (ona biyan deyəllər) yer sürür.

Orda qalanda götürür, başdıyır oynamağa:

– Mən bı işə mat qalmışam. Mati-məəttəl qalmışam.

Xeyli vaxt bu sözü təkrar eliyir. Cüt sürən kişi dayanıb bir az fikir verir. Görür ə, kişi dağın başında oynuyur, deyir:

– Mən bı işə mat qalmışam, mat-məətəl qalmışam.

Öküzdəri bı dayandırır. Bı gedir o kişinin yanına.

Bı kişi də deyir:

– Sən bırda dur. Mən gəlirəm.

Gəlir, öküzün birin açır, aparır uzaxda bağlıyır. Bir də qayıdır dağın başına. Kişi gəlir çıxır. Deyir:

– A kişi, sən bırda nə qayırırsan axı? Elə deyirsən, mən bı işə mat qalmışam, matı-məəttəl qalmışam.

Bı deyir:

Ona mat qalmışam ki, sən bir öküznən nə təhər yer sürürsən?

Deyir:

– Bir öküz nədi?

Deyir:

– Bir öküzdü da.

Baxdı, gördü ki, bir öküzdü.

Deyir:

– A kişi, axı mən iki öküzü sürürdüm. Elə mən də bı işə mat qalmışam.

## ADAMIN PİSİ

Birinə deyillər ki, elə cümlə de ki, orda günün pisi, yerin pisi, insanın pisi görsədilsin. O adam belə cavab verir: Duz günündə

(yəni bazar ertəsi), Mığrının (Mehri) güneyində bir kürd gördüm, donuza minmişdi, qoltuğunda şəvit (mındarça) ağacı, əlində cad, cadın üstündə şor yeyirdi.

## ADAMIN PİSİ, QABIN PİSİ, HEYVANIN PİSİ

Bir padşahnan vəzir varmış. Günnərin bir günü padşah vəzirə deyir ki, adamın pisi, heyvanın pisi, qabın pisi nədi?

Vəzir cavab verəmmir. Padşah deyir:

– Üş gün vaxt verirəm sana, tapmasan öldurəjem səni.

Vəzir ha fikirrəşir, tapa bilmir. Fikirri-fikirri yolnan gedirmiş, bir uşax çıxır qabağına. Deyir:

– A kişi, qanın niyə qaradı?

Vəzir istəyir məsələni açıb deməsin, çünkü fikirrəşir ki, bu uşağa deməyin nə mənası var? Uşax əl çəkmir, deyir:

– Gərəh dərdini açıx söylüyəsən ki, görüm saa noolup? Vəzir açın deyir ki, bəs belə, padşah mana üş gün vaxt verip ki, tapam görəm adamın pisi, heyvanın pisi, bir də qabın pisi nədi? Uşax deyir:

– A kişi, bu nə olan işdi ki, bınnan ötrü qanıı qaraldırsan. Adamın pisi ev üstünə gələn kişidi. Yanı arvadı alıp, onun evinə köçən kişidi. Heyvanın pisi alnı qaşqa eşşəhdi. Qabın pisi çuğun qabdı. Bir yeri deşildi, at getsin, ta əmələ gəlməz.

Vəzir uşağın bu sözdərinnən çox sevinir. Vəzir uşağın dediklərini padşaha deyib onun əlinnən canını qurtarır.

## İNSAN ÇAT VERƏRDİ

Biri o birinə deyir ki, deyillər, insan palçıxdan yaranıb. O biri də sual verir ki, görən o palçığa saman qatıblar? Birinci adam cavab verir ki, bə nə, bə nə! Əyər palçığa saman qatmasaydılar, insan bı boyda dərdə tablaşmazdı, çat verip çatdıyardı.

## CÜCƏNİ SAĞSAĞAN APARIB

Məllim uşağa həftənin günnərinin adını öyrədə bilmirmiş. Odu ki, uşağa deyir ki, evizdə yeddi cücüyə günnərin adını qoy, onda bəlkə öyrənəsən. Uşax da evlərindəki yeddi cücüyə günnə-

rin adını qoyur: duz, tək, çərşənbə, adna, cümə, şənbə, bazar. Aradan bir gün keçir. Məllim uşağa deyir ki, indi say görüm günnərin adını. Uşax sayır, amma cümənin adını çəhmir. Məllim soruşur ki, bəs cüməni niyə demədin? Uşax cavab verir ki, cüməni sağsağan apardı, ona görə də onun adını çəhmədim.

## QARA GÜN ÜÇÜN SAXLAMIŞAM

Bir kişinin çoxlu pulu var imiş. Ancax o, pulunu çox qənayətnən xərcliyirmiş. Qalannarını sandığa yığarmış. Oğlu bir gün soruşur:

– Ata, puluvu niyə gen-bol xərşdəmirsən?

Atası deyir:

– Oğul, o pulları qara gün üçün saxlamışam.

Bir gün kişi evdə yoxuymuş. Qapıya bir dilənçi gəlir, oğlunnan pul isdiyir. Oğlan soruşur:

– Sən kimsən, əmi?

Dilənçi deyir:

– Nə bilim, bir qaragünnü.

Oğlan sevincək deyir:

– Atam sənə çoxlu pul saxlıyıb.

Bunu deyip oğlan evdə olan pulun hamısını dilənçiyə verir.

## BƏDRƏNG ADAM

Bir kişi gedir meşiyə odun qırmağa. Meşəbəyi deyir:

– Meşiyə odun qırmağa gələndə özünnən bir şey gətir mana.

Ama kişi heş nə gətirmir.

Meşəbəyi deyir:

– A kişi, sana demədim, mana bir şey gətir. Hamı oduna gələndə mana bir şey gətirir, bəs sən niyə gətirmirsən?

Kişi deyir:

– Mən hamıya oxşamıram. Mən bədrəng adamam.

Meşəbəyi soruşur ki, a kişi, bədrəng adam nədi? Kişi cavab verir ki, yoxdu rəngin ağı, qarası, qırmızısı, yaşılı, sarısı, göyü? Bir də var bədrəng. Bu nə ağdı, nə qaradı, nə qırmızıdı, nə yaşıl, nə sarı, nə göydü. Bu rəng onnarın hərəsindən bir azdı, bəd rəngdi. İndi mən onnanam. Odu ki, gözünü yığ, sana heş bir pay gətirmiyəjəm.

## ADIM YADIMDAN ÇIXIB

Bizim kənddə Qara adında bir kişi varıydı. Bir gün o görür ki, adını yadınnan çıxarıb. Nəqqədər fikirrəşir, adını yadına sala bilmir. Yolnan getdiyi yerdə bir uşax soruşur ki, Qara əmi, hara gedisən? Qara kişi uşağın boynunu qucaxlıyıb öpür, deyir:

– Çox sağ ol, a bala. Heç hara getmirəm. Adımı itirmişdim, onu axtarırdım.

## NƏZRİMİ VER

Bir kişi tezdənnən oduna getməh istiyir. Arvada deyir ki, baltanı qoy ora, tezdən oduna gedəciyəm. Arvad da baltanı qoyur çömçənin yanına.

Kişi də balta əvəzinə çömçə götürür. Gedir, elə oduna vıranda çömçənin başı qırılır, düşür yerə. Axtarır tapa bilmir.

Allaha bir təhnə nəzir deyir ki, baltası tapılsın. Bir az axtarır, görür ki, əlinə qab gəldi. Baxır görür ki, çömçənin başıdı.

Deyir:

– Mən baltanı tapmamış bu çömçəni göndərib ki, mənim nəzrimi ver.

## YEMİŞİN KALI

Məşədi İslam addı bir kişinin atı itir. Atı axtara-axtara gəlip çıxır Həkərinin qırağına. Görür bir qız quzu otarır. Uzaxdakı bir qaraltını qıza göstərir soruşur:

– A qızım, gözüm yaxşı görmür, bax gör o qaraltı atdımı?

Qız deyir:

– Yox, İslam dayı, inəhdi.

Məşədi İslam deyir:

– A qızım, gözüm yaxşı görmür, sən kimin qızısan?

Qız deyir:

– Kəblə Murtuzun.

Məşədi İslam deyir:

– Kəblə Murtuzun iki qızı var, biri yetişib, biri yox. Cözüm yaxşı görmür, sən Kəblə Murtuzun hansı qızısan?

Qız deyir:

Korsansa kahal axtar,
Dərə, təpə, yal axtar.
Hər yemişin dəymişi,
Bir yemiş var, kal axtar.

Məşədi İslam gülür, deyir:

Qızılgülü dərəllər,
Dərib yerə sərəllər.
Sən dediyin yemişi,
Kor kişiyə verəllər?!

## DAĞDAN AŞARSAN, PƏRİ!

Aşıx Pəri Aşıx Valehin adını çox eşidibmiş, ama üzünü görməyibmiş. Bir gün qismət olur, görüşüllər. Aşıx Pəri Aşıx Valehin eninə-uzununa baxıb deyir:

Göynən gedən qudumu?
Yernən gedən sudumu?
Ağzına ................?
Aşıx Valeh budumu?

Aşıq Valeh də söz altda qalmır. Deyir:

Dağdan aşarsan, Pəri,
Bağdan aşarsan, Pəri.
Şır-şırına ..........
Hardan ............, Pəri?

## BILDIR-BILDIR GÖZ YAŞI

Abdalanlı kəndində bir Şəmdin kişi olub. Onun Bəylər adında bir kişiylə möhkəm zarafatı varmış. Bir gün Bəylər süddü aş bişirtdirir, Şəmdini qonax çağırır. Bəylər qabaxcadan öz payını bir qaba çəkdirib soyudur. Şəmdin kişinin payını qazannan isti-isti çəkdirib Şəmdinin qabağına qoydurur. Bəylər qaşığı vurub aşdan şirin-şirin yeməyə başdıyır. Şəmdin Bəylərin belə şirin-şirin yeməyinə baxıp, aşdan bir qaşıx götürüb ağzına qoyanda ağzı bütöv yanır. Şəmdinin gözünnən bıldır-bıldır yaş axır. Bəylər deyir:

–A kişi, noolub, niyə ağlıyırsan?

Şəmdin deyir:
– Bəylər addı bir oğlum ölüb, ona ağlıyıram.

### SƏN ALLAH, BURA HARADIR?

Məhərrəmlih vaxtı Zəngilanda tez-tez şəbeh düzəldərmişdər. Bir gün yenə şəbeh düzəldillər. Bir kişini bir ağacın altında oturdullar ki, gəlip soruşan olsa bura haradı, desin, bura Kərbəladı.

Şəbeh başdanır. Biri gəlir bu kişidən soruşur ki, sən Allah de görüm, bura haradı?

Kişi deyir:

– Əyə, Allaha niyə and verirsən, bura Rzaqulunun armudunun dibidi.

### DÜNYADA ƏN HÖRMƏTLİ YER

Qədimalı addı məzəli kişinin papağı başınnan yerə düşür. Papağı çomaxnan vurmağa başdıyır. Deyillər:

– Qədimalı əmi, papağı niyə elə eliyirsən?

Deyir:

– Dünyada ən hörmətdi yer mənim başımdı, bu papax da orada durmax istəmir. Bəs mən bını hara qoyum ki, orda dursun?

### DUZSUZ HALVA

Bir qız təzə gəlin köçübmüş. Bir gün halva bişirməh istiyirmiş. Bilmiyip ki, halvıya duz atallar, ya yox. Bunnarın evlərinin qabağınan köş gedirmiş. Gəlin həyətə çıxıb baxıb görür ki, köçün qabağıynan bir dəvə gedir. Gəlin deyir:

– Qabaxdakı dəvə necə duzsuz halva, duzsuz qəysəvə kimi yeriyir?

Köç adamlarınnan biri hazırcavab imiş. Deyir ki, bala, halvaya da, qəysəviyə də duz atallar, get hansını bişirirsən-bişir, azacıx da duz at.

### YENƏ KÜSÜLÜ OLAQ

Yeddi bajanax yol gedirmiş. Heş biri bir-birini dindirmirmiş. Bajanaxlardan birinin eşşəyi yühlüymüş. Eşşək yükü aşırdır. Yü-

kü aşan bajanax bilmir nə təhər desin. Deyir:
– Ədə, gə bı eşşəyi yühlüyək, sora genə olax küsülü.

## LOĞMANLA ŞƏYİRDİN ƏHVALATI

Bir loğman varımış. Bilikli bir adammış. O, nəqqədər bilirmişsə, şəyirdi onnan da çox bilirmiş. Bir gün şəyirdin gözdəri ağrıyır. Anasını göndərir loğmanın yanına, dərmana. Anasına tapşırır ki, loğmanın ağzınnan çıxan ilk sözü çalış yadında saxlıyasan. Anası gəlir loğmanın yanına. Deyir, bəs, mənim oğlumun gözdəri ağrıyır, nə dərman buyurursan?

Loğman deyir:

– Əl aman!

Sora da deyir:

İstiot, batabat,
İçinə də qurum qat,
Gözünə bağla yat.

Anası gəlir bu sözdəri oğluna çatdırır. Oğlu deyir:

– Ay ana, mən bu dərmanı eləsəm, gözüm kor olar. Sən mana de görüm loğmanın ilk sözü nə oldu? Anası cavab verir ki, bəs "əlaman". Oğlu deyir:

– Hə, ana, loğmanın ilk sözü xəstənin əsl dərmanı olar. Sən gəl mənim əllərimi dalda bağla, mən gözdərimə əl vurmuyum, sağalejem. Anası elə də eliyir. Oğlan sağalır.

## HAMISINI KEÇDİM UŞAQLARINA

Bir kişi olur, mən onu görmüşdüm. Bir vaxt ajdıx olur. Bının bir gəbəsi var idi. Götürür ki, aparsın satsın. Gedir, sata bilmir. Dostu varımış, gedir bı dostunun evinə.

–Salam məleykim.

–Ələkə salam. Xoş gəlmisən.

Oturullar. Azdan-çoxdan yeyib içillər.

Deyir:

–A kişi, hardan gəlmisən, hara gedirsən?

Deyir:

– Ehtiyaş vadar eliyip. Bir gəbəm var idi, gətirdim onu satma-

ğa, müştəri olmadı. Döndüm gəldim sizə.

Dostu deyir:

– O gəbəni gəti baxım görüm nətəər şeydi.

Bı açır baxır. Görür ki, pis dəyil, yaxşı gəbədi elə.

Arvad kişiyə deyir:

– A kişi, gəl elə bı gəbəni biz götürəh.

Kişi dostuna deyir:

– Tanımadığım adama verincə elə saa verərəm, dostumsan neynəh.

Qiymətləşdilər, bını bir qədər düyüyə. Bı dostunun oğlu deyir ki, bının bir beləsin keş maa. O biri uşax deyir, bir beləsin keş maa. Kişi deyir:

– Neynəh, bala, keşdim. Beləlihlə, qalır, yatıllar. Uşaxlara keşidiyindən bına səhər bir az da yaxşı qulax asıllar. Bı yeyir-içir, durur, gəbəni qatdıyır, atır çiyninə, düşür yola.

Arvat deyir:

– Gəbəni qiymətdəmişdih. Bə hara apardın?

Deyir:

– Qiymətdəşmişdih, vallah, elə hamısın keşdim uşaxlarına, gəbə qaldı maa.

## MƏN KİMƏ OXŞAYIRAM?

Bir ər-arvad üzdü qonağa söz qandırmax istiyir. Ər arvaddan soruşur:

– Arvad, mən kimə oxşuyuram?

Arvad deyir:

– Qonağı getmiş bəyə.

Qonax dillənmir. Arvad ərinnən soruşur:

– Kişi, mən kimə oxşuyuram?

Kişi deyir:

– Qonağı getmiş xanıma.

Qonax dillənir:

– Bə mən kimə oxşuyuram?

Ev yiyəsi güllə kimi açılır:

– Mənim dədəmin goruna filan-filan eliyənə.

## QONAQ BİR İL BURDADI

Bir evə qonax gəlir. Bir gün, iki gün, üç gün-qonax getməh bilmir. Ev yiyəsi pişiyi alır qucağına deyir:

Pişiyim, pişiyim evinə,
Siçan tuta sevinə.
Qonax bu gün burdadı,
Sabah gedər evinə.

Qonax deyir:

Pişiyim, pişiyim yel əsər,
Çölə çıxma, yel əsər.
Qonax bu il burdadı,
Gələn il də sərasər.

## DƏRVİŞ NARAZI QALMAZ

Bir dərviş  bir evin qapısını kəsir, deyir:

– Allah qonağı istəmirsiz?

Kişi ağzını açmamış arvad deyir:

– Allaha da qurban olum, qonağına da. Keç içəri, ağa dərviş.

Ağa dərviş içəri keçir.

Arvad deyir:

– Kişi, qazı kəsəh, ağa dərviş yesin. Kişi kirimişcə qazı kəsir.

Axşam arvad deyir:

– Kişi, istidi, dərvişin yerini eşihdə salax.

Yatıllar. Gejə arvat subaşına çıxmax adıynan özünü dərvişin yanına verir, kişi yenə dinmir.

Səhər dərviş gedənnən sora arvad deyir:

– Kişi, görən dərviş bizdən narazı getmədi ki?

Kişi axır ki, dillənir:

Dərviş yedi qazı,
.......... Gülnazı,
Keçdi Arazı.
Ta niyə narazı?!

## TƏNBƏKİ SATAN

Yay vaxtı bir tənbəki satan bir evdə qonax olur. Qonağın yerini içəridə salıllar. Gejə tənbəki satan ev sahibinə deyir ki, istidən yata bilmirəm, gəl yerimizi dəyişəh. Onnar yerlərini dəyişillər. Arvadın xəbəri olmur, gəlib tənbəki satanın yanına girir. İşi başa düşüb öz yerinə qayıdır.

Bir az keçir, tənbəki satan ev sahibinə deyir ki, qardaş, bura da soyuxdu, gəl yerimizi dəyişək.

Onnar yerrərini dəyişillər. Arvadın xəbəri olmur, gəlib yenə tənbəki satanın yanına girir. Deyir:

– Sən kimsən?

Deyir:

– Tənbəki satanam.

Deyir:

– Eşiyə çıxıram – tənbəki satan, içəri girirəm-tənbəkistan. Bəs, bu köpəyoğlu ev sahibi hardadı?

## QARĞIŞ KEÇƏLƏ KAR ELƏMƏZ

Bir ölkənin padşahı ölür. Camaat yığılıb quş uçurdur ki, özünə təzə padşah seçsin. Quş gəlib bir keçəlin başına qonur.

Keçəl taxta çıxan kimi əmr eliyir ki, evbaşına bir yumurta yığılsın. Yığılır. Sora da əmr eliyir ki, hər kəs gəlsin öz yumurtasını götürüb aparsın. Hərə gəlib bir yumurta götürüb gedir.

Aradan üç gün keçir, padşah adambaşına üç qızıl yığır, on gün keçir, padşah on qızıl yığır, iyirmi gün keçir, iyirmi qızıl yığır. Camaat görür yox, balam, bu yumurta məsələsinə oxşamadı, padşah qızılları qaytarmır. Başdıyıllar qarğış eləməyə ki, Allah bu padşahı da öldürsün, canımızı qurtarsın. Ha qarğış eliyillər, padşah ölmək bilmir. Gedillər padşahın yanına, deyillər:

– Padşah sağ olsun, biz hansı padşaha qarğış eləmişik ölüb. Sənə qarğış eliyirik gücün birə beş artır. Bu nə sirdi belə?

Keçəl qımışır, deyir:

– Bının sirri yumurtadadı. Sən onun yumurtasını apardın, o, sənin yumurtanı apardı, ölkədə hamı oldu haramyeyən. Haramyeyənin qarğışı məni necə tutsun?

## KOR TUTDUĞUNU BURAXMAZ

Bir gün bir nəfər görür ki, bir kor əlində ilan tutup. Bına deyir ki, tez əlindəkini at yerə, əlindəki ilandı. Kor deyir ki, yalan deyirsən, əlimdəki qamçıdı. Məni aldadırsan ki, qamçını atam, özün götürəsən.

O vaxtdan deyillər ki, kor tutduğun buraxmaz.

## SƏNİN VURUŞUN KOR VURUŞU DEYİL

Bir nəfər bir koru yoxlamax üçün yaxınnaşıp ona toxunur. Kor deyir:

– Ə, qardaş, bir az aralıdan get də.

Bı adam deyir:

– Mən də koram, al bı beşdiyi xırdala.

Kor beşdiyi alıp qoyur cibinə, aralanır. Gözü sağ olan adam görür ki, bı pulu cibinə qoyub getdi. Bına bir daş atır. Daş korun qıçına dəyir. Bir dənə də daş atır. Bı daş da korun belinə dəyir.

Kor deyir:

– Qardaş, sənin bı vırışın kor vırışı dəyil. Gəl puluu apar.

## YETİMƏ CAN-CAN DEYƏN ÇOX OLAR, ÇÖRƏK VERƏN AZ

Bir adam çörək alıb gedir. Bı görür ki, yolun qırağında bir adam acınnan ağlıyır. Bı adam oturur bının yanında. Başdıyır ağlamağa. Üçüncü bir adam bınnara yaxınnaşıb ağlamaxlarının səbəbini soruşur. Bı deyir:

– Bı adam acınnan ağlıyır. Mən də onun dərdinə yanıb ağlayıram.

Bı deyir:

– O çörəhdən kəs ver yesin, nə o ağlasın, nə də sən.

Bı deyir:

– Can dəyil ki, qurban eliyəm. Axı çörəyə pul vermişəm.

O vaxtdan deyillər: Yetimə can-can deyən çox olar, çörəh verən az.

## TÜLKÜNÜNKÜ ALLAHA QALDI

Bir kişi çiynində tüfəng, belində səttərxanı kəmər, əlində bel, yanında da tazı, yolnan gedirdi. Bir nəfər bına rast gəldi. Dedi:

– Qardaş, nəçisən?
Dedi:
– Ovçuyam, ova gedirəm.
Dedi:
– Nə ovlamağa gedirsən?
Dedi:
– Bırda bir tülkü var, gedirəm onu vuram.
Dedi:
– Tülkünü tüfəngnən vurassan, tüfəng götürmüsən. Tülkünü tazıynan tutassan, tazı götürmüsən. Bəs, bu bel nədi belə özünnən aparırsan?
Dedi:
– Tülkünü tüfəngnən vura bilməsəm, tazıynan tuta bilməsəm, qaçıb girəcək deşiyə. Gedib bellə deşiyi qazacam.
Dedi:
– Evin yıxılsın tülkü, səninki bir Allaha qaldı.

## XOŞUNA GƏLİRSƏ, BİR DƏ SALLIYIM

Bartaz kəndində Rəfi adında bir kişi olur. Bı ölür. Qonum-qonşu yığılır. El qaydasında bını aparıllar ki, dəfn eyləyillər. Bı kətdə də Miri adında bir kişi var. Rəfini bı sallıyır. Bı ölən kişinin Hüseyn adında bir oğlu var. Bı durur tabıtın qırağında tamaşa eyliyir. Dədəsini qəbirə salliyanda ip qırılır. Ölü tappıltıynan düşür qəbirin içinə. Rəfinin oğlu gülür. Miri deyir:
– Bala, xoşuna gəlirsə, çəkim bir də sallıyım.

## PİRƏ QURBAN DEMİŞƏM

Beynəli kəndində Ocaxqulu adında bir kişi varmış. Bı kişi gəlir bı kəndə, bir dostu varımış, onun əvinə. Girələnir ki, korrux eləsin mümkün olmur. Görür ki, bir qoca arvad, Xeyri adında bir arvatdı. Arxasınca da keçi aparır. Göz qoyur ki, keçini oğurrasın. Görür arvad keçini apardı bağa. Bağda yarpaqdan-zaddan verdi keçinin ağzına. Gözdədi. Arvat yuxuladı. Yuxuluyan kimi Ocaxqulu yarpax götürüb, tutur keçiyə, keçi gəlir yarpağı yesin, keçini tutur. Keçini götürür Körpəlilərdən aşır o yuza. Gedir öz kətdəri-

nə, indi o yannan bəri bir arvat gəlir.
Deyir:
– Ocaxqulu əmi, hardan gəlirsən, hara gedirsən?
Deyir:
– Mən pirə qurban demişəm. Gəldim bı kəntdən bir heyvan aldım pirə kəsmağa.
Deyir:
– Allah qəbul eləsin.

**MƏN OĞURLAMIŞAM**

Ocaxqulu yenə bir kişinin qoyununu oğurruyur. Ancax bı Ocaqqulu yalannan bir adama "sən öl" deməzdi.
Kişi gəlir deyir:
– Mənim qoyunumu sən oğurramısan?
Deyir:
– Mən oğurramamışam.
Deyir:
– Gedəh pirə.
Deyir
–Gedəh.
Bınnar səhər durullar. Gedillər pirə.
Ocaxqulu gedir pirə, deyir:
– A kişi, bı pir haqqı, bı pir haqqı mən oğurramışam.

**DOLANDIRIB GƏTİRDİN?**

Ocaxqulunun Cəfərqulu adında bir qonşusu var. Hərdən boş vaxdarında bınnar söhbət eliyirmişdər. Bir gün evdən soruşur ki, Cəfərqulu kişi hardadı?
Deyirlər:
– Cəfərqulu kişi gedib pirə. Ocaxqulu kişi qayıdır gedir. Üşdörd günnən sora Cəfərqulu kişini axtarıb tapır. Deyir:
– Cəfərqulu kişi, israğa gün gəldim səni soruşdum, hara getmişdin?
Deyir:
– Getmişdim pirə.
Deyir:

– Nəyə getmişdin?
Deyir:
– Qurbannığım vardı. Apardım onu dolandırdım pirə ki, aparım kəsim.
Deyir:
– Apardın, dolandırdın gətdin?

### HƏLƏ QARDAŞIMI GÖRƏSİNİZ...

Deyir:
– Kərim, hardan gəlirsən?
Deyir:
– Çini-Məçannan.
Deyir:
– Yaraşır pər-pəçannan.
Deyir:
– Bir çoban gəlirmiş, törə, gödəh bir addammış. Bir az da çirkinmiş. Görür qız-gəlin gəlir. İndi törə də olsan, çirkin də olsan, qız-gəlindi da, gərəh bir başını qaldırıb baxasan daa. Bir bax gör, gözəldilər, çirkindilər, necədilər. Bı çoban heş bınnara baxmır. Qız -gəlin də bir-birinə baxır. Biri bu çobana boğma verir belə, "ala". Qız-gəlin gülüşür. Çoban üzün döndərir bınnara sarı deyir ki, nəə gülürsünüz?
Qız deyir:
– Qardaş, deyirəm hayıf sənin kimi gözəl oğlana ki, boyun bir qəriş gödəhdi.
Deyir:
– Eee, hələ qardaşım Mehdini görəsınız.

### SƏNİN AĞLIN OLSAYDI...

Molla Nəsrəddin bazardan iki qarpız alır. Xurcunun bir gözünə qarpızdarı qoyur,o biri gözünə daş salıb,eşşəyin üstünə aşırır. Bir kişi deyir:
– Ay Molla, daşı neynirsən? Xurcunun hər gözünə bir qarpız qoysana.
Söz Mollanın ağlına batır. Daşı götürüb atır yerə, deyir:

– A kişi, sən kimsən?
Kişi deyir:
– Kim olacam? Kasıb bir adam.
Molla Nəsrəddin təzədən daşı götürüb xurcuna qoyur, deyir:
– Sənin ağlın olsaydı, kasıb olmazdın.

## OYNASAN DA, BURCUTMA

Lotular Molla Nəsrəddinin evinə girillər. Mollanın əl-ayağını bağlıyıb, yıxıllar evin bir küncünə. Əl çalıllar, Mollanın arvadına deyillər:
– Oyna!
Mollanın arvadı oynamağa başdıyır. Lotular bir az məzələnib gedirlər.
Sabahısı gün Molla qazının yanına gedir:
– Qazı ağa, arvadı boşuyıram.
– Niyə?
– Lotuların qabağında oynuyub.
Qazı deyir:
– Gərəh gedib arvadını gətirəsən, onun özünnən də soruşam, görəm iş necə olub.
Molla gedib arvadı qazının yanına gətirir. Qazı arvaddan əhvalatı soruşur. Arvad deyir:
– Qazı ağa, mən oynadım ki, lotular ərimi öldürməsin.
Qazı üzünü Molla Nəsrəddinə tutur:
– A kişi, arvadın günahı yoxdu. Yazıx sənin dərdinnən oynuyub.
Molla deyir:
– Qazı ağa, mənim dərdimnən oynuyurdusa, bəs burcutmağı nəydi?

## GÖZÜMÜ NİYƏ ÇIXARDIRSAN?

Bir gün bir çoban namaz örgənmək istiyir. Bı gəlir deyir ki, namazı necə qılallar? Bına deyillər ki, elə denən, ağ qoyun, qara qoyun, başımı yerə qoyum.
Bə gəlib bı sözdəri deyib aşağı əyiləndə bının gözünə saman batır.
Deyir:

– Kərəməə qurban olum. Qılma deyirsən qılmanam, gözümü niyə çıxardırsan?

## ÇOBANIN DUASI

Bir alim hədis eliyirmiş. Hamı dolurmuş bının başına. Çoban da bını görüp gedir alimin yanına ki, görsün, nə deyir.

Alim deyir:

– Kim əyər filan ayəni oxuyub dəryıya desə, dərya ona yol verər.

Çobana da elə bu lazımmiş. Elə ha həsrət çəkirmiş ki, mən nə təhər eliyim, qoyunumu orada otarım?

Çoban deyir:

– Alim ağa, o bəndi maa örgət, sa bir-iki heyvan verim.

Deyir:

– Yaxşı.

Alim bının sözdərin örgədir.

Çoban işıxlananda qoyunnarın sürür düz Arazın qırağına. Qara daşı sudan götürür, oxuyur atır. Su yol verir, qoyunu addadır İrana.

İranın xanına xəbər gedir ki, əvin yıxılsın bir ağır sürü gəlib dayanıb bırda. Bilmirik hayannan gəlib. Xan adam göndərir ki, a kişi, sənin paraxodun yox, samalyotun yox, sən hardan gəlib çıxıbsan bıra?

Çoban deyir:

– Hal-əhvalat belədi. Bir dua var, oxuyub atıram Araza. Araz maa yol verir.

Deyir:

– A kişi, dəlisən, nəsən?

Deyir:

– Hə, bizim yerdə bir alim var. O, mənə örgədir.

Axşam gələndə yenə duvanı oxuyup atır çaya. Çay bına yol verir, çıxır gəlir.

Deyir:

– İndi ki, belədi o alimi də gətir. O, bizə öyrətsin, nə istəsə verərik.

Gəlir alimə qəziyyəni deyir.

Deyir:

– Yaxşı, gedəh .

Bınnar gəlillər Arazın qırağına.

Deyir:

– Yol al gedəh.

Alim duvanı oxuyur, atır. Araz yol vermir. Alim qayıdanda çoban tutur qolunnan ki, hara qaçırsan? Bı nə sirdi ki, sən örgətmisən, mən atıram yol verir. Ancax saa yol vermir?

Alim deyir:

– Kişisən, bu sirri bir sən bildin, bir mən, bir də Allah, bir yerdə demə.

Çoban duvanı oxuyur atır. Araz yol verir.

Alim deyir:

– Çoban, bilirsən nə var? Sən ki ona o qədər səmimi qəlbinən yanaşmısan, sənin imanın var. Mənim imanım yoxdu, onunçun maa yol vermir.

**DOQQUZDAN SONRA HARAMDI**

Bir gün molla deyir:

– Ay camaat, işki  işməyin, haramdı.

Deyillər:

– Molla, işki içəndə nə olar?

Deyir:

– İşki içəndə adamın başı gicəllənir. Ağlı olmur, hər sözü danışır.

Bı lotu-potular deyir, sən ölmüyəsən, bı içəndi ki, belə deyir. Yoxsa nə bilir ki, adamın başı gicəllənir, ağlı olmur.

Gəlillər, güdüllər. Bir gün görüllər ki, ağa çaxır çəlləyini qoydu qabağa. Vırır. Sayıllar ki, neçə istakan işdi. Birdən elə girillər içəri ki, hə, molla, sən deyirdin ki, bə haramdı, bə niyə içirsən?

Deyir:

– Mən işməmişəm.

Deyillər:

– Ə kişi, necə yanı işməmişəm? Sayırdıx.

Deyir:

– Neçəsini işdim?

Deyillər:

– Doqquzunu.

Deyir:

– Doqquzacan halaldı, doqquzdan sora haramdı.

## İKİ ÜRƏK DƏ BİR DEYİL

Sahibi-əzzaman bir əlini dənizdən çölə çıxardır. Camaat bilmir neyləsin ki, əl çəkilsin. Bəhlul Danəndə deyir:

– Mən onun sirrini bilirəm.

Gedillər dənizin qırağına. Bəhlul Danəndə iki barmağın qaldırır göyə-əl çəkilir. Bəhlul Danəndədən soruşullar ki, əl niyə çəkildi?

Bəhlul Danəndə deyir:

– Sahib-əzzaman beş barmağın dənizdən çıxarıb deyir ki, beş ürək birdirsə gəlim. Mən də iki barmağımı qaldırdım, dedim, heç iki ürək bir deyil, gəlmə.

## QOYUNU QOYUN AYAĞINDAN ASARLAR, KEÇİNİN KEÇİ

Bəhlul Danəndə Bağdad xəlifəsinin kiçik qardaşı imiş. Bəhlul Danəndənin qarğı atı varıymış. Bəhlul bütün dünyanı bı qarğı atnan gəzərmiş, gələrmiş, ağlayarmış, dürrü sözdər deyərmiş. Günnərin bir günü xəlifə Bəhlulun yoldaşdarın yığıp deyir:

– Kim Bəhlulu güldürsə, özü ağırrıxda qızıl verəjem.

Nə qədər eliyillər Bəhlul gülmür ki, gülmür. Bir gün Bəhlul qəssabxananın qapısınnan keçəndə gülür. Xəlifəyə muştuluğ gedir ki, bəs belə, Bəhlul güldü. Xəlifə qardaşını yanına çağırır, deyir:

– Nə yaxşı güldün?

Bəhlul danəndə deyir:

– Soruşmasan yaxşıdı. Mən elə bilirdim sənin günahını mən də çəkirəm. Amma qəssabın qapısınnan keçəndə gördüm, qoyunu qoyun ayağınnan asıb, keçini keçi ayağınnan. İndi bildim ki, hər küşdənin günahı öz boynundadır.

## ALTINI ÜSTÜNƏ ÇEVİRƏCƏK

Molla Nəsrəddin oğlunu evləndirir. Gəlini gətirməmişdən qabax evin döşəməsini çəkib tavana vurur, tavanı söküb döşəməyə vurur. Deyillər:

– Ay molla, dəli olmusan, elə niyə eliyirsən?

Molla deyir:

– Onsuz da gəlin gəlip evin altını üstünə çevirəcək.

## PAY YIĞAN DƏRVİŞ

Kəndə iki pay yığan dərviş gəlir. Nərman kişi xəstəymiş, yerdə yatırmış. Evdə də heş kəs yoxuymuş. Dərvişin biri həyətdə durur, biri girir içəri. Çöldəki dərviş oxuyur:

Sapılcanın sapı sınıx,
Sarıyıflar qəyişnən,
Ya Mürtəza!

Nərman kişi elə bilir ki, dərviş qəsidə deyir pay almaxdan ötəri. Ancax içəridəki dərviş oxuyanda duyux düşür. İçəridəki dərviş oxuya-oxuya deyir:

Sapdan çıxart sal torbuya,
Dəyişərih lahışnan,
Ya Mustafa!

Nərman kişi başa düşür kü, çöldəki dərvişin adı Mustafadı, içəridəkinin də adı Mürtəza, nəsə kələhləri var. Tez yataxdan duruf çıxır bayıra, görür ki, sapılca yoxdu. Sapı əlinə alıf düşür dərvişdərin üstünə. Vır kı, vırasan. Dərvişdər bir təhər aradan çıxıllar.

## TAYDA DƏRZ VAR DÖYMƏLİ

Bir cavan erməni qızı gəlin gəlmişimiş. Keşiş bına imkan vermirmiş. Elə harda görürmüş, deyirmiş:

– Gəlin, ağa gəlməli?

Bı arvad da bını ərinə deyir.

Əri deyir ki, bir də desə deyərsən, gəlsin xırmana, orda mən mərəyin içində gizdənəciyəm.

Keşiş bı arvadı bılağın başında görüb deyir:

– Gəlin, ağa gəlməli?

Gəlin bına göz eyliyir. Keşiş deyir:

– Qurban, de görüm, nə deyirsən?

Arvad deyir:

– Habelə kişi səhər gedəcəh ayrı yerə. Mən xırmanda təhcəyəm. Deyərsən, mən gedəciyəm gəlinə köməy eləməyə. Gələrsən, kefiı sazdıyarsan.

Deyir:

– Yaxşı.

Səhər açılır. Kişi qaçır girir mərəyin içinə. Keşiş görür, gəlin təkdi. Gedir o yana.

Soruşullar ki, a keşiş ağa, hayana gedirsən?

– Hımm, əyə görmürsüz? Gəlin orda təkdi, gedirəm ona kömək eliyəm.

Deyillər:

– Hə, get.

Günorta yeməyə çıxanda oğlan mərəhdən çıxır. Bı keşişi tutur, döyür. Qayıdır öküzdərin birin bıraxır. Boyunduruğun birin qoyur keşişin boynuna. Bı valı bütöv döydürür bı keşişə. Bıraxır, bı keşiş gedir evlərinə.

Gəlin təzədən yenə gedir suya. Keşiş də bırdadı axı. Görür keşiş dinmir. Ölüb. Deyir:

– Keşiş ağa, gəlməli?

– Hımm, məssəbin belə olsun, tayda dərz var döyməli.

## HƏMİN DOLMASAN

Deyir, bir aj, Allah haqqı tanıyanı heç ac eləməsin, aj gedir, bir evə qonax olur. Yarpax balacaymış, dolma pişirirmişdər. Bı ajdı da, tez isti-isti qoyur ağzına, ağzı yanır. Ta birtəhər ötüşür. Aradan bir xeyli müddət keçir. Vaxt olur ki, yarpax böyüyür. Böyüyəndə yenə dolma bişirillər. Gətirillər qoyullar bı qonağın qabağına ki, ye.

Qonax sifətdən mövün yarpağın silkələyip görür ki, o vaxt bının ağzını yandırannarın hamısı bırdadı. Elə bircə mövün üstən qoyublar.

Deyir:

– Kopoolun dolması, sən haman dolmasan, ağzımı yandırmısan. Üzüü çulluyuplar ki, səni tanımıyım?

## O DA SƏNSƏN, YOLURAM

Şah Abbas vəzirinən gedirdi. Bir qoca kişi çəliyə söykənə-söykənə gəlirdi. Gördü, şah gəlir. Əyləndi.

Şaha salam verdi, salam aldı.

Şah dedi:

– Qoca neyliyibsən?

Dedi:

– İkini üç eləmişəm.
Dedi:
– Ta nə?
Dedi:
– Uzağı yaxın eləmişəm.
Dedi:
– Dəyirmanın necədi?
Dedi:
– İşləhdən salmışam.
Dedi:
– Niyə vaxtında qazanmadın?
Dedi:
– Qazandım, ellər apardı.
Dedi:
– Qaznan aran necədi? Göndərsəm, yolarsan?
Dedi:
– Ax necəə?
Bir az aralandı. Vəzir dedi:
– Şah sağ olsun, sən ona nə dedin, o, nə dedi?
Dedi:
– Vəzir, and olsun Allaha sözdərin mənasın tapmasan, başın fərmandadı.
Dedi:
– Amanın bir günüdü.
Dedi:
– Get qocuya ənam ver, onnan xəbər al.
Gəldi qocanın yanına dedi:
– Qoca, şahnan nə danışdın?
Dedi:
– Danışdım da.
Dedi:
– Yox, maa da de.
Dedi:
– Pulumu ver.
Dedi:
– Vallahı verəciyəm.

Mənnən xəbər aldı ki, nə eliyirsən? Dedim, iki qıçnan yeriyirdim, indi üç eləmişəm. Çəliyə də söykənirəm da, üç qıç olmuşam.

Dedim:

– Uzağı yaxın eləmişəm, yanı uzağı görürdüm, indi yaxını görürəm.

Dedi:

– Bəs o biri nədi?

Dedi:

– Şah maa dedi, dəyirmanın necədi? Dedim işləhdən salmışam. Yanı dişdərim yoxdu. Dedi ki, şah dedi, niyə vaxtında qazanmadın? Yəni, niyə övladın yoxdu? Mən də dedim: Qazanmışdım, ellər apardı. Yəni qızım oldu, hərə birin götdü getdi.

Dedi:

– Bəs o qaz nədi?

Dedi:

– O da sənsən da. Padşah göndərip, yoluram.

## DÜNYA NECƏDİR?

Bir gün Şah Abbas cənnət məkan vəzir Allahverdi xannan çıxır ölkəni gəzməyə. Bir nəfərə rast gəlillər, soruşullar ki, dünya necədi? O adam cavab verir ki, qurd qoyunnan ottuyur.

Vəzir Allahverdi xan deyir:

– Bu sözdəri deyən adam düz adamdı.

Bir başqasınnan soruşullar ki, dünya necədi? Həmin adam cavab verir ki, vırdımşahlıxdı.

Vəzir Allahverdi xan deyir:

– Bu sözdəri deyən oğru adamdı. Doğru elə bilir hamı doğrudu, oğru elə bilir hamı oğrudu.

## AYAĞI SUDADIR

Çəltih belə bir bitkidir ki, kökünnən yox, başınnan içdiyi suyla-yağış suyuyla əmələ gəlir. Bir gün Şah Abbasla Kəlniyyət çəltih zəmisinin qırağınnan gedirmişdər. Kəlniyyət deyir:

–Hayıf bu çəltiyə ki, bunun suyu yoxdu, yağış yağmır.

Şah Abbas deyir:

– Ə, Kəlniyyət, gejəbəgündüz çəltiyin ayağı suyun içindədi, sən də deyirsən ki, yağış yağmır, hayıf bu çəltiyə.

Kəlniyyət dinmir. Gedillər. Çaydan keçəndə Şah Abbas yüyəni buraxır, at çaydan su içir. Amma Kəlniyyət atın yüyənin buraxmır ki, at çaydan su içə bilsin. Şah Abbas bunu görüp deyir:

– Kəlniyyət, yüyəni burax at su içsin daa.

Kəlniyyət deyir:

– Ayaxları sudadı da.

## ƏN YEMƏLİ ŞEY

Bir gün Şah Abbas Kəlniyyətnən səfərə çıxır. Bir yerdən keçəndə Şah Abbas Kəlniyyətdən soruşur:

– Bu yerdə ən yeməli şey nədi?

Kəlniyyət deyir:

– Yumurta.

Üç il yol gedillər, gəzib-dolanıb səfərdən qayıdıllar. Həmən yerdən keçəndə Şah Abbas soruşur:

– Nəynən?

Kəlniyyət deyir:

– Duznan.

## TÜSTÜYƏ QIZINDIM

Bir gün Şah Abbasın vəziriynən Kəlniyyətin sözü çəp gəlir. Şah Abbasın Kəlniyyətə acığı tutur. Əmr eliyir ki, gejə onu soyunduruf qoysunnar çöldə. Qış vaxtıymış. Kəlniyyət də qollubiləhli bir sərkərdəymiş. Gejə Kəlniyyəti soyunduruf qoyullar çölün düzündə. Kəlniyyətin soyuxdan az qalır canı çıxsın. Baxır, özgə əlacı yoxdu, başdıyır böyüh bir qəya varmış, onnan höllәşməyə. Səhərətən höllәşir. Səhər gəlif görüllər ki, Kəlniyyət sağ-salamatdı, özü də qan-tərin içindədi. Şah Abbasa xəbər eyləyillər. Şah bu işə mat qalır, deyir ki, gətirin yanıma. Şah Abbas Kəlniyyətdən soruşur ki, bə, nətər oldu donmadın?

Deyir:

– Şah Abbas sağ olsun, gəldim çıxdım sizin damın üstünə, bajadan çıxan tüstüynən qızındım, ona görə donmadım, hələ tərrə-

mişəm də. Yaman isti olur.

Şah Abbas inanmır, yoxlamaxdan ötrü gejə vəziri çıxardır damın üstünə. Səhər baxıf görüllər ki, vəzir donuf.

## CAN, YARIMCAN, ZƏHRİMAR

### I variant

Bir gün Şah Abbas taxta oturufmuş. Kəlniyyət girir içəri. Şah Abbasın yanında başqa ölkədən qonax da varmış. Şah soruşur:

– Kəlim, nəynən?

Kəlniyyət cavab verir ki, şahım, cannan.

– Kəlim, ta nəynən?

– Şahım, yarımcannan, o da duznan.

– Kəlim, ta nəynən?

– Şahım, zəhrimarnan.

Bunu deyib Kəlniyyət çıxır. Qonax bınnan bir şey annamır. Bir azdan süfrə açılır. Qonax özünü saxlıyammır, bayaxkı söhbətin məmmədqulusunu soruşur. Şah gülüb deyir ki, bıdı da, süfrədədi. Can-ətdi, yarımcan-yumurtadı, zəhrimar da qatıxdı.

### II variant

Şah Abbas bir gün Kəlniyyəti yanına çağırır, deyir:

Get mana can al gəti,
Can olmasa, yarımcan al gəti,
Yarımcan olmasa, zəhrimar al gəti.

Kəlniyyət "baş üstə" deyib çıxır, bir azdan qayıdıf gəlir, deyir ki, şahım hazırdı.

Qonax da varımış, bı söhbətdən baş aşmır, soruşur ki, bı nə deməhdi? Şah Abbas qonağı aşbazxanıya aparır, aşbazın doğradığı əti, səbətdəki yumurtanı, bir də bir torba süzmə qatığı qonağa göstərir, deyir:

– Mən bınnarı tapşırmışdım almağa.

## ONU SƏN DEYİRSƏN

Bir padşah varımış, bının bir qızılquşu varımış. Padşah bu quşu çox sevirmiş.

Bir gün bütün məxluqa elan eliyir ki, kim bu quşu aparıb saxlasa, mən nə qədər ki, yaşıyıram, maa öldü sözünü deməsə, onu dünya malınnan qəni eliyərəm.

Heş kim yaxına getmir. Fikirrəşillər ki, ölsə mən nə cavab verərəm.

Bir keçəl varmış. Bı keçəl deyir:

– Sən ölmüyəsən, mən bı quşu alacıyam, demir öldü demə, demiyəciyəm.

Bı padşahnan daqovorraşır. Padşah bının haqqın kəsir. Bir gün quş ölür. Durur yavaş-yavaş, başını bılıya-bılıya gəlir padşahın yanına.

Deyir:

– Keçəl, quş necədi?

Deyir:

– Yatıb.

Deyir:

– Ə, necə yanı yatıb?

Deyir:

– Vallah, uzanıb.

Deyir:

– Ə, necə uzanıb?

Deyir:

– Ayaxların da uzadıb.

Deyir:

– Ə, dəlisən? Nəsən? Necə yanı ayaxların da uzadıb?

Deyir:

– Gələndə də elə üzün çevirdim qibliya.

Deyir:

– Denən ölüb.

Deyir:

– Onu sən deyirsən, mən demədim.

## QIZIL ÇƏNGƏL-BIÇAQ ƏHVALATI

Bir patşah vardı, əmr elədi ki, bütün millətlərdən sirr bilən adamlar yığılsın. Yığıldı. Günorta yemək surfası açılanda hər adam qızıldan bir pıçax, bir çəngəl qoydular qablara. Yəhudi göz-gözə verdi, bı pıçağın birin götürdü qoydu cibinə. Erməni baxdı ki, bı yəhudi bıçağı sağ cibinə qoydu. Bir az keçdi, yəhudi çəngəli də götdü

qoydu sol cibinə. Erməni də baxır. İndi yeməh gəlir ortuya, yeməh yeyillər. Hərə öz möcüzəsin göstərir. Nobə erməniyə gələndə dedi ki, mənimki, illap möcüzədi, özü də dərhal göstərirəm. Dedilər:

– Nədi?

Dedi:

– Bax o pıçağın birin gətirin qoyun mənim cibimə, çəngəlin birin də gətirin qoyun o biri cibimə. Mən duva oxuyacam, başqasının cibinnən çıxacax.

Dedilər:

– Yaxşı.

Gətidilər pıçağı, çəngəli qoydular ermənininin cibinə. Yalannan dodağının altında pıçı-pıçı elədi.

Dedi:

– Odu eey, qıraxda oturan filan yəhudinin cibindədi.

Getdilər yəhudinin cibinnən piçağı-çəngəli çıxartdılar. Erməninki qaldı cibində. Yəhudi ta yalannan deyəmməzdi ki, mən qabaxdan götürmüşdüm çəngəl-pıçağı.

## BAŞINA BİR DAŞ DÜŞƏR

Bir kasıb kişi evdən çıxıb düşür yola ki, gedib özünə çörək pulu qazansın. Vilayətin padşahına rast gəlir.

– A kişi, hara gedirsən?

– Qazanc dalınca gedirəm.

– Əlinnən nə iş gəlir?

– Nə iş desən gəlir.

– Vəzirrih bacarırsanmı?

–Bacarıram.

Padşah bu kişini özünə vəzir götürür. Bir gün padşah vəzirnən səfərə çıxır. Yolda vəzirin ağlını yoxlamax istiyir. Deyir:

– Vəzir, mən bu yolnan gedirəm, sən o yolnan get, dağın o üzündə görüşərik.

Vəzir padşahdan ayrılır. Padşah görür ki, bir kolun başına salamməlik böcəyi qonub. Əyilib böcəyi tutur. Dağın o üzündə vəzirnən görüşəndə salamməliyi ovcunda gizdədib soruşur:

– Vəzir, tap görüm ovcumdakı nədi?

Vəzir bir göyə baxır, bir yerə baxır. Görür ki, yerdə bir salam-

məlik böcəyi ölüb, qalıb. Fikirrəşir ki, deyəsən bu böcək kimi mənim də axırım çatıb. Deyir:

Bir yol uçar salamməlik,
İki yol uçar salamməlik,
Başına bir daş düşər,
Axırı ....... salamməlik.

Padşah ovcunu açır, görür ki, salamməlik ovcunu bulayıb. Deyir ki, gör mənim vəzirim nə qədər bilici adamdı ki, salamməliyi də, salamməliyin ovcumu bulamağını da tapdı.

## KASIBÇILIQDAN İT QIRXIR

Səməd bəy Zəngilani Cavanşir nəslinnən olub. O, Zəngilanda yaşıyıb. Həm də Zəngilan kəndi yaxınnığında bir kənt var. Orda da bir molla Cavad yaşıyırmış. Hər ikisi şair təbiətdi olub. Möhkəm də zarafatları varmış. Bir gün Molla Cavad Zəngilan kəndinnən keçəndə baxır ki, bağda dəllək Əbdül Səməd bəyin başını qırxır.

Çağırır:

– Dəllək Əbdül, nə yaman kasıblıyıbsan?

Deyir:

– Dövlətinnən kasıb niyə oluram?

Molla Cavad ötüb keçir.

O, ötüb keçənnən sora Səməd bəy dəllək Əbdülün biləyinnən yapışır:

– Vay, köpəyoğlu məni nə yaman vırdı?

Dəllək Əbdül deyir:

– Bəy, o, sənə bir söz demədi, mənə dedi, nə yaman kasıblıyıbsan? Dedi:

– Ayə, eşitməyibsən ki, birisinə deyillər kasıbçılıxdan it qırxır.

## PLOV

Molla Cavad Nuşla kəndinə qonax gedibmiş. Ev yiyəsi plov tədarükünə başdıyıb. Molla Cavad bınnarı görür, bu vaxt bir adam soruşur:

– Molla Cavad, içəri Nuşla yaxşıdı, qırax Nuşla.

Molla Cavad deyir:

– İçəri nuşlalıların plovu yaman yağlı olur.

## BOSTAN QORUQÇUSU

Zəngilanın Baharlı kəndində Kalba Cabbar addı bir bəy olur. Onun yaxşı bostanı varmış. Amma bostana ətraf kənddərin adamları çox korlux verirmişdər. Bostan da çox böyük imiş, bir neçə adam bu bostanı qoruya bilmirmiş. Məmmədcəfər addı bir kişi gəlir ki, bəy, bir erkək ver, bostanını elə qoruyum ki, ordan bir qarpız da aparmasınnar. Bəy deyir ki, iki erkək verməyinin atasına lənət, amma qoru.

Deyir:

– Baş üsdə, bəy, sözləşdih.

O vaxt da söz gəzirmiş ki, İranda bir nəfər ölənnən sora xortduyub. Məmmədcəfər paltarı qurşağa qədər soyunur, başmağın əlinə alıb kəndə tərəf qaçır, deyir:

– Ay camaat, köməyə gəlin.

Deyillər:

– Nə olub?

Deyir:

– O xortduyan adam az qalmışdı məni tuta yeyə.

And içillər ki, bu sözdən sora özündən deyən igidlər belə gecələr çölə çıxmağa ürək eləmirmiş. Bu minvalla bəyin bostanını Məmmədcəfər çox asanlıxnan qoruya bilir. Payız düşən kimi bəydən erkəyini alır.

## MƏN YALAN DEYƏ BİLMƏRƏM

Peyğəmbəri qavırmışdar. Gəlir bı kişiyə ürcah olur. Kişi deyir ki, gəl gir bu çuvala.

Peyğəmbəri qoyur çuvala, atır dalına. Gəlib bına çatıb soruşullar:

– Peyğəmbəri görmədin?

Deyir:

– Bıdı ey çuvalımda.

Camaat inanmır. Çıxıb gedillər.

Deyir:

– Ə, evin yıxılsın, sən neyliyirsən?

Deyir:

– Sənin kimi yüz min peyğəmbər olsun, mən yalan deyəmmərəm.

## XAM GÖNDÜRSƏ HALAL OLU

Deyir, bir gün bir kişi gön oğurruyur. Arvadı bını evə qoymur.

Kişi deyir:

– Bə neyniyəh?

Arvad deyir:

– Get, qazının yanına, baxdır, gör halaldı, ya yox?

Kişi gedir qazının yanına, deyir:

– Qazı ağa, bilirsən nə var?

Deyir:

– Nədi?

Deyir:

– Ha belə, uşaxlar ayaxyalındı. Getdim bir gön oğurradım. İndi arvad qoymur ki, haramdı.

Qazı dedi:

– Yox, yox, yox, şəriətdə həylə şey yoxdu. Yaxına qoyma.

Deyir:

– A qazı, mən gedib o əziyyəti çəkib oğurramışam. Uşaxlarım ayaxyalındı. İndi mən neyliyim? Sən Allah, amandı.

Deyir:

– Yox, yox, yox, tövbə, həylə şey əyyamlarda yoxdu, olmaz, olmaz.

Bı çıxır eşiyə. Fikirrəşir ki, ə, deyim elə, bir zolun da verirəm saa. Bir də girir içəri.

Qazı deyir:

– Niyə qayıtdın?

Deyir:

– Qazı bir zolunu da verirəm saa. O kitabı bir də vərəqlə. Bəlkə bir mümkün yeri var.

Belə deyəndə Qazı deyir:

– Nə?

Deyir:

– Bir zol da verərəm saa.

Deyir:

– Dayan. Yadıma düşdü.

Kitabı vəraklıyır, deyir:

– Bıdı ey, tapdım.

Deyir:
– Qazı, nə tapdın?
Deyir:
Yazır bırda, cahu-cəlal olu,
Xam göndürsə, həlal olu.

**AŞIQ ƏHMƏDLƏ BALABANÇI FİRUDUN**

Əhməd adında bir aşıx oluf, Firudun adında bir balabançı. Bunnar gedillər bir malakeşin yanına. Malakeş deyir:

– Bu gecə bizə yanşıırsanmı?

Deyir ki, niyə yanşımıram? Mənim peşəm elə yanşmaxdı da. Malakeş bıları aparır evə. Bıllar nağıl deyillər. O, ordan "sağ ol" deyir, bı bırdan "sağ ol" deyir. Sora hamı durup gedir evə, bunnar qalır ortalıxda. Dam yiyəsi bir təhər eliyip, bılları aparıp qonax eliyir. Axşam olanda Firudun deyir:

– Aşıx Əhməd, məclisin əvəli hara, axırı hara, gəl bı səfərdən qayıdax, bı səfər bizə uğurru olmadı. Bir şey qazana bilmədih.

Deyir:

– Gəl, gedəh Gilətağa, orda aşığı yaxşı qarşılıyıllar.

Vəiddidən keçəndə bir nəfər çıxır bınnarın qabağına deyir:

– Aşıx, bizə yanşıyarsanmı?

Deyir:

– Niyə yanşamıram?

Burada da bir şey olmadı. Oturannar heç "sağ ol" da demədi. Hərə durdu getdi bir tərəfə. Yenə bınnar qaldı ev yəəsiin öhdəsinə.

Balabançı Firudun dedi:

– Aşıx nahax zəhmət çəkirsən, gəl qayıdax geriyə.

Aşıx Əhməd deyir:

– Gəl Gilətağa da gedəh. Ta burdan Gilətağa nə qalıb?

Getdilər, çıxdılar Gilətağa. Gilətağa da heş pi şey... İstədilər gedələr. Bı vaxt bir kişi gəldi, dedi ki, Aşıx Əhməd, sabah mənim oğlumun toyu var. Toyu aparарsan beş-üş qəpeh qazanarsan.

Firidun dedi:

– Ə, gəl çıxax gedəh. Bınnarın toyunnan da heç adama bir fayda olmaz.

Dedi:

– Ə, ta indi olub ta.
Dedi:
– Yaxşı.
Axşam toyda oxudular. Bınnara yenə heş bi şey vermədilər. Amma bir çoban var idi. Qoyununu doldurub ağıla aşığa qulax asırmış. Firudun gördü ki, çoban bınnara elə hayıl-mayıl olup ki, qoyunnarını aparsalar xəbəri olmaz.
Səhər tezdən yuxudan duran Firudun dedi:
– Aşıx Əhməd, canın üçün, burda çoban var, qoyunu tərk eliyip gəlir sənin nağılına, mən tezdən oyanıram, çıxam qoyam gedəm, axşamacan yada düşmüyəcəhsən, axşam çal oxu başdarın qat. Mən qoyunnan bir az oğurruyum, haqqımızı çıxardım.
Dedi:
– Yaxşı.
Razılaşdılar. Axşam Firudun gəlib ağılın yanında gizdəndi. Axşam soruşdular:
– Aşıx Əhməd, balabançı hanı?
Dedi:
– Ay qardaş, balabançının bir bölük balası, pul verən olmadı, acıx elədi, çıxdı getdi. Ancax mən qıymadım sizin toyuuzu yarımçıx qoyam.
Dedilər:
– Sən neyliyəcəhsən?
Dedi:
-Saznan çalıb oxuyacıyam.
Razılaşdılar. Axşam bir nağıl başdadı. Çox şövqünən daa başdıyır. Millətin bütün nəzərin saldı özünün üstünə ki, heş kim qırax yerə baxmasın. Dövr elədi, getdi ora-bura. Gördü ki, nağıl qutarır. Hələ Firudun ağıldadı. Fikirrəşdi ki, nağılı qutarsam, gedib Firudunu tutub döyüb öldürəcəhlər. Bir də getdi o başa, gəldi bu başa. Gördü, ə, Firudun girib içəri tutur qoyunu gətirir, gedir o birini də gətirsin, qoyun da namərd şeydi, qayıdır girir ağıla.
Deyir:
– Ay camaat, aşıx dediyin, ağzı quzu güzüdü, kərəsi də gəlsə ötürür, kürəsi də gəlsə ötürür. Camaatın nəzərin salır üstünə deyir:

Hancarı çəhdim tabaha,
Yarısı qaldı sabaha,
Dik buynuzu sal qabağa,
Dalsınnan dəy, yerisin.

Firudun erkəyi vırdı. Qoyun düşdü dalına. Aşıx fikirrəşdi ki, neçəsini aparım, az aparım, çox aparım?

Firudun əllə döşünü,
Seç erkəyi, sora dişini,
Hər birimizə qırx beşini,
Dalsınnan dəy, yerisin.

Aşıx gördü ki, Firudun dağı aşdı. Sazı basdı sinəsinə düzəldi yola, gəldi çatdı Firuduna.

## MÜLKİ BƏYİN QONAQLIĞI

Qafan rayonunda Dağ Gilətağ kəndi var. Orda Aşıx Bəbir olub. Eşitdiyim bıdı ki, bir dəfə ona Naxçıvan tərəfdən bir qonax gəlib. Bı qonağın adı Mülki bəyiymiş. Dəəsən, milliyətcə də erməniymiş. Aşıx Bəbir ona hörmət eliyir. Gedənə yaxın qonax deyir ki, kaş sənin də ayağın düşəydi biz tərəfə, əvəzin çıxaydım. Təsadüf elə gətirir ki, bir neçə ildənmi, aydanmı soyra Aşıx Bəbir o tərəflərə gedəsi olur. Soraxlıya-soraxlıya gəlir onun evini tapır. Çağırır:

– Mülkü bəy!

Görür ki, kişi tələsih girdi içəri, arvada dedi ki, denən kişi evdə yoxdu. Gedib başqa yerə.

Aşıx Bəbir bını öz qulaxlarıynan eşidir. Arvad deyir ki, bəs, kişi evdə dəyil, başqa yerə gedib.

Deyir:

– Yaxşı, bacı, onda bir kəlmə söz deyəciyəm, onu ona çatdırarsan.

Bəlkə də çoxdu, ancax mənim yadımda qalan budu. Deyir ki:

Mən aşığam, Mülkü bəy,
Əynində var kürkü bəy.
Bizim evdə aslan olur,
Öz evində tülkü bəy.

## ÜÇ PƏLTƏK QIZ

Bir kişi uley, bunun da üş qızı. Bu qızların homması pəltəh uley. Bullar əv işinnən-zaddan göreylər, dədə-nənəlirinə köməh eleylər. Günnərin bir günündə bu kişinin qopısına bir dəsdə elçi gəley. Nənəlir qızlara tofşırıx verey ki, heş dimmiyin, əvə elçi gəlip. Nənəlir indi buların qurxey ki, qızlar dinip işi kurruyu. Elçilər geçeylər yuxarı başda beşdən-üşdən utureylər ki, məxsətdərin desinnər. Kişiynən ovrat indi boşleylər tədərik göreylər qunaxlara. Bu vədə bir andır pişih gəley hərdən, əcələ-gicələ girey əvə. Sən demə bikgə südderi var buların, issidib quyuplar düzə mayalasınnar. Qızlar da gözlərin bürüyüp uturuplar bir səmtdə. Bu qızlar səssiz utuduğu yerdə andır pişih boşley südü yalamağa. İri qız özün saxlıyammer dey: "Nənə! Nənə! Pişih südü lələlə". Urtançı qız böyüh qıza bir  dürtmə vurey, dey: "Gözü çıxmış, bə nənəm demədi dimmələh". Lap xıcca qız da dey: "Şütürüm əlləh, nə dimmişəm, nə də dimmələh".

Qızların üçü də pəltəh ulmaxların büruza verey. Elçilər göreylər iş nə yerdədi, qeyideylər, gedeylər əli buş.

## BAZARDA HƏR ŞEY OD QİYMƏTİNƏDİR

Şah gedif ceyran ovuna. Çox hərrənirlər, genə bunnarı möhkəm yağış tutur. Tamam isdanırlar, görürlər evlərinə gedə bilmirlər, gedirlər bir komaya. Ocax qalıyır ev yiyəsi. Bunnara bir heyvan da kəsir. Bunnara baxır görür ki, bunnar padcahyana adamdı. Bunnarın paltarların-zadın qurudur. Paltar quruyanda deef ki, sənin bu ojağın yüz qızıla dəyər. Səhər duruf gedəndə deər:

– Kişi, bizdən alacağın nədi?

Deef ki, halal xoşuuz olsun, gedin. Kişini çox sıxma-boğmaya salanda deef ki, elədiyim hörmət bir qızıldı. Amma axşam özün demisən ki, ojağ yüz qızıla dəyər. Çıxardıf yüz bir qızılı verif kişiyə. Ordan qalıf ki, bazarda hər şey od qiymətinədi.

## SƏN YEDİYİN KİMİ

Birinin də heş nəyi yoxuymuş. Duruf bir vedrə tut aparıf. Tut aparanda padşahın arvadı bunu bir-bir iynəyə sancıb qoyur ağzı-

na. Oğlan çölə çıxanda görüf ki, padşahın arvadı əliynən xışmaladı qoydu ağzına. Deef ki, sizdə tutu nətər yeellər? Deef ki, xanım, bayax sən yediyin kimi.

## GİLASI BİR-BİR YEYƏLLƏR

Biri də gedif yolnan. Heş nəyi yoxuymuş. Bircə şahısı varmış. Gilas satan varmış, oturuf yanında, diif ki, bu gilasdan bir az yeyə bilərəmmi?

Diif:

– Bir şahıya xeylax yiyə bilərsən.

Onnan-bunnan, gilasın beşin, altısın götürüf qoyuf ağzına.

Diif:

– A qardaş, onu bir-bir yeyərlər ey.

Diif ki, bu gilas tayını belə yiyəjəm, o biri gilas tayını dənədənə yiyəjəm diyəndə diif:

– A qardaş, al pulu da, Allax xeyrli eləsin, çıx ged ey.

## DOSTUNU İTİRƏCƏYDİN

Sonqulu xan olur, Şuşa xanı. Hər məmləkətdən iki nəfər adam çağırırlar ki, gəlsinnər xan seşsinnər. Xanın papağı ortalıxda olurmuş. Kim cəsarət eliyif papağı başına qoysa, xan o olurmuş. Biz tərəfdən Laçınnan da Heşlə kəndinnən Oruş baba adlı bir kişi gəlmişmiş. Üş günmüş ki, bu əhvalat qurulurmuş. Heş kəs cəsarət eliyif papağı götürüf heş kəsin başına qoya bilmirmiş. Həmən o Laçınnan gələn Oruş baba papağı çalır, götürür, qoyur Sonqulu xanın başına. Sonqulu xanın da qardaşları varmış. Bular xan olmaq isdiirmiş. Deerlər: "Oruş kişi, səni biz öldürəcəyik".

Bir gün Sonqulu xan bir xeyli uzax səfərə gedir. Qardaşları bir dar ağacı qururlar. Oruş kişini dar ağacın divinə gətirif başına keçirəndə Sonqulu xan böyürdən çıxıf. Xan böyürdən çıxanda qardaşlar hamısı qaçır dağılır. Deef ki, Oruş kişi, bir beş dəyqə də çatmasam, axırın itəjeydi. Diif ki, ölüm hamı üçün var. Mən öləcəydim, amma sən dostunu itirəjəydin.

## ŞAH ABBAS VƏ VƏZİRİ

Şah Abbasın qəbuluna hər gün çox şəhərli gəlir, hamısı ticarətdə uduzmağından, başqasının onu aldatmağından, aldadıb başqa ölkələrə qaçmasından və s. şikayətlər edirdilər.

Şah Abbas bunları diqqətlə dinləyir və bunun dəlilik olduğunu qərara alır və vəziri Allahverdi xana tapşırır ki, bu şəhərin dəlilərinin siyahısını tut, bir aydan sonra mənə təqdim elə. Mən baxıram ki, bu şəhərdə dəli çoxdur, bunun üçün bir tədbir görək.

Ay tamam olur, Allahverdi vəzir siyahını gətirib Şah Abbasın qabağına qoyur. Şah siyahıya baxanda əvvəlcə birinci nömrədə öz adının yazıldığını görür: Şah Abbas Məhəmməd Xudabəndə oğlu. Şahı təəccüb götürür, tez vəzirdən soruşur ki, bu birinci ad kimindir, mənimdir?

Allahverdi vəzir cavab verir ki, bəli, sizindir. Şah Abbas vəzirin üzünə baxıb soruşur:

– Mən də dəliyəm?

Vəzir cavab verir ki, bəli!

Şah soruşur ki, bunu nə ilə sübut edə bilərsən?

– Şah sağ olsun, indi ki, nisyə pul verənlər dəlidir, deməli, siz birincisiniz! Ona görə ki, siz qara qula 10 min tümən vermişsiniz ki, gedib Misirdən mal gətirsin. Qara qulun burada evi, mülkü, ailəsi yoxdur ki, qayıdıb gəlsin, o pulları apardı, bir daha bura qayıtmayacaq.

Şah Abbas inamla dedi ki, qayıdacaq. Vəzir də cavab verdi ki, nə vaxt qara qul qayıtsa, o vaxt sizin adınızı pozub, onun adını yazacağam (yəni ki, o gələcəksə dəli odur).

Şah Abbas fikrə getdi və başa düşdü ki, vəzir onun adını yerində yazıb.

## PADŞAHLA VƏZİRİ

Padşahın öz vəzirinə inamı az idi, bir bəhanə ilə onun başını vurdurub ondan qurtarmaq istəyirdi.

Bir gün padşah səyahətə getməli oldu, padşahın qəfəsdə bəslək quzuları vardı. Səyahətə çıxanda vəzirə tapşırdı ki, quzuları elə saxlasın ki, çəkiləri dəyişməsin:

– Quzular arıqlasa da, kökəlsə də, öz başını verəcəksən, öz çəkilərində qalmalıdır.

Şah səfər təbilini vurdurub yola düşdü. Vəziri dərd götürdü, nə edəcəyini bilmirdi, yemini az versə, arıqlayacaq, çox versə, kökələcək, çəkisi düz gəlməyəcək.

Çox adamlara məsləhət etdi, nəhayət, bir ağıllı qoca tapdı. Qoca vəzirə dedi ki, get bir dənə canavar balası tap gətirt, quzulardan kənar bir yerdə bağlat, quzulara da nə qədər istəyirsən yem ver. Quzular nə qədər kökəlsələr də, canavara baxan kimi yediklərini tökəcəklər.

Vəzir deyilən kimi etdi. Padşah bildi ki, vəzir uduzacaqdır, gələn kimi tapşırıq verdi, quzuların çəkilərini yoxladılar, çəki düz gəldi.

## GEDƏNƏ YANMA, DEYİLƏNƏ İNANMA

Bir nəfər quş həvəskarı ağacın dibində tor qurub quş tuturdu. Toruna bir sərçə düşdü, sərçəni tordan çıxarıb başını qırmaq istəyəndə, sərçə dilə gəlib dedi ki, məni öldürməsən sənə üç söz öyrədəcəyəm, nəsihətli sözlərdir, lazımın olacaqdır.

Quş tutan razılaşdı və tələb etdi ki, həmin sözü desin.

Sərçə dedi:

– Deyilənə inanma, gedənə yanma, özündən yuxarıya əl uzatma!

Quş ovçusu bu sözləri öz içində təkrar etdi, huşu getdi, əli boşaldı, sərçə əlindən çıxıb ağacın aşağı budağının birinə qondu.

Sərçə gülüb dedi:

– Boynun sınsın, məni niyə buraxdın, çinədanım dolu idi qızılla!

Bunu eşidən ovçu dik tullandı ki, sərçəni tutsun, yıxıldı və qolqıçı əzildi. Sərçə uçub yuxarı budağa qondu və dedi:

– Heyf sənə verdiyim nəsihətə, mən o nəsihətin sənə necə təsir etdiyini də elə indicə yoxladım. Sənə dedim ki, gedənə yanma, mənim çinədanımda qızıl da olsa, əlindən çıxıb, bir də ki, mənim çinədanımda qızıl nə gəzir? Deyilənə inandın və özündən yuxarıya da tullanıb yıxılıb əzildin. Yuxarı tullanmaqla quşu tutmaq olarmı?

## XANIN ÖZ QIZLARINI YOXLAMASI

Bir kişinin iki qızı vardı. İkinsini də ərə köçürmüşdü. Qızın birini əkinçiyə, o birini dulusçuya vermişdi.

Bir gün arvadı xahiş etdi ki, qızları uzaqdadır, gedib-gələ bilmirlər, əri gedib qızları yoxlasın, arvada da xəbər gətirsin.

Kişi razılaşdı, ertəsi gün qızların evinə getdi. Hal-əhvaldan sonra qızının necə dolandığını soruşdu, birinci dəfə böyük qızın evinə getmişdi. Böyük qızı cavab verdi ki, atacan, il yaxşı gəlsə, yağınlıq yaxşı olsa, çörəyimiz çox olacaq, o qədər taxıl əkmişik ki...

Kişi sonra xırda qızın evinə getdi, vəziyyətini soruşdu, qız cavab verdi ki, atacan, əgər quraqlıq olsa, havalar bərk isti keçsə, bir neçə ilin gəlirini götürəcəyik, o qədər saxsı qab-qacaq qayırmışıq ki, qurudub götürə bilsəkg

Kişi evə qayıtdı. Arvad qızların dolanacağını soruşdu, kişi dedi:

– Arvad, quraqlıq olsa böyük qız batacaq, yağınığ olsa kiçik.

## ÇOBANIN QURD SAXLAMASI

Bir çoban olur. Bir gün çobanlıqdan bezar olur. Gedir qurd alıb saxlayır. Dağda-daşda tut demir, yığır gətirir bu qurdlara. Ancaq onları doyura bilmir. Deyir:

Çobannıxda çıxan canım,
Qəhət oldu peşə sana?
Ələkdəki, xəlbirdəki,
Dözməz dağ-daş, meşəsana.

## ÖZ ÇIRAĞIMI SÖNDÜRÜB SƏNİN ÇIRAĞINI YANDIRIRAM

Bir kişinin atı götürüm at imiş. Başınnan etməh üçün satmax istiyir. Bazarda bir kişi atı almax istiyir. At sahibi atı tərifləməyə başlıyır. Axırda da deyir:

– Elə bil ki, öz çırağımı söndürüb sənin çırağını yandırıram.

Kişi atın pulunu verib gətirir evə. Axşam ata baş çəkməh niyyəti ilə tövləyə gedir. Görür ki, at uzanıb yerə. Nə qədər edir at durmur. İndi ölər, bir azdan ölər. Kişi çırağı yandırıb oturub atın yanında. Birdən kişinin sözləri yadına düşür. Başa düşür ki, "öz çırağımı söndürüb sənin çırağını yandırıram" nə deməkimiş.

# XIII. ATALAR SÖZLƏRİ, ZƏRBİ-MƏSƏLLƏR

Ağ ərik, səni də dərərdih.
Ağa dedi, sür dəriyə, sür dəriyə.
Ağaşdar səcdəyə gəlir. Söyüd deyir: "Mən də, mən də".
Ağıza dad, qarına çivən.
Ağla halıma, ağlıyım halına.
Aj adamın gözünə yuxu getməz.
Aj qudurğan olar, çılpaq oynağan.
Almanı say  ye, armudu soy ye.
Annıyanın quluyam, annamayanın ağası.
Arığın nəyi var ki, cırığa da nə verə.
At at olunca, yəəsi mat olur.
Atam gətirmiyif, anam götürmüyüf.
Atdan yıxılan pambıq üstə.

Atdan yıxılan yük üstə,
Eşşəkdən yıxılan daş üstə.

Atın axmağı yorğa olar, itin axmağı tula.

Aş vermişəm, aşımı ver,
Yaş vermişəm, yaşımı ver.

Baba vardan dər, olmasa nədən dər.
Baba vardan ver, olmasa hardan ver.
Bal barmaxda, yağ dırnaxda.
Bayramnan  sohra qırx kötük yanır.
Bədnəzərdən Allahın da xəbəri yoxdu.
Bəy dediyin nədi, bəyənmədiyin nədi.
Bir iş var, iki əməl.
Cəhd çarıx yırtar, urza Allahdandı
Çaqqal var, gödən dağıdır, canavarın  adı bednamdı.
Çillədən qotur çıxıb.
Danışıx dananı qurda verər.
Dəliyə yer ver, əlinə bel ver.
Dost-aşna çox olar, düşərgə bir olar.

Elə bilirlər, tat oturur, tat toxuyur,

Ta demillər, get oturur, get toxuyur.

El yaylağa dayandı,
Cırtdan indi oyandı.

Erkək eşşək yanında qodux gəzdirməz.
Ev qalıf əyriyə, həm yeyə, həm seyriyə.

Əl quzusunnan sürüyə qoç olmaz.
Əmi mənim, zəmi mənim.
Ərə getdi yoldaşım, evdə qaldı külbaşım.

Gəzdim İran-Turanı,
Cənnət gördüm buranı.

Gəzən əv olsaydı, oturanın bağrı çatdardı.
Gej elə, güj elə.
Haja gedən gəldi, suya gedən gəlmədi.

Halva, plov yalandı,
Ölüyə qalan Qurandı.

Hers gələndə göz qızardar,
Hers gedəndə üz qızardar.

Həbəçi çox olanda uşax tərsə gələr.

Hər keçən dəvəyə karvan deməzdər,
Hər dəvə çəkənə sarvan deməzdər.

Hürü yox, pəri yox, qıl... biri yox.
İbadətdən səxavət irəlidi.
İki yabalaşanın birinin yabası sınmalıdı.
İt özünsən, qurdu maa göstərirsən.
İy deyənim olsun, Urumda  olsun.

İydə varsa, cəhrədə də var,
Onu əyirən xalamda da var.

Keçini soyuf-soyuf quyruğunda qoyursan.

Köpək saxladım, qançıx apardı.
Qancıx saxladım, köpəh apardı.

Kürt düşən toyuğu basdırallar.
Karın dalına döydülər. Dedi: -Nə tappa-tapdı.

Qara qatır, nə bilir xətir,
Qatırı ya döy, ya başına dön.

Qarğa nədi qazığı nə ola,
Sağsağan nədi büzüyü nə ola.

Qarın qardaşdan irəlidi.
Qazan dığırranar qapağı tapar.
Qızı qara quyla, oğlanı qora.

Qızım oğlan doğsun, payız günəşinin qabağında otursun,
Gəlinim qız doğsun, yaz günəşini qabağında otursun.

Qızım yazda qavırğa qavırsın,
Gəlinim payızda qavırma.

Qoduxlasan da yükün boynumdadı, qoduxlamasan da.
Qolun harda, başın orda.
Qonşu malı şirin olar.

Qonşudan gələn qatıcıx,
Qurtarır əppəh batıcıx.

Qurd nə bilir ki, qatır bahadı.
Qurd ovladığın quşnan yeyər, quş tutduğun göyə çəkər.
Quzunu qara quyla, çəpişi qora.
Mal yiyəsinə oxşamasa haramdı.

Mazandaranda çaqqal azdı,
Biri də böyürdən dazıdı.

Mənim balalarım Dəmirqapı Dərbəndi yarır.
Məscid tikilməmiş, kor əsasın götürdü.
Molla əvimin aşı, kor gözünün yaşı.

Nə qədər dərin olsa quyu,
Bir o qədər sərin saxlar suyu.

Nə qədər uzun olsa lülə,
Bir o qədər uzun gedər güllə.

O pisə qurban olum ki, gedə, yaxşılıq gələ.

Öküzün axmağı kotan arzular,
İyidin axmağı vətən arzular.

Səbr edən geydi xələti.
Söz yalan olmaz, yanlış olar.
Su axar, çuxurun tapar.
Subaylıx sultannıxdı, baba, demə yoxsulam.
Südünə görə mələ.
Tatın gəlişi, kürdün görüşü.
Toydan sohra nağara, xoş gəldin Bayram ağa.
Ulu sözünə baxmayan, uluya-uluya gedər.
Vıran oğul dayısına ganaşmaz.
Yağmasan da gurulda.
Yalan yarrığan dəyil ki, yıxılam.
Yanını bas, örkəni kəs.
Yayda yapınçını götür, qışda özün bilərsən.
Yiyə gözü həkim gözü.
Yiyəsiz evə it girər.
Yetimsənsə qıvrıl yat.
Yüz yeyənin olsun, bir deyənin olmasın.

# XIV. TAPMACALAR

Hoha, babam öküzü,
Kətir-kütür buynuzu.
Yühləsən, yüh götürməz,
Satsam, baha gətirməz.
**( . . . )**

Bir balaca mil başı
Yandırdı dağı-daşı.
**(Kibrit)**

Bir damım var, bir dirəyi var.
**(Göbələk)**

İki damım var, bir dirəyi var.
**(Burun)**

Çinni çinar başında,
Cingildəsən, kim bilər?
Köhnə hasar içində,
Qulunnasa, kim bilər?
**( . . . )**

Çıxdım təpiyə,
Düşdüm küpüyə
**(Çəkmə)**

Araba gedir, irizi yox,
Ağzı qara, gözü yox.
**(Zəli)**

Bir quşum var alaca,
Gedir qonur ağaca.
Özünə bir dam tikir,
Nə qapı qoyur, nə baca.
**(İpəkqurdu)**

Ay nənə, dur gedəh,
Karvanıı sür, gedəh.
Səhsən səkkiz qapıya,
Bir kilidi vır, gedəh.
**(Oruşdux)**

Bir lap,
Bir küpə,
Əyri xiyar,
Cüt ulduz.
**(Dəvə)**

And içipdi,
Piyada getməz.
**(Səhəng)**

Böyük işənbədi,
Koynuna düşən nədi?
Ocax yanmır, tüstü çıxmır,
Üstündə pişən nədi?
**(Dələmə)**

Mən oturerəm burda,
O geder hər yanı dolaner gəler.
**(Fikir)**

Bir qonağım gəlif, hardan?
Bir quzum olur nahaxdan,
Nə qonağımın dişi var,
Nə quzumun sümüyü.
**(Uşax, diş, döş)**

Bizdə bir quyu var, içi dolu ağ yarmac.
**(Diş)**

Çığıra-çığıra yalı aşır.
**(Tütək)**

At atı götürür,
At tatı götürür,
Tat oğlun götürür,
Oğlu yarpax götürür,
Yarpax torpax götürür.
**(Ev)**

Hop hopu götürür,
Hop topu götürür,
Topun üstü meşə,
Meşəni də çaqqal eşə.
**(Baş)**

O nədi ki, göydən yerə sallanır?
O nədi ki, göbəyinnən nallanır?
O nədi ki, hər nə versən allanır?
**(Yağış,..., uşaq)**

Bir atım var, at eylərəm,
Ölsə, qiyamat eylərəm.
Əti haramdı, yemərəm,
Suyunnan xeyrat eylərəm.
**(Düyü)**

Göyəndə ha, Göyəndə,
Çəltih əhdim ləyəndə.
Yeməh olar göy vaxtı,
Yeməh olmaz dəyəndə.
**(Çaqqala)**

Bir şey vardı, yemişdim,
Yeməsəydim, ölmüşdüm.
İndi tapsam, yemərəm,
Yeməsəm də, ölmərəm.
**(Ana südü)**

Ələməni ələdim,
Dolamanı doladım.
Qartanqazı mindim,
Tərpənməzə sürdüm.
**(Ələh, oxlov, dördayax)**

Bir qazanım var,
Ağzı aşağı qoyanda dolur,
Ağzı yuxarı qoyanda boşalır.
**(Papax)**

Ərəb atdandı,
Dəmir qatdandı.
Qum quylandı,
Quyrux bulandı.
**(Sacayax, qazan, qazan içində düyü, çömçə)**

Biri deyir: Gəl gedəh,
Biri deyir: Gəl yatax,
Biri də ilmi-zalım başın buluyur.
**(Su, qum, qamış)**

Qəyə dibində küçüh zingildər.
**(Buxov)**

Qərşidə nədən aldı,
Quşdar dənin nədən aldı?
Dünya təmin duzdan aldı,
Duz təmin nədən aldı?
**(. . .)**

Dubulğa, ay dubulğa,
Tumdu, bitər dubulğa,
Ağzı günəşə sarı,
Heç açılmaz dubulğa.
**(Qəbir)**

Uzun qız uzanar,
Özünə saqqal qazanar.
**(Qamış)**

Suya salır ennənir,
Sudan çıxır dillənir.
**(At quyruğu)**

Başın kəsdim, qanı yox.
**(Gəbə)**

Mən gedirəm, o da gedir.
**(Kölgə)**

Mən gedirəm, o qalır.
**(Rədd, iz)**

Dam üstündə dana dingildər.
**(Dolu)**

Damda dana böyürər,
Qızdar ona yüyürər.
**(Toy)**

Tap-tapmaca, gül yapmaca,
Məməli xatın, dişdəri yox.
**(Balıx, toyux)**

Baltanı vırdım yoncuya,
Səsi getdi Gənciyə.
**(İldırım)**

Yetmiş iki qapıya bir kilit vurdum, gəldim.
**(Qəbristannıx)**

Çil toyux, çiləmə toyux,
Başını kəsdim, qanı yox.
**(Balıx)**

Quyum-quyum qırmızı,
Buğdası ağ.
**(İtburnu)**

Bilirəm də, bilmirəm də.
**(Bilirəm öləcəm, bilmirəm, havaxt öləcəm)**

Hiyni-hiyni kəhər atım,
Hiyni gözəl kəhər atım,
Əyağında qıl sijim,
Düyünü gözəl kəhər atım.
**(Qızılquş, əyağı qumrovlu)**

Ha hanı dəmir qapı,
Şah ölkəsi, şah bağı.
**(Dəyirmanda çaxçax altının püskü)**

Sudan gəlir dağalca,
Quyruğ vırır yal-yamaca.
Səftər-məftər yerişdi,
İbrahimnama qulaxlı.
**(Tülkü)**

Çini dəri, çini dəri,
Üzü ət, içi dəri.
**(Toyux pətənəsi)**

Otaxda otdar,
Gədənəyi çatdar.
**(Pambıx)**

Yük atda qannı çanax.
**(Doşab)**

Yük üstə yumru yumax.
**(Damcı)**

Sarıca dana (= dığa) yer eşər (=qazır).

**(Damcı)**

Sudan gəlir dağ kimi,
Qolları budağ kimi.
Əyilir su işməyə,
Bağırır oğlax kimi.

**(Mancılıx)**

Dilim-dilim nar,
........................
Uşdu bir kəhlih,
Qondu bir dilbar.

**(Saman, buğda)**

Qoca baba dağdan ilxı yendirir.

**(Ülgüş)**

O tayı çəpər, bu tayı çəpər,
İçində atdı çapar.

**(Nehrə)**

Zir kilim, zincir kilim,
Tapdamax olmaz.
İçi dolu  ağ almaz,
Sanamax olmaz.

**(Göy, ulduzdar)**

O taydan nənəmi çağırır bir kişi,
Deyir, maa bir ulax göndər,
Nə erkəh olsun, nə dişi.

**(Əl maşını)**

Bir damım var, içində dana bağırır.

**(Nağara)**

Bu dərə mərəhlidi,
.............................
Xarrat əli dəyməmiş,
Xırmana gərəhlidi.

**(Yəhər)**

O taydan qaz gəlir,
Qaqqıldaşır qaz gəlir.
Bir il höyürün almış,
Yeddi il boğaz gəlir.

**(Yonca)**

Qırmızıdı məlamət,
Ağzı, burnu səlamət.
Yaş vurdum, quru çıxartdım,
Əliynən Məhəmməd.

**(Pendir-çörəh)**

–Əyri-üyrü hara gedirsən?
–Təpəsi deşih, sən nə deyirsən?

**(Tüstü, baca)**

Almışam satannan,
Gəncədə satannan.
Qu tükünnən yüngül,
Qıraxları qızılgül.

**(Gül)**

Qırğın gəldi, qırıldıx,
Allaha şükür, dirildih.

**(Çətən)**

Biz biz idih, yüz qız idih,
Bizi əzdilər, sapa düzdülər.

**(Aşsüzən, çətən)**

Atdan qəlbi, itdən alçax.

**(Yəhər)**

Min minarə, dibi qarə,
Min bir çiçək, tək bir yarpax.
**(Ay)**

Qara qatır, qapıda yatır,
Əl vırmamış şıllax atır.
**(Birə)**

Yük üstə para fətir.
**(Ay)**

İriz-iriz gedərəm,
İrizbanı gedərəm.
Göyçədən su içif,
Xoruzbanı gedərəm.
**(Ülkər)**

–Ay quş, hardan gəlirsən?
–Qannı qaya dibinnən.
–Qanın niyə quruyub?
–Allah belə buyurup.
**(Qoyun quyruğu)**

O nədi tezdən durar,
Nənəmi minər.
**(Səhəng)**

Gəlin gedəh beləsinə,
Qalaların qalasına.
Quşdardan hansı quşdu,
Süd verir balasına?
**( . . . )**

Gecə gəzər leylixan,
Gündüz gəzər leylixan.
Göy otdarın başına
Düymə düzər leylixan.
**(Şeh)**

Bir corab toxuyuram: göy-nən başdıyıram,
Qırmızıya keçirəm, qaray-nan qutarıram.
**(Böyürtkən)**

Başına kələm bağlıyır,
Ürəyi vərəm bağlıyır.
Oğul-uşağı yığır,
Zülüm-zülüm ağlıyır.
**(Samavar)**

Dəvə gəlir hannan,
Bir dəmir damnan.
Su suya körpü düşüb,
Necə gedim onnan?
**(İldırım, yağış)**

Dam dambıldar,
Su gumbuldar.
Heyva çalar,
Nar oynuyar.
**(Dəyirman)**

Sarı fəriş suda oynar,
Həmdəminnən belə oynar.
Biri gəlir ülküdür,
Biri gəlir bərkidir.
**(Dəyirman hacatı)**

Tüfəngin xəzinəsiyəm,
Ağzının vəznəsiyəm.
Atam mənim oğlumdu,
Mən atamın yeznəsiyəm.
**(Adı bir olan ata, oğul, yeznə)**

Ha dağı ha, ha dağı,
Nazlım aşdı o dağı,
Bir ağacda dörd budax,
İyirmi dörd də yarpağı.
**(İl, dörd fəsil, iyirmi dörd sahat)**

Gedər leyli,
Gələr leyli.
Bir qıç üstə,
Durar leyli.
**(Qapı)**

Püstədi ha, püstədi,
Taxtı rəvan üstədi.
Yeməyə camış kimidir,
Su içməyə xəstədir.
**(Barama qurdu)**

Hilim, hilim düyməsi,
Hilim mərcan düyməsi.
Hər kişi onu tapbasa,
On iki manat cərməsi.
**(İstiot, sarıkök, zəncəfil)**

Üştəpə kömürdəndi,
Keçən gün ömürdəndi.
Aşıx bir namərd yeyib,
Özəyi dəmirdəndi.
**(Kabab)**

Nə yerdədi, nə göydə,
Nə içəridədi, nə çöldə.
**(Pəncərə)**

Bizim həyətdə bir meyvə var,
Bir üzü ağ, bir üzü qara.
**(Gecə-gündüz)**

Birin qoydum,
İkisin çəhdim.
Quru qoydum,
Yaş çıxartdım.
**(Atın cilovu, üzəngisi, yəhəri)**

Bir təndirim var,
İki çörək tutur.
**(Qoz)**

Buraya bir ağaş yıxılıp qolsuz-budaxsız,
Onu bir quş götürür dilsiz-dodaxsız.
**(Qar, gün)**

Mən aşıx yay düyünü,
Açılmaz yay düyünü.
Səmənd qovar, car-car qaçar,
Heç açılmaz yay düyünü.
**(Bəndəm)**

Uzaxdan baxaram qara-qura,
Yanına gələrəm hazır para.
Ağzıma tökərəm qənd-şəkəri,
Ətəyimnən tutar yoldaşı.
**(Böyürtkən)**

İlim ilası varıdı,
Sevan gilası varıdı.
İynəynən deşih-deşih,
Əcəb salğası varıdı.
**( . . . )**

Bir təvlə malım var, cəmi ağ baş.
**(Diş)**

Bozu-bozu,
Gəzər düzü.
Bir burnu var,
Otuz gözü.

**(Çarıx)**

Yüyürdüm təpiyə,
Ayağım düşdü küpüyə.

**(Ayaxqabı)**

O yanı taxta, bu yanı taxta,
Şaqqulu bəy otaxda.

**(Fındıx)**

Kor öküz koldan baxır.

**(Tüfəng)**

Atdım atana,
Dəydi kotana.
Çayda balığa,
Çöldə ceyrana.

**(Tüfəng)**

Bir tabax almaz,
Səhərə qalmaz.

**(Ulduz)**

İçi piy, üstü dəmir.

**(Cövüz)**

Yer altında qum toğlu.

**(Siçan)**

Bizdən sizə diyiri qoz.

**(Siçan)**

İki çatının dörd üzü,
İki irqənin dörd gözü.
Düzlə dolu çör-çöp,
İki serçenin gözü dört.
Dəvədən köşəh, qoyunnan şişəh,
Bını tapbıyan eşşəh.

* * *

İki dəvəm var, biri ağzı gün batana yatıp, biri ağzı gün doğana yatıp. Bir xorum otu onların arasına elə qoy ki, ot bölünməsin, dəvələr yesin.

* * *

Üç dəvəm var: biri adam yeyəndi, biri də dəvə yeyəndi, biri də çul yeyəndi. Dəvələri bir-birinə elə bağla ki, adam yeyən adamı yeməsin, dəvə yeyən dəvəni yeməsin, çul yeyən çulu yeməsin.

* * *

Bir at var, üç kişi, bu üç kişinin də arvaddarı. Elə elə ki, hər kəs öz arvadıynan çayı keçsin, amma heş bir arvad başqa kişinin yanında qalmasın.

# XV. BAYATILAR

Murov sənnən, Murov sənnən,
Getməz qar, qırov sənnən.
Yüz il ovçulux elədim,
Heç almadım bir ov sənnən.

Əzizim bir dinarım,
Bir axça, bir dinarım.
Amandı, əsmə küləh,
Salarsan, birdi narım.

Mən aşıx od qala,
Buxarıya od qala.
Canıma bir od vırdın,
Qiyamata od qala.

Çaxmağın nə qaralı?
Şam yanar, nə qaralı?
Canıma bir od vırdın,
Nə yanar, nə qaralı.

Ürəyimdə yara var,
Üstə xal var, qara var.
Aç ürəyim, yar bağrım,
Gör yanmamış hara var?

Dağların təzə qarı,
Qar yağır, təzə qarı.
Arvadı pis olanın,
Saqqalı tez ağarı.

Əzizim nə tərəzi,
Nə daş var, nə tərəzi.
İyidi kor eyliyər,
Arvadın natarazı.

Bağda üzüm ağacı,
Üzüm gözüm ağacı.
Bağa baltalı girdi,
Kəsdi bizim ağacı.

Əzizim, dağlar məni,
Acı söz dağlar məni.
Mən bırda qərib ölləm,
Kim yas tutup ağlar məni?

Aşıx uca dağların,
Ulu, qoca dağların.
Üstünnən karvan keçib,
Neçə xoca dağların.

Aşığ dağdan gələr,
Meyvəli bağdan gələr.
Bütün çayın axını,
Uca dağlardan gələr.

Bizim dağın ucası,
Dağların ən qocası.
Göstərirdi hər yeri,
İşıxlının şiş tacı.

Dağların adına bax,
Buz-bulax dadına bax.
İşıxlı, ya Salvartı,
Ərimız qarına bax.

Dağların qarı hanı?
Başının sarı hanı?
Dağlarda gəzən gözəl,
Sormadı yarın hanı?

Əzizim çeşmə haray,
Gözümnən getmə, haray.
Əldən çıxıb bulaxlar,
Gəzirəm, çeşmə haray.

Dağlarda lalə yalqız,
Gül qoşa, lalə yalqız.
Qorxuram qərib öləm,
Qəbrim də qala yalqız.

Dağların qocasına,
Çıxasan ucasına.
Otdarı dərman dağın,
Heyvanın qocasına.

Əzizim bizim dağlar,
Dibi buz-bulax dağlar.
Dağda yaylax eliyən,
Aranda qalıf ağlar.

Aşıx, elimə gülmə,
Köşgün halıma gülmə.
Gələndə rəvanə gəl,
Qəribəm, mənə gülmə.

Aşıx eldən aralı,
Şana teldən aralı.
Qəriblih başın pozdu,
Düşdü yardan aralı.

Əzizim əkəm bağı,
Əl gəlmir əkəm bağı.
Bir oğlum şəhid oldu,
Sinəmə çəhdi dağı.

Əzizim gəzmə bağı,
Gəzəndə əzmə bağı.
Mən ölüp gedər olsam,
Sinəmnən getməz dağı.

Əzizinəm bağına,
Girrəm yaddar bağına.
Hər dərdə dözən olsam,
Dözmərəm oğul dağına.

Əzizinəm oğluma,
Namə yazdım oğluma.
Namə ona yetincə,
Özüm yetəm oğluma.

Əzizim çeşmə hanı?
Suların çeşmə xanı.
Ürəyim, ay ürəyim,
Bəs bırda çeşmə hanı?

Əzizim, yanar günə,
Qalmasın yanar günə.
Oğlum mənnən ayrılıp,
Qoyuplar yanar günə.

Aşıx meşəli yerdə,
Güllü, bənöşəli yerdə.
Məni elə vırdılar
= Vıran elə vırdı ki,
Qaldım döşəli, yerdə.

Mən aşıx, oyan gül,
Dərdə, qəmə boyan, gül.
Tez açıldın, tez soldun,
Məni pərşuş qoyan gül.

Gejələr, ha gejələr,
Molla dərsin hejələr.
Mən sənsiz dözsəm də,
Anam mənsiz nejələr?

Qızılgül oyum-oyum,
Dərim, sinəmə qoyum.
Yağış yağar, yer doymaz,
Mən sənnən nejə doyum?

Arazın üstü çən,
Altı qumdu, üstü çən.
İtən qardaşı götü,
Gəl özün də üstəcən.

Yolun ağına bax,
Gülün yarpağına bax.
Sən məni qoydun getdin,
Ürəyimin dağına bax.

Qoyun quzu yanında,
Otdar quzu yanında.
O adamın dərdi olmaz,
Oğlu-qızı yanında.

Altımda boz at gedərəm,
Üstündə boz at gedərəm.
Sənə nişan qoyublar,
Mən də saldat gedərəm.

Bu dünyada qalan yoxdu,
Qol boynuma salan yoxdu.
Öldürür bacım öldürsün,
Qanım onnan alan yoxdu.

Qardaşdar, ay qardaşdar,
Yağış yağar, qar başdar.
Ölsə, ölə bacılar,
Heç ölmüyə qardaşdar.

Baxtı kəm,
Baxtı kəm, bağmanı kəm.
Mən fələyə neynədim?
Fələh mənə baxdı kəm.

Bı dağlar, daşdı dağlar,
Torpağı daşdı dağlar.
Bərəm ol, oylağım ol,
Maralım qaşdı, dağlar.

El getdi, binə qaldı,
Binə nə günə qaldı?
Sənnən mənim görüşüm,
Qiyamat günə qaldı.

Layla dedim adına,
Əli çatsın dadına.
Əli dadına yetəndə,
Məni də sal yadına.

Mən aşıx dərdə Kərəm,
Düşübdü dərdə Kərəm.
Qoşaram qəm cütünü,
Özümçün dərd əkərəm.

Mən aşığam gülən az,
Bülbül eylər gülə naz.
Fələh bir iş işdətdi,
Ağlıyan çox, gülən az.

Qoyunam (= maralam) düzə gəlləm,
Otarram, düzə gəlləm.
Yüz il qürbətdə qalsam,
Qutarsam, sizə gəlləm.

Qızılgül dən-dən (= həşəm) oldu,
Dərmədim, dən-dən (=

həşəm) oldu.
Mən sənnən ayrılmazdım,
= Mən sənnən ayrılalı,
Ayrılıx sənnən oldu.
= Ayrılmax peşəm oldu.

Mən aşıx sənə dağlar,
Sənət ver mənə, dağlar.
Yühlədilər qəm karvanın,
Yolladılar sənə, dağlar.

Mən aşıx qoşa dağlar,
Verib baş-başa dağlar.
Səni də mənim kimi,
Dönəsən daşa, dağlar.

Mən aşıx qarğamışa,
Qar yağıb qarğamışa.
Yüz min duaçı neynəsin?
Bir fələh qarğamışa.

Dağda duman oldumu?
Qaşda kaman oldumu?
İtirmişəm balamı,
Onu görən oldumu?

Şirvanın yastı yolu,
Su gəldi basdı yolu.
Gedirəm balamı gəzməyə
= Getdim yarı görməyə,
Əzrayıl kəsdi yolu.

Araz dəyiləm, aşam mən,
Gedib Kürə qovuşam mən.
Apar qohum (= zərgər) yanına,
Gör, qiyamət daşam mən.

Yetiməm, atam yoxdu,
Qəribəm, butam yoxdu.
Düşdüm qəm dəryasına,
Qolumnan tutan yoxdu.

Aman fələh, dad, fələh,
Heç olmadım şad, fələh,
İçirtdiyin şərbətdən,
= Əv bizim, əvlad bizim,
Bir özün də dad, fələh.
= Bırda gəzir yad fələh.

Arazın qırağıynan,
Gül bişdim orağıynan.
İtirmişəm qardaşı,
= Bir alagöz itirmişəm,
Gəzirəm sorağıynan.
= Axtarıram sorağıynan.

Dağlar aşıb gələnim,
Qanı coşub gələnim.
Xoş o kəsin halına,
Halallaşıb ölənin.

Ələhdə var barama,
Baramanı sarama.
=Sim yeritdi yarama.
Öz anam (= qardaşım) çırax tutsun,
Atam (= bacım, yarım) baxsın yarama.
=Əl vurmayın yarama

Məni vırdı talx ilan,
Başın götür qalx, ilan.
Mənə Allah eliyib,
Nə işim var xalxınan.

Maral, yerin şam olsun,
Otda, yerin şam olsun.
Birin sən de, birin mən,
Gün gəlsin, axşam olsun.

Əlində şüşə qələm,
Bənzər gümüşə qələm.
Ölə, qala fələyi,
Əlinnən düşə qələm.

Bir at mindim, başı yox,
Bir çay keşdim, daşı yox.
Bacım yiyəsiz ölüb,
Yanında qardaşı yox.

Köynəyin ağ saxlaram,
Yuyaram, ağ saxlaram.
Əyər əlimə düşsən,
Yüz il qonax saxlaram.

Quşum uşdu fələhdən,
Qolum sındı biləhdən.
Mənimki belə gəldi,
Çarxı dönmüş fələhdən.

Mən aşıx qarğadan al,
Qarıldar qarğadan al.
Uzax yerin xəbərin,
Bir atı yorğadan al.

Bırdan bar maya getdi,
Sallandı, çaya getdi.
Çoxlu zəhmət çəhmişdim,
Əməyim zaya getdi.

Ağlıyan başdan ağlar,
Kiprihdən, qaşdan ağlar.
Balası ölən analar,
Durar, obaşdan ağlar.

Axşam üzü, dan üzü,
Şamlar yanar dan üzü.
= Quşdar oxur dan üzü.
Necəsən, bir sada çəkəm?
Saa gələ dan üzü.

Aşıx, gülə nə gəldi?
Bülbül, gülə nə gəldi?
Bizim gülü xar vurdu,
Sizin gülə nə gəldi?

Aşıx, saza nə gəldi?
Simə, saza nə gəldi?
Fələh mənnən göz əydi,
Bilmirəm, sizə nə gəldi?

Gecələr gecə keşdi,
Bilmirəm necə keşdi.
Mənimki ah – vayınan,
Səninki necə keşdi?

Bu bağnan,
Bu çəmənnən, bu bağnan.
Saa yaxşı deməzdər,
Əyər ölsəm bu dağnan.

Qoy sənə kür desinnər,
Kürdən də kür desinnər.
Əlini əlimə ver,
Eldən sürgün desinnər.

Dağı o dağa verrəm,
Dağa qadağa verrəm.
Eşitsəm bacım gəlib,
Gözüm sadağa verrəm.

Dərdim çoxdu yatmanam,
Dərdi batman-batmanam.
Sən dərdimi, ay bala,
Heç dərtdərə qatmanam.

Yaralıyam yanımnan,
Quşdar doymaz qanımnan.
Fələh bir iş işdiyip,
Əl üzmüşəm canımnan.

Bu qəbri qazan ağlar,
Daşdarı düzən ağlar.
Üstünə daş töhdülər,
Əlini üzən ağlar.

Dağlar marala qaldı,
Otu sarala qaldı.
Soyux bulax, göy çəmən,
O da marala qaldı.

Dağları gəzəmmənəm,
Əhtim var, bəzənmənəm.
Yuvasız quşdar kimi,
Sərgərdan gəzən mənəm.

Dağlarda gəzən mənəm,
Gülünü üzən mənəm.
= Al geyib bəzənmənəm.
Yetim qardaşı ölən,
= Nə dərdim var, nə qəmim,
Sərgərdan gəzən mənəm.

Apardılar gülümü,
Eylədilər zülümü.
Nə qoydular ağlıyam,
Nə kəsdilər dilimi.

Mənim dərdim uludu,
Uludan da uludu.
Dərdimi kimə desəm,
Dərddi dərdin unudu.

Bu maral ayıx deyil,
Yatıbdı, ayıx deyil.
Sənin cavan ölməyin,
Adına layıx deyil.

Daşdı canım,
Dərd gəldi, çaşdı canım.
Öz dərdim özüm çəkim,
Desinnər, daşdı canım.

Araza gəmi gəldi,
Gəmilər hamı gəldi.
Kor olasan gözdərim,
Ayrılıx dəmi gəldi.

Arazı keçən də var,
Suyunnan içən də var.
Dəymə yaralı könlümə,
Ürəyi keçən də var.

Gəncədə şirin nə var?
Yeməyə şirin nə var?
Gəzəsən bu dünyanı,
Baladan şirin nə var?

Bı dağda maralım var,
Ovçuyam, yarağım var.
Nə gecə yuxum gəlir,
Nə günüz qəralım var.

Mən cavanam utancax,
Başına vurmuş sancax.

Nə qız oldum, nə gəlin,
Oddara yandım ancax.

Bu gün hava yaxşıdı,
Dərdə dava yaxşıdı.
Qalarsan, qonağımsan,
Getsən, hava yaxşıdı.

Bala, bala bal dadır,
Bala adam aldadır.
Şirin elə şirin olur,
Acısı da bal dadır.

Yol yoldaşı olmaram,
Gəl desələr, gəlmərəm.
Desələr, Əzrayıl ölür,
Dərman olsa, vermərəm.

Aşıx qovuşa məni,
Saznan qovuşa məni.
Bir ayrılıx, bir ölüm,
Qoymaz qovuşa məni.

Aşıx gendə düşübdü,
Gəlib gendə düşübdü.
Səni görənnən bəri,
Köylüm sənə düşübdü.

Aşıx, məni bu gündə,
Kaş ki, məni bu gündə.
Nə dost görsün, nə düşmən,
Genə məni bu gündə.

Tut ağacı dəyiləm,
Hər gələnə əyiləm.
Əyil üzünnən öpüm,
Mən özgəsi dəyiləm.

Armud ağacı haça,
Əlim dolaşdı saça.
Oğul ona deyirəm.
= İyid ona deyərəm,
Məni götürə qaça.
= Sevdiyin ala qaça.

Mən aşıx, dağa sarı,
Üz tutdum dağa sarı.
Tuteydim yar əlinnən,
Çıxeydim dağa sarı.

Mən gələndə yazıydı,
Çaylar dolu qazıydı .
İstədim məhtub yazam,
Mürəkkəbim azıydı.

Bu dərədən köş gedər,
Ağca maya boş gedər.
O qızı mənə versələr,
Allaha da xoş gedər.

Dəryada sijim gördüm,
Çəhdihcə ujun gördüm.
Mən sənnən ayrılmazdım,
= Fələh bir iş işdətdi,
Fələyin güjün gördüm.

Bu qala, alma qala,
Yığ boşqaba, alma qala.
Özün sevdin, özün dedin,
Niyə saldın qalmaqala?

Durdum getdim suya mən,
Suya oxudum duva mən.
Qaranquşca olmadım,
Damda tikəm yuva mən.

Mən aşıx gül məkanda,
Gül əhdim, gül məkanda.
Düşməni gördüm güldüm,
Mən handa, gülmək handa.

Mən aşıx yarımgilə,
Qar yağıb yarımgilə.
Tanrı səbəb saleydi,
Gedeydim yarımgilə.

Mən aşıx, ölkə sənnən,
Qorxmuram yolkəsənnən.
Dağlar quzeyli köylüm,
= Bir dil ver halallaşax,
Heç getməz kölgə sənnən.
= Ayrılam bəlkə sənnən.

Mən aşığam şam bağlar,
Şam bağçalar, şam bağlar.
Köylüm elə virandı,
Arı gəlsə, şan bağlar.

Araz axır qol üstə,
Xoş günüm var sol üstə.
İstərəm yetəm yara,
Yağı durub yol üstə.

Mən aşıx, yan divarı,
Otağın yan divarı.
Getmisən tezcə qayıt,
Ciyarım yandı barı.

Mən aşığam o xannan,
O sultannan, o xannan.
Bir dəstə gül oleydim,
Asıleydim yaxannan.

Mən aşıx meylim sənə,
Düşübdü meylim sənə.
Mən dönsəm, üzüm dönsün,
Sən dönsən, neynim sənə?

Bülbülü bağda gördüm,
Gülü budaxda gördüm.
Öldü bülbül, soldu gül,
Onu pis çağda gördüm.

Əzizim, oyanasan,
Qızılgülə boyanasan.
Mənə yarımnan xəbər,
Sən mənnən o yanasan.

Getmə mənnən, amandı,
Ayrılıx nə yamandı?
Rəhm eylə, mən yazığa,
De ki, naşı-cavandı.

Bənöşəyəm, qalxaram,
Qızılgüldən qorxaram.
Desələr balam gəlir,
Xəstə olsam, qalxaram.

Qəribəm, ağrır başım,
Yastığa damır yaşım.
Desələr qardaşın gəlir,
Yasdıxdan qalxar başım.

Mən aşıx o güneylər,
Dərd ürəhdə dügün eylər.
Hansı günü həsrətdər qovuşa,
Bayramın o gün eylər.

Kəfşədə bafam qaldı,
Bişmədim bafam qaldı.

Zəhmət çəhdim, yar sevdim,
= Çox əlləşdim, vırışdım,
Özümə cafam qaldı.
= Quruca cafam qaldı.

Qalanın bürcü mənəm,
Dilbilməz gürcü mənəm.
Baş qoy dizim üstə,
Öz ananam incimənəm.

Gedərəm, gedən olsa,
Halım ərz edən olsa.
Bir məhtub göndərrəm,
Yanıza gedən olsa.

Qardaş demə, qan olar,
Yel əsər, fəğan olar.
Qardaş gələn yollara,
Bajılar qurban olar.

Əzizim, nələr keçər,
Ahular mələr keçər.
Oğulsuz olannarın,
Ürəyinnən nələr keçər?

Əziziyəm qalasız,
Səhər olmaz qalasız.
Mən ki, gedəri oldum,
Sağlığnan qalasız.

Arazı ayırdılar,
Qumunan qayırdılar.
Mən sənnən ayrılmazdım,
Zülümnən ayırdılar.

Bı dağlar, ulu dağlar,
Çeşməli, sulu dağlar.
Mənim ah-nalamnan,
= Dibinnən eli köşmüş,
= Dibində qərib ölüb,
Göy kişnər, bulud ağlar.
= Başında bulud ağlar.

Bir əv tihdim dəyirmi,
= Əvi tihdim dəyirmi,
Mıxın çaldım iyirmi.
= Çubux saşdım iyirmi.
Qoyuf hara gedirsən?
Bı əv sənin dəyilmi?

Aşağıdan gəlirəm,
Donum ağdı məliləm.
Bir yaxşıca yer salın,
= Bir qəlbi baş altı qoy,
Baş altı qoy, ölürəm.
= Azarradım ölürəm.

Dəyirmanın püskünə,
Çax-çaxına, püskünə.
= Dən gəti töh üstünə.
Getdin canın qutardı,
= Özün qaşdın qutardın,
Məni qoydun pis günə.

Qarabağın yolu fərman,
= Ağdamın altı fərman,
Torpağı gözə dərman.
Necəsən bir kağız yazım,
= Yarıma kağız yazdım,
Yarı dərd, yarı dərman.

Fələyin səsi gəlir,
Yatır yuxusu gəlir.
Balamın uzax yerrərdən,
Əmisi, dayısı gəlir.

Mən getdim dağlar qaldı,
Ürəyim ağlar qaldı.
Sənnən mənim aramda,
Gör necə dağlar qaldı?

Gülü saşdım divara,
Bülbül gələ suvara.
Qışı sənnən qışdadım,
= Yazı belə yazılıb,
Yazda qaldım avara.
= Qışı qaldıx avara.

Bülbül bağda səs eylər,
Gül ona həvəs eylər.
Bizim bağın bülbülü,
Özgə bağda səs eylər.

Duman dağı tutufdu,
Çiskin bağı tutufdu.
İstərəm duram gələm,
Yolu yağı tutufdu.

Dağda dolu durufdu,
Dolu boynun burufdu.
Mən doludan qorxuram,
Dolu məni vurufdu.

Bu gələn el yoludu,
Qoy gəlsin, el yoludu.
Təpəm bulud oylağı,
Gözdərim sel yoludu.

Göydə bulud mərd oynar,
Mərd dolanar, mərd oynar.
Gəlif qapıdan girsən,
Ürəyimdə dərd oynar.

Gejə keşdi qaraldan,
Avçı keşmir maraldan.
Nə dərdim var, nə qəmim,
Sənsən məni saraldan.

Mən həmayıl olaram,
Qəmə qayıl olaram.
Qayıl olmam özümə,
Sənə qayıl olaram.

Qardaş, qardaş, can qardaş,
Sultan qardaş, xan qardaş.
Sən qapıdan girəsən,
Bacın deyə, can qardaş.

Mən aşığam gül bağda,
Bülbül bağda, gül bağda.
Sənsiz bağa girmərəm,
Həşəm olsa gül bağda.

Gəncədən bal almışam,
Şannarın az almışam.
Canım bir dərdə düşüb,
Dərmanın az almışam.

Bostan əhdim xiyarsız,
Şirin cana qıyarsız?
Yatdım yuxuda gördüm,
Ayıldım ixtiyarsız.

Çəkilə bax, çəkilə,
Çəkil yerə tökülə.
Qiyamat o gün qopar,
İyin əvdən çəkilə.

Gəlirdim Kür yaxası,
Oğlan maa baxası.

Bənövşədən köynəyi,
Qızılgüldən yaxası.

Bostanda tağım ağlar,
Basma yarpağım ağlar.
Ölənətən ağlaram,
Ölsəm, torpağım ağlar.

Dağları keşdim gəldim,
Daşdarı düzdüm gəldim.
Səni vəfasız gördüm,
Əlimi üzdüm gəldim.

Dağların göy çəməni,
Göyərər göy çəməni.
Ya axtarıf taparam,
Ya vırar avçı məni.

Söyüt ağacı, dərdin alem,
Dibini böyüt, dərdin alem.
Gözümü sənə tihmişəm,
Ölmə, böyü, dərdin alem.

Əziz balam, neynim?
Dərdim çoxdu, neynim?
İstədim ki, çox yazım,
Qələm yazmır, neynim?

Göydə qara bulutdar,
Tala-tala bulutdar.
Mənim ərzi-halımı,
Yetir yara, bulutdar.

Apar bazara məni,
Saldın azara məni.
Aş belinnən qurşağın,
Salla  məzara məni.

Ay doğdu laxtalandı,
Doğduxcan laxtalandı.
İstiyirsən heç gəlmə,
Qəbrim üstü taxtalandı.

Əlində maşası var,
Tutufdu maşası var.
Bırda bir oğlan ölüf,
Əjəb tamaşası var.

Göydə gedən quşa bax,
Qanadı gümüşə bax.
Xalxlara yaz açıldı,
Bizə yağan qışa bax.

Mən səni el bilirdim,
Başımda tel bilirdim.
Uca dağlar başında,
Bulanmaz göl bilirdim.

Qolumda qabarım var,
Sızıldar, qabarım var.
Başaa gələnnərdən,
Məəm nə xəbərim var?!

Mən aşığam, yaz bağda,
Bülbül bağda, yaz bağda.
Yara mehman oleydim,
Qış otaxda, yaz bağda.

Qarabağda talan var,
Zülfün üzə salan var.
Sən getdin, çox əyləndin,
Gözü yolda qalan var.

Aşıx haramı dağlar,
Təbib (= pekam) yaramı bağlar.

Könül istiyir, əl çatmır,
= İstədim duram gələm,
Kəsif aranı dağlar.

Dərya bulandı yenə,
Coşdu, bulandı yenə.
Dərya xiyallı köylüm,
Qəmə bulandı yenə.

Dərya, sənnən kim keşdi?
Kim dolandı, kim keşdi?
Dərya xiyallı köylüm,
Xiyalınnan kim keşdi?

Qoy məni el götürsün,
El yusun, el götürsün.
Qəbrimi qardaş qazsın,
Çiyninə bel götürsün.

Qardaş, gəl, gərəyimsən,
Hürümsən, mələyimsən.
Həm köylüm istiyir,
Həm də ki, gərəyimsən.

Sağında mən oleydim,
Solunda mən oleydim.
Əzrayıl sinən üstə çökəndə,
Yanında mən oleydim.

Dağlar, mənə qar göndər,
Əsirgəmə, var göndər.
Əl dəyməmiş dəsmalda,
Gün görməmiş qar göndər.

Dağların qarı mənəm,
Gün vırsa ərimənəm.
Qəbrimi quzeydə qaz,
= Qəbrimi yol üstə qaz.
Cavanam, çürümənəm.

Dağlarda maral azdı,
Ovçu çox, maral azdı.
Ağlama, maral gözdü,
Ölmərəm, yaram azdı.

Dərya, sənnən üzmərəm,
Boylanaram, üzmərəm.
Əlimi sənnən üzsəm də,
Meylimi sənnən üzmərəm.

Bənöşəyəm, tütərəm,
Kol dibində bitərəm.
Eşitsəm ki, gəlirsən,
Boynum əyri tutaram.

Apardı tatar məni,
Qul eylər satar məni.
Vəfalı yarım olsa,
Axtarar, tapar məni.

Bir dərd məni dəng eylər,
Vırar başa, səng eylər.
Dərd ki, adam öldürməz,
Soldurar, bədrəng eylər.

Dağlarda biyan olmaz,
Əkməsən biyan olmaz.
Yüz il əynə getsən,
Gəlmədi deyən olmaz.

Mən aşıx, balam barı,
Bal arı, balam barı.
Alçalsın qəlbi dağlar,
Görünsün balam, barı.

Mən aşıq qala-qala,
Bürc hörülər qala-qala.

Urvatdan düşdü qoca,
Bu dünyada qala-qala.

Mən aşıq boran dağlar,
Ay boynunu buran dağlar.
Sizi beybəfa gördüm,
Şamili vıran ağlar.

Mən aşıq boynu buruq,
Maral otdar boynu buruq.
Getdin gedər-gəlməzə,
Bizi qoydun boynu buruq.

Mən aşıx alışanda,
Şam yanar alışanda.
Cəsəddə can titrər,
Göz-gözlə alışanda.

Bağımızda quş durmaz,
Yaz əylənər, qış durmaz.
Oğlannar and işsə də,
Qız qoynunda diş durmaz.

Qərib öldü, götürün,
Dar küçədən ötürün.
Qəribi anasına,
Tezlihnən yetirin.

Əzizim dağda nə var?
El köşdü dağda nə var?!
Leylisiz Məjnun köylüm,
Məjnunsuz dağda nə var?!

Qardaşım gəl, qalam gəl,
Ərşə çıxıf nalam gəl.
Uçufdu baş kərpicim,
Dağılıfdı qalam, gəl.

Ayrılıx yaman-yaman,
Evlərə tüşsün talan.
Ayrılsın, qavışmasın,
Bizə ayrılıx salan.

Balamın balasın allam,
Balamın qadasın allam.
Balamı maa versələr,
Şuşanın qalasın allam.

Koroğluyam, tərxanam,
Budu gəlir barxanam.
Şəyirddən ustam qaçır,
Bağlı qalıf barxanam.

Bağa girdim olmadı,
Dərdim, qoynum dolmadı.
Çox Allaha yalvardım,
Allah kərim olmadı.

O tayda qaz ağlaşır,
Simləri saz ağlaşır.
Ağlasın anam, bajım,
Yaddar da az ağlaşır.

Çıxdım yazılar gördüm,
Qoyun-quzular gördüm.
Anasınnan ayrılmış,
Körpə (= yetim) quzular gördüm.

Qardaşdarım, qoşa gəl,
Qarrı dağlar aşa gəl.
Eşitsən bajın ölüf,
Ağlaşa-ağlaşa gəl.

Əzizim, bağrı qara,
Yeməyə bağrıqara.
Lalədən gözəl gül olmaz,
Onun da bağrı qara.

Dağların təpəl qarı,
Əriməz təpəl qarı.
Əsər Üştəpə yeli,
Üstümə səpər qarı.

Dağ başı dolu gözdər,
Qar yağar, dolu gözdər.
Məndə can qoymadı,
    = Hayıf mənim gözdərim,
Səndəki dolu gözdər.
        = Beyvəfa yolu gözdər

Bu yol Cavada gedər,
Aşar Cavada gedər.
Uçubdu könlüm quşu,
Gör nə havada gedər.

Evlərin bağ ağzında,
Tikili bağ ağzında.
Tüleyi-tərlan gördüm,
Bir qara zağ ağzında.

Balam bal kimin olmaz,
Yağı bal kimin olmaz.
Duram sattığa qoyam,
Qeyri mal kimin olmaz.

Əzizim, qazan ağlar,
Od yanar, qazan ağlar.
Qəriblihdə ölənin,
Qəbrini qazan ağlar.

Qəriblih asta-asta,
Eyliyif  məni xəstə.
Ürəyim qərib dağlıdı,
Əritdim asta-asta.

Quzu-quzu, gəl quzum,
Dil-dodağı qırmızım.
Duman gəldi itirdim,
Duman qaşdı gəl, quzum.

Əzizim bir də, bir də,
Kim olar mən səbirdə?
        = Bir iş var bı səbirdə.
Öləndə birgə öləh,
Qoysunnar bir qəbirdə.

Suyu kəsmə, bağ yandı,
Bostan yandı, tağ yandı.
Haray -haray salmaxdan,
Görən, neçə dağ yandı?

Ay dağlar, aram-aram,
Bu dərdə yoxdu çaram.
Yüz min təbib də gəlsə,
Sağalmaz mənim yaram.

Vardı bir diləyim,
Əriyif, qalmıyıf ürəyim.
Hər bir yana baxmışam,
Yoxdu arxam, küməyim.

Bulağın başınatan,
Üstünün daşınatan.
Yandım özüm kül oldum,
= Dağ qoydun, düyün basdın,
Ürəyim başınatan.

Dağların başıynan,
Dibinin daşıynan.
Qardaşa məhtub yazdım,
Gözdərimin yaşıynan.

Su gəldi hava doldu,
Töküldü nava doldu.
Hamıya nobot olmasa,
Xanıma nobot oldu.

Əmimgilin bağı var,
Bağının yarpağı var.
Getmirəm əmimgilə,
Aralıxda yağı var.

Qaşdarı qara qardaş,
Tellərin dara, qardaş.
Getmə bir xəbər alım,
Mənzilin hara, qardaş?

Suya gedən ikidi,
Saçı maral tüküdü.
Allah məni su eylə,
Su qızdarın yüküdü.

Dağlar dağımdı mənim,
Gül yarpağımdı mənim.
Dindirmə qan ağlaram,
Yaman çağımdı mənim.

Dəvələr qatar gedər,
Hil-mixəyın satar gedər.
Oğullar namərd olub,
Anasın atar gedər.

Sarı köynəyi üzdərəm,
Dərdi canımda gizdərəm.
Oğlan, qayıt maa sarı,
Yeddi il yol gözdərəm.

Arazın qıraxları,
Soyuxdu bulaxları.
Çağırdım hay vermədi,
Tutuldu qulaxları.

Köynəyin ağa dönsün,
Yusunnar ağa dönsün.
Qardaş qapımda dursun,
Ürəyim dağa dönsün.

Dağlara köz ələnsin,
Qar yağsın, köz ələnsin.
Nə gözüm səni görsün,
Nə dərdim təzələnsin.

Mən aşıx oxu tülyan,
Yay gəti oxu tülyan.
Özün yetir, Bənimağa,
Bir yasin oxu tülyan.

Yaylığın alına bax,
Qırağının xalına bax.
Aç ürəyim başını,
Ürəyimin xalına bax.

Göynən uçan hacılar,
Bir-birini acılar.
Qoy sənə qurban olsun,
Qardaşı ölən bacılar.

Bağımızda boyana,
Bağın yolu hayana?
Hərə bir kəlmə desin,
Bəlkə balam oyana.

Bağıızda ağ alma,
Böyrü çürüh ağ alma.
Səni kimlər qarğıdı,
Sən bu dərddən sağalma?

Gəl gedəh, qarı qışlağa,
Yönü bəri qışlağa.
Gedib balamı tapmasam,
Sallam qanı qışlağa.

Gəl gedəh, daş bulağa,
Suyu sərxoş bulağa.
Birin sən de, birin mən,
Tökəh qan-yaş bulağa.

Dəyirmana dən gələ,
Üyütdühcə dən gələ.
Mənim cavan qardaşım,
Getdi düşdü əngələ.

Çırax, sənə yağ sallam,
Piltə sallam, yağ sallam.
Gözdədim qardaş gəlməz,
Gözdərimə ağ sallam.

Aşıx yazana qaldı,
Xalın yazana qaldı.
Ülkər yana sallandı,
Görən yaza nə qaldı?

Qəbrim qazallar qatı,
Üstündə bəzəllər atı.
Ölsəm dönmərəm sənnən,
Axır məhşər qiyamatı.

Aşıx yay günü bırda,
Xalın yay günü bırda.
Ollam qəbrinə çəpər,
Qallam yay günü bırda.

Araz elə göy çalar,
Ləpə vurar, göy çalar.
Qardaş-bacısı ölənnər,
Qara geyər, göy çalar.

Sal yana,
Dara telin, sal yana.
Necəsən, qoyam gedəm?
= Necəsən, bir ah çəkim?
Qalasan yana-yana.
= Kür quruya, sal yana.

Bı xəbər nə xəbərdi,
Yaram qabar-qabardı.
Bir yanım köçüf gedif,
Bir yanım beyxəbərdi.

Əziziyəm, qu məni,
Bayquş məni, qu məni.
Dəsmalın kəfən eylə,
Göz yaşınnan yu məni.

Əzizim çeşmə gəzmə,
Aranda çeşmə gəzmə.
Ayağın dağa düşsə,
Bulax gəz, çeşmə gəzmə.

Əzizim çeşmə suyu,
Bulanmaz çeşmə suyu.
Çınqıllıda yaya qalar,
Qarrarın buzdu suyu.

Əzizim oğul gərəh,
Arxanda oğul gərəh.

Ata belin bükəndə,
Qulluğa oğul gərəh.

Aşıx eylər harayı,
Qırılıf telin harayı.
Aşıx, aranda qalma,
Keşmiş yurdun harayı.

Əziziyəm, Diri dağı,
Duman, gəl bürü dağı.
Ölünü torpağ örtər,
= Ölüm Allah əmridi,
Yamandı Diri dağı.
= Zülümdü diri dağı.

Bu dağlar, yasdı  dağlar,
El gəldi basdı dağlar.
Üç ay toylu-bayramlı,
Doqquz ay yasdı dağlar.

Maral o düzdə varmı?
Otdar  o düzdə varmı?
İtirmişəm balamı,
Bizdə yox, sizdə varmı?

Bajılar bajısıyam,
Şirinnən ajısıyam.
Kimin bajısı ölübsə,
Mən onun bajısıyam.

Tüfəngii yana sal,
Doldur için, yana sal.
Gördün Əzrayıl gəlir,
Özüü bir yana sal.

Atdanan atdan oldu,
Atdan, muratdan oldu.

Mən ki, namərd deyildim,
Namərddih atdan oldu.

Qalyanı sər qoyallar,
Çəkəllər, sər qoyallar.
Dərdi çəkə bilmiyənin,
Adın yasər qoyallar.

Qapıda durma, yetim,
Boynuu burma, yetim.
Kirpiyin ox eyliyip,
Sinəmə vurma, yetim.

Yetimin yekə dərdi,
Yüklərin ləkə dərdi.
Fil çəhməz, dəvə çəhməz,
Kim gələ çəkə dərdi?

Ay laylay, belə laylay,
İl laylay, belə laylay.
Heç bəndələr çalmasın,
Sən çaldın belə laylay.

O tayda ağlaşallar,
Saç-saça bağlaşallar.
Qəriblihdə ölənə,
Yığılıb ağlaşallar.

Bu qaya qəlbi qaya,
Kölgəsi düşər çaya.
Özünü yetir, a qardaş,
Adda çayı bu taya.

Əvləri çay keçəndə,
Düşübdü çay keçəndə.
Sənə qarğış qarğaram,
Günüm ah-vay keçəndə.

Sənəyimi götürrəm,
Özümü suya yetirrəm.
Gözdərəm sən gəlməsən,
Durub köksüm ötürrəm.

Dağlar, otun qurusun,
Suyun, otun qurusun.
Sənin də mənim  kimi,
Matın-qutun qurusun.

Dağlar, yerin gəyəndimi?
Yağıbdı, gəyəndimi?
De görüm, bu qara yer,
Mərmər sinəə bəyəndimi?

Qayada barmağım var,
Tutubdu barmağım var.
Qardaşımnan ötəri,
Sənə yalvarmağım var.

Gəl, böyün getmə bizdən,
Qar yağar, olar dizdən.
Gədihlər gürgə bağlar,
Səni yad elər bizdən.

Məni vurdu üç ilan,
Yumurtası puç ilan.
Mənəm bala itirib,
Əziyəti heç olan.

Avçıyam, av eylərəm,
Çaxmağa qav eylərəm.
Gəlin bajım ölməsə,
Mən sizi hav eylərəm.

Köynəyi aldırmışam,
Yaxalıx saldırmışam.
Gəlin bajım ölənnən,
Ürəyimi aldırmışam.

Kəlağayı dizim üstə,
Qatda qoy dizim üstə.
Desələr balan gəlir,
Muştulux gözüm üstə.

Bağları var düzümnən,
İçi dolu üzümnən,
Səni ürəyim istər,
Gəl, gedəh bizimnən.

Daşkəsənnən daş götür,
Xumar gözdən yaş götür.
And verirəm Allaha,
Bu yasdıxdan baş götür.

Qalyan damaxda durdu,
Çəkdi damaxda  durdu.
Cannar alıb göz tökən,
Gəldi qabaxda durdu.

Nərgizdər, ay nərgizdər,
Kolda bitər nərgizdər.
Sənin kimi balanı,
Torpax örtər, yer gizdər.

O tayda yatan oğlan,
Köynəyi kətan oğlan.
Sənin bacın ölüpdü,
Bexəbər yatan oğlan.

Əlimə saz verdilər,
Sazı nasaz verdilər.
Dolu evimnən, ay bala,
Payıı az verdilər.

Gedən getmə işim var,
Zərgərdə gümüşüm var.
Ağzı bağlı otaxda,
Dili dağlı quşum var.

Ləyəndə, ha ləyəndə,
Ləyən boynun əyəndə.
Özüm vadar oluram,
Bu sözdəri deyəndə.

Mən aşıx qəlbi yerdə,
Su durmaz qəlbi yerdə.
Gedirsənsə, dur gedəh,
Getmirsən, qal bı yerdə.

Sən getdiyin bir il oldu,
Becərdiyin güllər soldu.
Vədə verdin gəlmədin,
Nə yalançı dil oldu.

Aşıx sayad elləri,
Qəlbim sayad elləri.
Çək ağzımı, ört üzümü,
Sora  oyad elləri.

Aşıx sənəm səsinə,
Səs ver sənəm səsinə.
Elə həvəsim gəlir,
Öz kimsənəm səsinə.

Aşıx ellərdə qaldı,
Ceyran çöllərdə qaldı.
Mənim  yaralı balam,
Öldü, ellərdə qaldı.

Əlimdə nar bəzərəm,
Narı hamar bəzərəm.
Gözdüyürəm gəlməsən,
Yüz il də xar gəzərəm.

Quzu mələyən olar,
Duza gələyən olar.
Yetimə bel bağlama,
Yetim öləyən olar.

Qaşın ola bilmərəm,
Gözün ola bilmərəm.
Sən yiyəsiz ölmüsən,
Könlün ala bilmərəm.

Kəhlih daşda nə gəzər?
Səkər, daşda nə gəzər?
Gəlin bajısı ölənin,
Ağlı başda nə gəzər?

Dağların lalasıynan,
Gül bişdim arasıynan.
Xanım anam ölübdü,
Gəlincə balasıynan.

Aşıx haralı gedər,
Könlü qaralı gedər.
Qiyamət günə kimi,
Cannan yaramı gedər?

Şəftəliyəm,  kalam mən,
Dilim yoxdu, lalam mən.
Can verməh lazımdımı?
Verəm, səni alam mən.

Kəhlih daşa dağıldı,
Səkdi, daşa dağıldı.
Vıran elə vırdı ki,
Qanım daşa dağıldı.

Kəhliyin o xiyalı,
Eləmə o xiyalı.
Getmişəm qayıdajam,
Eləmə o xiyalı.

Dağ ayrı, duman ayrı,
Qaş ayrı, kaman ayrı.
Aramıza dağ düşdü,
Oldux biz yaman ayrı.

dəmə gəl,
Söhbətə gəl, dəmə gəl.
Dərd bilən özü gələcəh,
Dərd bilməsə demə, gəl.

Almanı alma, gəlin,
Al yerə salma, gəlin.
Şələ ağır şələdi,
Çiyninə alma, gəlin.

Avı qovdum gətirdim,
Mənzilinə yetirdim.
Sən gəldin, yol bağlandı,
Mən balamı itirdim.

Ay elə, tək-tək bağla,
Gün elə, tək-tək bağla.
Qırx atı bircə mıxa.
Sən elə tək-tək bağla.

daşa qala,
Qar yağdı daşa qala.
Mülk Suleyman mülküdü,
Bırda kim başa qala?

Arazam, Kür üstünnən,
Qəfləni vur üstünnən.
Təbibsən, dərman eylə,
Naşısan, dur üstümnən.

Dəryalar adalandı,
Adalar badalandı.
Dedim dərdim azalır,
Ta da ziyadalandı.

Dumannı dağlarım var,
Çiçəkli bağlarım var.
Fələk, gəl dəymə mana,
Dalımca ağlarım var.

Qənimətdi,
Kölgəsi qənimətdi.
Bir gözüm səni gördü,
Bir də görsə qənimətdi.

Mən aşıx diyarbadiyar,
Xalın diyarbadiyar.
Məni səlih daşında,
Attılar diyarbadiyar.

Bu Araz axar gedər,
Dəhnəni yıxar gedər.
Dünya elə dünyadı.
Hər gələn baxar gedər.

Əziziyəm ləkə var,
Belin götür, ləkə var.
Ay doğub gündüz kimi,
Ay üzündə ləkə var.

Ay doğdu alastannan,
Gül doğdü gülüstannan.
Bir şamama dərmişəm,
Dərilməz hər bostannan.

Qızılgül haça bənddi,
Sana gör neçə bənddi?
Çəkəsən mən çəkəni,
Görəsən necə dərddi.

Mən aşıx, hey dərdimi,
Bı gələn hey dərdimi.
Kaş ki, anam sağ oleydi,
Çəkeydi hey dərdimi.

Dağda biyan varmı ola,
Gülə ziyan varmı ola.
Qəribin pis günündə,
Yazıx deyən varmı ola?!

Ay haramı-haramı,
İncidillər yaramı.
Nə qoymullar ağlıyım,
Nə vermillər balamı.

Çaxmax çəhdim, qav yandı,
Suyun çəhdim, nav yandı.
Qəribin bir ahınnan,
Yetmiş iki dağ yandı.

Dəyirman üstü mamır,
Qırqovul ətin qavır.
Səni mənnən eyliyən,
Ya gürcüdü, ya gavır.

Əzizim sənə qalsın,
Sənət ver, sənə qalsın.
Bu can məndə qərar tapmır,
Göndərim, sənə qalsın.

Əzizim badamçalar,
Zülflərin badam çalar.
Qadağan eylə, zülfün,
Qayıdar adam çalar.

Dolayıda bulağam,
Bağrı zolax-zolağam.
Balam gedən yollara,
Həmişə göz– qulağam.

Evləri var dağ üstən,
Bülbül ötər bağ üstən.
Bu  nə qaydadı səndə,
Dağ vırırsan dağ üstən.

Qoyunu qoyun gəlsin,
Dərisin soyun gəlsin.
Oralar sizin olsun,
Məhtubu qoyun gəlsin.

Dəyirman üstə bəndəm,
Həm şəkərəm, həm qəndəm.
Elçiləri sən göndər,
Mən bircə himə bəndəm.

Əzizim İncəbelə,
Gün düşüb İncəbelə.
Qulpun sınsın, ay səhək,
Minmisən incə belə.

Ay qız, yaxan yuxarı,
Düymən, yaxan yuxarı.
Mənim gözüm səndədi,
Sən də bir bax yuxarı.

Əziziyəm, qananım,
Annıyanım, qananım.
Qurbanıyam ölüncə,
Bu dünyada qananın.

Aşıx olub yara göz,
Tərlan tikər sara göz.
Ağlım başımnan aldı,
Səndəki cüt qara göz.

Mən aşıx, qala-qala,
Dağ üstə qala-qala.
Yar yolunda can üzdüm,
İntizar qala-qala.

Mən aşığam, bir ay var,
Bir ulduz var, bir ay var.
Gündə gördüyüm yarı,
Görməyimə bir ay var.

Bı dağlar qar məkanı,
Sar gəlsə, var məkanı.
Alçalsın uca dağlar,
Görünsün yar məkanı.

Mən aşıx, bı çağlara,
Bülbül qonur bağlara.
Qayıtmasan bəriyə,
Ovçu sallam dağlara.

Mən aşıx, yasəməni,
Üzübsən yasəməni.
Qanrılıp geri baxdın,
Batırdın yasa məni.

Sözün varsa, asta de,
Sirrin olsa, dosta de.
Gözdüyürəm gəlmiyir,
Deyin, yarım xəstədi.

Mən aşığam, narınca,
Gül əhdim kənarınca.
Sonam sallandı gəldi,
Laçın da bir yanınca.

Əzizim dağ gəzirəm,
Bülbüləm, bağ gəzirəm.
Quru qəfəsəm durur,
Görən deyir, sağ gəzirəm.

Çaylar adalar kimi,
Quruyur odalar kimi.
Sənə mən şəhid oldum,
İmamzadalar kimi.

Xəstəmin halı yoxdu,
Qalxmağa qolu yoxdu.
Bir yol var kəndə gedir,
Bı kəndin yolu yoxdu.

Ceyranım düzə ceyran,
Olufdu üzə heyran.
Naşı ovçu ürküdüb,
Dağılıf düzə ceyran.

Bu yol Kaşana gedi,
Aşar, Kaşana gedi.
Qarıplıxda ölənin,
Börkü nişana gedi.

Əzizim Fərəndizə,
Kəhliyin fərən düzə.
Sənin kəhliyin ölsün,
Dağılsın fərən düzə.

Qərşimizdə qərə yaz,
Qərə bayram, qərə yaz.
Günümüz belə geşsə,
Qələm götü, qərə yaz.

Şam yaner, yağda ərer,
Qar yağer, dağda ərer.
Mən düşən dərdə düşsə,
Mum oler dağ da ərer.

Dağ başınnan yar aşer,
Yar dolaner, yar aşer.
Qaş atdan göz eyləməh,
Bircə saa yaraşer.

Yel əsəndə gül incer,
Bülbül incer, gül incer.
Yad bəğman, girmə bıra,
Yarpax düşer, gül incer.

Laylamın adı qərdəş,
Əğzımın dadı qərdəş.
Sənnən ma qərdəş olmaz,
Tutaram yadı qərdəş.

Saş qarə kömürdəndi,
Gün geçer ömürdəndi.
Saa dil örgədənin,
Ürəyi dəmirdəndi.

Ağlaram, bilən olmaz,
Göz yaşım silən olmaz.
Ay bəxtsiz, ah çəkmə,
Haraya gələn olmaz.

Əziziyəm, gözədə,
Qoyun otdar gözədə.
Sənə də qurban olum,
Sən gördüyün gözə də.

Mən aşığam budağa,
Bülbül qonar budağa.
Cavan balam ölüfdü,
Necə dözüm bu dağa?

Apardılar qoydular,
Ağladılar doydular.
Ağca sinəm üstünə,
Bir qara daş qoydular.

Apardı hallar səni,
Hallar, xiyallar səni.
Öpdü, basdı bağrına,
Yovşannı yollar səni.

Oba köçdü çaxmaxdan,
Sular doymur axmaxdan.
Gözdərimə qan damdı,
Yollarına (= Vətən yoluna) baxmaxdan.

Əzizim mərd hasarı,
Çəhmişəm mərd hasarı.
Namərd belimnən vurdu,
Süründüm mərdə sarı.

Əzizim günə düşdüm,
Kölgədən günə düşdüm.
Fələh, nə iş eylədin?
Sən deyən günə düşdüm.

Mən getdim, anam qaldı,
Dərdimə yanan qaldı.
Nə dünyadan tam gördüm,
Nə də nişanam qaldı.

Tikannığ qalın imiş,
Ayağım yalın imiş.
Gedəy fələyə yalvarağ,
Fələh nə zalım imiş.

Aşığam dolan bağı,
Gəz bağı, dolan bağı.
Zülfünnən öyrənmişəm,
Boynuna dolanmağı.

Bir buynuzdu qoçam mən,
Qavan yoxdu, qaçam mən.
Sinəm dəftər-kitabdı,
Oxuyan yox, açam mən.

Ölürəm, üstümə gəl,
Yanıram, tüstümə gəl.
Dərdinnən xəstəyəm mən,
Loğmansan üstümə gəl.

Əzrayıl üz görüfdü,
Meydanı düz görüfdü.
Gedir yenə qayıdır,
Bizi yalqız görüfdü.

Aşığam, yüz gün ağlar,
Qaş-gözü süzgün ağlar.
Yarınnan ayrı düşən,
Bir gün yox, yüz gün ağlar.

Obada xəstə mənəm,
Dərdi dərd üstə mənəm.
Gözdəri yol yorğunu,
Qulağı səstə mənəm.

Ayağım yalınıydı,
Tikanım qalınıydı.
Heç ölməh istəmirdim,
Cəlladım zalımıydı.

Mən aşığ Lala dağı,
Bürüyüb lala dağı.
Hər yara sağalsa da,
Sağalmaz bala dağı.

Mən aşığam arzular,
Dağlar duman arzular.
Mənim bu qaşğın köylüm,
Tez-tez vətən arzular.

Ay ana, məni yaz ağla,
Payız ağla, yaz ağla.
Havax yadaa düşsəm,
Bir kağıza yaz ağla.

Ay doğdu, düzə düşdü,
Qıvrım tel üzə düşdü.
Fələh bir iş eylədi,
Ayrılığ bizə düşdü.

Qardaş, qardaş, ay qardaş,
Qaşın ucu yay qardaş.
Kaş ki, bacın öleydi,
Demiyəydi vay qardaş.

Aşığam qarğa verər,
Qarıldar qarğa verər.
Qaşğınnıxda ölənin,
Xəbərin qarğa verər.

Aşığam belə qandı,
Didəm bax, belə qandı.
Baş yastığda, göz yolda,
Get yara belə qandır.

Ata kişmiş kimidi,
Cibə düşmüş kimidi.
Atası ölən qızdar,
Nəzərdən düşmüş kimidi.

Aşığam nərdivana,
Ayax bas nərdivana.
Sənin dərdin mən billəm,
Nə bilir hər divana?

Baxçada xəzələ bax,
O duran gözələ bax.
Öz yarını itirib,
Divanə gəzənə bax.

Əzizim tikən gülə,
Sarmaşır tikən gülə.
Heç kəs gözün tihməsin,
Mən gözüm tikən gülə.

Dağlarda laçın ağlar,
Göydə göyərçin ağlar.
Qardaşı ölən bajı,
        = Sən yadıma düşəndə,
Saçını açıf ağlar.
        = Başımda saçım ağlar.

Aşığam, qara gözdər,
Qara qaş, qara gözdər.
Yıxıbdı dədəm evin,
Səndəki qara gözdər.

**Deyişmə**
– Aşıx, elə bir də gəl,
Ceyrançölə bir də gəl.
Götür cavan yarını,
Bizim elə bir də gəl.

–Aşıx, elə gəlmərəm,
Ceyrançölə gəlmərəm.
Elə yerə gedirəm,
Bir də bıra gəlmərəm.

* * *

– Haray, ellilər, haray,
Suyu göllülər haray.
Rəhiləni sel apardı,
Əli bellilər haray.

– Haray elli neynəsin?
Suyu göllü neynəsin?
Dəhnə haxdan quruyub,
Əli belli neynəsin?

# XVI. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ

## SARI AŞIQ

### I mətn

Belə danışıllar ki, Maqsuddu kəndində bir aylə varmış. Tərəkəmələr arannan gəlib dağa gedəndə o evə düşərmişdər. Bı aylənin uşağı olmurmuş. Bir gün tərəkəmələr bı evdə genə qonağımış. Tərəkəmələrdən biri ev sahibinə deyir ki, uşağıız olmasa, bir də bı evə ayax basmıyajeyıh. Ev sahibi çox pərt olur bı sözdən. Vaxt keçir, tərəkəmələrin dağa qalxmax vaxtı yaxınnaşır. Ev sahibinin arvadı qarnına əskidən-zaddan bağlıyır. Əri baxır sevinir ki, arvadı hamilədi, qonaxların əhdi hasil olajeh. Arvad çıxır uca bir yerə, görür ki, budu, tərəkəmələr gəlməhdədilər. Götürür həyətdəki bitili bir ağaşdan yüyrüh asır. Yüyrüyün içinə çəltih dibəyi qoyur, üstünü örtür. Tərəkəmələr gəlir evə, qapıda ağaşdan asılan yüyrüyü görüllər, sevinillər ki, ev sahibinin uşağı olup. Ev sahibinə göz aydınnığı verip, keçillər evə. Bir az keçənnən sora görüllər uşaq səsi gəlir. Ev sahibinin arvadına deyillər ki, uşax ağlıyır, niyə gedip götürmürsən? Arvad azca ağır tərpənəndə qonaxlar özdəri çıxıllar çölə. Arvad da onnarnan bir yerə çıxır. Baxıb görüllər ki, beşihdə sarı bir uşax var, ağlıyır. Demə, İlahi tərəkəmələrin, ev sahibiin əhdini eşidib, çəltik dibəyini uşax eliyip. Çəltik dibəyi sarı, çil-çil olduğu üçün uşax da sarı, çil-çil olur. Bı uşağa Sarı adı qoyullar. Bı uşax haxdan yarandığına görə haqq aşığı olur. Ona Sarı Aşıx deyillər.

### II mətn

Bir gün Lələ addı bir adam Haca gedirmiş. Gəlir bir evə qonax olur. Görür ki,bı evdə uşax yoxdu. Deyir, mən Haca gedirəm. Mən gəlincə uşağız olmasa, sizin evə ayax qoymuyacam. Kişi Hacdan qayıdır. Arvat görür ki, kişi gəldi. Tez götürüp beşiyə daş qoyur. Daş başdıyır ağlamağa. Arvat görür ki, daş döndü uşax oldu. Uşax elə hey ağlıyır. Bir bilici gəlir, deyir ki, adamlar gəlsin görüşə. Axırda qucağında uşax olan bir arvat gəlir. Arvat içəri girən kimi uşax sakit olur. Arvat uşağın yanında qalmağa razılıx verir. Uşağı göndərir evə. Bı uşax yenə başdıyır ağlamağa. Onda bilillər ki, daşdan yaranmış uşağın sakit olmağı bı uşağa görədir. Bı uşax bırda qalır.

Bınnar bir yerdə məktəbə gedillər. Bir-birin sevillər. Bı məhəbpətə mane olullar. Qızın atasını başqa bir dağ kəndinə köçürdüllər. Bı ayrılığa onnar dözmüllər. Qızı nə qədər oğlan istiyirsə, qız getmir.

## III mətn

Bir gün qız aş bişirirmiş. Qış vaxtıymış, qar-boranmış. Qıza deyillər ki, Aşığı çağır gəlsin. O, haqq aşığıdırsa, gələcəh. Qız deyir:

Sarı, aşın bişdi gəl,
Pişdi, yerə düşdü gəl.
Yaxşı günün aşnası,
Yaman günə düşdü gəl.

Deyilənnərə görə, Aşıx az vaxta ayaxyalın qarı yara-yara gəlir:

Mən Aşığam, başa çıx,
Oxu dərsin, başa çıx.
Lələ, gəl, yeyin gəldim,
Ayaxyalın, baş açıx.

## IV mətn

Əlyandıda Sarı Aşıxgilin mal-heyvanı varmış. Sarı Aşıx da ordaymış. Bir gün Sarı Aşıx yatır, yuxuda Yaxşı ona buta verilir. Görüllər ki, Sarı Aşıx özündə-sözündə deyil. Gedib atası Qara İbrahimə xəbər verillər ki, oğlun xəstələnib. Sarı Aşığa buta verildiyi kimi, yuxuda Yaxşıya da Sarı Aşıx buta verilir. Qara İbrahim xəbər tutur ki, oğlu Salman bəyin qızı Yaxşıya aşiq olub. Qara İbrahim Maqsuddu kəndinə, Salman bəyin evinə elçiliyə gedir. Yaxşını oğlu Sarı Aşığa istiyir. Qızın ata-anası razı olur. Amma qızın qardaşdarı razı olmullar. Aradan bir müddət keçir. Qara İbrahim Maqsudduya ikinci dəfə Yaxşıya elçi düşür. Qızın qardaşdarı yenə Yaxşının Sarı Aşığa getməsinə razı olmullar. Bu Sarı Aşığa çox pis təsir eliyir. Sarı Aşıx düşür çöllərə.

Sarı Aşıxnan Yaxşı xəlvəti görüşüllər. Amma Yaxşının qardaşdarı onnarı qoymullar görüşməyə. Bir dəfə onnar görüşəndə Yaxşının qardaşdarı Sarı Aşığı tutub veriblər Gorusda bir murova ki, onun başını əksin. Amma murov aparanda Gorusda camaat Sarı Aşığı tanıyıp. Deyiplər, o, haqq aşığıdı, onu öldurməh olmaz. Murov görüp ki, öldürə bilmiyəjeh, onu İrana sürgün eliyir. Bir

müddət sürgündə qalannan sonra Sarı Aşıx gəlir Maqsudduya, gizdincə Yaxşıynan görüşür. Yaxşının qardaşdarı Sarı Aşığı öldürməh istiyillər, anaları Zeynəb xanım qoymur.

### V mətn

Bir gün Yaxşı çayda paltar yuyurmuş. Aşıx da onun yanındaymış. Yaxşı Aşığa deyir ki, ver paltarını yuyum. Aşıx paltarın çıxardır verir Yaxşıya, çıxır ağacın üstünə. Bı yannan Yaxşının əri Yaman gəlir. Görür ki, Aşıx çıxıp ağaca, kişiliyinin də yerində bir qızılgül var. Onnan sora Aşıxdan əl çəkir.

### VI mətn

Sarı Aşıx göz aşığıymış. Kişiliyinin yerində bir qızıl gül varıymış. Yaxşının da bı işdən xəbəri yoxuymuş. Bir gün Yaxşı çayda paltar yuyurmuş. Aşıx da kənardan ona baxırmış. Birdən Yaxşı Aşığı həvəsdəndirməh üçün ətəyini əlinə alır. Aşıx Yaxşının fikrini başa düşüb deyir:

Mən aşıx ətəy ələ,
Almısan ətəy ələ.
Bu quş o quşdan deyil,
Ünnəsən ətə yələ.

### VII mətn

Sarı Aşıx Həkəri kəndindəymiş. Yatır, yuxuda görür ki, xan onu çağırır Şuşuya. Başdıyır Şuşuya tərəf getməyə. Xan da adam göndərir ki, get Sarı Aşığı gətir. O adam gəlib Suarası kəndində Sarı Aşıxnan rastlaşır. Sarı Aşıxdan soruşur ki, Sarı Aşıx harda olar, necə tapmax olar onu? Sarı Aşıx deyir:

– Tanı mənəm, bil mənəm.

Xanın göndərdiyi adam Sarı Aşığın bı cavabınnan hirsdənir, onu qamçıynan vurur. Sarı Aşıx deyir:

Mən aşıx, sadağa ver,
Hersinə qadağa ver.
Əyər Aşıxdan salamat keşsən,
Bir ye, beş sadağa ver.

O, Sarı Aşıxdan uzaxlaşıb, on-on beş metr getməmiş atdan yıxı-

lır. Sarı Aşıx gedib onu yerdən qaldırır. Deyir ki, bəs Sarı Aşıq mənəm. Atdı Sarı Aşığa deyir ki, bağışla məni, tanımadım səni. Onnar birrihdə Şuşuya xanın hüzuruna gəlillər. Xan deyir ki, Sarı Aşığı sınayım görüm o, həqqətən haqq aşığıdımı? Boğaz bir inəh gətirdir. Soruşur ki, inəyin balası erkəhdi, ya dişidi, deyir ki, əvvəlcə şəyirdim cavab versin, sora mən cavab verərəm. Şəyirdi deyir ki, inəyin balası dişi, qaşqa buzovdu. Sarı Aşıx deyir ki, buzov dişi olmağına dişidir, ama qaşqa deyil, quyruğu çağalıdı, quyruğunun üj tərəfi aladı. Quyruğu gəlif alnında düyünnənib, odu ki, şəyirdim elə bildi ki, buzov qaşqadı. Xan Sarı Aşığa deyir:

– Sən doğrudan da, haqq aşığısan. Qal bırda, bırda aşıxlıx elə.

Aşıx deyir:

Mən aşığam Həkərim,
Yağım,balım, şəkərim.
Gen dünya sənin olsun,
Mənə bəsdi Həkərim.

**variant**
## VIII mətn

Deyir, bir gün yasavol Sarı Aşığı tutub aparır, yolda bını şallaqnan vırır. Sarı Aşıq deyir:

Dalını o dağa ver,
Bı dağdan o dağa ver.
Aşıxdan sağ kutarsan
Bir möhkəm sadağa ver.

Deyir Sarı Aşığın bu sözündən sonra yasovul partdamaya düşüp ölür.

**variant**
## IX mətn

Bir gün bir neçə adam Sarı Aşığı sınamax istiyir. Deyillər, sınıyax, görəh haqq aşığıdı, ya yox. Haqq aşığı olmasa, yalançı olsa, tonqalda yandırax. Gəlillər yolda Sarı Aşıxnan rastdaşıllar. Soruşurullar ki, Sarı Aşığı görmüsənmi? Sarı Aşıx cavab verir ki, "gör mənəm", "tanı mənəm", "bil mənəm". Adamlar bı sözdərdən bir şey annamıllar. Görüllər ki, Sarı Aşığın qoltuğunda quru tikan, kol-kos

var. Soruşullar ki, bını neynirsən? Cavab verir ki, bınnarı belə götürmüşəm ki, məni yandıranda qoy tonqal gur yansın. Bı sözdərdən başa düşüllər ki, bı adam elə Sarı Aşığın özüdü. Tonqalda yandırmax məsələsini bilməyinə də lap mat-məəttəl qalıllar. Amma istiyillər bir də sınasınnar onu. Odu ki, bir inəyi göstərillər, deyillər, bax gör inəyin qarnındakı buzov dişidi, ya erkək? Sarı Aşığın qardaşı oğlu onun yanında şəyirdlih eliyirmiş. Sarı Aşıx deyir:

– Qoy əvvəl mənim şəyirdim cavab versin.

Qardaşı oğlu inəyə baxır, deyir:

– İnəyin balası sarı, qaşqa, erkək buzovdu.

Sarı Aşıx əlavə eliyir ki, buzov sarı, erkək buzovdu, ama qaşqa deyil. Quyruğu çağaldı, düyünnənib alnının ortasında, qardaşım oğlu elə bilir, qaşqadı.

İnəyi kəsillər. Sarı Aşığın dediyləri düz çıxır. Görüllər, inəyin balası sarı, erkək buzovdu. Quyruğu isə çağaladı, yanı quyruğunun ucu aladı. Adamlar inanıllar ki, Sarı Aşıx, doğrudan da, haqq aşığıdı.

**X mətn**

Sarı Aşıx yuxuda görür ki, murov onu çağırıb sürgün eliyir İrana. Səhər durur, özü başdıyır İrana sarı getməyə. Murov Gorusdan adam göndərir ki, gedib Sarı Aşığı gətisinnər onun yanına. O adam gəlib Məmmədbəyli kəndində Sarı Aşığı tapır. Soruşur ki, hara gedirsən, murov səni çağırır yanına. Sarı Aşıx deyir:

– Bilirəm niyə çağırır. İrana sürgün eləməh istiyir. Özüm gedirəm.

O adam Gorusa qayıdıp murova xəbər verir ki, Sarı Aşıx özü gedir sürgünə. Murov bı işə məəttəl qalır.

Sarı Aşıx bir müddət İranda qalır, qayıdır gəlir. Zeynəb xanım oğlannarınnan gizli bir aşırımda Sarı Aşığnan Yaxşını görüşdürür. Qardaşdar bı görüşdən də xəbər tutullar. Yaxşıynan Sarı Aşığın görüşünə imkan vermillər. Yaxşı xəstələnib ölür. Onu Maqsudduda Bakirələr qəbirstannığında basdırıllar. O qəbirstannıxda ancax Yaxşı kimi bakirə ölənnər, uşaxlar, bakirə qızdar basdırılır.

Sarı Aşıx iki-üç gün Yaxşının qəbri üstündə qalır. Xəstələnir. Vəsiyyət eliyir ki,

Mən aşıx, tərsinə qoy,
Tər təni tərsinə qoy.

Yaxşının qibləsinə,
Aşığı tərsinə qoy.

Aşığı Güləbird kəndində basdırıllar. Vəsiyyət elədiyi kimi onun üzünü qibliyə tərəf yox, Yaxşının qəbrinə tərəf basdırıllar.

## XI mətn

Yaxşının qardaşdarı Yaxşıya icazə vermirmişdər Sarı Aşıxnan görüşməyə. Ama onnar gizdində imkan düşən kimi görüşüllərmiş. Yaxşıgilin kəndinin yanındakı dərədə bir kol varmış. Yaxşıynan Sarı Aşıx o kolun yanında görüşüllər. Yaxşının qardaşdarı onnarın görüşməyindən xəbər tutup gəlillər, görürlər ki, Yaxşı paltar yuyur, Sarı Aşığın da əksi düşüb suya. Görüllər ki, Sarı Aşığın, ayıb olmasın, kişiliyi yoxdu, kişiliyinin yerində bir dənə qızıl gül var. Bını görənən sora Yaxşının qardaşqdarı Sarı Aşıxdan əl çəkillər, onnan işdəri olmur.

* * *

Qarrı-borannı bir gündə Yaxşının qardaşına toy eliyillər. Sarı Aşığı da toya çağırıllar. Sarı Aşıx toya gələndə qar-boran kəsir, gün çıxır. Bir ağzıgöyçəh lağ eliyir ki, bına bax, toya əliboş gəlib. Sarı Aşıx civinnən yeddi dənə düyü çıxardıb, hər qazana bir düyü atır. Toyun aşpazdarı qazannarın düyüsünü yığıb-yığışdıra bilmillər.

## XII mətn

Yaxşını Yaman addı bir bəyə verillər. Qohum-qardaş Yaman bəyin qulağını doldurur: "Noolsun ki, Sarı Aşıx göz aşığıdı, sənin arvadınnan adı çıxıbsa, başını batırmalısan".

Yaman bəy qapının ağzında bir quyu qazdırır, quyunun üstünü xalçaynan örtdürür, Sarı Aşığı qonax çağırır. Sarı Aşıx gəlir, qapının ağzına çatanda ona əyan olur ki, quyu qazıblar, deyir:

Aşığam, yazmamışam,
Yolumu azmamışam.

Quyunun yanınnan ötüb keçir içəri. Qonaxlıx qızışır. Yaman bəy eşiyə çıxanda gupbultuynan düşür quyuya. Sarı Aşıq bayaxkı bayatını belə tamamlıyır:

Quyu qazan özü duşər,
Mən ki, quyu qazmamışam.

## XIII mətn

Bir gün Aşıx çay qırağında durmuşmuş. Görür ki, bir qoja kişi çayı o taya keçməh istiyir, amma keçə bilmir. Gəlir kişini alır dalına, çayı keçirir o taya. Kişi də bının dalında, kürəyində. Çayın ortasında kişiyə deyir ki, saa bir tapmaca verəjem, tap görüm. Deyir:

Mən aşığam, nədəndi,
Mürğ ağzında nə dəndi?
Basılmamış maydannan,
Mindiyin day nədəndi?

Kişi mını tapa bilmir. Özü deyir ki,

Lələyəm, başdan mən,
Yemərəm hər aşdan mən.
Nə atam var, nə anam,
Yaranmışam daşdan mən.

## XIV mətn

Bir gün Aşıx nə təhər olursa, Yaxşıya qarğıyır. Yaxşı dağa getmişmiş, bı da aranda qalmışmış. İndi nə təhər olursa, bilmirəm, qarğıyır. Deyir:

Əvləri taşı qayda,
Tikilif taşı qayda.
Bı səhər, bı sabahda,
Yaxşının başı qayda.

Aşığın qarğışınnan sora Yaxşı bərk xəstələnir. Bı da bilir ki, Yaxşının başında nəysə var. Durur düşür yola, gəlir çıxır Yaxşının yanına. Görür ki, Yaxşının vəziyəti ağırdı. Bilir ki, bının qarğışı tutuf. Qayıdır deyir ki,

Mən aşıx, kürmələdi,
Dost zülfün bürmələdi.
Ağzın qurusun, ay Aşıx,
Dilin nə kürmələdi?

## XV mətn

Yay olanda Yaxşı qardaşıgilnən dağa gedir. Aşıx da deyir ki, gedim, arana gələn yolun qırağında bir bostan əkim, yemiş-qarpız əkim, Yaxşı arana gələndə, bı yoldan keçəndə yemiş-qarpızdan

yesin. Aşıx bostanı əkir. Vədə gəlif yetişəndə Yaxşı öz yoldaşdarıynan – başının qızdarıynan arana qayıdır. Gəlif həmən yerə çatıllar. Görüllər ki, yolun qırağında yaxşı bostan var. Qızdarı göndərir ki, gedin o bostannan yemiş-qarpız gətirin yeyəh, bir az susuzduğumuz yatsın. Qızdar gəlir. Bı vaxt Aşıx yatmışdı, qızdarın bostana girmələrinnən xəbəri olmur. Səsə oyananda görür ki, bir dəstə qızdı bostanı dağıdıllar, nətəri gəldi qırıllar, tağları əzillər. Bıları tanımır, soruşur ki, siz kimsiz, bı bostanı niyə dağıdırsız qoyun kimi? Qızdar deyir ki,

Qoyun biz,
Qurd siz olun, qoyun biz.
Allah vermiş bostandı,
Doluşmuşux qoyun biz.

Aşıx da deyir ki,

Mən aşığam, qoyun siz,
Qurd biz olax, qoyun siz.
Aşıx əkmiş bostandı,
Doluşmusuz qoyun siz.

Qızdar gedir Yaxşıya deyillər ki, bəs bı bostanı Aşıx əkif, özü də bırdadı.

## XVI mətn

Bir arvat çayın qırağında paltar yuyur. Birdən balığ görür. Əlindəki sabınnan balığı vurup öldürür. Bı hadisəni Sarı Aşıx görür. Belə bir bayatı – tapmaca deyir:

Atdım-tutdum daş dəyil,
Qanaddıdı, quş dəyil,
Onu vıran ər dəyil,
Bişirip yesək ar dəyil.

Heyvanı kişi kəsməlidi. Qadın kəsən heyvan haram sayılır. Ancax balığ kəsilmir. Ona görə də qadının öldürdüyü balığı yeməh olar.

## XVII mətn

Deyillər bir gün Sarı Aşıx taxıl zəmisinnən keçirmiş. Görür ki, bir neçə adam sümbül topalarının gövdəsinnən tutup, sümbül olan hissəsini (baş hissəsini) küləşin alovunda ütür, sora da yeyillər. Bı görən Sarı Aşıx belə bir bayatı deyir:

Aşıx aşı bişirər,
Bilməz naşı bişirər.
Aşıx bir hikmət görüb,
Ayax başı bişirər.

**variant**

**XVIII mətn**

Aşıx gedip görür ki, bir arvat küləşnən aş bişirir. Deyip:

Aşıx aşı bişidi,
Qələm qaşı düşüdü.
Aşıx bir  hikmət gördü,
Ayax başı bişidi.

**XIX mətn**

Aşıx aydın gecələrin birində yol gedirmiş. Su  yığılmış çalada həşəratdarın boğulduğunu görüb deyir:

Aşağıdan ay doğdu,
Cansız canlını boğdu...

Səhərisi, günəşdi gündə arıların beçə verdiyini görəndə bayatını belə tamamlıyır:

Anası beşiydə ikən,
Qızı bir oğlan doğdu.

**XX mətn**

Deyillər ki, Sarı Aşıx yenə də səfərdiymiş. Həkəri çayının kənarınnan keçəndə uşax çığırtısı eşidir. Yaxınnaşanda görür ki, bir körpə uşağı gicitkən dalıyır. Uşağı ordan çıxarıb deyir:

Mən aşığam, nədəndi,
Nə sünbüldü, nə dəndi.
Ağzı yox, adam tutar,
Tapın görüm nədəndi?

**XXI mətn**

Sarı Aşıx meşədən keçəndə ovçuların nəsə ovluyub, kabab bişirdihlərini görür. Yaxınnaşıb soruşur. Deyillər ki, kirpi əti xəstəyə dərmandı, onun üçün də bişirrih. Aşıx bı barədə bayatını belə qoşur:

Mən aşıx, oxun atdı,
Ətin dərmana qatdı.
Aşıx qovun yeyibdi,
Saplağı dəmir qatdı.

## XXII mətn

Bir dəfə yolda Aşıx bir atdıya rast gəlir. Atdı oğlunu da tərkinə alıbmış. Atın üstündə xeyli şəkilli gəbə, kilim varmış. Bınnarı görən Sarı Aşıx bir bayatı deyir:

Mən aşığam, bir ata,
Bir oğuldu, bir ata.
Qırx dəvə, səksən qatır,
Yüklənibdi bir ata.

## XXIII mətn

İki atdı gedirmiş. Bınnardan biri Sarı Aşığıymış. Qabaxlarına bir daş çıxır. Yoldaşı Sarı Aşığdan soruşur:

Mənim adım Yaşərdi,
Nə xeyirdi, nə şərdi.
Sənnən xəbər alıram,
Bı daş necə yaşardı?

Sarı Aşıx çox hazırcavab adamıymış. Qayıdıb deyir ki:

Aşıx, aşın bişibdi,
Bişib yerə düşübdü.
Dünya binnət olannan,
Bı daş yerə düşübdü.

## XXIV mətn

Ərəşdə yas olur. Camaat Aşığa deyir ki, sən getməsən, biz də getmiyəciyih. Aşıx bırda deyir:

Mən aşıx, yasa mənsiz,
Gül bitməz yasəmənsiz.
Ərəşdə bir meyit düşüb,
Getməzdər yasa mənsiz.

## XXV mətn

Bir gün Aşıx gəlirmiş. Görür ki, bir oğlannan bir qız çəkiliplər daldıya. Bınnar Aşığı görüllər. Oğlan tez keçir qızın arxasına. Aşıx bırda deyir:

Mən aşığam, nərgizdər,
Bənəvşələr, nərgizdər.
Əsrəmiş maya gördüm,
Daldasında nər gizdər.

Sən demə, qız da söz bilənmiş. Qayıdır ki,

Mən aşıx, gördü günü,
Ay doğdu, gördü günü.
Namərddə söz əylənməz,
Mərd deməz gördügünü.

Aşıx da onnarı arxayın eləməh üçün deyir:

Mən aşıx, ləngəridi,
Sinidi, ləngəridi.
Çox bilib az danışmax,
İgidin ləngəridi.

## XXVI mətn

Bir gün Aşıx Yaxşının əri Yamanı qarğıyır:

Aşıx, Yamanı görüm,
Ölsün Yamanı görüm.
Nə Yaman məni görsün,
Nə mən Yamanı görüm.

Bı söz Yaxşının qəlbinə dəyir. Aşıx onun ürəyini ələ almax üçün deyir:

Aşıx, Yaman yaxşıdı,
Xalın yaman yaxşıdı.
Yaxşının xətrəsi üçün,
Yenə Yaman yaxşıdı.

## XXVII mətn

Birinin atı itmişmiş. Aşığa deyir ki, sən haqq aşığısan, mənim atımı tap. Aşıx deyir:

Mən Aşıx, qəmər hay,
Gəlin qurşar kəmər hay.

Göydə bir maydan gördüm,
Qulunu daldan əmər hay.

Gedir görür ki, göy çəməndə otduyur. Qulunu da anasını əmir.

**XXVIII mətn**

Birinin malı itmişmiş. Gedir aşığa deyir ki, mənim malımı tap. Sən demə, malı kəsib, üstünə də göy parça çəhmişmişdər. Aşıx deyir:

Mən aşıx, göyçəkdilər,
Gördülər, göyçəkdilər,
Öldürdülər aşığı,
Üstünə göy çəkdilər.

**XXIX mətn**

Birinin də malı itmişimiş. Kimnən soruşur boynuna almır. Axırda Aşığa üz tutur. Aşıx deyir:

Mən aşığam, dan dilər,
Axşam dilər, dan dilər.
Öldürdülər aşığı,
Hamılıxnan dandılar.

**XXX mətn**

Aşıx Qısır dağına gəlib görür ki, ovçu maralı tutup. Onu qutarmax üçün deyir:

Mən aşıx, Qısır dağı,
Köşbəyin qısır dağı.
Dalda gəz, ay maralım,
Avçılar  busur dağı.

**XXXI mətn**

Şamlığa od düşmüşmüş. Şamlığın hər iki yanı da su imiş. Maral da şamlıxda qalmışımış. Bırda deyir:

Mən aşıx, maral yana,
Yol gedə Maralyana.
Araz axar, Kür quruyar,
İçində maral yana.

## XXXII mətn

Aşıx Araz qırağı gedirmiş. Bağ-bağçanı görüb həvəsdənibmiş. Deyir:

Mən aşıx, bağ salam,
Bostan əkəm, bağ salam.
Mən də bir bağban olup,
Bir gözəl bağ salam.

Qayıdanda görür ki, bağlar solup. Deyir:

Mən aşıx, bağ salam,
Bostan əkəm, bağ salam.
Verana bağlar gördüm,
Dəli dəyiləm bağ salam.

## XXXIII mətn

Aşıx bir əvə gedip. Görüp kü, Mina addı bir arvad qazanda baş -ayax bişirir. Deyip:

Mən aşıx, sərpə çalar,
Av özün sərpə çalar.
Mina götdü kərpici,
Göründü sər paçalar.

# SARI AŞIĞIN BAYATILARI

Mən aşiqəm, vay dərdim,
Vay dərmanım, vay dərdim.
Xalx gül əhdi, gül bişdi,
Mən gül əhdim, vay dərdim.
*    *    *
Mən aşıx, busə qaldı,
Gözüm yalbusa qaldı.
Dəm-dəm sızıldamasa aşıx,
Deyəllər susa qaldı.
*    *    *
Görünən minarələr,
Məsciddər, minarələr.
Əbcəti bilməyənnər,
Quranı min aralar.

*    *    *

Mən aşıx, məmə qandı,
Ağ qandı, məmə qandı.
Ləbin "dən-dən" deyir, ay qız,
Sinən göy, məmən qandı.

*    *    *

Aşıx yadına bağlar,
Xalın yadına bağlar.
Genə qoca bülbülün,
Düşüp yadına bağlar.

*    *    *

Aşıx dəryada qaldı,
Xalın dəryada qaldı.
Öldüyümnən dəyildim,
Hayıf, yar yada qaldı.

*    *    *

Aşıx qarabağlıdı,
Xalın qarabağlıdı.
Nə gələn var, nə gedən,
Deyən, yollar bağlıdı.

*    *    *

Quranın hərif  işinnən,
Oxullar hərif işinnən.
Afsınçı fəhmə yeyər,
Afının hər fışınnan.

*    *    *

Aşıx gərmə iləndi,
Xalın gərmə iləndi.
Goylumun təsəllisi,
Səni görməyiləndi.

*    *    *

Mən aşıx, yüz qandı,
Əlli qandı, yüz qandı.
Kaba yıxmax bir əvdi,
Köyül yıxmax yüz qandı.

*    *    *

Mən aşıx, Təhlədənəm,
Tək evi Təhlədənəm.
Tərlanın cürəsiyəm,
Sonalar təhlədənəm.

*    *    *

Şirvanın o mağarı,
Yay gircəh ot ağarı.
Aşığın şan-şan bağrın,
Eyləmiş o Taarı.

*    *    *

Mən aşıx, yaxşıdan gözdər,
Xalın yaxşı, dan gözdər.
Baxdıxca şirin düşər,
Doymaz Yaxşıdan gözdər.

*    *    *

Aşıx Qaramannıdı,
Xalın qara mannıdı.
Yarın soyux üzünnən,
Hələ qar amannıdı.

*    *    *

Mən aşıx, sinə qoyun,
Sındırın sinə qoyun.
Yaxşını qıblasında,
Aşığı tərsinə qoyun.

*    *    *

Mən aşıx, tağı yar,
Qoynu cənnət bağı yar.
Bostanım sənə qurban,
Ayaxlama tağı, yar.

*    *    *

Mən aşıx, vətən sarı,
Köynəyi kətan sarı.
Gəzməyə qürbət ölkə,
Ölməyə vətən sarı.

*    *    *

Aşıx dərdə zalımı,
Düşsün dərdə zalımı.
Sənnən dərman gəlməsə,
Mənnən dərd azalımı?

*    *    *

Mən aşıx, günü günə,
Gün verməz günü günə.
Keçən günə gün çatmaz,
Bağlasan günü günə.

*    *    *

Mən aşıx, qara qandı,
Yovşandı, qarağandı.
Öldürmüsən aşığı,
Əllərin qara qandı.

*    *    *

Aşıx yarada nə var?
Xalın yarada nə var?
Yaradanım yar olsa,
Belə yarada nə var?

*    *    *

Qərşidə quru daşı,
Yeməyə qurud aşı.
Mövlanın köylü olsa,
Göyərdər quru daşı.

*    *    *

Aşıx nə deyip ağlar?
Xalın nə deyip ağlar?
Dəryada bir gül bitif,
O da su deyip ağlar.

*    *    *

Aşıx yaxşıya mənnən,
Xalın yaxşıya mənnən.
Gedersən salam barı,
Deynən Yaxşıya mənnən.

*    *    *

Aşıx dərdə nə bağlar?
Xalın  dərdə nə bağlar?
Gedəh dərddi yanına
Görəh dərdə nə bağlar?

*    *    *

Mən aşıx, buda məni,
Xəncəl al, buda məni.
Gör nə günə qalmışam?
Bəyənmir bı da məni.

*    *    *

Mən aşıx, ha səni,
Naxlaxlanıf ha səni.
Xəstə köylü nar dilər,
Mənim köylüm ha səni.

*    *    *

Aşıx elə gəlmənəm,
Ceyran çölə gəlmənəm.
Minnət etmə heş mənə,
Sizin elə gəlmənəm.

*    *    *

Aşıx dəryada qaldı,
Xalın dəryada qaldı.
Öldüyümnən dəyildim,
Hayıf, yar yada qaldı.

*    *    *

Canımın azarı var,
Ağrıyır azarı var.
Aşığın şan bağrına,
Qonmamış az arı var.

*    *    *

Kitabın gülüstandı,
Aç oxu, gülüstandı.
Yaxşının göz yaşınnan,
Baxçada gül istandı.

*    *    *

Əvləri günə qarşı,
Tikildi günə qarşı.
Biz getdih elimizə,
Sən qaldın günə qarşı.

*    *    *

Mən  aşıx, mən də bının,
Meyli var məndə bının.
Çox cəfalar çəhmişəm,
Yolunda mən də bının.

*    *    *

Aşıx gedər hər yana,
Sözün deyər mərdana.
İyidə ürək verər,
Bəd ayaxda mərd ana.

*    *    *

Mən aşıx,  gəzindilər,
Ox-yayın gəzindilər.
Canım bir dərdə düşdü,
Dərmanı gəz indilər.

*    *    *

Aşıx yaxşıdı, yaxşı,
Xalın yaxşıdı, Yaxşı.
Sən günəşdən göyçəhsən,
Adın Yaxşıdı, Yaxşı.

*    *    *

Dirinin gözü maza,
Dizi qara, gözü maza.
Qorxuram müjgan çalam,
Üzünnən gözüm aza.

*    *    *

Mən aşıx, keçi belə,
Kəmərin keçib ələ.
Nə çox gül, nə çox ağla,
Günüü keçi  belə.

*    *    *

Bı yollar, yaxşı yollar,
Getməyə yaxşı yollar.
Aşığa can dərmanı,
Yollasa, Yaxşı yollar.

*    *    *

Mən aşıx, gözəl ayaz.
Bulut yox, gözəl ayaz,
Al ələə qələmi,
Gözəli gözələ yaz.

## AŞIQ MAHMUD

Cəbrayıl rayonunun Şahvəlili, başqa varianta görə Hacıisaxlı kəndindən olub. XIX əsrdə yaşaması güman olunur. Türkiyəyə gedir. Deyilənə görə, Türkiyədə gözləri tutulur. Gözü görmədiyi üçün təndirə düşüb dünyasını dəyişib. Bir neçə şerini və şerlərindən ayrı-ayrı parçaları toplaya bildik.

* * *

Deyilənə görə, Aşıq Mahmud Osmanlıya gedəndə arvadı onunla getməyib. Bu münasibətlə belə bir şer deyib:

Əzəl əldən mənə həmdəm olan yar,
Yar odu kü, sevdigünə yar olsun.
Yar olmadın mana, dərdi-sər oldun,
Görüm günün keçsin, ahu-zar olsun.

Heç igidin haqqı zaya getməsin,
Bevəfanı muradına çatmasın,
Baharı açılsın, gülü bitməsin,
Ölkənizin yazı, yayı qar olsun.

Mahmud deyər, mayıl oldum o yara,
Alışıban cismim dönər fənara.
Ağ gün tapıb səni çıxma kənara,
Mənim bu diləyim aşkar olsun.

* * *

Aşıq Mahmud Osmanlıya gedəndən sonra düşmənləri onun qardaşı Zamanı öldürürlər. Bu xəbər Osmanlıda Aşıq Mahmudun qulağına çatır. Bu münasibətlə belə bir şer deyib:

Vətənimdən cida düşdüm,
Qan ağlar ellərim mənim.
Bir dost görüb danışmadım,
Lal olsun dillərim mənim.

Mən getdim Zaman qaldı,
Düşmənlər intiqam aldı.
Yarəb, görən kimə qaldı,
Əhəhli göllərim mənim?

* * *

Aşıq Mahmud Bartazdan arvad gətirib. Tutduğu işə peşman olan aşıq belə deyib.

Xub allanır o şeytanın oynuna,
Cəhənnəmin odun yığır qoynuna.
Öz yükünü qoyur özgə boynuna,
Boşdu qalır özgələrə günbəgün.

Dad mənim əlindən əl aman-aman,
Mən özüm olmuşam hamıdan yaman.
Nəfsim ilə cəng edərəm hər zaman,
Mən günahkar, üzü qarə günbəgün.

* * *

Qurban adlı bir oğlu ölür. Aşığa agah olur. Şahsənəm adlı arvadına deyir ki, Qurban məni çağırır. Aşıq dağa tərəf yola düşür. Görür ki, camahat yüklənib gəlir. Oğlunu soruşur. Deyirlər ki, basdırmışıq. Aşıq köçü qaytarır geriyə. Oğlunu çıxardıb arana gətirir. Deyirlər, oğlunu çıxardanda belə deyib:

Dünya, fanisən fani,
Dünya, sənə gələnlər hanı?
Gördünmü qərq etdi Qurbanı,
Rəhim xana barabardı, getdi.

Sarıyataqdan yenəndə bir bayatı çəkir:

Göydə qara buluddar,
Oynar qara buluddar.
Mənim ərzi halımı,
Söylə yara, buluddar.

Deyilənə görə, Dağ Tumaz kəndində Aşıq Şükür bayatını eşidib deyir:

– Aşıq Mahmudun səsi gəldi. Meyidi gətirillər.

* * *

Bir gün İran xanlarından biri Aşıq Mahmudu toya çağırıbmış. Aşıq bütün gecəni çalıb oxuyur. Məclisdə bir kürd varıymış. Aşığa deyir ki, aşıq, heç kürdü oxumadın. Bu münasibətlə Aşıq Mahmud deyir:

Kürdüm, kürdüm, xallı kürdüm,
Başı tirmə, şallı kürdüm.

Axşamnan kürdü deyirəm,
Erkəh eşşəh, hallı kürdüm.

* * *

Aşıq Mahmud darı biçirmiş. Bunun çarığı cırılır. Götürür ayağına keçə sarıyır. Bu münasibətlə deyir:

Əzəl əldən başmaq geyən ayaqlar,
Bir gün oldu sana keçə sarıdım.
Öşdüm-bişdim ayağıma bol oldu,
Artığını qola-qıça sarıdım.

Aşıq Mahmud darını biçir. Yığır bir dağara, atır dalına. Bu münasibətlə deyir:

Ay ağalar, sizə deyim dərdimi,
Aranda gün gördüm damıdan betər.
Nazik bir kəndirdi, ağır dağarcıq,
Kəsibdi boynuma samıdan betər.

* * *

Vəli Çələbi (Hacı Qaraman ocağından olan şəxs) Aşıq Mahmuda oxumağı tövbə elətdirib. Deyib ki, saz çalıb oxumaq günahdı. Deyillər, o vaxtdan Aşıq Mahmud sazı qoyub yerə. Bu münasibətlə deyib:

Gün batan Naxçıvan, gün doğan Şirvan,
Arasında varmı, ay Aşıq Mahmud.
Hansı zikri-xarab sana man oldu,
Dedi ki, eyləmə tay, Aşıq Mahmud.

**Aşıq Mahmudun belə bir gərayılısı da var:**

Qara bağrım qana döndü,
Sinəm yara, mən neynim?
Olmazın dərdə düşmüşəm,
Bulunmaz çara, mən neynim?

Əcəb xoş günnər keçirdim,
Yaxşı yamanı seçirdim.
Könül quşunu uçurdum,
Vardı çöllərə, mən neynim?

Təbib olsa, nə yanardı,
Dərdimə dərman tapardı.
Mənsiz məni qəm apardı,
Ələm aşkara, mən neynim.

Bu dərdi-qəm məndə qaldı,
Canımı azar aldı,
Günbəgün ömrüm azaldı,
Düşdüm əfkara, mən neynim?

Leylinin Məjnun dağında,
Görünür solu-sağımda
Ömrümün axır çağında
....................................

Qəza durupdu qəstimə,
Qonufdu çeşmin üstünə
Ünlərəm gəlməz qəstimə,
Mürğü təyyara mən neynim?

Qəmin dəryasına axdım,
Canımı oddara yaxdım,
Mahmud deyər, yatır baxtım,
Boyandı qara, mən neynim?

## ŞAİR MƏMMƏD VƏ QARDAŞI SÜLEYMAN

Şair Məmməd XX əsrin əvvələrində yaşayıb-yaratmış el şairidir. Söyləyicinin dediyinə görə, savadsız olmuşdur. Şerlərini şifahi, bədahətən demiş, buna görə də, əksər şerləri yaddaşlardan silinmişdir. Şair Məmmədin şerlərini bizə demiş söyləyicinin özü də onun bir çox şerlərini unutmuşdur. Bu səbəbdəndir ki, şerlərin bəziləri yarımçıq, bəziləri isə təhrif olunmuş şəkildədir. Şair Məmməd Qarağaşlı kəndində anadan olmuş, orada da vəfat etmişdir. Onun belə bir məzəli şerini yazıya aldıq:

Tezdən gəldim  alıya,
Başım keşdi balıya,
Ərzə yazdım Qalıya,
Aman mığmığ əlinnən,
Yaman ditdi əlinnən.

Mığmığ qoymur bir ləh basax,
Tutax ditdini də asax,
Allah yolu qurban kəsax,
Aman mığmığ əlinnən,
Yaman ditdi əlinnən.

Qapıda oddadım kərmə,
Bı günümdə məni görmə,
Ellərə gedərəm, gəlmə,
Aman mığmığ əlinnən,
Yaman ditdi əlinnən.

*   *   *

Şayir Məmməd bir qız istiyirmiş. İş elə gətirir ki, qızın ayləsi köçüp gedir Dağ Tumasa. Məmməd bı qızın dərdinnən dəli-divanəymiş. Qəral tutammır, qızın dalısınca gedir  Dağ Tumasa. Yolda bına deyillər ki, bəs onnar getdilər Üştəpiyə. Məmməd pay-piyada üz tutur Üştəpə tərəfə. Yolda bını tanıyannara irast olur. Məlum olur ki, Məmmədi aldadıblar, qız elə Dağ Tumasdadı. Məmməd təzədən qayıdır Dağ Tumasa. Yolda möhkəm-möhkəm soyuxluyufmuş. Bıyannan da qardaşdarı xəbər tutullar ki, Məmməd Dağ Tumasdadı. Qardaşdarı gedif bını tapıllar, görüllər ki, bir ağaş dibində Məmməd qızdırma içində nır-nır nırıldıyır. Məmməd bırda bir şeyir deyir:

Bir şirin gərnəşdim, titrəşdi  əzam,
Xiyalımnan keşdi hanı qızdırma.
Bütün yaylaxçıynan qol– boyun gəzir,
Əlaltı eyliyif məni qızdırma.

Birdən günaşırı, birdən gündədi,
Erməniyə getmir, bizim dindədi,

Həənə gedirəm, gözü məndədi,
Əlaltı eyliyif məni qızdırma.

Qızdırmışam, turşu qatın aşıma,
Qızdırdıxcan ağrı çıxır başıma,
Həkayət eyliyim öz qardaşıma,
Əlaltı eyliyif məni qızdırma.

* * *

Bir gün Məmməd Qaladan kəndə gəlirmiş, qabağı axşama düşür, Malxələfdə dostu varmış, Qəhrəman adında, gejə onnarda qalmalı olur. Qəhrəman bının üzünə nətər baxıf, bilmirəm, görükür pis baxıb, Məmməd bı şeri deyib:

Qəhrəman axşamatan dəyirmannan dən daşıyır,
Arxı cuvar eyliyib gündə bir daşı daşıyır,
Qonağa çörəh gəti-deyəndə qarnın qaşıyır,
Nimçədə para çörəh, gör necə mehriban gəlir.

* * *

Bir gün Məmmədin qaynənəsi bınnara keçi qarnında şor göndərir. Məmməd öz-özünə fikirrəşir ki,dağdan gələn nə olar? Ya qovurma olar, ya yağ olar. Eşir, görür şordu. Bı şeri deyir:

Yaz açılar, qızdar gedər bağa – tuta,
Bizim yerdə şoru töküllər itə,
Nizam – tərəziynən vırmışam puta,
Mana bir altı put şor göndərifdi.
Abınan-tabınan yığıf dəriyə,
Dedim, günə qoymuyum, yağdı, əriyər,
Mənnən salam getsin Nənəqız qarıya,
Mana layıx bilif, şor göndərifdi.

* * *

Məmmədin qardaşı Süleyman da sözbilən imiş. Bir gün Süleymanın qızı Salvartıya gedirmiş. Atası yollara yalvara-yalvara bı şeri deyif:

Bı yil olmadı barama,
Təbib gətirin yarama,
Xəbər getsin Daşhərəmə,
Yol ver, sənnən Pərim getsin.

Gəlinnər bişirər aşı,
Yığılar qohum-qardaşı,
Xinzirəyin Kəhərdaşı,
Yol ver, sənnən Pərim getsin.

Xaraba qalsın Həkəri,
Kasıfdan tutur nökəri,
Gorusdan o yana Şəkəri,
Yol ver, sənnən Pərim getsin.

Qara buluddar oynaşır,
Dağın dalınnan boylaşır,
Yəəsiz balalar ağlaşır,
Yol ver, sənnən Pərim getsin.

## QARAĞAŞLI SÜLEYMAN VƏ QARDAŞI ƏLİŞ

Qarağaşdı Süleyman və Ağaməmməd yazıya ot pişməyə getdilər. Orada bir yerdə şana, şadara, balta, cüt qəyişi, bir də köhnə orax tapıllar. Həmən şeyləri gətirif kəttə Sud Təhməzə verillər. Sud Təhməz də onnarı oğru kimi ora-bıra çəhdirir. Bı münasibatnan Süleyman şer qoşur. Həmən şer bıdı:

Yoldaşım Ağaməmməddi, biz belə getdih, biçinə,
Çoğan gəzdiyimiz yerdə qəfil çıxdığ içinə,
İnanmırsan Qurana, and içim keşiş xəşinə,
Xəş belə dövranıdı, heş belə divan olmaz.

Qaraçı türkman kimi aldım şadarı dalıma,
Bı sözdər daşıllar, nəzər etmir afalıma,
..............................................................
Xəş belə dövranıdı, heş belə divan olmaz.

Urusun zakunudu, hər gədəni bəy edəsən,
Ağlı dürüst dolanıf, canını qurban edəsən,
Oğrunu boşduyasan, doğruya divan edəsən,
Xəş belə dövranıdı, heş belə divan olmaz.

* * *

Bir gün Süleyman bulağa gedən yolun qırağında durufmuş. Kətdə bir dul arvad varmış, cavanmış, bir az da ayarımış. Bı gəlif bulağa gedəndə Süleymana deyir:

– Ə, Süleyman, maa bir söz qoş. Gəlinin adı da Sonaymış. Süleyman deyir:

– Ay Sona, yolunnan düz get, daa məni xatıya salma.

Sona əl çəhmir, Süleyman bına bir söz qoşur:

Ay gəlin, namxuda,
Döşdəri peykan məmələr.
Bəzinin canını alır,
Bəzilərinə can məmələr.
Ağlıxda oxşadıram,
Mən Savalan qarına.
Bərklihdə oxşadıram,
Mədən yerinin narına.
Üjdəri qırmızıdı,
Gül gəlməz onun yanına,
Dad əlinnən qaraqaş,
Bedad əlinnən qaraqaş.

Sona deyir:

– Genə de.

Deyir:

Qışın zəhmətinnən əsnəşir dağlar,
Yığılır bağbannar, qol olur bağlar,
Məni bırda görən hərcayı çağlar,
Məni qalmaqala salma bağında.

* * *

Süleymanın qardaşı Əliş də deyəndi. Onun da bir şeri yadımda qalıf:

Mən səni sevmişdim bildir biçində,
Din bəslərəm hər dinnərin içində,
Sözü verdin köhnə Gorus içində,
Dönüfdü, qaçıfdı mənim sevdiyim.

Hamısı ağdı, təhcə-təhcə qarası,
Getməz mənnən sən gözəlin yarası,

Görüm, ölsün səbəbkarın balası,
Dönüfdü, qaçıfdı mənim sevdiyim.

Qaşdarı qaradı, kipriyi almas,
Hardan vırsan ordan yaram sağalmaz,
Yüz də and iç ağıllılar inanmaz,
Dönüfdü, qaçıfdı mənim sevdiyim.

**UZUN ƏSƏD**

Uzun Əsəd vergiliymiş. Gələcəhdən xəbər verirmiş. Deyirmiş, gələcəhdə nə olajeh. Düz çıxıf hamısı. Uzun Əsəd Muradxanlı oluf.

Yaxşı günnər əzəl keşdi,
Töhdü bağlar xəzəl keşdi,
Əlimnən bir gözəl keşdi,
Ağıl, mərfət, kamaldarım.

* * *

Oba köşdü, dam qaldı,
Damın yeri nəm qaldı.
Gördüyüm yaylaxları,
O gəzdiyim oylaxları,
Ta gəzmədim, xam qaldı.
Köşdü bir canım, elim,
Yerində bir ağlıkəm qaldı.

* * *

Başı ala, qarrı dağlar,
Qarrı da olar, qarsız da.
İyidin canı saz gərəh,
Mallı da olar, malsız da.
Bülbülün bağı sağ gərəh,
Barrı da olar, barsız da.

## ÇOBAN ƏLİ

Çoban Əli Həmzəlidəndi, mənim atamnan, babam Mıstafaynan dost oluf. Mıstafa babam da söz bilən oluf.

Yaz açılıb, çaylar axıb, sel gəlir,
Köysündə düzülüf ağır el gəlir.
Dəvələr üstündə incə bel gəlir,
O zaman sənnən saz ollam, dağlar.

Dağların başında ceyran yol eylər,
Su düşən yerrəri ördəh göl eylər,
Dört yanınnan ağır ellər yol eylər,
O zaman sənnən saz ollam, dağlar.

Su düşən yerrərdə durulur göllər,
Köysündə düzülüfdü bı gələn ellər,
Ağ üzünə töhmüşdü zərəfşan tellər,
O zaman sənnən saz ollam, dağlar.

Dağların başında ağ çiçəh, sarı çiçəh,
Həsrətini çəkirdim, top qarabirçəh,
Sədəf dəhanında buxağı göyçəh,
O zaman sənnən saz ollam, dağlar.

Bax, aranın tağların, üzüm bağların,
Soyux bulaxların, qəlbi dağların,
Qalın qaymaxların, kərə yağların,
O zaman sənnən saz ollam, dağlar.

Dört yanında qoyun-quzu mələşir,
Bulaxlar üstündə qız-gəlinnər oynaşır,
Bı dağlara toy busat da yaraşır,
O zaman sənnən saz ollam, dağlar.

## ŞIX MƏHƏMMƏD

Şıx Məmməd Zəngilan rayonunun Sırkənd kəndindəndi. Az savaddı olsa da, haqq aşığıydı, şair idi. Bir dəfə o, yaz fəslində çay kənarıynan gedirmiş. Orda cavan qızdar, gəlinnər paltar yuyurmuşdar. Ona görə də bunnarın qol-qıçı açığıymış. Köhnə vaxtda da qız-qadın üçün qəbahət sayılırdı. Ona görə də gəlinnər, qızdar bını görən kimi daldalanmax üçün qaçıllar böyürtkan talalarına. Bı elə ordan bədahətən deyir:

Dağların çiçəh vaxtıdı,
Çiçəyin göyçəh vaxtıdı,
Qaçıb doldular şəlliyə,
Maralın birçəh vaxtıdı.

## ŞAİR ABIŞ

Dağ Gilətağ kəndində Şair Abış vardı. Onu mən şəxsən gördüm. O, bədahətən çox belə dolğun məzmunnu şeyrlər deyirdi. Həmən kətdə bir məllim varıydı. O, özü söhbət elədi.

Bir gün, deyir, gördüm ki, rəncbərrər toxum götürüblər, qoyublar ulağın üstünə, cüt-filan, gedirrər əkin əhməyə. Deyir, bı kişiyə sataşmax istədim. Dedim:

– Abış əmi, gəl sənnən bir deyişəh. Deyir, bı kişi çiynindəki küpü söykədi daşın üstünə. Dedi ki,

Budu rəşbərrər hoşa-hoş gəlir,
Kimi dolu gəlir, kimi boş gəlir,
Hazırraş ki, toğlu üstə qoş gəlir,
Axtar, cavabımı sora verərsən.

Sora həmin kişi – Şair Abış bir dəfə toya qonax gəlir. Toy mənim böyük bacımın idi. Onu köçürmüşdülər. Atamın Abbasəli adında bir əmisi oğlu olub. Deyir ki, bəyə gərəh daş yüklətdirib oynadax.Əyər bını eləməsə qızı bıraxmıyacıyıx. Bı da dəliqannı adam olub. Dediyin də eliyən imiş. Bəyin əlacı kəsilir, razılaşır.

Daşı yığıllar səbətə. Bəy səbəti qucağına alıb başdıyır oynamağa. Elə bı vaxt da Ədim addı bir kişi var, toy bəyiymiş, onu vırır ki, şabaş ver, bını vırır ki, şabaş ver, təsadüfən, bı çubuğun

biri də Şair Abışa dəyir. Kişi bınnan hiddətlənir. Cibinnən pul çıxardıb verə-verə şeyr deyir. O şeyrdən mənim yadımda bir bənd qalıb. Pulu verə-verə deyir ki,

Bəyə yüklətdirib daşı,
Zornan yığır şabaşı,
Ayının xırda yoldaşı,
Tərpənmiyin, dalar bizi.

## ƏBDÜL SƏMƏD BƏY VƏ AŞIQ BƏBİR

Əbdül Səməd bəy Naxçıvanda yaşayıb.Aşıx Bəbirnən onun arasında həmişə deyişmə, bağlama olub. Bir dəfə Əbdül Səməd bəy məhtub göndərir Aşıx Bəbirə ki, mənə bir öküz göndərin, nə qara olsun, nə ağ, nə sarı, nə qırmızı. Əbdül Səməd bəy bütün rəngləri sayır, deyir ki, bunnarın heç biri olmasın.

Ancaq Bəbir uzun müddət fikirrəşir ki, ona nə cavab versin. Nəhayət, bu cavabı göndərir: Öküzü tapmışam, ancax nə bazar ertəsi, nə tək, nə cümə, nə cümə axşamı, nə şənbə, nə də bazar gəl. Qalan vaxtı nə vaxt gəlsən öküzü apara bilərsən.

Bununnan da Səməd bəyə qalib gəlir.

Səməd bəy fikirrəşir, onnan ikinci bir söz qisasın almax istiyir. Ona yenə məhtup göndərir ki,

Səmədəm, yüz bəlalı,
Dərd canda yüz bəlalı,
Bir yuvada yeddi quş,
Hər biri yüz bəlalı.

Səməd bəy deyir ki, açmasın göndər, görüm nədi? Yenə Aşıx Bəbir Səməd bəyə cavabın göndərir ki,

Bəbirəm, yüz bəlalı,
Dərd canda yüz bəlalı.
Sarfa, süpqal, bəlğəm, qan.
Hər biri yüz bəlalı.

# XVII. UŞAQ FOLKLORU

## SİCİLLƏMƏ

Evdə tikiş tikirdim,
Birdən qapı döyüldü.
Elə bildim atamdı,
Aşdım gördüm siçandı.
Siçana bir təpih vırdım,
Getdi dəydi divara.
Divardan bir qız çıxdı,
Adın qoydum Tamara.
Tamara-Tamara tat qızı,
Erməni-saldat qızı,
Tamara getdi beş günə,
Gəlmədi on beş günə.
Tamaranı çayda gördüm,
Əlində bayda gördüm.

## SANAMA

İynə-iynə,
Ucu düymə,
Bər bərincən,
Şam ağacı,
Şatır keçi.
Qoz ağacı,
Qotur keçi.
Dayım oğlu,
Kor Musa.
Haldır dedi,
Huldur dedi.
Gələn ayı,
Çəh çiçəyi,
Maxmirəyi,
Gül-çiçəyi.

Vur nağara,
Çıx qırağa.
*    *    *
Motal-motal,
Dərman atar,
Qır atar, qaymax tutar.
Çimmə-çilih,
Yeddi illih,
Səhər səkkiz,
Durna doqquz,
Qaranquş.
Qapını aç,
Geri qaç.

## OYUNLAR

### AĞAC ÖLÇMƏ

Ağacı ölçürdülər. Əl tutup sözdəri dedihcə, əli çəkirdilər yuxarı. Əlin balacalığınnan, böyüklüyünnən asılı olmıyarax sözdəri deyəndə ağac ölçüyə uyğun gəlirdi.

Sözü belə deyərdilər:
– Ağac-ağac,
Lənbirim ağac.
Ləşirin biri,
Doqquzu şirin,
Haradeydin?
– Bir meşədə.
– Səni kim vırdı?
– Gülpəri.
– Nəyçün?
– Ərşin üçün.
– Yalan desən?
– Başın üçün.

### HƏBƏ KÖÇDÜ

Uşaxlar yığılırdı. Hərə özünə üç çala-həbə qayırırdı. Hər çalıya yeddi dənə daş atırdı. Əvvəl başdıyan çaladan daşı götürüb hər həbiyə bir daş ata-ata deyirdi:

Cüt-cütüm,
Cütman cütüm.
Əmbərə qoçum,
Bir təkişim.

Eliyirdi yeddi. Sora həbələrdəki daşı sayırdı. Cüt gəlsə götürürdü. Belə-belə oyun davam eliyirdi. Həbələrdəki daşdar qutarannan sora oyun təzədən başdıyırdı.

### SÜDLÜ SÜMÜK

İyirmi-otuz nəfər kənd uşağı yığışırıx mətiyə "süddü sümüh" oynamağa, aydınnıx gecədə. Bir nəfər o sümüyü hamının nəzarətin-

nən keçirdir. Bütün adamlar tanıyır onu. İyirmi-otuz adamın hamısı gözün bağlıyır, yainki baxır arxıya. O bir nəfər mətədə duran o sümüyü tulluyur, deyir: "sümüyü tulladım, gedin axtarın". Gedip axtarırsan, vaxtı var. O vaxta qədər ki, tapır gizdincə, dinməz gətirip verirsən mətəçiyə. Bırda gətirif mətəçiyə verəndə mətəçi deyir: "Ə, sümük gəldi, çıxın gəlin”. Bı oyun onun hesabına sayılır. Tapan adam qalır mətədə, sümüyü tulluyur, o biriləri gedif axtarır. Əyər sümüyü tapanı o biriləri bilsələr, sümüyü əlinnən alıllar ki, mətiyə çatdırammasın. Əlinnən ala bilsələr, bı oyun heş kimə sayılmır.

## MƏRƏ KÖÇDÜ

Oyunda iki nəfər iştirak eliyir. Hərəsinin üş yuvası olur. Hər yuvada da yeddi daş olur. Birinə deyillər ki, sən köş. Qabağa düşən yoldaş bir daşı yuvada qoyur, altısını əlinə alıf altı yuvuya paylıyır, hər yuvuya bir daş qoyur. Bir daş qalmış yuvuya ikisi düşürsə, onu götürür. İkinci yoldaş başdıyır köşməyə. Elə etməlidi ki, özünün üş yuvasınnan birində cüt daş olsun ki, o həmən daşdarı uda bilsin, yoldaşının boş qalmış yuvasına daş qoysun. Elə eləməlidi ki, yoldaşı daş götürüf paylıyanda növbəti dörd daşı götürə bilməsin. Əvvəlcə iki daş götürənnən sora dörd daş, sora altı daş götürməh olar. Kim öz yuvasınnan daşdarı tez qutara bilsə, o udmuş hesab olunur.

## ÜZÜK-ÜZÜK

Bir kömür götürürdülər. Beş-altı adamnan biri onu ovcının içində gizdədirdi. Tapan adam da gözdərini yumurdu, bu sözdəri oxuyuf onu tapırdı:

Ya bındadı, ya bında,
Havla içi tükanda.
Otuz iki, qırx dəlləh,
Kəmrəndi, qondu bında.

Kimə düşsəydi, deyirdi, əlii aç bındadı. Tapşırığa görə belə halqa qoyurdular ocağın ortasına. Deyirdilər, get onu tap görüm. O da gözüyumulu əlini uzadırdı. Əlini yandıranda çəkirdi.

## RƏNG-RƏNG

On-on beş uşax yığılır. Biri xoruz olur, biri ad qoyan. Ad qoyan uşaxlara ad qoyur: Qırmızı, Yaşıl, Sarı, Göy... Xoruz qapını tıkqıldadır. Ad qoyan deyir: "Gəl". Xoruz gəlir. Ad qoyan deyir: "Nə istəyirsən?" Xoruz deyir: "Rəng istəyirəm". Ad qoyan deyir: "Get qılçanı sındır, gəl, rəng verim". Xoruz gedir, qılçasını sındırır, gəlir, deyir: "Qılçamı sındırdım, mənə rəng ver". Ad qoyan deyir: "Hansı rəngi istəyirsən?" Xoruz deyir: "Qırmızını". Ad qoyan deyir: "Yaxşı, Qırmızı kimdisə, çıxsın qabağa". Qırmızı qabağa çıxır. Qırmızının neçə yaşı varsa, ad qoyan Qırmızıya o qədər şillə-yumrux vırır. Sonra Xoruz Qırmızının dalınca tüşüp qavalayır. Tuta bilsə, o da döyür, tuta bilməsə, genə Xoruz olur, genə gəlip rəng isdiyir.

## ŞƏXS ADLARI, MİFOLOJİ PERSONAJLAR VƏ FOLKLOR QƏHRƏMANLARI

Abəzər
Ağ dev
Ağ oğlan
Ağa Məmməd
Alı
Alməmməd
Armud bəy
Armudu bəy
Aslan
Aşıq Bəbir
Aşıq Əhməd
Aşıq Mahmud
Aşıq Pəri
Aşıq Şükür
Balabançı
Bəhlul Danəndə
Boranı
Budaq
Camal
Cavad
Cəfər
Cəfərqulu
Çələbi
Cənab Cəbrayıl
Cənab Əmir
Cin
Cindil ata
Çoban Əli
Comatıl
Darı
Dəli Becan
Dərya atı
Dərviş
Dəyirmançı
Düldül
Dünyamalı
Dünya Gözəli
Dürat
Elyas peyğəmbər
Əbdül
Əbdül Səməd
Əhməd
Əjdaha
Əli
Əliş
Əlləmə
Əmrah
Ərdəli
Əzrayıl
Fatimə
Fatma
Firidun
Firon
Gül
Gülü Qah-Qah
Gümuluq
Hacı Qaraman
Hacı Qasım Çələbi
Hacı Zeynalabdin
Hajı
Hal
Hasan
Həmzə
Həsənəli
Həzrət Abbas
Həzrət Əli
Hürü qızı Hürzad
Xamməmməd

Xıdır İlyas
Xıdır Nəbi
Xırda
İbad
İbrahimxəlil peyğəmbər
İmam Həsən
İmam Hüseyn
İsa
İslam
İsrafil
Kablayı Səkinə
Kalba Cabbar
Kalvatı
Keçəl
Keçəl Nəzər
Kəlniyyət
Kəmsər
Kərbəlayi Muxtar
Kərəm
Kərim
Kor Musa
Qara
Qaraçuxa
Qara İbrahim
Qara vəzir
Qah-qah gülü
Qazı
Qəbil
Qədimalı
Qəhrəman
Qırat
Qırxsaçlı qız
Qurban
Leyli
Lələ
Loğman
Mahmud
Maviyə
Mehdi
Mehman
Məcnun
Məhəmməd
Məhərrəm
Məlik
Məlik Cümşüd
Məmmədqulu
Məmmədrəhim
Məşə Rəsul
Məti
Mina
Mirzəcan
Molla
Molla Gülü
Molla Nəsrəddin
Molla Tağı
Mustafa
Mürsəl
Naxırçı
Nargilə
Navıs
Nəcəfqulu
Nəsib
Ocaxverdi
Ocaqqulu
Ovçu Pirim
Padşah
Paşa
Pəri
Pəri qızı Pərazad
Polad
Rəfi
Rəhilə

Salah
Salman bəy
Salsal
Sarı Aşıq
Seyid
Seyid baba
Seyid Hüseyn
Seyid Mahmud
Seyid Məzlum
Seyid Miriş
Səməd
Səmdin
Sərəndaz
Simavar Padşah
Siriyli Mürşid
Sofu
Sona
Sud Təhməz
Süleyman peyğəmbər
Süsənbər
Şah Abbas
Şahsənəm
Şair Abış
Şair Məmməd
Şaman
Şeytan
Şıx Əzəddin
Şıx Məhəmməd
Tamam
Tamara
Teymurləng
Təkgöz
Tüklücə
Uzunbulux
Uzun Əsəd
Valeh
Vəli Çələbi
Vəzir Allahverdixan
Yaxşı
Yaman
Yanıx-yürüx
Yarəhməd
Yaşar
Yeddi qardaş dev
Zal
Zalxa
Zaman
Zeynal
Zeynalabdin ağa
Zeynəb

**Etnonimlər**

Erməni
Kürd
Rus
Tat
Türkmən
Tərəkəmə

**Coğrafi adlar**

Abdalanlı
Ağ yalın piri
Ağbət
Ağəp düzü
Aladin
Araz
At irizinin piri
Babakər
Buğakər
Baharlı
Bartaz

Başaratın
Bayramuşağı
Cavad
Cavanşir ata gümbəzi
Cəbrayıl
Cəbrayıl ata ocağı
Cırzoğallı
Cicimli
Çəsin dərəsi
Çobandaşı
Çobantaxta
Dağ Tumas
Dağdağan piri
Daşhərəmi
Deşikdaş
Dəhan kəndi
Dəlikdaş
Diri dağı
Dirili kəndi
Diş ağacı
Düldül piri
Əlyandı
Ərəfsə
Ərəş
Əsgülüm dağı
Fal daşı
Gilətağ
Gorus
Göbəhdaş
Güləbird
Gülətağ
Gülüstan bulağı
Güney
Hacı İsaxlı
Həkəri
Həmzəli
Horovlu
Humay qayası
Humayın dərəsi
Humayın yalı
Xanazır
Xanazır ocağı
Xətif
Xudafərin
Xustubun dağı
İncəbel
İran
İşıxlı
Kar gümbəz
Kaşan
Kəhərdaşı
Kəsik baş gümbəzi
Korrar kəndi
Koroğlu daşı
Kür
Küş yalı
Qafan
Qala
Qalacıq
Qala qayası
Qara kilsə
Qara quzey
Qara pir
Qaracallı
Qaracalar
Qaradağlı
Qarağaşlı
Qaramanlı
Qazan Zəmi
Qırx qız
Qırxlar
Qısır dağı

Qız qalası
Qız qəbri
Qoç daşı
Maqsudlu
Maralyan
Mazannənə
Meğri
Məkkə
Məlik Əjdər gümbəzi
Məmmədbəyli
Minkənd
Misir
Muradxanlı
Naxçıvan
Narlı  dərə
Navıs
Nəzir bulağı
Nəzir dərəsi
Noraşin
Nüvədi
Nuşla
Orta Yeməzdi
Osmanlı
Oğlannıca
Öküz piri
Ördəkli
Pillər
Salvartı
Sandıqdaş
Sarı təpə
Savalan
Seyiddər
Səmərqənd
Sırkənd
Sisyan
Sobu
Söylən
Sultanbud gümbəzi
Sümüklü piri
Süsən dağı
Şahvəli
Şeytanbulağı
Şəhidlər daşı
Şirvan
Şuşa
Şükürbəyli
Təbriz
Təhlə
Tut piri
Tumas ata
Tup-tup piri
Turan
Turi-Səna
Türkiyə
Üç qardaş dağı
Üç təpə
Yel ocağı
Zəngilan
Ziyarət dağı
Ziyarət ocağı

**Flora və fauna**

Ahu
At
Ayı
Balıq
Baramaqurdu
Bayquş
Buzov
Bülbül
Camış
Canavar

Ceyran
Cöngə
Cücə
Çəyirtkə
Dəvə
Donuz
Dovşan
Eşşək
Əqrəb
Əlik
Fil
Göyərçin
Hacıleylək
Xoruz
İlan
İnək
İt
Kəklik
Koramal
Qaranquş
Qarğa
Qarışqa
Qaplan
Qatır
Qızılquş
Qoç
Qoyun
Qurbağa
Qurd
Maral
Mığmığ
Mürğ
Öküz
Pişik
Sağsağan
Sərçə
Şir
Tısbağa
Tülkü

Alma
Ardıc
Armud
Böyürtkən
Buğda
Çəltik
Çinar
Dağdağan
Ərik
Gicitkən
Xiyar
İncir
İydə
Qarağac
Qarağan
Qızılgül
Qovax
Qoz
Lalə
Nərgiz
Pambıq
Pencər
Pişikcaynağı
Saqqız
Soğan
Söyüd
Sünbül
Şam
Şəftəli
Taxıl
Üzüm
Yonca
Yovşan

# SÖYLƏYİCİLƏR HAQQINDA ÜMUMİ MƏLUMAT

1. Abbas Şəfayət oğlu, 1952, Qubadlı rayonu, Sarıyataq kəndi, orta təhsilli.

2. Abbasov Abbas Mahmud oğlu, 1938, Cəbrayıl rayonu, Sultanlı kəndi, ali savadlı.

3. Abbasov Taryel, 1953, Cəbrayıl qəsəbəsi, ali savadlı.

4. Abbasov Yaqub, 1956, Laçın rayonu, Güləbird kəndi.

5. Abbasov Əliqulu Mehdiqulu oğlu, 1928, Laçın rayonu, Güləbird kəndi.

6. Abdullayev İsmayıl Məmməd oğlu, 1910, Qubadlı rayonu, Qarağaşlı kəndi, ibtidai təhsilli.

7. Abdullayev Köçəri İslam oğlu, 1930, Qubadlı rayonu, Qaraqaşlı kəndi, orta təhsilli.

8. Abdullayeva Asiya Şükür qızı, 1915, Laçın rayonu, Qazıdərəsi kəndi, savadsız.

9. Abdullayeva Qələm Əhməd qızı, 1939, Laçın rayonu, Qazıdərəsi kəndi, orta təhsilli.

10. Abdullayeva Məhluqə İsmayıl qızı, 1928, Zəngilan rayonu Çöpədərə kəndi.

11. Abdullayeva Zəhra İsmayıl qızı, 1923, Zəngilan rayonu, Çöpədərə kəndi.

12. Abdullayeva Züleyxa Hüseyn qızı, 1929, Qubadlı rayonu, Qarağaşlı kəndi, ibtidai təhsilli.

13. Adıgözəlova Fatı, 1926, Qubadlı rayonu, Qaraqaşlı kəndi, savadsız.

14. Ağayev Qurban Qasım oğlu, 1928, Qubadlı rayonu, Qaracallı kəndi, orta təhsilli.

15. Ağayev Qasım Qurban oğlu, Qubadlı rayonu, Qaracaşlı kəndi.

16. Ağayeva Dilarə Həmid qızı, 1932, Qubadlı rayonu, Qarağallı kəndi, orta təhsilli.

17. Alışov Müsü Dadaş oğlu, 1929, Laçın rayonu, Güləbird kəndi, ibtidai təhsilli.

18. Alməmmədov Misir Behbud oğlu, 1896, Cəbrayıl rayonu, Göyərçin Veysəlli kəndi, savadsız.

19. Alməmmədov Alməmməd Xanməmməd oğlu, 1916, Zəngilan rayonu,..........., ibtidai təhsilli.

20. Alışov Müsü Dadaş oğlu, 1929, Laçın rayonu, Güləbird

kəndi, ibtidai təhsilli.

21. Aslanov Qaçay Qədim oğlu, 1942, Laçın rayonu, Güləbird kəndi, orta təhsilli.

22. Aslanova Yasəmən Cəbrayıl qızı, 1923, Laçın rayonu, Cicimli kəndi.

23. Bağdadov Qubad Əbiş oğlu, 1935, Qubadlı rayonu, Qaracallı kəndi, orta təhsilli

24. Bağdadov Məhəmməd Əbiş oğlu, 1915, Qubadlı rayonu, Qaracallı kəndi, ali təhsilli.

25. Baxşəliyev Ağalar Məhərrəm oğlu, 1901, Zəngilan rayonu ........ kəndi

26. Baxşəliyev Bəylər Məhərrəm oğlu, 1913, Zəngilan rayonu, Sobu kəndi.

27. Baxşəliyev Qüdrət, Zəngilan rayonu, Sobu kəndi, ibtidai təhsilli.

28. Baxşəliyeva Şamama Dəmir qızı, 1928, Laçın rayonu, Qazıdərəsi kəndi.

29. Bəxtiyarov Qüdrət İsmayıl oğlu, 1923, Zəngilan rayonu, Böyük Gilətağ kəndi, ali təhsilli.

30. Bəxtiyarova Şəhadət Qüdrət qızı, 1959, Zəngilan rayonu, Böyük Gilətağ kəndi, orta təhsilli.

31. Cəbrayılov Xuduş Həsən oğlu, 1926, Zəngilan rayonu, Gilətağ kəndi, orta təhsilli.

32. Cəfərquliyev Cəfərqulu Dünyamalı oğlu, 1946, Zəngilan rayonu, Çöpədərə kəndi, orta təhsilli.

33. Cəfərova Kubra Mehdi qızı, 1918, Laçın rayonu, Güləbird kəndi, orta təhsilli.

34. Əliyev Mirseyib İslam oğlu, 1916, Zəngilan rayonu, Baharlı kəndi, ibtidai təhsilli.

35. Əliyeva Mülayim Məşədi Dünyamalı qızı, 1898, Qubadlı rayonu Qarağaşlı kəndi, savadsız.

36. Əliyeva Səmərqə Sabir qızı, 1956, Qubadlı rayonu, Qaracallı kəndi, orta təhsilli.

37. Əliyeva Nazənin İman qızı, 1930, Qubadlı rayonu, Qaracallı kəndi orta təhsilli.

38. Əhmədov Allahyar Allahverdi oğlu, 1939, Laçın rayonu, Qazıdərəsi kəndi, orta təhsilli.

39. Əhmədova Gülçöhrə Mərdan qızı, 1938, Qafan rayonu, Dov-

ruz kəndi.

40. Əhmədova Minə Mustafa qızı, 1924, Qubadlı rayonu, Həkərli kəndi, ibtidai təhsilli.

41. Əhmədəliyev Kərim Əbdüləli oğlu, 1932, Qafan rayonu, Oxtar kəndi.

42. Əhmədəliyev Rəhim Əbdüləli oğlu, 1938, Qafan rayonu, Oxtar kəndi, orta təhsilli.

43. Fərhadov Fərhad Məmməd oğlu 1941, Cəbrayıl rayonu, Xələfli kəndi, ali təhsilli.

44. Fətiyev Barat Alxan oğlu, 1911, Qubadlı rayonu, Sarıyataq kəndi, ibtidai təhsilli.

45. Gilənar İbad qızı, 1908, Cəbrayıl rayonu, Süleymanlı kəndi, savadsız.

46. Hacıyev İbrahim Hacı oğlu, 1931, Zəngilan rayonu, Mincivan qəsəbəsi, ali təhsilli.

47. Hacıyeva Telli Həsən qızı, 1888, Laçın rayonu, Cicimli kəndi, savadsız.

48. Həsənov Fərman Bəhram oğlu, 1910, Cəbrayıl rayonu, Tatar kəndi.

49. Həsənova Mehri Mahmud qızı, 1905, Zəngilan rayonu, Çöpədərə kəndi, savadsız.

50. Hüseynov Əbdülxan, 1937, Cəbrayıl rayonu, Xələfli kəndi, ibtidai təhsilli.

51. Hüseynov Nazim Yəhya oğlu, Cəbrayıl qəsəbəsi, ali təhsilli.

52. Hüseynova Şamama Qasım qızı, 1922, Qubadlı rayonu, Qaracallı kəndi, natamam-orta təhsilli.

53. Hüseynova Gülzar İman qızı, 1923, Qubadlı rayonu, Qaracallı kəndi.

54. Xammədova Qəmər Səməd qızı, 1898, Qubadlı rayonu, Həkərli kəndi, savadsız.

55. Xəlilova Güldəstə Xəlil qızı, 1949, Cəbrayıl rayonu, Həsənli kəndi, natamam-ali təhsilli.

56. Xəlilova Qəmər Əsədulla qızı, 1909, Qubadlı rayonu, Başarat kəndi, savadsız.

57. İbrahimov Oruc Novruz oğlu, 1913, Zəngilan rayonu, Bartaz kəndi.

58. İbrahimov Turab, 1910 Cəbrayıl rayonu, Sarıcalı kəndi, savadsız.

59. İbrahimova Sərfi Hacıgöyüş qızı, 1888, Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi, savadsız.

60. İsmayılov Camal Cəlal oğlu, 1932, Cəbrayıl qəsəbəsi.

61. İsmayılov Qüdrət İsmayıl oğlu, 1923, Zəngilan rayonu, Böyük Gilətağ kəndi, ali təhsilli.

62. İsmayılova Göyçək Mirmusa qızı, 1926, Laçın rayonu, Məlikpəyəsi kəndi, ibtidai təhsilli.

63. Kərimov Tapdıq, Sisyan rayonu, Ağdü kəndi.

64. Kərimova Səltənət Əmrah qızı, 1908, Laçın rayonu, Cicimli kəndi, ibtidai təhsilli.

65. Kərimova Səmayə, Sisyan rayonu, Ağdü kəndi.

66. Qasımov İbrahim Məlik oğlu, 1931, Laçın rayonu, Güləbird kəndi.

67. Qasımov Muxtar Məmmədhüseyn oğlu, 1938, Zəngilan rayonu Bartaz kəndi.

68. Qasımov Yəhya Ağa oğlu, 1930, Cəbrayıl rayonu, Niftallı kəndi, orta təhsilli.

69. Qasımova Gülüş Cəbrayıl qızı, 1898, Zəngilan rayonu Bartaz kəndi, savadsız.

70. Qəribov Tofiq İbrahim oğlu, 1954, Zəngilan rayonu, Malakeşin kəndi, orta təhsilli.

71. Qorçuyeva Qarabirçək Səfiyar qızı, 1318, Qubadlı rayonu, Sarıyataq kəndi, savadsız.

72. Quliyeva Həmid Xasməmməd oğlu, 1930, Laçın rayonu, Güləbird kəndi.

73. Quliyev İsaq Əhməd oğlu, 1888, Cəbrayıl rayonu, İsaqlı kəndi.

74. Quliyev Süleyman Murad oğlu, Qubadlı rayonu, Həkərli kəndi.

75. Quliyeva Adilə Fərrux qızı, 1934, Laçın rayonu, Seyidlər kəndi.

76. Quliyeva Kəklik  Valeh qızı, 1919, Qubadlı rayonu, Başarat kəndi, orta təhsilli.

77. Quliyeva Səba Fərman qızı, 1956, Cəbrayıl rayonu, Süleymanlı kəndi.

78. Quliyeva Tərlan Bəşir qızı, 1920, Cəbrayıl rayonu, Çullu kəndi.

79. Lətif  baba, 1998, Cəbrayıl rayonu, Çullu kəndi, savadsız.

80. Mahmudov Məhsun Camal oğlu, Laçın rayonu, Güləbird

kəndi.

81. Mehdiyeva Qumru Əsgər qızı, Zəngilan rayonu, gg.. kəndi.

82. Mehralıyev Musa Bəylər oğlu, 1930, Laçın rayonu, İkinci Cicimli kəndi.

83. Məhərrəmov Bayram İmamqulu oğlu, 1935, Qubadlı rayonu, Sarıyataq kəndi, ibtidai təhsilli.

84. Məmmədov Alxan, Laçın rayonu, Cicimli kəndi.

85. Məmmədov Araz Gəray oğlu, 1936, Laçın rayonu, Güləbird kəndi.

86. Məmmədov Əhməd Əvəz oğlu, 1910, Qubadlı rayonu, Qarakişilər kəndi, orta təhsilli.

87. Məmmədov Əli Vəli oğlu, 1917, Cəbrayıl qəsəbəsi, ali savadlı.

88. Məmmədov Fəxrəddin Şəmil oğlu, 1954, Qubadlı rayonu, Qarağaşlı kəndi, orta təhsilli.

89. Məmmədov Qurban İsmayıl oğlu, 1932, Laçın rayonu, Cicimli kəndi.

90. Məmmədova Həmayıl Əliş qızı, 1929, Qubadlı rayonu, Qarağaşlı kəndi.

91. Məmmədova İntizar Cümşüd qızı, 1938, Laçın rayonu, Cicimli kəndi.

92. Məmmədova Minayə İbrahim qızı, 1929, Laçın rayonu, Xanallar kəndi, ibtidai təhsilli.

93. Məmmədova Pəri Süleyman qızı, 1929, Laçın rayonu, Qazıdərəsi kəndi, ibtidai təhsilli.

94. Məmmədova Səltənət Məşi qızı, 1901, Laçın rayonu, Cicimli kəndi, savadsız.

95. Muradova Güldəstə, 1910, Cəbrayıl rayonu, gg.. kəndi.

96. Musayeva Qəndili Məhsim qızı, 1941, Laçın rayonu, Cicimli kəndi.

97. Nəcəfov Surxay Mirzə oğlu, 1934, Laçın rayonu, İkinci Cicimli kəndi.

98. Novruzova Gülxanım Hüseynalı qızı, 1927, Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi.

99. Rəhimov Məcid Məmməd oğlu, 1901, Cəbrayıl rayonu, Qalacıq kəndi, savadsız.

100. Rzayev Xankişi Əşrəf oğlu, Cəbrayıl rayoynu, Sirik kəndi, savadsız.

101. Səfərova Talıb Məhsim oğlu, 1934, Laçın rayonu, İkinci Cicimli kəndi.

102. Sultanov Camal, Zəngilan rayonu.

103. Səfərova Balacaxanım Mustafa qızı, 1906, Qubadlı rayonu, Həkərli kəndi, savadsız.

104. Süleymanov Cəbi Qasım oğlu, 1902, Qubadlı rayonu, Qaracallı kəndi, savadsız.

105. Şahbazova Cahan İbrahim qızı, 1936, Laçın rayonu, Qazıdərəsi kəndi.

106. Şıxəliyev Cəbrayıl Əli oğlu, 1961, Zəngilan rayonu, Bartaz kəndi, ali təhsilli.

107. Şirinova Həyat İsmayıl qızı, 1902, Qubadlı rayonu, Xəndək kəndi.

108. Təhməzova Gözəl Behbud qızı, 1920, Cəbrayıl rayonu, Xələfli kəndi, ibtidai təhsilli.

109. Turabov İbrahim, 1910, Cəbrayıl rayonu, Sarıcallı kəndi, savadsız.

110. Vəliyeva Çiçək Şirin qızı, 1920, Cəbrayıl rayonu, Böyük Mərcanlı kəndi.

111. Zeynalov Şahbaz Xudaverdi oğlu, 1921, Qubadlı rayonu, Bəxtiyarlı kəndi, orta təhsilli.

112. Zeynalova Gülüş Abbas qızı, 1929, Qubadlı rayonu, Həkərli kəndi.

113. Səməd Qarayevin "Qazangöl həsrəti" (Bakı-2002) və Əhmədli Əliyevin "Azərbaycan dilinin Meğri şivələri" (Bakı-2003) kitabından götürülən folklor örnəkləri kitabın müəlliflərin adı ilə verilir.

114. Anonim.

# MƏTNLƏR, SÖYLƏYİCİLƏR, TOPLAYICILAR

## I. MİFLƏR, ƏFSANƏLƏR, RƏVAYƏTLƏR, XATİRƏLƏR.

1. Yerlə göyün yaranması, İbrahim peyğəmbərin qarğışı, Peyğəmbərlə ahular, Gön arxası, yoxsa köşə arxası? Ana laylası, Qırxlar piri (I mətn), Öküz piri, Ovçu Pirim, (II-III mətnlər), Araz çayını adlayan adam, Sarı təpənin yaranması, Tup-tup piri, Hal (II mətn), Qurdadönmə (IVmətn) - söyləyici: Cəbrayılov Xuduş, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

2. Ay, Ardıc və kəklik, Kəklik, Dillərin yaranması, Hal (XIII mətn) - söyləyici: Şahbazova Cahan; toplayıcılar: V.Nəbioğlu M.Kazımoğlu, Ə.Əsgər.

3. Karvanqıran ulduzu, Dünyanın kəsirləri - söyləyicilər: Baxşəliyev Bəylər, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

4. Ağacların səcdəsi (I mətn), Qarının günləri, Sultanbud gümbəzi - söyləciyi: Alxan Məmmədov, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

5. Ağacların səcdəsi (II mətn), Ağ yalın piri, Oğlannıca piri - söyləciyi: Əhmədəliyev Kərim, toplayıcı: S. Bağdadova.

6. Bəhlul Danəndənin üç səhvi - söyləciyi: Kərimova Səltənət, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

7. Göydən gələn qurbanlıq qoç, Buğakər (III mətn), Hal (XIX mətn) söyləyici: Alməmmədov Alməmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

8. Ardıc, Qarağaşlı gümbəzi, Hal (IX mətn), Qaraçuxa (I mətn) - söyləyici: Ağayeva Dilarə, toplayıcı: V.Nəbioğlu.

9. Üç bacı qəbrstanlıqları, Cavanşir atanın günbəzi (II mətn), Təkgöz div, Hal (I mətn), Qurdadönmə (V mətn), Qaraçuxa (II mətn) - söyləyici: Ağayev Qurban, toplayıcı: V.Nəbioğlu.

10. Qardaş məhəbbəti - söyəyici: Musayeva Qəndili, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

11. Şeytan fəhlələri, Novruz bayramı - söyləyici: Quliyeva Adilə, toplayıcı: İ.Rüstəmzadə

12. Humay qayası, Qara gümbəz, Qala qayası (I mətn), Nəzir bulağı, Hal (XVIII mətn) - söyləyici: Bağdadov Məhəmməd, toplayıcı: V. Nəbioğlu.

13. Daş hərəmi - Hərəm daşı, Yəhər daşı, Çoban daşı, Koroğlu arşını, Hal (V mətn) - söyləciyi: Hüseynova Şamama, toplayıcı: V. Nəbioğlu.

14. Qoç daşı, Hal (VIII mətn), Qaraçuxa (IV mətn) - söyləyici: Fətiyev Barat, toplayıcı: V.Nəbioğlu.

15. Qırxlar piri, At irizinin piri, Qədim dəfn adəti və ölümün yaranması (III mətn), Hal (XVI mətn), Qurdadönmə (VIII mətn) - söyləyici: Kərimov Tapdıq, toplayıcı: S.Bağdadova.

16. Qırxlar piri (III mətn), Cavanşir atanın günbəzi (III mətn), Hal (X mətn), Qurdadönə (I mətn) - söyləyici: Əliyeva Mülayim, toplayıcı: V.Nəbioğlu

17. Məlik Əjdər gümbəzi - söyləyici: Aslanova Yasəmən, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

18. Qatırın ziyarəti - söyləyici: Təhməzova Gözəl; toplayıcı: Z.Fərhodov

19. Mazannənə, Kəsikbaş günbəz - söyləyici: T.Abbasov, toplayıcı: Ə.Əsgər.

20. Buğakər (I mətn), Qız qalası (II mətn), Cinin tutulması - Əhmədəli Əliyev

21. Ovçu Pirim (I mətn) - söyləyici: Məmmədov Əli, toplayıcı: Ə.Əsgər.

22. Ombadurma (I mətn), Sınıq körpü (I mətn) - söyləciyi: Quliyev Süleyman, toplayıcı: V.Nəbioğlu

23. Ombadurma (II mətn) Qədim dəfn adəti (II mətn) - söyləyici: Əliyev Mirseyib, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

24. Gümulux pəhləvan - söyləyici: Məmmədov Fəxrəddin, toplayıcı: V.Nəbioğlu.

25. Koroğlu daşı - söyləyici: Sultanov Camal; toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

26. Qarağaşlı gümbəzi, Həzrət Əli və Salsal pəhləvan, Qala qayası (II mətn), Hal (XII mətn), Qurdadönmə (VI mətn) - söyləyici: Abdullayev İsmayıl, toplayıcı: V.Nəbioğlu.

27. Qız qəbri, Torpaq təpə - söyləyici: Aslanov Qaçay, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

28. Sınıq körpü (II mətn) - söyləyici: Səfərova Balaxanım, toplayıcı V.Nəbioğlu.

29. Qız qalası (III mətn), Üç qardaşın dağı, Cəbrayıl ata ocağı, Xudafərin - söyləyici: Abbasov Abbas, toplayıcı: Ə.Əsgər.

30. Qurdadönmə (VII mətn) - söyləyici: İbrahimov Oruc, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

31. Qız qalası - söyləyici: Şıxəliyev Cəbrayıl, toplayıcısı: V.Nəbi-

oğlu, M. Kazımoğlu, Ə.Əsgər.

32. Qız qalası (IV mətn) - söyləyici: İsmayılov Camal, toplayıcı: Ə.Əsgər.

33. Xudafərin suyunun şəfası - söyləyici: Səba Quliyeva, toplayıcı: Ə.Əsgər.

34. Ağ oğlan, Çomağatı, Seyid baba (Sarı Seyid) ocaqları - söyləyici: Hüseynov Nazim, toplayıcı: Ə.Əsgər.

35. Hal (III mətn) - söyləyici: Qasımov Gülüş, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

36. Hal (IV mətn), Qaraçuxa (III mətn) - söyləyici: Ağayev Qasım, toplayıcı: V.Nəbioğlu.

37. Hal (VI mətn) - söyləyici: Şirinova Həyat, toplayıcı: V.Nəbioğlu.

38. Hal (VIII mətn) - söyləyici: Bağdadov Qubad, toplayıcı: V.Nəbioğlu.

39. Hal (XI mətn) - söyləyici: Qorçuyeva Qarabirçək, toplayıcı: V.Nəbioğlu.

40. Hal (XIV mətn) - söyləyici: Alışov Müsü; toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

41. Hal (XVII mətn) - söyləyici: Əhmədəliyev Rəhim, toplayıcı: S.Bağdadova

42. Qaraçuxa (VI mətn), Cin yığnağı (I mətn) - söyləyici: Məmmədov Azad, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

43. Cin yığnağı, Qaraçuxa (X mətn) - söyləyici: Quliyev Həmid, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

44. Qaraçuxa (VII mətn) - söyləyici: Əhmədov Allahyar, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

45. Qurdadönmə (II mətn) - söyləyici: Baxşəliyeva Şamama, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

46. Qurdadönmə (III mətn) - söyləyici: Qasımov İbrahim, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**SƏNƏT TAPINAQLARI.** Sofu, çələbi, seyid - I, II mətnlər - söyləyici: Abbas Şəfayət oğlu, toplayıcı: V.Nəbioğlu III mətn - söyləyici: Cəfərquliyev Cəfərqulu, IV mətn - söyləyici: Qasımov İbrahim, V mətn - söyləyici Sultanov Camal, VI mətn - söyləyici: Alməmmədov Alməmməd, VII mətn – söyləyici: Bağdadov Məhəmməd; toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. VIII, IX mətnlər - söyləyici: Təhməzova Gözəl, toplayıcı: Z.Fərhodov, X mətn - söyləyici:

Quliyeva Adilə, toplayıcı: İ.Rüstəmzadə, XI, XII mətnlər - söyləyici: Sultanov Camal, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

Ocaqların yarışı və möcüzələri - I, II mətnlər - söyləyici: Cəfərquliyeva Cəfərqulu, III, IV mətnlər - söyləyici: Alməmmədov Alməmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər, V mətn - söyləyici: Təhməzova Gözəl, toplayıcı: Z.Fərhadov.

**Vergili adamlar.** I mətn - söyləyici: Ağayeva Dilarə, toplayıcı: V.Nəbioğlu; II mətn - söyləyici: Qəribov Tofiq, III mətn - söyləyici: Cəfərquliyev Cəfərqulu, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**MƏRASİMLƏR, OVSUNLAR.**

Şaman mərasimi (tas qurma) - I mətn - söyləyici: İsmayılov Qüdrət, II mətn - söyləyici: Cəbrayılov Xuduş, III mətn - söyləyici: Alməmmədov Alməmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Qurdağzı bağlama - I, II, III mətnlər söyləyici: Alməmmədov Alməmməd, IV, V, VI mətnlər - söyləyici: Cəbrayılov Xuduş, VII mətn - söyləyici: Qasımova Gülüş; toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

İlan ovsunu - söyləyici: Cəbrayılov Xuduş, Dolu ovsunu, Uşağı xəlbirdə gəzdirmə - söyləyici: Həsənova Mehri, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

Tarla ovsunu - söyləyici: Bağdadov Məhəmməd, Uşağı xəlbirdə gəzdirmə I mətn - Ağayeva Dilarə, toplayıcı: V.Nəbioğlu.

Seyidin övlad verməsi, Qorxugötürmə, Sancıgötürmə - söyləyici: Abdullayeva Züleyxa; Zahının üznüyünü alma - söyləyici: Məmmədova İntizar, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**MƏRASİM NƏĞMƏLƏRİ.**

Günəşin çağrılması – I mətn – söyləyici: Hacıyeva Telli, II mətn – söyləyici: Məmmədov Qurban, Yel Əlli – Cəbrayılov Xuduş, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Xıdır Nəbi – söyləyici: Quliyeva Adilə, toplayıcı: İ.Rüstəmzadə. Sayıçı sözləri – söyləyici: Turabov İbrahim, toplayıcı: Ə.Əsgər.

Pirlər və ocaqlar haqqında mətnlər - Göbəhdaş - söyləyici: Bağdadov Məhəmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Hasar - söyləyici: Ağayev Qasım, toplayıcı: V.Nəbioğlu. Deşihdaş, Sandıq daş - söyləyici: Əliyeva Mülayim, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. Pir ağac, Seyid Hüseyn ağanın qəbri - söyləyici: Quliyev Süleyman, toplayıcı: V.Nəbioğlu, Ağac ehsanı,

Qaratikan kolu, Tut piri - söyləyici: Fətiyev Barat, toplayıcı; V.Nəbioğlu. Tut piri, Kərimin ocağı - söyləyici: ?; toplayıcı: V.Nəbioğlu. Yel ocağı - söyləyici: Alməmmədov Alməmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

Diş ağacı - söyləyici: Abdullayev İsmayıl, toplayıcı: V.Nəbioğlu.

İşıqlı dağının piri, Sümüklü pir - söyləyici: Kərimov Tapdıq; Qara pir - söyləyici: Kərimova Səmayə; Şəhidlər daşı, Dağdağan piri, Xustubun dağı - söyləyici: Əhmədəliyeva Gülçöhrə, toplayıcı: S.Bağdadova

Koroğlu daşı - söyləyici: Cəbrayılov Xuduş, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər;

Fal daşı, Ziyarət dağı, Tumas ata, Düldül piri, Dalax daşı - söyləyici: Rəhimov Məcid, toplayıcı: Ə.Əsgər.

**MİFOLOJİ VƏ ETNOQRAFİK MƏTNLƏR** - söyləyicilər: Abdullayev İsmayıl, Abdullayeva Leyla, Abdullayeva Qələm, Bağdadov Qubad, Bağdadov Məhəmməd, Əhmədov Allahyar, Fətiyev Barat, Hacıyeva Telli, Həsənova Mehri, Həsənova Şamama, Kərimova Səltənət, Qasımov Yəhya, Qasımova Gülüş, Quliyev Süleyman, Səfərova Balaxanım, Şahbazova Cahan - toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**YUXUYOZMALAR -** söyləyicilər: Musayeva Qəndili, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**ANDLAR, ALQIŞLAR, QARĞIŞLAR** - söyləyicilər: Ağayeva Dilarə, Əliyeva Səmərqə, Əhmədova Minə, Hacıyeva Telli; toplayıcı: V.Nəbioğlu

**NAĞILLAR.**

1. Adamyeyən qız - söyləyici: Əliyeva Mülayim, toplayıcı: V.Nəbioğlu.

2. Tüklücə, Aslan balası, Keçəl Nəzər, Məhəmməd Pəri, Şah Abbas və qoca, Yumurta boyda buğda, Qara Çəyirtkə, Keçəl və dayısı - söyəyici: (Qafan rayonunun Gomaran kəndindən olan söyləyici adının kitaba salınmasını istəmədi), toplayıcı: S.Bağdadova

3. Qaraçuxasını axtaran kişi, Dərvişin nağılı, Tülküynən dəyirmançı, Padşahla balıqçı, Xeyirxah qocanın nağılı, Peyğəmbərlə üç yolçu, İbadət və səxavət, Kasıb oğlanla padşahın nağılı, Şah Abbasla Keçəl, Şah Abbasla Pinəçi Allahverdi, Padşahla dəmirçi, Şirlə tülkü, Qəza toru - söyləyici: Cəbrayılov Xuduş; toplayıcılar: V.Nəbioğlu,

M.Kazımoğlu, Ə.Əsgər.
4. Gülü Qah-Qahın nağılı, Qismət Allahdandır, Belə də qalmaz, Ekiz qardaşların nağılı, Kəmsərin nağılı - söyləyici: Məhərrəmov Bayram, toplayıcı: V.Nəbioğlu.
5. Nargilə, Darının nağılı, Boranının nağılı, Süleyman peyğəmbərlə qarı, Şah Abbasla Vəzir Allahverdi xan - söyləyici: Quliyeva Adilə, toplayıcı: İ.Rüstəmzadə.
6. Fatmanın nağılı - söyləyici: Hüseynova Şamama, toplayıcı: V.Nəbioğlu.
7. Göyçək Fatma, Ovçu Pirim - söyləyici: Təhməzova Gözəl; Şah Abbas və üç oğru - söyləyici: Hüseynov Əbdülxan, toplayıcı: Zəfər Fərhadov.
8. Arvad şəri - söyləyici: Alməmmədov Alməmməd, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgərov.
9. Üç qız, Üç söz, Dəvə, tülkü və qurd, Dəyirmançının nağılı - Əhmədağa Əliyev.
10. Süleyman və bayquş, Şahın tənbəl qızı, Ağıllı və axmaq nökər, Bu fırt o fırtdan deyil - Səməd Qarayev.
11. Səxavət, Əzrayılın kələyi - söyləyici: Alışov Müsü.
12. Əzrayılın kirvəliyi - söyləyici: Şahbazova Cahan.
13. Əzrayılın ədaləti - söyləyici: Mehralıyev Musa.
14. İki qardaş, Vəfasız qız - söyləyici: Nəcəfov Surxay.
15. Kasıb kişi ilə tacirin dostluğu - söyləyici: Quliyev Həmid.
16. Elyas peyğəmbər - söyləyici: Qasımov İbrahim, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.
17. Əlləmə, Tülkü babasından qoz oğurlayır - söyləyici: Muradova Güldəstə, toplayıcı: Elmira Fikrətqızı.
18. Səmərqənd padşahının qızı, İtin payı - söyləyici: Əliyev Mirseyib, toplayıcı: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.
19. Yalançı Molla - söyləyici: Abdullayev İsmayıl, toplayıcı: V.Nəbioğlu.

**LƏTİFƏLƏR.**

1. Çarıq, sən nə vermisən? - söyləyici: Baxşəliyev Bəylər, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.
2. Mat qalmışam, Hamısını verdim uşaqlarına, Qonaq bir il burdadı, Xoşuna gəlirsə bir də sallayım, Pirə qurban demişəm, Mən oğurlamışam, Dolandırıb gətirdin? Başına bir daş düşər, Dərviş

narazı qalmaz - söyləyici: İbrahimov Oruc, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

3. Keçi, Bir-bir çıxırıq - söyləyici: Aslanova Yasəmən, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

4. Xənçər əhvalatı, Ölən yoxdu, Sənin kimi cır olub, Danaları yatan apardılar, İşləməyən dişləməz, Əvvəl tut ək, sonra uşaq, Heç dəllək də bu qələti eləməz, Qarının toyu - söyləyici: Hacıyev İbrahim, toplayıcılır: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

5. Göy gözlərim görməz, Duzsuz halva, Qara gün üçün saxlamışam, Loğmanla şəyirdin əhvalatı, Yenə küsülü olaq - söyləyici: Abdullayeva Qələm, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

6. Pişik ölər, ağlarsan, Cibində heç pul varıydı? Doşabın dadsızıydı, Tarf və Terf əhvalatı - söyləyici: Kərimov Tapdıq, toplayıcı: S.Bağdadova.

7. Adamın pisi, Cücəni sağsağan aparıb - söyləyici: Məmmədov Qurban;

8. Adamın pisi, qabın pisi, heyvanın pisi - söyləyici: Nəcəfov Surxay, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

9. Pay yığan dərviş - söyləyici: Fətiyev Barat, toplayıcı: V.Nəbioğlu.

10. Nəzirimi ver, Yemişin kalı, Dağdan aşarsan, Pəri, Bıldır-bıldır göz yaşı, Sən Allah, bura haradır?, Dünyada ən hörmətli yer, Bədrəng adam, Adım yadımdan çıxıb - söyləyici: Qasımov Muxtar, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

11. Tülkününkü Allaha qaldı, Mən kimə oxşayıram? Hələ qardaşımı görəsiz, Sənin ağlın olsaydı, Gözümü niyə çıxardırsan? Oynasan da, burcutma, Çobanın duası, İki ürək də bir deyil, Qoyunu qoyun ayağından asarlar, keçini keçi, Tay da dərz var döyməli, Həmin dolmasan, Dünya necədir? Ayağı sudadır, Ən yeməli şey, Onu sən deyirsən, Qızıl çəngəl-bıçaq əhvalatı, Mən yalan deyə bilmərəm, Xam göndürsə, halal olu, Doqquzdan sonra haramdır, Aşıq Əhməd və Balabançı Firudun - söyləyici: Cəbrayılov Xuduş, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

12. Altını üstünə çevirəcək, Tənbəki satan - söyləyici: Səfərov Qayıb, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

13. İnsan çat verərdi, Qarğış keçələ kar eləməz, Kor tutduğun buraxmaz, Sənin vuruşun kor vuruşu deyil, Yetimə can-can deyən çox olar, çörək verən az, Kasıblıqdan it qırxır, Plov, Bostan qoruqçusu,

Mülkü bəyin qonaqlığı - söyləyici: Qüdrət İsmayılov, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

14. Tüstüyə qızındım - söyləyici: Abdullayev İsmayıl, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

15. Can, yarımcan, zəhrimar (I, II variant) - söyləyici: Quliyev Süleyman, toplayıcı: V.Nəbioğlu.

16. Bazarda hər şey od qiymətinədir, Sən yediyin kimi, Gilası bir-bir yeyərlər, Dostunu itirəcəydin - söyləyici: Adilə Quliyeva, toplayıcı: İ.Rüstəmzadə

17. Üç pəltək qız - Əliyev Əhmədəli.

18. Şah Abbas və vəziri, Padşahla vəzir, Gedənə yanmag.., Xanın öz qızlarını yoxlaması - Qarayev Səməd.

19. Çobanın qurd saxlaması - söyləyici: Səba Quliyeva, toplayıcı: Ə.Əsgər.

20. Öz çırağımı söndürübg - söyləyici: Abbasov Taryel, toplayıcı: Ə.Əsgər.

**ATALAR SÖZLƏRİ, ZƏRBİ MƏSƏLLƏR.**

Söyləyicilər: Baxşəliyeva Şamama, Şahbazova Cahan, Məmmədova İntizar, Təhməzova Gözəl, Xəlilova Güldəstə, Fərhadov Fərhad, Əhmədova Gülçöhrə, Gilənar İbad qızı, Qasımov Yəhya - toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər Z.Fərhadov.

**TAPMACALAR.**

Söyləyicilər: Baxşəliyev Bəylər, Quliyev Müseyib, Xaməmmədova Qəmər, Əhmədova Minə, Zeynalova Gülüş, Kərimova Səltənət, Musayeva Qəndili, Şahbazova Cahan, Səfərova Balaxanım, Qasımov İbrahim, Bağdadov Qubad, Hüseynova Şamama, İsmayılova Göyçək, Əliyev Mirseyib, Turabov İbrahim - toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**BAYATILAR.**

Söyləyicilər: Abbasov Yaqub, Abdullayeva Məhluqə, Abdullayeva Zəhra, Abdullayeva Qələm, Abdullayeva Asya, Adıgözəlova Fatı, Məmmədova Həmayıl, Məmmədova Səltənət, Məmmədova İntizar, Məmmədova Pəri, Musayeva Qəndili, Mehralıyev Musa, Qasımov Yəhya, Qasımov Muxtar, Hacıyeva Telli, Hüseynova Gülzar, Əliyeva Səmərqə, Əliyeva Nazənin, İbrahimov Turab, İbrahimova Sərfi, Şahbazova Cahan, Şirinova Həyat, Kərimova Səltənət, Cəfərova

Kübra, Rzayev Xankişi, Səfərova Balaxanım, Süleymanov Cəbi, Vəliyeva Çiçək toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**AŞIQLAR VƏ EL ŞAİRLƏRİ.**

Sarı Aşıq (rəvayətlər): - I, IV, VII, XI mətnlər söyləyici: Quliyev Həmid, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər; II, VI, XXV, XXVII, XXVIII mətnlər söyləyici: Həsənov Fərman, toplayıcı: Ə.Əsgər; II, XIII, XIV, XV mətnlər söyləyici: Təhməzova Gözəl, toplayıcı: Z.Fərhadov; V XVIII XXIV XXXIII mətnlər söyləyici: Quliyev İsax, toplayıcı: Ə.Əsgər; VIII mətn - söyləyici: Alışov Müsü; IX mətn söyləyici: Məmmədov Azad; X, XVII mətn - söyləyici: Əliqulu Abbasov; XIX, XX, XXI, XXII mətnlər söyləyici: Abbasov Yaqub; XVI mətn - söyləyici: Mahmudov Möhsün; XXIII mətn - söyləyici: Abdullayeva Asya, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər. XII mətn - söyləyici: Lətif baba; XXVI mətn söyləyici: Alməmmədov Misir; XXX, XXXI, XXXII mətnlər söyləyici: Turabov İbrahim, toplayıcı: Ə.Əsgər.

Sarı Aşığın bayatıları - söyləyicilər: Turabov İbrahim, Həsənov Fərman, Mahmudov Möhsün, Abdullayeva Asya, Abbasov Əliqulu, Quliyev Həmid, Quliyev İsax, Abbasov Yaqub, Alışov Müsü, Aslanov Qaçay - toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

Aşıq Mahmud - söyləyicilər: Alməmmədov Misir, Rəhimov Məcid, toplayıcı: Ə.Əsgər; Şair Məmməd və qardaşı Süleyman, Qaracallı Süleyman və qardaşı Əliş, Uzun Əsəd, Çoban Əli - söyləyicilər: Fətiyev Barat, Məmmədova Həmayil; Səfərova Balaxanım, toplayıcı: V.Nəbioğlu; Şıx Məhəmməd, Şair Abış söyləyici: Qüdrət Baxşəliyev, Əbdülsəməd bəy və Aşıq Bəbir - söyləyici: Bəxtiyarov Şəhadət, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

**UŞAQ FOLKLORU.**

Sicilləmə - söyləyici: Məmmədov Qurban

Sanama - söyləyici: Kərimov Səltənət

Oyunlar - Ağac ölçmə, Həbə köçdü - söyləyici: Cəbrayılov Xuduş

Südlü sümük – söyləyici: Cəfərquliyeva Cəfərqulu, toplayıcılar: V.Nəbioğlu, M.Kazımoğlu, Ə.Əsgər.

Mərə köçdü, Üzük-üzük, Rəng-rəng - söyləyici: Abdullayev İsmayıl, toplayıcı: V.Nəbioğlu.

# NAĞILLARIN SÜJET GÖSTƏRİCİSİ

Topluda çap olunan nağılların süjet göstəricisi AA (Н.П.Андреев: Указатель сказочных сюжетов по системе Аарне, Л. 1929) və СУС (Сравнительный указатель сюжетов. Восточнославянская сказка, Л. 1979) süjet kataloqları əsasında tərtib olunub.

Göstəricidə istifadə olunan şərti işarələr:

Üstəgəl işarəsi (+) ilə müxtəlif süjetlərin eyni nağıl daxilində kontaminasiya olunduğu göstərilib. Bu zaman sıfırın qarşısında bərabərlik işarəsi (=) qoymaqla (bu ancaq kontaminasiyalardan təşkil olunmuş nağıllara şamil edilir) bu rəqəm altında gedən süjetin qısa təsviri verilib. Bundan başqa, Aarne-Andreyev və СУС göstəricilərində süjetlərə bəzən fərqli nömrələr altında rast gəlinir. Bu cür hallarla qarşılaşdıqda bərabərlik işarəsindən istifadə etməklə süjetin hər iki kataloqdakı nömrəsi verilib. Kataloqlarda rast gəlinməyən süjetlər sıfır işarəsi (0) ilə verilib.

Adamyeyən qız - AA*313 II= СУС 313 J*

Tüklücə - AA 402+ AA 400 A +AA 449 A

Qaraçuxasını axtaran kişi - AA 460B

Gülü Qah - Qahın nağılı - AA 465 C

Nargilə - 0

Fatma - AA 480 B = СУС 480

Göyçək Fatma - AA 450

Aslan balası - AA 513 A+0

Dərvişin nağılı - AA 516+0

0 = keçəl əyninə qız paltarı geyinib Misir padşahının oğluna ərə gedir; oğlanın bacısını inandırır ki, qız uşağı göydən asılan toyuğu ayağı ilə vurub salsa dönüb oğlan olar; onu qaçırdır.

Keçəl Nəzər - AA 545 B

Tülküynən dəyirmançı - AA 545 B

Ovçu Pirim - AA 670+0

0 = Ovçu Pirim keçi dərisinə bürünüb yatmış oğlunu vurur.

İtin payı - AA 750 B

Padşahla balıqçı - AA* 671 I= СУС 671E* +0+0

0 = quş padşahın içmək istədiyi suyu vurub dağıdır; padşah onu öldürür; suyun zəhərli olduğunu biləndən sonra tutduğu işə peşman olur.

0 = quş padşah üçün qeyri-adi alma toxumu gətirir; bağban toxu-

mu əkir; ağacın meyvəsindən padşaha nübar aparır; vəzir meyvəni zəhərlisi ilə dəyişdirir; padşah onu aldatdığını güman edib quşu öldürür; həqiqəti biləndən sonra peşman olur.

Məhəmməd Pəri - AA 707
Darının nağılı - AA 327 C
Boranının nağılı AA 715= СУС 715 A
Peyğəmbərlə üç yolçu - 0
Xeyirxah qocanın nağılı - 0
İbadət və səxavət - 0
Səxavət - СУС 761 A*
Üç qız - СУС 828***
Qismət Allahdandır - AA 841
Süleyman və bayquş - AA* 981 I = СУС 983*
Süleyman və qarı - 0
Elyas peyğəmbər - 0
Əzrayılın kirvəliyi - AA 332
Əzrayılın kələyi - AA 199
Əzrayılın ədaləti - 0
Belə də qalmaz- 0
Kasıb oğlanla padşahın nağılı - AA 881
Səmərqənd padşahının qızı - 0
Şah Abbasla keçəl - 0
Şah Abbasla Pinəçi Allahverdi - AA 910 C
Şah Abbasla vəzir Allahverdixan - AA 930 = СУС 461
Şah Abbas və üç oğru - 0
Şah Abbas və qoca - 0
Kasıb kişi ilə tacirin dostluğu - AA 736
Yumurta boyda buğda - 0
Üç söz - AA 910 B
Padşahla dəmirçi - AA 950+ AA 1737
Ekiz qardaşların nağılı - AA 1165*= СУС 1353+0
0 = keçəl inəyin qarnındakı buzovun əlamətlərini tapır.
Şahın tənbəl qızı - СУС 1370 A*
Ağıllı və axmaq nökər - 0
İki qardaş - AA*895= СУС 1426
Vəfasız qız - 0
Əlləmə - AA 1013+0+AA 1132+AA 1120
0 = öküzlər buynuzlarına qədər otun içində qalsın: keçəl heyva-

nların başını kəsib otun içinə qoyur.

Arvad şəri - 0+0

0 = kişi yer sürəndə şumdan balıq tapır, onları bişirmək üçün arvadına verir; arvad ərinin ona balıq verdiyini inkar edir; camaatı inandırır ki, əri dəli olub.

0 = arvad ərinə dərvişlə eyni otaqda yer salır; onların paltarlarını dəyişir; əri əynində dərvişin paltarını görüb elə zənn edir ki, arvadı onun əvəzinə dərvişi oyadıb.

Kəmsər - AA 1384+AA 1540

Çobanın duası - AA 1641

Qara Çəyirtkə - AA 1641

Keçəl və dayısı - AA 1725+AA 1380

Bu fırt o fırtdan deyil - AA 1730

Şirlə tülkü - AA 75

Dəyirmançının nağılı - AA 159

Tülkü babasından qoz oğurlayır - AA 210 A

Dəvə, tülkü və qurd - 0

Qəza toru - 0

***(Nağılların süjet göstəricisinin tərtibçisi: İ.Rüstəmzadə)***

# MÜNDƏRİCAT

**AFA**.......................................................................................3
**Redaktordan (H.İsmayılov)**.............................................................5
**Ön söz (Ə.Əsgər)**...........................................................................13

**I. MİFLƏR, ƏFSANƏLƏR, RƏVAYƏTLƏR, XATİRƏLƏR.**
Yerlə göyün yaranması..........................................................29
Ay.......................................................................................30
Karvanqıran ulduzu.............................................................30
Dünyanın kəsirləri................................................................30
Novruz bayramı....................................................................30
Ağacların səcdəsi..................................................................31
Qarının günləri.....................................................................31
Bəhlul Danəndənin üç səhvi.................................................32
Göydən gələn qurbanlıq qoç................................................32
İbrahim peyğəmbərin qarğışı...............................................33
Peyğəmbərlə ahular..............................................................35
Ardıc....................................................................................36
Ardıc və kəklik.....................................................................36
Kəklik...................................................................................36
Dillərin yaranması................................................................36
Gön arxası, yoxsa köşə arxası?............................................37
Üç bacı qəbristanlıqları.........................................................37
Ana laylası............................................................................37
Qardaş məhəbbəti..................................................................38
Şeytan fəhlələri.....................................................................38
Humay qayası........................................................................39
Daş hərəmi – hərəm daşı.......................................................39
Kəhərdaşı...............................................................................39
Çoban daşı.............................................................................39
Qoç daşı.................................................................................39
Qırxlar piri.............................................................................40
Öküz piri................................................................................40
Cavanşir atanın gümbəzi.......................................................41
Məlik Əjdər gümbəzi............................................................41
Qarağaşlı gümbəzi.................................................................42
At irizinin piri........................................................................42
Ağ yalın piri...........................................................................42

Oğlannıca piri....................................................................42
Qatırın ziyarəti....................................................................43
Mazannənə..........................................................................43
Buğakər...............................................................................43
Ovçu pirim...........................................................................44
Ombadurma..........................................................................46
Qədim dəfn adəti və ölümün yaranması...............................46
Gümuluq pəhləvan...............................................................48
Qarağaşlı gümbəzi...............................................................49
Qala qayası..........................................................................49
Araz çayını adlayan adam....................................................50
Təkgöz div...........................................................................50
Koroğlu arşını......................................................................50
Koroğlu daşı........................................................................51
Həzrət Əli və Salsal pəhləvan..............................................51
Sultanbud gümbəzi..............................................................52
Qız qəbri.............................................................................53
Torpaq təpə.........................................................................53
Sarı təpənin yaranması........................................................53
Sınıq körpü.........................................................................53
Qız qalası............................................................................54
Xudafərin............................................................................56
Xudafərin suyunun şəfası....................................................56
Kəsik baş günbəzi...............................................................56
Üç qardaşın dağı.................................................................57
Cəbrayıl Ata ocağı (Cəbrayıl rayonu)..................................57
Ağ oğlan, Comatıl, Seyid Baba (Sarı Seyid) ocaqları
(Cəbrayıl rayonu)..........................................................57
Seyid Baba (Cəbrayıl rayonu)..............................................57
Cəbrayıl Ata, Ağ oğlan, Comatıl ocaqları............................58
Tup-Tup piri.........................................................................58
Nəzir bulağı.........................................................................58
Hal.......................................................................................59
Qurdadönmə........................................................................67
Qaraçuxa.............................................................................69
Cin yığnağı..........................................................................71
Cinin tutulması....................................................................72

## II. SƏNƏT TAPINAQLARI

Sofu, Çələbi, Seyid..............................................................73

Ocaqların yarışı və möcüzələri....................................................78
Vergili adamlar...........................................................................80

## III. MƏRASİMLƏR, OVSUNLAR

Şaman mərasimi (Tas qurma)......................................................83
Qurdağzı bağlama.......................................................................85
İlan ovsunu................................................................................87
Dolu ovsunu...............................................................................87
Tarla ovsunu (Oxçu)..................................................................87
Uşağı xəlbirdə gəzdirmə............................................................87
Seyidin övlad verməsi və uşağın qorunması..............................88
Zahının üznüyünü alma..............................................................89
Qorxu götürmə...........................................................................89
Sancı götürmə.............................................................................89

## IV. MƏRASİM NƏĞMƏLƏRİ

Günəşin çağırılması (Qodu-qodu)...............................................90
Yel Əlli......................................................................................90
Xıdır Nəbi..................................................................................91
Sayaçı sözləri.............................................................................92

## V. PİRLƏR VƏ OCAQLAR HAQQINDA MƏTNLƏR

Göbəkdaş...................................................................................94
Dəlikdaş piri...............................................................................94
Hasar..........................................................................................94
Deşikdaş.....................................................................................94
Sandıq daş..................................................................................94
Pir ağac......................................................................................95
Seyid Hüseyn ağanın qəbri........................................................95
Ağac ehsanı................................................................................95
Qaratikan kolu............................................................................95
Tut piri.......................................................................................95
Tut piri – Kərimin ağacı.............................................................95
Yel ocağı...................................................................................96
Diş ağacı....................................................................................96
İşıqlı dağının piri........................................................................96
Sümüklü pir...............................................................................97
Qara pir......................................................................................97
Şəhidlər daşı..............................................................................97
Dağdağan piri.............................................................................97

Xustubun dağı....................................................................97
Koroğlu daşı....................................................................98
Fal daşı....................................................................98
Ziyarət dağı....................................................................98
Tumas ata....................................................................98
Düldül piri....................................................................98
Dalax daşı....................................................................98

**VI. MİFOLOJİ VƏ ETNOQRAFİK MƏTNLƏR....................99**
**VII. YUXUYOZMALAR....................................................111**
**VIII. ANDLAR....................................................112**
**IX. ALQIŞLAR....................................................113**
**X. QARĞIŞLAR....................................................116**
**XI. NAĞILLAR....................................................120**
Adamyeyən qız....................................................................120
Tüklücə....................................................................121
Qaraçuxasını axtaran kişi....................................................................130
Gülü qah-qahın nağılı....................................................................134
Nargilə....................................................................140
Fatmanın nağılı....................................................................141
Göyçək Fatma....................................................................144
Aslan balası....................................................................147
Dərvişin nağılı....................................................................150
Keçəl Nəzər....................................................................161
Tülküynən dəyirmançı....................................................................166
Ovçu Pirim....................................................................170
İtin payı....................................................................171
Padşahla balıqçı....................................................................172
Məhəmmədlə Pəri....................................................................179
Darının nağılı....................................................................186
Boranının nağılı....................................................................188
Peyğəmbərlə üç yolçu....................................................................189
Xeyirxah qocanın nağılı....................................................................196
İbadət və səxavət....................................................................203
Səxavət....................................................................207
Üç qız....................................................................209
Qismət Allahdandır....................................................................221
Süleyman və bayquş....................................................................215
Süleyman peyğəmbərlə qarı....................................................................216
Elyas peyğəmbər....................................................................217

Əzrayılın kirvəliyi....................................................................218
Əzrayılın kələyi.......................................................................219
Əzrayılın ədaləti.......................................................................220
Belə də qalmaz.........................................................................222
Kasıb oğlanla padşah................................................................223
Səmərqənd padşahının qızı.......................................................236
Şah Abbasla keçəl.....................................................................260
Şah Abbasla pinəçi Allahverdi...................................................264
Şah Abbasla vəzir Allahverdi xan..............................................270
Şah Abbas və üç oğru...............................................................271
Şah Abbas və qoca....................................................................273
Kasıb kişi ilə tacirin dostluğu.....................................................276
Yumurta boyda buğda...............................................................277
Üç söz.......................................................................................279
Padşahla dəmirçi......................................................................280
Ekiz qardaşların nağılı...............................................................288
Şahın tənbəl qızı.......................................................................292
Ağıllı və axmaq nökər...............................................................293
İki qardaş..................................................................................293
Vəfasız qız................................................................................295
Əlləmə......................................................................................296
Arvad şəri.................................................................................296
Kəmsərin nağılı.........................................................................300
Çobanın duası...........................................................................301
Qara çəyirtkə............................................................................303
Keçəl və dayısı..........................................................................305
Bu fırt o fırtdan deyil.................................................................312
Şirlə tülkü.................................................................................313
Dəyirmançının nağılı..................................................................316
Tülkü babasından qoz oğurlayır.................................................317
Dəvə, tülkü və qurd...................................................................318
Qəza toru..................................................................................319

**XII. LƏTİFƏLƏR**

Çarıq........................................................................................321
Sən nə vermisən?.......................................................................321
Keçi..........................................................................................322
Bir-bir çıxırıq............................................................................322
Xəncər əhvalatı..........................................................................322
Ölən yoxdu................................................................................322

Sənin kimi cır olub....................................................................323
Danaları yatap apardılar...................................................................323
İşləməyən dişləməz..........................................................................323
Əvvəl tut ək, sonra uşaq...................................................................323
Heç dəllək də bu qələti eləməz..........................................................324
Pişik ölər ağlarsan...........................................................................324
Cibində heç pul varıydı?...................................................................324
Doşabın dadsızıydı...........................................................................325
Qarının toyu.....................................................................................325
Göy gözlərim görməz........................................................................326
Tarf və Terf əhvalatı..........................................................................326
Mat qalmışam...................................................................................327
Adamın pisi......................................................................................327
Adamın pisi, qabın pisi, heyvanın pisi...............................................328
İnsan çat verərdi...............................................................................328
Cücəni sağsağan aparıb.....................................................................328
Qara gün üçün saxlamışam................................................................329
Bədrəng adam...................................................................................329
Adım yadımdan çıxıb........................................................................330
Nəzrimi ver......................................................................................330
Yemişin kalı.....................................................................................330
Dağdan aşarsan, pəri!........................................................................331
Bıldır-bıldır göz yaşı.........................................................................331
Sən allah, bura haradır?.....................................................................332
Dünyada ən hörmətli yer...................................................................332
Duzsuz halva....................................................................................332
Yenə küsülü olaq...............................................................................332
Loğmanla şəyirdin əhvalatı................................................................333
Hamısını keçdim uşaqlarına...............................................................333
Mən kimə oxşayıram?........................................................................334
Qonaq bir il burdadı..........................................................................335
Dərviş narazı qalmaz.........................................................................335
Tənbəki satan....................................................................................336
Qarğış keçələ kar eləməz....................................................................336
Kor tutduğunu buraxmaz....................................................................337
Sənin vuruşun kor vuruşu deyil..........................................................337
Yetimə can-can deyən çox olar, çörək verən az..................................337
Tülkününkü Allaha qaldı....................................................................337
Xoşuna gəlirsə, bir də sallıyım..........................................................338
Pirə qurban demişəm.........................................................................338

Mən oğurlamışam..........339
Dolandırıb gətirdin?..........339
Hələ qardaşımı görəsiniz..........340
Sənin ağlın olsaydı..........340
Oynasan da, burcutma..........341
Gözümü niyə çıxardırsan?..........341
Çobanın duası..........342
Doqquzdan sonra haramdı..........323
İki ürək də bir deyil..........344
Qoyunu qoyun ayağından asarlar, keçinin keçi..........344
Altını üstünə çevirəcək..........344
Pay yığan dərviş..........345
Tayda dərz var döyməli..........345
Həmin dolmasan..........346
O da sənsən, yoluram..........346
Dünya necədir?..........348
Ayağı sudadır..........348
Ən yeməli şey..........349
Tüstüyə qızındım..........349
Can, yarımcan, zəhrimar..........350
Onu sən deyirsən..........350
Qızıl çəngəl-bıçaq əhvalatı..........351
Başına bir daş düşər..........352
Kasıbçılıqdan it qırxır..........353
Plov..........353
Bostan qoruqçusu..........354
Mən yalan deyə bilmərəm..........354
Xam göndürsə halal olu..........355
Aşıq Əhmədlə balabançı Firudun..........356
Mülki bəyin qonaqlığı..........358
Üç pəltək qız..........359
Bazarda hər şey od qiymətinədir..........359
Sən yediyin kimi..........359
Gilası bir-bir yeyəllər..........360
Dostunu itirəcəydin..........360
Şah Abbas və vəziri..........361
Padşahla vəziri..........361
Gedənə yanma, deyilənə inanma..........362
Xanın öz qızlarını yoxlaması..........362
Çobanın qurd saxlaması..........363

Öz çırağımı söndürüb sənin çırağını yandırıram.................363

**XIII. ATALAR SÖZLƏRİ, ZƏRBİ-MƏSƏLLƏR..................364**
**XIV. TAPMACALAR..................................................368**
**XV. BAYATILAR.......................................................375**
**XVI. AŞIQLAR VƏ EL ŞAİRLƏRİ.........................................400**
Sarı Aşıq..........................................................................400
Sarı Aşığın bayatıları............................................412
Aşıq Mahmud......................................................................416
Şair Məmməd və qardaşı Süleyman..................................419
Qarağaşlı Süleyman və qardaşı Əliş..................................422
Uzun Əsəd.........................................................................424
Çoban Əli..........................................................................425
Şıx Məhəmməd...................................................................426
Şair Abış...........................................................................426
Əbdül Səməd bəy və Aşıq Bəbir........................................427

**XVII. UŞAQ FOLKLORU**
Sicilləmə..........................................................................428
Sanama............................................................................428
**Oyunlar**
Ağac ölçmə...........................................................429
Həbə köçdü...........................................................429
Südlü sümük..........................................................429
Mərə köçdü...........................................................430
Üzük-üzük.............................................................430
Rəng-rəng.............................................................431

**Şəxs adları, mifoloji personajlar və folklor qəhrəmanları......432**
**Söyləyicilər haqqında ümumi məlumat..................................438**
**Mətnlər, söyləyicilər, toplayıcılar.............................................444**
**Nağılların süjet göstəricisi.....................................................453**

**Azərbaycan folkloru antologiyası,**
**IX kitab, (Zəngəzur folkloru),**
Bakı, “Səda“ nəşriyyatı, 2005.

***Nəşriyyat direktoru:***
***Elşən Hətəmzadə***

**Kompüterdə yığdı:**
***Ru□əngiz Əfəndiyeva***
***Sevinc Bəhlulova***

**Korrektor:**
***Tahir Orucov***

**Kompüter tərtibçisi və**
**texniki redaktoru:**
***Baxşəli Süleymanov***

Kağız formatı: 60/84 16/1
Mətbəə kağızı: №1
Həcmi: 30 ç/v
Tirajı: 500
Qiyməti müqavilə ilə.

Kitab “Səda” nəşriyyatında
ofset üsulu ilə çap olunmuşdur.